AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# QARABAĞ:
# FOLKLOR DA BİR TARİXDİR

## IX KİTAB

**(Beyləqan, İmişli, Tərtər, Bərdə və Cəbrayıl rayonlarından toplanmış folklor örnəkləri)**

**BAKI – 2014**

**“Qarabağ folklorunun toplanması, sistemləşdirilməsi və araşdırılması” adlı layihə əsasında çap olunur.**

**LAYİHƏNİN RƏHBƏRİ: AMEA-nın müxbir üzvü, fil.ü.e.d. Muxtar KAZIMOĞLU (İMANOV)**

**TOPLAYIB TƏRTİB EDƏN VƏ SÜJET GÖSTƏRİCİSİNİN MÜƏLLİFİ: fil.ü.f.d. İlkin RÜSTƏMZADƏ**

**REDAKTOR: fil.ü.f.d. Elçin ABBASOV**

**NƏŞRİNƏ MƏSUL: fil.ü.f.d. Əziz ƏLƏKBƏRLİ**

**Qarabağ: folklor da bir tarixdir, IX kitab (Beyləqan, İmişli, Tərtər, Bərdə və Cəbrayıl rayonlarından toplanmış folklor örnəkləri)**. Bakı, “Elm və təhsil”, 2014.

Folklorinstitutu.com

İSBN – 9-789952-810851

Q 4603000000 / N-098-2014 Qrifli nəşr

© Folklor İnstitutu, 2014

# TƏRTİBÇİDƏN

Bu cildə daxil edilmiş materialların böyük əksəriyyəti Beyləqan və İmişli rayonunda məskunlaşmış tərəkəmə camaatından toplanıb. Bölgədə iki böyük tayfa məskunlaşıb: təhlə və muğanlı. Bu ərazidəki təhlə camaatı özünü qara təhlə və ya çöl təhlə adlandırır. Yerli sakinlər təhlənin iyirmi qolu olduğunu söyləyirlər. Həmin qollar bunlardır: aşıqlı, eyvazalılar, tatalılar, əlnəzərli, binnətli, sərxanlı, bulutlu, boşçallar, gödəklər, qaralılar, talıbxanlı, şahqulular, canqulular, əlqulular, əlpənahlı, murtulu, budaqlı. Bu kəndlərin ləhcə xüsusiyyətləri də bir-birinə yaxınlığı ilə seçilir. Dodaq ahənginin möhkəmliyi, indiki zamanın *-er, -or, -ör* şəkilçiləri ilə ifadəsi, bir çox dialektoloji sözlər Qazax-Borçalı zonasına məxsus əhalinin danışığını xatırladır. Həmçinin, Qazax-Borçalı zonası üçün xarakterik bir çox süjetlərin variantlarına məhz bu bölgədə rast gəlinməsi bu fikri daha da gücləndirir. Əcdadlarla bağlı söylənən mətnlərdə də bu kəndlərdən əksəriyyətinin babalarının həmin zonadan gəldiyi öz təsdiqini tapır.

Bölgədə sayına görə ikinci böyük tayfa muğanlıdır. Özlərinin dediyinə görə, üç muğanlı tayfası var: Körpükənd muğanlısı, Qarqar muğanlısı və Vəlağa muğanlısı. Əslində bu əhalinin hamısı Xocavənd rayonundan çıxmadır. Yaşlı sakinlərin əcdadları ilə bağlı söylədikləri xatirələrdə deyilir ki, Çar Rusiyası dövründə erməni ailələrinin Qarabağda yerləşdirilməsi nəticəsində həmin tayfalar Xonaşendən (indiki Xocavənd rayonundan) çıxarılıb və bir qismi Ağcabədiyə, digər qismi Qarqar çayı sahilinə, böyük bir qismi isə Mil düzünə köçüb. İmişli rayonunda məskunlaşanlar özlərini Vəlağa muğanlısı adlandırırlar. Yerli sakinlərin dediyinə görə, Vəlağa muğanlısı on iki tirədən ibarətdir: məmmədli, əliyetməzli, telişli, allahmədətli, ağammədli, oruclu, axıcanlı, cəfərli, papaxçı, təmrəzli, hacı hüseynqulular, nurəhmədli. Muğanlı camaatının danışığı sırf Qarabağ ləhcəsidir və ədəbi dilə yaxınlığı ilə seçilir. Yerli sakinlərin özləri də ləhcələrinin ədəbi dilə ən yaxın ləhcə olduğunu vurğulayırlar.

Söhbət tərəkəmədən gedirsə, onların oturaq əhaliyə münasibəti maraq doğurmaya bilməz. Bunu nəzərə alıb, ezamiyyə dövründə bu amili diqqətdə saxlamağa, tez-tez onlara oturaq əhali ilə münasibətlərinə dair suallar verməyə çalışmışıq. Bölgəyə yaxınlığı ilə seçilən Saatlı rayonundan toplanmış lətifələrdə oturaq əhali tat adı ilə təqdim edildiyi halda, bu bölgədə ünsiyyətdə olduğumuz adamlardan yalnız bəziləri oturaq əhaliyə tat dediklərini təsdiqlədi. Əksəriyyət tatı daha çox milli mənsubiyyət bildirən söz kimi işlədir. Oturaq əhaliyə isə çox vaxt arazqıraxlı və ya onların yaşadığı kəndin və yerin adı ilə (yalavaclı, qalalı və s.) müraciət edirlər.

Bölgədən cin, hal anası, qaraçuxa kimi məlum mifoloji personajlarla yanaşı, Allah hoy kimi yeni personajlar aşkar edilib. Cinin keçi dönərgəsinin yer qulacı adlandırılmasına ilk dəfə bu bölgədə rast gəlirik. Bundan başqa, kitabda Hacı Qulu, Kalbay Kazım, Saday bəy, Qaçaq Məhəmməd kimi bölgənin məşhur adamları haqqında rəvayətlər də yer alıb.

Folklor örnəkləri ilə yanaşı, bölgənin etnik tərkibinə, etnoqrafiyasına dair məlumatları toplamaq, bununla da region barədə ümumi təsəvvür yaratmaq ezamiyyələr zamanı qarşıya qoyulan əsas məqsədlərdən biri idi. Bu baxımdan, təhlə və muğanlı elinə bağlı tayfaların öz tarixləri və adət-ənənələrinə dair verdiyi məlumatların oxucuların marağına səbəb olacağı qənaətindəyik. Bölgəyə ilk ezamiyyəmizin Novruz bayramı ərəfəsinə təsadüf etməsi və Novruz adət-ənənələrinin aktivliyi bu bayrama dair maraqlı nümunələrin yazıya alınmasına səbəb olub. Belə adətlərdən biri "Padşah oyunu"dur. Bu adətə Beyləqan rayonunun Günəşli kəndində rast gəldik. Həmin kəndin əhalisi keçən əsrin ortalarında dolanışıq dalınca Cəbrayılın Sirik kəndindən gələn ailələrdən ibarətdir. Vaxtilə Sirikdə böyük təmtəraqla qeyd etdikləri həmin adəti bu gün də yaşatmaqda davam edirlər. Kitabda kəndin yaşlı sakinlərinin "Padşah oyunu" haqqında verdiyi məlumatlar, həmçinin 2014-cü il martın 21-də kənddə keçirilən və bizim də iştirak etdiyimiz mərasimin təsviri verilib.

Kitabda 25 nağıl təqdim olunub. Həmin nağıllar tanış süjetlər əsasında qurulsa da, söyləyici təhkiyəsinə, variant xüsusiyyətlərinə

görə məlum nağıllardan xeyli fərqlənir. 460A (Bəxtin axtarılması), 760** (Ofsanata düşən tikə), 827* (Çobanın həcc ziyarəti), 834A (Kor canavarın qisməti), 930 (Yazıya pozu yoxdur) kimi geniş yayılmış süjetlərlə yanaşı, Qarabağdan ilk dəfə toplanan süjetlərə də təsadüf etmək mümkündür. Məsələn, 783* (Əsli hu), 934A (Üç ölüm), 1358B (Arvad aşnasını küpün içində gizlədir), 1736A (Kefdən qalmaz) süjetləri bu bölgədən ilk dəfə qeydə alınır. Bu nağıllar bölgə haqqında təsəvvürlərimizi dolğunlaşdırmaqla yanaşı, süjetlərin yayılma arealını müəyyən etmək baxımından da əhəmiyyət daşıyır.

Nağıldan bəhs edərkən, xatırlatmaq yerinə düşər ki, bölgəyə təşkil edilmiş ezamiyyələr həm də Abbas Mahmud oğlu Abbasov kimi maraqlı nağıl ustasını tapmağımızla əlamətdar olub. Biz ondan bir-birindən gözəl altı nağıl qeydə almışıq. Həmin nağıllar bəlli süjetlər əsasında qurulsa da, təhkiyəsinə, yeniliyinə görə ənənəvi variantlardan xeyli fərqlənir. Məsələn, "Üç ölüm" nağılının Azərbaycanda indiyə qədər ancaq bir variantı məlum idi, Abbas kişidən qeydə alınmış variant isə süjetin təhlilində mühüm rol oynayacaqdır. "İsgəndər Zülqərnə" nağılı isə kontaminasiya baxımından xüsusi maraq doğurur. Nağıl İsgəndərin şimala, cənuba, şərqə və qərbə səfər etməsi və başına gələn macəralardan bəhs edir. Söyləyici bu üsulla beş süjetin kontaminasiyasına nail olub və nəticədə bənzəri olmayan bir nağıl nümunəsi ortaya çıxıb.

Abbas Mahmud oğlu Abbasov 1938-ci ildə Cəbrayıl rayonunun Soltanlı kəndində dindar bir ailədə anadan olub. Babası Hacı Abbas həcc ziyarətində, ana babası məşhəd ziyarətində olub. Atası Mahmud kişi isə kəndin mollası olub. Dindar ailədə böyüdüyündən hələ kiçik yaşlarından dinə xüsusi maraq göstərib, babasından, atasından Quranın müəyyən surələrini öyrənib. 1958-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin ibtidai sinif müəllimliyi fakültəsinə qəbul olub. 1962-ci ildə ali təhsilini başa vurub Soltanlıya qayıdıb və 30 ildən artıq Soltanlı kəndində ibtidai sinif müəllimi işləyib. İxtisasının müəllim olmasına, səkkiz kəndin metodisti işləməsinə baxmayaraq, əhali arasında müəllimdən daha çox molla kimi tanınır. Ona görə də hamı onu Molla Abbas deyə çağırır. Abbas kişinin

dediyinə görə, atası dünyasını dəyişəndən sonra kənddə molla olmadığından yas yerlərinə gizlin gedib fatihə verər, Quran oxuyarmış. 1993-cü ildən sonra isə sərbəst mollalıq etməyə başlayıb. Danışdığı nağılları atasından eşidib. Güclü yaddaşı sayəsində bir dəfə eşitməklə onları yadında saxlaya bilib.

Abbas kişi indiyə qədər qarşılaşdığımız söyləyicilərdən fərqli olaraq, mətnə münasibətdə professional söyləyici kimi çıxış edir və mükəmməl bilmədiyi mətni qətiyyən söyləmir. Bu səbəbə görə ilk görüşdə ondan, demək olar ki, heç nə yazıya ala bilmədik. Uzun müddət ifa etmədiyindən bəzi nağılları unutduğunu və ya qismən xatırladığını bildirərək daha yaxşı hazırlaşmaq və nağılı tam yada sala bilmək üçün bizdən möhlət istədi. Növbəti görüşümüzdə ondan "İsgəndər Zülqərnə", "Üç vəsiyyət", "Abid və çoban" nağıllarını, bir neçə gündən sonra təkrar görüşümüz zamanı daha üç mətn – "Üç məsləhət", "Yetim oğlan" və "Üç ölüm" nağıllarını yazıya aldıq.

Kitabda, həmçinin Qarabağ layihəsi çərçivəsində toplanan nağılların süjet göstəricisi verilib. Göstərici üçillik toplama fəaliyyətinə yekun vurmaqla yanaşı, bölgədən qeydə alınmış süjetlərin əyani mənzərəsini yaradır. Layihə çərçivəsində bölgədən 350-dən artıq nağıl yazıya alınıb (Folklor İnstitutunun arxivində saxlanan və topluya daxil edilməmiş nağıllar istisna olmaqla), Əli Rəmdar oğlu Süleymanov, Musa Şükür oğlu Bayramov, Narış İsa qızı Bayramova kimi zəngin repertuara malik nağıl söyləyiciləri aşkaq edilib. Bölgədən 300 nağıl süjeti toplanıb ki, bunların da 39-u yeni nağıl süjetləridir. Bundan başqa, indiyə qədər bir və ya iki variantı məlum olan 40-dan artıq süjetin yeni variantları toplanıb. Söyləyicilərin tərkibinə diqqət yetirdikdə, kişilərin fəallığı diqqəti cəlb edir. Belə ki, nağıl yazıya alınmış 128 söyləyicinin 59 faizini kişi, 41 faizini qadın təşkil edir. Nağıl söyləyicilərinin böyük əksəriyyətini təhsili olmayan və ya orta təhsilli adamlar təşkil edir. Bölgədən yazıya alınmış nağılların 85 faizi məhz bu qrupa məxsus adamlardan toplanmışdır. Ən yaxşı nağıl söyləyicilərimizin də təhsilsiz və ya az təhsilli olmaları nağıl janrının bu qrup insanların repertuarı üçün xarakterik olduğunu söyləməyə əsas verir.

# MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏLƏR, RƏVAYƏTLƏR

## 1. QIZIL ÖKÜZ

Rəhmətlik mamam[1] ağlıyanda deyərdi ki,

Dəryada bir gül ağacı var,
O da su deyif ağlar.

Mən soruşdum ki, mama, o nə sözdü? Həm deyirsən dəryada bir gül var, həm də deyirsən su deyif ağlar. Dedi:

– Bala, bu dünya bir qızıl öküzün üstündə duruf. Əgər o öküzün bir dənə tükü dəbərsə, bu dünya həmən gün alt-üst ola bilər. Öküzün belində bir gül ağacı var, onun da üstündə bir saj var. Dünyada nə qədər su var, hamısı həmən o sajın içinə axır. O saj, deyir, qızıl pul kimi qıpqırmızıdı. Hələ o su sajı doyurmuyuf. O saj sudan doya ki, gülə su gedə.

## 2. ALLAHIN AD PAYLAMASI

Allah bir gün ad paylıyırmış. Siftə müsəlmanı çağırır. Müsəlman getmiyif, rus gedif. Rus deyif:

– Mənimçün qulluğ?

Deyif:

– Qulluğu verdim saa, yer get.

Sabah yenə müsəlmanı çağırır. Müsəlman getmiyif, erməni gedif. Deyif:

– A Astos, başına dönüm, maa nə peşə?

Deyif:

– Peşəni də verdim sana, yer get.

Soora müsəlman gedif.

Allah deyif:

– Ə, səni sırağaynan çağırıram, niyə gəlmirsən?

---

[1] Mama – bibi

Deyif:

– Başına dönüm Allah, yaman işim vardı. Yarımçıq qoyuf gələ bilmədim.

Deyif:

– Yer get, işi də verdim sana. Get işdə, canınnan əlləş.

## 3-6. QULEYBANI

Mən quleybanini bir neçə dəfə görmüşəm. Bıtraxlı bir qadın idi, bədəni çılpax idi, tük basmışdı. Başının tükün bıtrax elə tutmuşdu ki... Saçı da yernən gederdi. Canavardan qorxordu, bizə səmt gəlerdi, biz də onnan qorxordux. Özü də yol qırağında olur. Bir dəfə Abbas nəsə bir iş törətmişdi. Məni çağırmışdı ki, gəl mənnən prakrorun yanına gedək. Göbələyin[2] yanınnan gedirdik. O (quleybani – top.) bizdən əl çəkmədi. İki də canavar vardı. Biz canavarı da görördük, bir az gəyən qarannığ[3] idi. O, qorxusunnan bizə səmt gəlerdi ki, canavar bunu tutmasın, biz də onnan qorxordux. Abbas kişi çığırdı ki, bizi canavar yeyir, köməyə gəlin. Bir tüfəy atdılar, canavarrar aralandı. Onnan bir neçə gün soora buralarda qoyun otarırdıx. Bir dəfə getdik ki, başının tükləri qalıf, bir də topuğunun, boynunun sümüyü qalıf. Qalan hissəsini canavar yeyif.

### 4.

Dağlarda "Allah, hoy, Allah, hoy" deyə-deyə gəzir. Bir dəfə dağda qoyun otarırdıq. Alaçıxda idik. Çoban yoldaşım gəldi dedi ki, ə, bu Allah hoy gəlif buralarda hərrəner. Qorxurdux deyə ona yaxın gedə bilmerdik. Biz burda oturordux, o da orda. Çörəyi qoyordux daşın üstünə, gəlif görördük çörək yoxdu, yeyif.

### 5.

Mən heyvan otaranda onu tez-tez görürdüm. Canavar görəndə qaçıf adama pənah gətirerdi. Elə bircə deyirdi «Allah, hoy, Allah,

---

[2] Beyləqan rayonunda yer adı.

[3] Gəyən qaranlıq – alatoranlıq

hoy». Neçə dəfə görmüşəmsə, həmmişə "Allah, hoy" deyifdi. Qorxuf sənə pənah gətirəndə heylə deyirdi.

Paşa addı bir yoldaşım vardı, mal otarırdıx. Çörək götürmüşdüm ki, elə orda yeyək. Dedim, ə, surfa salım, gəl çörək yeyək. Dedi, qoy mən çölə çıxım, gələrəm. Getdi, bir azdan qayıtdı ki, ə, buna bax ey. Dedim, ə, nədi? Dedi, "Allah, hoy" eliyən burdadı. Dedim, ə, buralarda canavar var, o bizə pənah gətirer, qorxma onnan. Dırnaxları o qədər uzunuydu ki, hara vursa, elə ordan deşif çıxarmış. Əynində heç nəyi yoxuydu. Sallax döşü vardı. Oturordu, pıtraxların təmizzerdi. Canavar buna təpinerdi ki, bunu yiyə. Özün soxordu pıtraxlığa. Biz onnan qorxmordux. Bilirdik ki, bu adamyeyən döylü. Gözü həmişə bizə baxerdi. Qorxumuzdan çörəyi aparıf onun qabağına qoyammırdıx, qoyordux daşın üstünə, çıxıf gederdik. Bir azdan soora gəlif görördük çörək yoxdu. Elə bizim dalımıza düşüf gəlif obanın böyründə yaterdi. İt nəfəsi olan yerdə yaterdi ki, it bunu qorusun. İt canavara hürürdü, amma ona hürmürdü.

**6.**

Biz dağda əsgərlikdə olanda gəlif kazarmanı daşdıyırdı. Görürdük şappaşap daş yağır. Səhər açılanda çıxerdik, axtarerdik, daş nə gəzerdi. Soora kamandirlər çıxdılar, dedilər ki, görək bu nədi? Kəşfiyyatın kamandir rotası vardı. O, deyir, mən düşdüm onun dalına, ağzı yuxarı qaçırdı. Yoxuşa qalxanda ayağımı daşın üstünə qoyanda daşın üstü də mamır bağlıyıf, mən sürüşdüm yıxıldım. Qayıtdı əlini uzatdı məni qalxızdı, soora çıxdı getdi. Dedi, tüklü adam idi, özü də çılpax idi.

O cür hər axşam kazarmanın şiferin gəlif takqıldadırdı. Elə bil onnan zövq alırdı.

## 7-8. YER QULACI

Ana babam danışerdi. Bir dəfə kəndə yaxınnaşanda görör bir keçi balası var. Deyif, səni, bu, obadan qalıf ey. Atın üstünnən əyilir, bunu götürür qoyur qucağına. Buynuzdu balaca çəpiş imiş. Kəndə

çatanda görör at getmer, iniller. Geri baxır ki, birdən atı daldan canavar tutar. Görör yox, çəpiş dal ayağıynan qarmalıyıf yeri, bunu öldürmək isteer. Tez xançalı çıxardır, başınnan vuror qarnın cırer, tullor yerə, gəler. Qabağına Hajı Heydər çıxer. Deyir:

– Ə, qorxmusan, nədi?

Deyir:

– Hajı Heydər, hal-qəziyyə belə-belə.

Deyif:

– Ə, o yer qulacıdı, keçi balasına oxşuyur. Nə yaxşı səni sürüyüf öldürmüyüf?

Deyir:

– Bəs, cəld tərpəndim.

**8.**

Dəyirmanda dəyirmançı işdiyirdim. Bərdəyə bazara gedəjeydim, qoyun aparajaydım. Axşam nobatçıları yığdım, olara tapşırığımı verdim, çıxdım gəldim. Gejə saat üç-dörd olardı. Gəldiyim yerdə gördüm ki, Göbələkdən bir az yuxarıda yolun qırağında bir pişik var. Gəldi mana sürtündü. Dedim, Allahın heyvanı, nağarırsan? Xeylağ gələnnən soora gördüm çiynimdədi. Göbələkdən bir xeylağ bəri keçəndə gördüm bu ağırrıx eleer mana. Dedim, əşi, gederem dana, görək nətər olajax. Onda bildim ki, bu ayrı şeydi. Bir xeylax gələnnən soora gördüm bunun qılçaları uzanıfdı, ağzın da qoyuf çiynimə. Qıçımı bir yerə yığıf məni yıxmaq istiyir. Get-gedə nəfəsim kəsilerdi. Ağzını üzümə sürtör, boğazıma sürtör. Gözdörəm ki, havaxt boğazımnan tutajax. Fermaya çatanda gördüm məni üstəliyir. Bir gobud səs çıxardım. Səs çıxardanda Cümşüd dayımın öyü ordoydu. İt qalxdı. İt mana çatanda bu belimnən düşür, it də düşür bunun dalına. Amma ora çatana qədər ayağıynan üç dəfə məni qamarrıyıf yıxmağa çalışdı. Burda Əhməd kişi vardı. Dedi, o goreşən kimi bir şeydi. Hər şəkilə düşə bilir. Nə yaxşı onnan salamat çıxıfsan? Dedim, nə bilim. Mən onu pişik bilmişəm. Mən onnan azad olannan soora bir saata yaxın orda qaldım. Həyəcannan, onun ağırrığınnan o dərəcə tərləmişdim ki, elə bil məni suya salıf çıxardıfsan.

## 9-12. QARAÇUXA

Dədəm deyir ki, filan yerdə qoyun otarerdim. Yorğunuydum, elə mürgüləmişdim. Bir də gördüm kimsə çağırır ki, ay Baxış, qoyun getdi. Ay Baxış, qoyun getdi. Durdum ki, heyvan yoxdu. Neçə bərəni aşıb gedif güjnən tapmışam. Demə, qaraçuxam məni oyaderdi.

Payızdaxda olordux. Onda da qoyun elə arxaşda yatışardı. Biz də uşağıydıx. Gejənin bir aləmi görürdük dədəm deyir, hey, hey. Elə bil kimsə çağırır, bu ona hay verir. Tez durordux ki, dədə, kim çağırer? Deyirdi, ay bala, məni çağırellar. Ayağa durordux ki, qoyun gedif. Dədəm deyirdi, məni oyadam qaraçuxamdı.

**10.**

Telli Həsən bizdə (Tatalılarda – top.) kalxoz sədri oluf. Onun özünün xüsusi heyvanı oluf. Bir çoban da, – bizə qohumluğu da çater, – bunun heyvanın otarermış. Çoban bir gecə qalxer ki, qoyun yoxdu. Hay saler ki, sürü yoxdu. Durollar, gəzellər aana-baana. Səhərə yaxın həmən çoban qoyunu taper. Qoyuna yaxınnaşanda görör ki, qoyunun içində qara yapıncı da çiynində bir kişi var. Bu baxır ki, elə Həsən kişi özüdü. Ona oxşader da. Geder, geder, qoyuna çatanda görör ki, kişi yox oldu. Hərrəner aana-baana: "Balam, bu kişi nejoldu, hara getdi?" Qoyunu yığır gətirer. Kişidən soruşor ki, bəs sən orda qoyunun içindəydin. Nejoldun, haraya getdin ki, səni tapmadım?

Deyir:

– Nədi?

Deyir:

– Getdim ki, qoyunun içində yapıncı çiynində gəzinersən.

Deyir:

– O mən döyüldüm, mən getməmişdim. O mənim qaraçuxamdı, orda qoyunu salamat saxlıyıb.

Sürünü gətirer, qoyunun birin də qaraçuxasının ehsanına kəser.

## 11.

Qırx üçüncü il idi. Babam maa dedi ki, subay qoyunun içində qal. Axşamları çox qoyun doğdu. Sulux bişirdih, yedih. Gejə yatdıx. Bir zaman durdux ki, doğan qoyunlar balasının yanında qalıf, qalan qoyunlar hamısı qaçıf. Öyün üstünə bir çırax qoydular. Dedilər, hərəmiz bir tərəfə gedək, kim qoyunları tapsa, bu işığa gəlsin. Maa dedilər ki, sənin itdərin qoyunnan gedif. Oları səslə, bəlkə sənə hay verələr. Nəysə, çağırdım, heyvannar çox uzaqlaşmışdı deyə itlər gəlmədi. Üş nəfər idik, hərəmiz bir istiqamətə getdik. Bir də gördüm ki, qancıx gəldi ayağıma dəydi, getdi. Bunun istiqamətiynən mən də getdim. Getdim ki, babam qoyunun içindədi. Babamdan hamımız qorxurdux, bir söz deyə bilmirdik. Qoyunun bir tərəfin mən yığdım, bir tərəfin bu kişi yığdı. Sən demə bu qaraçuxaymış. Qoyunu gətdim arxaca. Mən nə hərəkət elerəm, bu da heylə eler. Mən çatan kimi çırağı aşağı düşürdüm. Yoldaşdarım da bildi ki, qoyun tapıldı, olar da qayıtdılar. Maa dedilər, nejoldu qoyunu tapdın? Dedim ki, getdim ki, Ələsgər babam qoyunun içindədi. Əslində, Ələsgər babam həmin gün evdə oluf, qoyunu qaytaran onun çeşnisi oluf, qaraçuxası.

## 12.

Peyğəmbərin[4] yanı babam Maşadı Allahyarın yeri oluf. Qoja nənəm söhbət eliyirdi ki, Maşadı Allahyarın erkək sürüsü gejə ağıldan qaçıf. Bir neçə gün gəziflər, sürünü tapmıyıflar. Kişi hər gejə yuxusunda qaraçuxasını görörmüş. Görörmüş ki, qaraçuxası yatıf. Səhər duruf deyirmiş, ovala, mənim qaraçuxam yatıf hələ. Bir səhər də deyir ki, ayağına vurdum, qaraçuxam oyandı, amma ayağa qalxmadı. Bir səhər də deyir ki, ovala, qaraçuxam bu gejə oyandı, mənim sürüm tapılajax. Ağacı aldı çiyninə, getdi.

Erkək sürüsünün çobanları göröllər ki, bir çoban qoyunu xama buraxıfdı. Söyə-söyə gediflər. Buna yaxınnaşanda görüflər yoxa çıxdı. Görüllər özlərinin erkək sürüsüdü. Sanıyıllar, biri də kəm olmur.

Qaraçuxa düzdü, var. Hər adna axşamı gərək qaraçuxaya ehsan verəsən, dara düşəndə onun adına Quran oxudasan.

---

[4] Cərciz peyğəmbərin kümbəzi nəzərdə tutulur.

## 13-14. CİN

Nənəm söylüyürdü ki, otuz-qırx atımız vardı. İçində də göy ürgə vardı. Hər axşam nökər atları qapıya gətirəndə at qan-tərin içində gəlerdi. Babam Fətullah kişiyə deyir ki, vəziyyət bu yerdədi: atın irtməyi hörülür, saçı hörülür, qan-tərin içində gəler. Deyir, Salman, atını cinnər minir. Qırı ərit, sürt belinə.

Nənəm deyirdi, Əhmədalı kişi axşam atı gətirəndə gördük atın üstə qız uşağı, yapışıb qıra. Bunu qırdan azad elədik. Fətullah kişi dedi ki, Xannisə, iynə sanc üstünə. Nənəm gətdi iki-üç iynəni sancdı üstünə. Gördüm, deyir, həmlidi. Çörəyi bişirer, qutarmır. “Suya tez get” deyəndə gej gəler, “gej get” deyəndə tez gəler.

Bir dəfə suya gedəndə öz yığnaxları düşər bunun üstünə. Deyəllər öyə çatanda çığır deynən ayağıma tikan batıb. Öydəki arvad dunuxdu[5]. Üstünnən iynəni çəkif tikanı çıxardanda sən qaç.

Nənəm, deyir, suyu gətdi, uşax da yüyrükdə, babam yüyrüyür. Gəldi sənəyi yerə qoyan kimi çığırdı. Dedim, aaz, nədi? Dedi, ayağıma tikan batıf. Mənim axlıma nə gəlir. Bunun üstünnən iynəni çıxardanda gördüm bu yoxdu.

– A kişi, uşağı, a kişi, uşağı tut.

Kişi onda qalxar ki, evdə uşaq nə gəzer.

Nənəmgil də gəvə toxuyanmış. Bular (cinlər – top.) gələr gejə bizim gəvəmizi sökər. Babamızın qaynı varmış, buna ismarış eliyillər. Gətdi, deyir, ojax qaladı, iki şiş qoydu ojağa. Gəvə tərəfə başın qoydu. Bular gejə gəldi muncuğu çıxartdı xanadan asdı, başdadılar hananı sökməyə. Şiş də qızarıf. Hərəsinin yanbızına şişnən vuruf yandırer, bular duruf qaçanda muncuq qaleır burda. Gedif ordan çağırellar nənəmi ki,

Yandı yanım, yançağım,
Hanada qaldı muncuğum.

Görüllər muncuğu hanada qalıb. Kişiyə orda and içellər ki, sizin yeddi arxa dönənizə toxunmuyajağıx, bizi buraxın gedək. Elə onnan da çıxıf gedellər.

---
[5] Dunux – key

## 14.

Belə danışıllar ki, bir adam Söydümallar körpüsünnən addıyıf gəler. Möhkəm də ajıfmış. Deyir ki, mən çörək də götürmədim. Körpüdən bəri keçəndə görör ki, burda surfa sərilif o baş-bu baş. Yemək o qədərdi ki. Düşör, atın bağler. Surfa da sərilif, hər şey də üstündə var. Bizdər əlimizi çörəyə uzadanda "pismillah" deyirik axı. Elə bardaşqurma oturor, əlin uzadıf "pismillah" deyəndə bir də baxer ki, heş nə yoxdu. Deyir:

– Sən öl, bu cin yığnağıdı.

Duror, nə ajdıx yadına düşör, nə susuzdux. Atı miner, qoyur üsdə ey. Gedif öydə deyir hal-qəziyə belə-belə. Deyiflər:

– Hə, yaxşı ki "pismillah" demisən. Əgər onların tamınnan dadsaydın, olara qoşuluf gedərdin.

## 15-19. HAL ANASI

Mənim ana babam tutuf halı, barmağın da kəsif. Zənənnərin bəziləri ağır doğanda çağırerdılar, hal barmağın aparerdi, uşaqdan azad olordu. Bir dəfə Şirvan tayınnan gəlermiş atdı. Ağgöl deyirik, oroynan gəlermiş. Çox da ürəkli adammış. Üstündə xançalı olormuş. Görör səs-küy var: haldı, üç də uşağı, ojax qalıyıflar. Hal babamı görör, bu tərəfdən hərrəner ki, qabağın kəsə, tuta. Babam tez atdan düşür, atı bağler. Xançalı çıxardır, haldan geri addıyıf orda yerə sinir. Hal çıxer yola ki, aana-baana baxa. Babam daldan sıçreer bunun döşdərinnən tutor. Hal görör baho, vəziyyət ağırdı. Ay and belə, Quran belə, sənnən işim yoxdu, məni burax. Deyir:

– Yox, barmağının birin kəsif səni buraxajam.

Baş barmağını kəser, buraxır. O da çığıra-çığıra çıxıf geder. Babam halın kəsilmiş barmağın deşmişdi, boğazına taxerdi. Xəstə olanda çağırerdilər, aparerdi üstünə.

## 16.

Əhmadalı kişi vardı, kalxozun malına gederdi. Bunun arvadının ağrısı tutar. Uşağı olordu. Arvadının anasına ismarış eliyillər,

gəler qızının yanına uşağı tutmağa. Bunun bir cüt ekiz uşağı olor. Xeylax da uşağları var. Bir azdan soora uşaxlar çığrışer. Nənələri deyir:

– Ay bala, niyə çığrışersiz?

Deyillər:

– Ay nənə, ora bax ey.

Görör bir balaca dəvə balasıdı. Qapıdan girdi, yatdı zahının ayağı altında. Arvad daşı götürör, bunun alnının arasına vurur ki, çıx burdan. Çıxer çölə. Əhmədalı kişi deyir:

– Arvad, o nə idi heylə?

Deyir:

– Heş zad, neynirsən?

Deyir:

– Axı ağlıya-ağlıya getdi o kim idisə.

Deyir:

– Belə iş vardı, vurdum getdi.

O hal idi. Köşək şəklində gəlif, girif qapıdan zahının ürəyin çıxartmağa. Arvad daşnan vurmasaydı, gəlini öldürəjəydi.

**17.**

Mənim böyük anamın babası hal tutufmuş. Zahı qadınları sancı tutanda, gedif arvadın yaylığın gətirif onun başına bağlıyardılar. Onda qadına heş nə olmazdı. Bir də görürdün qadın halsız oldu. Tez qapını açırdılar, üzünə şillə vururdular, öz adın yox, ayrı-ayrı addar çağırırdılar. Adın çəkmirdilər ki, hal qadının adını öyrənər, onu çağırar aparar. Çöldə də kişilər güllə atırdılar. Onnan soora o qadın özünə gəlirdi. Deyirdilər, hal gəlif onu aparmağa. Güllə atırdılar, onnan soora deyirdilər ki, qayıtdı getdi. Mən böyük bacımda da görmüşəm, belə şeylər olufdu.

**18.**

Bir dəfə anamın babası gəlir görür ki, at tööldə qan-tərin içindədi. Bu fikirrəşir ki, ə, bu niyə belə olsun. Bir gün belə, iki gün

belə. Deyir, bunu güdəjəm, görüm bu nə hak-hesafdı. Güdür, görür ki, insana bənziyən bir hal gəlir. Bu gəlir atı açır, töölədən çıxardır. Çapır, çapır, çapır çöldə, səhərə yaxın gətirir gənə ora. Özü də bu kadın olur. Deyir, bunu mən nətər tutum saxlıyım? Kişi gətirir qırı əridir, bir əysinin üstünə tökür, bağlıyır. Bu gəlib ata minəndə yapışıb qalır orda, nə qədər eliyir qır buraxmır. Deyir, bu atı niyə belə eliyirsən? Kişi bilir bu haldı. And verir buna. Deyir, məni burdan azad elə, sizə mən qulluq eliyəjəm. And içir. Anda da çox möhkəm olullar onlar. Bunu gətirir evə. Evdə yaxşı bərəkət əmələ gəlir. Deyirdin get su gətir! Uzax yerə getməyinnən gəlməyi beş dəqiqə olmurdu, gedif gətirirdi tez. İki-üç kilo un yoğururdu, bunnan səkkiz-doqquz çörəy çıxırdı. Bax, belə bərəkəti var idi.

Bunun uşaxları var imiş. Axşamlar çəpərin qırağında uşaxları ilə görüşürmüş, balacasına süd verirmiş. Uşaxlar çıxıf gedirdi, gənə qayıdıf gəlirdi.

Xeylax qalır. Bir gün evin arvadı bunu görür. Ərinə deyir ki, hal-qəziyə belə, bunun uşaxları var. Buraxax, çıxsın getsin. Kişinin də ürəyi yumuşax imiş, bunu buraxır. Deyir, get azad yaşa, bizi də unutma. Bu arvad gedəndə deyir ki, bu qədər mən sizdə yaşadım, amma maa sual verмədiz ki, cavan ölmək nədəndi, sarımsax nəyə dərmandı? Nə qədər eliyillər, deyir day demərəm.

**19.**

Qurban kişi varıdı, mənim bacımın qaynatası idi. Kəntdə Nüvar addı bir gəlin uşağ üstündə rəhmətə getmişdi. Bu and içirdi ki, bizim Daşkəntdə[6] Sarıbulax varıdı, orda heyvan otarırdım. Getdim ki, bir lüt qadın bulaxda ciyar suya çəkir. Əvvəlcə deyir, elə bildim ki, bu insandı. Baxdım ki, yox e, saç tökülüf kürəyinin ortasına, lüt-üryandı. "Aaz, belə dur", – deyəndə deyir, mənim ağzımı əydi. Kəndə gələndə soruşuf ki, kəntdə kim ölüf. Deyiflər ki, Nüvar arvaddı, uşax üstə ölüf. Onun ciyarını çəkif aparıf orda suya çəkirmiş.

---

[6] Göyçə tərəfdə kənd adı.

## 20. CİN DƏYİŞƏYİ

Bizim bu kənddə bir kişi vardı, üş dənə oğlu oldu. Onun bir dənə uşağına kənddə hamı deyirdi bu cin dəyişəyidi. Uşağa baxanda adam qorxurdu. Həm də uşaq böyümürdü. Özü də tutduğu adamı buraxmırdı. O vaxtı anam deyirdi ki, o uşağı anadan olanda cin dəyişdirif, o cin dəyişəyidi. Yatmaq vaxtı çatanda başın qoyurdu yerə. Yatışı o idi. Da uzanım, oturum yox idi. On-on beş yaş yaşadı, soora öldü. Deyilənnərə görə, anadan olanda cinlərin o uşaqdan xoşu gəlir, onu qəşəng bilirlər. O uşağı o qədər çox istiyirlər ki, özlərinin pis uşağınnan onu dəyişdirillər.

Uşağa cin toxunmaması üçün çiy yumurtanı suyun içində bir istəkanda qoyursan uşağın başı üsdünə. Uşağın qırxı çıxınca yumurta qalır başı üsdündə. Bir də otağa süpürgə qoyursan ki, cin uşağa toxunmasın.

## 21. QIZIL TAPAN

Dərgah kişi danışırdı ki, Zibeydə mamam Ağcabədinin Xocavəndinə ərə getmişdi. Deyir, Örənqalada qoyun otarırdıx. Təzə qalxozdux gəlifdi. Məni çağırdılar ki, gəl qoyunu sağ. Getdim qoyunu sağmağa. Quzu yatışmışdı. Mənnən kiçik bajım vardı. Buna dedim ki, quzunu gözdə, birdən ayannan qalxar, gəlif qoyuna qarışar. Quzunu yığdım ayana. Yığanda gördüm ki, yerdə qızıl pul var. Götdüm, deyir, o üzünə, bu üzünə baxdım ki, bu xamdı, hələ işdənmiyif. O həndəvərdə xeylax hərrəndim, deyir. Gördüm bir quzu qabax ayağınnan yeri eşələyir. Eşələdikcə yerdən beş-altı dənə qızıl pul çıxdı. Gəldim baxdım ki, balaca küpdü. Ağzının qapağın quzu qırıfdı, bir neçə dənə qızıl pul da yerə düşüfdü. Nişana qoydum, deyir. Getdim atama dedim ki, qarağanı topa yığmışam, üstünə də mal poxu qoymuşam. Gedək o küpü çıxardax. Getdik çıxartdıx, deyir, on yeddi, on səkgiz kilo qızıldı. Onnan, dedi, varranmışıx.

## 22. CANAVARIN GÜCÜ

Canavarın gücü var, itin iy bilməsi. Rəvayətə gora canavar itə deyif ki, sən iy bilməni ver mana, mən güjümü verim sana. İt vermiyif. Deyir, mən bilən iyi sən bilsən, dünyada heyvan qalmaz. Ona gora canavar gəzir, urcahına nə çıxdı onu yeyir.

## 23. BUYNUZLU İLAN

Rəhmətdiy Səfər kişi varıdı. Elə Molla Səfər də deyirdilər, Loğman Səfər də. Bir dəfə qəbirsannıxdan gələndə bir buynuzdu ilan bunu qovub kəndə gətirif. O, soora söhbət eliyirdi ki, mən belə şeylər çox görmüşəm. Bir dəfə Şəmkirin İlmaşdısında – Göyçədə ajdıx, susuzdux vaxtı köçürdük ora, orda yaşıyırdıx, – bir səhər durdux ki, bütün yolu ilan götürüfdü. İlannarın qabağında da iki dənə buynuzdu ilan var idi. Millət qaçarağa düşdü kü, kəntdən çıxalar. Ağsakqallar dedi ki, dəymiyin, çünkü bunlar hardansa döyüşdən gəlillər, bunların içində quyruğu olmıyan yaralılar çoxuydu. Hətta deyir, bir neçə ovsunçu onnarın arasınnan keçif getdi ki, camaat qorxmasın. İlannar da, deyir, elə bil yarıldı, onnara yol verdi. Onnan soora ilannar ötdü getdi.

## 24. İLANIN BAŞ AĞRISI

Süleyman peyğəmbərə şikayət eliyiflər ki, ya peyğəmbər, başına dönüm, bu ilanlar camaatı narahat eliyir, sancır, öldürür. Bir çarə qıl. Deyir:

– Yaxşı.

Süleyman peyğəmbərin icazəsi olmasa, ilanlar bizi vurmaz. Çağırır bütün ilanları. Hər gələn ilannan soruşur ki, su içmisən? Biri deyir filan yerdə içmişəm. Deyir:

– Yox, səndə zəhər olmaz.

Biri deyir:

– Bu yuvadan çıxıf o yuvaya girəndə belimə bir damcı şeh düşüf.

Deyir:

– Yox, o da zəhərə təsir edir.

Gürzənin pastayannı başı ağrıyır. Çünki ona Süleyman peyğəmbərin qarğışı keçif. İlanları çağırıf tobalatma verif, amma nə qədər minnət eliyif, gürzə gəlmiyif. Deyif:

– Get, sənin həmişə başın ağrılı olsun.

O, su görmüyüfmüş.

## 25. İLAN BALIĞI

Peyğəmbər hardansa gəlirmiş. Dəstəmaz alır, namaz qılanda üzüyü çıxardır qoyur suyun qaşına. Üzük sürüşüf suya düşür. Ha əlini atır, üzüyü tuta bilmir. Deyir:

– Get, səni balıq ol, dumannan dumana gəl, özü də sünnüyə qismət ol.

## 26. PEYĞƏMBƏR VƏ TOYUQ

Peyğəmbər qapıda oturufmuş. Görür ki, toyuğun heç başı yuxarı qalxmır. Çağırır bir uşağı, deyir:

– Bunu aparın atın anbara, görək bunun gözü doyajax?

Aparır atır anbara. Peyğəmbər gedif baxır ki, toyux yeyif doyuf. Amma anbarda özünə bir gün ağlıyır. Deyir:

– Daim başın aşağı olsun, quyruğun yuxarı.

Ona görə toyuq doysa da, doymasa da, başı aşağıdı, quyruğu yuxarı.

## 27. İNCİL AĞACI

Yezid ayannan gələndə İmam Hüseynin bir cüt balası qaçır çıxır incil ağacına. Yezid gəlir, baxır o tərəfə, bu tərəfə. İncilin yarpağı iridi axı, uşağları görmür. Uşağları gizlədiyi üçün İmam Hüseyn incili alqışlayıf. Deyir:

– Səni get, ildə üç dəfə bar ver.

İndi incil ildə üş dəfə bar verir. Siftə verir vərəncil – yekə-yekə incillər olur, o yeyilmir. Soora verir incil. İncildən soora qəmədiyə-qəmədiyə bir şeylər gətirir.

## 28. HƏZRƏT ƏLİ VƏ GÜNÜ

Biri öz yoldaşının üstünə günü gətirir. Öy yiyəsinin zəhmi ağır olur axı. Günü qapıdan içəri girəndə qadının zəhmi onu basır. Başına döndüyüm görür ki, günü əsərrəndi, uje yıxılır. Yıxılanda əlini dayax verir. Ona görə də sonradan gələnə heç nə olmur. Çünki sonradan gələnin kürəyində Əlinin əli var.

## 29. DOVŞANIN YARANMASI

Bir gün Məhəmməd peyğəmbər bütün peyğəmbərrəri yığıf iclas aparırmış. Göydən bir vəhşi yenir, gəlir Məhəmməd peyğəmbərin hüzuruna. Qanatdı quşumuş, başı itə oxşuyurmuş. Məhəmməd peyğəmbər oturur bunun üsdündə, qalxır havaya. Məhəmməd peyğəmbər gedir, bir müddətən soora qayıdır. Buna sual verillər ki, o nəyidi? Deyir ki, məni apardı göyün yeddinci qatına. Gördüm bir oğlan oturuf, əlində qələm taleh yazır. Dedi ki, ya Məhəmməd, bir nəfər adamın talehin yazıram, qələmin uju partdıyır, yaza bilmirəm. Ona görə mən deyəjəm, sən yaz. Deyir ki, yaz ki, gedəjəh bosdana, ağaj suvarajax, gələjəh, çay içif çörək yeyəjəh. Arvada deyəjəh döşək sal uzanım. Arvad döşək salajax, uzanajax, orda canın tapşırajax. Məhəmməd peyğəmbər deyir, bəs o kimdi? Deyir, o sənsən. Belə deyəndə Ömər yerdən qalxır:

– Ya peyğəmbər, sən yalan danışırsan, sən cadukunsan, – deyif məclisdən çıxıf gedir. Bu gedir görür ki, arvadı xamır yoğurur. Arvadı deyir ki, a kişi, suyum qutarıf, aftafanı götür, çarhozdan su gətir, xamır yoğurum. Kişi aftafanı doldurur, qoyur çarhovuzun qırağına. Xoşu gəlir, girir çarhovuzda çimir. Çıxıf görür ki, bu oluf bir zənən. Paltarın geyir qaçır. Asta qaçana yol qənim. Gedir, görür bir əkinci əkin əkə-əkə ağlıyır. Deyir:

– Əşi, niyə ağlıyırsan?

Deyir:

– Arvad ölüb, uşaxlar qalıf yetim, uşaxları saxlıyan yoxdu.

Deyir:

– Mən arvadam da, məni apar, uşaxları saxlıyım.

Öməri götürüb gəlir. Bir müddət uşaxları saxlıyır. Ömərin də gəlir bu kişidən bir oğlu, bir qızı olur. Uşaxlar üş yaşına catanda Ömər gedir çarhovuzdan su gətirməyə uşaxları yumağa. Xoşuna gəlir, girir çimir. Çıxır görür oluf həmən Ömər. Qayıdıf kişinin yanına getmir, paltarını geyinir, qacır. Gəlir görür Məhəmməd peyğəmbər söhbət eliyir. İsdiyir üzr isdiyə Məhəmməd peyğəmbərdən. Məhəmməd peyğəmbər deyir:

– Lazım dəyil, Ömər, ged otur.

Aradan bir az kecənnən soora görür həmən kişi uşaxlar qucağında gəlir. – “Ya Məhəmməd, arvad qaçıf, uşaxlar qalıf əlimdə”. Deyir:

– Uşaxları burax, analarını tapajeyih.

Uşaxları buraxır. Uşaxlardan biri gedir Ömərin sağ qıçının üsdə oturur, biri gedir sol qıçının üsdə oturur. Ömər başını aşağı tikəndə deyir:

– Ömər, başını aşağı tikmə. Ey allahın heyvanı, durun gedin.

Onların biri olur erkək dovşan, biri dişi dovşan. Biri birini qova-qova çıxıf gedillər. Dovşan, bax, Ömərin balasıdı, onnan əmələ gəlmədi.

## 30-32. CƏRCİZ PEYĞƏMBƏR

Cərcis peyğəmbər Həzrət İsanın dövründə yaşıyıb. Amma bu qəbrin tapılması 1907-ci ilə təsadüf edir. Türbəni də Aşıqlı kəndinnən Hajı Qulu kişi inşa etdirib. Bunun tapılmasında da bir sıra möcüzə var. Mən yaşdı adamlardan eşitmişəm. Deyir ki, Hacı Qulu haca ziyarata gedif. Orda Hacın alimləri deyiflər ki, sizdə Cərcis peyğəmbər var. Onu tapıf ziyarət eləsəniz, elə bil ki hacı ziyarət eləmisən. Hacı Qulu da deyir ki, nətər tapax? Axı, Azərbaycan bö-

yük ərazidi. Orda alimlər deyir ki, o qəbir Bakıynan Yerevan arasındakı orta məsafədə olmalıdı. Bakıynan Yerevan arasındakı orta məsafə də bu əraziyə düşür.

Hacı Qulu ordan gələnnən soora axtarış aparır. Onda da burda yaşayış olmuyuf. Düzənnik oluf. Hacılarnan bahəm gəlillər, bura çatanda görüllər ki, çoxlu ceyran sürüləri yatışıf burda. Bu ceyranlar atlıları görəndə hürküşüf qaçıf. Bir təkə ceyran qalır. Bu təkə ceyran iki əlləri üsdə qalxır, başdıyır yeri eşməyə. Bular fəhmnən deyillər ki, o ceyran bizə peyğəmbərin qəbrin nişan verir. Gəlillər ora, bir nişangah daş qoyullar. Soora Hacı Qulu kişi qərara alır ki, burda bir türbə inşa eləsin. Qəbri düzəltdirir. Təbrizdən Usta Həsən Təbrizi addı usta gətizdirir. Türbə dörd ilə tikilir. 1907-də başdıyır 1911-ci ildə qutarır. Bunun kərpici Ağcabədidən, Bərdədən kəl arabasıynan daşınıf gətirilir. Başqa hacılar da buna kömək eliyir. Türbəni tikif qutarır, minarələrin yerini qoyur ki, bünövrələr bərkisin, minarə onun üstündə tikilsin. Hacı Qulunun atası Hacı Qurbanın qəbri də türbənin içindədi. 1911-ci ildə türbəni tikif qutarıllar. Onnan soora camaat gəlir buranı ziyarət eləməyə. Onnan soora Usta Həsən dünyasını dəyişir. Minarələrin özülü qoyulur, amma tikilmir. Camaat həmişə yaylağa gedəndə gəlif buranı ziyarət eliyif gedərdi. Öz ağırlıqlarını yığarlarmış bura, qayıdanda gəlif götürəllərmiş, heş kim toxunmazmış olara.

Cərcis peyğəmbərin ölümü belə olur. Onu öldürüblər, genə dirilib. Axırda onu öldürüblər, tikə-tikə doğruyub yığıblar bir turbanın içərisinə. Cərcis peyğəmbər Allahdan istixasə eliyir ki, pərvərdigarə, bu qövm mənə iman gətirmir. Diriltmə məni da. Ağsakqalların dediyinə görə, peyğəmbərin salındığı həmin quyu kümbəzin içindədi.

**31.**

O zamannarı bu yerrərdə ceyran çoxuydu. 41-45-ci illərdə mən heyvan otarerdim, ceyran gəlif quzuynan qulax-qulağa otduyurdu. Bizdən hürkmerdi, ayannan atdı gələndə gəlif bizə sığınırdı. Canavarı görəndə sürü bizə pənah gətirerdi. Ceyranı tutmax üçün güllə atmermışlar. Qaçan atdarı sallermışlar, ceyranı təhliyən kimi yatermış.

Gənə heylə Füzulinin Qərbənd bəylərinnən dörd-beş atdı gəler ki, ceyran ovluya, apara. Bular burda at sallıyanda ceyran yater. Bu kişi gəler ki, ceyranı tuta. Gələndə görör ki, bu ceyran yaşıl rəngdədi. Deyir, pissimillah, pissimillah. Yoldaşdarı bunun dalınca gəler. Kişi gözün silif bir də baxanda görör indi qırmızı rəngdədi. Bax peyğəmbərin qəbrinin tapılma tarixi belə oluf. Onnan soora həmin yerə nişana qoyullar. Ceyrana dəymillər. Qayıdıf gedellər, ordan adam götürüf gəlellər. Gəlif nişananı qazanda peyğəmbərin üstündə bu boyda daş var, o daşı tapırlar. Bura da Hacı Qurbanın düşərgəsi idi. Hacı Qurban qabaxca bir balaca kümbəz tikdirir. Hacı Qurban 130 yaş yaşıyır. Ölənə yaxın deyir ki, oğul, saa bir vəsiyyətim var, bu peyğəmbərin üstündə böyük bir kümbəz tikdir. Ağdamdan o tərəfdə Tuğ deyillər. Oraya çıxanda peyğəmbərin qübbəsin qızıldan qoymuşlar, o bərq vuranda ordan görörmüşlər. Həmən qızılı rusdar götürdü apardı. Kümbəzin kərpici Ağcabədidən, Örənqaladan kəl arabasıynan, dəvəynən daşınıf gətirilif. Hər kəl arabasına görə dörd qoyun verirmişdər. Mənim dədəmin anası Hajı Qulunun kiçik bajısıdı. O deyirdi ki, peyğəmbərin kümbəzi dörd yaz tikilif. Martdan başdıyırdı mayın axırınatan iş gederdi. Bünöyrə, deyir, bir ilə qazıldı. Ümumiyyətnən dörd ilə tikildi. Özü də ona sement getmiyif, yumurttoynan tikilif. İçinin yaxşı bəzəkləri vardı, hamısını rusdar dağıdıf.

**32.**

Peyğəmbəri Hajı Qulunun atası tapıf. Gedif Məkkəyə ziyarətə. Orda buna deyiflər ki, Beyləqan xarabalığının gün çıxan tərəfində üç təpə var. Orda bir qərib peyğəmbər rəhmətə gedif. Siz orda bir şərait yarada bilsəniz buraya gəldiyinizdən üstündü.

Gejə çobannar qoyunu yaylıma verif otaranda görüllər orda məşəl yaner. Oraya işarə qoyuf gəlif Hajı Qurbana deyiflər. Hajı Qurban gedif görüf orda quyu nişanəsi kimi yer var. Məkkədə də deyiflər ki, onu axırıncı dəfə quyuya atıflar. Həzrəti Cərcis peyğəmbər tək allahlığı yaymaqdan ötrü bu əraziyə gəlifmiş. O hara gedirdisə, onun başının üstüynən göy quş uçurmuş. O ərazidə quş

yoxa çıxıf. Təkallahlığın əksinə gedən adamlar düşüf bunun dalına ki, bunu öldürəllər. O da gəlif orda yoxa çıxıf. Hajı Qurban həmin quyunun üstündə balaca bir kümbəz yapır. Özü rəhmətə gedəndə oğlu Hajı Qulu həmin kümbəzin böyründə atasını dəfn eliyir.

Soora Hajı Qulu kişi gedif Məkkəyə. Ona da həmin sözü deyiflər. O da deyif, atam orda kümbəz yapıf. Deyiflər, orda yaxşı şərait yarat. Hajı Qulu kişi həddinnən artıx varranıf. Gəncədə buna stol veriflər. Gedif İrannan seyid Mir Həsən addı usta gətirif. Binanın bünövrəsin qoyuf başdıyıf tikməyə. Bina içəridən səkgizguşəli ulduzdu, çöldən dördguşəli. Yonü qibləyədi. Binanı elə tikiflər ki, içəri zülmət qaranlıq idi. Onun tavanı kaşə bəzək oluf, füsünkar gejə qarannığını xatırladırdı. Binanın çöl tərəfin kərpicin Ağcabədidən, içəri tərəfinin kərpicini isə Örənqaladan atnan, arabaynan daşıtdırıf. Özünün arzusu oluf ki, onun qabax tərəfində iki dənə minarə olmalıdı. Hajı Qulu dünyasını dəyişdiyinnən minarələri tikdirə bilmir. Binanın qabağında sağ və sol tərəflərdə minarəyə qalxmaq üçün iki pilləkən var. Sağ tərəfdəki pilləkənin ayağını özünə götürüf, sol tərəfdəki pilləkənin ayağını isə kümbəzin ustasına verif. Deyif, usta, alacağın hakdan əlavə, burda ölsən bu pilləkənin ayağı sənindi. Usta da tavanın bəzəyini vuruf gedif İrana. Orda onnan başqa altı dənə otaq tikdirif gəlif-gedən qalsın. Camaat dağa köçəndə nə ağırrığı vardısa, gətirif ora qoyurdu. Orda bir zincir var. Nənəmin dediyinə görə, o zincir içərini işıqlandırmaq üçündü. Otuzluq lampanı asırdılar onnan, otağın içini işıqlandırırdı. Binanın üstünə güzgü qoyulmuşdu. Günorta Ağdərədən baxanda güzgü burda bərq vururdu.

## 33. PEYĞƏMBƏR VƏ ÇOBAN

Peyğəmbər dərə yuxarı gedirmiş. Görür ki, bir çoban dərənin içində alaçıx tikir. Deyir ki, ay bala, niyə dikin üstündə tikmirsən? Birdən sel gələr aparar. Deyir ki, buluda baxmışam. Bulud qısırdı, yağış yoxdu.

Peyğəmbər keçir oyza, əlini qaldırır göyə, deyir ki, ya xudabəndi aləm, mən peyğəmbər ola-ola mana elə bir ağıl, elə bir savad verməmisən biləm ki, bulud qısırdı, ya nədi. Çoban bilir ki, bulud qısırdı.

Peyğəmbər qayıdanda görür ki, yağış yağıb, sel çobanın nəyi var hamısını süpürüf aparıf. Deyir:

– Sənə demədim ki, bala, dikin üstündə tikginən bunu? Deyirsən ki, bulud qısırdı.

Deyir:

– Vallah, bulud qısır olmağına qısır idi, amma deyəsən burda “mən ölüm” sözü olufdu.

## 34. PEYĞƏMBƏRİN YALANI

Bir bulax varmış, peyğəmbər bulağın başında oturufmuş. Başında da yaxşı əmmaməsi. Qırx lotulardan biri gəlir bunun yanına. Deyir nətər eliyim peyğəmbər yatanda bunun əmmaməsini oğurruyum. Deyir ki, ya peyğəmbər, sənə bir söz deyəjəm axı. Deyir:

– Nədi?

Deyir:

– Adam oğurruğu eliyəndə neçə günnən soora onun qarğışı tutur.

Deyir ki, qırx günnən soora. Deyir, hə. Peyğəmbər yuxuya keçənnən soora bu, əmmaməni vurur qoltuğuna, arx varmış, arxı hoppananda beli qırılır. Deyir:

– Ya peyğəmbər, bəs sən deyirdin qırx günnən soora. Heç yarım saat çəkmədi.

Deyir:

– Ay bala, o mənim qarğışım döyül ey. Mənim qarğışım hələ irəlidədi. El dağa gedəndə bir qoja qarının bir öküzü vardı, öküzünü yüklüyüf camaatnan gedirdi. O qarının öküzünü oğurradın, qarının yükü qaldı yerdə. Qarı şələsini aldı dalına, yavaş-yavaş camaatnan gedə-gedə “oy belim qırıldı, belin qırılsın öküz aparan” eliyif oturdu. İndi həmən qarının qarğışıdı sənin belini qıran.

## 35-36. PEYĞƏMBƏRİN QOYUNA QARĞIŞI

Çoban aparıf qoyunu otarırmış, gətirirmiş. Peyğəmbər qoyunnan soruşurmuş, qoyun deyirmiş çoban bizi bugün aj saxladı. Bir belə, beş belə. Bir gün peyğəmbər çobanın paltarını geyinir, qoyuna özü gedir. Gedir axşamatan otarır, axşam gətirir salır yerinə. Paltarın dəyişif gəlir. Deyif:

– Bu gün nətərdi?

Deyif:

– Əşi, bu gün lap qırıldıx ajınnan.

Deyir:

– Səni görüm qarnın doymasın, dalınca gedən də yorulmasın.

Burdan dağa köç yoluynan hardasa dörd yüz kilometrə yaxın yoldu. Onu piyada qoyunun dalınca gedirdik, bir yorğunluq hiss etmirdik.

### 36.

Peyğəmbərin bir çobanı oluf. Hər axşam qoyun peyğəmbərə şikayət eleer ki, mənim qarnımı doydurmor bu çoban. Peyğəmbər çobana təpiner, çoban ajıx eliyif geder. Peyğəmbər qoyunu özü aparıf otarır. Qoyun peyğəmbərə çox əziyyət verer. Deyir:

– Allah gözünü doydurmasın, dalına düşən çoban da yorulmasın.

Peyğəmbər o çobanı bir zulumnan qaytarır gətirer, amma çoban haqqından narazılıx eleer. Deyir:

– Çoban, qoyun bu il nə qədər ala quzu doğsa, hamısın saa verəjəm.

Deyir:

– Ə, mən otuz ildi qoyuna gederəm, ala quzu olmor. Ala quzu hardan olajax, mənə verəjək. Məni allatdı.

Qoyunu otardığı yerdə görör bir atdı gəler.

– Ə, peyğəmbərin çobanı, niyə bekafsan?

Deyir:

– Vallah, peyğəmbər mana elə bir buyrux buyuruf ki, qalmışam mat.

Deyir:

– Nədi?

Deyir:

– Deyir ki, qoyun nə qədər ala bala doğsa, hamısın saa verəjəm.

Atdı gülür. Deyir:

– Olar.

Deyir:

– Neçə ildi qoyuna gederəm, heş bir dəfə də ala quzu doğduğun görməmişəm.

Deyir:

– Hansısa dağda çoxlu saxsağan yumurtası var. Onnan bir vedrə yığ gətir, əz, qat duza, ver qoyuna, yesin.

Geder gətirer, əzer qater duza, verer qoyuna. Min dənə qoyunu varsa, hamısı ala doğur. Doğan kimi peyğəmbər deyir:

– Çoban, mən yalan sata bilmərəm. Götür quzunu, aralan burdan.

Deyir:

– Ay peyğəmbər, sana qurban olum, bu mayasız quzunu haraya aparım?

Deyir:

– Yox ey, dilimdən çıxıf, götür quzunu.

Bu yazıx geder bir yiyəsizdik yerdə küz tiker. İki bölük doldurur buraya. Açer, gündə bir dəfə quzu mələşer ayna-bana. Otuxor, başdıyır otdamağa. Bir də bir ala küçük verer buna.

Yaz gəler bu ala quzular böyüyür olor erkək, ana qoyun. Dağlarda yeyif kökəlif. Peyğəmbər deyir: "Mən belə bir nainsafçılıx elədim. Gedim görüm çobanın vəziyyəti nətərdi". Geder görör dağın döşündə bir sürü ala qoyun yatışıf. Çoban da qoyunnarın yanında yatıf. İt peyğəmbərə hürəndə quzu ürküşür. Çoban qalxır, görör ağası peyğəmbər gəlif. Deyir:

– Çoban, vəziyyət nətərdi?

Deyir:

– Yaxşıdı.

Gətirer bir quzu kəsə, bişirə, peyğəmbər yeyə. Deyir:

– Çoban, maa elə quzu kəs ki, iç piyinnən maa köynək çıxsın.

Gətirer kəser. Çoban ölçör-biçer, görör ki, qolları çatmadı. Gətirer qoyur ortaya. Peyğəmbər deyir:

– Bə buların qolları hanı?

Deyir:

– Peyğəmbər sağ olsun, sən gələndə quzu ürküşdü, piyini tökdü dana, qolu çatmadı.

Deyir:

– O qoyunun, o da sən. Get özünə çoban tut, Allah xeyirin versin.

## 37. SƏXAVƏTLİ HATƏM

Hatəm Tay çox səxavətdi olur. Gündə nə qədər heyvan kəsərdi, ehsanat eliyərdi, səxavəti həddən ziyadə idi, amma ibadəti yoxuydu. Deyir, Hatəm Tay cənnətə getdi, cəhənnəmə getdi? Dedi, nə cənnətə gedif, nə cəhənnəmə. Cənnətnən cəhənnəm arasında neytral bir yer var, orda qalıf. Çünki səxavəti vardı, ibadəti yoxuydu. İkisi də olsaydı, cənnətdik olardı.

Hatəmin səxavəti bütün dünyaya yayılır. Məmləkətin şahı eşidir ki, belə bir adam var. Deyir: "Mən şah ola-ola, mənnən səxavətlidi bu?" Bu qərara gəlir ki, bunu imtahan eləsin, yoxlasın görsün bu həqiqətdi, həqiqət döylü. Deyir, bir gün vəzirini çağırır. Vəzirinə deyir ki, Hatəm Tay deyillər ey, deyillər o çox səxavətli adamdı. Mən şaham, mənnən səxavətli ola bilməz. Örgənin, görün onun ən çox sevdiyi, istədiyi şey nədir. Örgənillər ki, Hatəmin bir atı var, atı çox sevir. Atı bəlkə canından da artıx sevir, heç kimə verməz. Şah vəzirə deyir ki, get o Hatəmnən atı istə. Əgər o atı mənə versə, biləcəm ki, həqiqətən o mənnən səxavətlidi. Verməsə, demək səxavəti yoxdu, onun haqqında deyilənnər yalandı.

Vəzir gəlir Hatəmin yerin soruşur. Deyillər ki, Haramıda filan yerdədi. Gedir ora. O vaxt çatır ki, axşamçağı idi. Gün batıf, hava çox soyuğ, qar-çovğun. Girir içəri.

– Salamməlöyküm.

– Əlöykətsalam.

– Hatəm sizsiz?

– Bəli, mənəm.

Gəlillər oturullar. Ordan-burdan söhbət eliyillər. Vəzir sirri açmır. Deyir, sabah deyərəm. Hatəm deyir: "Ə, mən nağarım, nətər eliyim bu qırğında, çovğunda. Heyvan da çöldədi, yaxınnıxda yoxdu". Bircə gümanı atına gəlir. Fikirrəşir ki, atdan başqa heş nəyi yoxdu. Bu sevimli atını kəsir, axşama şam yeməyi hazırratdırır. Yeyif qutarannan soora gecəni yatıllar. Səhər vəzir deyir:

– Hatəm, heş soruşmursan mən bura nə üçün gəlmişəm.

Deyir:

– Siz Allah qonağısız, gəlmisiz. Qonağımsız, mən sizdən nə soruşum? Deyərsiz, bilərəm.

Deyir:

– Ya Hatəm, hal-qəziyyə belə-belə. Məni şah göndərif. Sizdə bir at var, o ata gözü düşüf. İstiyir ki, o atı ona verəsiz.

Deyir:

– Çox əfsus. Bu sözü mənə axşam deyərdiz də, səhər-səhər niyə deyirsiz?

Deyir:

– Axşamnan indinin nə fərqi var?

Deyir:

– Axşam siz mənə qonax gələndə çölə gedif heyvan gətirməyə imkan olmadı. Hava da çovğun, qar. Gümanın bir atıma qalırdı. Atı kəsdim, axşam sizə tam bişirdim. Axşam desəydiniz kəsməzdim.

Vəzir baxır görür ki, doğrudan da, deyilən qədər səxavəti varmış, qonağı ac yatmasın deyə öz atın kəsib. Gəlir şaha deyir ki, şah sağ olsun, hal-qəziyyə belə-belə. Şah baxır görür ki, həqiqətən, Hatəm səxavətli adammış.

Hətta onun bir qardaşı varmış. Anasına deyir ki, ana, Hatəm səxavətlidi, yoxsa mən? Deyir:

– Bala, Hatəm sənnən səxavətlidi.

Deyir:

– Nətər?

Deyir:

– Uşaq vaxtı mən Hatəmi əmizdirərdim. Balaca uşax görəndə çağırardı, bu birsi döşümü ona verərdi ki, o əmsin. Amma sən mənim döşümün birin əməndə əlini də o birsinin üsdünə qoyurdun. O uşaqlığınnan səxavətlidi.

Hatəmin səxavəti bütün dünyada məşhurdu, amma ibadət eləmirdi. Ehsanat verirdi, yolnan gedənnər gəlif onun ehsanatınnan yeyirdi, amma ibadəti yoxuydu. Ona görə cənnətə getmədi, cənnətnən cəhənnəm arasında qaldı. İbadəti də olsaydı, cənnətdik idi Hatəm.

## 38-42. LOĞMAN

Tərəkəmə camaatı payız dağdan gəlif yataq tikif. Yerdən qazıf keçədən öy tikiflər. Yulğunnan çatıflar, orta ojağı qalıyıflar. Loğman belə baxıf deyif:

– Hə, yulğunun közü buların gözün kor eliyəjək. Yazda buları müalicə eliyəjəm, pul yığajam.

Yazda vədə vaxdı gələndə gəlif görür ki, tərəkəmə qış öyündən çıxıf düz yerdə keçəsin tikif. Qoyunun gərməsinnən ojağı qalıyıf. Tüstü vurur, gözünnən su tökülür. Deyir:

– Ay kopoğlunun tərəkəməsi, loğman sənsən, mən döyüləm.

Axı yulğunun ajısın gərmə çıxardır.

### 39.

Loğmanın yanına bir xəstə aparıllar. Loğman xəstəyə baxır, deyir:

– Aparın, bu, beş günə, üş günə getməlidi da.

Xəstə yiyəsi yalvarır-yapışır ki, ay Loğman, səni deyif gəlmişik, buna bir dərman yaz. Deyir:

– Ay kişi, bu o dünyalıxdı, aparın.

Deyir:

– Yox ey, heç olmasa bir dərman yaz.

Naəlac qalır Loğman, deyir:

– Aparın buna yonca verin.

Bular aparır, bunu tutullar yoncaya. Yoncanı qaynadıb suyunu içirdillər. Aradan beş ay, altı ay keçir, bu oğlan pəhlivan cüssəli oğlan olur. Qəflə-qatırı yüklüyüllər, gəlillər Loğmanın yanına. Loğman görür bunun qapısına karvan düşdü. Sorşur ki, bu nədi, kimin karvanıdı? Deyir:

– Loğman, sən diriltmisən bu cavan oğlanı. Sənin dərmanın sağaldıb.

Əlin qaldırır, deyir:

– İlahi, mən başımnan eləmişdim. Deməli, ancaq sənin düşərindi.

Demək, gərək Allahın düşəri ola. Allah buyurduğu şeyi heş kim buyura bilməz.

**40.**

Loğman uzaq səfərə getmişmiş. Səfərdən qayıdıb gələndə nökəri gedir bunu qarşılıyır. Loğman soruşur ki, ayləm nejədi? Nökər deyir ki, aylən dünyasını dəyişdi. Deyir:

– Hə, yatağım təzələndi.

Onnan soora deyir ki, atam nejədi? Deyir:

– Atan da dünyasını dəyişdi.

Dedi:

– Hə, demək mən artıq atamı əvəz eliyəjəm, onun işini yerinə yetirəjəm.

Dedi:

– Bajım nejədi?

Dedi:

– Bajın da dünyasını dəyişib.

Dedi:

– Övrətim örtüldü.

Dedi:

– Qardaşım nejədi?

Dedi:

– Qardaşın da dünyasını dəyişdi.

Dedi:

– Belim sındı.

**41.**

Loğmana şikayət eliyillər ki, ay Loğman, sənin oğlun ədəbsiz iş gördü. Deyir:

– Nədi?

Deyir:

– Atlı gəldi yığıncağın içinə. Tez atdan düşdü, yüngül pəşoya getdi.

Deyir:

– Bah, bah, bah.

Deyir:

– Nədi?

Deyir:

– O mənim oğlum deyil. Mənim oğlum olsaydı, atdan düşməzdi, gərək atın belində eliyərdi.

Yəni pəşo elə bir şeydi ki, onu saxladıxda insanı yandırır. O gəldisə, gərək çölə gedəsən, qalsa ziyandı.

**42.**

Bir xəstəni gətirillər Loğmanın yanına. Deyillər:

– Ay Loğman, qadan alım, bu yara çıxardıfdı, gecə-gündüz dincələ bilmir.

Belə açıb baxır. Deyir ki, ana, mən buna heç zad eliyə bilmiyəjəm. Bunun özünün vaxdı var. Deyir:

– Bəs dedin gətir axı.

Deyir:

– Mən elə bildim ki, qara yaradı. Üstünə ya toyux nəcisi qoyajaxdım, ya qurbağanı kəsif qoyajaxdım, onnan qutarajaxdı. Mən nə bilim bu sümük yara-yara çiban çıxardır.

Çiban həmişə sümükdən çıxar.

## 43-46. HACI QARAMAN

Hajı Qaraman Türkiyənin Qaraman vilayətinnən gəlif. Əsl adı Əhməd, dədəsinin adı Əzizdi. Əziz oğlu Əhməddən bəri on bir

nəsil eliyir. Birinci Tiflisdən Qazağa gəlif. Qazaxda bir çevirməsi (daşdan qalaq – top.) var. Əsası hara gedərmişsə, Hajı Qaraman ora gedərmiş. Qazaxdan bir nəfər Bakıda sürücü işdiyirdi. O da Hajı Qaramana and içirdi, biz də. Soruşduq ki, Hajı Qaramanı hardan tanıyırsan? Dedi, bizdə bir çevirmədi. Bilmirik üş gün qalıb, beş gün qalıb, o məlum deyil, amma bir çevirməsi var. Əsa Qazaxdan tərpənif gəlif Cəbrayıl rayonunun Quru dərə deyilən sahəsinə. Niftalılar kəndinin arxasında, Quru dərədə bir müddət qalıf, ordan əsa tərpənif gedif indi Çələbilər deyilən yerdə dayanıf. Orda məskunnaşıb. Hajı Qaramanın qaynatası Əhmətdi. Əhmədin torpağı oluf o yerlər. Yetər nənə şikəst oluf, gözləri görmürmüş. Orda o torpaqda məskunnaşannan soora görüf ki, bucaxda kor bir qız oturuf. Nə qədər soruşuf, buna heş nə demiyiflər. Deyif, bunun qarnının dərdin deyin görək nədi bu. Allaha üz tutur, qıza şəfa diləyir.

Qızın anası səhər duruf deyir, a kişi, qarnın yansın, bəs qapıbaja süpürülüfdü. Deyir, arvad, nə danışırsan? Qapı-bajanı kim süpürəsidi? Sən süpürmüsən də. Deyir, yox, vallah.

Bir dəfə, iki dəfə. Bir də helə olanda deyif, bu Əhmədin işidi. Nə şəlbə keçifsə onnan keçif. Onnan soora biliflər ki, bu belə adamdı. Qız şikəstlikdən azad olur, onunnan evlənir.

Əhməd kişi bir gün deyir, gedim qızı yoxluyum, görüm bu qız nejoldu. Gedif görür ki, maral gəlif tökülüf Hajı Qaramanın ojağına, maral sağıllar. Kişi orda dəhşətə gəlir, deyir, bu möcuzadı. Onnan da Hajı Qaraman binələşir qalır orda.

**44.**

Buların şıxı olur, müridləri ayırır ölkələrə, hərəsin bir yerə təyin edir. Bizim Hajı Qaramanı hamısından axıra saxlıyır. Hajı Qaramana deyir, Hajı Qaraman, sənin yolun çox uzaqdı. Deyir:

– Neynək, qismətdi, haraya deyirsən gedim.

Şıxın əlində bir çəlik varmış. Çəliyi tulluyur, Allaha üz tutub deyir:

– Ya rəbbim, ya rəsulallah, bu çəliyi sür getsin.

Tapşırıx verir ki, çəlik haraya düşsə məskənin oradı.

Çəlik getdikcə bu da gedir. Hajı Qaraman çəliyin altıynan gəlir, gəlir, gəlir, gejə Quru dərədə çəlik düşür yerə. Deyir, hə, sən öl, mənim məskənim bura olajax. Burda bir tut ağacı varmış, bunun divində gejəliyəndə bir kişi yolnan gəlir. Deyir:

– Ay qonax, kimsən, nəçisən?

Deyir:

– Yol adamıyam.

Deyir:

– Gəlsənəmi gedəsən bizdə qalasan?

Deyir:

– Yox, mənim yurdum buradı.

Nəysə, bunu aparır evinə qonax. Qapıdan içəri girəndə görür küşdə bir yumax var, bir adam səsdənir ordan. Kişidən soruşur ki, bu kimdi? Deyir:

– Ay qonax, neynirsən, sən allah, bir istəkan çayını iç, çıx get.

Deyir:

– Yox, bilim da bu kimdi.

Deyir:

– O bir qız uşağıdı, çoxdandı gözü-başı tutuluf, qıçı tutuluf, müstərdi, tərpənə bilmir.

Hajı Qaramanın üstündə bir pəsəsi varmış. Bunu atır, bunun başın-zadın sığallıyır ki, görüm bunun canı var, yoxdu. O əlini oraya çəkəndə o kadın ayılır. Səhər oyanıllar görüllər ki, vallah, qapını-bajanı bir qız uşağı süpürür. – “Ay aman, ay dad, siz allah, bu nədi?” Kişi deyir ki, vallah, bu kişidə bir möcüzə var.

Görüllər qızları anadangəlmə bir qızdı, and olsun Allaha, işığı düşür. Kişi tutur qolunnan gətirir. Deyir ki, Hajı Qaraman, sən bir möcüzə göstərmisən, bu qızı verirəm sənə. And verirəm Allaha, bunu da götür çıx get. Onnan bir yerdə gəlillər. Hajı Qaramanda çəlik düşür.

Vaxt gəlir qızın atası, anası deyir:

– Ay balam, bizim qızı apardı, gedək görək noldu.

Dağdağan var, onnan keçənnən soora görüllər qız əlində bardaq marallardan süd sağır. O zonada nəxəntərə adam varsa həmən möcüzəyə inanır.

**45.**

Pir Avırdı, Qara Pirim, Hajı Qaraman – üçü gedir Məkkəyə namaz qılır. Orda birinin atı ölür, gələ bilmir. Mağduru[7] da yoxdu ala. Buna deyirlər:

– Ə, nə axtarırsan?

Deyir:

– Belə-belə.

Buna deyillər:

– Gözlə, cuma günü bura bir nəfər gələjək. Sənə kömək eləsə o eliyəjək.

Gözdüyür. Cuma günü gələndə deyir:

– Kimdi?

Hajı Qaramanı buna göstərillər ki, o adamdı. Gələndə tut ətəyinnən, yalvar-yapış. Deyir, yaxşı.

Gözdüyür. Namazı qılıllar. Qayıdanda tutur Hajı Qaramanın ətəyinnən. Hajı Qaraman deyir ki, Qara Pirim, mənim atım tərk götürmür, bunu al tərkinə. Alır tərkinə, deyir:

– Gözdəri yum.

Bu da ata minəndə gözün yumur. Gətirir burda yerə qoyur, deyir:

– Gözünü aç.

Açır görür Qarabağlardadı. Bu da bunu tərkinə alan adamın adını yadında saxlıyır. Bir gün deyir ki, mən gedim şıxımı tapım. Qara Pirimin adı yadında qalıf, o birilərinin adın bilmir. Qara Pirimi soraxlıya-soraxlıya gedir çıxır Ağdama. Ağdamda atı ilxıda görür, atı tanıyır. Deyir:

– Bu atın sahibi?

Deyillər:

– Filankəsdi, get kənddən soruş.

Deyir:

– Yox ey, at hara getsə, mən ora gedəjəm.

Axşam atın dalınca gəlir Qara Pirimin yanına. Görür həmin adamdı. Görüşür, ziyarat eliyir şıxı. Qara Pirim deyir ki, dur ayağa,

---

[7] Mağdur – pulu

sənin şıxın mən deyiləm. Düzdü, mənim atıma mindin, amma hamımızın şıxı odu. Get Hajı Qaramana. Ordan qayıdır gəlir Hajı Qaramana.

Bizdə cuma günü ojağa gedilmir ki, ojax sahibləri hamısı ziyarata gedir. Belə bir inam var ki, cüma günü ziyarat sahibləri gedir Məkkəyə namaz qılmağa. Bir də hər pirin öz günü varı. Hajı Qaramanın üstünə duz günü gedilirdi.

**46.**

Hajı Qaraman bir gün deyifdi ki, bir Şıx ata var. Gedif görüm bu həqiqi şıxdımı. Gəlif Şıx ataya. Şıx ata da Havısdı kəndinin qabağında idi. Gəlif görür ki, Şıx ata kök alağı eliyir. Salam verir.

– Əleykisalam.

Deyir

– Əşi, nağarırsan?

Deyir:

– Kök alağı eliyirəm.

Deyir:

– Ay şıx, niyə özünə əziyyət verirsən? Alağ, Allahın izniynən sahəni tərk elə!

Alağ Allahın köməkliyinnən təmizlənir. Bu da tanımır ki, bu Hajı Qaramandı. Qayıdır tutur yaxasınnan, deyir:

– Nağardın?

Deyir:

– Əşi, sənə kömək elədim da.

Deyir:

– Ə, kömək nədi. Mənim evimi yıxdın sən.

Deyif:

– Niyə?

Deyif:

– Ə, mən onun hər birin qopardanda “Allah” deyirəm. Mənim evimi niyə yıxdın, qaytar qoy yerinə.

Deyir:

– Hə, indi bildim ki, həqiqi şıxsan. Mən filankəsəm.

Orda tanış olurlar. Şıx ataya ən çox yağış üçün gedirdilər. Kalxozçulux dövründə kalxoz sədrləri yağış yağdırmaq üçün aparıf orda qoyun kəsirdilər.

## 47-48. SEYİD İSMAYIL

Seyid İsmayıl oluf. Çox inamlı ojaxdı. Bir dəfə onun öküzdəri itibbiş. Bunu bir nəfər tülüngü adam tapıb, bilmiyib Seyid İsmayılındı. Gətirib içəri salıf ki, gecə bunu aparsın xəlvətcə satsın. Gecəyarı öküzdəri satmaq məqsədiynən aparmaq istiyəndə baxıb ki, qapının üstündən iki dənə ilan sallandı, qapını kəsdi. O saat bu başa düşür ki, demək öküzdər Seyid İsmayılındı. Təzdənnən ona xəbər göndərir ki, öküzdər burdadı.

## 48.

Aşağıda Dilənçilər kəndi var, keçən il adını dəyişdilər, Çəmənni qoydular. Bir dəfə Seyid İsmayıl hüzür yerində imiş. O vaxtı da belə imkan yoxuydu mal kəsələr, heyvan kəsələr. Süd aşı verirdilər, halva verirdilər. Bu süd aşı çalırmış çömçəynən. Bir nəfər gəlir ki, mən seyidəm, mənə pay verin. Seyid İsmayıl da ocağın başında çömçəynən süd aşını qarışdırırmış. Deyir, seyidsən? Deyir ki, hə, mən əsl seyidəm. Seyid İsmayıl deyir ki, buraya gəl. Bunu çəkə-çəkə gətirir. Öz qolunu çırmalıyır, lüt qaynar qazanın içinə salır, fırrıyır. Deyir, seyidsən sən də sal. O birisi qaçır ki, mən onu eliyə bilmərəm.

## 49-50. İSGƏNDƏRİN ÖLÜMÜ

İsgəndər Zülqərnəni anası o qədər istiyirmiş ki, bu tələf olsa, arvad da ölməlidi. İsgəndər başa düşür ki, bunun başına bir iş gəlsə, anası onsuz qala bilmiyəjək. Deyir:

– Ana.

Deyir:

– Hə.

Deyir:

– Ana, mən münəccimə baxdırmışam, mən suyun içində dəmirin üstündə öləjəm. – Güclü sürüləri varmış: toğlu sürüsü, öyəc sürüsü, şişək sürüsü. – Amma mənə ehsanı dərdi olmuyan qoyunun ətinnən ver.

Vaxt olur. Qoşun hesab elə buranı alır, gedir Haramıda çadırrarı qurdurur, yemək-içmək. Gejə bir yağış başdıyır. Elə bir leysan başdıyır ki, çadırın içi dizətən su olur. Bu orda can verir. Can verəndə xançalı, qılıncı üst-üstə yığıllar suyun üstünə, İsgəndəri onun üstünə qoyullar, orda can verir. Meyidi gətirillər. Anasının yadına düşür ki, oğlunun vəsiyyəsi var. Gedir erkək çobanının yanına.

– Ay oğul, maa dərdsiz heyvan.

Çoban deyir:

– Bax, bunun anası qarayelli oluf ölüf, onun anasın canavar yaralıyıf ölüf, onun anası palçığa batıf, onun anasın su aparıf...

Sürü qutarır. Arvad barmağın dişdiyir ki, hə, heyvanın da dərdi var. Dərd bir insana gəlmiyif.

**50.**

Uzax olsun, birinin oğlu xəsdeymiş. Deyif:

– Nənə, mənim halvamı çalarsan, düşərsən kəndbəkənd, kimin dərdi yoxdu, ona verərsən.

Hə, bu da heylə eliyif, gətirif halvanı çalıf kəndbəkənd gəzif. Heş kim səmt durmuyuf. Biri deyif, mənim filan dərdim var, bəhmən dərdim var. Biri deyif, oğlum belədi, biri deyif, ərim belədi, biri deyif, qızım belədi. Xülasey ki, heş kəs buna səmt durmuyuf dana.

Deyif:

– Hə, onda gedim toyuğa deyim. Bəlkə, heş toyuğun dərdi yoxdu.

Gəlif toyuğa deyəndə, toyux deyif:

– Mənim dərdim hamınızınkınnan çoxdu.

Deyif:

– Niyə?

Deyif:

– Bəs balamın xoruzu ərimdi, fərəsi də günümdü. Mənim dərdim hamısınnan çoxdu.

## 51. İSGƏNDƏR VƏ DİLƏNÇİ

Deyir, İsgəndər Zülqərneyə vəh gəldi ki, zulmatda dirilik suyu çıxır, ildə bir dəfə qaynıyır. Həmin yer zulmat olur.

Bunu götdülər, getdilər həmin əraziyə. Bir dənə yaşdı dilənçi olur. Bu dilənçi o qədər o qapıya, bu qapıya gedir ki, axırda bezir. Deyir ki, yox ey, mən gedirəm özümü öldürəm. Qayalıq bir yer tapsam özümü tulluyuf məhv eliyəjəm. Bu gələndə şir, pələng bunun qabağına çıxır. Bu deyir, Allaha şükür, bunlar məni dağıdıf yeyər. Şir, pələng üzünü çevirib ayana gedir, buna toxunmurlar. Bu gəlir çıxır İsgəndər Zülqərneyin yanına. İsgəndərin adamları çadırlar qurmuşdular. Gennən baxıllar, deyillər:

– Ə, bizim bura gəldiyimizi heş kim bilmir. Biz gözdüyürük ki, bulud gələjəh, yenəjək o çökəkliyə, ora zulmat qaranlıx olajax. O qaranlıxda su qaynıyajax, İsgəndər gedif ordan su içəjəh, cavan oğlan olajaxdı. Bu hardan gəlif çıxıf buraya?

Nəysə, bunu tutuf gətirillər İsgəndərin yanına. İsgəndər deyir ki, sən kimsən, nə gəzirsən? Deyir:

– Əşi, mən dilənçiyəm.

Deyir:

– Bə nə gəzirsən bu səhrada?

Deyir:

– Vallah, bezmişəm, daha yaşıya bilmirəm, özümü öldürmək istiyirəm.

Deyir:

– Ey dili-qafil. Bu, özünü öldürmək istiyir, mən Allahdan ömür istiyirəm. İşin tərsliyinə bax. Deyir, bu nə olan işdi ki, sən özünü öldürmək istiyirsən?

Deyir:

– Dolanışığım yox, ayləm yox, uşağım yox. Gedif o qapıdan çörək alıram, biri verir, biri məni qapıdan qovur. Belə yaşamaxdansa, ölmək yaxşıdı.

İsgəndər deyir:

– Otur burda.

Adamlarına tapşırır ki, buna yemək verin. Yemək-işmək verillər. Deyir ki, mənim yanımda qalajaxsan. Deyir, hə, nolar.

Deyir, Allah-taala işi elə qurdu ki, İsgəndər ora tək getməli idi. Bir də gördülər ki, qara bulud gəldi həmin yerə çökdü, orda da başdadı işıq yanmağa. Su çıxanda işıq yanır içində. İsgəndər dedi:

– Dilənçi mənnən gedəjəhdi, siz gəlmiyəjəhsiz.

Bular ikisi bu daşın içiynən gedəndə İsgəndərin ayağı bir cama ilişdi. Mis cam vardı, yolun içindəydi. Dilənçiyə dedi:

– Gör o nədi, tapa bilirsənmi?

Əyildi dedi ki, şah sağ olsun, mis camdı. Dedi, o camı götürginən. İsgəndərin beyninə daxil oldu ki, ey dili-qafil, o camı zəhərriyib qoyuflar mənim yoluma ki, mən o camı dolduruf içəm, elə orda da öləm. Yaxşısı budu ki, birinci bu dilənçi işsin. Dedi ki, əmr eliyirəm, doldur camı. Camı doldurdu. Dedi:

– İç.

Qaldırdı başına, içdi. İçənnən soora camı bir də altına tutanda bulax qurudu. Bir dəfə gələrdi, kəsilərdi. Quruyannan soora bir gurultu qopdu, bulud aralandı getdi. Bu çöndü baxdı ki, dilənçi cavan bir oğlan oluf.

İsgəndər Zülqərneyn ölənnən soora həmin şəxsi öz yerinə təyin etdi. Dedi ki, mən öz qismətimi buna vermişəm, ayləmi-uşağımı, var-dövlətimi buna tapşırıram.

## 52. ŞAH ABBASNAN NADİR ŞAH

Şah Abbasnan Nadir şah o zaman bir yerdə tələbə oluflar. Nadir şah o qədər savatdı oluf ki, iki-üç ildən soora müəllim çatışmamazlığı oluf, onu qaytarıf Şah Abbasgilə dərs dedizdiriflər. Bular şahlığı oxuyuf qutaranda püşk atıflar. Şah Abbasın baxtı düşüf qoçun quyruğuna, Nadir şahın da püşkü düşüf buynuzunun arasına.

Bir müddətdən soora Şah Abbas vəzir yanında gəzintiyə çıxıf. Gediflər ki, üstü palçıxlı adamdı, bir daşın üstündə oturuf, amma bir sürü də mal var burda. Bunnan maraxlanıflar ki, sən kimsən, niyə bu daşın üstündə oturmusan? Bunnan sporraşıflar. Deyif:

– Mən buranın şahıyam.

– Ə, sənnən şah olar? Burda nə var ki, sən şah olasan.

Deyif ki, bəli, olar. O qara inəyin qarnındakı buzoyun nişanaların de görək nədi? Şah Abbas deyif ki, dal ayağı səkil, alnı təpəl, dişi buzoydu. Deyif ki, yarı nişanın düz dedin, amma birin demədin. Alnı təpəldi, quyruğunun uju da ağdı. İkisi bir yerdədi deyə sən onu seçə bilmədin. Mərc gəliflər. Şah Abbas deyir, mən bir belə qızıl verirəm bu inəyə, Nadir şah da deyif, mən də bir heylə qızıl verirəm, gətir inəyi kəsək. Kəsiblər, Nadir şah deyən çıxıb. Deyir ki, ə, sən hansı şahsan? Deyib:

– Sana dərs deyən Nadir şah.

– Bə niyə bu gündəsən?

Deyif ki, o vaxt püşk atılanda sənin baxdın qoçun quyruğuna düşdü, mənimki də buynuzuna. Mən quru yerdə qalmışam, amma sən quyruğun içində üzürsən.

## 53-54. KƏRBƏLAYİ KAZIM

Kalbay Kazımın iki oğlu oluf: Babakişi, Şiraslan. Bizim dədəmiz Kazımın bayısı uşağıdı. Kalbay Kazım babamın dayısın Arazın o tayında öldürüflər. Kalbay Kazım onda balaja idi. Yekələnif, çöldə-bayırda oynuyan vaxdı deyiflər, sənin babanı filankəs öldürdü, heç qanın ala bilmədilər. Gəlif deyif ki, ana, mənə bir on günnük çörək rahla, Araz qırağına gedəjəm. O vaxtı da heyvə olordu. Duror anası heyvəni rahlıyır. Kalbay Kazım gələndə özü danışermiş ki, ana, filan yerdə bir dostum vardı, atımı orda dəyişdim. Onnan bir at aldım, mindim getdim. Soraxlıya-soraxlıya düz geder həmən adamın qapısına. Deyif:

– Allah qonağı.

Deyif:

– Allaha da qurban olum, qonağına da.

Bular başdıyıflar söhbət eləməyə. Kalbay Kazım babam demiyif ki, mən Aşıqlıdan gəlmişəm. Bu kişi özü söhbəti açer ki, belə adam vardı, onu belə öldürdüm.

Gejəni burda qonax qalıf. Sabah deyif:

– Sən məni apar bərəyə mindir, mən gedim.

Gəlellər. Bunnan görüşör, öpüşör. Elə eliyir ki, bunnan şübhələnməsin. Kalbay Kazım da heyvəsində kəndir götürüfmüş. Deyif:

– Ot aşağa, bir halallaşax. Bir də mən gələrəm, gəlmərəm.

Elə bular aşağı oturuf söhbət eliyəndə kəndiri ater bunun boğazına, tez çəker. Deyir ki, buna heş kim inanmıyajax. Yerdən bir şey taper, bunnan bunun qolun kəser, götürür qoyur heyvəsinə. Onun da cəsədin tullor suya. Amma ona deyir ki, həmən öldürdüyün adamın mən bayısı oğluyam. İndi mən qanımı almaxdan ötrü gəlmişəm sənin yanına. Anam ağlıyıf ki, qardaşımın qanı alınmadı. Bax mən onçün gəlmişəm. Nə qədər əl ater, yalvarer, deyir yox ey. İtəliyir atır suya, kəndirin vuror, çıxer gəler. Gəler öyə. Deyir ki, ana, and belə, Quran belə, getdim dayımı öldürən addamı tapdım, gejə də öyündə qonaq qaldım. Öyündə yediyim çörək məni bağışdasın. Mən məjbur oluf getmişdim, orda çörək yeməliydim.

Onu öldürüf suya atmağın söhbət elədi. Anası da deyir:

– Ay bala, heylə şey olmaz, sən onu nətər öldürdün?

Deyif ki, ana, dur heyvəni bura gət. Gedif heyvəni gətirer. Baxır görör ki, qolun vuruf, büküf qoyuf heyvəyə. Deyir:

– Döşümnən verdiyim süd halalın olsun, bala.

Dayısın qanın bax heylə alıf.

**54.**

Bizim bu Aşıqlı camaatı qış vaxtı Xocavənd rayonunda Qaraçux dağının ətəyində olurmuşlar. Qış vaxtı Kür qırağına da gəlirmişlər, orda olurmuşlar. 1902-ci ildə Hajı Qulunu qubernator Gəncəyə çağırır. Gəncə quberniyasında onun stolu varmış. Deyir ki, Hajı, Nikalayın qərarı var, biz ona görə səni çağırmışıq. Deyir ki, buyurun. Deyir, Nikalay qərar verif ki, Dağlıq Qarabağda, Xocavənd rayonunun ətrafında nə qədər köçəri tayfa var, hamısı çıxmalıdı. Hajı Qulu gəlif camaatı yığır başına. Bütün elat tayfalarınnan nümayəndə çağırır. Deyir, vəziyyət belədi. Nikalayın qərarıdı, biz çıxmalıyıq burdan. Hajı Qulunun babası Hajı Qurbanın orda kəhrizi

də var, dəyirmanı da var, bağı, evi də olub. Hajı Qulu bunnarın hamısını qoyur, çıxır. Camaatın bir hissəsi narazılıq eliyir. Belə olur Qaçaq Kazımın qardaşın aparıllar Şuşa quberniyasına, orda asıllar. Kalbay Kazım deyir, mən buna dözə bilmərəm. Başına dəstə topluyur, qaçaxçılıq eliyir.

Onun gizləndiyi yerlər Dəli dağdı, bir də Qara dağ. Onun da ölümü belə olur ki, yaz vaxtı camaat dağa köçəndə Örənqaladan keçillər. Şıpartıynan Qara suyun arasında Yorğan dərəsinin aşağısında elat camaatının bir hissəsi düşübmüş. Kazımın qızı da orda imiş, adı Qızxanım imiş. Bir uşağa tüfəyi verillər, deyillər qızı vur. Uşaq da qızı vurur. Burdan bir neçə atdı Kürə gedillər, Kazıma xəbər verillər ki, qızı vurdular. Kazım deyir: "Bala, bilirəm nədi. Biz oraya gedəndə Nikalayın yasovulları hamısı gələjək".

Mən aşıq baxt dolaşıb,
Qan yerdə laxtalaşıb.
Qızxanımı kim vurub,
Köynək qana bulaşıb.

Orda belə bir bayatı deyir. Oğlanları da qaçaq idi: Şiraslannan Babakişi. Lakortaj addı nəçəlnik bir dəstə yasovulnan (Hindarxda oların dayancaq yeri varmış) Hindarxdan gəlir kəndin hər tərəfini mühasirəyə alır. Oğlu Şiraslan atını yatırdır, səngər kimi qayırır. Qaçax Kazım da qızının meyidinin üsdədi. Lakortaj deyir:

– Kimdi Kazım?

Deyir:

– Kazım mənəm.

Lakortaj buna atanda Kazım da onu vurur. Lakortaj ölür o saat, amma Kazım yaralanır. Yerli camaat da, qaçax dəstələri də gəlir, atışma başlayır. Kazım deyir:

– Şiraslan, məni buların əlinə vermə. Məni tüfəynən vur, get.

Deyilənə görə, atası ələ düşməsin deyə onu oğlu Şiraslan vurur. Oğlanları da qaçıb, Kəbirli kəndinin yanında Örənqalanın xarabalığı var, orda gizlənirlər. Sabah açılıf, ata süvar oluflar, Arazdan keçiflər İrana. Xeyli müddət orda qalıblar. Qaçax Kazımnan Lakortajı bir dəvəyə yüklüyüblər, buları aparıflar Xonaşen çayınnan

o tərəfdə qəlbi təpə var, orda dəfn eliyiblər. Yasovullar gedib arabaynan ağ daş gətirib qəbirin üstə qoyuflar.

Oğlannarı İranda bir müddət qalannan soora Xalac kəndində onnarın Hasanqulu bəy addı bir kirvəsi varmış, gəlif olara sığınıflar. Gejə oğlannarın ikisin də kirvəsi öldürür.

## 55-58. QAÇAQ MƏHƏMMƏD

Qaçağ Məhəmməd o vaxtı komsomol təşkilat komitəsinin sədri idi. Onun malı, qoyunu-zadı oluf. Bir nəfəri gətirib malına, heyvanına sərkər qoyur. Nökərrərinə də tapşırır ki, mən bir az aynabayna gedən adamam, bı nə desə ona əməl eliyin. Məhəmmədin kadını da həmin nökərnən görüşürmüş. Məhəmmədin də Həşim adlı bir əmisi oğlu vardı, kəndin yuxarısında bir yaxşı kişinin qızı ilə evlənmişdi. Bir gün kadınnar səhər-səhər oturub mal sağdığı yerdə, bunun yoldaşı görür kü, sərkər Məhəmmədin arvadının yatdığı otaxdan çıxır. Arvada deyir ki, ay xala, o kopoğlu sənin evindən niyə çıxır? Deyəndə bı deyir ki, aaz, kəs səsini, səy-səy danışma.

Arvad görür kü, gəlin başa düşüf. Məhəmməd evə gələn kimi deyir ki, bu nə fahişədi gətirmisən bura. Deyir, nədi? Deyir, bəs sərkərnən bir yerdə tutdum bını. – “Elə şey olmaz?” Deyir, hə. Bı arvad qurğunu qurur, sərkərə deyir, sən qaç. Sərkər qaşmaxda, Məhəmməd də bərk şüphələnir. Məhəmməd gəlin yiyəsinə deyir ki, gəlin qızınızı aparın. Gəlinin atası qızı çəkiv aparır.

Məhəmməd bir gün gözdüyür, iki gün gözdüyür, gedir sərkərin dalıncan. Buna deyir ki, a bala, bütün varı-dövləti sənə tapşırmışam, bu hökümətin də qurhaqur vaxtında niyə qaçıfsan? Sərkərin atası deyir ki, ay Məhəmməd, indiyənə kimi saa nə nökərriy eliyiv eliyif, bəsdi. Day innən soora getməsin. Sən allah, aparmaginan. Deyəndə, deyif ki, day indi ki, heylədi, heylədi. Birdən məni tutallar, ya bir şey eliyəllər, boşdu qalaram sizə. Onda gəlin haqqınızı verim, aparın. Bular da deyir, yaxşı.

Bular çuvalı götürüllər, gəlillər bunun evinə. Gəliv evdə oturullar. Məhəmməd deyir ki, kəntdə atriyad var, indi çölə çıxa bilmərəm. Qoyun axşam olsun, axşam gedəh kəndin başında dəyirman var, – o

da Məhəmmədin dəyirmanıdı, taxıl dəyirmandadı, – haqqınızı verim, götürün gedin. Burda da müəyyən adamlar varmış da. Bu adamlara xəbər verir ki, bular gələjək dəyirmana, buların başını əkməh lazımdı. Bular dəyirmana gedəndə ata-bala ikisin də öldürüllər, aparıb basdırıllar. Onnan soora Məhəmməd olur qaçax. Bayannan da Məhəmməd tələb eliyir, qohumları aparıf qızı da öldürüllər.

**56.**

Məhəmmədin xalası oğlu mənim atam oluf. O vaxdı atriyadın naçalniki erməni oluf. Deyif ki, Məhəmmədi kim tuta bilər? Deyiflər ki, Məhəmmədi heş kim tuta bilməz. – "Bəs kimə yaxınnaşır?" Deyiflər ki, bircə öz xalası oğluna, bir də xalasının əri Söyün müəllimə yaxınnaşır. Söyün bəynən mənim atamı tutuv aparıllar. Aparıb beş ay, altı ay saxlıyıflar. Buraxıllar ki, gedin onu tutun. Bunu da heş cürə tutmax mümkün döyül. Axırı atam Məhəmmədə deyir ki, öyün yıxılsın, günahsız yerə bizi də öldürəjəhlər. Sən bu ölkədən çıx get da. Bunu keçirillər İrana. Orda da xata qarışdırır, bir də qayıdıf gəlir. Qayıdıf gələndə həmən atriyadın naçalniyi Petrasyan Qrişa bunu eşidir. Gənə gəlir, kəsir Seyidnən Söyün bəyin üstünü. – "Bəs niyə onu tutmursuz, sizə nə dedim?" Bular gənə and-aman eliyir ki, onun başının dəstəsi var, biz onu nətəər tutağ, neyniyək?

Buları çəkir Məhəmmədin məhləsinə, ordan aparıb ikisini də güllələtdirir. Bular da begünah yerə getdimi? Məhəmmədin həyətində dərin quyu varmış, buzxana qayırıfmış. Mənim atamnan Söyün bəyin meyitlərini ora töküf üstünə də iki-üç maşın sal daş töküflər. Onnan soorasına hak-hesaf qarışır. Bu tərəfdə Qaçaxlar qırılan yer var, atriyad Məhəmmədin dəstəsin orda mühasirəyə alır, amma ora girə bilmillərmiş. Həmən o gəlinin atası da qızını begünah yerə öldürtdüyü üçün Məhəmməddən narazı idi. Yolu nişan verir, heylə olur Məhəmmədin dəstəsini qıra bilirlər. Ordan iki nəfər, üç nəfər sağ çıxa bilir, qalan hamısı qırılır. Orda oğlannar varımış rusdar bombanı tulluyurmuş, o, papağıynan tutuf qaytarıf tulluyurmuş atriyadın içinə. Rusdar deyirmiş, hayıf, hayıf, napornı iyiddər var orda. Hayıf olardan ki, qırılajax.

**57.**

El-oba dağa köçəndə Məhəmməd deyirmiş mənim alaçığımı hündür yerdə tikin, görüm kim nə işnən məşğuldu. Hər gün oturub o alaçığın qabağında baxırmış ki, görüm kim gəlir obaya. Burda Cəbreyil addı bir kişi vardı. Məhəmməd görür kü, bu bir gün gəlib Qədir məəllimin çadırının yanında oturub çay içir, bir gün gedir o birinin, bir gün gəlir mənim. Fikirrəşir ki, ə, bı niyə belə eliyir? Bının da ayləsi var, uşağı var. Öz adamlarına deyir, niyə hər səhər Cəbreyil bir qapıda oturur? Deyillər, onun ayləsi yoxdu. – "Ə, nətəər yoxdu". Çağırır deyir, gəl bıra. Sən niyə ayləni gətirməmisən dağa? Deyir, nə bilim. – "Ə, oğraş, vijdansız. Nə bilim nədi. Sənə vaxt verirəm, buyünnəri gedirsən, arvadı, uşağı gətirirsən bura". Səhər tezdənnən onlar cadırının qavağında olmasa özündən küs. Heylə də olmuşdu.

**58.**

Məhəmməd qoçağ adam oluf. Burda tükanı olub. Qaradağlı kəndinnən Əliş addı birini maqazinçi qoyuflar bura. Bı gedif Selpo-dan mal gətirib. Yaxşı mal gətirib maqazinə doldurduğu yerdə, Zeyvədə Qaçax Mənsim deyillər, bular gəlib tökülüf maqazinə. – "Ə, o topu bura yendir, bunnan bir otuz metr ölç, onu yendir bıra qırx metr ölç". Bı da görüfdü kü, bular Selponun malını aparajaxlar. Deyiv, ə, mən nağayrım, nətəər eliyim? Pünhannı çıxır çölə. Görür kü, bir balaca uşax durubdı. Deyir, a bala, Məhəmmədin qapısını tanıyırsanmı? Deyif ki, hə. – "Tez qaş get, gör olarda kim var? Məhəmməd əminə deynən ki, Əliş əmim deyir ki, tez özünü çatdırsın mana, maqazini dağıdıllar". Uşax da bajarıxlıymış da. Gedir xəbər verir. Xəbər verir, bı gəlir. Yapıncısı varımış, belə salıf çiyninə gəlir, girir içəri. – "Salamməlöyküm". – "Əleykümətsalam". Olar hamısı smirna durur. Deyir, ə, Mənsim, nə iş görürsən, nağayrırsan? Bəs sizə deməmişəm ki, mənim teritoryama hərrənmiyin? Deyir, ə, day sən qoymursan dana biz dolanağ. Deyir, ə, nə dolanmax. Bı devlət malıdı, bının öz malı döyül. Bını sən yığıf aparajaxsan, bını savax tutuf soxajaxlar dama. Onnan həmin qaçaxlar çıxıf gedir.

## 59. QAÇAQ ŞAXMALI

Şaxmalı Nikalay qaçağı oluf. Şaxmalı qaçaxlığ eliyəndə Mir Cəfər Bağırov gələr. Deyər ki, o heç kəsin sözünə baxan döylü, bəlkə dayısı oğlunun sözünə baxar. Bağırov atama xəbər göndərir. Mir Cəfər Bağırov, Hüsü Hacıyev, bir də şoferi gəlir Tərtərə. Atamı götürüllər, gəlillər mamam gilə. Mamamın adı olur Pəri xanım. Yaxşı yemək-içmək hazırrıyır. Atam Şaxmalıya sifariş göndərir ki, gəlsin. Hüsü Hacıyev də tez-tez abışkadan baxırmış. Bağırov deyif ki, Hüsü, Şaxmalı bıra tək gəlmir a, azı qırx atdıynan gələjəhdi. Bir də görüllər tappatap gəldilər. – Bunu mənə mamam danışırdı. – Yeyif içillər. Bağırov deyir, Şaxmalı, mənim sənə hayıfım gəlir. Atına da mandat verim, tüfəyinə də kağız verim. Ağdam deyirsən, Ağdama, Kəlbəcər deyirsən Kəlbəcərə rəis göndərim səni. Özü də Şaxmalı ona Bağırov deyə müraciət etmiyif. Deyif, seyid, ayağa dur. Bağırov duruf ayağa. Deyir, istoldan belə gəl. Gəlir. Deyir, burda sana inanıram, amma sən istolun dalına keçəndə sənə inanmıram. Mən də gedəjəm, sən də gedəssən. Mən bu quruluşa inanmıram. Bağırov onun boynun qucaxlıyıf, deyif, get, genə fikirrəş. Deyif, fikirrəşərəm, amma seyid, xeyri yoxdu.

Şaxmalını öz mehtəri öldürür. Mehtəri güdürmüş bunu. Su başına çıxanda mehtəri daldan onu atır. Üç gün onun meyidinə yaxın dura bilmirlər, ehtiyat edirlər ki, birdən bijlik eliyər. Heylə oluf ölür.

## 60. QAZANPAPAQ OĞLU

İsgəndər Qarabaği Bərdədə atriyad naçalniki olub. Buna xəbər gəlir ki, Qazanpapaq oğlu Əyricədə filankəsin evindədi. Bunnar atdanıf gedillər ki, bunu tutuf gətirələr. Gəlib həmən evi mühasirəyə alırlar. Qazanpapaq oğlu da evin içindəymiş. İsgəndər Qarabaği camaatın içiynən gedif gəlirmiş belə. Qazanpapaq oğlu çıxır, – gümüş dəstəli naqanı var imiş, – naqanı əlində sürahinin üstündə duruf baxırmış.

İsgəndər Qarabaği deyir:

Mən İsgəndər Qarabaği,
Axtarıram o Qazanpapaği.

Biri deyir:

– İsgəndər əmi, neyniyəjəhsən onu?

Deyir:

– Onun atasını yandırıf o gümüşdəstə naqanı özüm bağlıyajam belimə.

Belə deyəndə Qazanpapaq oğlu deyir ki, İsgəndər əmi, o sözü bir də təkrarla. Baxır ki, başının üstündədi, naqan da əlində. Baxır, baxır, deyir:

Mən İsgəndər Qarabaği,
Olmuşam zəmanə qurumsaği.

## 61-64. CƏBRAYIL QAÇAQLARI

Qaçaq Süleyman kəndin ağsakqalı oluf, yeddi qardaş oluf. Özü də o tayfa çox qüvvətli oluf. Süleyman kişini Bağırov çağırıf ki, saa vəzifə veririk, keç partiyaya. Bu da gedif Hacı Qasım Çələbinin yanına ki, Çələbi, maa belə bir iş təklif eliyirlər. Qasım Çələbi deyif ki, özün bilərsən. Süleyman da deyif ki, bir ürəkdə iki bilet olmaz. Çələbi, mən sovet hökumətini boşadım.

Bir komandirin arvadı Rusiyetdən gəlif çıxmışmış Cəbrayıla. Həmin gəlinin ərini Şıxlar deyilən yerdə doğruyullar, dərəyə tökül-lər, atın aparıllar. Gəlinin ərini öldürən Şıxlar kəndinnən olur. Gəlinin ərini dərədə gülləliyir, sapoğun, şinelin də götürüf gəlir. Gəlin də and içif ki, mən ərimin qanın elə alajam ki, onun əvəzi olsun.

Bizim kənddə top qurmuşmuşlar ki, bütün kəndi ləğv eliyələr. Bağırov gəlir deyir ki, burda olan uşaqlar sovet hökumətinə lazım olar, bir dayanın. O arvad gəlir çıxır ora. O deyir, gərək mən ərimin qanın alam. Onu göstərillər, bunu göstərillər, qadın razılaşmır. Əşrəf Süleymanın balaca qardaşı olur. Teli varmış. O tərəfdən telin ata-ata gələndə Zülfüqar kişi deyir ki, Allah sənin evini yıxsın, səni kim çağırdı bura? Səni güllələyəjəhlər. Arvad onu görən kimi deyir,

bunu mənim gözümün qabağında güllələyərsiz, onnan soora bu kənddən mən əl çəkəjəm. Onu çağırıllar Məçit daşına. Əşrəf Zülfüqar kişiyə deyir ki, mən əşədənimi oxuyum, barmağımı aşağı salanda məni vurun. Gedir əşədənini oxuyur, qutarannan soora əlini salır aşağı. Saldatdara əmr eliyirlər ki, vurun. Heç biri vurmur. Dərgahov familyalı biri vardı. O deyir ki, mən onu vura bilərəm. Götürüf aftomatı kürəyinnən vurur. Rusun arvadı əmr eliyir ki, bir də vur. Vuranda yıxılır. Yıxılannan soora o kadın gedir qulağın belə qoyur, görür hələ nəfəsi var. Deyir ki, bu ölmüyüf, gəlin bir güllə də bunun təpəsinə vurun. O bir gülləni onun təpəsinə vurur. Bular qutarmamış qaçaxların dəstəsi Məçit daşınnan çıxır ağzı bəri. Qaçaxların atı o yannan bəri gələndə həmən qadın deyir, ərimin atı gəlir. At ona yaxın gəlir, kadın da onun üzünnən öpür. Deyir, atımı aparajam. Rayonatan aparır, ordan ayana bilmirəm.

**62.**

Bağırov Sirik qaçaqlarını çağırıb deyir ki, silahı təhvil verif təslim olun, sizin hərənizi bir rayona başçı qoyajam. Bağırov ermənidən bir öküz gətirir, kəsir bizim kənddə. Qaçaqlar da Sultanın evinnən yuxarıda yığışıb gözdüyürmüşdər. Bağırov öz adamlarına deyir ki, çıxın biriniz əmr verin ki, bir-bir gəlin, barışıq eliyirik. Bəs, Bağırov gəlif, öküz kəsif, tutulmuyajaxsız. Olar gəlməmişdən qabax Bağırov qoşuna əmr verir ki, bir yer hazırrayın, bir-bir gəldikcən aparın oları salın Məcidin evinə. Ora da saldat qoyur. Buna da deyiflər ki, bular içəri girdikcən bir-bir qolların bağla. Bir-bir hamısın qolların bağlıyıf, bir Kor Abdulla qalıf. Kor Abdullanı axırda çağırıllar. O, rusca bilirmiş. Saldatlar danışanda eşidib ki, buların məqsədi başqadı. Qayıdıb deyir, ayıb olmasın, su başına çıxıram, maa icazə verin, gəlirəm. Ayax götürür ki, evdə həjət var, onu götürə, qayıda bu qoşuna ata, içəridəkiləri xilas edə. Bir ayağı çərçivədən içəri, bir ayağı çöldə daldan vurullar. Hamısın içəri salannan soora qolların bağlıyıllar qatıllar saldatın qabağına, aparıllar rayona. O gedən hələ də gedir, genə də gedir. Tutulan adamların içində Qaçaq Süleyman olur, Nazar olur. 1932-ci ildə tutulullar.

## 63.

Həcət nənəm Səlim kişinin ayləsi olufdu. Səlim babam da qaçax olufdu. Həcət nənəm Yasin çələbi yaşıyan damda olurmuş. Qaçaqları Məcidin evinə yığıflar. Şəminin tutunun divində də dövlət adamları olufdu. Kor Abdulla deyəndə ki, maa icazə verin ayaqyoluna gedim, bilirmiş ki, Səlim babamın evində tüfəy var. İcazə alıb gedir ki, silahı götürə ruslarnan atışa. Elə bir ayağı çərçivədən içəri girəndə arxadan vurullar. Deyillər, bu elə-belə ora girmir. Bu ev kimindi? Deyillər Səlimin evidi. Deyillər, o evdə silah var, bu onun üçün ora girir. Gəlif tüfəyi götürüflər, patronların da tələb eliyiflər. Həcət nənəm deyir ki, apardıq patronları verdik. Babangil o gedən getdi. Abdullanı da götdülər xəstəxanaya apardılar, ondan da xəbər olmadı. Amma Səlim babam qayıtdı gəldi, tut qızaranda öldü.

Nənəm Səlim babama çörək apardığın nağıl eliyərdi. Deyirdi kirişdə yağ aparardıx, ət qovuruf aparardıx. Vədə yeri vardı. Orda gejə verif qayıdardıx ki, heç kəs bilməsin.

## 64.

30-cu ildə Haramıda ruslarnan qaçaxlar arasında döyüş olur, orda Mərcannıdan yeddi nəfər adamı öldürüflər. Orda oluf Hacı Fərhad, Qolay, Əvəz, Hajı Göyüş, İsib.

Bizim kirvə Məmməd deyirdi ki, günüzdən rusun atdı dəstəsi İmamverdili Qara Hüsöynün dalına düşüb qavıf. Qara Hüsöyn özünü verif Şuşaya, onu tuta bilmiyiflər. Həm bu işə görə də narahatam, həm də gejə yuxu görmüşdüm. Yuxuda gördüm kü, qoz almışam. Məmmədxan dedi ki, gətir o qozu yeyək. Dedim, yox ey, evə almışam. Məmmədxan süpürrədi əlimdən aldı qozu. Yuxudan durdum, dedim, qoz çətinnikdi.

Hajı Fərhadgil də axşamdan gəliflər, Qolaygilin evindədilər. Deyir, durdum, çölə çıxanda baxdım gördüm ki... Üzdən irax, Sarala it var, çox tutucu itdi. Rus bu iti bir-iki dəfə gülləynən vurufdu, ona görə güllə səsinnən qorxur. Baxdım gördüm ki, it güllə səsini, barıt səsini alıfdı, girif çətənnən qənşərin arasına, orda gizdənif. Deyir, gəldim Qolay əmigilə. Dedim, Qolay əmi, belə yuxu görmüşəm,

amma Sarala it də gizdənif. Yəqin rus yaxındadı. Dedi, sən qorxursan, rus bura gələ bilməz. Molla İsmayıl dedi ki, yox, durmax lazımdı. Dərənin içindəyik. İki bir, iki bir dörd tərəfə adam getdi ki, görək hansı tərəfdən gələn var. Aydınnıx gejədi. Elə biz təpəyə çıxanda gördük ordu dayanıb orda. Geri qaçanda bular gülə atdılar. Biz də obanın üstünnən güllə atdıx ki, yoldaşlarımız xəbər tutsunlar ki, rus burdadı. Mən istiyirdim dərə aşağı qaçam. Molla İsmayıl məni tutdu, qaytardı dərə yuxarı. Biz salamat qaldıx, kim ki dərə aşağı qaçmışdı oları qırdılar. Hajı Fərhadı orda öldürüllər. Hajı Fərhadın oğlu Süleymannan qardaşı Molla İsmayıl, bir də qardaşı oğlu Məmmədhüsöyn o davadan sağ çıxırlar, həmin ilin yayı qaçax hərrənirlər. El arana gələndə Hajı Qaraman ojağının yanında bolşeviknən qarşılaşırlar, burda döyüşüllər. Molla İsmayılın arvadı da qoşulur bulara. Dilli arvadı da orda gülləynən vurullar. Süleyman, Məmmədhüsöyn addıyır İrana, Molla İsmayıl atı Araza vuranda Araza qədər çapılan at, sudan içib partdıyır. Molla İsmayıl keçə bilmir, gejə Xudafərində qalır bir evdə. Orda gejeynən Molla İsmayılı tutullar. Bir neçə ildən sonra Süleymanı da tutullar. Sooradan qərar çıxır ki, kim silahı yerə qoysa ona toxunmuyajaxlar. Məmmədhüsöyn onnan soora qayıdıf gəlir. Gələndən sonra onu da tutullar, on il iş verillər.

## 65. ƏTCƏ QAÇAQLAR

İmişli rayonunda Ətcə qaçaqları olub. Burda Rəfi kişi olub, yüz səkkiz yaşında ölüf. O söhbət eliyirdi ki, Ətcə qaçaqların İmran addı başçısı vardı. Mən çar hökumətinin polisi idim, İmrannan da dost idim. İmişliynən bizim aramızda dərin çökəklik vardı, adına Quytul deyirdilər. Dərin dərədi, yovşannığın arasınnan keçəndə heç at da görükmürdü. Ordan keçəndə gördük qaçaqlar burdadı. Nəçəlnik dedi ki, girəvə düşüb əlimizə, buları qıraq. Qalmışam qırıla-qırıla. İmran mənim dostumdu. Biz yüksəkdəyik, bular çökəkdə. Amma bular mahir atıcıdı. Bilirəm ki, atışma olsa, bizi qırajaxlar. Naçalniyin yanında tulası vardı. Naçalnik çox dedi, silahı qoyun yerə, təslim

olun. İmran tüfəyi fırladı birinci tulanı vurdu. Tula tullandı, az qaldı naçalniyin qucağına düşsün. Naçalnik durdu, durdu, dedi, qayıdın geri. Mən boyda adamı atın üsdə vurmadı, amma yerdəki tulanı vurdusa, bununla demək istiyir ki, səni mən vurmuram, çıx getginən.

## 66-67. SARI XAN

Sarı xan İrannan müharibə eliyifdi. Onun özünün qoşunu oluf. Oları qıra-qıra İranda Yüz quyunun düzünə qədər qovufdu. Altında kəhər at sevincək qayıdırmış. Qayıdanda kolun dibində bir yaralı əsgər güllə atır Sarı xanı vurur. Yıxılır atın boynuna. Arxadan adamları buna çatır. Deyir, mana gülləni belədən atdılar. Görüllər yaralı əsgər atıb. Əsgəri də orda öldürüllər. Sarı xan həmin yaradan Garısdar kəndində ölüb. Onun meyidini gecəynən dəvəyə sarıyıb yüz atdıynan aparıb peyğəmbərdə basdırıblar.

## 67.

Sarı xanın köçü gəlir. Arazın qırağına düşəndə deyir ki, bu çayın adı nədir? O vaxt deyillər Əraz. Deyir:

– Yox, bura düşməyək. Burda arvad çox olar, ər az olar.

Gəlir Kürün qırağına. Onun nəslinin çoxu Kürdəmirdədi. Deyir:

– Bu çayın adı nədi?

Deyillər:

– Kür.

Deyir:

– Kürrü bollux deməkdi, burda lövbər salax.

## 68-72. SADAY BƏY

Saday bəy oluf bəy Garısdan. Bizim Ağamməd kəndi Kürün bəri üzündə olub, o üzü də Garısdı. Bizim babalarımıznan onların xeyri-şəri bir olub. İntası aralarına nifaq düşüb. Bədəl Axıcannı tirəsindəndir. Saday bəy Bədəlin qızına elçi düşüb. Həbib kişi də

ağsakqal oluf. Saday bəy Həbib kişiyə deyif ki, Bədələ deynən qızı versin maa. Həbib kişi deyif, bəy, xayiş edirəm, bu söhbət aramızda qalsın. Deyif, niyə? Deyif, baş tutan iş deyil. Aranıza inciklik düşər. Deyif, yox ey, de. Həbib kişi bu söhbəti Bədələ deyif. Deyəndə Bədəl gülüf. Deyif, Həbib, sən nə dedin ona? Deyir, dedim ki, bəy, baş tutan iş deyil. Deyif, nahaq demisən. Gərək demiyəydin. Onun mənim qızımnan yaşıd bir qızı var. Onu versin mana, mən də Həyatı verim ona. Niyə deməmisən? Mən hazır.

Bu hadisədən sonra Saday bəy bacısı oğlu Musaynan gəlir Həbib kişigilə. Deyif ki, Həbib dayı, neylədin bu söhbətin axırını? Deyir, ay bəy, sənə dedim ki, mənim sözümə baxginən. Əmələ gəlmədi. Düzələn iş deyil. Saday bəy qayıdıf gedir.

Aradan bir neçə gün keçənnən soora görüllər ki, Saday bəynən Musa ikisi də atdı gəlir. Mənim atamın xalası oğlu Şahləddin də burda olur. Həbib kişi deyif, Şahləddin, Əlini də çağır, atları tutun. Saday bəy gələndə atları tutuf bağlıyıllar. Bular da gəlif, görüşüflər. Alaçığın altına tərəkəmə camaatı çətən qoyurdu. Aynalı tüfənglərini söyküyüflər çətənə, özləri də mitəkkəyə dirsəklənif otrullar. Çay gəlir. Çayı da mənim atamın xalası oğlu Şahləddin süzür. Hələ söhbət açılmıyıf, ordan-burdan söhbət eliyillər. Saday bəy istəkanı yarıyatan içif. Elə iskan ağzında Musa qalxıf ayağa, tez aynalını götürüf. Saday bəy deyif, nağarırsan, qanmaz? Deyif, bəs burnuma barıt iyi gəldi. – Bunu mənə atamın xalası oğlu söhbət eliyif. – Həbib kişi deyir ki, Musa, cavannığ eləmə, otur aşağı. Həbib kişi çıxır çölə. Görür ki, Əli tüfəngi götürüb gəlib girib kalafaya. Həbib kişi Əlini ordan qovuf, gəlif oturuf. Deyif, Musa, ağıllı ol, burda başqa şey ola bilməz.

Saday bəy çayı yarısına qədər içənnən soora deyir, Bədəl, Həbib kişiyə bir söz demişdim ey, o saa çatıf, çatmıyıf? Deyir, çatıf. İndi bunu soruşmaqda məqsədi odur ki, görsün Bədəl buna yox deyif, yoxsa Həbib kişi uydurub. Elə bunnan da söz qutarar. Bular duruflar. Atları gətiriflər. Minəndə Saday bəy deyif ki, Bədəl, demək sən dedin ki, düzələn iş deyil də. Deyir, xeyir, mən deməmişəm düzələn deyil. Mən düzəlməyin tərəfdarıyam. Deyif, Həbib, sən el

ağsakqalısan, niyə mənə belə çatdırmamısan bu sözü? Bədəl, mən isdiyirəm sənin verdiyin cavabı öz qulağımnan eşidəm, özüm şahid olam. Bədəl deyir, bəy sağ olsun, bu mana deyəndə dedim ki, bəyin bir qızı var, Həyatnan yaşıtdı. Onu versin mana, Həyat onundu, gəlsin aparsın. Saday bəy atı döndərif gedif. Onnan soora bu ziddiyyət düşüf aralığa, oluf düşmənçilik. Bu deyif Həyatı aparajam, o deyif nə vaxt yaşıdın gətsən, o vaxt apararsan.

Elə oluf ki, köç yaylağa çıxanda Bədəl qızı keçirif İrana. Saday bəy araşdırır ki, görsün qız hardadı. Nə qədər araşdırır, bir yana çıxarda bilmir. Yaylaxda Bədəl fikirrəşir ki, yaxşısı budu bu qızı ərə verim getsin. Bilir ki, nə qədər ki Saday bəy sağdı bu düşmənçilik aradan götürülmüyəjək. Yaxşısı budu nə qədər sağam bu qızı ərə verim. Qızın kəbinin kəsir, Həyatı verir əmisi nəvəsinə.

Yaylaxdan gəlillər. Saday bəy Mehman qamışdığındadı. Casıd[8] xəbər gətirir ki, Bədəl, düşmən qamışdıxdadı. Sən gəl bu yolnan getmə. Bədəl deyir, yox, mən o yolnan getməsəm Saday bəy deyəjək ki, mənnən qorxdu. Amma bilin, agah olun. Üzbəüz o maa güllə ata bilməz, amma arxadan vurajaxsa, qoy vursun. Sözünnən dönmüyüf. Gəlif Mehmannan keçəndə Saday bəy orda vuruf. Yıxılannan soora gəlif yanında duruf. Deyif, ay bədbaxt, özünü də bədbaxt elədin, məni də. Hayıf sana da, mana da.

**69.**

Saday bəy özü Bəy Garıstandı. Bir vaxtlar Muğannı camaatıynan münasibəti yaxşı olub, kirvə olub, gediş-gəlişi olub. Bədəlnən o siftə bir-biriynən çox mehriban oluflar, dost oluflar. Hətta Saday bəy Bədəl üçün Rusiyadan yük atı, fayton gətizdirib. Sooradan sooraya buların münasibəti pozulub.

Bədəlin Həyat adlı bir qızı olub, Saday bəy onunla evlənmək istiyib. Bədəl etiraz eliyib. Qızın analığı Saray Saday bəyi arxeyin eliyif ki, mən Bədəli razı salmışam, sən bir də elçi göndər. Saday təkrar elçi göndərəndə qızın atası elçini söyür. Bunların arasında

---

[8] Casıd – qasid

ziddiyət yaranır. Bədəl Bakı komissarlığına şikayət verir ki, Saday bəy bizi çapıb talıyır. Saday bəy o vaxtdan qaçaq düşür. Bu qaçaqlıq üç il davam elədi. Bədəli öldürdü, çoxlu nahaq qanlar tökdü. Kimin kimdən xoşu gəlmirdi, gedif Saday bəyə deyirdi filankəs səni öldürmək istiyir, o da onu öldürürdü. Çox nahaq qanlar töküldü. Saday bəyin kəndini də sürgün elədilər Qazaxıstana. 1972-ci ildə Qazaxıstanda əsgərlikdə olanda bir dostum məni İliski rayonuna toya dəvət elədi. Gəldi məni hərbi hissədən götürdü apardı evlərinə. Üzüm çardağının altında ağsakqallar oturmuşdu. Mən də bilmirəm bular kimdi. Toyda oynadım, çıxanda ağsakqallar çağırdılar ki, saldat, bura gəl. Gəldim. Mənə sual verdilər ki, a bala, sən hardansan? Dedim, Azərbaycandan. Dedilər, Azərbaycanın harasındansan? Dedim İmişlidən. Bular bir-birinin üzünə baxdılar. Bular sürgün olanda İmşili rayonu olmuyuf axı. O vaxdı rayon mərkəzi Qaradonnu kəndində yerləşirdi. Dedilər, a bala, İmişlinin əvvəl adı nə olub? Dedim, əvvəl Qaradonnu olub. Dedilər, ə, bunu əvvəldən de da. Mənnən soruşdular ki, sən hansı tayfadansan? Dedim ki, muğannıdan. Buların sifətində bir ifadə yarandı, mən az qaldım çığırıf qaçam ki, bular məni öldürəjəh. Dedi, a bala, muğannıdan kimin oğlusan? Dedim, Mayıl kişinin. Dedilər, Pənahov Mayılın? Dedim, hə. Dedim, ay bala, Pənahov Mayıl muğannı döyül axı, tomarxannıdı. Çünki atam o vaxdı Tomarxannıda oluf, olar da onu tomarxannı kimi tanıyıb. Buların üzündə xoş bir təbəssüm yarandı, bir az sakitləşdim. Dedilər, bala, biz Garıs kəndinnənik. Deməк, bu dava muğannıynan kürqırağlının qannıçılığı idi.

Atam söhbət eliyirdi ki, Saday bəy bizim yeznə Seyid Rəsulu öldürənnən soora onunla bizim aramızda düşmənçilik yaranır. Qaçaqların da gəliş-gediş yerlərini bilirəm. Saldatları düzdüm, bir dənə yer qaldı. Həmin yer də oların keçid yeri idi. Gəldim atriyadın komandiri Gülməmmədova dedim ki, orda bir yer qaldı, oların giriş yeridi. Deyir, üç dənə saldat verdi: biri plamyotçu, ikisi adi saldat. Aparıb buları həmin yerdə yerləşdirdim. Aradan bir saat keçməmişdi onda gördüm atışma oldu. Plamyotçu yaşlı rus idi, sərrast atıcı idi. O dedi ki, qaçaqlardan ikisini öldürmüşəm, hündür bir adam vardı, onu

da yaralamışam. Ölənlərdən biri Saday bəyin bacısı oğlu Musa olur, biri də başqası. Saday bəy yaralı-yaralı mühasirədən çıxır, gedir Məmməd addı bir qonaxçısı vardı onun öyünə. O da aparıb Mehman qamışında onu gizləyir. Orda da onu Ağcabədinin atriyadı tapır. Gülməmmədov deyib mən vurmuşam, olar deyib mən vurmuşam. Soora yoxluyuflar, məlum oluf ki, olar gülləni meyidə vuruflar. Məmmədi aparıblar, deyiflər ki, sənin günahınnan keçəjeyih, həqiqəti bizə deginən. Deməк, Saday bəy yaralananda gəlir Məmmədin evinə. Deyir, məni vur, sovet hökuməti sənə kalan pul verəjək. Vurmuyuf. Lötkəynən aparıb Mehman qamışdığına qoyuf. Saday bəy orda ölüb, Ağcabədi atriyadı da gəlib onun meyidinə güllə atıb.

Onun meyidini qoyullar arabaya, gətirillər Qaradonnu bazarına. Divara söyküyüf camaata nümayiş elətdiriflər. Onun meyidini görənlər deyir, o qədər uzun idi ki, ayaqları dizdən aşağı arabadan çölə çıxmışdı.

**70.**

Bədəlin adamları Saday bəyi Hasanalının damına qonaq çağırır ki, gəl sənnən Bədəli barışdırax. Qabaqcadan da pusqu qurullar, rusdarı gətirif ətrafa düzüllər ki, Saday bəy gələndə onun dəstəsini qırsınlar. Saday bəy gəlir. Elə atdan düşəndə Musa deyif ki, hara düşürsən bəy, görmürsən rus iyi gəlir. Əmim arvadı and içirdi ki, şar atıflar, şarın işığına ağcabədili oğlanı vurdular. Saday bəy qaçıb aradan çıxır.

**71.**

Yaylaxdan gələndə Həbib Bədələ deyir ki, gəl Kürün o tayınnan gedək, yoxsa Saday bəy səni vurajax. Deyir, ə, o üzbəüz mənə güllə ata bilməz. Bağır dayım atnan getdiyi yerdə gözünün altıynan görüf ki, qamışın içindən onlara sarı tüfəng tuşlanıf. Bədəl kişi də arxadan arabaynan gəlif çatıf. Bağır dayım görüf yönünü çöyürsə bunu vurajaxlar. Elə başını qaşıya-qaşıya deyir, Bədəl əmi, Bədəl əmi. İş işdən keçif. Bədəl arabanın boynunda ikən Saday bəy onu vuruf, yerə düşənnən soora da gəlir qarnın yarıf bir ovuc da qanınnan içif.

Düşmən kəsilənnən soora Bədəl Saday bəyə demişdi ki, sənin yurdunu yulğunlux eliyəjəm. Saday bəy də buna deyir ki, sənin qarnını balıx kimi cırajam. İkisi də dediyini elədi. Saday bəy Bədəlin qarnını balıx kimi cırdı, o da Saday bəyin yurdunu yulğunluğa çevirdi.

**72.**

Saday bəy deyif mənim üstümə nə qədər saldat, nə qədər qoşun gəlir gəlsin, qorxum yoxdu. Bircə Carrı Qüdrətin gülləsi mənə açılmasın.

## 73-77. HACI QULU

Bizim kökümüz Şüşəlidi. Maşad İslam, onun oğlu Hacı Şükür, onun oğlu Hacı Nəbi, onu oğlu Hacı Qurban, onun oğlu Hacı Qulu. Hacı Şükür yun almax məqsədilə gəlif. Görüf ki, bura yiyəsizdihdi, heyvan saxlamalı yerdi. Buların əsas bünövrəsi Kurapatkində oluf, Qarakəndin altında. Orda buların damları oluf, öyləri oluf, kəhriz çəkdiriflər. Orda taxıl əkirdik, bağlarımız olufdu. Ora oturacaq yerimiz oluf, mal-qaranı qışlağa bura gətirərdik. Soora bizi ordan köçürdülər, ermənilər yerləşdirdilər.

1918-ci ildə bizim yaylağa gedən camaatın qabağın erməni kəser. Şuşaynan da Çanaxçının arasında dərə var. 18-ci ildə burda qabağın kəsillər, tay qalır iyun ayınatan. Qoyun qırıler. Hajı Qulu bajısı oğlun götürör deyir ki, Çanaxçıda Şəmil bəy var, deyillər sürünün qabağını o kəsir. Gedək onun yanına. İkisi gedif burdan. Özüynən çörək də götürmüşmüş. Namaz qılanmış da, erməni çörəyi yemirmiş. Bajısı oğluna deyif ki, üç günnük, dörd günnük çörəyimizi götür, bəlkə gej gəldik.

Erməni dığaları post quruflarmış. Bulara deyir ki, gedin Şəmil bəyə deyin Hajı Quludu gələn, bəlkə məni qəbul elədi. İyun ayıymış. Çox heyvan da qızdırmadan qırıler. Şəmil bəy deyir, mən sənə icazə verəjəm, elini gətir addat, amma mənim dığalarım nə qədər qoyun tutsa, çox da bənd olma, qoy aparsınnar. Hajı Qulu 18-ci ildə sürünü heylə dağa aparmışdı.

**74.**

Hajı Qulunun Qunça addı bir bajısı varmış, qoçaq qadın imiş. Ağdamın Şelli kəndində bir qabırstannıx var, buların orda ölüləri var. Məşhur bir bəy oğlu deyir ki, sənin bajın ürəklisə, bu şişi aparsın beyjə filankəsin qəbrinin ayağına sancsın. Çağırır bajısını. Deyir:

– Ay Qunça, bular belə məslahat eleer, yerinə yetirə bilərsənmi?

Deyir:

– Ay qardaş, o nəmənə şeydi, eliyərəm.

Arvad geder. Bunun dalınca da iki nəfər geder. Göröllər ki, bu qabırstannığa tərəf geder. Arvad çatır qabırstannığa, tələsdiyinnən şişi tumanının üstünnən sancer. Nə qədər çəker, tumanı gəlmer. Elə bilir ölü bunu tutuf. Deyir:

– Ay qəbir yiyəsi, mən mərc gəlmişəm, burax məni gedim, istədiyin vaxt gələrəm.

Bir də yoxlor, görör öz tumanının üstünə sancıb. Bəyin adamları sabah gedif yoxlor, göröllər şiş ordadı. Hajı Qulunun bajısına onda bir dəst paltar vermişdər.

**75.**

Gəncə quberniyasında Hajı Qulunun stolu olub. Bunu çağırıllarmış ora, əhali haqqında məlumat verirmiş. Burda da nə hadisə olsa, onun qarşısını alırmış. El ağsakqalı oluf. Nənəm deyirdi ki, otuz ailə vardı başında, oları dolandırırdı.

Əsgəran qalasında ermənilər yolu kəsif. Onda da Kürdən bəri köçəri əhaliyə Təhlə camaatı deyirmişdər. Ağdamın üstündə Əsgəran qalasında Təhlə camaatının yolunu kəsillər, dağa qoymullar. Elat camaatı yığılıf ki, Hajı Qulu nə məsləhət eliyir. Onda Hajı Qulu deyif ki, mən gedif Şəmilnən görüşəjəm, amma tək gedəjəm. Yanımda adam getməyi düzgün döylü. Bu tək gedif. Qardaşının nəvəsi deyif ki, mən dayımı tək buraxa bilmərəm. Daldan atnan gedif. Deyif, nahaq gəlmisən. Deyif, mən səni tək buraxa bilmərəm.

Şəmil bəynən danışıf ki, bu həll olunmalıdı, mal-qara qızdırmadan qırıler. Nənəmin dediyinə görə babam iki qızıl dolu buxçanı üst-üstə qoyuf bir buxça eliyif, alıf qucağına. Verif Şəmil bəyə,

yolu aşdırıf. Şəmil bəy deyif, amma bircə şeyi deyirəm sizə. Hər sürüdən keşdihcə bir heyvan tutulajax, ona heş kim dillənmənsin.

Kürdəmir, Zərdab, Ucar, Biləsuvar, İmişli, Ağcabədi – bu zonanın adamları dağa Əsgərannan keçif gedillərmiş. Dağa çıxannan soora onnarın ağsakqalları gəliflər ki, Hajı Qulunun haqqını ödüyələr. Pulu almıyıf. Deyif, onun savabı maa bəsdi.

**76.**

Hajı Qulu həmişə qoyunu bölüf çobannara verermiş ki, aparıf satsınnar. Aparıf Yerevanda, Gürcüstanda, Gəncədə satermışlar. Bir dəfə də yığıf erkəkləri verif. Çobannar gedif, amma aradan nə qədər keçir qayıdıf gəlmellər. Özü tək atı minif gedif. Soraqlaşa-soraqlaşa Goranboya qədər gedifdi. Orda deyiflər ki, hə, olar gəldi. Qalan heyvannarın da burda satdılar, çıxdılar getdilər. Elə o iznən gəlif bir dərəyə çıxır. Gəlif ki, dərədə çivin vızıllaşer. Çobannar ölüf qalıf dərədə. Böyük qardaşım danışır ki, çobannarı öldürüflər, pulların soyuflar. Buları çöyürdükcə iy vuruf, onnan xəsdəlik tapır. Gəlif burda dağa çıxıf, Ağdamı keçəndə artıx rəhmətə gedir. Ordan dəvədə gətirif peyğəmbərin kümbəzində dəfn edillər.

**77.**

İrannılar bura tez-tez yağmaya gəlirdilər. Apardıqlarını aparırdılar, apara bilmiyəndə quyruğun kəsif quyruqların aparırdılar. Buların əlin kəsdiyinə görə olar Hajı Qulunu öldürməyə fürsət gəzirdilər. Hətta bir dəfə İrannan Əsgərxan addı biri onu öldürməyə gəlif. Hajı Qulu onu öldürüf, burda da dəfn eliyir. Olara da xəbər göndərir ki, öldürdüm, dəfn elədim. Onun adını da oğluna qoyur.

Hajı Qulunun üç oğlu vardı. Böyüyünün adı Kalbay Salahdı, onnan kiçiyinin adı Qədir, lap kiçiyinin adı Qədim idi. Hajı Qulu öləndə oğlanlarına vəsiyyət eliyir ki, irannılar gələndə oların üstünə getmiyin. Sizin köməyinizə heş kəs gəlmiyəjək.

İran atdıları gəlif Bərdədən qoyun çəkiflər. Hay gəlif bunun uşaqlarına ki, – Hajı Qulu onda üç aymış ölüfmüş, – bəs bizim qoyunu çəkdilər, kömək lazımdı. Qədimin qaynatası Pəsi kişi gəlif

ki, köməyə gedək. Hajı Qulunun oğlunun biri də xəsteymiş. Deyif ki, atamız vəsiyyət eliyif, getmiyin, sizin köməyinizə heş kəs gəlmiyəjək. Yox, əgər gedirsinizsə, mən də gedirəm. Onun sözünə baxmıyıflar. Deyif, qaynatam da gəlif, gərək gedək. Bular gedif qoyunu saldırıflar. On yeddi İran atdısı imiş. İrannılar aralanıfdı, bular da arxeyin oluf ki, getdilər. Hərə öz obasına doğru istiqamət götürəndə irannılar deyif ki, Hajı Qulunun uşaxların qırmax lazımdı. Atı sallıyıflar, buları mühasirəyə salıf qırıllar.

## 78. AZAD AĞA

Azad ağa Mehdiqulu xanın əmisi oğludu. Əslən Şuşalıdı. Mehdiqulu xan Qaraqoyunlu kəndini ona bağışlayıf. Azad ağanın dörd oğlu, iki qızı oluf. Behbud ağa Cavanşir böyük oğludu, Rəşid ağa Cavanşir, Surxay ağa, Həmid ağa. Azad ağa 1917-ci ildə Türkiyəyə qaçıf. Oğlunun birin göndərir Almaniyaya dağ mühəndisliyini oxumağa, Rəşid ağanı göndərir Peterburqa. Rəşid ağa 1937-ci ildə Peterburqdan qayıdıf atasının evində rus məktəbi açıfdı. Azad ağanın arvadının adı Balaxanım oluf, Cəmilli bəylərinnən oluf. 1886-cı ildə Behbud ağa Cavanşir anadan oluf. Rəvayətə görə, 1896-cı ildə Yevlaxdan o yana toya getmişmişdər. Onda Behbud ağanı da aparmışdar, on yaşı varmış. Qayıdanda görüllər qaraqoyunnular iki bir, üç bir gedillər Bərdəyə sarı. Behbud ağa atasınnan soruşur ki, ağa, bunlar hara gedillər? Deyir, bala, gedillər İmamzadaya ibadətə. Deyir, baba, elə olmaz ki, sən də meçit tikdirəsən, bizim kəndin adamı ora getmiyə? Belə oluf 1896-cı ildə məscidi tikdirif.

Azad ağa o qədər gözəl insan oluf ki, gəlin köçəndə faytonnarın qoşuf göndərirmiş oğlan evinə. Həmin faytonnan gedif qız evinnən gəlini gətirirdilər. Arvadı da mütləq həmin gəlinə bir hədiyə verərdi. Balaxanım xanım da o qədər əliaçıq oluf ki, camaat ona Balaxanım paşa deyirmiş. Məscid tikiləndə Balxanım paşa anama xəbər göndərir ki, ustalara yemək bişirmək lazımdı, gəl kömək elə, Mülayim xala. Anam, deyir, getdim ora yuxa yaymağa. Yuxanı yaydım, bir teşt yuxa bişirdim. Yanımda ət bişirən, aş dəmliyən vardı.

Hamımız elliklə tökülüb kömək eliyirdik. Tumanımın da bir yerində bir zolaq cırığı vardı. Axşam evə gələndə Balaxanım paşa əlin uzatdı ki, Mülayim, tumanın yoxdu geyinməyə? Əynində on dənə tumanı vardı. Birinin qatmasın aşdı, saldı yerə ki, bunu geyin get. Bir iri dəstərxan da yuxadan, ətdən yığdı, faytonçuya dedi ki, apar Mülayim arvadı qoy evə, gəl.

## 79. GÖVHƏR AĞA

Rəhmətdik Ağa kişi vardı, o danışırdı ki, Qaradağlı kəndi Gövhər ağanın mülküdü. Bir ucu gedif çıxır Ağdərəyə. Gövhər ağa özü qalalı oluf, bu ərazini də kimsə Gövhər ağaya bağışlayıf. Özü də sonsuz oluf. Ona görə bizə deyirlər ki, bura sonsuzun yurdudur.

Gövhər ağanın Yevlaxnan əlaqəsi varmış, atasının dostu orda yaşıyırmış. Axır son məqamlarda çox acınacaqlı vəziyyətə düşəndə dilənçi libasında gedir Yevlaxa. Maraxlanır, atasının dostunun evini tapır. Deyir ki, bir loxma çörəyə məni qəbul eliyərsiz nökər kimi qalam işləyəm? Bunlar da deyif ki, yemək verin, çıxıf getsin. Hiss eliyir ki, bunu qəbul eləmək istəmirlər. Deyir ki, sən filankəsin oğlusan? Deyir, hə. Sən məni hardan tanıyırsan? Deyir, sən o kişinin oğlusan, sənə yaraşmazdı məni bu qapıdan qovasan. Mən bu evdə qalmalıyam. O vaxtı Gövhər ağa hər şeydən yüz dənə saxlayırmış. Deyir ki, mən həmən Gövhər ağayam ki, atannan bir evli olmuşux. Onnan sonra onlar Gövhər ağanı qəbul eliyirlər, öz evlərində saxlıyırlar. Son məqamatan orda yaşıyır, orda dəfn olunur.

## 80. SƏFQULU

O vaxtı bəylər yığışırmış bir yerə, qumar oynuyurmuşdar. Ağdam rayonunun Tağıbəyli kəndində Tağı bəy varmış. Səfquluynan Tağı bəy qumar oyuyurlar. Səfqulunun şeş xanasında dörd dənə daşı qalır, şeş qoşa versə, oyunu aparmalıdı. Elə helə də olur. Səfqulu şeş qoşa atır Tağı bəyin nə qədər sürüsü, qoyunu var, yataq yerinnən bir yerdə udur. Dəmiryolundan o tərəfdə Tağıbəyli adla-

nan yeri Səfqulu həmin qumarda uduf. Arvad-uşağı qaytarıf, amma çobanı, iti, naxırı, bir də yeri saxlıyıf özünə.

Bir dəfə bəylər deyiflər, nədi bu, Səfqulu gələndə biz hamımız ayağa qalxırıx. Onlar sözü bir yerə qoyullar, deyillər ki, Səfqulu gələndə ayağa qalmıyajağıx. Yenə bunlar oturub yeyib-içdiyi yerdə Səfqulu gəlir. Bunlar hamısı özünnən asılı olmayaraq qalxıflar ayağa. O tərəf, bu tərəfə devikiflər. Səfqulu çəkilir küncə, beşatılanı alıf əlinə. Bunların bu hərəkətindən şübhələnib, elə bilib bunlar bunu öldürmək istiyirlər. Bunlara deyif ki, deyin görüm bu nə hak-hesabdı? Deyiflər ki, bəs biz söz vermişdik ki, sən gələndə ayağa qalxmıyajağıx. Amma istər-istəməz sən gələndə biz ayağa qalxdıx. Bu nə hak-hesabdı? Deyir, sizi ananız sizi nökərdən tutuf, amma mənim anam rəiyyət qızı olsa da, məni bəydən tutuf. Əsl bəy oğlu mənəm, ona görə mənim ayağıma qalxıfsız.

## 81. BİC MİRZALI

Aşıqlı obasında Mirzalı adında bir kişi varmış. Mirzalı kişi də başqa tərəkəmələr kimi qoyunçuluqla məşğulmuş. Mehdiqulu xan Cavanşirin darğası nə qədər əlləşirsə, yenə də Mirzalı kişini biyara, əkin əkməyə apara bilmirmiş. Heç tutluq vermirmiş.

Günlərin bir günü Mirzalı kişi çöldə qoyun otararkən baxır ki, bir fayton gəlir. Qəflətən qoyun itləri cumuxur faytona. At ürkür, fayton aşır. Demə, faytondakı xanın qızı Xurşudbanu bəyim imiş. Yeniyetmə xanım faytondan yıxılıb haça-paça düşür. Qol-qıç, üz qalır çöldə. Qızı qaldırıb üst-başını düzəldirlər. Elə bu zaman çoban hövlanak özünü yetirir. Baxırlar ki, neçə vaxtdı axtardıqları Mirzalı kişidir. Deyirlər:

– Ayə, qaçıb gizlənməyin bəs deyil, hələ bir xanzadəni də faytondan yıxırsan?! Düş qabağımıza gedək Qalaya. Orda səni xan şaqqaladar, sən də işinə baxarsan!

Mirzalı kişi deyir ki, baş üstə, gedərəm. Amma xan sizi də şaqqaladacaq. Qayıdırlar ki, bəs bizi niyə? Cavabında deyir ki, bəs

qızı infallı qoruya bilməmisiz. Xanzadənin haça-paça düşdüyünü gözümlə görmüşəm. Orda beləcə də xana söyləyərəm.

Xanzadənin məiyyəti baxır ki, çoban düz buyurur. Bu əhvalatı ağzından qaçırsa, xan heç kimi bağışlamayacaq. Ona görə də şirindil ilə çobanın gönlünü alıb sürünün yanına göndərillər. Həmin əhvalatdan sonra bütün tərəkəmələr bu çobanı "Bic Mirzalı" adlandırırlar.

## 82-83. SARI AŞIQ

Sarı Aşıx sazı qoltuğunda Cermuxa tərəf gederdi. Axı, Cermuxdan da bəri ermənilər qızdı-oğlannı yeyif-içib kef çəkerdilər. Aşığ geder, görör ki, sən öl, cavan qıznan oğlan sarmaşıx kimi qantəpərin içində dolanıb bir-birinə. Deyir:

– Dadi-bidad, mənim də cavannığım vardı.

Mənim kimi dişi-başı tökülüfmüş dana. Bir az kövrəler. Bu tərəfə yenişə baxır ki, mənnən də çox dişi-başı tökülmüş bir yaşdı adamdı, qanqal yeyir. Deyir:

– Ay çarxı-fələk, dünyaya bax ey sən.

Sazı sinəsinə endirif, zilin zil eliyir, bəmin bəm. Deyir:

Əziziyəm nərgizdər,
Bənövşələr, nərgizdər.
Burda bir maya gördüm,
Qoltuğunda nər gizdər.

Belə baxır, kişi də qanqal yeyir axı mənim kimi. Deyir:

Əzizim, bu damaxda,
Bu kefdə, bu damaxda.
Maya nər sevdasında
Balxı[9] da qanqal budamaxda.

**83.**

Sarı Aşığın bir bayatısı var.

[9] Balxı – dəvənin bir növü, dodağı sallaq olur.

Əzizim, Eyvazalı,
Köç gəler, Eyvazalı.
Çor yerinə can desən
Canın çıxar, Eyvazalı?

Eyvazallıya bir söz deyəndə deyir çor. Sarı Aşıq da demək isdiyir ki, çor yerinə can de da.

## 84. AŞIQ ƏLƏSGƏRİN ERMƏNİLƏRƏ XİTABI

1905-ci il ərəfəsi oluf. Ələsgəri o vaxtı ermənilər də çox toya çağırırmış. İndiki Kamo, köhnə Bayazit Kəvər deyirdilər, Ələsgəri bura toya çağırır Avanes kişi. Bu söhbəti mana Kəlbəcərin Aşağı İstisuyunda Ələsgərə balamançılıx eləmiş bir nəfər söhbət eliyif. Deyir, Ələsgəri toya çağırmışdılar, mən də ona balamançılıx eliyirdim. Toyun birinci gününü keçirdik, ikinci günü erməni Avanes bizi tezdənnən çağırdı. Dedi ki, dünən nə qədər qazanmısan? Rəhmətdik Ələsgər baba dedi ki, bir belə. Çıxartdı o məbləğdə də pulu stolun üstünə qoydu ki, bu da bugünkü günün hesabı, ara qarışıfdı, erməni-müsəlman davası gedir. Sizin kimi böyük sənətkara burda xata çatsa, ömrü-billah mana lənət oxuyajaxlar. Bugünkü günün də hesabını götür, gör özünü el-obana nətər çatdırırsan. Rəhmətdiy Aşığ Ələsgər üzü Göyçə gölünə – güney kəntdərinə doğru yol aldı. Təhlükədən xeylax uzaxlaşmışdıx birdən ayaxlarını saxladı. Ayaxlarını saxlıyanda elə bildim ki, yorulufdu, oturmağ istiyir. Dedi ki, yox ey, mən sazı çıxardıram. Baxdım ki, sazı köynəyinnən çıxardır. Dedim, Ələsgər əmi, qadan alım, nə saz, nə balaman? Dedi ki, ə, balamanı çıxart. İki aşığ ölməynən dünya qara geyinmiyəjəh. Ürəyimə bir neçə xanə söz gəlib, onnarı deməliyəm. – “A kişi, etmə, eləmə”. Dedi, balamanı çıxart.

Bud davası düşdü, dağıldı Göyçə,
Yühlə qəflə-qatır, burdan qaçaqaç.
Əcəl yeli əsdi, qəhrin ellərə,
Zimistanda boran-qardan qaçaqaç.

Nərədüzdən qoşun gəldi birbaşa,
İgidlər səf çəkib girdi savaşa,
Cığalı kəkliklər doldular daşa,
Sağım tərlan, bel at ordan qaçaqaç

Ələsgərin qəddin əymiş ...........,
Çarxı fələk, nə sitəmdi bu gərdiş?
Zamananın qulağını bur, dəyiş,
Bizi qurtar ahu-zardan qaçaqaç.

Tez deyir balamanı ağzımnan çıxartdım ki, cibimə qoyam. Deyir dedi ki, a bala, cibinə qoyma ey, havanı dəyiş.

Görmüşük zamanın etibarını,
Mənəm deyənnəri ağlar qoyufdu.

Dağıdıv ellərin külli-varını,
Neçə qapıları bağlar qoyufdu.

Şəriyətə ziddi, meydən qorxurux,
Qurannan, əlifdən, beydən qorxurux,
Adi bir nökərih, bəydən qorxurux,
Sinəmdə çal-çarpaz dağlar qoyufdu.

Ələsgər, mərdlərə sən eylə minnət,
Namərddən cavabın çox oldu töhmət.
Yoxsula zindandı, varlıya cənnət,
Sürməyə səfalı çağlar qoyufdu.

## 85. VERGİLİ İNSANLAR

Kəndimizdə Seyid Qağa var idi. Gejə yatıf vəəğamda görmüşəm ki, aşağıdan – bulaq tərəfdən əlində çəlik Seyid Qağa gəlir. Üzdən iraq, çoxlu itimiz var. Mən də ağacımı aldım, bunun qabağına getdim. Dedim:

– Ay seyid, başına dönüm, gəl gedək öydə mana qulfallah örgət.

Dedi ki, yox, öyə getmiyəjəm, amma bura sana bir şey tapşırmağa gəlmişəm. Dedim:

– Nədi?

Dedi:

– Sənin on dokquz yaşın var. Sən sınığa-çıxığa baxajaxsan. Birinin qolu qırılanda onu sarıyajaxsan, qılçı qırılanda onu sarıyajaxsan. Savırğa götürəjəhsən, kürək götürəjəhsən. Mal azarrıyanda onun dilin üstün artdıyajaxsan.

Buna dedim:

– Ay başına dönüm, bir belə adam var, niyə gedif ona demersən, gəlif maa deyirsən?

Maa dedi ki, sabahdan bu elatı gəzerəm, sənnən sümüyü pak adam tapmamışam. Səni tapmışam, sana da verəjəm.

Dedim:

– Seyid, başına dönüm, axı mən onu başarmaram.

Dedi:

– Yox, başarajaxsan.

Belə qolun qaldırdı. Dedi:

– Bax, görürsənmi bu qanadı? – Kürəyində qanadı varıdı. – Sən hara əlii vuranda mən bu qanadımnan uçuf gəlif sənin yanında olajam. Qorxmaginan, sən əlii vur.

Sabahları durdux, burdan köçüf ayrı yerə gedirdik. Öz qoyunumuzun biri sürünün içinnən teyləndi, qaşdı çınqıla düşdü, qoyunun ayağı qırıldı. Qoyunun ayağı qırılanda uşaxların atası dedi ki, – yanımızda da çoxlu kurotlar var, – aparım bunu kəsim, kurotlara paylıyım. Dedim:

– Yox, mana tapşırıx verilif. Görüm onu başarajam, yoxsa yox.

Mana tapşırmışdı ki, yumurttoynan elə. Mən də bir azcana unnan, balnan düzəltdim, yaxdım bu qoyunun ayağına. Qoyun üç-dört günə ayağın yerə qoydu. İndi əlli üç ildi mən bu sınığa baxeram, başına hərrənim. Heç peşman olmamışam.

## 86-87. XAN QIZI ARXI

Xan qızı Kirsin suyunu Şuşaya çəkdirəndə müsürmannar deyir ki, su bura gəlməz. Deyif, mən çəkdirəjəm. Ermənidən fəhlə tutuf. Deyif ki, bu su qalxmalıdı Şuşaya. Ermənilər də deyif ki, Xan qızı, olmaz. Hər addıma bir qızıl ata-ata gedif. Deyif, bax buroynan, bax buroynan çəkərsiz. Ermənilər qızılı dənniyif, Kirsin suyunu çəkif gətirillər Şuşaya. Kirsin suyunu Şuşaya çəkdirənnən soora Xurşid-banu Natavan deyif Haramıya su çəkdirəjəm. Gəlif Əmir Zeyiddinin yanında çadırı qurduruf, fəhləni töküf. Arxı başdıyıf qazmağa. Burdakı bazaya qədər arxı gətirif. Arxı orayatan gətirif, suyu buraxdırıf. Soora hansısa səbəbdən bu arx qalıf yarımçıx. Sovet dövründə həmin arxı davam etdirdilər, apardılar Ağcabədi rayonunda Qarqara birrəşdirdilər. Bu gün də ona Xan qızı arxı deyillər. Arazdan suyu götürür, düz Ağcabədiyə qədər uzanır.

## 87.

Peyğəmbərin yerləşdiyi əraziyə Kalbay Bayram kalafalığı deyilib. Natavan Xan qızı arxını çəkəndə Kalbay Bayramın oğlu Salmanın qoyununun kəhlimi[10] varmış. Babam deyirdi ki, Xan qızı təkatlı faytonnan gəlirdi. Xan qızı Natavan arxı çəkdirəndə körpü salmaq məsələsi gələndə Salman kişi deyib ki, mənim kəhlimimdən qoy körpünü. Çünki mən qoyunu yerin başına banlıynan[11] apararam. Aşağıdan qoysan körpü çalada qalar, su gələndə yuyub aparar. Amma bu banlıdan qoy ki, su yuxarıdan nə sürətnən gəlsə həmən o qəlbidən axıb getsin.

## 88. TƏRTƏR

Makedoniyalı İsgəndər Nüşabəynən görüşə gələndə qoşunuynan Tərtər çayının qırağında gejəliyir. Tərtər çayı da ildə bir neçə

[10] Qoyunun vanasından çıxıb örüşə qədər getdiyi yola kəhlim deyilir.
[11] Banlı – hündür yer

dəfə daşıf ətrafı basırmış, çox yeri dağıdırmış. Makedoniyalı İsgəndərin qoşunu yuxuda olanda çay daşıf, əlli-altmış əsgəri batıf. O vaxt deyir ki, Tır-tır mənim qoşunumu qırdı. Tərtər çayının adı ordan qalır.

İsgəndər ordan Bərdəyə gedir. Elçilərini göndərir Nüşabənin yanına, özü də onların içində olur. Nüşabə o saat tanıyır İsgəndəri. Qonaqlıq verir. İki stol açır: birində daş-qaş, qızıl üstündə dəsmal, o birisində də yemək. Nüşabənin də bir xasiyyəti varmış. Dünyada nə qədər sərkərdə var hamısının şiklini divara vurdurufmuş. İsgəndərin şiklini lap başdan vurdurufmuş. Deyir, buyurun yeyin çörəyi. Yanı bir belə yeri buna görə fəth eləmirsən? Ye da. İsgəndər pərt olur. Deyir, nə qədər mən varam, sənin ərazinə heç kəs gələ bilməz.

## 89. MƏMMƏD ÖLƏN YAYLAQ

Bu əhvalat Dərələyəz mahalının Her-heri kəndində olmuşdur. Keçmiş zamanlarda kənddə Məmməd adlı bir gənc yaşayırmış. O, kəndin qızı Narınla sevişirmiş. Bir gün onun ata-anası Həsən bəyin evinə elçi gedirlər. Məmməd kasıb olduğu üçün qızı ona vermək istəmirlər.

Kənd əhalisi Göy dağa yaylağa qalxıbmış. Məmmədlə Narın görüşməyə imkan tapa bilmirlər. Onlar belə bir şey fikirləşirlər: Narın Məmmədin sürüsündəki erkəci öz alaçıqlarına öyrəşdirir. Hər dəfə Məmməd erkəci aparmağa gələndə onlar bir neçə kəlmə də olsa danışmağa imkan tapırlar.

Narının anası görür ki, erkəc tez-tez onların alaçığının yanına gəlir, qızı isə ona çörək verib oxşayır. Bu işdən şübhələnir, erkəci tutub çatılayır. Məmməd qoyun sağımından sonra yenə də erkəci aparmağa gələndə görür ki, onu bağlayıblar. Narın başa salır ki, anası bu işdən şübhələnib, ona görə bir daha alaçığa yaxın gəlməsin. İş belə olanda sevgililər bir-birinə qoşulub qaçmaq qərarına gəlirlər. Belə də edirlər. Dumanlı, çiskinli bir gündə Məmmədlə Narın bir-birinə qoşulub dağlara üz tuturlar. Tikanlı gəzdən aşanda göy guruldayır, şimşək çaxır. İldırım Məmmədin atını və tərkindəki

Narını vurur. Məmməd öz sevgilisinin ölümünə dözə bilmir, ağlayaraq deyir:

Dağlar qarını ağlar,
Bağlar barını ağlar.
Şişmək çaxdı, Narın öldü,
Məmməd Narını ağlar.

Məmməd hər ehtimala qarşı tüfəy və barıt götürübmüş. Özü də bilmədən barıt torbası od tutur və bu oddan Məmməd alışır. O, odu söndürə bilmir, Narının yanında ölür.

Hadisə yerinə gələn Məmmədin anası oğlunun və sevgilisinin bu halını görüb belə bir bayatı çəkir:

Göy dağın bulaqları,
Göy bitib qıraqları.
Köçüb getdi macqalı,
Dağıldı hodaqları.

Elə o vaxtdan həmin yaylağın adı "Məmməd ölən" qalıbdı.

## 90. BURUC KƏNDİ

Allahverdi Babayevin dediyinə görə, Buruc kəndinin camaatı İrandan gəlmə adamlar olublar. Buruc kəndinə gəlib çıxana qədər bir neçə yurd dəyişiblər. Bir vaxtlar onlar Ağdərə rayonunun Şıxarx, Həsənqaya ərazilərində, sonra Sarov kəndində məkunlaşıblar. Ağdərənin Şahmalılar kəndi tərəfdə Buruc düzü də var. Axırda indiki Buruc kəndində dayanıblar. Bizim ata-babalarımız bahar günündə, ağaclar buruclayanda, yəni puçurlayanda burda məskən saldıqları üçün kəndi Buruc adlandırıblar.

## 91. SOLTANBUD TƏPƏSİ

Yaşlı nəslin nümayəndələrinin danışdıqları rəvayətə görə, Soltanbudda bir padşah olub. Burada da biri olub. İstəyiblər müharibə eləsinlər. Ağıllı adamlardan biri deyib ki, gəlin camaatı qırdırmayaq. Bir gecədə hər iki tərəfdəki əsgərlər iş görsünlər, at arabası

ilə torpaq daşıyıb təpə töksünlər. Hansı hündür olsa, o tərəf qalib hesab edilsin. Bax bu təpələr də, Soltanbud təpəsi də bir gecədə tökülüb. Soltanbud təpəsində ortada yol kimi bir cığır var. Nə isə, təpə tökülür. Burucda birinin yerinə yeddi böyük, bir neçə kiçik təpə alınır. Bu tərəf qalib gəlir. Ağsaqqallar Buruc tərəfdə olan təpələrin hündürlüyünə görə üstünlüyü onlara verir.

Başqa bir rəvayətə görə bu təpələr töküləndən sonra bir sual ortaya çıxır ki, niyə Soltanbudda bir təpə, burda bir neçə təpə yarandı. Bir ağsaqqal deyir ki, o qoşunda birlik güclüdür, onlar hamısı torpağı bir yerə töküblər. Bu tərəfdə isə qüvvə bölünüb.

## 92. TOPATILAN[12]

Topatılanda Nuru paşa tərəfinnən top quruluf, Talış kəndi vuruluf. Onun bir əsgəri varmış. Danışılana görə, əsgər topu elə atırmış ki, biri bura düşürmüş, biri ora. Onnan Nuru Paşa başa düşüb kü, bı ermənidi, xaç vurur. Cəbreyil kişinin anası olufdu, onun əri oluf İrannan. Nuru paşa deyif, kim bajarır top atmağı? Deyib, mən bajarıram. Atıb, düz gedib düşüb Talışın içinə. Talışın içinə düşənnən soora Talış kəndi başdıyıv ordan çıxmağa.

## 93. CƏHƏNNƏM QARADAĞLISI

Biz köhnə kişilərdən soruşurdux ki, niyə bura Cəhənnəm Qaradağlısı deyilir. Deyirdi, ay bala, Nikalayın devrində burda divanxana oluf. Gəncəynən Ağdamın arasında divanxana burda olufdu. Kəndin içində çinarlar var, divanxana onun dibində olufdu. Rusun əsgərləri tutulan adamları gətirirmiş ora. Burda həmin adamları döyürmüşdər. Nətər döydüklərini də deyim. Soyundurullar, əllərin də, qıçların da taxtaya bağlayıf taziyana şallaxnan döyürdülər. Əlavə də onun belinə soyux su tökürmüşdər ki, qanqrena verməsin. Onları heylə döyüb buraxırmışdar. Soruşanda hardan gəlirsən, deyirmiş cəhənnəmdən gəlirəm.

[12] Tərtərin Borsunlu kəndində yer adı.

## 94. İMİŞLİ

Atam söhbət eliyirdi ki, Kürün qırağında olurduq biz. Rayon mərkəzi onda Qaradonnuda idi. Rayon mərkəzinə indiki İmişlinin içiynən yol gedirdi, ordan gəlib gedirdik. İmişli rayonu ərazisində Arazın körpüsü var, onun yanında on-on beş ev var idi, murovxana deyirdilər. 1908-1910-cu illər idi. Bir gün ordan gəlif keçəndə gördük ki, yulğunluğun içində beş-on dənə ev var. Soruşdux bular kimdi, hardan gəlib? Dedilər ki, İranın İmaşlı kəndi var. Orda tirələr arasında qannılıx düşüf, ordan köçüf gəliflər. İmaşlı kimi buları tanıdıx. 30-cu ilə qədər İmaşlı kimi getdi. Soora burdan dəmiryolu düşdü, vağzal tikiləndə vağzalın qabağında yazıldı İmişli. İmaşlı sözü oldu İmişli.

## 95. KOR CANAVARIN QİSMƏTİ

Bir ağanın çobanı varmış. Günaşırı bir qoyun yox olormuş. Axşam ağa saneer, qoyun kəm gəler. Bürsüyün saneer, genə kəm gəler. Çobanı qovur ki, sürünü tələf eliyirsən. Çoban and içir, aman eliyir, ağa buna məhəl qoymer. Ağa özü geder qoyuna. Axşam qoyunu gətirəndə saneer, görör ikisi kəmdi. Deyir, bu nətər oldu? Çoban güdəndə biri kəm olurdu, mən özüm otaranda ikisi kəm olor. Atı minir, çobanın dalınca geder. Deyir:

– Mən səyf eləmişəm, bir gündə iki qoyunum getdi.

Çoban qayıdır gəler. Deyir:

– Bax, yatmeram, oturmeram, yanıma gələn olmor, qurd-quş gəlmer, bu qoyun hara geder? Bütün günü qoyunun içində hərrənəjəm, görüm hara geder.

Hərrəndiyi yerdə görör qoyun hoppanışdı. Geder oraya, görör bir quyudu, içində kor canavar. Allah-taala tərəfdən buna yem geder. Hay göndərir, ağası gəler. Deyir, oğrunu tapmışam. Deyir, hanı bə? Deyir, gəl bəri. Canavarı göstərir. Ağası deyir, onun gözün mən çıxartmışam ey. Deyir, gözün çıxartmısan, Allah-taala burda bir quyu yaradıf, atıf onu içinə, sənin döölətini yeyir da.

## 96. ÇOBANIN ÇOMAĞI

Bir nəfər Qızılboğazda qoyun otarırmış. Yaxşı yoğun çomağı varmış. Çomağın içini çıxartdırmışmış, ağzına da probka qayırmışmış. Ağası buna qızıl pul verirmiş. Bu, hakqını aldıxca xəlvəti ater oraya, ağzın bağlıyermiş. O göl də elə bir göldü ki, onun altınnan çaylar axer. Qayanın altınnan axer. Çoban qoyunu qaytaranda ağacı ater, geder düşör həmən gölə. Ağac qayanın altıynan axer, gəlib bulaxdan çıxer, bir çoban da bunu taper. Neçə ildən soora ağac yiyəsinin yolu burdan düşör. Bunun ağacın tapan çoban da çörək yeyirmiş. Deyir:

– Ay qardaş, yol adamısan, gəl çörək yeyək bulağın üstündə.

Görör bunun itən ağacı bunun əlində, üstünə də "Əli" yazılıf. Çörək-zad yeyir. Çobanın da bir qanunu var. Yad adama əlinin ağacın verməz. Çoban da vermer. Deyir:

– A qardaş, and belə, Quran belə, ağaja baxıf qaytarajam. Bir ujunnan sən tut, bir ujunnan mən, baxıf qaytarajam.

Dəsmalı cibinnən çıxardıf ağacın ağzındakı propkanı çıxarder, deyir:

– Qaldır.

Qaldırır, qızıl tökülör dəsmalın üstünə. Tapan məhətdəl qalır. Deyir:

– Əmoğlu, bu nə hakk-hesabdı?

Deyir:

– Filan ağanın çobanıydım, verdiyi hakkı onun içinə qoyurdum. Özüm də subaydım, ata-ana yoxuydu. Topalıyırdım ki, özümə bir iş görəm. Filan yerdə ağacı atdım qoyuna, getdi düşdü gölə, tapa bilmədim.

Tapan çobana deyir ki, ağacı ver mana, qızıl sənin olsun. Deyir:

– Nə ağac mənimdi, nə qızıl. Sənin olmasaydı, sən gəlif buraya çıxmazdın.

Birtəər beş-on qızılı götürör, ağacı da qaytarır özünə.

## 97. VARLININ OĞLUNA VƏSİYYƏTİ

Varrının biri oğluna deyir ki, bala, saa vəsiyyət eliyirəm, onu yadında saxla. Mən öləndə mənim ayağıma bir cüt corab geyindir.

Vaxt gəlir kişi ölür. Oğlu qoltuğunda corab gəlir ki, bəs atamın vəsiyyətidi, mən bunu onun ayağına geyindirməliyəm. Mollalar buna başa salıllar ki, mümkün döyül, dinimiz buna yol vermir. Bu adam bir belə ağnan o dünyaya getməlidi. Yəni bu dünyadan bir cüt corabı apara bilmir.

Oğlan burda barmağın dişdiyir. Başa düşür ki, atası demək istiyir ki, bir cüt corabı istəsəm də, mən apar bilmərəm.

## 98. KƏFƏNSOYAN

Bir adam imkansızmış, ölülərin kəfənin soymaxnan məşğulmuş. O vaxdı da sement-zad yoxuydu ha. Torpaxdı. Aparıf basdırıllarmış, gejə gedif çıxarıf, kəfənin gətirif satırmış, aylə-uşağın bunnan dolandırırmış. Hamı da yüz faiz bilirmiş ki, kəfəni soyan budu. Deyirmişdər ki, kopoğlu, sən pis günnən öləjəhsən. Deyir ki, nağarım, imkanım yoxdu da.

Bir gün bu kəfənsoyan görür ki, bir nəfər alma satır, bir yetim uşax da kim alma alırsa, durur onun yanında, gedəndə düşür onun dalına. Bir xeylağ gedir, buna alma verən olmur, təzədən qayıdıb gəlir başqa alma alanın yanına. Çağırır bunu. Deyir ki, bir kilo alma çəkin verin bu uşağa. Almanı çəkillər verillər buna, gedir.

Qabaxlar münəccimlər varmış. Kəfənsoyan ölür, bunu dəfn eliyillər. Kəndin ağsakqalı, qarasakqalı münəccimə deyillər ki, bunun haqqında bizə bir məlumat ver. Münəccim baxır, deyir:

– Vijdanım haqqı, o, cənnətin ən yaxşı yerindədi.

Deyillər:

– Nədəndi?

Deyir:

– Bircə kilo almanın hesabına Allah-taala onun bütün günahların bağışladı.

## 99. MƏN SƏNƏ DÜYƏ BAĞIŞLADIM, BU DAĞLARI BAĞIŞLAMADIM KI!

Bizim qonşu kənd varıdı, dağın arasındaydı, xəlvəti yerdəydi. Ordan bir bəy olur. Bir bəy də Arazboyu kəntdərin birindəydi. Yayda arandakı bəy malın aparırdı dağa, dostunun yanına, qışda da dağdakı bəy malını gətirərdi arana. Günnərin bir günü arandakı bəy malın gətirif qonağ olanda dağdakı yoldaşına deyir ki, ay dost, bura gələndə ağzım dada gəlir. Mənə bu sürünnən bir iki damazdıx inək verginən, mən də həməşə sizin bu daddı-tamlı süddən istifadə eliyim də, yeyim. Kişi də deyir ki, apar, nə olar. O naxır sənin, neçəsin istiyirsən versinnər. Deyir, yox, damazdığı satın alallar, damazdığı bağışdamazdar. Nəysə, iki düyə alır bunnan. Gəlir, nökərrərə də tapşırır ki, o düyələrin sütünü sağarsız, sütünü, qatığını, qaymağını mənə ayrıca verərsiniz. Sağıb verillər, amma əvvəlki dadı ondan ala bilmir.

Növbəti il gələndə bu, dostunun evində süddən-qatıqdan yeyir, doya bilmir dadınnan-tamınnan. Deyir ki, ay dost, bu nə sirdisə, o düyələrdən sağılan süd sizdəki südün dadın vermir. Tapşırmışam, ayrıca qulluğ eliyillər, ayrıca sağıllar, amma genə xeyri yoxdu. Gəldim, burda ağzım genə dada gəldi. Bu nətər olan şeydi? Dostu nə desə yaxşıdı:

– Ay flankəs, mən sənə düyə bağışdadım ey, bu dağları bağışdamadım ki? O dad-tam bu dağlardadı.

## 100. BU XINA O XINADAN DEYİL

Bir qarı varmış, heş kimi yoxuymuş, kimsəsiz imiş. Bir balaca qız nəvəsi varmış. Pastayannı bına deyirmiş ki, gəl başıma xına qoy. Qız bının başını xınalıyırmış. Xınalıyannan soora deyirmiş ki, öz əllərini də xınala. Onnan soora qarı çapan vururmuş, qıza deyirmiş dur oyna. Qız durub oynuyurmuş.

Bir gün belə, beş gün belə. Bı qız gəlir həddi-buluğa çatır, qəşəh qız olur. Bir gün biri oğluna qız axtarırmış. Deyir: "Ə, sən öl, bı qarının qızı nə gözəl qızdı, bını mən oğluma alım dana". Gəlir qarının yanına, deyir:

– A qarı, sənin Allah öyünü yıxsın, bı qız day yekələnib yekə qız olubdu, gözəl-göyçək. Bunu niyə yanında çürüdürsən? Bını ərə ver dana.

Deyir ki, a bala, kim gəldi qapıma vermədim? Deyir ki, elə mən. Ver mənim oğluma. Deyir:

– Verdim.

Razılaşıllar. İndi qıza toy olur, aparıllar. O vaxtı da gəlin kişi xaylağının arasına çıxmazmış daa. Qızın əllərini xınalıyan kimi qız aradan çıxır, başdıyır öz-özünə oynamağa. Kişi saymır, qadın saymır. Deyillər, bının Allah öyünü yıxsın, bu dəliymiş, nəymiş ə. Bu nədi belə? Nəkqədər eliyillər qızı dayandıra bilmillər. Yüyürüllər qarının yanına. Deyir:

– A qarı, sənin Allah öyünü yıxsın, bının başı xarav imiş, bizə niyə demirsən ki?

Qarı gəlir, görür kü, qız süzür. Əlini belə gözünün üstünə qoyur, görür kü, hə, qızın əlləri xınalıdı. Deyir:

– Ağız, ağız, a bala, oynama. Ağız, bı xına o xınadan döyül.

## 101-102. SAVAB ƏMƏL

Bir çoban varmış, bir abid varmış. Abid dindar, mömün adammış. Bu çoban heş nə bilmirmiş, elə namaz qılanda bir daşı qoyurmuş başının altına, deyirmiş:

Ağ qoyun, qara qoyun,
Başımı yerə qoyum.

Bu abid də bütün ili gedir bir dağın başında ibadət eliyir ki, Allah-taala mana cənnət bəxş eləsin. Allah tərəfinnən bir quş dimdiyində gündə bir dənə xurma gətirir abidin qavağına, bu da xurmanı yeyif onnan dolanırmış.

Vaxd olur ölüllər. Çoban gedir cənnətə, bu mömün adam gedir cəhənnəmə. Abid soruşur ki, noldu çoban? Gündə namaz qılan mən, sən heç namazın sözün, hərəkətin bilmirdin. Elə deyirdin ağ qoyun, qara qoyun, başımı yerə qoyum. Allah tərəfinnən vəh gəlir ki, çoban evlənəndə toy gejəsi görür gətirdiyi qız hamilədi. Çoban gözdüyüf ki,

qız hamiləlikdən azad olsun. Bunu heş kəsə demir. Uşağı bükür çuxasına, vurur kürkünə, aparıf heyvanı otarır. Axşam gələndə anasına deyir ki, ana, çöldən bir uşax tapmışam, verim gəlin saxlasın. Gəlin öz uşağını saxlıyır, bir il çoban da ona toxunmur. Bir ildən sonra həmin adamı tapır deyir ki, bu uşax da sənindi, arvad da sənindi. Götür, bir sən bil, bir mən bilim, heş kəs bilməsin. Abid deyir ki, bəs mən niyə cəhənnəmə düşmüşəm? Səda gəlir ki, o quş sana hər gün bir xurma gətirirdi. Sən bir dəfə ona demədin ki, ona bir dimdik vur. Bir dimdik xurmaynan sən aj qalmıyajaxdın ki. O quş həməşə o xurmadan umurdu ki, ona bir dimdik vursun. Sən ona onu təklif eləmədiyinə görə indi sən cəhənnəmdəsən.

**102.**

Bir dəfə bir kişi ehsan verirmiş. Bir çoban varmış, bu çobanın da arvadı ağır xəstə imiş. Bu kişi çağırır ki, ehsan verirəm, fılan vaxdı gəlin yeyin. Ehsan verən kişi görür ki, bu coban bir dənə dəsmalı aşdı qoydu böyrünə, istiyir bu aşı tökə onun arasına. Dedi ki, a kişi, yemək var, aparmax yoxdu. Aparmıyassan. Çoban korpeşman qayıdır.

Kənddə də bir qız varmış, evdə qalmışmış. O qızı çox əzazil deyirmişdər, göy deyirmişdər. Heş kəsə o qız heş nə vermirmiş. Belə bir qızıymış. Çoban təsadüfən gedir oturur qızın çəpərinin altında, ağlıyır. Ağlıyanda qız çıxır deyir ki, əmi, niyə ağlıyırsan? Deyir, bə getmişdim ehsan yeməyə, arvadım xəsdeydi, bir az da ona aparmaq istiyirdim. Ehsan verən dedi ki, aparmax yoxdu, yemək var. İndi mən arvadın yanına nətər gedim ki, o ağır xəsdədi, aş isdiyir. Bu qız deyir, gəl içəri. Gedir, aş dəmliyir, qazanı bükür süfrüyə, verir kişiyə. Deyir, apar ver arvadına, bu aşdan doyunca yesin. Nə vaxt ürəyi nəsə isdəsə, gəl mən verəjəm, aparıf verərsən, arvadın yeyər. Bu gətirir.

Bu minvalnan bu qız da dünyadan köçür, ehsan verən kişi də. Hamı deyir ki, bu kişi cənnətə düşəjəkdi, qız cəhənnəmə düşəjəkdi. Vəh gəlir ki, kişi cəhənnəmə düşüfdü, qız cənnətə. Deyiflər, niyə? Deyif, o aş məsələsinə gora kişinin nə qədər suvabı varsa yazılıb qızın boynuna.

## 103-107. EYVAZALILAR

Eşitdiyimə görə, bu kəndin bünövrəsi Borçalı mahalınnan oluf. Orda qan davası oluf. Heyvandarrıxnan məşğul olan Eyvaz addı biri qan davasına görə orda qala bilmiyif. İmişliynən Beyləqan arasında Şirinqum deyilən bir yer var, köçüf gəlif ora. Baxıf görüf ki, heyvandarlığa bura yararlıdı, burda yaşıyıf. Bunun da bir oğlu oluf, adını Alı qoyuf. Uşağ da yekələnif, heyvan da artıf. Oğlun öyləndirif. Baxıf görüf ki, qoyun bir yerə sığışmır. Deyir:

– Ay oğul, sən get o tərəfdə bir yatax düzəlt. Sən orda saxla, mən burda.

Eyvazalı sözü burdan yaranıf. Soora bular doğuf-törüyüf. Alıdan törüyənin birinin adını qoyuflar Murad. Muradın nəsli bu dəyqə də yaşıyır. Onun bir qolu da bizik. Atamızın ana tərəfi Muradın nəslinnəndir. Muradın Ataş və Balaş addı iki oğlu oluf, dörd də qızı.

Goranboyda da Eyvazlı addı kənd var. Danışığı, adət-ənənəsi biznən uyğun gəler. Buların kökü Borçalıdandı axı. Sooralar bir hissəsi deyif, gəlin qayıdağın ora. Goranboya çatanda çatığ alıflar ki, bir az burda dincələk, soora gedərik. Görüflər ki, bura da heyvandarlığa yaxşıdı. Burdan gedənnər qalıf orda. Olar orda bir kənd oluf. Olar deyillər ki, bizə Şirinqumlu Eyvazlı deyillər.

Kənddə dokquz tirə var: muraddı, hasanlı, məmmədli, bircəməmmədli, fərzalılar, azadlı, sarılar kök tirələrdir. Ovşar, qaradağlı sonradan gəlmədir. Qaradağlı İran qaradağlısınnan gəlmədir. O vaxtı olar gələndə İran tayında qalannar ağlaşermiş. Deyillər:

– Niyə ağlıyırsız?

Deyiflər:

– Siz getdiyizə görə ağlamerıx ey, getdiyiniz yerə görə ağlıyırıx. Siz getdiyiniz yeri xaraba qoyajaxsız.

**104.**

Deyilənə görə, biz Borçalıdan gəlmə tayfayıq. Beş-altı qardaş Borçalıdan köçüb Goranboy ərazisinə gəliblər, sonra da keçiblər bura. Buları dağ yerindən köçürüb gətirən əsas məqsəd nə olub? Qışlamaq dövründə mal-qaranı Mil düzündə saxlamaq üçün. Buları köçməyə məjbur eliyən səbəb bu olub. Yay fəsli Kəlbəcər, Laçın yaylağına, sentyabrın axırı, oktyabrda isə qışlağa köçürdülər.

Bizim kəndin əsası 1940-cı ildə qoyulub. İlk dəfə beş-on ev alaçıq şəklində gəlib burda məskunlaşıb. Aylə başçıları gedib ikinci dünya müharibəsinə, onların uşaqları imkan tapmıyıf ki, öz yüklərini yükləsinnər dəvəyə, aparsınnar yaylağa. Ona görə olar məjbur oluf qalıblar Haramı düzündə – Şıbartı su arxının üstündə. Şıbartının üstündə nə üçün tikiliblər? Əvvəla susuzdux idi buralar o dövr. Ona görə tikiliblər orda ki, onun suyunnan içmək üçün istifadə eləsinnər. Bir də arxın qırağında əkinə yararlı yer oluf ki, orda bostan-tərəvəz əksinnər, uşaxlar ajınnan qırılmasın.

Qırxıncı ildən soora rayon mərkəzi formalaşdı, inzibati ərazi vahidi yaradıldı. Rus inqilabçısının adıynan Jdanov adlandırıldı. Qırxıncı illərdə bir hissəsi tərəkəməçilikdən qayıdıb oturaq həyata keçdi. Bizim kənd yerimiz Kəbirlinin üstündə Yorğan dərəsi adlanan yer var, orda salınmalı imiş. O vaxdı müzakirə eliyiblər ki, qışda mal-qara Haramı düzündə qırılar. Demyə otlaq sahəsində yovşannan başqa heş bir bitki bitmədiyi üçün mal-qara qidalanıb yaza çıxa bilmirdi. Soora Yorğan dərəsinnən bu əraziyə köçürdüblər – Mil düzünə, Ağ göl ətrafındakı yataqlara. Sən sual verə bilərsən Haramı torpağıynan bu torpağın fərqi nə idi? Bu torpaqda yovşan, quşotu, qarağan, çərən, yulğun, qamış bitirdi. Ona görə də mal-qara qış fəsli burda qidalanıb özün yaza çıxarda bilirdi. Həm də Beyləqan-Gəncə asfalt yolunun üstü idi, Qarabağ kanalına da yaxın idi. Ona görə buranı seçmişdər. Kalxoz sədri Zəfər Mamedovun təşəbbüsüynən torpaq ayrıldı, ondan sonra burda məskunlaşdıq.

Mil düzündəki Qara təpə, Şirvanqulu təpə, Göy təpə, Çatal təpə, Elxan təpə, Şirinqum ətrafı bizim qışlaq yerimiz oluf. Yaylaqlarımız da Kəlbəcərin İstisuyu. Bir tərəfimiz Cermuxdan bəri Qızıl

təpəyə uzanırdı. Ayı çınqılı, Qara dağ, Sarımsaxlı dağ, Dəvəgözü dağı, Yüz bulax, Pəri bulax Eyvazalıların düşərgə yeridir.

Yaylağa Laçın yolu, bir də Ağdərə yolu gedərdik. Bizim yaşımızdan qabax Gəyən yolu deyirdilər, o yolnan yaylağa gedərdilər. Arazboyu gedirdik, Gəyən düzünnən keçirdik, Dağ Tumasın altınnan Həkəri çayı boyunca Zabuğ körpüsünü keçirdik, Sarı yoxuşa çıxırdıx. Ağdam yolu köçəndə qoyun bir köç eliyərdi Haramı düzünə. Haramı düzünnən dəvə yoluynan gedərdi Ergiyə, Pirə bulağa. Çatıx alardıx, orda dincələrdilər, qoyun su içərdi. Ordan da yüklənəndə gedərdilər Ağdamın Qarqarını keçərdilər, Tuğun gədiyini aşıb Xaçın çayının üstündə də çatığ alırdılar. Harda su hövzəsi, su mənbəyi vardısa, tərəkəmə orda tikilərdi. Ordan da tərpənəndə Qarabağın ərazisinə keçərdilər, Vəngin ətrafında bir gecəlik gecəliyərdilər. Amma çox da qala bilmirdilər. Çünki ermənilər imkan vermirdi, bir də örüş də yox idi. Ordan da köçənnən soora Mamanın yoxuşunun ayağında Taxtabaşı adlanan ərazidə çaydan keçərdilər, orda dincələrdilər. Meşə ərazisi orda qutarırdı, çimənlik başlayırdı. Ordan da köçəndə Mamanın yoxuşunu qalxardılar Çilgəz, Göybulağa. Orda da çatığ alardılar. Göy bulaqdan köçəndə Tutqu çayına yenirdilər. Sərt yer var idi, ölü[13] öküzdər orda sürüşürdü, yıxılırdı. Atın üstünnən uşaqları alırdılar ki, at onları yıxar. Orda da düşərdilər, çobanlar çay içərdi, çörəyin yeyərdi, qoyunlar dincələrdi. Nəhayət, Tutqu çaydan keçərdilər. İstər Xaçınçayda, istər Tutqu çayda qoyunu suya salanda qoyunu su götürüb aparardı. Çobannar atnan girərdi selin içinə, bir-bir qoyunun boynun dalınnan əlinnən tutub daşıyardılar qırağa. Yaxud da kəndlərdən araba gətirərdilər. Öküz arabasını saxlıyırdılar çayın aşağısında, qoyunu salardılar çaya. Su aparanda da gəlib arabaya dirənərdi. Uzun yalı qalxırdılar yuxarı. Orda da bir az dincəlirdilər. Aprel ayının 15-də köç başlıyırdı, mayın 10-na qədər gəlib çıxardılar İstisuyun taxtasına. Uzunyalı iki köçə (bir köç bir sutkaya bərabərdir – top.), iki dəfə çatığ almaynan gedərdilər. Bir köç beş-altı saat çəkirdi. Ağcaqız, Qara qayaya düşərdilər. Qara

[13] Zəif, əldən düşmüş mənasında işlədilir.

qayanın üst tərəfiynən gedərdilər Bağırsaq dərəsinə. Bağırsaq şəkilli uzun dərədir, nə qədər gedirsən qutarmır. Çoban da dincəlmək isdiyir, çatığı ala bilmir. Ordan da Hajı Söydümalı körpüsünə çatırdılar. O tayda bizim yurdlar görükürdü, uşaq kimi sevinirdik ki, yaylağa çatmışıq.

Yaylağa axırıncı köçümüz min dokquz yüz doxsanıncı ildə oldu. Həmin ilin payızında Vəngin dərəsində tərəkəmənin köç yolunun qabağı kəsildi, orda güllələnən, yaralanan da oldu. Axırı məjbur oldular Həkəri çayı boyunca Gəyən düzündən düşdülər Arazboyu gəldilər çıxdılar bura. Nə qədər mal-qara yolda ajınnan qırıldı.

**105.**

Su olmuyub burda. Oba yaylağa gedəndə Aranda qalana ağlaşırlarmış. Nənəm Tükəz söhbət eliyərdi ki, Eyvaznan Alı adında iki qardaş olub. Eyvaz xəsdələnib, qoyublar qalıb burda. Ağlaşıblar ki, bu öləjək. Qayıdıf gələndə görüflər ki, salamatdı. İkinci dəfə qardaşı da qalıf bunun yanında. Oba dağa gedəndə birinin bir ağırrığı olanda deyif, apar qoy Eyvaznan Alının yanına. Eyvaznan Alı soora oluf Eyvazalılar.

**106.**

Bizim kənd çılğın kənddi. Biri maa bir söz desin, onu mütləq yerində oturtmalıyam. Sovet hökumətinin vaxtında heç bura polis girmiyib. Kimsə bir xəta eliyib gəlib bizim kəndə sığınsa, camaat onu ələ verməzdi, müdafiə eliyərdi. Yazmaq-pozmaxnan aramız olmuyub. Məsələn, Əhliyar sovetdikdə işliyir, on dənə nöqsanı var, götürüm onnan yazım. Yox. Yazmaq-pozmaq bizim kəndlik döyül. Gəlib deyərik ki, çıx get öyündə otur. Bizim kənddə neçə sədr olub, addımını düz atmayıb, camaata baxmayıb, gedib idarənin qapısına mismar vurublar. Gəlib çəkəndə görüf bağlıdı, ona aydın idi. Deməli, camaat istefasını tələb edirdi, gedib oturordu öyündə.

**107.**

Sarımsaxlı, Qızıltəpə, Dəvəgözü yaylaqlarımız idi. Köç vaxtı Ergi düzündə, Ağdamı keçənnən soora Tuğun gədiyində Kor bulax vardı, orda düşərgə salırdıx. Ordan keçirdik Xaçın çayında, soora Vəngdə – Doşannıda düşərgə salırdıx, ordan keçirdik Talalara, soora Taxtabaşına, ordan Əvəlikli yurda, ordan Çilgəzi, Uzunyalı keçib gedirdik İstisuyun başının üstünə. Tərtər çayının mənbəyindən – Hajı Söydümalı körpüsündən keçib İstisuyun taxtasında Ceyran bulağında düşərgə salardıq. Gəlinqayanı da keçənnən soora öz yurtdarımız başlıyırdı. Yolçuluq 15-20 gün çəkirdi. Yolda yaxşı otlaq olanda bir az da ləngiyirdik ki, qoyun yaxşı yesin. Qabaxlar aprelin axırı burdan tərpənərdik, bir may bayramını İstisu yaylağında qeyd eliyərdik. Orda biri may çalası vardı, camaat yığılıb biri mayı orda qeyd eliyərdi.

Oba dağdan qayıdanda sentyabrın axırı gəlib qışlağa çıxırdı. Onda da qışlaq yerindəki quşotu, qarağan, söysök, sarıbaş kimi heyvan yeyən otların hələ ajı vaxdıdı. Ona görə o vaxdı qoyun onu yemir. Harda yonca sahələri var, su tutan yerlər var (o vaxdı həmin sahələr göylük olurdu) heyvanı orda bejərif, noyabrın axırı, dekabrda qış yatağına gələrdi. Onda da həmin otlar artıq şirinləşirdi, heyvanlar da onu yeyirdi. Payızdığımız Arazyaxasında olardı.

## 108. TATALILAR

Şirinqum, Qaratəpə, Küratan tatalların qışlaq yeri olub. İstisu, Qızıltəpə, Sarı yer, Alxan çayı, Qaraxaç, Yanıx, Dəvəözü, Yüzbulax bizim yaylax yerlərimiz oluf. Dədə-babadan Novruz bayramını eliyif, bayram aşını yeyif dağa köçüflər. Çünki burda artıx temperatur qalxır, heyvan qızdırır deyə çox saxlamaq olmur. Bizim dövrdə isə aprelin axırından köç başdıyardı. Kəlbəcərin İstisuyu bizim yazdax yerimiz idi. Yaz ayını orda keçirərdik. Həm oranın otu tez yetişir, həm də havası isti olur. Elə ki yay girdi, onda gedərdik Sarı təpəyə, Qızıl təpəyə, Dəvəözünə, Qaraxaça, Yeddibulağa. Payızdığımız da oluf Küratan. Küratanda hər kəsin öz yeri vardı.

Malı orda saxlıyardı, qoyunu isə Şirvana, Muğana aparardı. Yazda köçüb gələrdi. Yazdağın Küratanda eliyərdi, ordan da köçərdi dağa.

Köç iyirmi-iyirmi beş gün çəkirdi. Taxtabaşı, Çilgəz, Uzunyal, Yeddibulax, Xıdırrı yolu, Qara qaya, Narışdar, İldırımvuran qaya bizim düşərgələrimiz idi. Kim harda gəldi düşərgə sala bilməzdi. Dövlət tərəfindən yerlər ayrılmışdı, düşərgələrimizi orda salardıx. Adətən bir gün qalırdıx. Elə yer olurdu otu çox olurdu, iki-üç gün də ləngiyirdik. Bunnan qabax çox adam öküz saxlıyırdı. Erkək malı balaca vaxdı burullar, böyüyəndə yaxşı yük götürür. Camaat fərməşin, taxılın ona yüklüyüf gedərdi. Kimin dəvəsi vardı, dəvəsin yüklüyüf gedərdi.

Mənnən qabax Xonaşendə hərənin bir az yeri varmış. Orda taxılı əkif gedəllərmiş dağa. Biçin vaxdı gəlif taxılı biçdirəllərmiş, yığallarmış oraya, genə qayıdallarmış dağa. Dəvə dağda çox qala bilmirdi. Yay yarı olanda dəvələri götürəllərmiş, qoyunu, çobanı dağda qoyuf köçüf gələrlərmiş Xonaşenə. Orda taxılların döydürəllərmiş.

Bu yerlərdə oturaxlığımız müharibədən soora oluf. Özü də biz İmişliyə tabe idik. 1939-cu ildə buranı rayon düzəltmək üçün yeddi qalxozu – Bağırov, Kaqanoviç, Stalin, Varaşilov, Kirov, Budyonnu qalxozlarını İmişlidən kəsib verdilər bu rayona. Sifdə qalxozu gönüllü təşkil eləmişdər. Qalxozda o qədər mal yoxuydu. 39-cu ildə ustav qoyuldu, hərəyə 20 qoyun, bir inək, bir düyə, bir at, bir də bir dəvə verdilər, qalanını da yığdılar qoydular qalxoza.

## 109-110. AŞIQLI

*Kənddəki tirələr:* nəbilər, bayarmalılar, hüsöyünlü, çıraqlı, qıyişdanlı[14], maşadılar, qurbanlı, dəmirçilər.

Aşıqlının bir dəstəsi də Göygöl rayonundadı. Olar burdan getmədir. Əvvəl get-gəl vardı, 1941-45 müharibəsinnən soora bizim aramız kəsilif. Bizim camaatın aşıq sümüyü çox uzun olduğuna

[14] İşdanlarını qıyla bağladıqları üçün onlara belə ad verilib.

görə bunlara aşıqlı adı verilib. Mən görənnərin hamısı uzun-uzun adamlar idi. Özü də çoxları davaya girəndə əlinə ağac almerdi. Boynunun dalınnan tuturdu belə, atırdı qırağa. Özləri də çox qüvvəli idilər.

İkinci Aşıqlıynan[15] biz əmiuşağıyıx. Bir qadın burdan ora ərə gedir. Soora yoldaşı yara çıxarder ölör. Qadını öydən çıxardellar ki, bizim sana almalı adamımız yoxdu. Həmin qadının anası deyir ki, yox ey, gəlin aparanda mindiyi at gərək gələ. Atı vermək istəmiyiflər, bir nəfər gedif atı götürüf qaçıf. Əsas davamız bunun üstündə oluf. Atın dalınca gəliflər. Məslahat eliyiflər ki, at qalsın, yəhəri qaytarsınnar. Yəhər də ingilis yəhəri idi. Oğlan öyünün adamı yəhəri aparanda buna gülüflər. Bunnan da ziddiyyət başdıyıf. O atın üstündə bu kəntdə dörd nəfər öldürülüf. Dağda Yeddi bulax deyilən yerdə kəndin ağsakqalları bir alaçığa yığılıf məslahat eliyirmişdər ki, nə vaxt arana köçək. Qadının biri gəlif yəhəri aparana deyir ki, sənə rişxənd eliyən odey. İclas anki öydə gedirsə, bu da bu öydə oturuf. Hərdən bir aradan baxermış ki, görsün buna gülən hancarı girəvəyə çıxer. Camaatın içində güllə atmıyajax ha. Nəysə, iclas qutarır, adamlar hamısı çıxır çölə. Buna gülən də bir nəfərnən döş-döşə duruf danışermış. Çölə çıxanda bu atıfdı, həmin şəxsin kürəyinnən dəyif qarnınnan çıxıf, o birsinin də qolunnan dəyif. Dağdan enmək üçün iki yol vardı. Birinə Uzun yal yolu deyirdilər, birinə də Ağ yataq yolu. Kəlbəcər camaatı tökülör ki, camaat bir-birin qırmasın. Kim ölən şəxsin tərəfin saxlıyırsa, yolun biriynən qayıdır Qarabağa, kim də öldürən şəxsin tərəfin saxlıyırsa, o da biriynən. Payız gəlif düşüflər buruya. Onda da sovet hökumətinin yeni qurulan vaxtı idi. Hökumət gəlif üsdün alıf, qannıçılığın davam etməsinə qoymur. Onnan soora olar orda binələşir, biz də burda. Müharibəyətən bu inciklik qaldı, müharibədən soora genə qaynadıq-qarışdıq. Oların sayı bizdən az olduğuna görə olara Yetim Aşıqlı deyiflər, bizim sayımız çox olduğuna görə bizə Dədəli Aşıqlı deyiflər.

---

[15] Beyləqan rayonunda iki Aşıqlı kəndi var və bu kəndlər bir-birindən xeyli aralı yerləşiblər. Ayrı düşmələrinin səbəbini soruşduqda söyləyici bu hadisəni bizə nağıl elədi.

**110.**

Xankişi gedif Qaradolax Hajal Nağının əlli dənə qoyunun gətirir. Bir dəfə nənəmə dedim, nənə, göy kəkilli qoyunnar hardan gəlif sizə? Dedi, bala, hal-qəziyyə belədi. Xankişi babam yoldaşlarınnan spor eliyir ki, gedif Hajal Nağının qoyunun gətirəjəm. Hajal Nağı da varrı-hallı adammış. Deyir, getdim gördüm ki, itdəri bağlıyıf, bircə dənə iti açıxdı. Girəvələdim bir dənə quzu gətdim. Kəsdim, parçaladım, əvvəl açıx itə verdim, soora hərrədim itdərin hamısına verdim. Başdarı qarışanda qoyunu böldüm. Özümnən, deyir, bir sijim götürmüşdüm. Qoyun ürküşür, bölünmürdü. İstəmədim quzu gətirəm, dedim qoyun aparım ki, mənzil başına çatsın. – Qoyun gedən olur. – Sijimin bir tərəfin bağladım daşa, ipi çəkdim, qoyun bölündü. Hajal Nağının əlli üç qoyununu gətirir.

Qoyun yiyəsi səhər irədnən düşür bunun dalına. Gəlir Hajı Qulunun oğlu Kalbay Salaxın yanına. Deyir, hal-qəziyyə belə-belə. İrədd bircə dənəndi, qoyun da bu qədərdi. Kalbay Salax deyir, gedək görək bu hardadı. Gedellər ki, Xankişi düzdə gölün qırağında yapıncıya bürünüf yatıf. Yapıncının üstünə daşı yığıllar. Səsə Xankişi yuxudan ayılır. Ayılır ki, bunun belinə daş yığıflar. Deyif ki, kimdi mənim belimə daş yığan? Kalba Salax deyir ki, gətdiyinin yerin deməsən səni burdan buraxmıyajam. Deyir, ə, Kalba Salaxsan? Deyir, hə. Daşı aralıyıllar. Deyir, ə, bu gejə kimin qoyunun gətirmisən? Bu da tanıyır da buları. Deyir, nə deyirsən ey. Əlli üç dənə qoyun gətirmişəm dana, çox qoyundu? Hajal Nağı deyir, sən ki belə mərdi-mərdanasan, bu qoyunnan on beş dənə qoyun seç. Bu qoyunnarı aparmasam da olar, amma sabah deyəjəklər ki, Hajal Nağı yalannan deyir, heç qoyunu tapmıyıf. Ona görə qoyunu qaytarıram, qoy desinnər ki, Hajal Nağının qoyunu gəldi. On beş dənə qoyunu seç, damazlıq verirəm saa. Bu qoyunnar da bizə düşdü.

## 111. ƏLNƏZƏRLİ

*Kənddəki tirələr:* Aşırrar, eminallar, papaxçallar, göyüşdü, qıyişdannı, məmmədalılar. Ən böyük tirə aşırrar tirəsidi.

Alnazar dörd qardaş olub. 1758-ci ildə Gürcüstannan müharibə başdıyıf. Həmin dövrdə Borçalı qəzasında yaşıyan azərbaycannılara qarşı gürcülərin böyük hücumu oluf, qaçqınçılıq başdıyıf. Qarabağa gəlif sığınanlar arasında bizim dörd babamız oluf. Babamızın biri Bərdə rayonunun Soğanverdilər kəndində qalıb. Birinin adı Alnəzərdi, o gəlif bura düşüf. Biri Bədi oluf. Dünyamalılar kəndinin qərb tərəfində onun adına təpə var, Bəd təpəsi deyillər. Bir qardaş da İmişlinin ərazisində oluf – Boxça Alı.

Kənddəki böyük tirələrdən biri danalılardı, Danə Alının adıynan bağlıdı. Danalı ərazinin vergi yığanı oluf. Danalının Eminalı və Fətalı addı qardaşdarı oluf. Eminalılar, danalılar və fətalılar həmən Alıdan törüyüf. Fətalıya çox güjdü olduğuna görə, Ayı Fətalı deyiflər. Qışın qarrı günündə erməninin kələsinin ayaxların bağlıyıf, alıf çiyninə. Susduyuf, kələ çiynində əyilif Pirəlbulaxdan su içəndə kələnin dırnağı qara toxunuf. Ermənilər duruflar ki, insan rəddi var, amma heyvanın rəddi yoxdu. Həmin rəddi tutuf gəliflər ki, bulağın üstüdə kələnin ayaları yerə dəyif. Erməninin biri deyif, ə, bu kopoğlu Fətalının işidi.

Bizim kənd 46-48-ci ildə burda binə salır. Öküzü, atı olmuyannar dağa gedə bilmədi, əvvəl onlar binə saldı. Soora digər camaat da yığıldı, kənd yarandı. Zibi kişinin vaxtında (ilk kalxoz sədri olub – top.) bizim qışlaq yerimiz Xalac kəndinin yanında idi. Orda taxıl da əkilirdi. Üç-dörd adam taxılı qorumağa, biçməyə qalırdı, qalanı gedirdi dağa. Zibi kişi rəhmətə gedənnən soora həmin torpaqlar dünyamalılara qaldı, bizim camaat gəldi bura. Axırıncı aylələr 48-ci ildə çıxıb. 51-52-ci ildə meşə zolağı salındı, o, buranın təbiyətin dəyişdirdi. Ona qədər burda ağac deyilən bir şey yoxuydu.

Yaylağımız Gəlin qayada oluf. Dağdan enəndə sentyabr ayında Pirəlbulağa düşürdülər, oktyabrın ortasına qədər orda qalırdılar. Oktyabrın ortasınnan soora burda hava sərinniyirdi, onda köçürdülər indiki kəndimizin yerinə. Bura payızdıx idi. Qışı isə Sarısu çalasında keçirirdik. May ayının beşində dağlara köç başlıyırdı. Faraş gedənnər may ayının 20-sinə artıq dağda olurdu.

## 112. SƏRXANLI

Sarxan iki qardaş olub: Sarxan, Talıbxan. Talıbxan Beyləqan tərəfdədi – üzümçülük savxozundadı. Sarxanın beş oğlu olub: Zaman, Əmir, Murad, Maşat Sarxan, Ocaxverdi. Bundan başqa kənddə ağamalılar, Səbətalılar tirələri var. Ağamalıların kökü Zərdabdan gəlir. Ulu babaları İmaməli olub. İmaməlinin iki oğlu olub: Ağamalı, Dörvüşalı. Dörvüşalının Qasım adında bir oğlu olur. Qasımın da beş oğlu olur: Abdulla, İbadulla, Həsrətulla, Həkimxan, Bədirxan. Ağamalının da iki oğlu olub: Aslan, Allahverdi.

Səbətalıların babaları isə İrandan gəlib. Çöngəni boynuna götürüb səbət kimi gəzdirdiyinə görə onlara "Səbət Alı" deyiblər. İrannan iki qardaş, bir bacı qaçıblar Naxçıvana. Qaçmaqlarının da səbəbi odur ki, İranda ata-anaları rəhmətə gedir. Buların cavan, təzə bağları olur. Kəndin vergi yığanı bağı bulardan ucuz pula almaq istiyir, bular da vermiyif. Soora vergiynən buları yüklüyüf, bular da gejəynən o bağı yoluf gəliflər Naxçıvana. Həsən adlı qardaşı qalıb Şərurda, Alı gəlif elat camaatıynan. Sərxannı kəndi Fizulidə olub, yüz əlli il əvvəl ordan köçüb gəliflər. Səbət Alı sərxanlıdan olan Məmmədbağırın qızını alıb.

Bir gün Səbət Alı çıxır sahəni gəzməyə. Qonşu obada hava axşamtərəfi qəflətən qaralır və başdıyır qar yağmağa. Bu o obaya pənah gətirir. Obada da gəlin çıxır mal sağmağa. Gəlin mal sağanda buğa nadinclik eliyir, gəlin də cavan adamdı, ağzınnan "qızıxmış" kəlməsi çıxır. Səbət Alı deyir, qızım, məni bir gejəlik saxlıyarsınız? Gəlin də bir qədər əvvəl kələ qızıxmış deyif. Utandığınnan deyir, yerimiz yoxdu. Kişi də gözdüyüf orda, gələndə üçyaşar kələni götürür boynuna, çarığı da tərsinə geyir. Yolda əyilib su içəndə kəlin dırnaxları dəyir yerə. Heyvanı gətirif kəsir, asır havadan.

Səhər ev yiyəsi durur ki, fermaya adam gəlif, amma burdan heç hara çıxmıyıf. Ləpiri tutuf gəlillər, suyun kənarında kəlin dırnax yerlərini görəndə deyillər elə burdadı. Görüllər ki, Alı oturuf kabab çəkif yeyir. Alı buları düşürdür, deyir öz malınız kimi yeyin. Bular da yeyif gedəndə deyillər ki, belə bir şeyə rast gəlmişik. De-

yir, odey, bax ordan asılan sizin cöngənin bududu, qaraciyərinnən də kabab çəkib yeyirəm. O budu aparajaxsınız, duranda da ondan qabırğalı bir dənə cöngə verəjəm, onu da aparavsız. Getdim, gəlin maa belə bir cavab verdi, ona görə mən də zarafat elədim. Həmin adamlar deyir, budu pay kimi götürəjeyik, cöngə də halal-xoşun olsun. Amma icaza ver sənə "Səbət Alı" deyək.

Dövlətyarlı ətrafinda Qızıl Qaya deyilən yer var, bizim camaat orda yaşıyıf. Murad təpə, Sarı yer, Səfolu İstisuyu bizim camaatın yaylaq yerləri olub.

## 113-114. ƏLPƏNAHLI

Bizim ulu babamız Qaraxan Nadir şahın vergi yığanı oluf. Özü İranın Qaradağ mahalından olub. Bir gün ağlına nə gəlirsə, yığdığı malı da götürüf qaçır bəri üzə. Nadir şah onun arxasınca nə qədər adam yolloyuf, tutdura bilmiyif. Qaraxan Arazdan keçəndə deyif: "Əli, saa pənah gətirirəm". Gəlib çıxıf Şuşa qalasına. O vaxdı Kürqovuşana qədər ərazi Qaradolaq camaatının oluf. Orda bir ağsakqalın yanına gedir. Deyir, mən belə bir iş tutmuşam. Deyir, bədbaxt oğlu, Nadirin nümayəndələri burdadı. Ələ keçsən, səni öldürəjəklər. Adını dəyiş, başına bir qıllı papax qoy, get birinə qoyun otar. O da gəlib Qaradolaxdan bir qıznan evlənir. Bir oğlu oluf, adını qoyuf Əlpənah. Əlpənahlılar da ondan törəyən nəsildir.

*Söyləyicinin şəcərəsi:* Qaraxan (cədd babası), Əlpənah, Hüseyn, Məşədi Nəcəfqulu, Hajı Məhəmməd, Nemət (atası).

### 114.

Əlpənahlının kökü İraqdan – təkə-türkmannan gəlif. Qaraxan ordan gəlif İranın Qaradağ mahalına, orda evlənif, neçə də uşağı oluf. Xanın xəzinədarı oluf. Orda nə xəta eliyifsə, ordan qaçıb gəlib Şuşaya. Orda bir tükançıya pasiban gətirib. Başına gələn haqq-hesabı buna danışır. Tükançı bunnan dost olur. Görür bunu tutajaxlar, deyif, sənə gəl bir məsləhət verim. O zaman da qaraçıların dokumenti yoxuymuş. Tükançının da qaraçı dostu varmış, onu tapşırıb həmin dostuna. Deyir, səni xilas eləmək üçün bir variant var. Səni gəzellər,

səni tapsalar məni də öldürəjəhlər, səni də. Bunu qoşor qaraçılara. Deyir, bir-iki il bularnan gəz, ara səngisin, soora çıxarsan üzə.

Bir müddət bu qaraçılarnan hərrənir. Keçmişdə Qalalı dəllalı deyərdilər. Həmin tükançının qaradolax camaatı arasında bir dostu olur. Buna deyir ki, mənim belə layaxlı qonağım var, İrannan qaçıb gəlib. Bunu apar, bunnan dövləti bejər. Bunu gətirir sərkar qoyur, qoyunun, malın, devlətin üzərində ağalığı tapşırır buna. Öz qızı və ya bacısıynan onu öyləndirir. Bu yerlər o zaman qaradolaq camaatının yataq yeri idi. Qızına cehiz olaraq burda iki yataq verir. Qaraxandan olur Əlpənah. Nəcəfli, Zeynallı, Paşalar, Kalba Qaracallar tirəsi həmin nəsildən törəmədir.

## 115. BOŞÇALLAR

Bu kənd 250 il bunnan əvvəl Borçalı çökəkliyinnən gəlmə bir kişinin törəməsidir. O kişinin adı olub Alı. Özü Borçalının Təkəli kəndindəndir. Nə iş tutubsa, oranı tərk edib gəlib Sərxanlıya. Sərxanın qızıynan evlənif. Qızın adı oluf Yetər. Evlənənnən soora bir oğlu olub, oğlunun adını qoyub Məmməd. Məmməd böyüyənnən soora gedibdi Məşədə. Məşədi Məmmədin beş oğlu olub: Hajı Məmməd, Hajı Əhməd, Hajalı, Maşadı Oruc, Məşədi Bədəl. Boşçallar kəndi bu beş qardaşın törəməsidir. Deyilənə görə, Alı Borçalı mahalınnan gələndə yanında bir uşaq olubdu. Bir varianta görə, uşaq Ağcabədi rayonunda soyuqdəymədən xəstələnib ölüb. Digər varianta görə, bizim kənddə bir tirə qalır, həmin tirə o uşaqdan törəmədir. Borçalı mahalından gəldiyindən əvvəl bulara borçalılar deyiblər, soora ağızda boşçallar şəklinə düşüb.

*Söyləyicinin şəcərəsi:* Alı (cədd babası), Məşədi Məmməd, Hajı Məmməd, Xanəhməd, İbrahim, Kərim (atası).

## 116. QARALILAR

Alı Qızılqaya tərəfdən oluf. Ayləsi çox kasıbçılıx çəkif, qardaşdarına deyif ki, gedim çörək qazanım. Bu, Hacı Məmmədə rast

gəlif. Hacı Məmməd boşçallardan oluf. Hacı Məmməd bunu yanında saxlıyıf. Bir neçə ildən soora Hacı Məmməd baxıf ki, bunun qoyunları çoxaldı. Bu oğlan qardaşıynan əlaqə saxlıyıf ki, qağa, xeylax qoyun qazanmışam, gəl bunu yığax aparaq. Məmməd duyux düşüf ki, gədə qardaşın çağırdı. Gəlsələr yığıf aparajaxlar. Oğlanın da hərəkəti, rəftarı bunun çox xoşuna gəlifmiş. Arvadı çağırıf ki, arvad, gedə əldən çıxajax, gəl Pərini verək bu oğlana, bu devlət də bizə qalsın. Hajı Məmməd arvadnan razılaşır, Pərini verillər gedəyə. Gedə qardaşına xəbər göndərir ki, daha gedəsi olmadım. Hacı Məmmədin oğlunun da adı Alı olur. Buları fərqləndirmək üçün birinə Qara Alı, o birinə Yeznə Alı deyillər. İndi Qaralılar kəndində iki tirə var: yeznə alılar, qara alılar.

## 117. QURBANLI BULUDLUSU

Bizim kənddə[16] Kalvalı kişi vardı, o danışırdı ki, Qurbannı bulutdusunun kökü Qazağın Yuxarı Salaxlı kəndindəndir. Ulu babamızın dodağı qara olduğuna görə Ağzıqara Qurban deyillərmiş ona. Ordan gəlif Şuşaya. Şuşada ermənİynən dalaşıf, bir neçə erməni öldürüf, yenif Ağdama. Adamın Malıbəy kəndinnən bir qadın alıb. Bizim camaat həmin qadından törəyib. Bizə Qurbannı bulutdusu deyillər. Bu yerlər o vaxdı Qaradolaq camaatının qışlaq yeri oluf. O kişi qaradolaqnan gəlif bura. Qurbanın yeddi oğlu olur, qurbannı bulutdusu həmin yeddi qardaşdan törəmədir. Burda qojalar bulutdusu da var. Qurban gəlif burda qojalar bulutdusuna qarışıf.

## 118. ORUCLU

Oruc oğlu Qara Məmməd oluf. Cavan bir oğlan oluf. Qannıçılıx törədir, bir bacısını da götürüf kənddən çıxır, gəlir Vəlağa Muğannısına. Vəlağa Muğannısı da Xonaşen çayının qırağında bir kənddir. Orda Qaçaq Xəlil olur, qoşulur onun dəstəsinə. Zeynab

[16] İmişli rayonunun Əliqulular kəndi.

addı bir bacısı olur, onu Qaçaq Xəlilin qardaşına ərə verir. Bir müddət qaçaqlıq eliyir. Çar hökuməti Qaçaq Xəlilin dəstəsini əhv eliyəndə o da əhv olunur, qalır Vəlağa Muğannısında. Orda evlənir, üç oğlu olur: Kərim, Rəhim, Oruc. 1813, 1828-ci il müqaviləsinnən soora İrannan köçürülən ermənilər Qarabağ ərazisində yerləşdirilir, Xocavənddəki, Ağdərədəki tərəkəmələri həmin ərazilərdən çıxardırlar, köçürdürlər Kür ovalığına. Bu ərazi də Cavad xanın torpağı oluf. Onnan müqavilə bağlıyıflar, bizim camaatı burda yerləşdiriflər.

Bu torpaqlardan istifadə etdiyi üçün bizim camaat hər il vergi verirdi. Vergidən canlarını qutarmaq üçün Əziz kişinin babası Bağır kişi bu torpağı həmin xanın əlindən alır. Həmin hadisə belə olur. Bular bir neçə il bura gəlif gedillər. Onda da torpaq şöbəsi Salyanda yerləşirdi. Bağır kişi torpaq şöbəsində bir yaxın adam tapır. O deyir ki, siz bu qədər pul gətirin, mən o torpağın xəritəsini dəyişdirim, onnan soora torpaq olsun Muğannının. Bu da gəlir camaatdan pul yığır, aparır verir. Növbəti il xanın adamları gəlif vergini istiyəndə, deyillər nə vergi. Neçə ildi bizi allatmısız, öz torpağımızdan da vergi almısız. Xan buları verir məhkəməyə. Torpaq şöbəsi gəlir, xəritəni açır, deyir bu torpaqlar Muğannınındı. Hər yerdən əlac kəsilənnən soora xan deyir ki, Quran andı verəjəm. Qurana and verəjəm deyəndə Bağır kişi fikirrəşir ki, neyniyim. Burdan atı minir, gejəynən tərpənir Xonaşenə, Vəlağa Muğannısına. Gedir ordan bir az torpaq götürür, gəlir. And yerinə gedəndə torpaqdan yığır çarığa, çarığı da geyir ayağına. Yeddi qədəm yeriyif Qurana əl basır ki, ayağımın altındakı torpaq Muğannı torpağıdı. Axı ayağının altındakı torpaq Vəlağa Muğannısından gəlib. Onnan da xanın əli kəsilir, torpaq qalır bizə.

Oruşdu kəndində iki tirə var: Hajı Hüsöynqulular, Oruşdu. Hajı hüsöynqulular vaxtiylə Ağammədli kəndində məskunlaşıblar, sonra aralarında qanlıçılıq düşür. Bu üzdən ordan köçüb Orucdu kəndində məskunlaşıllar. Hajı Hüsöynqulunun yeddi oğlu olub: Aslan, Maşat Həsən, Kalbayı Dünyamalı, Binnət, Kalbay Şirin[17].

---

[17] Söyləyici ikisinin adını yadına sala bilmədi.

Hüsöynqulunun atası Maşat İrza kişi olub, onun haqda məlumatım yoxdu. Kalxoz qurulanda yeddi öy olmuşux. Bu saat yetmiş öydür.

Çalbayır, Qotur İstisu, Ala göllər, Uzun yal, Qul Alının düzü, Xanın dərəsi, Qotur yaylaq Muğannı camaatının yaylaq yerləri olub.

## 119. AXICANLI

Axıcan iki qardaş olub: Axıcan, Şıxıcan. Şıxıcan burdan keçib İrana, ara kəsiləndə İranda qalıb, ondan xəbərimiz yoxdu. O vaxdı ləzginin xotkarı olur, Axıcan onun qızını götürüf qaçır. Qışımış. Atın da tərs nallıyıf. Özü bu tərəfə gəlir, amma rədd əks tərəfə gedir. Bu qızdan onun Soltan addı bir oğlu oluf. Ləzgi bilif qızı aparan kimdi. Qonaxlıx eliyir ki, dəymiyəjəm, gəlsin barışax. Xotkarın qızı deyif ki, gəl getmiyək. Dədə mənimdi, bələdəm. Axıcan da fikirrəşib ki, uşaq da olufdu, baba olannan soora lap qan da olsa keçəllər. Sözə baxmıyıf qonaxlığa gedif. Ləzgi kopoğlu buruzu yığdırıb bunun boynuna, adamlar da minib o üz bu üzünnən. Zərbdən gözünün biri çıxıb. Ona görə ona Kor Axıcan da deyillər. Soltanın başını orda kəsiblər, amma qız babamı götürüf gəlir. Sonradan Axıcanın Mirqasım addı bir oğlu olur. Mirqasımdan Hasanalı, Hümmətalı, Kalbay Məmmədalı, Gülmalı törəyib. Axıcannı kəndi həmin bu dörd qoldan ibarətdir.

Bizim tarixi yerimiz Xonaşen oluf. Orda Hümbətalı oğlu qəhrəmanın kəhrizi də oluf. Rəvayətə görə, o vaxdı bir sürü at ilxısı qaçıf. Allahmədətlidən aşağıda Axıcannı yurdu oluf. Kürün qırağında meşə oluf, ilxı gəlif çıxıf ora. Kürün o tayında Carrı kəndi vardı. Həmin kənddə bir qadın xeylağı Kürün qırağında paltar yuyurmuş. Soruşuflar ki, ay bala, burda ilxı görmüsən? Deyir, əmi, bir sürü at hər gün gəlif burdan su içir, gedir. Görüflər boş torpaqlardı. Nə qədər heyvan desən otararsan. Gedif ağsakqallarnan məsləhətləşib, qışlağa Mil düzünə gəlirlər.

*Söyləyicinin şəcərəsi:* Axıcan (cədd babası), Mirqasım, Hasanalı, Alnağı, Hajı Həsən, Alnağı (atası).

## 120. İMAMVERDİLƏR

İmamverdilər kəndi dörd tirədən ibarətdir: babalı, maşat əhmədli, kalbay ismayıllı, şamarrı (Tatallardan gəlif). Əsas tirələr maşat əhməd, biri də babalıdır. Kalbay ismayıllı tirəsi isə sonradan Qaralılar kəndindən gəlib.

Maşat Əhməd Qubadlı rayonunun Əlqulu kəndindən gəlib. Dədəsi İmamverdi oluf, varlı adam olufdu. Babalıların ulu babası Məmməd isə İrəvan xanlığından olub. Onun oğlu Baba Qaryagin qəzasına gəlir. Burda Maşat Əhmədin qızını alır. İmamverdinin tayfası böyük olufdu. Qohum olannan soora onlarla qaynayıb qarışıb.

Qərbənd kəndindən bəri Becan yatağı İmamverdilər camaatının qışlaq yeri olub, yaylaqları isə Kəlbəcərdə Murad təpəsi, Arpa çayının sol sahili olub. İmamverdilər kəndinin indiki ərazisi Garısdar Sarı xanın torpağı olub. Mənim əmim Qara Hüseyn bu torpağı Sarı xandan qızıl pula alıbdı. Onunla dostluğu olub, onun hesabına bu torpağı alıbdı. 1890 hektar yer olubdu. Bir tərəfi Boz təpə, bir tərəfi dəmiryol, bir ucu Boşçallar, bir tərəfi də Qara təpə, Saray təpə. Qarabağ kanalı çəkiləndə 93 hektar torpağımız kanalın o üzündə qaldı. İndiki Bulutdu kəndinin bir hissəsi də bizim torpağımızda yerləşib.

## 121. BİNNƏTLİ

Ulu babamızın adı Hajı Molla Binnətdi. Binnətdən olufdu Məmmədalı, Qaraca. Molla Binnət İranda təhsil alıf. Bizim əsil yerimiz Füzuli tərəfdə Qızılqayada olufdu. Bizim ulu babamız Hajı Molla Binnətin adına bağ bu saat da orda durur. Orda Veysəlliynən aramızda qanlıçılıq oluf. Olar bizə oğurruğa gəlif. Bizdən bir nəfər güllə atıf, olardan bir nəfəri öldürüf. Deyiflər, İmamalı, güllə atan səniydin? Deyir, hə. Deyir, o adama dəydi. Veysəllilər neçə gün soraqlıyırlar, üstünə götürən olmuyuf. Sakitdik olur, el gedir dağa. Binə düşəndə Veysəllidən gəliflər bizə, soruşuf örgəniflər İmamalı kimdi, kimin oğludu. İmamalı da Molla Binnətin ya qardaşı oğludu,

ya öz oğludu. Çobanlardan soruşuflar ki, İmamalı hardadı? Çobanlar deyif ki, binədə bizim üçün çörək hazırlayır. Gəlif bunu tutuf xançalnan diri-diri doğruyuflar. Cəsədin kola atıb yandırıflar. Çobanlar görüllər ki, yalo qalxdı. Qaçıf gəliflər ki, heç kim yoxdu, amma sür-sümük var. Bunu topalıyıf dəfn eliyiflər. Aradan bir-iki il keçir, sakitdik yaranır. Bir gün bulardan bizə iki adam gəlir. Soruşuflar haralısız, deyillər Veysəlli. Bulara deyiflər ki, siz biznən qannısız, niyə bizim elin içinə gəlifsiz? Bizim camaat oların ikisin tutuf xançalnan doğruyuf. Bu qannıçılıq üzünnən öz yerimizdən, yurdumuzdan çıxıf gəlmişik Ağcabədi zonasına. Neçə il Hindarx, Hüsülü tərəflərdə olmuşuq. Camaatın güzaranı yaxşı olmuyuf, ordan çıxıf Kürqırağına gəliflər. 1936-cı ildə Qəmbər dayım kalxoz sədri oluf, soora da İmişlidə torpaq şöbəsinin müdiri olub. O camaatı gətirif yerrəşdirdi indiki ərazidə. 1938-ci ildə burda binələşdik.

*Söyləyicinin şəcərəsi:* Qaraca, Molla Binnət, Məmmədalı, Əsgər, Bəndalı (atası).

## 122. XALAC

Xalac səkgiz tirə oluf: tağılar, fərzalılar, hüsöyünnər, qojalar, bərəslər, gödəklər, əhmədli, aşqallar. Bərəst höjət deməkdi. Dünyamalı mənim dədəmin babasıdı. Dünyamalının dörd oğlu oluf: Tağı, Kalbay Xəlil, Hajı Kərim, Kalbay Mehdi. Kalbay Xəlil qolu mənəm. Hajı Kərim qolu Bəylikdi. Xonaşendə Hajı Kərimin kəhrizi oluf. Altmışıncı illərə qədər dururdu.

1928-ci ildə mənim dədəm, əmilərim – beş qardaş yığışıf kalxoz quruflar. Beş öy yüz əlli qoyun qoyuf kalxoza, əlli baş mal qoyuf, əlli dənə at qoyuf kalxoza. Kalxozun bünövrəsi o beş öy oluf. Beş öy olduğuna görə “Beş kalxoz” deyiflər. Otuzuncu ildə on beş ev oluflar. Kalxozun adını qoyuflar “Oktyabrın on iki illiyi” adına kalxoz. Burda kalxoz qurulanda kənddən bəzi tirələr köçüf başqa yerə getdilər. Orda da kalxoz qurulanda yenidən öz camaatımızın içinə qayıtdılar.

Sifdə yurdumuz Arazın qırağında Dahar deyilən yerdə oluf. İyirmi beşinci ildə camaat köçüf indiki kəndin yerinə gəlif. Kəndin indiki ərazisinə 55-56-cı ildən soora gəlmişik. Onu da Əlbala kişi köçürtdü, özü də düz elədi. Çünki əhali artajaxdı, o torpax bir belə camaatı yeditmiyəjəhdi. Bura da dövlət torpağıydı. Torpağı ələ keçirtmək üçün kəndi saldı bura, torpaxları da keçirtdi kalxozun hesabına. Vergisin verdi, istifadə elədi.

Burda çörək çox oluf. Araznan Kürün qırağında bu kəndin çörəyin yemiyən adam yoxdu. Yaxşı ağsakqalları vardı, camaatı işlətdi, çörəyi bol oldu. Bulutdu, Alqullar, Muğannı – hamısı çörəyə görə bura yığılıflar.

Qarabirçək, Gəlin qayası, Qızıl təpə, Dəvəgözü, Sarı yer – bular Xalac camaatının yaylaq yeri oluf. Oturduğumuz yerə Sarı su deyirik, Kalbay Behbudun yataq yeri oluf. Belədə bərəslər yeri oluf. Soltanbudun böyründə tağılar yeri oluf. Dağdan gələndə hərə gəlif öz yerində alaçığın quruf qoyunun saxlardı.

## 123-125. SİRİK

Siriyə ilk gələn Pirən kişi oluf. İranın Xoy şəhərindən gəlif. Var-varidatı çoxuymuş. Gəlif Qaraçıya düşüf. Mehdilidən Nərgiz adında bir arvad gətirir. Bu arvadın həm varı-dövləti çoxuydu, həm də göyçəkmiş. İranın padşahı əmr verir ki, o kişinin arvadın gərək gətirəsiniz bura. İrandan bir dəstə gəlir, dəstənin də başçısı olur Şatır Mahmud. Arvad görür ki, buların məqsədi ayrıdır. Deyir, oturun, mən sizə çörək salım, bir heyvan da kəsim yeyin, onnan soora məni götürün gedin. Arvad bulara bir heyvan kəsdirir, irannıların hamısına çörək verir, yedirdir içirdir. İçirdənnən soora buların başçısına deyir ki, sən mənim qardaşımsan. Gəlsənə sən qal mənim yanımda, bu dövləti sənnən yarı bölək. Bu da razılaşır. Buları göndərir. Nərgiz arvad bu oğlanı gətirir nejə bir qardaş kimi dövləti bölüb yarısını verir buna. Özünə də deyir ki, səni də evləndirəjeyih, burda qal, ərimə kömək elə. Elə onnan da yavaş-yavaş tayfa artır. Sooradan gələnnər də buların başına yığışır.

Şatır Mahmuddan ayrılır rzauşağı, yüzbaşılı, məmmədağalılar, mollalı, qaralı. Axırıncı gələnlər bayramlıynan fətəli tayfasıdır. Bayramın atası Əhməd oluf. Bayram dörd qardaş oluf. Biri gəlif Qumlaxda qalıf, biri Sirikdə qalıf, biri Qaracallı Süleymannıya düşüf. Birin bilmirəm harda qalıfdı. Abbasdan İsaq, Eylaz, Rəşid törüyüf, Əhməddən Misirxan, Bəkir, Eyvazdan da Əhməd, Məhəmməd törüyüf. Qumlaxda Fərrux addı biri vardı, həmin nəsildən idi. Kor Qulu tayfası Beyləqanın Şahsevən, fətallı isə Cəbrayılın Muğannı kəndindən gəlmədir.

**124.**

Şatır[18] Mahmud əslən Türkiyənin Diyarbəkrindən Soltan Muraddar sülaləsindəndir. Sülalələr arasında münaqişə başlayıb, Soltan Muraddar sülaləsi dağılıb. Gəlif İranın Xoy şəhərinə. Xoy şəhərindən gəlif bu tərəfə çalıb-çapmağa. Nərgiz arvaddan soruşuf ki, ev yiyəsi hanı? Deyif:

– Ev yiyəsi heyvandadı, düşün gəlin.

Düşüllər. Arvad bulara deyir ki, əlim xəmirridi, bir heyvan gətirin kəsin. Bular da deyir, biz çalıb-çapmağa gəlmişik, heyvan nədi? Deyilənə görə, arvad əlin xəmirdən ayırır. Gedir bir dananı özü tutur gətirir, yıxır, bağlıyır. Deyir:

– İndi kişisiniz, biriniz kəsin.

Kişi gəlir evə:

– Arvad, deyəsən qonağımız var.

Deyir:

– Hə.

– Bəs nə kəsdin bulara?

Deyir ki, filan qısırəmən dananı. Deyir:

– Ay köpəkqızı, qonax gəlif, niyə demirsən bir tüngü düyə kəsək, bir cöngə kəsək?

Nəysə, yeyif oturullar. Duranda, yola rəvan olanda deyir:

– Bizdən soruşmadınız niyə gəlmişdiniz?

---

[18] Şatır həm çörəkçi, həm də kisəçi mənasında işlədilir.

Deyir:

– Ay bala, Allah qonağısınız, yol adamısınız da.

Deyir:

– Yox, biz gəlmişdik sizi dolq eliyək[19], çalıb-çapaq, aparaq. Baxdıx ki, belədi, heş nə eləmirik, gedirik.

Arvad buna bir heybə azuqə verir. Deyir, bu nədi? Deyir ki, yol azuqəsidi. Ola bilər ajmışa rast gələrsən, ya özün ajarsan, gərəyin olar. Nərgiz Mahmuda deyir ki, sən oldun mənim axirət dünya qardaşım. Mahmud deyir:

– İcazə versəniz köçüf gələrdim bura?

Mahmud ayləli oluf. Arvadı rəhmətə gedif, Xoyda iki oğlu varmış. Oğlunun birinin iki qızı varmış, biri sonsuzumuş. Deyir:

– Get, gəl. Nəyin var, nəyin yox, nə gətirəssən?

Deyir:

– Hər şeyim var, bir sijim yoxdu.

Deyir, arvad buna sijim verir. Sijimi götürür gəlir. Nə ağırrığı var götürür gəlir. Gəlir Nərgizin qızı Zöhrəni alır. Nərgizin qızı Zöhrədən beş oğlu olur. Xoya qayıdanda görür ordakı oğlunun iki övladı çiçək xəstəliyinnən rəhmətə gedif. Ordakı oğlannarı haqqında məlumatım yoxdu. Gəlir burda Zöhrəynən evlənir, beş oğlu olur. Oğlannarının birinin adı İbrahimdi. İbrahimdən mollalı və məmmədağalı tayfaları törüyür. Birinin adı Soltan Murad oluf. Soltan Muraddan törüyüf qarauşağı, hajıuşağı. Biri Osmandı. Osmandan törüyüf irzauşağı, yüzbaşı. Biri sonsuz oluf. Beşincinin adını dəqiq bilmirəm, onnan törüyənnərə mahmuduşağı deyillər. Beş qardaş arasında ədavət düşüf, mahmuduşağı, deyilənə görə, təklənif, qayıdıf yenidən Türkiyəyə. Türkiyənin İzmir şəhərində Papaxlar kəndi var, hal-hazırda həmin nəsil orda yaşıyır. Sirikdəki yerin, bulaqların adın orda da yaşadıllar.

Mənim oğluma qədər doqquz nəsil eliyir: Şatır Mahmud, İbrahim, Məmmədağa, Əbdüləzim, Həsən, Zülfüqar, Məhəmməd, Baqı, Məhəmmədəli.

---

[19] Dolq eləmək – çalıb-çapmaq

**125.**

İrannılar Arazdan addıyıf gəlif mal-qaranı yığıf aparıllarmış. Bir də gələndə Əhməddilər Sirik qaçaqlarına xəbər göndərir ki, bizi soydular, köməyə gəlin. Qaçaqlar gəlir, irannılar nə aparıllarsa, hamısın yolda saldırıllar. Gəyən torpağın da ona görə veriflər Siriyə. Oranın adamı deyif ki, torpağı siriylilərə verək, bəlkə onlar gələr bizə kömək eliyə.

## 126. KOLANI

Hacı Qərvənd kəndinin əhalisi vaxtiynən Dağlıq Qarabağın ərazisində Ajıdərədə məskunlaşmışdı. Ajıdərə və İmarat-Gərdavant kəndlərinin əhalisi eyni adamlardı. Elə bil qardaşın biri orda yaşıyıb, biri burda. 1918-ci ildə erməni-müsəlman müharibəsi başdıyanda camaat ordan qaçdı, gəldi Bəyimsarov kəndinə. Sovet hökuməti gələnnən soora ermənilər götdü ərizə verdilər ki, azərbaycannılar bizi evimizdən-yurdumuzdan çıxardıb, qalmışıq düzlərdə. Azərbaycannıları ordan çıxartdılar, dedilər gəzin, harda xoşunuz gəlsə, orda məskunlaşın. Bura (indiki kəndin ərazisi – top.) eşitdiyimə görə Kərim bəyin mülküdü. Burda yaşayış olmuyub o vaxtı. İrannan gəlib bəyin əkin-biçinin edənlər olub. Camaat gəlib burda məskunlaşıb. İmarat-Gərdavantdan gələn adamların bir hissəsi qayıtdı getdi. 90-cı ildə bir də qaçıb gəldilər. Bizim dildə imarat düz yerə deyilir. Ora da düz yer olduğuna görə İmarat-Gərdavant deyilib. Otuzuncu ildə bizə "Yüz öylü Gərdavat" deyirdilər.

## 127. QAYNAQ

Bu zonada qaynama sular çoxdu. Tez-tez yeraltı sular qaynıyıf üzə çıxır. 71-ci ildə su qaynıyıf, 79-a qədər o su gedif. Soora 89-90-cı illərdə bir də qaynadı, 95-ci ilə qədər çəkdi. Həmin su dığırallar yerinə qədər gedif çıxmışdı. Qaynama sularına görə kəndə Qaynaq adı verilif.

Kənddəki tirələr: məşədi süleymannar, məmmədalı, əbdüləzim yeri, Qasım bəyin mülkü, arasbarlar, dığırallar. Sonradan həmşərlilər gəliflər, Laçının Ayıbazarlı, Şuşanın Zarıslı kəndinnən gələnlər var. Arasbarlar bizim nəsildi, Ağcabədinin Arasbar kəndinnən gəlmədirlər. Orda o vaxtı tayfa davası oluf, oranın bəyi bu zonadan yer alıf onnarı köçürüf bura. Təxminən beş ev oluflar: Arasbardan gələn Əli oluf, Səfinin dədəsi Şükür oluf, Hüseyn oluf – bular Arasbardan gəliflər.

30-cu illərdə Qaynaqda 36 ev oluf. Məşədi Süleyman varrı kişi oluf, Seyid Mahmud ağa Göyçay zonasında uzun müddət qazı işdiyif. Altı-yeddi kişi pul qoyuflar, kənddəki meçidi tikiflər. Məşədi Əliş oluf, Xankəndi zonasına alverə gedirmiş, ustanı da ordan gətirif. Ustanın da bir gözü kormuş. Lağ eliyiflər ki, bir gözü kor ustanı bura niyə gətirmisən? Deyir ki, bunun layihəsi yaxşı layihədir. Meçitdə mildən istifadə olunmayıf, tağ şəklində tikilif. Bizim kənddə kərpişxana deyilən yer var. 80-ci illərə qədər oranın ojax yerləri dururdu. Məscidin kərpici orda bişirilif.

## 128. İSMAYILBƏYLİ

Sarvan kəndi arxın qırağında balaca kənd idi. Kənddə iki tayfa vardı: biri sarvannar idi, biri şəhrilər. Sarvannar altı ev idi: üç qardaş bir atadan, üç qardaş da bir atadan törəmişdi. İrvaham, Heydər, Əliş – bular bir atadan oluf. İsa, Camal, Zaman da bir atadan bir anadan oluf. Oların əsilləri Sarvan oluf. Şəhri qarı olur. Mənim atamın ana babasının qoja nənəsi oluf. Özü Sarvannar kəndinnən olsa da, həmin nəslə qarışacağı olmuyuf. Onun üç oğlu oluf: Məmmədhəsən, Rustam, Mahmud. Mahmud Şahmar müəllimgilin dəstəsidi, Məmmədhəsən bizim dəstədi, Rustam da Bahadurgilin dəstəsidi. Şəhrinin bünövrəsi hardan düşüf onu bilmirəm. Amma Sarvanın bünövrəsi bilirəm ki, Şəkidən oluf. Otuz birinci ildə kalxoz qurulanda Sarvan kəndi ayrıca bir kalxoz oldu. 41-ci ilin aprel-may ayında camaatı zornan köçürdülər İsmayılbəyli kəndinə. Bu ətrafda

heylə xırda kəndlər çoxuydu. Daşağlını, İsgəndərbəylini, sarvannarı, Kərimin qışlağını bura (İsmayılbəyli kəndi – top.) köçürdülər.

Kalxozduxdan qabax Xannar bəy oluf, Yedditəpə Sarıcalıda evi oluf. Sarvan kəndinin ixtiyarı onda oluf. Su məsələsinə o baxıf. Xannar bəy icaza verməsə, heç kəs o suya yaxın gedə bilməzdi. Atam danışırdı ki, o vaxtı taxılı xırmanda vəlnən döyürdülər. Taxılı döymək üçün də gərək suluyeydılar, qaleydi, quruyeydi. Yerdə toz olmuyeydi də. Gözdüyürmüşdər ki, görək Xannar bəy havaxt gələjək, icaza verəjək su götürüf xırmannarı suluyasan? Heç kəs qorxusunnan bir söz deyə bilmirdi. Atam deyirdi ki, anam çıxdı durdu yolun qırağında. Bilirdi ki, Xannar bəy torpaxları, yerləri yoxlamaq üçün gəlif burdan belə keçəjək. Kəsif atın qabağın. Deyif, nədi, ay Şanba qarı? Deyir, nolajax, bu taxılı niyə məhv eliyirsən? Hamısı qalıf tayalarda, məhv oluf gedir. – Taxıl qaldıxca vağanıyırdı. – Deyif, yaxşı, sənin xətrə icaza verirəm, sabah suyu kəsin, suluyun.

Sovet hökuməti gələnə qədər İsmayılbəyli kəndinin ixtiyarı oluf Cahangir xanda. Xanın meşəsini də o saldırıf. Mən də bu söhbəti Cəmil kişidən eşitmişəm. Cəmil kişi onun at mehtəri oluf. Cəmil kişi söhbət eliyirdi ki, Cahangir xanın əsli oluf irannı. Dili də bir az pəltək oluf, boydan da alçax oluf. Şuşa xanının at mehtəri oluf. O qədər onda ehtibar görüf ki, Qarabağda olan mülkünün bir hissəsini bağışdıyıf ona. Ağdamın Nəmirri kəndində ona yer verif. Cahangir xan özü orda yaşıyıf, bu ərazilərə də nəzarət eliyif. Kərəm kişi deyirdi ki, Cahangir xan İsmayıl qurbanı olanda kəndin siyahısın tutdururdu. Məsələn, İsmayılbəylidə əlli ev vardısa, onun qurban payını göndərirdi. On evə bir heyvan, ya beş evə bir heyvan göndərirdi. O heyvan kəsilif o camaata paylanırdı. Ənvərgilin evinnən o yanda çökək yer var idi, orda Cahangir xan kərpiş kəsdirif, xeyli də kərpiş bişitdirifmiş. Deyif ki, İsmayılbəylidə elə bir meçit tikdirəjəm ki, minbərində əzan çəkiləndə mən Nəmirridə yuxudan ayılam. Sovet hökuməti gəldi, məscidi tikdirmək ona qismət olmadı. Cahangir xan qaçır Gəncəyə. Ordan soora nejə oluf bilmirəm.

## 129. BORSUNLU

*Kənddəki tirələr:* Kazımbəyli, qaranamazlı, əsgərbəyli, boyaxçılar, nanıllı, məlikli, bəylik, mirhasanlı.

Burdakı tayfalardan Goranboyun Borsunlu kəndində də var. Borsunlunun üst tərəfi Murovdu, alt tərəfi Sarovdu. Arvadlar bir-birinə qarğış eliyəndə deyirlər ki, başına iki dənə daş düşsün, biri Murovdan, biri Sarovdan. Bizim suyumuz bol olufdu. O vaxtı Qərvənd susuz qaldığından deyirmiş ki, Allahın altında yer çəvrilə, Qərvənd çıxa yuxarı, Borsunlu gələ aşağı.

Bu kənddə Hacı oğlu İbrahim oluf. Bizim bu qonşu kəndlərin torpaxları az imiş da. Biznən torpax iddiasında oluflar. Bu kişini anda çağırıllar. Corabının içinə Borsunlu torpağını tökür, çarığını geyinif gedir Qərvənd kəndinə anda. Burda pristavın iştirakıynan and içməliydi. Gedif orda əlini Qurana basıb ki, bu Quran haqqı, mənim ayağımın altındakı torpax Borsunlu torpağıdı. O torpaxlar bizə qalıb.

O vaxdı hamı yaylağa köçürdü. Malını-heyvanını götürüb dağa çıxırmış, bir qalırmış əkin sahələri. İrannan gəlmə adamlar sahələri bejərirmiş. Hərənin özünün tatı varmış, olar əkinnən-biçinnən məşğul olurdu. Kişilər də dağdan onlara ağartı, yemək-içmək gətirillərmiş, həm də nəzarət eliyirdilər. Yaylağa Murova gedərdik, Dəvə çuxuruna. Qərvənd, Sarov, Rəcəbli, Dəmirlər kəndlərinin əhalisi evdən çıxırdı, gəlif burda qalırlarmış ki, Borsunlu köçü havaxt gedəjəh olarnan getsin. Çünki meşədə qaçaxlar qabağını kəsib ayın-oyunlarını əllərinnən alırmış. Biləndə ki, Borsunlunun köçüdü qaçaxlar Çopur Məhəmmədə görə onlara toxunmurmuş.

1918-ci ildə türk ordusu gəlir Topatılannan ermənini qaytarıf. Türklər o vaxdı ordan top qoyuf atıllar, elə onun adıynan da həmin yer Topatılan qalır. Qaçaqlar qırılan dərədə Çopur Məhəmmədin dəstəsini qırıflar. Son zamanlara kimi atılan güllələrin gilizini ordan tapmaq olurdu. Anam deyirdi ki, camaata səhəngdə su daşıtdırırdılar saldata verməyə. Az adam ordan sağ çıxa bilib, qalan hamısı qırılıb.

## 130. XƏLƏFLİ

Xələfli kəndi Xələf və Eyvatdan törəyən nəsillərdən ibarətdir. Oların da bikirriyi eyvatlı oluf. Eyvatın Alı adlı bir oğlu oluf, Alıdan isə Şirvan və Hakverdi törüyüf. Atası öləndən sonra Şirvanı Xudaverdi kəndindəki dayısı saxlıyıb. Şirvan böyüyüb əmələ gələndə qardaşı Hakverdi buna deyir ki, yaxşı deyil da, gəl gedək elimizə, obamıza. Onda da şiə-sünnü söhbəti varmış. Hakverdi buna deyif ki, eşitmişəm dini dəyişmisən, şiə olmusan? Şirvan deyir, vallah, mən şiə-sünnü bilmirəm, çoban adamam. Amma mənim dayım hansı dinnənsə, mən də o dini qəbul eliyəjəm. İndi Hakverdidən törəyən nəsil sünnüdü, amma Şirvandan törəyənlər şiədir. Şirvan dayısının yanınnan gələnnən soora gəlif Binnətli kəndinin yanında məskunlaşıb.

Alıkeyxalıda Sədətqulu adlı birisi varmış, Şirvan olarnan İrana qaçaqlığa gedirmiş. Bir dəstə atdıynan gedərlər İrana, İrandan qayıdıf gələndə qoyun sürüsünün böyrünnən keçəndə Şirvan əl atır bir dənə toğlu götürür. Gəlif düşəndə dəstənin başçısı deyir, ordan bir heyvan da gətirmədik ey, burda alışma eliyif yeyək. Belə deyəndə Şirvan deyir ki, mən bir toğlu gətirmişəm. Sədətqulu deyir ki, sən ki belə qoçaxsan, bajım Hüsnünü verəjəm saa. Elə o Hüsnüynən də evlənir. Onnan da altı uşağı olur: Zal, Məmmədqulu, Hüseyn, Avdılla, Rustam, Hasan. Uşağı olannan sonra gəlir Şirvannı məhləsi yerləşən yerdə bir dənə dam tikir, orda yaşıyır. Böyük sürüsü olur, dağaarana gedif gəlir. Bir erməni vardı, o deyirdi babam maa söhbət eliyirdi ki, Şirvanın qoyun sürüsünün arxası Şirvan qavırının yanında olanda qabağı Şirvan bulağının yanında olardı. Diri dağındakı yataxları da Şirvan alıf. Minbaşıda bəy vardı, yerləri o paylıyırdı. Şirvan var-dövlətini saxlamaq üçün gedif ondan yer istəyif. Bəy Diri dağını göstərif deyif ki, gedif orda yerləşə bilərsən. Gedif Diri dağında yerləşir. Qış vaxdı başqa yerlərdə heyvan qırğın verərdi, amma orda heyvan qırılmazdı. Oranın güneyləri o qədər idi ki, qar yağanda yerdə qalmırdı. Ot, topal, yavşan dizə qədər olurdu.

Xələfin də dokquz oğlu oluf: Qulu, Hasan, İbrahim, Məmməd, İsmayıl, Gülməmməd, Şahməmməd, Əsəd, Pişrov. Maa elə

gəlir ki, Eyvatnan Xələf eyni nəsildən oluflar. Ona görə ki, onların örüşü, yaylaxları bir oluf, qız alıf qız veriflər. Qışda gəlif Stansiya Xələflidə tikiləndə məsləhət eliyiflər ki, gəlin dərənin o tayında siz tikilin, bu tayında da biz tikilək. Xələflilər dərənin quzey tərəfində tikiliflər, şirvannılar da güney tərəfində.

## 131-133. AĞAC DAVALARI

Qulam oluf, bir də Qaraş – ikisi də iyid oluf. Dağda aşıxlıynan eyvazalların davası düşüf. Qulamnan Qaraş ikisi də küsülü oluf. Qulama deyiflər ki, Qaraşı gətir. Qulam atı minif gəler ki, Qaraş köç yolunda qoyunun içiynən gəler. Gəlif çatıf, buna salam da vermeef. Deyif, ə, axlına ayrı şey gəlməsin, sıçra min tərkimə. O da küsülü-küsülü minif tərkinə. Yolda deyir ki, Aşıxlıynan dava düşüf.

Gəliflər dava yerinə. Baxıflar ki, bizim eyvazalları bular geri oturdor yavaş-yavaş. Orda Qulam ayağın çırmeef, tumanın qatmaynan bağlıyıf, ağacın da qayışın keçirder qoluna. Səfiyar kişi and içerdi ki, bala, Qulamın poyuz kimi səs çıxartmağı hələ yadımdadı. Burdan vuruf yıxa-yıxa gedermiş o başa, o başdan keçirmiş bəri başa. Əynində mahud kofta var imiş. Aşıxlı tərəfin bir kadını deyif, anam sana qurban, ay sarı köynək. Halbuki bu onun ərin, qardaşın burda qırer. Ağac davası qutarannan soora o deyir birin mən vurdum, bu deyir ikisin mən vurdum. Bunun da hamısın vuruf yıxan Qulamdı. Qoymazdı kimsə ağaş vursun. Qulam kişi də oturuf bir daşın üsdə, ağacın dəstəyin də qolunnan çıxarıf bu söhbətə qulax asır. Abduləli kişi dedi, ə, Qulam, sən heç adam vurdun? Deyir, Abduləli əmi, bircə onu bilerəm ki, indiyəcən ağacımın dəstəyi çatdamıyıf. Hesabı götür, ağacın ujuynan vuror, əl tutduğu yer cırılıf. Ağacı da bir buzoylu inəyə alıfmış.

### 132.

Gəlinbulaxda Tatallar çayının üstündə papaxçallarnan danalların davası oluf. Papaxçallar basqın eliyif danallar obasının üstünə gəliflər. Müseyif əmimə hay gedif ki, papaxçallar basqın eliyif.

Danallar buları ağaşnan nətər xuşduyuflarsa, hamısı qaçıf, Əli kişini sağ tutuflar. Bunun yıxılmışına çırpıflar. Müseyif əmim deyif, bunu niyə öldürürsüz? Yazığın biridi, buraxın getsin. Oların əlinnən çıxannan soora Əli kişi gəlif əl-üzün yuyuf, çaydan da su içif. O taya keçəndə siftə qaçannar deyir, ə, gördün qaça-qaçdı, niyə qaçmırsan? Deyif ki, ə, mən qaçan kişiydim? Allah belizi qırsın, mən heç olmasa əyildim çaydan su içdim, siz heç su da içəmmədiz.

**133.**

46-cı il idi. Yaylaqda tatallarnan murtulu camaatının torpaq üstündə sözü düşdü. Əli kişi murtulunun kolxoz sədri idi. Tapşırıq verdi ki, otuz-qırx öküz, iyirmiyəcən dəvə götürün, qamışı gejəynən gətirin tökün deyişikli[20] yatağa. Aranda qalan camaatı da yığdı, dağdakı camaatı da, iki sutkaya orda tikili tikdirdi. Tatallarda Telli Həsən vardı. Hay düşdü Həsənə ki, murtulu camaatı yataqda tikili tikib. Telli Həsənin də qılıncının dalının, qabağının kəsən vaxdı idi. Dedi ki, Əli kişi, Kür olmasa mən Şirvannan arabir idim, Araz olmasa İrannan arabir idim.

Hay getdi Nəbiyə. Nəbiynən də Əli küsülüydü. Özü də Nəbi qabaqcadan Əliyə ismarış eləmişdi ki, yer bizim olduğuna baxma, Həsənə bu mamentdə bizim gücümüz çatmaz, qamışı ora tökmə. Amma Əli onun sözünə qulaq asmadı. Dava düşəndə Nəbi özünü saxlaya bilmədi, gəldi davaya qarışdı. Nəbi gördü ki, Həsən basılmer. Atı vurdu, Həsənin atını aldı döşünə. Onacan Nəbinin tapancası olduğu bilinmirdi. Taxtalı onatılannan aldı atın döşünə, dedi, oxu kəlmeyi-şəhadətini. Əli ölsə, sən başını bir yerə qoya bilməzsən, amma mən səni öldürrəm, gedif Mehmanda (göl – top.) donuznan on il yaşıyaram. Əli kişi minnət elədi ki, bizi qana salma. Onnan soora əlini çəkdi, yoxsa onu vurmaq istiyirdi. Həmin yataq bizim dədə-baba yatağımız olub. İki-üç gün dava getdi, Əli kişi yatağı vermədi. Bağırovun yanında Telli Həsənin sözü keçirdi. Bular getdi Bakıynan danışdı, axırı yataq olara qaldı.

---

[20] Deyişikli – mübahisəli

## 134-137. GÜLLƏCİL ADAMLAR

Talıbxanlı camaatı olubdu, indi Xocavənd rayonunda məskunlaşıblar. Olarda Hacı Baba olubdu, güllɘcil olubdu. İrannılar Şahsevənnən keçirdilər, Ağdamnan üzü bəri tərəkəmə camaatının sürüsün, qoyunun çəkib geceynən Arazdan keçirdirdilər o üzə. Ordan, deyir, çapar gələrdi, Hacı Babaya xəbər gətirərdi. Buların yerləri onda peyğəmbərin yanındaymış. Özü də həmişə payızda, martda gedif gətirərdilər ki, bəs Hacı Baba, filankəsin qoyununu irannılar çəkdi, filan dərədən gəlirlər. Hacı Baba çağırardı mənim bibim oğlu Tapdığı, da ayrı adam çağırmazdı. Bilirdi ki, irannılar filan dərəynən gəlirlər, həmin dərənin qabağını kəsmək lazımdı. Tapdığa deyirmiş ki, Tapdıq, yovşannan yığ arxamda yalo elə əlimi tooluyum. Əli üşüyənmiş. Tapdıq rəhmətdik danışırdı ki, bir də gördük ki, sürünün qabağı gəlir. İyirmi-otuz atdı bəlkə min beş yüz, iki min qoyunu gətirir. Sürünün qabağıynan üç atdı gələrdi. Hacı Baba qoyardı, güllə boyu yaxınnaşanda buların başının üstünnən bir güllə atardı, bular heç vecinə almazdı. İkinci gülləni atın burnunnan toxduyardı. Gənə veclərinə almazdı. Üçüncü gülləni yəhərin qaşınnan vurardı, atdı yıxılardı, irannılar onda götürülərdi. İrannılar qaçanda atı minib düşürdük oların dalına. İrannıların atlarının arxasında böyük xurcunlar vardı, əllərində də xənçəlləri vardı. Düşərdilər, diri-diri qoyunun quyruğunu vurub, xurcuna atıb qaçardılar. Hacı Baba neçəsini daldan vurardı. İrannılar adını Qara Taarı qoymuşdular. Axırda onun üstünə adam göndərillər ki, Qara Taarıya deyin onun sərhədi haradırsa oyux qoysun, ordan kənar gedək. Hacı Baba da sifariş göndərmişdi ki, el mənim elimdi, mənnən qoyun apara bilməzsiniz.

### 135.

Murtulu tirəsində Hacı Zeynal olub, çox atıcı olub. Dərələyəz tərəfdə də Kürd Həso oluf. Həsonun bir nişanlısı olur, bunun nişanlısını bizim murtuludan bir nəfər götürüf qaçırır. Həso da qaçax imiş. Deyif ki, nişanlımın saçının hər tükünə bir adam öldürəjəm.

Anası deyif ki, tərəkəmədə Hacı Zeynal var, onnan üzdəşmə. Onnan aralı get. Deyir, o kimdi? Harda olsa öldürəjəm. Elə oluf ki, bular bir yerdə üzdəşillər. Həso da atdan düşüf, Zeynal da atdan düşüf. Hər ikisi girif daşın dalına. Hacı Zeynal bunu alladıf. Papağı qoyuf bu daşın başına, özü o biri daşın dalında gizlənif. Həso papağı nişan alanda, Hacı Zeynal onun alnından vuruf. Aradan iki gün keçənnən soora Həsonun anası yanında iki qızı gəlif dağda murtulu elinə ki, Hacı Zeynalı mən görməliyəm. Gəlif Hacı Zeynalı görüf. Deyif ki, üş dəfə dedim, oğul, Hacı Zeynaldan aralı get. Axır ki, getdi.

Bir gün də Hacı Zeynal kişi xəsteymiş, yerdə yatırmış. Dağa gedirmişdər, Şıpartıya düşüblər. Hay gəler ki, bəs irannılar qardaşını vurdular, qoyunu da çəkellər. Deyir ki, qolumnan tutun, məni qapıya çıxardın. Çıxardıllar qapıya. Deyir, beşatılanı gətirin mana. Qoyunun qabağındakı atlını vurub atdan salır. İrannılar deyir, a kopoğlunun adamı, Hacı Zeynalın gülləsidir. Qoyunu qoyuf qaçellar.

**136.**

Atam söhbət eliyir ki, ermənilər on səkgizinci ildə Kürün o üzüynən işğal eliyə-eliyə gəlif Kürdəmirə çatır. İran çapoolçuları da bu tərəfdən malı-heyvanı çapıf-talıyıf aparıllar. Tomarxannıda tükanın qabağında durmuşdux. Naçalnik gəldi, dedi ki, Rəfi, sən polisdən çıxmısan, silahı gətir təhvil verginən. Rəfi kişi dedi ki, naçalnik, məndə silah yoxdu. Elə bu zaman gördük ki, bir dəstə İran atdısı kəndin malını yığışdırıf aparır. Naçalnik dedi ki, Rəfi, qabaxdakı ağ atdını sən vursan, tüfəngi sənə bağışdıyajam. Onda da Rəfinin yüz beş yaşı vardı. Tüfəng sən demə tükandeymiş. Kişi bilif ki, bunun evini axtarajaxlar, tüfəngi gətirib tükana qoymuşdu. Tükandan aynalı beşatılanı götürdü. Hardasa 800 metr olardı atdılarnan aradakı məsafə. Nişan aldı, atdını vurdu. Atdı atdan yıxıldı. İrannılar heyvanı buraxdı, meyidi götürüf qaşdılar.

**137.**

Deyillər ki, Hajı Polad Həcc səfərindən qayıdanda xan gəlib onu görməyə. Başının dəstəsiynən gəlib düşübdü. Hajı Polad da

çobanlara kömək eliyir, qolu çirməkli qoyun sağermiş. Bu vəziyyətdə xanın qabağına çıxmaq istəməyib. Xana deyiblər ki, hajı burda yoxdu. Bular yeyib içənnən soorasına deyiblər bir nişana qoyax, tüfəng atax. Tüfəng atanda qoyun güllənin səsinnən qaçıf. Nə xan, nə Hajı Adgözəl – heç biri nişangahı vura bilmiyif. Hajı Polad arvadı çağırıf:

– Arvad, arvad.

Deyif:

– Nədi?

Deyif:

– Mənim tüfəngimi bəri gətir.

Deyillər, bu çoban nağarır? Hajı Polad dizin yerə qoyub birinci gülldə nişangahı vurub. Xan əlini Hajı Adgözəlin kürəyinə vurub deyir:

– Hacı, sənin o çobanın nə bacarıxlı adamdı.

Deyir:

– Öyün yıxılmasın, görüşünə gəldiyin hajı budu.

Xan əlin fırrıyıb deyib:

– Sarxanlıdan belə bu teritoriyanı sənə at örüyü verdim.

# ETNOQRAFİK MƏTNLƏR

## 138-143. NOVRUZ ADƏTLƏRİ

Əvvəllər axır çərşənbədə torba salladıqdan sonra hər kəs payın yığıb gəlib oturardı evində. Amma indi cavannar səhərə qədər oyaq qalırlar. Bəzən görürsən əlli nəfər, yüz nəfər topaynan kəndin bu başından o başına gedir. O vaxdı kənddə nə qədər adam varsa, hamısının qapısına torba sallayırdılar. Eləsi olurdu görürdün bir meşox qoz-fındıq yığıb. Axırda bir yerdə oturub yığılan payı yeyirdilər. Səhərə qədər təkər yandırırlar, onun arxasına yığışıb söhbət eliyirlər. Həmin gün hər kəsin qapısında ocax qalanardı. Belə bir məsəl var ki, bir çərşənbə evində olmuyan, yeddi il həmin bayramda evində olmur.

Bir qapıdan yeddi evə pay çıxmalıydı. Bayramdan bir həftə qabax uşaqlar bayram üçün yumurta ehtiyatı yığırdılar. Bayrama bir həftə qalmış evdə işlənən, işlənməyən nə mitil varsa çıxarılıb çöldə çırpılmalıdı, ya yuyulmalıdı. Ev-eşik təmizlənir, təmir olunan hissələr təmir olunur. Axır çərşənbədə qan tökülməməlidi. Yəni heyvan, toyuq kəsilməməlidi. Ona görə bizdə axır çərşənbədə ətdən istifadə olunmuyub, həmişə süddü aş bişirilib. Səməni göyərdərdilər. Bayramdan sonra səməni atardılar, amma elə yerə atardılar ki, ayaqaltı olmasın.

Martın 21, 22, 23 – üç gün hər kəsin qapısı açıq olardı. Həmin günü nə qədər qohum-əqraba varsa hamısının qapısına gedilir, onlarnan bayramlaşırdılar. Elə olub ki, bir evdə yetmiş adam olub. Qapılara gedəndə çox vaxt heç xəbər də vermirlər. Ona görə də hər kəs öz hazırlığını görürdü ki, bu gün onun qapısını aça bilərlər. Hər evdə ən azı altı-yeddi kilo düyüdən aş dəmlənir, ona uyğun ət, qara hazırlanırdı. Elə olur ki, həmin aş elə bayram günlərində yeyilib qutarır. Artıq qalarsa, ondan qonum-qonşuya da pay verilir. Ayın iyirmi birindən iyirmi üçünə qədər hansı qapını açsanız görəcəksiniz ki, orda aş dəmlənib, yanında da hər şeyi. Kasıbınnan tutmuş

varlısına qədər hamı bu adəti gözlüyür. Ev yiyəsi özü də dəvət eliyə bilər ki, durun gəlin bizə. Bir gündə elə olurdu iki-üç qapıya gedirdilər. Hansı evdə yas düşübsə, yığılıb birinci bayramı orda keçirillər ki, həmin qapıda da aş qazanı asılsın. Bu bayram elə bir şeydi ki, onu keçirməmək olmaz. Məsələn, mənim əmim rəhmətə gedif, mütləq o evdə qazan asdırılajax. Hamı toplaşıf ən birinci orda yeyəjək, onnan soora hamı dağılışajax. Keçmişdə qadağaya baxmayaraq, bizim kənddə bu bayram keçirilirdi. Amma onda iyirmi ikisi, iyirmi üçü keçirilirdi. İndi iyirmisi, iyirmi biri keçirilir. Əmim həmişə deyirdi ki, biz dədə-babadan iyirmi ikisi-iyirmi üçü eləmişik bayramı, mən həmişə iyirmi ikisi günü aş dəmlədəjəm.

Beş çərşənbə keçirərdik. Biri yalançı çərşənbədi. Yalançı çərşənbə fevralın 20-nə qədər qutarmalıdı. Onnan soora gerçəkçi çərşənbələr gəlirdi. Yalançı çərşənbədə ojax qalayan da olurdu, qalamayan da olurdu. Birinci su çərşənbəsidi. Suyun donu açılır. İkinci od çərşənbəsidi. Üçüncü yel, dördüncü torpaq[21] çərşənbəsidi. Mərc gəlib yumurta döyüşürdülər. Məsələn, qozdan, fındıqdan mərc gəlib yumurta döyüşdürürdülər. Uduzan mərcləşdikləri qədər o birinə qoz və ya fındıq verərdi.

İlaxır çərşənbədə dərin boşqabnan bir qonşuya pay göndərilirdi. Boşqabın içində qovrulmuş buğda, qoz-fındıq, prennik, peçenye – yeddi nemət olmalıydı. Onnan bir kasa yığıb üstünə kanfet-peçenye qoyub qonşuya pay verilirdi. Təkcə biz özümüz on dörd qapıya o cür pay veririk. Əmimgil hardasa on səkgiz qapıya o cür pay verir. Qabı verdikdə də bir-birinin bayramını təbrik eliyirlər. Hamı da aparıb bir-birinin evində payı verirdi, onun bayramın təbrik eliyirdi. Mən sənə pay vermişəmsə, sən də mənə pay verməlisən. Bayram payı vermək üçün də xüsusi ayın-oyun alınır. Sənə gətirilmiş bayram payını başqasına verə bilməzsən. Onu qoymalısan qırağa, öz aldığın sovqatdan pay verməlisən. Aş bayramında da hamı bir-birinə qonaq gedir. Bayram günündə qohum-qardaş bir-birinnən küsülüdürsə, ağsakqal gəlif onları barışdırıb orda bayram

[21] Tatalılar kəndində torpaq çərşənbəyə həm də puçur çərşənbə deyirlər.

keçirməlidi. Lap aralarında qannıçılıx olsa belə, mütləq orda barışmalıydılar. Bizim qonşular vardı, qardaş-bajı küsülüydü. Bayram günü mənim atam getdi oları barışdırdı. Qonum-qonşu yığıldı, ən birinci bayram aşını olar bişirdi, hamı da oturdu orda, qızın qardaşı da gəldi, yedilər-içdilər, soora dağıldılar. Bunu aş bayramında keçirərdilər.

Səhər tezdən qızlar su üstünə gedirdilər. Mənim bajım çilə suyu götürmüşdü, iki il o su qaldı, amma xarab olmadı. Onu hərdən-hərdən gülün dibinə tökürdük. Nənəm çilə suyu götürmək üçün səhər tezdən gedirdi, biz onda hələ yuxuda olurdux. Onda da yerdən döşəyi sərib orda yatırdıx. Nənəm tezdənnən bizi həmin suynan qaldırırdı. Həmin sudan bizim başımıza, üstümüzə, yorğanımıza çiliyirdi, yerimizdən dik qalxırdıx. Belə bir məsəl var, üzünə çilə suyu çilənsin. Qonşuda Boyaz addı bir qarı vardı. Həmən günü, indi bilmirəm nə əhd eləmişdisə, şərbət düzəldirdi. Çağırırdı cavannarı ki, gəlin şərbət için. Suyun qırağında çilə suyunnan şərbət düzəldirdi, özü də orda dururdu. Bir-bir gəldikcə töküb verirdi, içirdik.

**139.**

Kimin tüfəyi varsa, ilaxır çərşənbə axşamı çiləli qalmasın deyə, bir güllə atardı. Tüfəy çiləli qalanda onda ovu vura bilmersən. Çiləli qalan tüfəyi ekiz doğan arvadın qılçının arasınnan keçirillər, onda onun çiləsi götürülör.

**140.**

İlaxır çərşənbəyə qoz-fındıx bayramı deyərdik. Həmin gejə evi süpürməzdər. Sufraya nə tökülübsə, orda da qalmalıdı. Evi süpürməzdər ki, xeyir-bərəkət qaçar.

İlaxır çərşənbəni keçirillər, üzünə açılan sabah dan üzü qız-gəlin suya geder. Bizdə belə məsəl var: iti qurtdan seçməz. Sənnən yüz metr o yandakı bilmersən itdi, yoxsa canavardı. O vaxdı qız-gəlin vedrəynən arxa, bulağa gedirdi. Əl-üzün yuyuf, su doldurub gətirirdilər qapıya, öyün küncünə həmin sudan səperdilər.

İlaxır axşamı hərə öz qapısında şar aterdi göyə, onu tüfəynən vururdu. Şarı keçədən düzəldərdik. Keçəni simnən sarıyırdıq, bir gün qabaxdan qoyurdux salyarkanın içinə. Axşamacan qalırdı orda, salyarkanı çəkerdi canına. Əysi tez yanıf qutarırdı, amma keçə canındakı salyarka qutarmayınca sönmürdü. Onu da biri aterdi göyə, o biri tüfəynən vururdu. Bizim qanun bu idi ki, ilaxır gecəsi süddü aş bişirməlisən. S-nan başdıyan yeddi nemət düzərdik süfrəyə.

**141.**

Saj qoyuf qoorğa qoorurdux. Buğdanı bir-bir atırdılar saja, atdıxca da subay qızdarın addarın çəkirdilər. Deyirdilər hansı buğda tez çırtdasa, qız bu il aylə qurajax. Hansı gej çırtdasa, deyirdilər o qaldı gələn ilə.

**142.**

Biri niyyət tutur. Əlinə iki boş qab götürüb qonşuya gedir. Deyir, əgər arzum yerinə yetsə, sağ əlimdəki qaba su töksünnər. Yerinə yetməsə, sol əlimdəki qaba su töksünnər. Gedir qapıdan girir, deyir ki, mənim bu qabıma su tök. Ev yiyəsi gətirib qabın birinə su tökür. Bu niyyət tutduğu qaba su tökürsə, onun arzusu yerinə yetir. Yox, o birisinə töksə, onda məyus olur.

**143.**

İlaxır çərşənbədə niyyət tuturlar. Niyyət tutan şəxs barmağıynan qulağını tutur, gedir qonşunun qapsını pusur. Qapıya tam yaxınnaşannan soora əlini qulağınnan götürür. Yaxşı söz eşitsə, niyyəti hasil olajax. Yaxşı söz eşitməsə, niyyəti hasil olmuyajax. Mənim qaynənəmin atasın tutuflar. İlaxır çərşənbədə qızına deyir ki, get filankəsin qapısın pus. Gedir qonşunun qapısın pusur. Qonşuda da ağsaqqal bir kişi olur. Kişi oğluna deyir ki, çöldə xam yer var, oraya at gəlir otdamağa. Qoyunun yerin otduyajax. Get o atı qabağa qat, bu dünyadan itir. Bu gedir qulaq asmağa. Bunun atası axı tutulub. Niyyət tutur ki, əgər xoş söz eşitsəm, atam qayıdajax. Qulağını açanda həmin sözü eşidir. Onda deyillər ki, daha gəlmiyəjək. O da o gedən gedir, daha gəlmir.

## 144-145. ÜZÜK SALLAMA

Qızlar qabaxcadan şərtdəşirdilər ki, bu axşam filankəsin evində toplaşıb üzük sallıyajayıx. Kasada su qoyurdular. Kimi düyməsin, kimi açarın, kimi sancağın kasaya salır, üstünə də şəlpə atırdılar. Kasanın başında da bir yaşlı qadın otururdu. Sən niyyətini tutordun, həmən qadın onun lətifəsini deyirdi, əlini atıf üzüyü çıxarırdı. Deyirdi:

Boz at gəler boza-boza,
Çiynində qızıl qoza.
Çər dəysin boz ata,
Bizi basıbdı toza.

Bunun lətifəsi pis gəlir. Kimin lətifəsi yaxşı gəlsəydi, o söyünürdü.

Qapıdan biri gəldi,
Gözümün nuru gəldi.
Bu arxı kim çəkdi,
Suyu duru gəldi.
= Arxı kim idi qazan,
Axırı duru gəldi.

Boz at gəlir enişdən,
Sinəbəndi gümüşdən.
Bizə də nəsib olsun,
Heybəndəki yemişdən.

Güzgünü atdım bayıra,
Əksi (=şöyqüsü) düşdü çayıra.
Yığılın qohum-qardaş,
İşimiz dönüb xeyirə.
= Yığılın dostlar, tanışlar,
İşimiz düşüb xeyirə.

Bu çinar, qoşa çinar,

Yarpağını divinə döşə, çinar.
Divində min qoyun yatsın,
Başatan yaşa, çinar.
= Səni yüz yaşa, çinar.

Ağ alma, qızıl alma,
Gəl yola düzül, alma.
Ya mənim murazımı ver,
Ya mənnən üzül, alma.

Ağ almanı dişlədim,
Ətrafını gümüşlədim.
Qardaş gəldi qıymadım,
Yar gəldi bağışladım.

Ağ alma allanıbdı,
Budaqdan sallanıbdı.
Ağ almanın yiyəsi
Yenicə xəyallanıbdı.

Bir atım var beşində,
Qulun saxlar döşündə.
Allah murazını versin
Gələn ayın beşində.
= Bir atım var üçündə,
Qulun saxlar dişində.
Allah murazını versin
Gələn ayın üçündə.
= Bir atım var onunda,
Qulun saxlar donunda.
Allah murazını versin
Gələn ayın onunda.

Qızlar, qaçın, mən gəldim,

Rəhim saçın, mən gəldim.
Məxmər döşək, tük yastıq,
Arasın açın, mən gəldim.

Bir qız gördüm biçində,
Sarı sünbül içində.
Deyillər toy olajax
Gələn ayın üçündə.

Burdan vurdum baltanı,
Ordan çıxdı qaltanı.
Burdan bir oğlan çıxdı,
Yerin-göyün sultanı.

**145.**

Mənim qardaşım əsgərliyə gedəndə anam əhd eliyər ki, ay Allah, mənim bu oğlum sağ-salam əsgərrikdən gəlsin, gələndə çilə çıxardaram. Qardaşım əsgərrikdən qayıtdı gəldi, axırıncı çərşənbədə 30-40 nəfər qız-gəlin yığıldı bizim evə, sabaha qədər çaldılar, oynadılar, haquşqa dedilər.

Təmiz qabda su qoyardılar, üstünə yaylıx atardılar. On-on beş nəfər ora üzüyün atardı. Kimi uşağı olmasını arzulardı, kimi aylə qurmaq istərdi. Amma orda bir yaxşı söz oxunurdu, bir pis söz. Mənim balaca mamam belə şeyə çox maraqlı arvad idi. Deyirdi ki, bir dəfə qız-gəlin yığıldı, bala. Bir arvadın da yeddi oğlu var idi. Bu da üzüyün atdı. Birinci bayatını oxudular ki,

Boz at gəlir yenişdən,
Sinəbəndi gümüşdən.
Sizə də qismət olsun,
Tərkindəki yemişdən.

Bir qızın üzüyü çıxdı, bu yaxşı söz oldu, qız söyündü. Soora bir nəfər dedi:

Boz at yalda durufdu,
Gör nə halda durufdu.

Qırxıfdı yal-quyruğun,
Yarı yolda durufdu.

Bu ağır söz olur. Bu bayatını deyənnən soora yeddi oğlu olan arvadın üzüyü çıxır. Onda arvad ağladı. Mamam and içirdi ki, o arvadın yeddi oğlunun yeddisi də öldü. Orda da qayda idi ki, bir yaxşı söz oxunmalı idi, bir də pis. Kimin qismətinə hansı söz çıxsa, o da olmalı idi.

## 146-147. PADŞAH OYUNU

Ağlım kəsənnən görmüşəm ki, bu bayramı Sirikdə Əli Çələbi keçirərdi. 44-cü ildə otuz dənə heyvan kəsildi, qab-qaşıx olmadı, dəvədabanının üstünə əti qoydular, bax orda camaata yemək verildi.

Bizim babamız həmişə deyərdi ki, əsabələrə kəj[22] olan şiədən deyiləm, Əlini vəli bilmiyən sünnüdən deyiləm. Sovet hökuməti qoymurdu bizi bayram keçirməyə. Bayram keçirən adamları siyahıya alırdılar. Əli Çələbi bizə deyirdi ki, qorxmayın, bayram eliyəjəhsiniz. Bayramda sizin hansınızı tutsalar, bir kişinin qızının qolunnan tutun, deyin toy eliyirəm. O kişinin də qızın alın. Bir il sovet sədri qoymadı bizi bayram keçirməyə. Əli biznən xəlvəti əlaqə saxlıyırdı, aşkar görüşə bilmirdi. Tutardılar Əlini o saat. Axşamüstü bizdən xəbər aldı ki, sovet sədri nağarır? Dedik bayram keçirməyə qoymur. Dedi ki, mənim evimə gəldiyinizi bilməsinnər. Gedin bir ağsakqal yollayın sovet sədrinə, deyin ki, əgər kənddən çıxmasan bu gejə səni öldürəjeyik. – Sovet sədri də bizim kənddən deyil, Xojamsaxlıdan idi. – Gözdüyün kənddən çıxsın. Çıxannan soora siz ehtiyatınızı görün.

Nəysə, gözdədik, çox gej çıxdı. Səfi kişi getdi yola saldı. Dedi, öldürəjəhlər səni, sən allah, qanını tökmə bizim kəndə. Məjbur oldux kalxozun öküzün çıxartdıq çölə, pəyəni bəzədik. Ermənidən bir aşıq tapdıx gətdik. Gəldi dedi, kulubunuz haradı? Tövləni

---
[22] Kəj – əleyhinə, zidd olan.

göstərdik dedik ki, buradı. Dedi, ara, bura klub ola bilməz. Dedik, sən başını içəri sal, gör klubdu, yoxsa yox. Girdi dedi, qardaş, bu nədi belə? Bura muzeydi. And olsun allaha, o gün elə bir bayram keçirdik, dünya tarixində heylə bayram olmazdı.

29 il Əli Çələbi keçirif bayramı. Bizim kənddə yoxsul, əlacsız bir dənə kişi oluf, özünün də qolu şikəst oluf. Onun üstünə bir damcı su tökən olmuyuf. Hər Novruz bayramında Əli ona bir dəst paltar alardı. Onun adı İsgəndər oğlu Məhəmməd idi. Hər il Novruz bayramına iki gün qalmış həmən o Məhəmmədi gətirərdi Əli, onun başın qırxdırardı. İki qadın ayırardı. Onu təmiz-təmiz yudurdardı, alt paltarınnan tutmuş üst paltarına qədər onu təzəliyərdi. Əliyə deyərdilər, bu kənddə bir şəxsiyyətdi adam tapmırsan ki, onu padşah qoyasan? Deyərdi ki, ömrü boyu üstünə su dəyməyən bir adamı çimizdirif, təmiz paltar geydirmək gör Allah yanında nə qədər suabdı. Onu gətirif heylə geyindirərdi, qoyardı padşah.

Üç gün, beş gün qabaxcadan məsləhətləşirlər ki, kim şah olajaxdı. Şah olan şəxs bir sutka dinmir, danışmır. Başına papax qoyulur, papağının qabağına güzgü vurulur. Şah tezdənnən oturajax orda, nə gülmüyəjək, nə danışmıyajax. Gülən kimi onu taxtdan düşürəjəklər, özün də dar ağajınnan asajaxlar.

Şahı mağara yaxın qonşu bir evdə bəziyillər. Məclis başlayır, vağzalı çalınır, şah vəzir-vəkilin, polislərin əhatəsində girir məclisə. Bütün məclis əhli ayağa qalxır, əl çalır. Deyillər, şah oynasa ucuzluq olar. Şah da əlin götürüf “Şah gəldi” havasına ağıryana oynuyur. Oynuyandan soora çıxıf taxtında oturur və səlahiyyətlərinin icrasına başlayır. Məclis qutaranda da aradan elə çıxıllar ki, onlara heç nə deməsinlər. Padşahı on iki “milis” qoruyur, bir nəfər də onların başçısı olurdu. “Milis” nəfərlərinin qolunda qırmızı sarğı olardı. Başçılarının isə sinəsinin ortasınnan keçirib kürəyinnən şal bağlanardı. Ən çox da padşahın papağının qaçırılmaq ehtimalı vardı. Ona görə rəis həmişə əlində şallaq buların yanında durur. Kimsə asılmaqla cəzalandırılanda asılan şəxsin qohumu gəlif cərməni ödüyüf onu qutarır. Yığılan vəsait qeydiyyata alınır,

xeyriyyə işlərinə sərf olunur. Məsələn, 2013-cü ildə yığılan pula artizan üçün mator aldıq.

O vaxt damda keçirirdik. 29 il Əli təşkil elədi, hər il o bayramı keçirdik. Vəzir-vəkili əvəllər Əli seçirdi, indi də Arif müəllim (çələbi nəslindəndir – top.) seçir. Vəzirin baməzəliliyi olmalıdı, danışdıra bilməlidi, məclisi şənləndirməyi bacarmalıdı. Həmən gün hamı təzə paltarın geyinif o toya gedir. Maraqlı olması üçün kəndin cavannarı bir qrup yaradıb saxta topnan, tüfəynən gəlillər ki, şahı devirələr. Şahın ətrafındakı "milis"lər isə buna şərait yaratmırlar. Müxalifət padşaha qarşı nə hazırlayır, heç kimə məlum deyil. Keçən il çox gözəl hazırlamışlar. Altı-yeddi maşınla gəldilər, əllərində guya tüfəy var, qəribə geyimləri vardı, üzlərinə kömür sürtmüşdər. Peç turbasın çiyinnərinə alıflar, guya qrantamyotdu. Guya çevriliş etməyə gəliblər. Vəzir də oları təqdim edəndə dedi bular Zimbaviyadan gəliflər.

Şah əmr versə ki, gedin filankəsi gətirin, o adam harda olsa tapılıf şahın hüzuruna gətirilməlidi. Əksər evlər bayrama xonça aparır. Onu da "polislər" qoruyurlar. Bu zaman "müxalifət" istiyir xonçanı alıb dağıtsın. Kim dağıtmağa cəhd etsə, onu tutub "asırdılar". Bəzən şərait yaradırıx ki, beş-on xonça dağıdılsın, camaat yesin. Axıra qalan xonçalar da məclisin axırında camaata paylanır.

İyirmi biri saat dörddən soora başdıyırdıq, iyirmi ikisi gecəyə qədər davam eliyirdi. İndi maddi cəhətdən onu eləmək mümkün deyil. Ona görə iki gün deyil, bir gün keçiririk. Əvvəl səhərə qədər oturardı insannar, amma indi on ikidən soora camaat yavaş-yavaş dağılır. Elə vaxt olub axşamdan başlamışıq, aşıq çıxıb deyib mən bilsəydim gedib bazarda simişka satardım, bu kəndə gəlməzdim. Çalmaqdan dodaqlarım şişib. İnsafınız olsun, bir belə insan oynayar? Demişik bu Əli bayramıdı, heç adam yorular? Əvvəllər hamı qırmızı paltar alıb geyərdi. İndi qırmızı geyən azdı, amma hamı təzə paltarda məclisə gəlir.

## 147.[23]

Padşah, onun əyan-əşrəfi qabaqcadan müəyyən edilmiş bir evdə bəzədilir. Padşah və vəzir-vəkilin başına önünə quş lələyi bərkidilmiş buxara papaq qoyulur. Padşahın papağına bərkidilmiş quş lələyi digərlərindən rənginə görə seçilir. Hər üçünün sinəsinə çiynindən aşırdaraq qırmızı şal bağlanır. Vəzirin əlində tüfəy, vəkilin əlində isə qalxan rolu oynayan un tabağı və xançal olur. Onları qoruyan "milis"lərin müşayəti altında evdən çıxaraq qabaqcadan hazırlanmış maşına minirlər. Padşah meydana kuzası açıq maşında gətirilir. Maşının kuza hissəsində ortada padşah, sağında və solunda vəzir-vəkil durur. Padşahı on iki fərraş qoruyur. Onlardan ikisi maşının kuzasında arxadan padşahı mühafizə edir, bir neçəsi maşının böyrü ilə hərəkət etməklə onu ətrafdan mühafizə edir. Bəzi fərraşlar isə maşının qabağı ilə hərəkət edərək camaatı yoldan təmizləyir, maşının önünü açmağa çalışır. Kuzadakı fərraşlardan biri əlində Azərbaycan bayrağı tutmuş, digər fərraşların isə əlində ya qamçı, ya da kəmər vardı. Padşahın maşını öndə, digər maşınlar isə onun arxasında gəlin karvanında olduğu kimi siqnallıya-siqnallıya padşahı meydanda qurulmuş çadıra gətirirlər. Qarşı tərəfdən gələn sürücülər öz maşınlarını kənara çəkərək padşahın maşınına yol verirdilər. Yolboyu camaat padşahı alqışlayır, padşah isə onu seyrə çıxmış camaatı əli ilə salamlayırdı.

Mağar geniş bir ərazidə qurulmuşdur. Başda padşah üçün stol-stul, sağında çələbi nəslinin nümayəndəsi üçün kreslo qoyulmuş, solunda isə çalğıçılar üçün yer düzəldilmişdi. Mağarın bir tərəfində qadınlar, digər tərəfində isə kişilər üçün oturmağa yer təşkil edilmişdi. Meydanın ortasında isə dar ağacı qurulmuşdu. Padşah "Şah gəldi" havasının müşaiyəti altında mağara daxil olur. Daha sonra şən

---

[23] Günəşli kəndi üzümçülük savxozunda işləmək üçün keçən əsrin 40-cı illərində Cəbrayıl rayonunun Sirik kəndindən gəlmiş əhalidən təşkil olunub. Vaxtilə otuz-qırx ailədən ibarət olan bu kənd indi 200-dən artıq təsərrüfatı olan böyük bir kəndə çevrilib. Burada verilən təsvir 2014-cü il martın 21-də həmin kənddə keçirilən mərasimin videoyazısı əsasında aparılıb.

hava çalınır və padşah, vəzir-vəkil fərraşların əhatəsində bir qədər oynadıqdan sonra keçib öz yerlərində otururlar.

Vəzir padşahın gəlişinin möhtəşəm olduğunu vurğulayaraq onun küsülüləri barışdırmaq, oynamayanları oynatmaq, haqq-ədaləti bərpa etmək üçün burada olduğunu bildirdi və məclisi açmaq üçün sözü Arif Çələbiyə verdi. Arif Çələbi Həzrət Əlinin taxta çıxdığı günün önəminə diqqəti çəkərək əsrlərdən bəri həmin günün bayram edildiyini vurğuladı. Həmin ənənəyə bu gün də sadiq qalındığını bildirərək bu bayramın hamı üçün uğurlu olmasını dilədi və məclisi açıq elan etdi.

Padşah üçün xüsusi olaraq şax bəzədilir, xonçalar göndərilir. Şaxın mağara gətirilməsi xüsusi olaraq deyq olunur. Şaxı gətirən qadın əlində şax bir qədər oynadıqdan sonra onu aparıb padşahın qarşısına qoyur, ardınca digər qadınlar gətirdikləri xonçaları padşahın oturduğu stolun üstünə qoyurlar. Həmin xonçadakı nemətlər məclisin sonunda camaata paylanır.

Padşah məclis boyu danışmır, onun əvəzindən əmrləri vəzir verir, qolu qırmızı sarıqlı fərraşlar da həmin əmrləri yerinə yetirirlər. Padşahın ilk icratı onun mühafizəsini yaxşı təşkil etmədiyi, karvanın önünün kəsilməsinə şərait yaratdığı üçün fərraşların başçısını asdırmaq olur. Digər fərraşlar həmin adamı qollarına alaraq dar ağacından asırlar. Təbii ki, burda gerçək asılmaqdan söhbət getmir, insana xətər yetirilməsin deyə onu ya sinəsindən, ya da ayağından asırlar. Paşdah başqa kəndlərdən gəlmiş qonaqları casusluqda günahlandırır, amma Arif Çələbinin tapşırığı olduğu üçün onları asdırmır, cəriməl əməklə kifayətlənirdi. Daha sonra padşaha gətirilən xonçanı dağıtdığı üçün kənd cavanlarından birini dar ağacından asdırır. Asılmağa məhkum edilmiş şəxsin yaxın adamı cəriməni ödədikdən sonra padşah onu azad edir.

Kənddə bəzi adamların hüzürü düşdüyü üçün məclisdə iştirak etmirdilər. Padşahın ilk icratlarından biri də onları yasdan çıxarmaq üçün həmin adamları evlərindən gətizdirərək məclisdə oynatmaq olur. Mərasimin maraqlı hadisələrindən biri məclisin otasında yaşanır. Padşahın mühafizəsini təşkil edən fərraşlardan biri oğurlanır və

onu ağ mələfəyə bükülmüş halda maşının arxasında gətirib meydana buraxırlar. Həmin adamın sinəsinin üstünə də yazıb yapışdırırlar ki, biz belə padşah tanımırıq. Padşahın tələbi ilə onun adamını oğurlamağa cəsarət etmiş şəxsi tutub dar ağacından asırlar.

Kənd camaatının təsəvvüründə martın 21-22-si Əli bayramı olduğu üçün heç kəs həmin günlərə toy salmazdı. Həmin günə toy salmaq Əlinin bayramına şərik çıxmaq kimi düşünülür, ona görə toyu olan da başqa tarixə keçirərdi. Qonşu kənddə həmin gün toy olduğunu öyrənən padşah bəyi onun hüzuruna gətirmələrini tələb edir. Bəyi sağdişi, soldişi ilə birlikdə padşahın hüzuruna gətirirlər. Padşah ondan bu adəti pozduğuna görə izahat tələb edir. Bəyin verdiyi izahatdan razı qalan padşah onu bağışlayır, ona xeyir-dua verir. Bəy də sağdişi, soldişi ilə bir az oynadıqdan sonra məclisi tərk edir.

Günəşli kəndində "padşah oyunu" səhər tezdən başlayıb ta gecə saat on ikiyə qədər davam etmişdi, yalnız iki dəfə – bir günorta yeməyi, bir də axşam mal gələn vaxtı məclisə fasilə verilmişdi. Kənd sakinləri bu bayrama o qədər bağlı idilər ki, fasilədən sonra məclisdə əvvəlki qələbəliyin olmayacağını düşünürdük, amma hər dəfə də əvvəlkindən çox insanın qatıldığını gördükdə təəccübümüzü gizlədə bilmirdik. Mərasimin sonunda isə padşah fərraşların əhatəsində meydanı səssiz-səmirsiz tərk edir.

## 148-151. KİRVƏLİK HAQQI

Kirvə bizdə müqəddəs sayılır. Belə götürək, Əhliyarnan mən kirvəyəm. Mənim qızıma elçi gəler, deyirəm Əhliyar bilər. Ya da Əhliyar mənnən xəbərsiz qızın həəsin verir, daha mən ona bir söz deyə bilmərəm. Atam deyirdi ki, yekələndə dostun da olajax, kirvən də olajax. Tutax ki, dostun, kirvən dedi, biz filan yerdə olojoyux, bizim arvadları da götür gəl ora. Bir cəzirənin düzündə gedəndə üsdüzə qaçax-quldur düşdü, arvadlara cumdu. Onda öz yüküü ver, o ikisin qoyma. Özüü ver ölümə, amma onları salamat apar çıxar dostunun, kirvənin yanına.

**149.**

Milstroyun körpüsündə stalova işdədirdim. Bir gün gördüm bir jiquli dayandı, sənin kimi bir cavan, bir də yaşdı kişi maşının qabağında oturuf. Oğlan soruşdu ki, bu tükanın sahibi kimdir? Dedim, mənəm. Dedi, səni dayım çağırer. Getdim ki, bir qoja kişidi, oturuf maşının qabağ tərəfində. – "Salamməlöyküm". – "Əlöyküm-salam". Dedi, bala, adın nədi? Dedim, Salman. Dedi, atanın adı Bayramdı? Dedim, hə. – "Babanın adı Baxışdı?" Dedim, hə. Dedi, Baxışın atasının adı nə olub? Dedim, Salman. Belə deyəndə kişi ağladı. Maşınnan düşdü, məni qucaxladı. Dedi, mənim bir nəvəm var, adı Yahyadı, on iki də yaşı var. Mənim atamın adı da Yahyadı. – Hardasa bu yüz yetmiş, iki yüz ilin hesabıdı. – O vaxt atam Yahya Salman kişinin qujağına qoyuluf. İndi də nəvəmin adı Yahyadı. Salman kişinin törəməsindən Salman addı adamı gəzerəm ki, kirvəliyi təzəliyək. Burdan beş-altı maşınnan təmtəraxnan getdik. Yüz yetmiş, iki yüz il bunnan qabax olan kirvəlik genə təzələndi.

Kirvə uşağı qujağında tutur. Dəllək uşağı kəsənnən sora uşağın atasıynan kirvə barmaxlarını çərtib qannarını qarışdırellar. Sünnət olanın üçüncü günü gederdin uşağa dəyməyə. Uşağa, atasına, anasına, qardaşdarına kastyum alerdin. Öy yiyəsi də apardığın çamadanı qaytarmır. Saxlıyır ki, nə vaxtsa əvəzini qaytarmalıdı. Soora gördülər biri imkannıdı, gonlunnan nə keçsə alıb gətirir, kasıb isə bunun qabağını qaytara bilmir. Heylə oldu, xələt aparmağı ağsakqallar yığışdırdı.

Tutax ki, Əhliyar vurub mənim uşağımı öldürüf. Deyillər, nağarax, neyniyək? Deyillər, Emin onun kirvəsidi. Gedin Eminə deyin, Emin getsin. Emin gəlir ki, Salman, eşitdim belə iş oluf. Allahın işidi, bir xatadı Əhliyarın əlinnən çıxıb. Salman da onun sözün çöyürməz. Qardaşnan qardaşın arasında bir inciklik düşürsə, kirvəni göndərellər ki, onları barışdır. Məsələn, mənim dəyərli bir atım və ya dəvəm var. Sən isdiyirsənsə, deyirəm, o ölsə qapımda öləjək, onu verə bilmərəm. Sabah kirvəm gəlif deyir ki, onu ver Vəliyə. Onun sözün çöyürə bilmerəm. Deyirəm baş üsdə. Kirvə haqqı bizdə ən güclü and hesab olunur. Kim ki kirvə haqqına and içir, onun sözün çöyürmək olmaz.

**150.**

Qohumdan kirvə olmaz, yad adam olsa, daha yaxşı. Amma indi buna əməl olunmur, qohumdan da kirvə tuturlar. Bizim özümüzün qonşu kənddən, Tərtərdən kirvələrimiz olub, bu saat da münasibətimiz var, bir-birimizin öyünə gedirik.

Eləsi olur özü gəlib deyir mən istiyirəm ki, sənin uşağının kirvəsi olum. Eləsi də olur ki, mən gedif ona deyirəm. Kirvəliyi istədiyin, sənə yaxın adama təklif eliyirsən. Kirvəliyə getmək məsələsi var. Bayram qabağı kirvənin evinə bayramlaşmağa gedərdik. Tərtərdəki kirvəmiz atamnan 66-cı ildə tələbə yoldaşı oluf. Orda bir-birinnən sözləşiblər, atama deyib ki, mənim iki uşağım var, onun kirvəsi sənsən. Hələ uşaq kəsilməmişdən biz ora nə qədər gediş-gəliş elədik, balalı camış apardıq. Soora uşaq kəsildi, aşıqlı sünnət oldu. Onda böyük bajımın cehizin olar gətirdilər.

**151.**

Qabaxlar kirvəni yeddi biyana yad adamdan tuturdux. Onu yaxın qohumdan, qardaşdan da çox istiyərdik. Eləsi vardı, mən istiyirdim ki, sən oğlumun kirvəsi olasan. Eləsi də vardı, gəlirdi ki, sənin oğlun oluf, mən onun kirvəsiyəm. Söz verdinsə, qutardı. Sən o sözü poza bilməzdin. Ayrı yerdən on nəfər də gələ, onları geri qaytarmalıydıx. Deyərdik ki, filankəsə söz vermişik. Onu öz yaxın balamızdan da çox istiyirdik. Uşaq kəsilənnən soora uşağın atasıynan onu tutan şəxs – hər ikisi əllərin tuturdular suyun altına, su töküf yuyurdular. Uşax kəsilən gün bir xonça bağlanılır. Diz üstü deyəllər, dizin üstünə sərmək üçün parça aparardılar, bir də böyük kalağayı aparardılar. Kalağayını atardılar kirvənin boynuna, parçanı da uşağın üzünə tutardılar ki, uşaq qorxmasın. Soora o kirvənin boynunnan yaylığı götürüb dəlləyə verərdik, amma kirvə istoldan durmazdı. O uşağın nə qədər qohumu var hamısı o kirvəyə xələt verərdi, soora onu istoldan qaldırardı. Soora kirvə dururdu, uşağın atasıynan əlini yuyurdu, oturdu, danışıb gülürdülər. Kirvə üçgünnüydə uşağa paltar-zad gətirirdi. Biz özümüz uşaqların kirvələrinə balalı inək apardıx, qoç apardıx. Evin bütün üzvlərinə paltar aldıx,

bir çamadanı doldurdux. Uşaq kəsiləndə kirvə xonça gətirərdi. İçində yaylıx, dəsmal, mer-meyvə, şirniyyat olardı. Dəsmalı kirvənin dizinin üstünə atardıx ki, uşağın qanı düşəndə kirvənin paltarı bulanmasın. Uşağı yerə qoyandan soora xonçadakı şirniyyatdan uşağa verilərdi, yanına gələn həmin şirniyyatdan götürüf yeyərdi.

Əvvəllər kirvədən qız almazdıx, qız verməzdik. Amma indi alıb-verillər. Bizə yaxın qonşunun uşağı olmadı. Kişinin birinci arvaddan uşağı vardı, amma ikincidən olmadı. Qızın atası bu oğlanın uşaq vaxtı kirvəsi oluf. Kirvə gedif onun qızını almışdı. Anam deyirdi ki, o bilmirdi kirvəsinin qızını alanın uşağı olmaz. İndi buna əməl etmirlər.

Rəhmətlik dədəm Aydını kirvə tutmuşdu. Dədəmə dedim, bekara adamdı, uşağı onun qucağına qoyma. Dedi, ağ balıq kababı yeyəndə Aydın əhd eliyif ki, oğlun olsun, kirvəsi mən olum. Bəlkə allah oğulu onun kısmatına maa verif, mən əhdimi pozmuyajam. Uşağı onun qucağına qoydu.

## 152-157. TOY ADƏTLƏRİ

Toyu idarə eliyən adama padşah deyillər. Padşah seçilə bilən adamlar kənddə tək-tək olurdu. Padşah o adam olmalı idi ki, uşaqlı-böyüklü hamı onu saysın, sözü keçərli olsun, narazılığın, dava-dalaşın qarşısını ala bilsin. Adamların toyda iştirakını təmin eləsin, heç kim toydan narazı getməsin. Əvvəllər bizdə toy iki mağarda keçirilirdi. Bir aşıq mağarı, bir də yemək mağarı. Aşıq mağarı ilə yemək mağarı bir yerdə olmazdı. Dəvət elədiyin adamlar gələrdi çörəyin yeyərdi, soora gələrdi aşıq mağarına. Padşahın qarşısında dəftəri olardı: oynamaq istiyən, söz demək istiyənnərin siyahısın tutardı. Mən oynamaq istiyirəmsə, söz demək istiyirəmsə, gedif adımı yazdırırdım ki, mən söz demək istiyirəm. Padşah da onu ardıcıllıqla qeydə alardı. Aşıqlar başda oturardı, onnarın da yanında padşah üçün xüsusi stol hazırranırdı. Padşahın stolu həm də bəzə-nirdi. Ora meyvə, şirniyyat qoyulardı. Padşahın böyründə bir kassırı

olardı. Onun da ayrı dəftəri olardı. Kimlər nəmər verirdisə, onun qeydiyyatın aparırdı.

Padşah oynamaq üçün birinci qadınnara yer verərdi. Kimsə gəlif deyirdi ki, mən qadınnarnan oynamaq istiyirəm. Padşah onu nəzərə alırdı və onun sifarişini qabağa salırdı. İndi mahnı çalınır, tamada deyir kim istiyir oynasın, amma əvvəllər heylə döyüldü. Sifarişi kim veribsə, o oynaya bilərdi. Oraya ayrı adamın girməyə ixtiyarı yoxuydu. Əgər sifarişi mən vermişəmsə, mən kimisə dəvət eliyirəmsə, o gələ bilər. Əgər mənnən icazəsiz mənim çaldığım mahnıya kimsə qoşulub oynamaq istiyirdisə, o mənim xətrimə dəyərdi. O adam oyunu saxladardı, padşaha narazılığın bildirərdi ki, mən oynuyuramsa, filankəs kimdi? Padşah mahnını saxladardı, fərraşa tapşırardı ki, həmin adamı cəzalandırsın.

Məclisdə şuxlux yaratmaq üçün padşah deyə bilərdi ki, get filankəsi çağır gəlsin. Filankəs də sayılan, pullu adamdı. Padşah deyirdi, o ferma müdiridi, kalxozun qoyunun yeyif. Onu çək belə görüm. Çəkirdilər bir qırağa. Fərraş da bunu çubuxluya-çubuxluya padşahın hüzuruna aparırdı. Qalxmaq istəmiyəndə sotulun üsdünə bir-ikisin vurardı, bunu qaldırardı ayağa. Padşahın hüzuruna aparanda arxadan yalannan bir-ikisin də vurardı ki, guya döyə-döyə aparır.

Birinci sifariş üçün pul alınmırdı. Bir dəfə oynamaq sənin haqqındı. İkincini oynuyanda padşah deyir, ə fərraş, oyunu saxla. Saxladır. – “Nədir?” – “Bəs sən cinayət eləmisən, artıq oynuyursan, gətir cərməni ver”. Cərməni ödəyənnən soora oynuyurdu. Bu da məclisdə qayda-qanun yaratmaqdan ötəridi. Oynamaq istiyən çoxdu, ona görə də onu nizama salmaq üçün bir dəfədən artıq oynuyana cərmə tətbiq eliyirdilər.

Səhər ondan-on birdən başdıyan toy axşam saat on ikiyə qədər davam eliyirdi. Toya gələn adam aj qayıda bilməzdi. Lap axşam onda, on birdə gəlsin, onun üçün yemək saxlanılırdı. Keçib yemək mağarında yeməyini yeyib soora aşıq mağarına gələrdi.

Fərraşı padşah da seçə bilərdi, öy yiyəsi də. Padşah baxırdı ki, kənddə kim fərraşlığı bacara bilər. Yaxud toy yiyəsi seçirdi ki, mənim toyumda sən fərraşlıq elə. Əsasən padşah seçirdi. Toyun

dağılmasına, toyda səs-küyün, söz-söhbətin olmasına görə padşah məsuliyyət daşıyırdı. Fərraşın əlindəki çubuq nar ağacınnan, gərməşov ağacınnan hazırranırdı.

Toy başdamamışdan qabaq taxtadan şax düzəldirdilər. Yastı taxtanın ortasınnan düz bir ağacı vurardılar, dörd-beş də yana qolları olardı. Onun qanatdarınnan da alma, armud, şirniyyat asılırdı. Şaxı öy yiyəsi bəziyərdi. Şax da padşahın stolunun üstündə olardı. Toyda şax dağıdan kənddə adnan deyilirdi ki, filankəs toyda şax dağıtdı. Şax dağıdan ya kəndin sayılıb-seçilən adamı olurdu, ya da imkannı adam olurdu. Toyda şuxlux yaratmaq, ev yiyəsinə xoş gəlmək üçün şaxın pulun verib onu camaata dağıdırdı. Ödənilən cərmə də toy yiyəsinə çatırdı. Toyda bir az şuxlux yaratmaq üçün görürdün həmin adam şaxı götürmək istiyəndə padşah da bir tərəfinnən tuturdu, bu da bir tərəfinnən. Bir az mübahisə eliyirdilər, guya padşah şaxı vermək istəmir. Axırda padşah əlin çəkirdi, o da şaxı götürüb əlində şax bir az oynuyurdu. Oynuyannan soora ya onu dağıdırdı, ya da oynuya-oynuya camaata uzadardı, hərə ordan bir şey götürərdi. Sporraşanda padşah deyirdi, bunun cərməsi çox ağırdı. Tutaq ki, əlli manatdı, qoy bura, götür. Oynuyub qutarannan sonra padşah çağırırdı ki, fərraş, filankəsi çağır bura. Padşahın qabağınnan şax dağıdıb o. Fərraş da onu şallaxlıya-şallaxlıya gətirirdi. Deyirdilər, sən padşahın qabağınnan şax götürmüsən, cərməsi bu qədərdi. Cərməsin ödüyürdü, bir havaya da oynuyurdu gedirdi.

Bəy tərifinə qədər bəy görükməzdi. Sağdişi, soldişi ilə qonşuda oturardı. Bəy tərifi üçün də əvvəlcədən məşəl hazırlanardı. Keçəni əvvəlcədən qoyurdular neftin içərisinə. Neft hopurdu onun canına. Soora onu uzun bir ağacın başına doluyub simnən bağlıyardılar. O vaxdı da küçədə işıq olmazdı. Bəy tərifi başdıyanda məşəl yandırardılar, aşıqlar da vağzalı havasıynan çıxardı çölə. Məşəli bəyin ən yaxın adamı apardı. Bəyin dostları da bəyin gizləndiyi yerdə olardılar. Məşəlin işığında aşıqlar çala-çala gedərdi. Bəy evdən çıxanda tapanca-güllə ata-ata gətirərdilər mağara. Aşıqlar qabaxda, arxada bəyin özü, yanında sağdişi, soldişi, onnan da arxada qohum-əqraba gəlirdilər mağara. Mağara girənnən soora bəy tərifi başlı-

yardı. Bəyin tərifi də gecə olardı: on iki, birə işdəmiş. O vaxta yad adam qalmazdı, ancaq qohum-əqraba olardı. Bəy tərifi olanda bəy stolda oturardı, yanında sağdişi, soldişi. Xanəndə bir-bir ata-ananı, qohum-ərabanı çağırırdı, onnar bəyin xələtin verərdilər. Axırda da bir marşnan qutarardı. Bəy gedərdi bəy otağına. Bəy otağında da hazırlanmış bir stol olardı. Bəyin sağdişi, soldişi olardı. Orda yeyərdilər, içərdilər. Yengə bəyin sağdişinə, soldişinə xələt verərdi. Həmin stolu təşkil eliyən də yengə olurdu. Bəy stolunun nə qədər xərci varsa, yengə çəkirdi. Üçgünnükdən sonra yengə gedəndə ev yiyəsi ona yüz manat, yüz əlli manat verib yola salardı.

Toylar əvvəllər üç günnük, yeddi günnük olardı. Mən özüm iki günnük toylar görmüşəm. Birinci gün kəndin öz adamları dəvət olunurdu, ikinci gün başqa kəntdən olanlar, qıraqdan olanlar, qohum-əqraba dəvət olunurdu.

Bizdə toyda düyü yeməyi verilməz. Düyü yasda verilər. Əsasən bozbaş, dolma verilərdi. Son dövrlər kabab dəbə düşüb, amma yetmişinci ildən əvvəl kabab verilmirdi. Meyvə, su, salat olardı. İmkannı adamlar mal ətinin soyutmasını da verərdi. İki günlük toy axırıncı dəfə bizim kənddə 70-ci illərdə keçirilib.

Toydan bir gün qabax toyda bişirilmək üçün heyvan kəsilərdi. O vaxdı hazır mağarlar yoxuydu. Dəmirləri gətirib qurraşdırırdın. İçinin əşyaları – çadırı, stolu-stulu qapılardan (qonşulardan – top.) yığılardı. Toy qutarannan soora da daşıyıb qaytarardılar. Mağarın qurulmasında, heyvanın kəsilməsində, ətin doğranmasında iştirak edən adamlara kəsilən heyvanın ətinnən və ya ciyərinnən yemək bişirilirdi. Stol açılırdı mağarın içində, sabah stolun üstünə qoyulacaq nemətlərnən stol bəzədilirdi. Ciyər bişirilirdi, amma "ciyər axşamı" ifadəsi bizdə yoxdu. "Toy axşamı" deyərdilər. Cavannar gecə səhərə qədər damino oynayardı, nərd oynayardı. O da bilirsən nəyə görə? Ət mağarda saxlanırdı, onu itdən-pişikdən qorumaq məqsədilə cavannar halay qurub oyun oynuyurdular ki, ətə it-pişik dəyməsin.

Əvvəllər gəlini atnan gətirərdilər. 60-70-ci illər arası yaylaxda olanda atnan gətirilən gəlini görmüşəm. Gəlin atının belinə qırmızı

ədyal salınardı, üstünə döşək qoyulardı. Atı da oğlan evindən aparardılar. Ya boş aparardılar, ya da üstünə bir oğlan uşağı qoyub aparardılar. On beş-iyirmi atdı olardı. Gedərdi qız evinin qapısına. Vağzalının əsl adı "atdandırma"dı. Bizdə köhnə kişilər deyərdi bir atdandırma çal. Yəni gəlini ata mindirmək. Həmin mahnının sədaları altında gəlini ata mindirirdilər. Gəlinin qucağına da həmən uşağı qoyardılar, oğlan tərəfindən də bir nəfər atın başını çəkərdi. Gəlinin gərdəyi olardı. Gərdəyi qız anası hazırlayardı qırmızı parçadan. Yuxarısına gərdək başı tikərdilər, muncuxnan, qotaznan onu bəziyərdilər. O devrdə keçə evlər olurdu. Gərdəknən evi ortadan ikiyə bölürdülər, gəlin gərdəyin dalında olurdu. Gəlin evdən çıxanda bir nəfər gərdəyi qaçırdardı, oğlan evinnən xələt almamış gərdəyi verməzdi.

Üç gün gəlin gərdəyin dalınnan çıxmazdı. Üçüncü günü məclis düzəldilirdi. Qızın ayləsi də gəlirdi. Məclis qutarannan soora qızı gərdəkdən çıxarırdılar. Qız gəlib birinci qaynatasıynan, qaynıynan görüşərdi. Qaynata gəlinə nəsə boyun olardı, onnan soora çıxardı çölə. Gəlin yaşmaxlı olardı, qaynatasına, qaynına üzün görkəzməzdi. Danışanda da yaşmağın altınnan danışardı. Yalnız bəzi aylələrdə uzun müddətdən sonra qaynata deyərdi ki, a bala, bir evliyik, hər şeyimiz birdi. O, icazə verərdi, onnan soora yaşmağın açardı. Amma elə gəlinnər də görmüşəm ki, ömrünün axırına qədər yaşmaxda oluf.

**153.**

Gərdəyi qızın anası düzəldir. Gərdəyi qıza verəndə deyirdi ki, qaynatannan, qaynənənnən, baldızınnan, qaynınnan aranda pərdə olmalıdı. Aradan pərdəni götürmə. Pərdəni aradan götürsən orda xeyir-bərəkət olmujax. Bir daş da verərdi ki, bunu da qoy cibinə. Havaxt ajığın tutsa, xətrinə dəysələr buna bax. Daş dillənsə, sən də dillən. Gərdəyi qırmızı məxmərdən düzəldərdilər, yuxarısına da üşbucaq şəklində bəzək vurardılar. Həmin uşbucaqların hamısının burnunda da qotaz olardı. Dəvə yununnan da gərdəkbağı hörərdilər, gərdəyi onnan asardılar.

Bəyi bəy təriflənəndə görərdilər. Tutax ki, mən bəyin yaxın dostuyam. Oynuyanda bəyi gətirdirəm. Bəy vaxdınnan əvvəl meydana çıxdısa, padşah çağırardı, cərmələdərdi.

**154.**

1980-cı ildə mənim toyum idi. Kəntdə (Eyvazalılar kəndi – top.) hüzür düşdü. Aşıxlar da gəlmişdi. Atam aşığın pulun verif toyu saxlatmışdı. Ölünün gərək qırxı çıxa, mollaynan gedib ölü yiyəsinnən icaza almalısan, onnan soora toyu keçirə bilərsən. Yoxsa bu gün kimsə ölsün, sabah sən toy elə, camaat onu içinə qoymaz. Lap qabaxlar hüzür düşəndə ili tamam olmuyana qədər toy söhbəti yox idi. Toyu da o zaman eliyərdin ki, hüzürü düşən adam birinci gəlif aşığı çaldırmalıydı. Özü oynuyuf çıxmalıydı, onnan soora digərləri üçün yol açılardı.

Toya üş-dörd gün qalmış hüzür düşdüsə, dinməzcə gedif hüzür yerində hüzürnən məşğul olursan. Qırxı çıxdı, aradan da beş-altı gün keçənnən soora bir mollaynan gedif deyirsən "Allah rəhmət eləsin". O da bilir ki, sənin xeyir işin ona görə qaldı. O qırx günü sənnən də çox tələsiyir. Onnan soora mollaynan gedif "Quran" oxuduf icazəsin alersan. O da deyir, ə, sən nə danışırsan? Qırx gündü mənim bağrım çatder gəlif çıxmer bu. Sən toyu başda. Özü də aşığın ilk zakazının pulun mən özüm verəjəm, özüm də oynoojam.

Rəhmətdik Mehdi kişi öləndə Rzaqulunun oğlunun toyuydu, mən də orda idim. Elə yüngülcə loxma kəsirdim ki, gəldilər mənim qulağıma pıçıldadılar ki, bəs kənddə yas düşüb. Durdum Rzaquluya dedim, toyu dayandırdı. Aşıqları göndərdi, toy təmiz dağıldı. Yemək-işmək hamısı ortalıxda qaldı.

**155.**

Toyda bəy sifətin sallıyıf oturexcellentmuş, kim onu güldürsə, bəyin sağdişi, soldişi ona xələt verirmiş. Nəsir kişinin oğluna toy olur. Deyillər ki, bəyi kim güldürsə, xələt alajax. Nəkqədər eliyirmişdər bəy gülmürmüş. İsfəndiyar kişi varmış. Deyir, ə, Xeyransa çimiz-

dirən molla kimi surunu niyə sallamısan? Hamı gülüşür. Bəyin sağdişi, soldişi çıxardıf ona xələt vermişdi.

"Xeyransa çimizdirən molla" məsəli də belədi. Şirvan tərəfdən bir molla varmış, Qədir kişinin öyünə pənah gətirifmiş. Mollanın qılçı da şikəst imiş. Deyir ki, ay Xeyransa, vallah mən kirlənmişəm, utanıram da deməyə. Deyir, başına kül, bu saat su qoyajam, elə bu evin ortasında çimərsən.

**156.**

Toy padşahının yanında vəziri də olurdu, fərraşı olurdu. Padşah sayılıb-seçilən adam olurdu. Fərraşın əlində çubux, belində rəmzi silahı olurdu. Toyda hansı hava çalınmalı idi, kimlər oynamalıdı padşah sifariş eliyirdi. Kimsə oyunnan imtina eləseydi fərraşın borcu idi ki, həmin adamı zor gücünə gətirsin padşahın qabağına və sorğu-sual olunsun ki, niyə oynamır. Bir səbəb gətirə bilmiyəndə həmin adam cərmə olunurdu. Vəzir bəzən padşahın qulağına pıçıldıyırdı ki, filankəs davakardı ha, bunun oyunun gejikdirsək, dava salajax. Padşah vəzirnən məsləhətləşib qərar verirdi. İndi onların ikisinin də misyasını tamadalar yerinə yetirir. Aşıq stolunun yanında padşahın ayrıca stolu olardı. Ona xüsusi qayğı göstərilərdi, armudu istəkanda ona çay gələrdi, yanında konfeti-şirniyyatı olardı. Padşah axıra qədər toyu idarə eliyirdi, axırda da toyu bağlı elan elyirdi. Yadımdadı, bir dəfə Səlim müəllimin toyunda – Əyyub oğlu Alı kişi onda müdür işdiyirdi, imkannıydı, gəldi girdi ortalığa, çox oynadı. Ortadan çıx da demək olmur da, nəzakətsizdikdi. Dərhal aşığı saxlatdım. Alı kişi çöyrülüb mənə baxanda dedim, ayağını yerə bərk vurursan, toz qalxır, camaat tozdan narahat olur. Gətir bura on manat cərmə ödə. Bir onnuğun aldım. Beş dəyqə oynuyanda bir də aşığı saxlatdım. Dedi, indi noldu? Dedim, vallah, on manat vermisən, burda altı aşıq var, nə qədər eliyirəm on manatı altıya bölə bilmirəm. On manat da verənnən soora dinməz-söyləməz çıxdı getdi.

Toyda bəy üçün şax bəzənirdi. Şax bəyin qabağında olardı. Fərraş şaxı qoruyurdu, kimsə onnan bir meyvə götürməyə çalışsa, onu cərməliyərdik. Bəy tərifi vaxdı bəy gizdənirdi, gərək axtarıf

tapardın onu. Bəy özü gizdənirdi, onun tapılmağı da vəzifə idi. Gərək bəy tapıleydi ki, məclis davam eliyərdi. Çalğıçı, fərraş, padşah hamısı birgə bəyi axtarırdılar. Bəzən elə olurdu ki, düz yarım saat bəyi axtarırdılar. Çalğıçılar da çalmaqdan bezirdilər.

Çalğıçı gələndə əvvəlcə onun fəaliyyətin yoxluyurdular ki, toyu idarə eliyə bilmiyəjəksə, bunu qaytarın, ayrısı gəlsin. Xanəndəni bir bərkə-boşa çəkib oxudurdular. Biri deyirdi "Zabul" oxu, biri deyirdi "Rast" oxu. Yoxluyannan soora görürdülər ki, bu xanəndə məclisi aparajaq, toy davam eliyirdi. Olmasa, təcili ayrısını gətirirdilər.

Qabax toylarda yazğı yoxuydu, hamısı şabaşa idi. Ələ verilən, başa tökülən pullar yığılırdı, onun müəyyən faizi, məsələn on manata bir manatı toy yiyəsinə çatırdı, qalanı geri qaytarılırdı.

**157.**

O vaxtın toyları indiki toydan daha gözəl idi. Qarğıdan, ya ağajdan bağ bəzənərdi, almadan, armuddan, konfetdən asardılar, qoyardılar bəyin qabağına. Bəy tərifi olurdu. Tərifdən soora deyirdilər, hə, indi bağı kim alajax? Bu nə deməkdi? Ya bəyin dayısı, ya əmisi, ya əmisi oğlu deyirdi ki, bir yanı balalı inək verirəm. Başqa biri deyirdi ki, flan şey verirəm. Kim bağı almaq üçün daha qiymətli pay verirdisə, o bağı da götürürdü. Bəziləri onu paylıyırdı, bilinirdi ki, filankəs qardaşı oğlunun toyunda bağ dağıtdı.

## 158-159. DƏFN ADƏTİ

Babam Səfiyar kişi deyərdi ki, qəbrin kölgəsində it yatmamalıdı. Başdaşı qarağac və ya tutdan olardı. Ən gec çürüyən ağaclardı. Atam tez-tez misal çəkərdi. Deyərdi ki, bir gün bir kişi nəvəsinin əlinnən tutuf qapıda-bajada hərrəner. Nəvəsi buna deyir ki, baba, havaxt öləjəhsən? Deyir ki, bala, sən ölənnən soora. Bu gəlinə pis təsir eliyir ki, uşağı gözdəri üsdə saxlıyıllar, başına pərvanə kimi fırranellar. O nə deyən sözdü "sən ölənnən soora". O nejə qıyıf uşağa o sözü deyir?

Nəysə, bir gün açer ərinə deyir. Deyir, bəs o gün sənin atan uşağa belə dedi. Rahili oynatığı yerdə Rahil dedi ki, baba, havaxt öləjəhsən? O da qayıdıf deyir ki, bala, sən ölənnən soora. Nejə qıyıf o sözü deyir? Vallah elə bil bir tikə kimi qalıf boğazımda.

Əri gəlif atasına deyir ki, ay ata, o nə sözdü sən uşağa demisən? Deyir:

– Gəl bəri. Mənim dədəm Baxış harda basdırılıb?

Deyir:

– Peyğəmbərdə.

– Gederik onun üsdünə?

– Hə. Cuma günü gederik, bayramda gederik, qara bayramda gederik.

– Kimnən gedersən?

Deyir:

– Sənnən gedərəm.

Deyir:

– O balaca tanıyır onun qəbrini?

Deyir:

– Yox.

Deyir:

– Mən ölənnən soora sən gələjəhsən mənim üsdümə, nəvəm gələjəh. Həmin nəvədən törüyənnər isə sənin üsdünə gələjəh, bir də özünkün, artıx mən yaddan çıxdım. Üsdümə gələn olmujax. Nə qədər ki üsdümə gəlif-gedən olajax, onatan mən yaşıjam, ruhum şad olajax.

İndi qəbir itməlidi. Mən özüm qağamın, bir də dədəmin üsdünə gedərəm, o birilər bilmerəm hardadı.

Qəbiri qazellar, onun içinnən çıxan torpağa əhlət deyillər. Onu götürüf qoyullar qırağa. Qabaxca üsdən çıxan torpağı tököllər qəbrə, onun üsdünnən də əhlət dediyimiz torpağı tököllər. Niyə? Ölmüş torpaxdı. Günün şuasıynan qidalanır, yağış vurur, üsdünnən neçə il keçənnən soora orda ot bitir. Ölmüş torpaxda ot gej biter. Onu onçün üsdən tököllər ki, qəbrin yeri itməsin. O ağac çürüyördü, onnan soora orda ot biterdi.

**159.**

Dünyaya yüz yetmiş bir mələkə gəlib, onun hamısı müqəddəsdi. Quranda olardan altısının adı çəkilir: Cənabi Əzrayıl, cənabi Cəbrayıl, cənabi İsrafil, cənabi Mikayıl, cənabi İnkir, cənabi Minkir. Cənabi Cəbrayıl Allah-taaladan onu qəlbində yaşadanlara xəbər aparıb gətirəndi. Cənabi Əzrayıl bütün canlıların canın alandı. Cənabı İsrafil bütün çətinlikləri aradan götürür. Cənabi İnkirnən cənabi Minkir insan ana bətnində olduğu dəqiqədən biri sağ, biri sol çiynində peyda olur. Son nəfəs ağzınnan çıxana qədər biri mənfi cəhətdərin, biri müsbət cəhətdərin qeyd eliyir. İnsanı ki qəbrə qoyıllar, o cəsəd qalır orda, amma ruh ölmür, ruh yaşıyır. Kəfəni biçəndə də ruh orda iştirak eliyir, yuyanda da iştirak eliyir. Namaza duranda namaza duranın biri də özüdü. Soora o meyidi götürüf gedillər e, o cənazəyə girənin biri də özüdü. Gətirillər o meyidi qəbrə qoyullar ki, rahatdıyalar ha. Uruh orda deyir, mən də girəjəm bıra, görüm bı ölən kimdi dana. Bilmir özüdü. O qədər gözdüyür, bını dəfn eliyillər. Bınlar yeddi qədəm aralanannan soora bu belə qalxır ki, ə, hara getdiniz, mən qaldım. Nətər qalxırsa, başı dəyir üstəki əhlət daşına, özün itirir. İtirəndə həmən cənabi İsrafil orda meydana gəlir. Cənabi İsrafilin orda elə bir güjdü səsi gəlir ki, yenidən uruh uruhluğuna qayıdır. Qayıdanda görür ki, ölən özüymüş. Orda inkir-minkir peyda olur, nizam-tərəzi qurulur. Bı adam anadan olannan ölənə qədər işi, peşəsi ara vurmağ, ev yıxmağ, daldada danışıv böhtan atmaxdısa, bının yeri qır qazanıdı. Bir adam ki, anadan olannan ölənə qədər hamıya hörmət eliyirsə, onun da yeri behişdi. Bütün təbii fəlakətdərin – dolu, leysan yağış, qar – bunların hamısının ixtiyarı cənabi Mikayıldadı.

## 160-166. QOYUNÇULUQ HAQQINDA

Qoyun doğdu, balasını mayalandırannan soora onu sağellar. İlk ağız südünü sağıb bişirəndə ona deyillər bulama. Onda olan kalori heç kababda da yoxdu. Malın birinci ağız südü kətəməzdi. Onu bişirəndə o qədər bərk olur ki, onu bıçaxnan kəsirdilər. Üç-

dörd günnən soora sağellar, onda olur bulama. Tərəkəməni sağlam saxlayan bulamaynan kətəməz oluf. Ağız südü malako kimi qatı olur. Ağız boşluğunnan bağırsağa qədər içərdə nə qədər bakteriya varsa, onun hamısını qırır. Heyvan doğannan soora balasını yalıyır. Onu elə-belə kefinnən yalamır. Onda onun balalığı bərpa olur. Heyvan balasını iynən tanıyır. Qoyunun gözünü bağla, burax beş yüz quzunun içinə, iynən öz balasını tapajax. On beş gün quzunu balasınnan ayır, qoyun iyi unutsun. On beş günnən soora quzunu burax altına, ömründə onu götürməz.

Dağda qoyuna duz verirdik. Məsələn, beş yüz qoyuna hər səhər gərək 15-20 kiloqram duz vereydin, yeyərdi. Bir də görürdün quzu duz yalıyanda için vurdu. Ağciyər yapışerdi qabırğasına. Quzu yeriyəndə qabax qolun dik aparerdi. İnciderdi, sıxerdi deyə qabax ayaqlarını qatlaya bilmirdi, düz aterdi. Onda ağsakqallarımız deyirdi ki, həmən quzunu dan üzü basın suya. Aran yerində helə bir şey baş verəndə quzunu tuturdular, ağzınnan üfürürdülər. Quzunun qarnı şişerdi, qəfil buraxerdilər. Deyirdim, dədə, niyə helə eliyirsən? Deyirdi, ağ ciyəri qabırğaya yapışıb, onu qopardıram. Duz vuror, ya soyuğ olor, ya isti olor, ağ ciyər qabırğaya yapışer.

Quzunu torpağda yatışdırmağ olmaz. Onun altına kətyan döşüyürsən. Elastik bitkidi. Quzunun ağırlığına dözör, məsamələri var. Quzunun sidiyi həmin məsamələrdən enib gedir, üstü qupquru qalır. Torpağın üstündə yatsa, sabax baxarsan ki, quzunun üsdü zığdı, torpağdı. Onnan saa quzu olmaz. Körpə uşağı necə saxlıyırlar, quzunu da helə saxlamalısan ki, içi qorxmuya. İçi qorxsa, o quzunun gələcəyi yoxdur.

Bir metr yarım dərinnikdə dəlmə qazersan, divini qamışnan hörörsən. Altına da samannan, kətyannan döşörsən, ağzına da balaca qapaq qayırersan. Beş gün, on gün, ta quzu özünə gəlincə onu orda saxlıyırsan. Günüz ağzını açıq qoyorsan, axşam örtörsən. Arada gəlib baxersan, əgər istidisə, ağzını bir az açırsan ki, temperatur normal olsun. Əlini evdə salasan cibinə, çıxasan çöldə bir az hərrənəsən, gedəsən quzunun olduğu yerin qapısına. Əlini cibinnən çıxardıf salasan quzunun yaşadığı yerə. Əlinə orda soyuğ oldu, demək

quzunun yeri soyuxdu. Yox, əlinə isti gəldisə, demək yeri istidi. İsti olanda da görörsən gözü-başı zığlandı. İsti və ya soyux vuran quzunu kəsəndə görürsən ağciyərin nəzik qanatdarı qapqaradı, yanıf.

Dağda qoyun gərmə bağlamer. Qaradolaxlı Hajı Məmmədhüseyn olub. Deyib ki, əlajım olsoydu gərməni dəvəyə yüklüyüb dağa aparardım ki, düzəm qoyunun altına. Gərmə lap zığ da olsa, qoyun yatannan soora o qızer, heyvanın altını isti saxleer.

**161.**

Quzunun qoçduğuynan qoyunnuğu bilinəndə içinnən seçirsən damazlıq üçün. Yerdə qalan erkəklər damazdığa ləyax döyül. Satılanda onları satardıx, sovet hökumətinin vaxtında ətdiyə verərdik. Buların heç birinə ehtiyac yoxdusa, onu burardılar. Damazdıx qoçun gərək boyu uzun ola, çiyni qəlbi ola, quyruğu çox sallağ olmuya. Ona qarqonmaz deyillər. Qar yağıb quyruğun üstə düşəndə orda qalmazdı, sürüşüb düşərdi. Quyruğu çox böyük olanda – aran var, dağ var, – quyruğunu götürüb apara bilmer. Qoçun gərək çiyni qəlbi ola, arxası alçaq ola, beli uzun ola. Axtalayanda yarıb xayasını çıxarırdılar, amma buranda sinirləri kəsilir. İki gün burulu qalır, soora açırsan. O daha qoşduğ eliyə bilməz.

Qoyunun yaşa görə adları: quzu, toğlu, şişək, öyəc, qaradiş, azman, dızman. Qoyunun yaşın soruşanda deyirik neçə tükdü? Deyir, toğludu və ya şişəkdi. Onda bilirik ki, şişəkdisə ikinci yaşıdı, öyəcdisə üçüncü yaşıdı, azmandısa dörtdü, dızmandısa beşdi. Qoş da yaşlaşdıxca toxum sıxlığı seyrəkləşir. Quzunun toxumu dızmannan daha keyfiyyətlidi. Toğludan əmələ gələn quzunu dızmannan ala bilməzsən. Bir də özünnən törüyəni özünə qatdıxca, cırraşer. Gərək mən öz qoçumun törəməsinnən başqasına verəm, onunkun da alam. Qoyun qoçdan çıxannan soora onun qoçların qaytarıb öz qoçlarımı alırdım.

**162.**

Qoyunun üsdə dişi olmor, bircə altdadı, qabax dişləri olor. Ona quzu dişi deyillər, eyni ölçüdə olor. Bir yaşı tamam olanda

ortadakı iki diş laxlıyıf düşör, altınnan iki yekə diş çıxer. Deyillər, bax gör yaşı nə qədərdi? Deyir, indi kürək vuruf. İkinci ili tamam olanda böyürdən də ikisin çıxarder. Üçüncü il tamam olanda dəyişir hər tərəfdə bir-iki quzu dişi qaler. Qoyun yeddi qarın, səkgiz qarın doğanda deyillər, bax gör bunu saxlıyax, yoxsa çıxdaş eliyək? Ağzına baxıf deyir, hələ quzu dişdəri duror. Quzu dişdəri düşənnən soora o qojaya hesabdı, çıxdaş edilir.

**163.**

Köş vaxdı harda düşərgə salardılarsa, axşam da heyvanı saneeb arxaca yığerdılar. Yəni heyvanı buroya qədər düz gətmişik-mi? Səhər tezdən köç başdıyanda qoyun arxaşdan çıxanda bir də onu saneerlər. Yəni üş günnən soora sanıyanda bilmərik bu üş düşərgənin hansında itirdik. Axşamdan da maslahatlaşardılar, nööbəynən qoyuna keşik çəkərdilər. Məsələn, beş adamdısa, gejəni beş yerə bölürdülər, nööbəynən keşik çəkərdilər.

**164.**

Köhnə kişilər bizə sual verərdilər ki, qoyun yatanda ilk yerə hansı hissəsi dəyir? Qoyun yatanda yerə birinci nəfəsi dəyir. Yeri iyliyir, soora yatır. Soruşurdular ki, qoyunun arpa boyda sümüyü hansı hissəsindədi? Arpa boyda sümük qoyunun quyruğunun ucundadı. – Qoyun neçə baş otduyur? Qoyun iki baş otduyur. Kərə, kürə. Kərə qulaqlı qoyuna deyillər, kürə qulağı olmuyan qoyuna. Bəzən üç baş da deyillər. Üçüncüyə də buynuzu olanı aid edirdilər. Amma babam deyirdi ki, iki baş otduyur. Bizə sual verirdilər ki, qoyunu otdan keçirəllər, otu qoyunnan keçirəllər? Biz deyirdik ki, otu qoyunnan keçirəllər da. Deyirdilər yox, qoyunu gərək otdan keçirəsən.

**165.**

Sağar-sığar sağmal üçün,
Göycə qarın quzu üçün,
G.. bəsdiyər subay üçün.

Quzu heyvanın dilbilməzidi. Onu otarmaq çətin şeydi. Quzu otaranın yüyürməkdən vaxtı olmur. Quzu otarmağa çox vaxt cavan uşağı yolluyurdular ki, o yüngüldü, heyvanın dalınca ora-bura qaça biləjək. Sağmal heyvan da bir gündə iki dəfə anasını əmər. Sabah ertə xamı yeyər, gələr balanı əmizdirər. Gedər bir də xamı yeyər, gələr bir də balasını əmizdirər. Soora genə gedər xamı yeyər. Deməli, sağar mala gedən gündə üç dəfə qoyunu aparar, yedirdər, gərirər. Subay mala gedən isə sabah gedər qoyunu buraxar örüşə, elə axşama qədər qoyun orda otduyar, bunun da canı rahat olar.

**166.**

Gər qoyun bir gejədə yeddi dəfə təklif eliyir ki, gəlin qaçaq. Rəngi yaxşı olmur, nə qaradan qaradı, nə ağdan ağdı, nə bönööşdən bənööşdü. Rənglərinə görə qoyunun cürbəcür növləri var: qaraəvrəş, qaratəpəl, bənööşəvrəş, sarı kərə, boz kərə, dümağ kərə, ağqarööz. Amma qoyunun iki növü gözəldi: bir qaraqumral, bir də boz kərə. Onlardan gözəl qoyun yoxdu. Qoyunun yaraşığı onun quyruğundadı. Gər qoyun tək-tək adamlarda olar, onu qoymazdar artsın. Dədəmgil deyirdi ki, heş nə bilmiyəndə denən ki,

Qara qoyun, qaşqa qoyun,
Mən başımı hara qoyum?
Elə başımı saa söyküyüm yatım.

Qara qoyunun südü həmişə şirin olur. Yaraşığı yoxdur, amma südü hamısınnan şirin olur. Südü həm də göy ösgürəyin dərmanıdı. Boz qoyunun yunu isə onnan da gözəldi.

**167.**

İndiki sağannar buzoyu kənarda dəmirə bağler, amma biz inəyin ayağına bağlerdıx. İnəyi eydirersən, çəkif buzoyu ayağına bağlersan, onnan soora başdersan sağmağa. Sağdıxca da oxersan:

İnəyim, ağ inəyim,
Məməsi dolu yağ, inəyim.

Anam-bajım ağ inək,
Verdin mənə yağ, inək.

Südün bol olsun, inək.
Balan sağ olsun, inək.

Buzoyu ayağına bağlıyanda inəy mehrin salır balasına, onda südün verer. Görürsən bəzi inəyin balası yaxşı olor. Deyillər, bala saxlıyan inəkdi bu. İnək həmişə özündə bir az süd qısdırer, saxler balasına. İnəyi düz eydirif bağlasan, südün verər. Görəndə ki, sən yalannan elersən, onda südün boşdamır, çəker. Bütün südün sağa bilmək üçün inəyin əmcəyin bir-bir balasının ağzına salıf çıxarderdıx. Deyirdik, dördün də əmsin ki, dördün də südün boşdasın. Balası əmənnən soora onu sağerdıx.

**168.**

Hajalnağı gəlladar oluf bu zonada. Deyirmiş bir erkəyim ölsün, amma bir çələli körpəm ölməsin. Erkək öləjəh, yeyiləjəh, amma körpə öləndə yeməli döyül da, itkidi. Bir də deyirdi ki, iki ay payızı, üç ay qışı burğu çəkdim ağıla, yazda dağa köçəndə hələ bir burğunun yeri yarımçıq qaldı. Burğu da ağacdan olurdu, onu ütüf bururdular, məftil əvəzinə ağılın qabağına çəkirdilər. Yəni demək istiyir ki, yatağın işi qutaran döylü.

## 169. TƏRƏKƏMƏ AC QALAR, İTİ AC QOYMAZ

Tərəkəmənin itini vurunca, özünü vursan yaxşıdı. Tərəkəmə aj qalar, itin aj qoymaz. Tutax ki, köç gedirsən, unun qutarıf. Atı çox yükləməmək üçün bir kisə un götürürdün kü, filan yerdən alaram. Tərəkəmənin unu qutarsa, özü aj qalar, amma iti aj qoymaz. Qoyunun birin kəsif itə verməlidi.

Mənim beş itim vardı, başqasının on iti vardı. Köş gedəndə on-on beş fermanın iti bir araya gəlirdi. Kürsəyə gələn vaxdı qancıx açığ olardı. Dörd yüz, beş yüz itin hansı güjdüydüsə, onnan cütdəşerdi. Onnan da küçük əmələ gəlerdi. Bu üç yüz itin içində hansı cəsarətlidi, hansı boylu-buxunnudu küçüyü onnan götürərdik. Küçüyü də gərək körpəlikdən örgədəsən.

Küçüyü dəməydə, gəlini gərdəydə. Küçüyü dəməydə saxlıyırdılar. Yeri qazıb üsdün qamışderdılar, küçük orda olordu. Küçük bööyüncə qapıya gəlməməliydi. Çünkü qazan var, vedrə var. O da qanmaz şeydi. Ağzın vuror, ağzı şirin dader. Örgənənnən soora nə qədər eləsən də, onu qabdan, vedrədən uzaqlaşdıra bilməzsən. Ona görə küçüyü qapıdan kənarda saxlerdılar. Bir az irilənənnən soora, artıx o tərəfə, bu tərəfə hürməyə başdıyannan soora gələrdi qapıya. Ev yiyəsi də bilerdi ki, çölə qab-qaşıx qoymağ olmaz, çünkü orda qanmaz var. Qanmaz bir dəfə ağzın qab-qaşığa vurdusa, qab-qaşığa dadandısa, onnan soora keçirdilər əsas məsələyə. Mis və ya alminium qabı ojaxda möhkəm qızdırıf, içinə də yeməli şeyi qoyuf qoyurdular küçüyün qabağına. Küçüh söyünə-söyünə gəlif dilin ora vuran kimi yüyürüf həmən dəməyə girirdi. O qabda qızıl tök qoy, bir də ona ağzın vuran deyil. Bax heylə örgədirdilər.

Anadan olannan bir gün soora küçüyün qulağın kəsərdilər. Kəsəndə qulağın biri uzun, biri gödək çıxer. Amma iki qulağınnan tutuf bir dəfə fırrıyırsan, qulaxları əlində qaler.

İt var xançal quyrux, it var çənbər. Çənbər quyrux itdərin quyruğu buruğ olor. Sanki quyruğunun uju burula-burula gəlib duror belində. Çənbər itdərin quyruğun kəsmerik, amma xançal quyruğu kəserdik. Çünkü boğuşmax vaxdı o biri itdər onun quyruğun ağzına keçirdisə, o itin öyü yıxıler. Çoban itdərinin qulağı sallax olordu, o da eşitmə qabiliyyətin məhdudlaşdırer. Ona görə itin qulağın kəserdilər. Quyruğun da payız girəndə, soyuxlar düşəndə qırxerıx. İtin quyruğu yunnu olanda qışda burnun aparır qoyur quyruğun altına, ora da od kimi olor, yatır orda.

İtə əsasən Alabaş, Qarabaş, cütdüsə, Qoşa, Yetirən, Götürən demişik. Quyruğuna görə Çənbər demişik. İti örgədirdik. Yemək verməzdən qabax fıy çəkif iti çağırerdin. Bir neçə dəfə belə eliyənnən soora, yemək vermə, fiy çal, elə biləjək yemək verirsən, o saat gələjəh. Tutax ki,  it topa yatışıf, sən də nəsə görörsən. Çığırıf-eləsən gördüyün şey də duyux düşüf qaçajax. Yavaşca fiy çalersan, it o saat biler ki, nəsə var ki, sən fiy çalersan. Onda görörsən, it həmin şeyi tutdu.

İt canavarı sürüdən çıxartdısa, mütləq qoyunun quyruğun verməlisən ona, yoxsa itin ürəyi partdar. Sən bir canavar vurdonsa, o ərazidə nə qədər ferma varsa, hərəsi sənə bir qoyun vererdi.

## 170. ATIN YALMURAZI HAQQI

At da müqəddəsdi bizdə. Mənim atam iyirmi üç ildi dünyasın dəyişif, onun atı bu saat duror. Kişi ölənnən soora nə qədər pul təklif elədilər ki, atı sat bizə. Dedim bu at öləndə onu ağa büküf basdırajam. Bu at satdıx döyül. Çobannar bir-birinə and içəndə deyərdilər ki, atın yalmurazı hakqı. O ən güjdü and hesab olunur. Kim ki, atın yalmurazına and içer, bilersən ikinci söhbət ola bilməz. At, silah, arvad, papax... Biz tərəkəmədə bu dörd şeyə dəymə, min belimə səni gəzdirim.

## 171-172. DƏVƏ HAQQINDA

Dəvə insan üstündə geder. Hesab-kitabda nəfər kimi qeydə alınır. Şüuru insana çox yaxındı. Dəvə dalaşanda yüz metirrikdən şöngöör, bir-birinin gözünə baxer. O yüz metri bəlkə iki saata gəlif yaxınnaşır bir-birinə. Yaxınnaşanda çiyinnəşillər, bir-birinin güjün yoxluyullar. Sinəsinin altında zindan var. Zindannan o birinin boynunun ardınnan vururdu, dünyanın huri-qılmannarı mələşə-mələşə gələ, xeyri yoxdu. Məğlub olan da vilayəti tərk eləməlidi.

Dəvə həm də kinni heyvandı. Boz ayda dəvə qızer. Qırx gün ağzınnan köpük tökülör, dilinə də heş zad vurmor. Otu qoyurdux qabağına, götürüf tullordu, ağzınnan köpük daşlanırdı. Quyruğunu da ipnən gətirif bağlıyırdıq küənə[24]. Dəvənin sidiyi ağzı geri çıxır axı. Deməli o qızdıxca kişner, sidiydən boşdoor, quyruxnan vuror. Quyrux isdaner, yanbızın arasın yara eleer. Onun ujunnan quyruğun küənə bağlıyellar. On bir ayın birində o erkək dəvəni hardasa vur-dun, döydün, o qırx gündə əlinə düşmüyəsən. Əlinə düşdün, Allah

[24] Küən – hürgüc

eləməsin, ağzıynan götürür döşüyür küənə, onu məhv eləməlidi. Bu il vur, qırx ildən soora qızanda o səni tanımalıdı, o hayıfı çıxmalıdı. Qisasın qiyamata qoyan heyvan döyül.

Dəvənin yaşın soruşanda tük deyillər. Məsələn, deyillər bu dəvə neçə tükdü? Dörd yaşı varsa, deyir dörd tükdü, beş yaşı varsa, beş tükdü. Dəvənin balasına köşək deyillər, bir tük olanda daylaq. Üçüncü ili dişi mayaya tərəf gedir, erkək buğura tərəf. İriləndi daha buğurdu. Nər ən qüvvəlisidi. Buğur beş yüz kilo götürürsə, nər götürür yeddi yüz, səkgiz yüz kilo. Mayaynan balxıdan törüyən arvana olur. Maya buğurnan görüşməlidi. Amma balxıynan görüşəndə onnan arvana törüyər. Nər dizin atdı yerə, qorxma. Dağda çətin yer olanda dəvə görürdü ki, ayağı sürüşər, burdan gedə bilməz. Dizin aterdi yerə. Da onu vurmaq olmaz. Adamnan danışırsanmış kimi onu həvəsləndirməlisən: “Ə, kişisən, qeyrətin olsun, camaat ayannan baxer”. Heylə onu ruhlandırersan, görördün oranı dizin-dizin keçib gederdi.

Özü də ziyansız heyvandı. Bir keçinin təsərrüfata vurduğu ziyanı o vurmur. Yediyi qanqaldı, yulğun, yağtikan, iydə yarpağıdı. Tikanlı bitki yediyinnən tikan dilinə batır. Su içəndə ağzı göynüyür. Yayda o qədər su tələb eləmer, amma qışda çox su içer. Bir dəfəyə 250 litr su götürə biler. Mədəsində də on altı litr su tutumu var. Səhraynan gedəndə karvanın suyu qutaranda dəvəni kəsib həmin suyu götüröllərmiş. Təmiz, işməli sudu.

**172.**

Yeddi-səkgiz dəvəmiz vardı bizim. Hamısının başında zınqırovu, qotazı, kəlləlikləri vardı. Arxa-arxaya bağlanırdı, bir kadının atın da böyrünə bağlıyırdılar, köş gedirdi. Dəvə insan üstədi. Əllinci ildə bizim daylaq doğdu, balasın da almadı. Dədəm gəldi babama dedi ki, dəvə balasın almer, köşək çır-çır çığırer. Dedi, get, Muxtar kişini çağır, gəlsin. Muxtar kişi gəldi, qarın üstə bir dairə çəkdi, Quranı qoydu oraya. Dəvənin də gətdi başın qoydu, köşəyi də gətdi. Dedi, ay dəvə, bu Quran haqqı, bu Quran haqqı, bu sənin öz balandı. Onnan soora balasın götdü əmizdirməyə.

Vaxtilə meyidi dəvəynən aparellardı qəbirstannığa. Onda dəvənin qulağına pıçellardı ki, yükün duzdu, birdən elə bilərsən ayrı şeydi. Bir az sanbalnan qalx.

Dəvə otdadığı kol-kosdu. Bir az suyu çətin içir. O vaxdı babama dedim ki, dəvə suyu niyə belə içer? Dedi, dəvə pastayannı kol yeyir, tikan batır damağına, yerinə su dolanda ağrıyır. Sanbalnan, süzə-süzə içer. Özü də dəvə qarnında zapas su saxlıyır. Su olmuyanda onu qaytarer ağzına.

## 173. SİCİMİN HAZIRLANMASI

Örkən enli olurdu, dörd barmaq enində. Qoyunun yununnan hazırlanırdı. Dəvəni, öküzü, atı yüklüyəndə, palanı çəkəndə onun qarnının altını kəsməsin deyə enli olurdu. Sijim iki cürdür. Biri var qoyun tükünnən olan sijim, biri də var qıl sijim. Qıl sijim o vaxdı mod idi, çox möhkəm olurdu. Keçini qırxırdılar, keçinin yununu qatırdılar qoyunun yununa, qatmaca eliyib onnan saplar kəsirdilər. Bir də var çatı. O da yunnan toxunmadı. Onnan da malı, atı bağlamaq üçün istifadə olunurdu. Sijim 10-12 metr olurdu. Çatı üç metr, dörd metr olurdu, sijimdən də bir az nazik olurdu. Sijim daha etibarlı idi.

Doğanax nədi? Səməni ağacınnan hazırlanan doğanax daha möhkəm olurdu. Tərəkəmə onu kəsib götürürdü. Onun boğazına sijimi bağlıyırdılar, yoğun qatmaynan da tikirdi. Sijimi yükün üstündən atıb dəvənin altınnan keçirdəndə, nə qədər uzun olsa da, gəlib o doğanaxdan keçməlidi. Doğanağa girənnən soora da qətiyyən ordan çıxmazdı. Ona görə belə bir məsəl var: örkən nə qədər uzun olsa, gəlib doğanaxdan keçər.

## 174-176. ALAÇIĞIN HAZIRLANMASI

Alaçıqlar fındıq çubuğundan, ulac çubuğundan olurdu. Abdal-Gülablıdan yuxarıda meşələr olurdu, ordan həmin ağacları qırırdıq. Onlar düz olurdu. Onu gətirib əyləmə verirdik. Yəni sancıb yerə, başlarını əyib bağlıyırdıx. Həllaclar qoyun yununnan keçə salırdı.

Çadırın yanına 12 keçə gedirdi, ona yan qəlibi deyilirdi. Dörd dənə də baş keçə olurdu, onu da üsdən salırdı. Keçədən salınan çadır qışda isdi olurdu, yayda da buz kimi sərin. Əvvəlcə gədə çubuğu bağlıyırdılar. O hardasa yerdən metr yarım qəlbi olurdu. Bütün çubuxları o gədə çubuğu orda tutub düz saxlıyırdı. Qotazlı çubux bağı olurdu. Qotazlar rəngbərəng olurdu, çadırın tavanına baxanda elə bilirdin çiçəklikdi.

Binə çubuğu gödək olur. Böyük çubuxdan eni beş metr, uzunu altı metrlik ev tikirsən, amma binə çadırı balaca olurdu. Onu daşımaq da, aparmaq da asan olurdu. Palatkanın qırağıynan qarım çəkirdik. Yağış yağanda su qarıma tökülürdü, qabağı da açıq olurdu, oraynan axıb gedirdi. Ensiz kilim toxuyardılar, qapı yerinə ondan istifadə edirdilər. Alaçığı quranda ətrafını çətənnən hörərdilər, qışda isə çətənnən əlavə qamışnan da hörərdilər ki, soyuğu içəri buraxmasın.

**175.**

Alaçığı fındıq çubuğunnan tikərdilər. O biri çubuqlar ağır olur, ona görə olar sərf eləmir. Fındıq çubuğu həm yüngül olur, həm asan əyilir. 42-45 çubuqdan altının dördə ev tikirdilər. Arxa və qabaq bel çubuqları olurdu, küşdərə qoyulana gədə çubuğu deyilirdi. O biri çubuqlar hündürdən gedirdi, bu alçaqdan getdiyi üçün ona gədə çubuğu deyilirdi. Çubuqları da qoyun yununnan hörülmüş qotazlı bağnan bağlıyardılar. Bir alaçığ üçün 100-150 bağ lazım olurdu. Qotazları qırmızı, yaşıl, göy olurdu. Bir evi tam örtmək üçün 13 keçə lazım idi. Onun altısını yan-yana tikirdilər, baş keçəni evin üstünə atırlardı. Evin qabax hissəsinnən qapı qoyardılar. Xüsusi toxunma qapı asardılar, kənarlarına da ağac vurardılar ki, girib çıxanda qapı içəri girməsin.

**176.**

Muxronu irannılar düzəldərdi. Onun iyirmi qəlibi olardı. Özü də onun qəlibinin biri iyirmi kilo gəlirdi, amma alaçığın qəlibi altı kilo. Muxronun çubuğu xüsusi olaraq yonulurdu. Alaçığın çubux-

larını yerə sancırsan, amma muxronun çubuğunu yerə sancmırsan. İçəridən dörd yerdən örkənnən bağlıyırlar. Muxroya ölçüsündən asılı olaraq, 24, 26, 28 çubux gedir, amma alaçığa 48 çubux gedir. Muxronun çubuğun, keçəsin ancax nər götürərdi, başqa dəvələrin ona gücü çatmazdı. İmkannı adamlar muxro qurardılar. Tatallarda yalnız bir bizdə, bir də Rustam kişinin muxrosu vardı.

## 177. QONAQ EVİ

Tərəkəmənin bir qonax evi olurdu, bir də əl evi. Qonax evi on metr aralıda tikilirdi, içi gəvəynən bəzədilirdi. Qonaq evinə ayrıca yastıq-döşək qoyardılar. Hətta onun qabı-qaşığı, stəkan-nəlbəkisi ayrı olur. Yığardılar bir otağa, ancaq qonaq gələndə istifadə oluna bilər. Qonax gələndə daa qaldıxları alaçığa deyil, o evə aparardılar. Əl evi də qaldığı evin yarısı boyda olurdu. İşdənmiyən əşyaları, ərzağı, unu, motalı əl evinə qoyurdu. Onları öz qaldıxları evdə saxlamazdılar, sabah gələn olar, pis görünər. Ona görə də əl damı düzəldib onları ora yığardılar.

Tərəkəmədə bir adət var: hər gələn qonağın adına bir heyvan kəsilər. Yadıma gəlir ki, qonağımız gəlmişdi, atam bir heyvan kəsmişdi. Ətin yarısı yeyilir, yarı şakqası ordan asılıf. Bir ayrı qonax gəlif, atam gətirif başqa bir qoyun kəsif. Deyiflər, ə, sən nağarırsan? Ordan asılan ət deyil? Deyif, o sənin adına kəsilmiyif, sənin adına indi kəsiləjək.

## 178. ÇARIQ

Tərəkəmə adətən çarıq geyərdi ala corabnan. Çarıq mal dərisinnən hazırlanardı. Qoyun dərisinnən çarıq olmaz. Özü də malın belinin ortasınnan gözəl və davamlı çarıq çıxır. Malın bel dərisi qalındı, qalan dərisi isə nazikdi. Adətən Ergi düzündə mal öləndə biri-birinə tapşırırdılar ki, filankəs, mənə də bir çarıxlıx gön götür. Bel gönünü kəsirdilər, duznan möhkəm qurudurdular. Soora onun tükün iti bıçaxnan aşılıyırdlar. Bir heyvannan beş zol çıxardı. Bir

zolun eni 20-25 santı, uzunu 60 santı olurdu. Duz səpif qurudardılar, soora isdağa qoyardılar. İsdağa qoyannan soora ya vedrəyə keçirib, ya da ağaca söyküyüb üsdün tükün bıçaxnan təmizdiyərdilər. Malın öz dərisinnən çəkilmiş kööşən olardı. Çarığı kööşənnən tikərdilər, sapnan yox. Qıraqlarını yığırdılar, ayax formasını alırdı, üstünnən dolayı-dolayı köşəni ilişdirirdilər bir qulaxdan o qulağa. Onun ipi olurdu. Topuğun yannarınnan ipin bağlıyırdı, corabın üstünnən onu bağlıyırdı ki, çarıx isdanıf düşməsin. Bağı da şalvarın altınnan bağlıyırdın baldırına. Axşam gələndə çarığı soyunub qoyurdun isdağa ki, qurumasın. Quruyanda çətin geyinilirdi. Vay o günnən quraxlıx ola. Çarığı geyinən adam sürüşüb ombaların qırardı. Bir də onu itdən qoruyardılar. Yaş çarığı qapıda qoysan it aparıb yeyərdi. Qoyurdun döşəyin, palazın altına ki, çarığı it oğurramasın.

## 179. ÇATMA

Çatma üç ağacdan hazırlanırdı. Ən çox da fındıx ağacınnan istifadə olunurdu. Həm düz olordu, həm də tilişkəsi olmordu. Hər ağacın da metr yarım, iki metr uzunnuğu olardı. Ujdarı yonulardı. Şişi qızdırıf başdarını deşərdilər, qatmaynan bağlıyardılar. Ayaxlarını saj ayağı kimi hərəsini bir tərəfdən yerə sancardılar. Ordan da qoyunu asıf soyardılar.

# TƏRƏKƏMƏ YEMƏKLƏRİ

## 180. XIDIR NƏBI XAŞILI

Unu ələydə əliyənnən soora onu qoyullar yükün üsdünə. Sabah qalxellar, deyillər Xıdır gəlib burdan gedib, atın rəddi düşüb una. Onnan xaşıl bişirillər Xıdırın ehsanına. Suyu töküllər qaba, altınnan vurullar odu. Su qaynamağa başdıyanda həmin unnan töküllər qazana, qarışdırıllar. Onu qarışdırmasan, un yumuru-yumuru olur, onu yemək olmur. Qatılaşana qədər qarışdırıllar. Qatılaşannan soora olxoyu belə qalxızıllar. Oxloyun aşağısında (oturacağında – top.) xamır olmadısa, onda o bişif. Əgər xamır varsa, demək hələ tam bişməyif. Onu qarışdırmağa davam eliyirlər. Soora onu çəkellər boşqablara. Ortasını yastılıyıb ora yağ töküllər, yağın da içinə bəhməzi. Xaşıldan götürüf bəhməzə batırıf qoyullar ağza. Xıdır ehsanın onnan yemək lazımdı.

## 181. BAĞIR-BEYIN

Bağır-beyini kök, quyruxlu əmlikdən bişirillər. Arıx heyvanın quyruğu əzilmir, ona görə arıx heyvannan olmur. Onu kəsillər, kəsənnən soora soyullar. Soyannan soora onun bağrın, quyruğun, bir də başın ayrı-ayrı qaynadellar. Baxellar ki, həmi baş bişib, həm də əli quyruğa və ya bağıra vuranda onlar əzilir. Qabaxlar soyuducu yoxuydu, onları çıxardıf qoyurdular öyün üsdünə, səhərə kimi olurdu buz kimi. Soyuyannan soora əlnən əvvəl bağırı əzillər, soora quyruğu əzillər. Başın sümüyün aralıyıf beynin çıxarıllar. Sifdə quyruxnan bağırı qatellar bir-birinə, onu qarışdırellar. Soora da beyini gətirif töküllər onun üsdünə. Duzun, istiotun vuruf qarışdırıllar, qoyullar bir qırağa, soyuyur. Səhər nazik yuxanın arasına yığıb yeyillər. Bağır-beyin çox qüvvəli yeməkdi. Mədə üçün də çox xeyirlidi.

Bağır-beyini nəlbəkidə surfaya qoyardılar, yanında da sarımsax verərdilər. Onu ancaq yeməkdən sonra yeyərdilər. Yeməkdən əvvəl yeyərdinsə, o səni elə tuturdu ki, aclıq hiss etmirdin. Çünki onun tərkibində qaraciyər var. Qaraciyər də adamın ətsizdiyini qaytarır.

## 182. KÖPMƏCƏ

Qoyun qurudanda onun südünün yağlılığı ən yüksək həddə çatır. Əsl köpməcə həmin süddən bişirilir. Onu bir sajın üsdündə bişirillər. Orda bişəndə çox yeyə bilirsən. Bir də tavada yağın içində bişirillər. Yağın içində bişəndə çox yağlı olur. Qoyunu sağıllar, ona un qatıllar. Sifdə sajın üsdün yağlıyıllar, onu töküllər üsdünə. Qızarır, soora çöyürüllər o üzünə. Ortadan da deşillər, yağı qoyullar ora. Yağ əridikcə axır onun altına. Həmin yağ onun özünə hopur, amma çox hopmur. Elə ki altı qızarır, çöyürüllər o biri üzünə. O üzü də qızaranda götürüf qoyurdular yerə. Tavanın içində bişəndə isə çox yağlı olur, o qədər yeyə bilmirsən.

## 183. ƏYİRDƏK

Yuxanı yayıllar. Yayannan soora üsdünə azca un səpellər, üsdünnən yağ töküllər. Qayıdıf onu bir də topalıyıf bir də yayıllar. Dörd-beş dəfə bu şəkildə unnuyuf, yağlıyıf yayıllar. Bəzi adamlar içinə şəkər də səpir. Soora onu olxoy kimi büküllər. Bıçağı alıf 5 santı ölçüsündə doğruyullar. Soora sapılcanı qoyullar ojağın üsdünə, içinə də yağı töküllər. Beş-altısın töküllər yağın içinə. O orda qızarer. Yağ o qatdarın arasına girer, aralıyır. Yaxşı bişənnən soora götürüf qoyursan qırağa.

## 184. BİŞİ

Bişinin hazırlanması da əyirdək kimidi. Əyirdəkdəki kimi yuxanı yayersan, arasın yağlıyırsan. Onu qatdıyırsan. Qatdıyannan soora onu iri-iri kəsersən. Kəsənnən soora o başın da, bu başın da bir-birinə yaxın gətirif bitişdirirsən. Soora yastılersan. Onu yağın içinə qoyursan, bir üzü qızaranda çöyürürsən o biri üzü də qızarer. İsdi vurduxca onun qatları da bişir.

## 185. SULUX

Qoyunun özünün suluğu var. Quzu doğannan soora suluğu ətənədən ayırıllar. İçinin suyun boşaldıf onu yaxşı yuyursan, qoyursan qırağa. Sulux qoyunun ağız südünnən olar. Təzə doğmuş qoyunu sağarsan, suluğun ağzın aralıyıf südü tökərsən içinə. Elə eliyəsən ki, suluğun içində hava qalmasın. Çünki hava pərdəni partdadar. Basıb havasını çıxardırsan, ağzın bağlayırsan. Çöl ojağın qalayırsan. Ojağı əsasən qarağan bitkisinnən qalıyırdılar, onun xırda közü olurdu. Ojağ tamam yanıb sönməliydi. Ojağın qorun yığırsan bir tərəfə. Ojağ yanan yerə bekaraca onun külünnən tökərsən. Suluğu qoyursan ora, qoru yavaş-yavaş yığırsan üsdünə. Qor onu orda başder qaynatmağa. Qayantdıxca görərdin suluğun üstündəki kül aralanır. Onda bilirsən ki, bu qaynıyır. Gördün kül qayıtdı yatdı, demək o bişib. Ya da böyrünnən açıb əlini vurusan, əgər bərkiyifsə, demək bişif. Onu ordan çıxardıf qoyursan qırağa. Təmiz əysiynən üsdünü silirsən. İsti-isti kəssən, o su verir. Ona görə də soyuyannan soora pərdəni soyursan, qoyursan təmiz bir boşqaba. Özü də onu yedin, adamı tutur, o günü heç aclıx hiss etmirsən. Bir dəfə İmişlidən gələndə onnan mənə vermişdilər. Yolda onun bir hissəsini yedim, o günü çörək yeməyə iştahım olmadı.

## 186. SIPA SİDİYİ

Sıpa sidiyi hər ətdən olmaz. Ona nəyə görə sıpa sidiyi deyillər? Onun rəngi bozumtul olur, heyvanatın sidiyinin rəngini alır, ona görə sıpa sidiyi deyillər. Quzunun ətini doğruyub yığırlar qazana. Bir istəkan su tökü̈llər, bir az duz atıllar, soğan vurullar, zoğal turşusu atıllar. Vam odda bişir. Onu südəmən quzudan bişirillər. Əti doğrayıf tökü̈llər qazana. İçinə soğanın, turşusun tökü̈llər, duzun səpillər. Onu bişirəndə ətin tərkibindəki süd aralanır. O şirə onun olur suyu. Onun tərkibində olan süd nə yağlı döyül, nə su döyül. O şirəlidi. Özü də onnan nə qədər yesən də sənə heç bir ziyan eləməz.

## 187-188. MOTAL PENDİR

Qoyunun dərisin yaxşı qırxallar. Elə qırxallar ki, gödək yunu qalar. Dəri üzünü duzluyallar, sərəllər. Tamam o quruyar, dərinin şirəsi qalmaz. Onun arxasın tikəllər. Ağac keçirib bərk bağlarlar. Dərinin üsdündə qırışlar olur. Qırışların arasın duznan doldurallar ki, dəri xarab olmasın. Cılğını motalın ət üzünə yığıllar. Pendir çılğıda yetişər. Yetişənnən soora qayıdallar duzun da vurallar. Naxçıvan duzunnan istifadə olunurdu. Başqa duz vuranda pendir ajı dadır. Naxçıvan duzun döyərlər, dənəvər olar, tökəllər dərinin içində qalar. Tamam suyu çəkilər, pendir orda bərkiyər. Ağzın da bağlarlar. İki dənə də qolu olar. Onun birin içəridən bağlarlar, birin çöldən. Pendiri yığallar, qoyallar oraya. Pendir orda yetişənə qədər qıjqırma verir. Qıjqırma verdiyi üçün dəri köpür. Onu qoymazdar ki, dəri köpə, partdıya. Bir qolun açıb havanı çıxardallar. Duzuna baxallar. Duzun bir qədər artıq vurallar ki, duz onu qorusun. Artıq köpü yoxdusa, motal artıq hazırdı.

Pendiri yetişdirif yığsan, motal tez əmələ gəlir, amma doğruyuf yığsan gej əmələ gəlir. Motal nəmliyi sevmir, onu gərək gözdüyəsən. Özü də nəm verir, havadan da nəmlik alır. Ona görə onu gərək tez-tez siləsən. Ən çox da quyrux doğannan soora pendir tutalar. Çünki südün yağlılığı onda artır.

**188.**

Motal qoyun dərisinnən olurdu. Yaşlı qoyunun dərisinnən qırx kiloluq, quzu dərisinnən beş kiloluq motal düzəldirdilər. Ən çox da erkək qoyunun dərisinnən istifadə olunurdu. Onun yununu qırxlığnan qəşəh qırxırdılar, duzduyurdular. O duz dərini nətər sıxırdısa, qırxlığın altında qalan tükü içəri buraxmırdı. Soora cunadan istifadə elədilər ki, tükün qarşısını alsınnar. Aşağısına ağac qoyub möhkəm sarıyardılar. Möhkəm də sıxardılar ki, bir damcı su boşdamasın, hava boşdamasın. Üstündə ağzı olar, iki də qolu olardı. Qollarını bağlıyırdılar. Əzilmiş motal pendiri bəzən qollarından sıxıb

çıxardırdılar. Ağzınnan ya əlnən, ya çömçəynən pendiri çıxardardılar. Onu yeməknən doymaq olmurdu.

Dağarcıq qoyunun qarnından olur. Qoyunun qarnını yuyub qurudurdular. Onun içinə ət qovurması, yağ qovurması, cızdıx yığardılar. O dağarcıq onu saxlıyardı.

### 189. MAYANIN HAZIRLANMASI

O vaxdı indiki kimi hazır mayalar yoxuydu. Camaat mayanı özü hazırlayırdı. Qoyunun qursağı, azca düyü və yaxud buğda, az miqdarda sarımsax, turşu tulluyurdular. Onu bir neçə gün dəmə qoyurdular. Orda dəm alırdı. Soora südün litirinə görə neçə xörək qaşığı onun suyundan atırdılar.

Maya kimi qoyunun qursağından da istifadə eliyirdilər.

### 190. AXTARMA PENDİR

Qoyun aranda doğordu, gederdi dağa, da quzu aralanerdi, əmmerdi. Beş yüz qoyunnan üş yüzü qurudordu, içində qalerdi yüzü, yüz əllisi. Beş yüz qoyunun içinnən o qoyunnarı axtarerdin bir-bir. O qoyunun əmcəyinnən çıxan süd qatılaşıf yağ olordu. Axtarma pendir onnan tutulordu.

### 191. EŞŞƏK PENDİRİ

Dağda motalı qoyordular eşəyin belinə. Eşşəyin də berahat yerişi var. Motalı çalxalıya-çalxalıya gətirib çıxarderdi bura. Motalın ağzın açerdilər, əvvəl bir topa sarı yağ düşördü yerə, soora pendiri çıxarderdılar.

# NAĞILLAR

## 192. İSGƏNDƏR ZÜLQƏRNƏ

İsgəndər Zülqərnə həddinnən artıq varrı, döölətdi adam olur, həm də çox insanpərvər olur. Bunun fikri oymuş ki, deməк, bütün o yaşadığı ölkeynən bərabər, yoğun[25] ölkələrin də hamısın öz əlinə ala. Başqa mənada yox, yəni insaniyyətdiyin, mərifətdiyin, mədəniyyətin bildirə. Gəldikcən də yaxşı olur. Axırda bir günnəri yığır vəzir-vəkili, hamısın bir yerə. Deyir ki, mən dünyada yeganə adam olmağ istiyirəm. İndiyətən qazanmışam öz yerində. İndi mən isdiyirəm ki, bir dəfə şimala, bir dəfə cənuba, bir dəfə şərqə, bir dəfə qərbə gedəm, orda məni tanımıyannar arasında da özümü göstərəm ki, belə bir insan vardı.

Bir gün bu yoldaşdarın yığır, deyir gedək cənuba. Beş-altı gün gələnnən soorasına bunlar çıxır böyük bir dağa, dağın da üstü böyük meşədi. Gəlir bırda durur, ta bırdan belə çıxmaq mümkün döyül. Nətər eliyəh, necə eliyəh? Vəzir-vəkil deyir:

– Qayıdax.

Deyir:

– Yox ey, bəs bu boyda yol gəlmişəm. İndi nə bilim o tərəfdə ölkə, vilayət, şəhər var, yoxdu?

Bınlar deyir:

– Bə neyniyəh?

İsgəndər deyir ki, kim çıxıb ordan maa bir xəbər gətsə, ona bir küp qızıl verəjəm.

İndi bir küp qızıl nə qədər qiymətdi olsa da, can hər şeydən üstündü dana. Hamı başın aşağı salır. Bir yetim oğlan varmış, atası, anası yox idi. Öz-özünə otduğu yerdə fikirrəşir, deyir: “Ya rəbbim, ya rəsulallah, atam yox, anam yox, bacım yox, qardaşım yox. Ölsəm də onsuz da həyatdan tək gedirəm, qalsam da. Qoy icazə alım, mən gedim axtarım. Tapsam da gəlim deyim, tapbasam da”.

---

[25] Yoğun – yaxın

Bı gəlir İsgəndərin yanına. Əlin qaldırır, deyir:

– Hörmətli şahım, mən gedərəm.

Padşah deyir ki, a bala, gedif gələ bilərsən? Deyir:

– Hə.

Bı durur, bınlardan icazə alır, iki-üş saata qalxır dağın başına. Dağın başına qalxanda görür, o tərəfdə evlər, həyət-baca, məsələn, insannar... Bir az da irəli yeriyəndə görür meşənin qırağında bir nəfər oğlan mal, heyvan, qoyun otarır. Yaxınnaşır bına ki, bura haradı, kimdi, nədi? İndi nə bı bının dilin bilir, nə bı bının da. Bı dinmir. Belə deyəndə bı çoban ağacı götürür kü, bı yetimi vıra. Bı oğlan yerdən bir daşı götürür, nətəər belə atırsa, çobanın kürəyinə dəyəndə bı yıxılır. Yıxılanda yüyürür bının əlin də, qolın da daldan bağlıyır. Bağlıyannan soorasına deyir ki, çıxım gedim. Bir on, on beş metr aralanannan soora öz-özünə deyir: "Ə, mən dəliyəm, cinniyəm? Mən gediv orda deyəjəm belə bir şey tapbışam, onda mənə inanmıyajaxlar ha. Bəs mən neyniyim? Yaxşısı budu, bunu sürüyə-sürüyə aparım". Gəlir bını tutur, belə sürüyəndə, indi bı da candı axı, ağrıyır. İşarə eliyir ki, onsuz da hara deyirsən gedirəm dana. Əyaxlarımı aş, onsuz qolum bağlıdı da, gedəh. Gətirir bının əyaxların açır, qolunnan tutur, yavaş-yavaş gəlir.

Görür bəy-zad bılar hamısı oturubdu. Deyir:

– Ağa, o tərəfdə ev də var, millət də var, dünya da var, mal, pul, var, devlət. Min dəfə də bizimkinnən yaxşıdı. Bıdı, bir nəfər də gətirmişəm.

Uje bırda padşah day atkaz eliyə bilmir. Deyir ki, indi neyniyək? Vəzir, vəkil deyir ki, padşah sağ olsun, indi oranın adamları kimdi bilmirik, xasiyyətin bilmirik. Gedəh evə, bı oğlanı yerri qızın biriynən evləndirəh, bınlardan uşağ olar. Uşağ böyüdühcən atanın da dilin örgənər, bizim də dilimizi, ananın da dilini dana. Bizə təkrar eliyər, bilərih ki, kimdi.

Götürüllər oğlanı da gəlillər, gələn kimi bir qıznan bını evləndirillər. Bınlar yaşıyana qədər deyir ki, padşah sağ olsun, hardeysə bir səkkiz, doqquz, on il lazımdı da bı uşağ orda böyüyə, neyniyə. Deyir:

– Onda gedəy şərqə.

Deyir:

– Yaxşı.

Gəlillər, şərqə çatanda böyük bir meşəyə çıxıllar. Deyir:

– Neyniyək?

Deyir ki, gəlib meşəni tapbışıx. Düşəh bı meşiyə təhlihdə. Kim ceyrannan, cüyürdən vırsa, gətirək bırda tonqal qalıyağ, böyük bir qonağlığ eliyək.

Bir ağacın dibinə yığılıllar, padşah özü təhcə düşür meydana. Bı meşə bını nətəər cəlb eliyirsə, bir də onda başın qaldırır ki, axşam saat beş-altıdı, hava qarannıxlıyır. Belə vaxtda geri qayıtmağ mümkün dəyil. Qayıtsa bını vəhşi heyvannar parçalıyar. Neyniyim, nejə eliyim? Meşədən qırağa çıxanda görür kü, bir çoban mal, qoyun otarır. Yaxınnaşır bına:

– Salamməlöykü?

– Əleykümsalam.

Deyir:

– A qardaş, kimsən, nəçisən?

Deyir:

– A kişi, mən ovçuyam. Gəlmişəm bura, indi qarannığa düşmüşəm. Sən harda yaşıyırsan?

Deyir:

– O dey, o görükən kəntdə.

Deyir:

– Olar, mən də gedim sənnən gejə orda qalım, səhər gələrəm?

Bı müsəlmanın ayrı şeyi olmasa da, bir-birinə inamı, hörməti var da. Deyir:

– Gedəh.

Bınlar gəlir. İndi bir az yol gedənnən soora baxır ki, yol uzaxdı da. Deyir:

– Ə, çoban qardaş, gəlsənə bı yola bir nərdivan salax, – deyəndə bı çoban öz-özünə deyir ki, ə, bu dəlidi, cinnidi? Bıra nərdivan salmaxçun nə qədər taxta, ağaj, mismar, kərpic, balta, insan lazımdı.

Tay dinmir. Bir az da gəlillər, gələnnən soora qabaxlarınnan balaca bir çay keçir. Bı çoban atı vurdu çayı keçə. İsgəndər indi qorxır axı belə yerdən keşməyə. Deyir:

– Çoban qardaş, gəlsənmi bıra bir körpü salax?

Gənə bı belə baxır, baxır. Deyir: "Ə, bu dəlidi, cinnidi? Bıra körpü salmaxçun nə qədər daş, ağac lazımdı". Genə dinmir. Ordan birtəhər keçillər, kəndə çatmağa iki-üç kilometr qalmış, görür kü, böyük bir taxıl zəmisidi, sünbül bax belə-belə. Adam baxır, həvəsə gəlir. Deyir:

– Çoban qardaş, görəm bı taxılın yiyəsi biçif yiyəjəh, biçmiyif yiyəjəh?

Çoban öz-özünə deyir: "Ə, bu dəlidi, cinnidi? Taxılı da biçməmiş yiyəllər?"

Nəysə, gəlillər, kəndə çatanda bının evi kəndin qırağındeymiş, gözünün də ağı-qarası bir qızı varmış. Deyir ki, o dey, o ev mənimdi, qapıdakı da qızımdı. Çağırıb ona deyəjəm. Sən get otur evdə, əl-üzünü yu, mən qoyunu, malı paylıyıb gəlim.

Çağırır qızın, deyir:

– Qızım, bir qonax var, onu qarşıla.

Bı gedir, evə çatannan soora qız su qızdırır gətirir, bının əlin-əyağın yuyur, süfrə açır. Atası hərrənif gəlir. Oturullar, Allah verənnən yeyif-eliyillər. – Onda belə ev döyüldü ey. Dam bajasıydı, doqquz metr eni, doqquz metr uzunu. – Çoban deyir ki, gedək. Gedəndə deyir ki, ovçu qardaş, – elə bilir ovçudu dayna, – bağışda day kasıbın olanı bıdı da. Nə xoşa gəldi, nə xoşa gəlmədi? İsgəndər deyir:

– A kişi, evin yaxşıdı, amma bir azca bajası əyridi.

Dedi:

– Yaxşı, gedəh.

Çoban genə ürəyində dedi: "Ə, sənin nə borcuna baja əyridi, əyri döyül". Gətirdi, yolun yarısınnan bı dedi, mən meşənin qırağınnan gedəjəm, sən getginən. Gəldi çatdı yoldaşlarına. Gördü bılar ceyran-zad vırıflar, oturuflar, ojax-zad qalıyıflar. Hamısı da qorxusunnan əsir ki, padşahı itirmişik də. Görən bını canavar yedi, çaqqal yedi, öldü, qaldı? Padşahın gəldiyini görəndə hamısı üstünə yüyürür:

– A sən allah, harda qaldın, noldu, nağardın?

Dedi:

– Hava qaralmışdı deyə qayıda bilmədim. Bir çobana qonağ oldum, getdim onun evinə, ordan qayıtdım gəldim.

Bırdan deyillər gedəh, deyir:

– Yox, bırdan belə evə qayıdajeyih.

Gəlir, evdə məsləhət edir ki, orda çobanın bir qızı var, mən ona vurulmuşam. Ona elçi getməlidi, mən onu alam. Durur bırdan vəzir-vəkili göndərir.

İndi bı çoban axşam gələndə qız deyir ki, dədə, o ovçu kim idi? Onu hardan tapbışdın? Deyir:

– Aaz, ovçu nədi, o gijin biriydi, ağlı çatmırdı.

Deyir:

– Nətər?

Deyir:

– Ay balam, yol gedirik, maa deyir gəti bıra nərdivan salax. Ordan deyir, gətir bıra bir körpü salax. Ordan gəlmişik, deyir, taxılın yiyəsi biçif yiyəjəh, biçmiyif yiyəjəh? İndi də səhərə qədər yatıf, az-çox yeyif-içif, maa deyir ki, bajan yaxşı bajadı, bir əz əyridi.

Dedi:

– Dədə, o kimdisə mən tanımıram, dünyada onnan ağıllı, gözəl insan yoxdu.

Dedi:

– Nətəər?

Dedi:

– O çoban dəyilmiş, dövlət başçısıdı. Yolda yoruluf, saa deyif ki, gəl yola körpü salax. Yəni yorulduğuna görə bir söhbət eliyəh, söhbət adamın başın qarışdırır axı, gedif mənzilə çatax. Gəlib ordan keçəndə o saa deyə bilmiyif məni də götür. Utandığınnan deyib bıra körpü salax, yəni məni də al kürəyinə, apar da. Sən də fikir verməmisən. Gəlib burda deyib ki, bı taxılın yiyəsi biçif yiyəjəh, biçmiyif yiyəjəh? Yəni bını əkən adam özü yiyəjəh, yoxsa padşaha verəjəh. Dədə, o baja deməkdə də, bajanı demirdi. Deyirdi, qızın yaxşı qızdı, heyif gözü çəpdi. İndi o harda olsa, maa bəlkə elçi göndərdi. İşdi

maa elçi göndərsə, denən, qızımın dərdi özündədi, özü cavab verər, nə desə ona əməl eliyərəm.

Nəysə, aradan bir-iki gün keçir. Bir gün bı padşah götürür bılara bir vəzirdən, vəkildən elçi göndərir. Gəlillər. Deyir ki, bəs bu yaxınnarda sizə qonax gəlib. O gələn adam padşahdı, sizin qızınızı istiyir. Çoban deyir:

– Vallah, qardaş, düzdü mən qızın atasıyam, amma hər kəs özü-özünə cavab verməlidi. Qız özü cavab verər.

Gəldi qıza dedi ki, nə deyirsən? Qız dedi ki, siz padşaha deyin, mən ona bir şərtnən gedərəm ki, o əvvəlcə bir sənət örgənsin. Nə örgənir örgənsin, bir sənətin sahibi olsun. İkinci, ona məsləhət bilin ki, o, hara getsə, getdiyi istiqaməti maa desin və neçə günə gedif qayıdajax bunu bilim.

Dedilər:

– Yaxşı.

Dedi:

– Üçüncü şərtim odur ki, o padşaha deyin, harda çətinə düşsə, ordan adam göndərsin geri, bizə xəbər versin ki, padşah hardadı, hansı əzaba düşüb geri qayıda bilmir.

Dedilər:

– Yaxşı.

Vəzir-vəkil gəlib bunu padşaha deyəndə, dedi:

– Əşi, mən nə örgənim, neyniyim?

Bı vəzir, vəkil dedi:

– A kişi, biz örgənmişik, ən yüngül şey xalçaçılığdı. Gəti belə bir şey örgən. İkinci də o getmək... O saa demir ki, hara gedirsən, niyə gedirsən, nəyə gedirsən dənə. Getdiyin istiqaməti deyəjəksən ki, ya şərqə gedifsən, ya qərbə. Bunnan hasant nə var. O birsi də ki, harda olsan öz zəhmətinnən özünü doğrultmalısan.

Nəysə, bınları örgənənnən soorasına xəbər göndərillər qıza ki, uje padşah hazırdı. Deyir, gəlsin aparsın. Nəysə, qızla evlənir.

Aradan bir-iki ay keçənnən soorasına deyir ki, biz çıxaq şimala tərəf, gedək o meşənin qırağına, gəzəh, ordan qayıdax gələk.

Durullar düşüllər yola, gəlillər bir dağın qırağınnan keçəndə, görüllər iki dağın arasında böyük bir binadı. Bir az yaxınnaşanda görüllər qabağına yazıblar ki, yeməkxana. Bı deyir ki, gedəh oturax, yeyəh-içəh. Gəlillər, oturullar, çay içillər, çörəh yeyib qutarannan soorasına, indi bu yeməkxananın yiyəsinə deyillər ki, biz birəz dincəlməh istiyirik. Deyir:

– Dincəlməyə yaxşı yerimiz var, gəlin bəri.

Bınları aparır salır padvala. Padvala salannan soora bınlar görür ki, padvalda nə qədər adam oturub, özü də hamı bax belə əsir, qupquru. Deyir ki, ə bala, bura nədi, noolub? Deyillər ki, siz nə iyinə gəlmisiz? Deyir ki, çayxanaya. Deyib ki, əşi, nə pivə, nə çay. Orda sizə yedirtdihləri bizim ətimizdi. Bizi saxlıyıllar bırda, həftədə birimizi kəsillər, o gəlib-gedənləri razı salıllar, köçürüllər bıra. İndi sizi də gətiriflər ki, siz köksünüz də, ətdisiniz, sizi kəsələr. Deyəndə bı padşah qayıdır belə baxır: "Mən neyniyim, nağayrım?" Birdən sənəti yadına düşür. Bunların yanına adam gələndə deyir ki, padşaha denən ki, bu məni kəsib yedirtsə, nə qədər qazana bilər? Deyillər ki, məsələn, yüz manat. Deyir ki, padşaha denən, mən belə xalı toxuyuram. Xalı toxuyaram, yerin də deyərəm, aparıb satarsınız, ordan yüz yox, bəkə beş yüz, altı yüz manat pul alarsınız.

Gəlillər padşaha deyəndə, padşah deyir:

– Mən neynim, nağayrım?

Deyillər:

– Padşah sağ olsun, bını kəssən yüz manat götürəjeyih, amma bı ayda iki xalça toxusa, gör bizi nə qədər varrandırar.

Deyif:

– Yaxşı.

Gətirillər bını, bı sənəti qoyıllar qabağına, başdıyır toxumağa. İndi bı demişdi axı üş günnüh gedəjəm. Üş günün əvəzinə on üş gün olur, bınlar hələ geri qayıtmayıflar, xəbər-ətər yox. Bının arvadı bı adamlara – vəzirə, vəkilə, nökərə deyir ki, gedin bazara, harda xalı satıllarsa, neçiyə dediyinə baxmayarax o xalıları götürün gəlin, mən alıram. Bilir ki, bı belə ola bilər dana.

Gedillər, hərrənillər, görüllər üş-dörd nəfərdi, xalı satır.

– Ə neçiyədi?

Deyillər:

– Həşdat manat.

Deyir:

– A kişi, gəlin bəri, bizim xanım sizə yüz manat verəjəh.

Bınları götürür, qapıya gələndə qız xalılara baxan kimi bilir ki, bıdı. Özü də adın yazıb da ora, adın üstünə hərifnən yazıb. Deyir ki, neçiyədi? Deyillər, belə-belə. Yüz manatdan pulun verir. Deyir ki, bınnan soora nə vaxt xalınız olsa, satmax istəsəniz gələrsiz bıra. Bıları keçirir o tərəfə çörək yeməyə. Vəzirə, vəkilə deyir ki, padşah hardeysa bınların əlinin altdadı. Bınlar gedənnən soora düşün arxaya, bınları gəzə-gəzə gedin görün hardeysa oranı yarın, padşahı götürün gəlin.

Bınları yedirdif yola salannan soora, beş-altı nəfər durur atdanır, arxadan bınları işarə eliyə-eliyə gəlillər, bınlar da gəlif çıxır bura. Görüllər ki, ay kabab yeyən, ay ət yeyən, nə bilim neyniyən. Bınlar çörəyi yeyənnən soora qalxıllar, ordakıların hamısını döyüllər, əllərin, qolların bağlıyıllar. Bağlıyannan soora deyir:

– Dustaxlar hardadı, yerin deyin?

Məjbur olıllar, yerin deyillər. Gediv açanda görüllər padşah o dey orda oturuf əsir. Deyir ki, padşah sağ olsun, səni tapdıx, dur gedəh. Gəlir evə. İndi bir müddət oturannan soora deyir, doğurdan da, bı arvad olmaseydi, indi mən batıb getmişdim də. Elə yaxşı ki, bı orda maa köməh elədi.

Bir müddət qalannan soorasına deyir ki, cənuba getdih, şərqə getdih, indi şimala gedəh. Durullar genə atdanıllar, gəlillər şimala. Bir-iki gün yol gedillər, axşamçağı bir də görür kü, meşədən bir ceyran çıxdı. Bərdən ayna qaçanda, bı yoldaşdarı istiyir ki, bını vıra. Onda da ən güjdü silah ox idi. Padşah deyir:

– Qılış da məndə, ox da məndə. Heş kim dalımca gəlməsin. Ceyranın dalıncan özüm gedəjəm. Vırdım götürüb gələjəm, vırmadım qayıdıf gələrəm.

Bı ceyranı qavır, qavır, gəlir bir təpədən aşanda görür kü, böyük bir çadırdı. Bı ceyran qaşdı girdi çadıra. Dedi, hə, indi gedib

bırda tutaram. Gəldi atı çöldə bağlıyannan soora, qılıncı sivirdi, içəri girəndə gördü ceyran nədi. Bırda bir qız oturuf ki, o nağılda, əfsanələrdə deyilir ey, aya deyir sən çıxma mən çıxım, günə deyir sən çıxma, mən çıxım. Belə gözəldi. Dedi ki, ay qız, sən kimsən? Bırda nəəzirsən belə?

Dedi:

– Mən böyük bir padşahın qızıyam, atamgil həmişə gəzməyə-zada gedəndə məni də özdəriynən götürürdü. Gəlib burdan keçəndə çadır qurdular, tezdən qarannıxda durublar, özdəri yığılıf gedif, yaddan çıxıf mənim çadırım qalıf burda.

Dedi:

– Bəs mən də filan padşaham. Gələrsənmi səni alım?

Dedi:

– Vallah, alıram deyirsən al, mən etiraz eləmirəm. Amma indi sən məni aldın getdin, kimə sübut eliyə biləjəhsən ki, belə bir padşahın qızın almışam?

Dedi:

– Mən neyniyim?

Dedi:

– Get özünnən bir ağıllı, savatdı adam gəti, heç olmasa bir şahidin olsun böyründə ki, sən belə bir şey tapbısan.

Deyir:

– Yaxşı.

Bu qayıdır gəlir yoldaşdarın yanına. Deyir ki, ə, ceyranı tutmuşam, filan yerdədi. Bir nəfər mənimnən getməlidi, ceyranı götürəh gələh. Tanıdığı ağıllı adamın birin salır yanına, qayıdıf gəlillər bıra. İndi çadıra çatmağa iyirmi metr qalmış, birdən bının ağlına gəlir ki, ya rəbbim, ya rəsulallah, indi bəlkə bı kadın yatıfdı. Gediv içəri girməh düz döyül dana. Bı oğlana deyir ki, sən dayan bırda, mən gedim görüm nətərdi vəziyyət, soora səni çağırım, birrikdə götürək gedəh.

Vəzir qalır, bı gəlir çadırın qapısın açanda görür kü, bırda bir qoja arvad oturub, həşdat-doxsan yaşında, danışa da bilmir. Deer ki, a-a-ay bala, sən k-k-kimsən? Dedi:

– Ay nənə, mən bırda qız qoydum getdim ey?
Dedi:
– O-o-o q-q-qız mənəm.
Dedi:
– Nətəər sənsən?
Dedi:
– Elə fikirdi də qojaldıf, mən burdayam.
Nəkqədər eliyir, ayan-bayan. Deyir ki, oğul, o ceyran da mənəm, o qız da mənəm, bı qoca da mənəm. Mən Allahın yolçusuyam. Belə deyəndə, dedi:
– Onda sənnən bir şey xayiş eliyim. De görüm mən neynəsəm daha da varrı, dövlətdi ola bilərəm?
Dedi ki, yaxşısı budu, heş kimə qoşulma dana, özün öz əqlinnən istədiyin kimi istifadə eliyə bilərsən. Dedi:
– Ana, mən nə qədər yaşıya bilərəm?
Dedi:
– Sən hardeysa qırx, əlli il yaşıya bilərsən.
Dedi:
– Mən nətər eliyə bilərəm ki, ölmüyüm də, qalım.
Dedi ki, bı tərəf meşədi, o tərəf meşədi, amma o tərəfdə Diri dağı var. O Diri dağın altında dirilik suyu var. O sudan gətirə bilsən, bir sən yox, ən böyük dəvədi, fildi, nə cür böyük canlı olursa olsun, o öləndə onun ağzına bu dirilik suyunnan bircə damcı atsan, o dirilər, qalxar ayağa. Səni də saxlıyan bıdı. Gediv ordan gətirə bilsən, ömrü boyu yaşıyarsan.
Dedi:
– Yaxşı.
Gəldi çıxdı çölə. Gördü vəzir oturuf.
Dedi:
– Gedəh?
Dedi:
– Yox, xoşum gəlmədi danışığınnan. – Tay demir nədi dənə. – Qayıdax gedək.
Gəldi yoldaşdarına çatanda, dedilər, ağa, belə-belə. Dedi:

– Yox, qayıdajeyih vətənə.

Qayıtdılar vətənə. Bı fikirrəşdi. Çox fikirrəşənnən soorasına dedi, cənuba getdim, şərqə getdim, şimala getdim, indi bı tərəfə – qərbə gedəjeyih. Belə bir dağ var, o dağın altına. İndi mən heş kimi aparmıram, kimin xoşu gəlirsə maa bir yeddi-səkkiz nəfər lazımdı, özümnən aparım. Orda suyu tapsam, götürəh gələh.

Bir kişinin gözünün ağı-qarası bir oğlu varıdı. Bu gəldi axşam dedi:

– Ay ata, məni bağışda, yoldaşdarım filan yerə gedir, mən də gedirəm.

Dedi:

– Hara gedir?

Dedi:

– Belə-belə.

Dedi:

– Get o padşaha denən, məni də götüsün, mən də gedim.

Dedi:

– Ay ata, axı sən yaşdı adamsan.

Dedi:

– Yox, get de.

Gəldi, padşaha deyəndə, padşah dedi:

– Yox, o yaşda adam olmaz.

Dedi:

– Onda padşaha denən, məni qəbul eləsə, ona iki-üş kəlmə sözüm var.

Nəysə, padşah dedi:

– Buyursun içəri.

Gəldi içəri. Dedi:

– Nədi?

Dedi:

– Padşah sağ olsun, siz gedirsınız yerin altındakı dirilik suyuna. Yerin altındakı su iki-üş yerdeysə, amma yerin üstündə gör neçə milyon, milyardlığ su var. Özü də getdiyin yerdə bu suynan o suyun tamı bir deyil. Bırda su var kirri sudu, burda var turş sudu, nə

bilim ajı sudu. Eləcə də yerin altında var. İndi siz gedif orda o dirilik suyun nətər tapa bilərsınız? – deyəndə, padşah qaldı belə.

Dedi:

– Nətər tapa bilərəm?

Dedi:

– Hər saldata bir dənə balıx tutdurun, onlar o balığı aparallar, orda salallar suya. Hansı suda balıx dirilsə, deмək dirilik suyu odı da, onı götürsünnər.

Dedi:

– Yaxşı.

Dedi:

– İkinci, getdin suyu tapdın, o suyu nətər gətirəssən? Civaa yığassan, yoxsa əlində?

Dedi:

– Hə, düz deyirsən, bəs mən neyniyim?

Dedi:

– Hər saldata dəridən bir dənə tulux düzəlt, həm təmiz olsun, həm də büksünnər qoysunnar civlərinə. Harda tapsalar, o sudan doldurallar tuluğa, götürüb gələllər. İkinci, adam hələ yerin üstüynən gedəndə sağın-solun tanıyammır. Yerin altıynan getdilər, soora qayıdıf çıxa bilmiyəjəhlər axı.

Dedi:

– Neyniyim?

Dedi:

– İki nəfər daş zəncir götürsün. İçəri girif bir on beş, iyirmi metir irəli gediv orda dayansınnar. Adamlara da vaxt ver ki, məsələn, bir saat, iki saat gəzin, qayıdın. Onlar qayıdanda həmin adamlar zəngi vırsın, zəngin səsinə onlar qayıdar ora, ordan çıxallar, götürüb gələrsən.

Dedi:

– Ağıllı fikirdi.

Nəysə, dedi, getməyimizə bir on, on iki gün qalıf. Gətdi həbelə bıların hərəsinə bir tulux düzəltdi, hərəsinə bir balığ gətdi, nə bilim orda yoldaş oldılar. Gəldi bı Diri dağına çatanda dedi ki,

belə-belə gedirsınız, məsələn, dörd saat sizi gözdiyəjeyih. Dörd saat hardan tapdız, gətirirsiz, ordan gəlirik.

Bınlar indi ikisi sağa, ikisi sola gedillər. İkisi də gəlir. Bir yerdə bıların qabağına su çıxır. Baxıllar belə. Biri deyir:

– Ə, bırda şırıltı var, qəşəh sudu.

O biri deyir, ə baxım görüm. Bu balığı çıxardır, elə belə suya əlin uzadanda balığ bının əlindən sivrilir. Deyir:

– Ə, dirilik suyu bıdı.

Deyir:

– Qoy mən də bir baxım görüm.

Bı da balığı gətirif salanda bının da əlindən gedir. Deyir:

– Hə, tapbışıx, gəl tuluxları doldurax, gedəh.

Tuluxları doldurullar, şəlliyillər kürəhlərinə. Bir az gələnnən soora bı yoldaşın biri deyir ki, ə, indi biz hara gedirik? Bəlkə gəldiyimiz yerə getmirik, ayrı yerə gedirik. Gəl oturağ dincələh, zəngi nə vaxt vırsalar, o dəmirin səsinə gedərik. Bınlar oturullar. İndi bınlar neçə gündü yol gəlif yorulub, səhərdən bırda yol gəzillər ağır tuluğ da çiyinlərində. Oturduğları yerdə birdən yuxu tutur bınları.

Bı dirilik suyunun sahibi eşitdiyimə görə qızıl quşdu. Bu quş özü yoxmuş, balası bırdeymış dana. Bı qızıl quş yuvasına gələndə görür balası ağlıyır. Dedi:

– Nədi?

Dedi:

– Belə-belə. İki dənə insan gəlmişdi, həbelə sudan hərəsi bu qədər götürdü getdi. Ona görə ağlıyıram.

Dedi:

– Hansı tərəfə getdilər?

Dedi:

– Bı istiqamətə.

İndi bu uça-uça gəldi. Gördü bınlar oturublar, belə yatıblar. Arxadan qondu, tuluğun ikisin də dimdiyiynən deşdi. Demək, tuluğda bir qıram su qalmır e. Su hamısı axıb gedənnən soora indi zəngin səsi gələndə bınlar ayıldı qalxdı. Qalxanda gördülər ə, yüngül qalxdılar axı. Belə baxdılar ki, tuluxlar bekardı. İkisi də ağladı.

Dedilər, ə, indi biz getsək, padşah bizi öldürəjəh. Neyniyəjeyih, nağarajeyih? Biri dedi, a kişi, gedəh də. İndi yalvararıx ki, ay padşah, bilməmişih cırılıfdı. Gələn səfər gələndə genə getdiyimiz istiqamətnən gələrih, axtarıb taparıx.

Nəysə, gəldilər. Çölə çıxanda gördülər hamı oturub. Dedilər:

– Nooldu?

Bınlar olduğu kimi dedi.

– Padşah, səni allatmırıx, suyu tapmışdıx, tuluğu da doldurmuşdux. Yolda yuxuya qalmışıx, quş tuluğu deşib, bütün su axıb gedib, – deyəndə padşah dedi, eybi yoxdu, neyniyək, gedəh, bir müddətdən soora bir də qayıdıf gələrih.

Bılar bir xeyli gedənnən soorasına gəldilər bir meşənin qırağınnan keçəndə, gördülər ki, həddinnən artıx yağışdı, küləhdi. Neyniyəh, nağayrax? (Orda bir şey yadımdan çıxdı. O arvad bınlara bir kəlmə də demişdi ki, sən dirilih suyunu tapassan, amma onnan işməh sənə qismət olmuyajax. Sənə taxtadan bir ev tikəjəhlər, onun altında canını tapşırassan). Taxdadan bına bir yuva düzəltdilər, özdəri bir yerə, padşah da gedir bıra. Uzanannan soorasına bir az aradan keşmişdi, bir də gördü qapıdan içəri bir nəfər girdi. Qayıdır:

– Sən kimsən ə, bıra niyə girmisən?

Dedi:

– Ə, danışma, mən gəlmişəm sənin canını alam.

– Sən kimsən mənim canımı alasan?

Dedi:

– Mən cənabi Əzrayılam, mən can almağa gəlmişəm.

Dedi:

– Bəs sən mənim canımı ala bilməzsən.

Dedi:

– Nəyə görə?

Dedi:

– Nə vaxtı mənim üstümdə taxtadan, ağajdan ev tikilsə, onda ala bilərsən.

Dedi:

– Onda bir gözünü belə aş bax.

Baxanda görür kü, üstü də, altı da taxtadı. Belə baxdı, baxdı, dedi, qadan alım, onda icazə ver, o nökəri, naibi çağırım, iki-üş kəlmə sözüm var, onlara deyim. Bı səsdədi bınları:

– Gəlin bıra.

Gəldilər:

– Ağa, nədi, ağa, nədi?

Dedi:

– Ə, oturun, səs eləməyin.

Dedi ki, mən burda keçinəjəm. Mənim gözümün ağı-qarası bir anam var. Mənim meyidimi qabağ aparsaz, anamın ürəyi partdıyar. Əvvəlcə, bir dəstə yetim uşaxlardan göndərin, onın dalınca bir dəstə yaşdı adam göndərin, onın dalınca bir dəstə qoyun göndərin, dalınca bir dəstə mal-heyvan göndərin, soora mənə çatanda mən gözü açığ öləjəm. Anama deyin ki, bunun bizə məsləhəti var. Harda gözü yumulsa, orda dəfn eliyəjeyih.

Tez bının canın alır Əzrayıl. Bunu götürüllər, düşüllər yola. Uşax yığıllar, nə bilim qoca, bir az da at, heyvan, filan. Anası ağlıyanda deyillər ki, oğlunun vəsiyəti var ki, onun harda gözü yumulsa, orda dəfn eliyəjeyih. Neyniyəh? Deyillər, qoyax tabuta, gəzdirəh, görəh harda gözü yumulur.

İki gün, üş gün, bunu nə qədər gəzdirillərsə, gözü yumulmur ki, yumulmur. Bınlar da yorulub əldən düşüb, yayın istisi. Görüllər aşağıda böyük bir çinar ağacı var. Bı çinar ağacı harda olsa, onın dibində bulağ olur, su olur. Gəlillər çinar ağacına çatanda görüllər bırda bir çobandı – yaşdı adamdı qoyun otarır, oturubdu bırda. Bılar gələndə bı dedi:

– Nədi, noluf? Niyə ağlaşırsız?

Dedi:

– Əşi, sən nə bilirsən e.

Dedi:

– Heç olmasa bir kəlmə deyin.

Deyillər ki, bəs hal-qəziyə belə-belə. Çoban torpaxdan bir damcı İsgəndərin gözünə atan kimi bının gözdəri yumulur. Hamısı qalır məhətdəl. Deyillər ki, neyniyəy? Biri deyir ki, ə, torpax tor-

paxdı dana, aparağ anasının yanında dəfn eliyək də, bıra neyçün gətiririk. Gətirillər ordan anasının yanına. Başa salıllar ki, ay ana, oğlun uşağı, yetimləri tabutun qabağınca göndərmişdi ki, ana, gör mən həyatımda yetimlərə nə qədər hörmət eliyirəm. Qocaları göndərmişdi ki, qocalara nə qədər hörmət eliyirəm. Malı-heyvanı göndərdi ki, ana, gör mən nə qədər varrı adamam, nə qədər varım, pulum var. Nə qədər imkansız adamlara köməy eliyirəm. Ölümün qarşısını almax mümkün olsaydı, bular alardı. O torpağın mənası odur ku, yəni bütün cannının hamısının əvvəli torpaxdan əmələ gəlir, axırı da torpağa qismət olajax. Bınnan belə neyniyim yox, elə bırda öz qəbirsannığımızda yer qazırıx, basırırıx. Onıynan da orda qazıb basdırıllar.

## 193. ÜÇ VƏSİYYƏT

Bir varrı, dövlətdi ata olur, həddən artığ malı, pulu, varı-dövləti olur. Gözünün ağı-qarası bircə oğlu olur. Bunu qənimət bilir, bu uşağı elə böyüdür ki, ancaq ye, iş, de, gül, gəz, oynaginan. Bir gün bu kişi elə bir vəziyyətə düşür ki... Baxır ki, ta köçür. Köşməh məqamı gələndə birdən ağlına gəlir ki, ya rəbbim, ya rəsulallah, bəs mənim bu qədər malım, pulum, varım, dövlətim, qızılım. Gözümün ağı-qarası olan bu oğlumu mən belə örgətmişəm. İndi mən ölənnən soora qoşulajax yoldaşdarına, mal da gedəjəh, pul da gedəjəh, var da, dövlət də. Mənim adımı batırajax, mən neyniyim? Yanında oturannara deyir ki, xayiş eliyirəm çıxın çölə, oğlum görün ordadımı, çağırın, ona bir söz deyəjəm. Bunlar çıxır çölə, çıxannan soorasına oğlun çağırıllar. Gəlir, deyir:

– Ay ata, nədi? Ay ata, nədi?

Deyir:

– Ay bala, mən ölürəm.

– Ata, nə danışırsan?

Deyir:

– Bunu saxla, sohranın işidi.

Dururlar. Deyir:

– Eliyərsən, eləməzsən öz işindi. Sənə üş dənə vəsiyətim var.

Deyir:

– Nədi?

Deyir:

– Birinci vəsiyətim odur ku, mən ölənnən soorasına, yoldaşdarın töküləşəjəh, qırx gün yeyib-içib soora durajaxlar dana. Qırx çıxannan soorasına görəssən bir günnərisi yoldaşdarın gəldi ki, gedəh çay içəh, çörəh yiyəh. Onda sən onlara etiraz eləmə. Denən, gedin, mən də gələjəm. Oğul, babalım boyuna, babalım boyuna, içmə sən. Amma olara denən gedin sabax saat on ikidə filankəsin evində qonaxlığ düzəldin, mən də gələjəm. Sən onlara on iki de, oğul, genə deyirəm babalım boyuna, babalım boyuna, özün saat ikidə get.

Deyir:

– Yaxşı.

Deyir:

– İkinci vəsiyəm odur ki, babalım boyuna, babalım boyuna, qumar oynama. Oynasan qumarı hər yerinnən qalxannan, bilənnən yox, qumarın ən məşhur ustası kimsə, axtar tap onuynan oyna. Üçüncü vəsiyyətim odur ku, oğul, birdən əlin aşağı düşdü... Məndə də olurdu. Nə qədər varrı-dövlətdi adam olasan, nə qədər gətirdiyin vaxt olsa da, itirdiyin vaxt da olur da. Əlin aşağa düşsə, heş yerə getmə. Gəl evimizə yaxın bir yerdə oturginən, gələn qohumlara, dostlara, tanışdara əl aç, sana kömək eləsin. İşdi onnar da sana kömək eləməsə, oğlum, dördüncünü deyirəm, babalım boyuna, babalım boyuna, orda bir zəncir asmışam, görürsən? Babalım boyuna gəlib ordan özünü asıb öldürməsən.

Dedi:

– Yaxşı.

Allah cəmi ölənnərə irəhmət eləsin. Bu ata irəhmətə gedir. İrəhmətə gedəndə oğlan görür kü, dostdarı gəldi. Gəlif oturullar, qırx gün bunlar çay içir, çörəh yiyir. Biri qabı qoymağa, biri nə bilim nəyə. Qırxınnan bir dörd-beş gün keçənnən soora... İndi nə qədər ərköyün böyüsə də, ata həsrəti ayrıdı da. Deyir,

Dara düşsək arxamızda
Bir möhtəşəm dağdır ata.
Daim yanan, alovlanan,
Sönməyən ocağdır ata.

İşıq saçar yolumuza,
Qüvvət verər qolumuza,
Yurdumuza, elimizə
Arxadır, dayaqdır ata.

O, layiqdir məhəbbətə,
Bu qüvvətə, əzəmətə.
İnsanlığa, sədaqətə
Əbədi mayaqdır ata.

Mayaq dənizdə gəmiyə yol göstərən işıqdı, həyatda övlada yol göstərən işıq atadır. İndi bı o qədər həvəsdidi, maraxlanır, qalıb belə. Bir də görür kü, atasının qırxınnan beş-altı gün keçir. Axşamçağı görür yoldaşdarı gəlir. Ağlına gəlir ki, atamın qırxı da çıxıf, bunlar nə əcəb gəlif? Gəldilər:

– Salamməleyküm.

– Əleykümətsalam.

– Ə qardaş, nədi?

Dedi:

– Allah ataa irəhmət eləsin, – bı da qırx yeddi gündü oturuf dana, – gedəh eynimizi açax, bir şey eliyəh, – deyəndə, atasının sözü yadına düşdü. Əlin saldı cibinə ki, bınlara pıl verə. Dedilər:

– Ə, ayıbdı, biz sənnən bir şey istiyirik? Sən niyə belə eliyirsən?

Dedi:

– Onda gedin, sabah saat on ikidə qonaxlıx təşkil eliyin Kərimgildə, mən də gələjəm.

Bunlar getdi. Səhər açıldı. Allah hamınızın qarşıdan gələn səhərlərinizi xeyirə aşsın. Bu yatdı, durdu. Getdi malı-heyvanı qaytarıb gətirdi, sahat on ikidə gəldi evə. Allah verən loxmadan-tikmədən yeyənnən soora uzandı yatdı. Yatdı, saat ikidə ayıldı, dedi:

– Hə, atam deyən vaxdı, durub gedim görüm.

Gəldi gördü bunlar gözdüyüflər, görüflər bu gəlmiyif, başdayıflar vırıflar[26]. Baxdı kı, bını tanıyan yoxdu. Biri vırıb birinin çənəsin əzif, birinin gözü tökülüf, birinin qolı sınıb. Belə baxdı, baxdı, dedi:

– Hə, ata, Allah sənə qəni-qəni irəhmət eləsin. Mənə on iki deyil, ikidə get deyib ki, iki saatdan soora içkinin əlamətin görüm. Toba sənə bu günnən içki.

Onnan soorasına gəldi. Aradan bir neçə gün keçənnən soora dedi, gedim bu qumarı örgənim. Gəldi birinə dedi, mən məşhur qumar oynuyanı gəzirəm. O dedi mən döyüləm, bu dedi mən döyüləm. Sizin kimi hörmətdinin biri dedi:

– Ə bala, qumarbaz bulağın üstündə oturubdu. Ora getsən onu taparsan.

Gəldi gördü bir nurani kişidi oturub, amma qapqara qaralıb. Əynində bir dəst paltar var, üstdən bir put darı töhsən altdan çıxmaz. Cırıx-cında, özü də qəm dəryasında. Salam da verdi, bı dinmədi. Bir az qalxannan soora bı kişi belə başın qaldırdı, gördü bir cavan oğlandı. Dedi:

– A bala, nədi, niyə durmusan?

Dedi:

– Heç əmi, oturmuşam dayna, sənin yana gəlirdim.

Dedi:

– Nəyə?

Dedi:

– Gəlmişəm mənə qumar örgədəsən.

Dedi:

– Bala, neçə yaşın var?

Dedi:

– İyirmi yeddi, iyirmi səkkiz.

Dedi:

– Ay bala, saa yaramaz, çıx get.

---

[26] Vırıflar – içki içiblər

Nəkqədər elədisə, bı əl çəkmədi. Dedi:

– Bala, evim filan yerdədi. Sabax gələrsən bizə, mən səni örgədərəm.

Səhər açıldı, Allah qarşıdan gələn səhərlərizi xeyrə aşsın. Bu durdu gəldi bura. Gəldi gördü kü, kişi oturufdu, bunu gözdüyür. – Onda həbelə evlər yoxudu, dam evləri vardı ey, doqquz metrə eni, doqquz metrə uzunu, onnan olardı. – Dedi:

– Gəldin?

Dedi:

– Hə.

(Qumarı dəyəsən indi kartnan oynuyullar, o vaxtı aşıxnan oynuyurdular). Dedi:

– Bala, qumarı nəynən oynuyullar?

Dedi:

– Nə bilim.

Dedi:

– Neçə aşığnan?

Dedi:

– Bilmirəm.

Dedi:

– Neçə irəngnən?

Dedi:

– A kişi, bilsəydim sənin yana nəyə gəlirdim? Ona görə gəlmişəm ki, məni örgədəsən.

Dedi:

– İndi mən onları əlimdə belə oynadajam. Görürsən aşığların biri ağdı, biri sarı, biri qırmızı, biri göy, biri yaşıl. Burdan atajam damın bajasınnan qırağa. Deyəjəm, ağ aşıx böyrü üstə duruf, qırmızı aşıx yanı üstə, sarı asıx başı üstə duruf. Get, mən dediyim kimi düzülübsə, onda bil ki, mən ustadam, gəl səni örgədim. Düzülmüyüfsə, mənnən ustad olmaz.

Dedi:

– Yaxşı.

Bı dediyi kimi elədi, atdı. Bı damın bajasına çıxdı, getdi gördü ki, – necə ki qabax əmr verəndə saldat düzülmürdü, – bı da dediyi kimi düzülüb. Belə baxdı, baxdı, dedi:

– Qurban olum səni yaradan ustad əllərə, gör nə gözəl sənətdi, gedim örgənim.

Gəldi dedi:

– Əmi, necə demişdin, heylə düzülüb. Xayiş eliyirəm ki, məni örgət.

Dedi:

– Oğul, neçə yaşın var?

Dedi ki, məsələn iyirmi yeddi. Dedi ki, mənim də var əlli yeddi. Əlli yeddi ildi mən bunu oynuyuram, örgənirəm. Amma yadında qalsın ki, qumar oynuyanın axırı çöldə aj qarına uzanandı. Mənnən sənə əmanət.

Dedi:

– Əmi, Allah ömrü uzun eləsin, canı sağ eləsin. Toba saa bu günnən qumar.

Qumara da nifrət elədi. Gəldi bir gün də keçənnən soora dedi: "Gedim bu əl açmağı örgənim". Gəldi qohum-qardaşın getdiyi yolun üstə durdu. Gördü biri gəlir. Dedi:

– Burda niyə oturmusan?

Dedi:

– Ə, qahım, maa min manat pul ver.

Dedi:

– Ə, pulum vardı, axşam gədə götdü getdi toya.

Gördü biri gəlir. Dedi:

– Ə, burda niyə oturmusan?

Dedi:

– Ə qahım, maa beş yüz manat pul ver.

Dedi:

– Ə, canın hakqı, qız padruqasıgilə gedirdi, verdim ona.

Aradan bir az keşdi, gördü biri gəlir. Dedi:

– Ə, burda niyə oturmusan?

Dedi:

– Qalx maa bir iyirmi manat pul ver.

Dedi:

– Canın hakqı, pulum yoxdu. Elə iyirmi manatım vardı, onu da verdim anama qonax gedirdi.

Axırda gördü biri gəlir. Dedi:

– Ə, burda niyə oturmusan?

Dedi:

– Maa bircə abbası pul ver.

Dedi:

– A vijdansız, mənim bir abbasım olseydi, gedib verərdim para çörəyə, alardım, gətirif yeyərdim. Sənin kimi oğula verməzdim ki, o cür atanın adın batırasan, nəsli bu kökə salasan.

Dedi:

– Hə, gedim indi özümü asım.

Gəldi evə, atası dediyi zəncirin yanına. Əyağın altda bir dayanacax qoydı, qalxdı bı zənciri keçirdi boğazına. Boğazına keçirənnən soorasına ağlına gəldi, dedi: "Ay canım, mən çimməmişəm ey. Gedim yuyunum, özümü pak eliyim, gəlim". Düşdü getdi, çimib qutarıb gələnnən soora, dedi: "Ata, Allaha agahdı ki, sənin yana üzü qara gəlmirəm, dedikləri örgənif gəlirəm. Gəlmişəm özümü asam. Əyağının altda bir dayanacaq qoydı, ordan düşüb boğulsun dana. Dayanacağ getməynən bunun tap yerə düşməyi bir oldu. Bir də belə baxdı, başın qaldırdı, gördü bu boyda qızıl, üstündə də bir kağız. Aşdı oxudu, gördü atası yazıf ki, oğul, mən sənə üş nəsihət verdim. Onlardan nəticə çıxartdınsa buna ehtiyacın yoxdu, çıxartmasan babalım boyuna, babalım boyuna, bınnan soora bunu götürüb mənim adımı doğrultmasan. Dedi: "Həə, Allah saa irəhmət eləsin ata. Bunuynan da mən qumara da tööbə eliyirəm, piyanıskalığa da tööbə eliyirəm, başqasına əl aşmağa da".

Ata malın götürdü getdi. Üş qulplu saxsı küp olurdu, onnardan ikisin aldı gətdi. Birinə atasının pulun yığdı. Birin də aşdı, dedi: "Atamın varı da var, dövləti də. Mən kişi kimi qazanıb buna yığajam".

Ona görə də, misal gəlir ki, ağıllı adam atasının adın batırmaz, adın uca tutar.

## 194. MOLLA VƏ ÇOBAN

Bir molla qonşı kənddən ölü götürür. Qayıdıf evə gələndə, qabağına bir çinar ağacı çıxır. Həmişə çınar ağacının dibində bulaq olur da. Gəlir burda oturır, əl-üzün yuyuf qutarannan soorası başdıyır namazın qılmağa. Qurani-kərimdə də belə bir ayə var ki, bir adam namaz qılırsa, onu dindirməy olmaz. Amma içəri girəndə biri özünnən asılı olmuyaraq salam verirsə, o bir dəfə əleykə deyib soora namazı davam eləməlidi. Ona görə də, salam vermir. Peyqumbər gəldi, bırda gördi bir nurani kişi namaz qılır. Gözdədi, namazı qılıb qutarannan soora, istiyir ki düşə yola, dedi:

– Ə qardaş, kimsən, nəçisən? Hardan gəlib, hara gedirsən?

Dedi:

– Mən də sənin kimi bir mollayam.

Peyqumbər dedi:

– Mən sən deyən mollalardan deyiləm, Məhəmməd peyqumbər əleyhsalamam, Allah-taalaynan dilləşməyə gedirəm.

Deyir:

– Ya peyqumbər, mən də otuz ildi mollalığ eliyirəm. Mənim yerim behiştin hansı guşəsindədi?

(İştaha bax ki, cənnəti yox, behiştin hansı guşəsindədi deyir). Dedi:

– Yaxşı.

Dedi:

– Nə vaxt qayıdarsan?

Dedi:

– Çinarın kölgəsi ora düşəndə qayıdaram.

Peyqumbər əleyhsalam onnan aralanır, bir xeyli gedənnən soora gördü kü, dağın divində bir dənə çinar ağacı var. Bir dənə oğlan malı, qoyunu otarıf gətirif yığıf bura. Oğlan çay içirdi, başın qaldırır, görür bir nurani kişi gedir. Yüyürdü bunun qabağın kəsdi, dedi:

– Əmi, səni and verirəm yeri-göyü yox yerdən xəlq eliyən bir Allaha, gəl bir iskan çay iç, soora get.

Dedi:

– Ay bala, mən elə Allahın yanına gedirəm.

Dedi:

– Allaha and verdim də.

Bı gəldi oturdu, bir iskan çay işdi. Uşax da qutarannan soora dedi ki, əmi, kimsən? Dedi:

– Mən Məhəmməd peyqumbər əleyhsalamam, Allahnan dilləşməyə gedirəm.

Dedi:

– Ya peyqumbər əleyhsalam, sənə qurban olum, mən də yetim oğlanam. Birinin qoyunun otarıram, birinin malın, birinin quzusun. İmkan olmuyanda da, məsələn, birinin çörəyin oğurruyuram, birinin toyuğun oğurruyuram. İndi gör mənim yerim cəhənnəmin hansı guşəsindədi?

Dedi:

– Yaxşı.

Nəysə, peyqumbər əleyhsalam gəldi, Allah-taalaynan dilləşdi. İndi bu hansı niyyətə gəlmişdi, öz niyyətdərin danışdı, Allah-taala bını nə məqsədə çağırmışdı, onları soruşannan soora gördü peyqumbər dayandı. Qutarannan soorasına bu durdu ki, yola düşə. Öz-özünə fikirrəşdi ki, gətdiyim niyətdərin hamısını çatdırdım, çatdırmadım? Gəldi bu mollaynan bu uşax düşdü yadına. Peyqumbərin yadına indi düşürsə, peyqumbəri də yaradan Allahdı, mollanı da yaradan Allahdı, uşağı da yaradan Allahdı. Buların nə düşündüyün də bilər də. Dedi:

– Ya peyqumbər, niyə dayandın?

Dedi:

– Ya Allah, qadan alım, gələndə mənim qabağıma belə bir molla çıxdı, bu sözü dedi. Bir çoban da çıxdı, bu sözü dedi. Mən onlara indi nə deyim?

Dedi:

– Onlara deyərsən ki, Allahın başı qarışığ ıdı. Balaca iynə var ey, o iynənin deşiyinnən iki dənə dəvə keçirirdi. Gələn səfər gələndə deyərəm.

Nəysə, peyqumbər əleyhsalam ordan aralandı, birinci bu uşax yüyürdü bunun qabağına.

– Ağa, dedin?

Dedi:

– Dedim, bala?

Dedi:

– Nooldı?

Dedi:

– Bala, Allahın başı qarışığ idi, beş-altı günnən soora gedəjəm.

Dedi:

– Nağarırdı?

Dedi:

– O balaca iynə var e, o iynənin deşiyinnən iki dənə dəvə keçirirdi, – deyəndə uşax iki dizdərin qoydu yerə, üz tutdu Allaha:

– İlahi, sənə qurban olum, səndə elə güj-qüvvə var ki, ordan iki yox, iyirmi dəvə də keçirə bilərsən.

Burdan qayıtdı gəldi, indi molla çıxdı qabağına. Dedi:

– Nooldu?

Dedi:

– Allahın başı qarışığ idi, gələn səfər deyərəm.

Dedi:

– Nədi?

Dedi:

– Balaca iynə var ey, onun deşiyinnən iki dənə dəvə keçirirdi.

– Əşi, çıx get işi gör. Yox, bu boyda deşikdən iki dənə dəvə keçirirdi.

Nəysə, bu da qaldı. Aradan bir müddət keçənnən soora peyqumbər əleyhsalam getdi Allahnan dilləşəndə, dedi:

– Dedin?

– Dedim.

– Nə dedi:

Dedi:

– Uşax belə dedi, molla belə. İndi de görüm, bunun hansının yeri cənnətdi, hansı cəhənnəm?

Dedi:

– O mollanın yeri qır qazanıdı, uşağın yeri cənnətdi.

Molla bayannan mollalığ eliyir, oyannan da Allahın kəlamın yerinə yetirmir.

Ona görə deyir,

Oxuyub hər elmi alim də olsan,
Həyatın mənasın biləsən gərək.
Əməkdə, əməldə, xeyirdə, şərdə,
Yaxşını, yamanı görəsən gərək.

Çoxları fikirdən yorğınam deyir,
Çoxları eşqidən solğınam deyir,
Çoxları xalqına vurğunam deyir,
Əməllə imtahan verəsən gərək.

Xaspolad sevinir ellər güləndə,
Xalqın güzəranın yaxşı görəndə.
Vətən uğrunda yeri gələndə
Döyüş meydanına girəsən gərək.

## 195. ÜÇ MƏSLƏHƏT

Bir dəfə zəlzələ olur. O zəlzələdə neçə evlər-filan dağılır. İyirmi, iyirmi beş yaşında bir oğlan yuxudan ayılır, baxır ki, zəlzələdə bınların evi-eşiyi uçub, atası, anası, bacısı, qardaşı – ümumiyyətnən hamısı ölüb. İndi bu uşax beş-on gün oturdu, buları dəfn eliyənnən soora fikirrəşdi: “Ya rəbim, ya rəsulallah, bəs ata yox, ana yox, bacı yox, qardaş yox, var yox, pul yox. Mən neyniyim? Baş götürüm gedim, hardasa bir adama imkan olsa, mal otararam, nökər olaram, dolanaram”.

Bu uzun müddət yol gəldi. Xeyli gələnnən soorasına tay gördü ki, heydən düşüf da, tərpənə bilmir. Fikirrəşdi mən neynim, nağayrım? Otdu bir yerdə, bir şəhərin girəcəyində. Gördü bir qoca kişi dilənir. Dedi: “Bırda kim məni tanıyır, gedim mən də dilənim,

bir az nə toplasam onnan dolanaram". Gəldi otdı. Onda başın qaldırdı ki, uje gün batır, hardeysa bu üç abbasıya qədər pul yığıb. O vaxt da pulun elə qiymətdi vaxtıdı kı, bir abbasıya karrı bir erkək almağ olardı. Bu küçənin birinnən aşdı, ikincini aşanda dedi, gedim da, çay-çörəh yeyim. Gördü bir dənə qoca kişidi, hava da küləhli, çəliyi də tutub əlində, ayaqüstə dura bilmir. Deyir:

– A-a-ay Allahı sevənnər, balalarım qırıldı, mənə kömək.

Belə baxdı, baxdı, dedi:

– Ya rəbbim, ya rəsulallah, mən iki gündü acam, iki gün də ac olsam ölmərəm. Mən genə bir yerdə yatıram. Gör bu nə kökə düşüb ki, gəlib belə deyir.

Gəldi dedi:

– Əmi, nədi, noolıb, niyə durmusan?

Dedi:

– Ay bala, iki-üş balam var, hamısı ajdı. Bir loxma tapammıram, aparıb verəm, ajınnan ölməyələr.

Dedi:

– Əmi, səni and verirəm Allaha, buyur, bax bu üç abbasının üçün də verirəm saa. Bir ay yox, üç ay o balaların yiyər də, içər də, dolanar da.

Dedi ki, oğul, dayan. Dedi:

– Nədi?

Dedi:

– Səni bu gün maa kimsə qismət elədi. Mənim də güjüm diliмə düşür də, dayan sana üş kəlmə söz örgədim.

Dedi:

– Nədi?

Dedi:

– Oğul, mənnən sənə əmanət, getdin gördün bir adam elə bir vəziyyətə düşübdü ki, bunu öldürüllər də. Sənnən iki şeyin müqayisəsin soruşanda onun birinə yaxşı, birinə pis demə. Ya ikisinə də pis de, ya ikisinə də yaxşı de.

Dedi:

– Yaxşı.

Dedi:

– İkinci vəsiyəm odur ku, getdin gördün bir adam bazarda elə şey satır ki, ona hamı gülür. Onda o dediyinnən bir az artıx ver, o satdığın al, amma aldığın şeyi atmaginan, özündə saxla. Vaxt olar o saa qismət olar. Soora bir də oğul, məsləhətim budu, gördün bir yerdə əlinnən elə bir xata çıxır ki, o ölümnən nəticələnir. Onda üş dəfə şeytana lənət elə, özü saxla. Ola bilsin ki, o elədiyinnən də artıx cəza verə bilərsən, ola bilsin ki, o elədiyinin qarşısında günaha batarsan da, bala.

Dedi:

– Yaxşı.

Nəysə, bunnan aralandı. Bir az da gələnnən soora gördü meşənin qırağında bir dəstə adamdı oturub: mal, qoyun, var-dövlət... Oturublar, hamısı əli belə qoynunda qəm dəryasındadı. Gəldi salam verdi, heş bunu dindirən olmadı. Otdu. Bir az oturannan soora yaxınnaşdı sizin kimi hörmətdi adama. Dedi:

– Qardaş, baxıram, içinizdə xəstə yox, ölən yox, bir şey yox. Sən allah, niyə belə hamınız qəm dəryasına batmısınız?

Dedi:

– Pis adamın üzü qara olsun. Yoldaşdarımıza vedrəni, səhəngi vermişdik ki, bağla dəvənin cihazına, düşəndə bir yerdə su götürərik. İndi o da vedrəni nətəər bağlıyıbsa, vedrənin arxası yırtılıb, bura da quyudu da, quyudan su çəhməyə imkanımız yoxdu.

Dedi:

– Ağaaz kimdi?

Dedi:

– Neynirsən?

Dedi:

– Ona denən məni salsın quyuya, mən vedrəni lığlıyım, doldurum, çəkin.

İndi gör bu nə günə düşüb kü, bu boyda padşahın oğlu, bu qədər varı-dövləti, hamısı zəlzələdə batıb, indi bı bir qarın yeməyə görə quyuya düşməyə razıdı.

Nəysə, gətdilər bunu saldılar quyuya. Bu suyun lığın yığdı, vedrəni lığladı, doldurdu. Bunlar çəkənnən soorasına gördü kü, bu quyunun altında belə də yol var, belə də. Yavaş-yavaş bir az irəlilədi, bir də gördü ayağı büdrədi, yıxıldı. İbişkanı çaldı, gördü üş dənə cavan oğlandı, bir-birinnən qoçağ, iyid. Üçün də öldürüblər, meyidi yerdədi. Bu, dəhşətdi şəkildə gəldi qapının ağzında bir az durdu, gördü vedrə tıkqıldadı. Genə lığladı, bunnar çəkənnən soora dedi, indi bu tərəfə gedim. Genə bir az getdi, bir beş-altı addım getmişdi, burulanda gördü işıx gəlir. Məhətdəl qaldı bu nə olar? Burulanda gördü kü, bir dənə gözəl, nağıllarda, əfsanələrdə deyilir e, gözəl bir qızdı oturubdu, bir oğlan da başın qoyub bunun dizinin üstə, qız bunun başın sığallıyır. Qız səsə başın qaldıranda gördü kü, bir nəfər gəlir. Əliynən belə elədi ki, qayıt qaç. Bı istədi dönə, əyağı düşdü suya, suyun şırıltısına oğlan qalxdı. Qılıncı çəvirdi, dedi:

– De görüm burda nəəzirsən?

Dedi:

– A qardaş, vallah təsadüfən gəlmişəm.

Dedi:

– Ə, kəlmə-şəhadəti oxı.

Nəkqədərə elədi, dedi:

– Ə, kəlmə-şəhadəti oxı, bu saat süründürəjəm.

Dedi:

– Ay qardaş, vallah mənim günahım yoxdu.

Dedi:

– Onda saa bir sual verəjəm, sualıma cavab verdin, səni boşlıyajam, verməsən yox.

Dedi:

– Nədi?

Əl atdı sudan bir qurbağa götdü, dedi:

– De görüm bu qız gözəldi, yoxsa bu qurbağa? – deyəndə bu öz-özünə dedi ki, ə, bu dəlidi, nədi. Bu gözəllikdə qızı gör nəyə oxşadır. Bir az fikirrəşəndə birdən bı kişinin sözü yadına düşdü kü, iki şeyin müqayisəsi olanda birinə yaxşı, birinə pis demə də. Ya ikisinə də pis, ya ikisinə də yaxşı de. Dedi:

– Qardaş, ikisi də gözəldi.

Dedi:

– Nətər gözəldi? Bu gözəllikdə qız bu qurbağadan gözəldi?

Dedi:

– Qardaş, ədaləti pozma. Bu qızı da yaradan bir Allahdı, qurbağanı da yaradan bir Allahdı. O özünə görə gözəldi, o da özünə. Mənim nə ixtiyarım var deyəm bu yaxşıdı, o pis? – deyəndə bu oxudu, qurbağa bu qızdan da gözəl qız oldu. Dedi:

– Anan namaz üsteydi, səni öldürmədim. Bunnan qabağ üç oğlan gəlib, onların üçün də orda öldürmüşəm. – Yadına düşdü ki, orda ölənnər kimdi. – İndi saa hörmət eliyirəm. Burdan çıxannan soora bu quyudan gün çıxan tərəfə yox, gün batan tərəfə əlli addım gedərsən, orda bir sakqız ağacı var, o sakqız ağacın gün batan tərəfinə yox, gün çıxan tərəfinə iki addım gəlib yeri qazarsan, orda bir balaca mücrü var, onu götür, get dolan.

Dedi:

– Yaxşı.

Gəldi quyunun ağzına, gördü vedrəni sallıyıblar. Vedrəni lığladı, onlar çəkənnən soorasına ipi saldılar, oğlanı çıxartdılar. Gördülər ki, bəyaxkı oğlan deyil, qapqara qaralıb, yazıx bax belə əsir.

– Ə, noolub sana, noolub sana?

Dedi:

– Hamısı qorxudandı da, neynim.

Tay demədi nədi. Bılar çay-çörəyi uje hazırrıyıblar. Gətdilər, bı da oturub yeyib qutarannan soora dedilər ki, qoşul bizə, gedək. Bu bəyaxkı vəziyyət olsa qoşulardı, amma indi qızıl söhbəti var axı. Dedi:

– Qardaş, çox sağ olun. Mən burda yetiməm, mal-heyvan otarıram. Gedirəm o tərəfə, görüm kim var, onuynan gedəm.

Bunlar gedənnən soora, təmiz aralanannan soora durdu addımın saya-saya gəldi bu ağacı tapdı. Bunnan da iki metr addıyannan soorasına balaca bir dəmir parçası tapdı, qazdı. Qabağına torba nədi, – qızdarı ərə verəndə sandıx verillər ey, – gördü belə bir sandıxdı. Sandığı aşdı baxdı, gördü burda iki put, üş put qızıl var. Dedi:

– İlahi, şükür saa.

Tez bunnan bir az yığdı cibinə, sandığın ağzın bağladı, qoydu yerinə, üstün də örtdü, bir az da otdan-zaddan yığdı ki, gəlib başa düşməsinnər. Şəhər yaxın idi də, özün saldı şəhərə. Şəhərə salannan soorasına getdi birinci dəlləyə, üzün-başın qırxdırdı. Ordan getdi çay-çörəh yeyənnən soora gəldi, dedi, gedim özümə yurd tutum. Gəldi bir yaxşı üş-dörd otaxlı ev aldı. Alannan soorasına bir səhər... İndi sizdə də olur, olmur. Qabaxda bir həvgə olurdu, bir də xurcun olurdu. Getdi bunun birin aldı gətdi, qızılları yığdı buna. Gətdi üstünə otdan-zaddan qoydı da, guya ot adıynan. Gətirdi boşaltdı, qayıtdı. Belə-belə, belə-belə qızılı gətirdi, hardeysə üş-dörd put qızıldı. Bu qızılı yığannan soora başı qarışdı alverə, bir də onda baxdı ki, hardeysə bir ton yarım, iki tona qədər də qızılı var. Dedi: "Hə, demək ki, Allahdan gələcəydi". Gedim bir dəfə də alverə, qayıdıf gəlim, yığım gedim evə. Görüm arvad durursa, arvadı da götürüm gəlim, uşağı da götürüm gəlim, elə burda dolanağ.

Uzun müddət gedənnən soorasına gəldi çıxdı bir şəhərə. Alver eliyib qutarannan soorasına döndü bazara ki, nə lazımdı ala. Gördü bazarın bir tərəfinə camahat yığılıf, ha-ha-ha gülüllər. Yaxınnaşdı ki, bu nədi? Getdi gördü bir atmış, yetmiş yaşında qoja arvatdı, oturubdu, əli də belə əsir. Əlində bir pişik tutub:

– A-a-ay pişik alan, a-a-ay pişik alan.

Hamı da gülür ki, pişik nədi? Pişiyi satallar? Gəldi dedi:

– Nənə, neçəyə verirsən?

Dedi:

– Bir abbasıya.

O vaxtı da bir abbasıya bir karrı erkək almağ olardı. Belə baxdı, baxdı, gəldi bu kişinin sözü yadına düşdü. Gətdi abbasını verdi, dedi:

– Ana, dur get, sən allah, neçə il yaşasan bu sənin bəsindi də, dolanarsan.

Bu pişiyi gətirdi uşaxlara verdi ki, bunu qoyun setkaya, dəvənin üstünə qoyun, yedirdin. Yeri gələr apararam evə, lazım olar. Ordan çıxdılar yola. Bir neçə gün yol gələnnən soorasına bir şəhərdə

meşənin qırağınnan keçəndə gördü, bu şəhərin bəyi ov ovluyuf, gəlib bir bulağın üstündə oturublar ki, burda çörək yeyələr. Burdan keçəndə bı yerri bəy bunları qonax dəvət elədi. Bu müsəlmanda bir-birinə hörmət var dana. Gəldilər, oturannan soorasına çörəy ortaya gələndə gördü dörd-beş nəfər oğlan, hərəsi əlində bir ağaj bunları dövrəyə aldı. Bu belə baxdı, o belə. Sakitcə dedi:

– Niyə qorxursan, noolub?

Dedi:

– Ay qardaş, bizə bir loxma vermisən, bu nədi?

Dedi:

– Qardaş, onnan dəyil e. Bu çörəyi ortaya qoyanda yer altında balaca heyvannar var, çıxıf əlimizdən alır.

Heş demə bunlar da siçan, yarasa imiş. Bunlar da pişiyin nə olduğun bilmir. Belə deyəndə birdən ağlına gəldi, dedi:

– Ə, get o pişiyi gətir bura.

Dedi:

– Qoy hamı otursun, qorxmuyun.

Dedi ki, nədi? Gətirəndə gördü balaca bir pişikdi. Dedi:

– Ə, bu nədi, bu neyniyə bilər?

Dedi:

– Sənin nə işin var, xayiş eliyirəm hamınız oturun.

Bunlar hamısı oturannan soora pişiyi boşdadı. Pişiy qurbağaları burda, siçanları orda yedi. Pişiyin hardeysə bir kilo yarıma qədər ağırrığı vardı, yarım kilo da burdan artdı. Padşah dedi:

– Qardaş, amanın günüdü, bunu neçəyə verirsən, ver maa.

Dedi:

– Ə, nə danışırsan, bunu mən verə bilmərəm, bu çox bahalıdı.

Dedi:

– Nə qədər?

Dedi:

– Onu qırx özü ağırrığında qızıla almışam.

Bir az fikirrəşdi, dedi:

– Ə, qırx nədi, lap əlli özü ağırrığında qızıl verərəm.

Gətdi bına bir meşok da qızıl verdi, bı da pişiyi verdi olara. Demək, bir meşok da bırdan qazandı dana. Ordan gəldi öz şəhərlərinə. Evə çatanda gördü arvadı yeri süpürür, bir cavan oğlan da yüyürür bunu öpür qaçır, öpür qaçır. Bu hirsdəndi, – onda da ən güjdüsü ox idi da, – oxı hazırradı ki, bu oğlanın kəlləsinə vıra. Çəhdi, çəhdi, elə boşlamağ istiyəndə birdən kişinin sözü yadına düşdü: "Getdin elə yerdə gördün əlinnən bir xata çıxajax, o saa ziyan da gətirə bilər, xeyir də gələ bilər. Ona görə xatanı saxla, get onu örgən. Ola bilsin ki, onnan da pis vəziyyətdə onu öldürərsən. Ola bilsin ki, elədiyin xataya peşman olarsan ki, bu olmasın". Dedi: "Qoy qalsın, gedim örgənim. Belə olannan soora bunu nəinki öldürərəm, lap tikə-tikə doğruyaram".

Gəldi. İndi oğlan aralaşıb, arvad da süpürür. Arvad belə başın qaldıranda gördü kü, əri gəlir. İndi on beş il, on altı il keçsə də, ər ərdi də. Yüyürdü bunuynan qucaxlaşıb öpüşənnən soorasına dedi ki, nədi, nolub? Dedi:

– Aaz, mən gedəndə saa demədim ki, mənnən başqasına yaxınlıq vermə?

Dedi:

– Ayıb deyil.

Dedi:

– Aaz, nətər, orda görmədim?

Dedi:

– Ayıbdı. Bəs sən gedənnən hamiləli dəyildim? On yeddi yaşında oğlumdu də.

Belə deyəndə baxdı, baxdı, dedi ki, ilahi, o kişi burda olsa, onun ayağın yuyub kirin içərdim. Yüz dənə maldan da, puldan da, milyon tonnan da vacib övlatdı. Allaha şükür, övladım sağ qalıb. Oturub yeyib-içənnən soora, dedi:

– Arvad, bu qədər qızılım var, gedək ora.

Dedi:

– Hər quşun öz yuvası, hər dananın öz balası, hər insanın öz vətəni şirindi özünə.

Dedi:

– Onda gedib qızılları yığaram, götürüb gələrəm.

Gəldi oğlun da götdü, iki dənə güjdü at, iki dənə dəvə aldı. Dəvənin ikisinə qızılların hamısın, üstünə də yorğan-döşəhdən atdı, götürdü gəldi. Qabaxkınnan iki dəfə artıx başdadı yaxşı dolanmağa.

## 196. YETİM OĞLAN

Bir ölkədə güjlü zəlzələ olur. Bu zəlzələdə çox adam batır. Bir oğlan evdə yoxuymuş. Bu evə qayıdıb gələndə görür ki, – Allah heş kəsə göstərməsin, – buların evləri dağılıb. Ata, ana – hamısı batıbdı, mal, heyvan-filan. Əlacı kəsilir, fikirrəşir, mən neyniyim, nağayrım? Fikirrəşir ki, ya rəbbi, ya rəsulallah, ata yox, ana yox, mal yox, qoyun yox, dövlət yox. Gedim hardasa bir varrı adam tapım, ona nökər olum, birtəhər dolanım.

Durur çıxır öydən. İki-üş gün yol gedənnən soora gəlir bir şəhərə. Üç-dörd kilometr qalmış, görür böyüh bir çinar ağacıdı. Bu çinar ağacı tarixən müqəddəs sayıldığına görə, çinar ağacının dibində əksər halda bulağ olur, su olur. O suyun, o kölgənin xatirinə yolnan keçən, orda mal-heyvan otaran kimi namaz qılmax xatirinə, kimi çörəh yeməh xatirinə gəlir ora. Bura yaxınnaşır ki, gəlib burdan keçib eliyən olar, oturar çörəh-zad yeyər, mən də bir loxma yeyərəm də. Gəlir görür ki, bir nurani kişi namaz qılır. Namaz qılan adamın namazının arasını kəsmək olmaz. Namazın arasın belə kəsərdilər ki, gələn adam bir dəfə salam versə, o bir dəfə əleyki deyif namazın qıla bilər. Ona görə bu namazın qılıf qutarannan soorasına durdu ki, yola düşə. Dedi:

– Əmi, qadan alım, başına dönüm, kimsən, hardan gəlib hara gedirsən?

Dedi:

– Nədi, neynirsən, ay bala?

Dedi:

– Belə-belə, başıma belə bir hadisə gəlib. Zəlzələdə valideyinlərimi itirmişəm. İndi varrı-dövlətdi bir adam gəzirəm ki, gedim ona nökər olum, məni dolandırsın.

Dedi:

– Bala, mən sən deyənnərdən döyüləm.

Dedi:

– Kimsən?

Dedi:

– Mən Məhəmməd peyqumbər əleyhsalamam, Allah-taalaynan dilləşməyə gedirəm.

Dedi:

– Ya peyqumbər, sənə qurban olum, bəs o Allahdan soruş, gör mənim taleyim, vəziyyətim necə olajax da.

Dedi:

– Yaxşı.

Dedi:

– Nə vaxt qayıdarsan?

Onda da saat-zad yoxuydu axı. Peyqumbər əleyhsalam başın qaldırdı, gördü bu ağaşdan on beş metr aralı bir qara daş var. Dedi:

– Ağacın kölgəsi ora çatanda mən qayıdaram.

İndi peyqumbər əleyhsalam gedənnən soora bı durdu, bulağın qırağında həməköməci, əvəlih, yaxşı belə göy otdar olur. Bulardan bir az yığıf yeyir. İndi uzax yoldan gəlmiş adam, uzanır, bını yuxu tutur, yatır. Peyqumbər əleyhsalam gəlir Allah-taalaynan görüşür. İndi hansı məqsədə gəlmişdi məqsəddərin söylüyür, Allah bunu hansı niyyətə çarığıf buları söylüyənnən soora, öz-özünə fikirrəşir ki, görüm sözdərin hamısın dedim, demədim. Uşax yadına düşəndə dayandı. Bunun yadına indi düşürsə, uşağı peyqumbərnən görüşdürən də Allahdı dana. Dedi:

– Ya peyqumbər, niyə dayandın?

Dedi:

– Ya Allah, gələndə bəs belə bir uşax qabağıma çıxdı, dedi Allahdan soruş, gör onun kitabında mənim adım var?

Dedi:

– O uşağın adı var, amma taleyi pışdı. Yəni həyatı yoxdu.

Peyqumbər əleyhsalam burdan aralandı. Nəysə, gəldi, bu uşağa çatmağa bir-iki kilometr qalmış fikirrəşdi ki, ya rəbbim, ya rəsul-

allah, indi bu uşax məni hansı həvəsnən, hansı marağnan, hansı sevincnən gözdüyür. Yaxşısı bıdı ki, heç burdan getmiyim, uşax da məni görməsin, soora da təsadüfən görəndə deyərəm yadımnan çıxıb.

Dağın o tərəfinnən gedəndə bı dəmdə uşax yuxudan ayılır. Baxdı ki, kölgə bının dediyi daşdan bir santı, iki santı da irəli gedib. Dedi: “Ya rəbbim, ya rəsulallah, yəqin peyqumbərin yadınnan çıxıf. Çıxım dağın başına, görüm, birdən o yannan gedər”. Qalxdı, gördü dağın o tərəfinnən gedir. Yüyürə-yüyürə gəldi. Dağdan yenməynən dağa qalxmax bir döyül, həm də cavan yerişiynən yaşdı yerişi bir döyül. Çatdı bına. Dizin qoydu yerə, dedi:

– Ya peyqumbər, sənin başına dönüm, sənə sifariş eliyən oğlanam e. Dedin?

Dedi:

– Dedim.

– Nə dedi?

Dedi:

– Ay bala, sənin adın var, amma...

Ammanı gözdəmədən uşax iki dizdərin qoyuf yerə üz tutur Allahın dərgahına: “İlahi, şükür varlığa, unudulmamışam” (Söyləyici həyəcanlanır deyə söhbətə bir-iki dəqiqə ara verir – top.). Bı dəmdə peyqumbər əleyhsalama Allahdan nida gəldi ki, uşağa denən sənin qismətin bayax and işdiyin yerdədi. Get daşın altını qazginən, taparsan. Belə deyəndə peyqumbər əleyhsalam fikirrəşdi ki, Allahtaala maa dedi ki, bunun adı var, amma talehi yoxdu. İndi də deyir, getsin o daşın altını qazsın. Yəqin bu o mənada qazdırır ki, min bir əzab-əziyyətnən öldürsün dana. Amma bunun nə ixtiyarı var Allahın kəlamını deməyə. Dedi:

– Bala, sənin qismətin bayaxkı daşın altındadı, get oranı qaz.

Uşax gəldi bir dəmir parçası tapdı, yavaş-yavaş qazdı. Daşı götürüb qırağa qoyannan soora gördü qabağında bir qapı açıldı. Yavaş-yavaş qazdı, qapını açanda gördü burda böyük bir binadı, hardeysa burda qırx, əlli ton qızıl var. Tez bunnan bir az yığdı cibinə. Qapını bağladı, daşı qoyuf yerinə üstün örtənnən soora bir

az otdan-zaddan yığdı. Şəhər yaxın idi dana, özün verdi şəhərə. İnsan hər bir əzab-əziyyətə dözsə də, ajdığa dözə bilmir dana. Özün verdi yeməkxanaya, çay işdi, çörəh yedi, burdan getdi üzün-başın qırxdı, ordan getdi özünə bir dəst bəyyana paltar aldı. Ordan gedif hamamlanıf, çimif qutarannan soora fikirrəşdi ki, indi mən neyniyim, bını necə daşıyım? Onda da ən güjdü minih dəvə idi. Dedi, gedif qırx dənə, əlli dənə dəvə tapım, bını aparım. Soora fikirrəşdi ki, mən elə bil ki, qırx dənə dəvə tapdım, qırx dənəni idarə eləməyə gərək həşdat dənə də adam ola. Bı həşdat adam bilsə ki, bı qırx ton qızıldı, yolda məni tikə-tikə doğruyuf qızılı götürəjəhlər. İkinci bir cəhətdən də, apardım ora, ata yox, ana yox, qardaş yox, hara yığım? Deməh, bını Allah-taala maa qismat eliyibsə, gedim elə həmən ağacın dibində özümə bir bina tikim, gəlif gedənnərə də hörmət eliyərəm.

Gəldi bırda özünə nökər-naib tutdu. Deməh, o vaxdı ən güjdü bina bəyin, xanın olur da. Dedi, filan bəyin evi kimi mənə elə bir ev tikirsiz ki, məşhur olsun dana. Evi tikif qutarannan soora bı bir meşox qızıl çıxartdı, ustalara verdi ki, günbatannan başdıyırsız işə, gecə yarıya qədər bı binanı ləl-cəvahiratnan bəziyirsiniz, bı da sizin qismətiniz, götürün, gedin. Bılar bəziyif gedənnən soora, indi bir yaxın padşah tezdən durur ki, sübh namazın qıla. Çıxanda gördü ki, gün belədən çıxıb, amma belədən elə bir şafaq gəlir ki, adamın gözü qamaşır. Öz-özünə fikirrəşdi ki, bı nə ola? Onda da ölkəni idarə eliyən vəzir-vəkil olur da. Çağırdı:

– Vəzir, vəkil, bıra gəl.

Gəldilər ki, ağa, nədi? Dedi:

– Gün hardan çıxır?

Dedi:

– Ağa, nə tez yadınnan çıxıb? Gün belədən çıxır da.

Dedi:

– Bir belə baxın.

Bılar belə baxanda indi bıların gözü qamaşdı axı. Qamaşanda dedilər:

– Ağa, bağışda, icazə ver gedək, ordan bir xəbər gətirək.

Altı-yeddi nəfər yığıldı, içində yaşdı da, cavan da. Gəldilər gördülər ilahi, bı elə bir binadı ki, padşahın binası bının yanında heş bir şeydi. Başdan ayağa ləl-cavahiratnan bəzənib. Gəldilər həyətə. Gördülər heş kim yoxdu, bir cavan oğlandı. Bayax dedim ki, Allahın min bir kalamı var, birinci kalamı salamdı da. Düşman da olsa, gərək salam verəsən. Bına salam verdilər. Dedilər:

– A bala, bı ev kimindi, yiyəsi kimdi?

Dedi:

– Ev mənimdi, yiyəsi də mənəm. Neynirsiz ki?

Dedilər ki, səni padşah çağırır. Qapını bağladı, düşdü bıların yanına. Bı cavanın biri bılardan qabax yüyürə-yüyürə gəldi. Padşaha dedi ki, padşah sağ olsun, orda belə bir binadı, hansı ki onun yanında sənin binan heç nədi. Yiyəsi də cavan bir oğlandı, gətiririk. Cavan deyəndə padşah sevindi ki, cavan təkəbbürlü olar. Mən danışdıraram, maa cavab qaytarar, bını döyərəm, ya tutaram, ev də qalar maa, yurd-yuva da.

Gəldi, bı qapıya çatanda işarə elədilər ki, padşah budu. Bı irəli yeriyif, iki dizdərin qoyuf yerə, üz tutuf Allahın dərgahına bına elə bir tərzdə salam verdi ki, bunun ixtiyarın əlinnən aldı. Dedi:

– Oğlum, bilirsən səni niyə çağırmışam?

Dedi:

– Padşah sağ olsun, mən kiməm biləm, deyərsiz bilərəm.

Dedi:

– Mənim gözümün ağı-qarası bir qızım var, səni çağırmışam o qızı saa verəm.

Dedi:

– Qıza da qurban olum, öza da qurban olum. Verirsən ver, al deyirsən alım.

İndiki toylar iki-üç saat çəkər. Ondakı toylar qırx gün çəkir dana. Qırx gün toy eliyənnən soora, gətirdi qızını dolandırdı ojağın başına, bına xeyir-dua verəndə, birdən ağlına gəldi ki, ya rəbbim, ya rəsulallah, mən bının bir səjdə salamına vuruldum qızımı verdim bına. Axı mən bilmirəm bının milliyyəti nədi, axı mən bilmirəm bının özünnən başqa qohumu, ata-anası var, yoxdu. Axı mən bilmi-

rəm ki, bı binadan başqa bının varı-dövləti, cah-cəlalı var, ya yoxdu. İndi həsrət çəkib ağlıyanda, qız dedi:

– Ata, niyə ağlıyırsan, mənim günahım nədi?

Dedi:

– Ay qızım, mən belə səyf eləmişəm.

Dedi:

– Ata, sən səyf eləmisən, bəs mənim günahım nədi?

Dedi:

– Qızım, gedərsən, bir az yaşıyannan soora örgən gör bının milliyəti nədi, örgən gör bının özünnən başqa qohumu, qardaşı var, yoxdu? Örgən gör bı binadan başqa bının varı-dövləti, cah-cəlalı var, ya yoxdu?

Dedi:

– Yaxşı.

Nəysə, gəldilər. Altı-yeddi ay yaşıyannan soora, bir gün yastığa baş qoyanda bı atanın sözü qızın yadına düşür. Qız qəfil yönün yana çevirəndə bu oğlan dedi:

– Ay qız, biz ər-arvadıxsa, yönü mənnən niyə çevirirsən? Ər-arvad döyülüksə, bir yastığa niyə baş qoyuruq?

Dedi:

– Biz nətər ər-arvadıq ki, yeddi aydı bırda yaşıyırıq, sən maa demirsən ki, sənin milliyətin nədi?

Dedi:

– Əstafrullah, qanım qanından, canım canınnan, mən də sənin kimi Məhəmməd ümməti, müsəlman əhliyəm.

Dedi:

– Bəs maa demirsən axı, sənin özünnən başqa qohumun, övladın var, yoxdu?

Dedi:

– Qız, mənim qohumum, övladım Allahdı, ona qurban olum. Yerdə də sənin atannan başqa heş kimim yoxdu.

Dedi:

– Yaxşı, maa demirsən axı, görüm bı binadan başqa sənin varın-dövlətin, cah-cəlalın var, ya yoxdu?

Dedi:

– Bala, var-dövləti gündüz xəbər alallar, gejə vaxdı yorğan-döşəyin içində saa nə deyim. Yat, səhər ayılarsan, deyərəm.

Yatdılar, səhər açıldı. Allah sizin də həmişə səhərinizi xeyirə açsın. Bı tezdən durdu, qız yerinnən durmamış özün verdi indiki dilnən desək mağazaya. Əvvəlcə kley aldı, iki-üş metr ağ aldı. Gəldi, qız yönü ayna durduğu yerdə ağı doladı bədəninə, kleylədi. Bı qayıtdı ki, biz ər-arvadıxsa, sən məni niyə bağladın? Dedi:

– Biz nə qədər ər-arvad olsax da, sən axşam mənnən söz soruşdun, mən də söz verdim sənə var-dövlətin yerin deyəjəm.

Arvad nə qədər ağıllı olsa da, kişi öz sirrin arvada verməməlidi. Ona görə ki, arvadın ürəyi uşağ ürəyi kimidi dana, tez allanıb onu satar dana. Ona görə oğlan sirrin vermədi. Bının qolunnan tutub yeriyəndə, qızın gözü görməsə də, padşah qızıdı da, hər şeyi bilir. O saat bildi ki, varın yerin buna demir. Addımını saydı ki, görsün neçə addım gedir. On beş addım gedənnən soorasına dedi, dayan. Bını oturtdu, yeri qazdı. Qapını açannan soora gətirdi qızın əlinnən tutdu saldı içəri. Dedi:

– Qız, gözün görmür, amma padşah qızısan, əlinin hissiyatıynan var-dövləti bilərsən?

Dedi:

– Hə.

Gətirdi, bı, qızılnan oynadı, oynadı. Dedi:

– Bunnarı oynatmaq üçün bizə bir gün vaxt lazımdı. Daldan gəlif qapını açallar, səni də öldürəllər, məni də. İndi hiss elədin ki, varımdı?

Dedi:

– Hə.

Gəldi bını çıxartdı. Qapını bağlıyannan soora, daşı qoyub yerin itirənnən soora on beş addım gəlmişdi, indi qızı yüz əlli addım aralıdan hərrədi gətirdi. Qız gördü bırda da izi itirdi. Gəldi atasına sifariş elədi ki, ata, bizi qonaq çağırarsan? Ata o saat hiss elədi ki, qız nəysə bir şey örgənif dana. Bıları qonaq çağırdı. Camaat oturdu,

yeyib-içib durub gedənnən soora keşdi o biri evə, qızı çağırdı. Dedi:

– Qızım, noldu?

Dedi:

– Ata, hal-qazıya belə-belə.

Dedi:

– Hə, demək bı ağılda da mənnən üstündü ki, sirri arvada vermiyib. – Deyir, sirri vermə bacaa, bacının da bacısı var. Gəldi, dedi:

– Oğul, bilirsən səni niyə çağırmışam?

Dedi:

– Ateyi-mehriban, mən kiməm ki, biləm. Deyərsən, bilərəm.

Dedi:

– Müasir dövrdə belədi də, ata rəhmətə gedəndə onun yerinə oğlu vəzifəni götürməlidi. Mənim də o qızdan başqa heç bir kəsim yoxdu. Başa düşən üçün yeznə elə oğuldu. Bugünnən bı ölkənin yiyəsi olajaxsan sən, idarə eliyəjəhsən.

Dedi:

– Ateyi-mehriban, mən qələt eliyərəm sənin yeraa keçəm.

Dedi:

– Üzün ağ olsun ki, mənə ata deyirsən. Atanın başın oğul uca edər. Oğul olan yerdə qızı içəri keçirmək olmaz.

Gətirdi bını öz yerinə ağa qoydu. Bı bir müddətə elə bir yurd-yuva, ev-eşik qurdu ki, insanların elə bir hörmətin qazandı ki, ağanın başın uca elədi. Bunuynan da Allahın yolun davam elədi.

## 197. ÜÇ ÖLÜM

Bir dənə padşah olur. Bu padşahın iyirmi-otuza yaxın dəvəsi olur, iki yüzə yaxın qoyunu olur, yüzə yaxın malı olur, varı-dövləti, bağı-baxçası, üş dənə də arvadı olur, heş birinnən züriyəti olmur. Bir günnərisi bı, dağın başına çıxıb belə baxanda öz-özünə fikirrəşir: "Ya rəbbim, ya rəsulallah bəs, bı qədər mal, pul, var-dövlət, qızıl, gümüş, səhər bəs mən kəlləmi qoydum yerə, bılar kimə qalajax". Belə

həsrətnən baxanda vəzir-vəkil gördü ki, ağa nətər baxır. Dedilər: "Ə, ağa fəxr eliyir ey, bı qədər mal, pul, var-dövlət". Gəldilər dedilər:

– Ağa, bax gör nə qədər bağ-baxça...

Dedi:

– Qutardız?

Dedi:

– Hə.

Dedi:

– Yaxşı, səhər bı ağa başını yerə qoydu, bılar kimə qalajax?

Belə deyəndə bılar da həsrət keçirdi. Dedi:

– Ağa, icazə ver, gedək adama bir dənə baxıcı tapax, götürəh gələh, o baxıcı gəlsin baxsın, görsün bu arvatdarın hansı birinnən sizə züriyət olajax. İşdi, olmasa, gedəh başqasın alax.

Dedi:

– Yaxşı.

Bılar getdi, bir on gün gəzdilər. Hərəsi elə bir baxıcı tapdı ki, ta bıların dediyində səhv olmur. Gətirdilər. Bı baxıcılar dedilər ki, bizi neynirsiz? Dedi, sizi bı məqsədə çağırmışıx, bizim ağanın üç arvadı var, heş birinnən züriyəti olmur. Baxın görəh bının hansınnan züriyəti ola bilər. İşdi, olmasa, ayrısın alsın.

Dedi:

– Onda ağa arvatdarıynan bir yerdə olsun evdə, biz bir-bir girəh yoxluyax.

Bının biri girdi içəri, belə baxdı-baxdı, dedi:

– Ağa, xətraa dəyməsin vallah dana. Üç yox, lap otuz arvad alasan, sənnən züriyət yoxdu. O de o qıraxkı arvad var ey, onnan bir oğlun olajax. On yeddi yaşına çatanda gündüz saat iki tamamda ilan çalajax, öləjəh.

Dedi:

– Get.

İkinci girdi içəri. Baxdı, baxdı, bı da həsrətin ötürdü. Dedi:

– Nədi?

Dedi:

– Ağa, xətraa dəyməsin, üç yox, üç yüz arvad alasan, sənnən züriyət yoxdu. O de o qıraxkı arvad var ey, onnan bir oğlun olajax. On yeddi yaşına çatanda gündüz saat iki tamamda ağaşdan yıxılıb öləjəh.

Üçüncünü çağırdılar. Bı da baxdı, baxdı, bı da həsrətin ötürdü. Dedi:

– Nədi?

Dedi:

– Ağa, xətra dəyməsin, üç yox, üç min arvad alasan, sənnən züriyət yoxdu. O de o qıraxkı arvad var ey, onnan bir oğlun olajax, on yeddi yaşına çatanda gündüz saat iki tamamda suda boğulub öləjəh.

Bı da gedənnən soora vəziri-vəkili çağırdı, dedi:

– Vəzir-vəkil, bının üçü də dedi ki, bı arvatdan başqa züriyətin olmuyajax. Üçü də dedi bir oğlun olajax, üçü də dedi on yeddi yaşına çatanda öləjəh, üçü də dedi saat ikidə öləjəh. Amma biri dedi ilan çalajax, biri dedi ağaşdan yıxılajax, biri dedi suda boğulajax.

Dedi:

– Ay ağa, təki sənin övladın olsun, on yeddi yaşına çatsın, bütün şəhəri qaldırarıx ayağa, onu basarıx bağrımıza, özümüz ölərik ki, qoymarıx ona bir şey ola.

Nəysə, gəldi bı arvatdan bının bir oğlu oldu. İndi bı uşax böyüdühcə, bu da həsrətdi də. Bir gün baxdı gördü ki, uşağın on yeddi yaşının tamam olmağına iki gün qalır. Çağırdı:

– Vəzir-vəkil.

– Ağa, nədi? Nə deyirsən, neyniyək?

Dedi:

– Ə, nə deyirsən yox ey. Səhər yox, biriyün onların dedihləri vaxt tamamdı, uşağın on yeddi yaşı tamam olur.

Deyəndə bılar da həsrət ötürdü. Genə vəzir dedi:

– Ağa, onda da saa demişdim, indi də deyirəm dənə. Bütün şəhəri qaldıraram ayağa, gələrik onu basarıx bağrımıza, özümüz ölərik ki, qoymarıx ona bir şey ola.

Nəysə, əmr verdilər, bütün şəhər əhli həmin gün yığıldı. Vəzir çıxdı bir hündür yerə, dedi:

– Ey millət, görürsünüz göydə Allah, yerdə bizim padşahdan başqa qüvvəmiz yoxdu. Bının bir oğlu var, bu gün saat iki tamamda bir hadisə olmalıdı. Kim onu bağrına basıf keçirsə, ona bir küp qızıl verəjeyih. Bütün şəhər əhlini yeddi gün pulsuz yeyib-içib, deyib-gülməyə dəvət eliyəjeyih.

İndi kimi qızılın xatirinə, kimi yeyib-işməyin xatirinə, kimi vəzirin xatirinə, kimi padşahın xatirinə, kimi bu uşağın xatirinə, kimi tutduğu yolun xatirinə o basır bağrına, bı basır bağrına. Bir də baxdılar ki, iki tamama bir dəyqə, iki dəyqə qalıf-qalmıyıf. Hamı əlin qaldırdı göyə: "İlahi, şükür sənin varlığa, vaxt keçir". İndi bu uşax da başın qaldıranda belə baxdı ki, çarhovuzun qırağında bir armud ağacı var, üstündə bir armud var. İndi bı nətəri bıların əlindən çıxırsa, on yeddi yaşında uşax, özü də kefnən böyüyən. Bıların əlinnən nətər qalxdısa, çıxdı ağaca, əlini uzatdı ki, armudu dərə, heş demə armudun üstə ilan varmış, uşağın barmağınnan çaldı. Çalan kimi gup suya. Baxdılar ki, düz iki tamamdı. İlan çaldı, ağaşdan yıxıldı, suda boğuldu. Allahın yazısına pozu olmaz.

## 198-199. QARAKİŞİNİN NAĞILI

Deyir, bir Qarakişi oluf. Qaratikan kolun biçif, gətirif bazarda satıf, onun puluna çörək alıf aparermiş uşağa. Deyir, bir gün kolda-kosda qaratikan qırdığı yerdə görör bir adam deyir: "Ay Qarakişi, ay Qarakişi". Boylaner, heş kim yoxdu. Başdıyır işinə ki, yaqın nəsə qulağıma səs gəldi. Bir dəhrə, iki dəhrə... Genə səs gəler: "Ay Qarakişi, ay Qarakişi". Baxır görör ki, bir tülkü yuvası var, ordan bir ilan başın çıxardıf. Çağıran budu. Bu bir az qorxor. İlan deyir:

– Qorxma, beyjə şah yuxu görəjək, o yuxunun yozmasın heş kim tapbejax, sən tapajaxsan. Şah saa ənam verəjək. Onu gətir bölək. Qaratikanı neynirsən, şah verdiyi ənamı bölsək bəsindi.

Səhər şeypur çalıner, car çəkiler. Deyillər bəs şah bütün əhalini yığer. Hamı yığıler. Şah deyir, beyjə yuxumda görörəm ki, göy-

dən qılış tökülör. Bunun yozmasın maa deyin görüm nə yuxudu bu. Vəzirə, vəkilə deyir:

– Vilayətdə adam qalıf?

Deyillər:

– Vallah, bircə Qarakişidi, o da koldadı.

Deyir:

– Onu da gətirin.

Gəlif Qarakişiyə deyillər səni şah çağırer. Yazığın qorxudan dodağı çatder. Gəler:

– Qibleyi-aləm sağ olsun, eşiderəm.

Deyir:

– Qarakişi, beyjə görörəm göydən qılış tökülör.

Deyir:

– Şah sağ olsun, dünya pis qarışıf, filan ölkənin padşahı hüjuma keçəjək. Sən ordunu güjləndir, tam hazır ol qəfil hüjuma.

Şah da deyir:

– Məni isdiyən Qarakişiyə xələt versin.

Qırx qatır yükü ləl-cəvahiratı buna ənam verer, bir qılış da verer ki, sən də hazır ol.

Qarakişi deyir ki, bu qədər ləl-cəvahiratı ilannan niyə bölüm mən. İlanı öldürüm, bu ləl-cəvahirat da qalsın mənə. İlan da bilerdi axı işin. Çıxer. Deyir, eşiderəm. Deyir:

– Qardaş, şahın yuxusun yozmasın dedim, ənam verif, gəl bölək.

Bu, qılıncı sıyırınca ilan qayıdıf yuvasına girəndə vuror, ilanın quyruğunu qoparer. Geder, sən öl, dirsəkləner, qaratikan da yaddan çıxer. Ayın-oyunnan eşer, uzanır öyə.

Şah bir də yuxu görəndə daa ayrı adamı neyner şeypurroof meydana yığa. Qarakişini çağırer. Deyir:

– Qarakişi, beyjə yuxumda görörəm göydən tülkü tökülör.

Deyir:

– Şah sağ olsun, maa bir gün möhlət ver.

Hərrəner gəler. Yalvar, yapış:

– Ay ilan, başına dönüm, bir qana düşmüşəm. Sən yaxşılığ eliyifsən, mən saa namartdığ elədim.

Deyir:

– Get, tapajaxsan.

Gəler şahın yanına. Deyir:

– Qarakişi, nə deyirsən?

Deyir:

– Şah, dünya tülkü zamanasıdı, bijdih zamanasıdı. Özünü dostdan da gözdə, tanışdan da gözdə.

Deyir:

– Baş üsdə.

Qırx qatır yükü gənə gətirer. Deyir:

– Ə, mən qırx qatır yükünü bunun qapısına niyə aparım?

Hərrəner dağın dalınnan çıxıf geder, oturor öyündə.

Şah qarı ərimiş bir də yuxu görör. Genə Qarakişini çağırellar. İndi saraya getməmiş ilanın yanına gəler. Bilir ki, şah deyəjək yuxu görmüşəm, onu yoz. Deyir:

– Sana qurban olum, ay ilan, başına dönüm.

Deyir:

– Get, tapajaxsan.

Gəler deyir:

– Eşiderəm.

Deyir:

– Ə, Qarakişi, gejə yuxuda görörəm göydən tərəzi tökülör.

Deyir:

– Şah sağ olsun, innən belə hərəmxanadakı qadının sayını artır, kef elə. Dünya tərəzi kimi tıkqırbatıkqır düzəlif.

– Ə, namard uşağı, bunun qatırın həştad eliyin.

Yüklör gəler, öydəkiləri də götürör gəler ilanın yuvasının ağzına.

– Ay qardaş, çıx.

Çıxer. İlan biler ki, buna heş zad eləmiyəjək. Deyir:

– Öydəki qırx qatırı da gətirmişəm. Gəl bölək.

Deyir:

–Yox, axı mən saa demişdim dost olax.

Deyir:

– Olax dana.

Deyir:

– Niyə zamanınnan hərrəndin, dostduğu əldən buraxdın, qardaşdığı əldən buraxdın? Göydən qılış töküldü, zamana qılış zamanası oldu, quyruğumu çapdın. Tülkü zamanası oldu, tülkü kimi dağın dalınnan hərrəndin. İndi dünya tıkqırbatıkqır təzəri kimi düzəlif, sən də düzəlif gəlifsən. Sən gərək zamanəyə uymuyaydın, köhnə dostduğun, qardaşdığın qədrini bilərdin.

Məsələn, belə götürək dənə. Bir az kasıfladım, məni görəndə gennən salam verdin. Bir az büdrədim, görməməzdiyə vurdun, addadın. Heş salam da verlədin. İndi kefim kökdü, yaxşı dövlət də yığmışam. Xeyirdimi?

**199.**

Şiraz vilayətində bir odunçu varımış. Kasıb adam imiş. Həmişə meşədən bir şələ quru odun yığıb, gətirib bazarda satıb çörək pulu eliyirmiş. Hər gün çörək pulunu bunnan çıxardarmış. Bir gün bu genə çatısını, kəndirini, baltasını götürüf meşiyə gedir. Meşədə quru budağ axtarır ki, kəssin. Baxır ki, bir quru budax var. Tutanda baxır ki, bir ilan sallanıfdı. İlan da bunu görəndə özünü atır yerə. Odunçu düşür baltaynan bu ilanın dalına. Burda, orda, ilanı xaxlıyır. Allahın qüdrəti-kəraminə min şükür olsun. Allahın kərəmiynən, qüdrətiynən bu ilan quyruğunun üstünə qalxır. Dilə gəlir ki, ey bəni-insan, məni öldürməynən, saa bir yaxşılığ eliyərəm. Deyir ki, sən ilan, mən insan, sən maa nə yaxşılığ eliyəjən? İlanın peşəsi adamı vuruf, zəhərriyif öldürməkdi. Deyir ki, məni öldürüv əlinə nə keçəjəhdi? Mən bir yaxşılığ eliyərəm, öldürmə məni. Deyir ki, nə yaxşılığ? Deyir ki, get, beyjə şahımız bir yuxu görüfdü, çox aj halda sərsəm oyanıfdı. Əlinə keçən hazır nə varsa yeyifdi, gənə ajqarına gəlif yatıfdı. Bu saat mollaları, münəccimləri, axuntdarı, baxıcıları yığıv oraya ki, tez olun, mənim yuxumu da yozun, yuxumun mənasın da deyin. Heç kim bacara bilmir. Sana mən yuxunu da deyəjəm, yozmasın da deyəjəm. Get de, çoxlu qızıl alajaxsan, amma mənim də payımı gətir ver.

Odunçu fikirrəşir ki, bunu öldürüb nağarajam, bəlkə də gerçək deyir bu. Bu, ilanı buraxır. Bir şələ odunu gənə hazırrıyır, gətirir bazarda satır. Evə çörəyi verir, şəhərə çıxır ki, görsün padşahın sarayı tərəfdə nə xəbər var, ilanın dediyi doğrudumu. Baxır ki, böyük gediş-gəliş var, axın var, baxıcılar, mollalar, axuntdar biri girir, biri çıxır. Bir nəfərə yaxınnaşır ki, nədi bu gediş-gəliş? Deyir, padşah yuxu görüfdü, camaatı yığıfdı buraya ki, tez olun, mənim yuxumu tapın, yozmasın da. Xəbər göndərir ki, gedin padşaha deyin mənim mükafatımı verərsə, mən onun yuxusunu da deyərəm, yozmasın da. Münəccimin biri çölə çıxmışdı, ona deyir. Münəccim deyir ki, bilirsənmi axırı ölümdü? Deyir:

– Bilirəm.

Münəccim sevincək padşahın yanına qaçır ki, qibleyi-aləm sağ olsun, çöldə bir nəfər var. Deyir ki, mən onun yuxusun da bilirəm, yozmasın da bilirəm. Mənim mükafatımı versin, gəlim deyim. Deyir:

– Gətirin bəri.

Gətirillər, odunçu çox ədəbnən baş əyir, təəzim eliyir. Deyir:

– Qibleyi-aləm sağ olsun, sən gecə yuxuda gördün ki, yerdə nə varsa, hamısı göyə çəkilir. Düzdümü?

Deyir:

– Düzdü.

– Sərsəm oyandın, möhkəm aj idın. Qul-qaravaşı çağırıb oyatdın, əlinə hazır nə keşdisə, hətta quru çörəyləri də yedin, aj gəldin yatdın. Düzdü?

Deyir:

– Hə, düzdü. Bə mənası?

Deyir ki, yerin bərəkəti göyə çəkiləjəhdi. Allah yerin bərəkətin göyə çəkəjəh. Yer üzündə o qədər ajdıx olajaxdı ki, insan bir-birini yeyəjəhdi. Vaxt ikən tədbir gör. Əlinə arpa, buğda, darı – nə keşdisə, yığ, möhkəm bahalığ, möhkəm ajdıx olajaxdı.

Şah buna çoxlu qızıl verir, bunu yola salır. Axı ilan buna demişdi ki, mənim də hesabımı gətirərsən. Bu gəlirdi, ilan da yolun başını kəsmişdi. Bu ajgözdüknən ilanın yanınnan ötdü, keşdi, heç

elə bil ilanı görmüyüf, bu sözdər buna deyilmiyif. Ajgözdüknən apardı qızılı tökdü evə. Başdadı gözəl dolanmağa.

Aradan bir xeylağ vaxt keşdi. Padşah bir də yuxu gördü. Bu dəfə münəccim, baxıcı axtarmadı, dedi ki, filankəsi tapın, gətirin. Gəlib odunçunu tapdılar. Bu fikirrəşdi ki, ay aman Allah, keçən dəfə ilan demişdi, mən də getdim dedim. Bu dəfə nətəhər eliyəjəm. İndi ilanın yanında da mənim üzüm qaradı. Ataların bir sözü var. Deyir ki, şahın qılıncına rast gəlincən, elə ilanın zəhərləməsi daha yaxşıdı. İlana üzümü tutajam.

Gəlir meşədə fırrananda ilan çıxır bunun qarşısına. Deyir ki, get, beyjə yuxuda padşah vəhşi heyvannar görüf: tülkü, canavar, çakqal. Okqədər insannar bijdəşəjəh ki, qardaş qardaşa, ata-balaya fırıldağ gələjəhdi, yalan danışajaxdı, amma çalış ki, bu dəfə mənim hesabımı gətirəsən. Deyir:

– Yaxşı.

Gəlir şahın yanına. Deyir:

– Qibleyi-aləm, gecə sən yuxuda çoxlu vəhşi heyvannar görüfsən – qurd, canavar, çakqal. Mənası ondan ibarətdi ki, insannar arasında o qədər etibarsızlıq yaranajax ki, ata balaya, qardaş-qardaşa yalan danışajax, bijdih gələjəh, fırıldağ eliyəjəh. Bax, ehtiyatdı ol, siyasətini yaxşı qur.

Padşah buna genə çoxlu ənam, qızıl verir. Axı ilan deyifdi ki, mənim hesabımı gətir. Bu fikirrəşir ki, mən niyə bu yolnan gedirəm ki, ilan da mənimlə qarşılaşır. Elə o birsi küçeynən gedərəm da. Yolu dəyişir, başqa bir yolnan aparıb qızılı gənə evə tökür. Odunçu odunçuluxdan çıxıf, qəşəh özünə ev tikdirif, eşik tikdirif.

Bir gün şah gənə yuxu görür, gənə bunu çağırır. Bu gənə korpeşman fikirrəşir ki, indi nə adnan gedim ilanın yanına? Bəlkə heç ilanı tapa bilmədim. Çox fikirrəşir, üzünə üz bağlıyır, gənə gəlir meşəyə girir. İlan çıxır. Deyir ki, get, padşah beyjə yuxuda çoxlu silah-sursat görüfdü. Elə bir döyüş başdıyajax ki, bu padşahın üstünə hücum çəkəjəhlər, elə bir qannı döyüş gedəjəh ki. Vaxt ikən padşah tədbirini görsün, silahını, sursatını, qılıncını, əmudunu hazırrasın. Bu gəlir deyir ki, qibleyi-aləm sağ olsun, sən gecə yuxuda

silah-sursat görüfsən, çox güjdü döyüş başdıyajax, üstünə bir neçə ordu hücum eliyəjəh. Vaxtikən silahını, sursatını, qılıncını, əmudunu, nizəni, oxunu hazırra. Padşah buna genə çoxlu qızıl, ənam verir, bu götürür gəlir. İlan çıxır bunun qabağına. İlan bunun qabağına çıxanda bu meşədən bir yekə ağac budağı götürür, düşür ilanın dalına. İlan qaçır, bu qovur, ilan qaçır, bu qovur, hardasa ilan bir deşik tapıb girmək istiyəndə ilanın quyruğunu arxadan vurur. İlanın quyruğunu vurur, ilan girir yuvaya, bu gedir. Bu da aparır qızılı tökür evə, başdıyır tacirrik eləməyə.

Günnər keçir, bir gün padşah gənə bunu çağırır. Çağırır ki, yuxu görmüşəm, gəl yuxuyu yoz. Nə desin? Əlacı kəsilir, çarəsiz qalır, bir də üzünü meşəyə tutur. İlan çıxır deyir ki, bu dəfə billəm gətirəjən. Gecə yuxuda padşah görüf ki, göydən yerə nur yağır. O qədər bolluğ olajax, Allah bərəkətini göydən yerə endirəjəh. O qədər insannar bir-birinə saleh olajaxlar, mehriban olajaxlar. Get padşaha muştuluğ ver, müjdə ver. Bu dəfəki ənamın o birsinnən iki dəfə artığ olajaxdı.

Gəlir deyir:

– Qibleyi-aləm, müjdə sana olsun ki, gejə yuxuda görüfsən ki, göydən yerə nur yağır. Allah bərəkətini göydən yerə endirəjəhdi. O qədər bolluğ olajağ, insannar bir-birinə o qədər saleh olajax, o qədər mehriban olajaxdı ki, gözün aydın olsun.

Padşah buna çoxlu ənam verir, özü verdiyinnən başqa vəzir-vəkil hamısı buna qızıl verir. Baxır ki, bir qatır yükü ənam yığılıb. Bu birdən qəflətdən oyanır ki, ay mənim kül başıma. Ayə, mən kim idim? Mən bir odunçuydum, gündə bir şələ odun qırıf gətirif bazarda satıf çörək pulumu çıxardırdım. Bunnarın hamısını mana bu ilan verif, bə mən niyə belə hərəkətdər elədim? Gəlir evdə də nə qədər pul varıdı, hamısını qatıra yühlüyür, qatırı çəkə-çəkə gətirir meşəyə. Meşəyə çəkir, ilan gəlif çıxır. Bu ilana deyir ki, gəl, malına sahib dur. İlan deyir ki, nə mal? Deyir ki, mən kimiydim? Özün görmürdün ki, mən bir odunçuydum, bir belə malı sən verifsən. Deyir:

– Ə, mən versəm, birinci dəfədə gətirərdin. Birinci dəfə ki hamı ajgözdüy eliyirdi, sən də ajgözdüy elədin, yanımnan ajgözdüynən,

göylühnən çıxdın getdin. Heç məni saya da salmadın. İkinci dəfə ki, hamı bir-birinə fırıldağ gəlirdi, kələk gəlirdi, yalan danışırdı, sən də kələk gəldin, yolunu dəyişdin. Üçüncü dəfə ki padşah silah-sursatnan döyüş başdadı, sən də döyüş elədin, mənim quyruğumu vurdun. İndi hamının qarnı doyuf, sənin də qarnın doyufdu, onçun gətirifsən. Maa qızıl-zad lazım döyül, götür apar.

## 200. QARAÇUXASINI AXTARAN ÇOBAN

Hər şəxsin özünün qaraçuxası var. Babam deyirdi, bir nəfər birinin malına geder. Çoban yater. Nə qədər yatersa, bir də o vaxt qalxer ki, görür malın qabağında bir yekə adam var, çiynində də cürdənə[27]. Çoban deyir:

– Qardaş, kimsən, nəçisən?

Deyir:

– Mən ağanın qaraçuxasıyam. Malı sən otarmırsan ha, mən otarıram.

–A kişi, etmə, eləmə. Mən iyirmi ildi qoyuna gederəm.

Deyir:

– Yox, sən yata-yata hərrənersən, malı mən otarıram. Sən çıx get burdan.

Deyir:

– Hayana gedim?

Deyir:

– Sənin qaraçuxan o dey Arazın o tayında yatıf. Get onu qaldır, denən vəziyyət bu yerdədi.

Başsız adamdı dana. Soraxlıya-soraxlıya geder. Bir xeylax getmiş görör bir tüksüz canavar yolda şonquyuf. Canavar deyir:

– Çoban qardaş, hara gedersən?

Deyir belə-belə. Canavar deyir:

– O qaraçuxana mənim də dərdimi de. Nə bədənimə tük gəlmer, nə züryətim olmur.

---

[27] Cürdənə – çuxa

Deyir:

– Yaxşı.

Daban aler geder. Geder görör bir afisser əlli-atmış vayenniyə təpik döydürür. Bu afisser də qız imiş. Bu ofisser buna deyir ki, getmə, gəl məni al, dolan burda. Deyir, yox, mənim malım yiyəsizdi, qaraçuxamın yanına gederəm. Geder. Arazdan addıyır o tərəfə, görür həqqi də qaraçuxası burda yatıf. Qaraçuxasını qaldırer. Qaraçuxa buna yol göstərir. Deyir sudan keçəndə görəjəhsən balıx partdıyır, boğazında ləl var. Elə belə boynunun dalınnan vur, ləl çıxajax. Ləli götür, balığı da burax getsin. O afisser də qızdı, bilən yoxdu. Onu da al, ol bir adam. Canavara de ki, bir axılsız adam lazımdı onu yeyə, bədəninə tük gələ, balası ola.

Bu yığır dənniyinə. Bir xeyax gedənnən soora ajır. Görür bir eşşəkli geder.

– Ay əmi, çörəyin olar?

Deyir:

– Var.

Kişi çıxarıf çörəyi verer buna, bu, ləli verer kişiyə. Getdiyi yerdə kişi deyir: “Ə, bunda dünya var, bunu maa niyə verdi?” Çağırer:

– Ay bala, gəl bunun yarısın götür.

Deyir:

– Maa lazım döyül. Mənim malım yiyəsizdi.

Qıza da yiyə durmur. Gedir çıxır, canavar da həmən yerdə şonquyuf. Deyir:

– Çoban qardaş, mənim dərdimi dedin?

Deyir:

– Hə.

– Nə dedi?

– Dedi, bir axılsız adam lazımdı yeyə, bədəninə tük gələ, balası ola.

Deyir:

– Elə axılsız kopoğlu sənsən.

Dartıf dağıdıf yeyir.

Qaraçuxa yalan döyül. On doqquz yaşım vardı, dağda erkək qoyunu otarırdım. Hələ oba dağa gəlmiyif, birinci biz gəlmişik.

Erkəyi otardım, qarnı doyannan soora heyvan yatışdı. Mən də arxası üstə uzandım, ağacı qoydum boynumun dalına ki, bir az mürgülüyəm. Yuxu məni tutar. Erkək aralanar. Gördüm qonşunun donunda bir zənən gəlif yıxıldı mənim üstümə, məni çimdiklədi qaldırdı. Dedim:

– A, niyə heylə eliyirsən?

Dedi:

– Erkək getdi ey, ayağa qalx.

Dedim:

– Sən kimsən ey?

Dedi:

– Mən sənin qaraçuxanam. Səni qalxızdım ki, erkək yoxdu.

Sürü bir iyirmi kilometr basıf getmişdi. Tox heyvandı dana. Getdim tapdım. Gəldim dədəmə dedim. Dedi, o arvad sənin qaraçuxanmış, qonşunun donunda görünüf saa. Qabaxlar köhnə kişilər qaraçuxaya “Quran” oxudurdu, ona ehsan verirdi. İndi buna əməl etmirlər.

## 201. SÖZ SATAN BƏHLUL

Bir gün vəzirnən padşah gəzməyə çıxır. Bazarın böyrünnən keçəndə görör ki, Bəhlul üç topa ojax külü topalıyıf deyir, kül sateram, kül alan. Bu da padşahın qardaşıdı axı. Vəziri göndərer ki, get onun pulun ver, külləri dağıt. Ayıfdı axı, mənim qardaşım kül sater. Vəzir geder Bəhlulun yanına. Deyir:

– Küllərin qiyməti nədi?

Qiymətin deyir. Çıxardır pulun verer. İsteer külü dağıda. Deyir:

– Yox, dağıtma, sözdəri var. Deyim, onnan soora.

Deyir:

– Yaxşı, de.

Deyir:

– Bu topa kül ağasına bel bağlıyanın başına. İkinci topa arvada sirr verənin başına. Üçüncü topa da öz doğma qan qohumunu qoyuf yaddan özünə dost tutanın başına.

Bunu da dağıdır, gəler. Padşah da bir ağ-qaragöz qoç saxlıyırmış bordaxda. Aradan bir az keçənnən soora vəzir fikirrəşir ki, Bəhlul deyən sözdəri bir sınıyım. Gedif padşahın qoçun oğurrader. Gətirif baanda bir tööləyə salır, başdıyır burda yemləməyə. Gedif bazardan da gənə ona oxşar bir qoç alıf gətirer. Arvada deyir ki, bəs padşahın qoçun oğurratmışam, gətirək kəsək yeyək. Gətirir qoçu kəsdirir, yeyillər-içillər.

Padşah da qoçu gəzdirer, qoç tapılmer. Aradan bir az keçənnən soora bu bəhanə eliyir, arvada bir-iki şillə vuror. Arvad ağrıner da. Kişiyə söyür. Deyir:

– A belə-belə olmuş, bu da padşahın qoçun gətirif kəsdiyindi, indi də məni döyürsən?

Söz gedif padşaha çater ki, bəs qoçunu vəzir oğurruyuf. Vəziri çağıtdırer. Deyir:

– Səni dar ağacınnan asdırajam.

Dar ağacı qurulur. Vəziri dar ağacınnan asajaxlar. Deyillər son sözünü de, səni aserıx. Deyir ki, padşah sağ olsun, yadına düşör şəhəri gəzəndə dedin qardaşım Bəhlulun küllərin get dağıt?

Deyir:

– Hə.

Deyir:

– O külləri dağıdanda Bəhlul belə-belə dedi mana. Dedi bu kül ağasına bel bağlıyanın, bu kül arvadına sirr verənin, bu kül də öz qohumun qoyuf başqasını dost tutanın başına. İndi mən onnarı sınadım. Adam göndər, qoçun filan yerdə töölədədi, kişmişnən bəsderəm. Neçə ildi sənə vəzirrik eliyirəm, bir heyvanın üstündə məni asdırersan. Bu sənin etibarın. Arvada da sirr verdim ki, bu padşahın qoçudu, bunu kəsək yeyək. Arvad da sirrimin üstün açdı. Bu da arvadın etibarı. Belə də qayıdıf baxanda... Bax o gülüşənnər mənim yeef-içən dosdarımdı. Orda gülüşüllər ki, canı çıxsın, padşahın qoçun oğurramıyaydı, tutmoydular. Ağlaşannar da mənim doğma qohumlarımdı. Olar da ağlaşıllar ki, yazığı asajaxlar, balaları çöldə qalajax. Mən Bəhlulun sözdərin sınamax üçün bunu eləmişəm.

## 202-203. KEFDƏN QALMAZ

Şah Abbas Vəzir Allahverdi xannan həmişə dərvişlibas oluf əyaləti gəzirmiş, yaxşı-yaman kimdi seçillərmiş, yaxşılığı, ədaləti – bu məlumatdarı örgənillərmiş, buna uyğun tədbirrər görüllərmiş. Bir gün gənə dərvişlibas olub gəzəndə gəlillər, gejəliyillər. Şəhərə yaxın bir kəntdə bir qapıyı döyüllər qonax qalmaxdan ötəri. Ev sahibi çıxır. Deyillər ki, bəs bir gejəlik bizi Allah qonağı eliyin. Deyir ki, Allaha da qurban olum, qonağına da, buyurun. Bunnar içəri daxil olullar. Çaydan-çörəhdən soora baxıllar ki, qonşuda toy çalınır. Şah Abbas deyir ki, Allah mübarək eləsin, qonşunuzda toy var. Deyir:

– A kişi, elə orda həmişə toydu.

Deyir:

– Nətər yanı həmişə toydu?

Deyir:

– Hər gejə orda toydu.

Deyir ki, o nə işin, nə sənətin sahibidi ki, gündə toy çaldırır? Deyir ki, adicə pinəçidi. Deyir:

– A kişi, şah, vəzir vəzifə sahibi olsa da, ancax qırx gün toy çaldırar.

Deyir:

– Yox ey, hər gün toy çaldırır.

Şahnan vəzir bir-birinin üzünə baxır ki, bu nətər olan şeydi, adi bir pinəçi hər gejə toy çaldıra? Ev sahibinə müraciət eliyillər ki, bizi də aparарsanmı o toya, bir az qulağ asax. Deyir ki, niyə apar-mıram kı? Şah, vəzir dərviş paltarında ev sahibiynən birlikdə həmin evə təşrif buyurullar. Baxıllar ki, zurnaçılar çalır, camaat oynuyur, bir nə qədər də oturuflar. Hər kəs də öz aləmində, sevincdə, deməkdə-gülməkdə, oynamaxda. Şah Abbas addıya-addıya məclisin başına ev sahibi pinəçinin yanına yaxınlaşır. Deyir ki, ay qardaş, Allah ömrünü uzun eləsin, bu camaatı yaxşı sevindirirsən, camaat gəlir hər gecə əylənir burda. Şəhərdə olan yenilikləri sənətkarlar bilir. Nə var, nə yox şəhərdə? Deyir ki, Allahın dərgahına min şükür olsun, şəhər də öz yerində, hər kəs də öz işində. Mən də ki, əlimnən gələni

eliyirəm, qazandığımı gətirirəm, evin yeməyi ayrı, sənətkarrarın pulu ayrı, toy çaldırıram, camaatı əyləndirirəm.

Nəysə, şah çox fikirrəşir ki, sən pinəçiyə bax, pinəçinin tutduğu əmələ bax. Vəzirnən fikirrəşillər, nətər eliyəy bunu toydan ayırax. Şah fikirrəşir ki, bunun iş yerini bağlamağ lazımdı ki, əli iş yerinnən çıxsın, qazancı olmasın, bəlkə bu işdən əl çəkə. Əmr verir ki, şəhərdə pinəçi olmuyajax. Bu nə biabırçılıxdı? Şəhərə çıxırsan hamının ayakqabısına baxırsan ki, iki-üç yerdən yamağı var. Ayakqabıların qiymətini endirin aşağı, şəhərdə nə qədər pinəçi varsa, hamısını yığışdırın.

Yazıx pinəçi tezdənnən qalxır, çəkicini, mismarını, torbasını götürür, iş yerinə gəlmək istiyəndə yasovullar bunun qabağını kəsir.

– Açma!

– Niyə?

– Şahın əmri var, şah göstəriş verib ki, bunnan soora pinəçi olmuyajax.

Deyir:

– Ə, səy-səy danışmaynan, dünya bərqərar olannan pinəçi olufdu.

Deyillər:

– A kişi, bu şahın əmri, bu da göstərişi.

Yazıx pinəçi gedir o biri yoldaşının iş yerinə baxır ki, o da bağlı, orda da yasovullar qoymur. O birisinə qaçır, orda da. Əlajsız qalır, mən nağayrım, neyniyim? Gün də gəlib günortaya yaxınnaşmağ üzrədi. Bu baxır ki, günortanın istisi, aran yeri, isti hava, camaat su deyə yanır. Bu yaxşı bir kəhriz yeri bilirdi, sərin bir su. Bir az dərindəydi, əziyyətdiydi, amma yaxşı suyu varıdı. Bu iki dənə vedrə götürüf özünü verir həmən kəhrizə. Camaat burda quşkasını iyirmi qəpiyə verirdi, bu gətirir on qəpiyə buraxır. Axşam hesablıyır ki, dünənkinnən ikiqat artığ qazanıfdı. Özünü verir bazara, genə evin ayın-oyunu ayrı, sənətkarrarınkı ayrı.

Şah Abbasnan vəzir genə dərvişlibas olub gəlir ki, görək, hökmümüzün, qərarımızın nəticəsi noldu. Genə gəzə-gəzə gəlillər həmin evə, deyillər:

– Bizim üzümüz-gözümüz öyrənib, elə bu evdə qalax.

Yazıx kişi deyir, gənə də xoş gəlifsiniz. Gənə də oturullar, bir azdan soora gənə görüllər ki, toy çalınır. Deyillər:

– Bu nədi?

Deyir:

– Bə dünən demədimmi həmişə toy çalınır orda?

Deyir:

– Durun gedək bir az da biz qulağ asaq.

Gəlillər. Gənə şah yavaş-yavaş pinəçiyə yaxınnaşır. Deyir ki, ay qardaş, Allah xudavəndi-aləm ömrünü uzun eləsin, bu camaata yaxşı gərək olufsan, camaatın kefini açırsan. Camaat gəlir, oynuyur, başını qatır, dərdini yadınnan çıxardır. Şəhərdə nə var, nə yox?

– Ə, – deyir, – şəhərdə nə olajax? Allaha and olsun, bizim şahın başı xarav olub.

Deyir ki, ə, nətər xarav olufdu? Deyir:

– Dünya bərqərar olannan pinəçilik oluf. Səhər gedirəm iş yerimi açam, yasovullar qabağımı kəsdi ki, bunnan soora pinəçi olmuyajax. Ə, nətər olmuyajaxdı, belə şey olar?

Deyir:

– Bə nağardın?

Deyir:

– Nağarajam. Gördüm su möhkəm gedir, camaat su deyə yanır. Yaxşı kəhriz yeri bilirdim, gətdim, camaat iki şahıdan verirdi, mən bir şahıdan buraxdım. İkiqat artığ qazandım, Allahın verdiyinə min şükür.

Şah hesabını götürür ki, yaxşı... Şah gənə gəlir taxta çıxır, əmr verir ki, bu nə biabırçılıxdı. Bütün əyalətdərdə danışıllar kı, Şah Abbasın əyalətində su satılır. Bu bizim töhmətimizdi. Bütün bu su satannarın hamısını yığışdırın. Yazıx bu pinəçi də iki yaxşı vedrə götürmüşdü, təzəcə özünü kəhrizə çatdırmağ istiyəndə yasovullar bunu xaxladı:

– Şahın əmri var, bunnan soora su satılmıyajax.

– A kişi, etmə, eləmə.

Dedilər ki, yox e, şahın əmri budu. Bu yazıx çox fikirrəşdi: "Mən nağayrım, mən nejə eliyim?" Bazarın yanında mal bazarı var idi. Baxdı ki, mal bazarında çox böyük səs-küy var. O deyir, yox, mən bu qiymətə verəmmərəm, bu deyir yox, mən bunnan artığ verəmmərəm, bunun qiyməti elə budu. Bu özünü verdi bazara, başdadı dəllallığ eləməyə. – "Ə qardaş, neçiyə verirsən bunu? Bəs, sən nə qədər verə bilərsən?" Bunnarı razılaşdırdı, bir şahı onnan aldı, bir şahı bunnan aldı cibinə qoydu, keşdi o birsinin yanına. Bu cürə, bu cürə axşam hesabladı ki, elə dünənkinnən artığdı. Özünü verdi bazara, evin ayın-oyunu ayrı, toyun ayın-oyunu ayrı, ərzaq ayrı, sənətkarların pulu ayrı. Gəldi genə toy çaldırmağa.

Şahnan dərviş işin nəticəsini yoxlamağdan ötəri gənə dərvişlibas olub gəldilər. Gəldilər, gənə bu ev sahibini götdülər, getdilər toy evinə. Gəldilər ki, toy çırpa-çırpdı, çalınır. Oynıyan oynuyur, gülən gülür. Gənə yaxınnaşdılar ev sahibinə – pinəçinin yanına ki, xüdavəndi-aləm sənin ömrünü uzun eləsin, bu camaatın dərdini, qəmini unutdurursan. Şəhərdə nə var, nə yox?

Dedi:

– Ə, nolajax şəhərdə. Kopoğlu şahın başı xarab olub. Kopoğlu elə bil mənnən ayağ-ayağa qoyufdu. Mən ayağımı haraya qoyuramsa, oreyi bağlıyır. Bu gün getmişəm iki yaxşı vedrə götürmüşəm ki, su gətirif satam, yasovullar qabağımı kəsdi ki, olmaz, olmaz, şəhərdə su satılmıyajax.

– Ə, bə nağardın?

Deyir:

– Özümü verdim mal bazarına, dəllallığ elədim. Bunu onnan barışdırdım, onu bunnan barışdırdım, hərəsinnən bir az aldım cibimə qoydum, dünənkinnən artığ qazandım.

Şah deyir, yaxşı. Şah gəlib vəzirnən çox fikirrəşir ki, nağayrax, neyniyək? Deyir:

– Əşi nağarajan? Burdan da ayağını kəs, görək nətər olajax?

Şah bu dəfə əmr verir ki, biri alır, biri satır, bax, bu üçüncü adamın burda nə işi var? Onu da alladır, bunu da alladır. Bu kələkbazdıxdı, bu fırıldaxdı. Nə vaxta qədər şəhərdə davam eliyəjəhdi?

Kəsin bu dəllallığı aradan. Şah əmri verir. Bu yazıx da yavaş-yavaş gəlirdi. Yasovullar qabağını kəsdi ki, bazara girmə. Yedəyində malın yoxdu, mal almıyajaxsan, bazara niyə girirsən? Şahın əmri var, dəllallar cərimələnəjəhdi, tutulajaxdı.

Axşamnan da elə bir güjdü yağış yağmışdı kı, şəhər də iki hissəydi, ortadan çay gedirdi, körpüyü sel yuyub aparmışdı. Bu çox fikirrəşdi, ə, nağayrım, neyniyim? Birdən gözü sataşdı ki, çayın qırağında bir böyük dəstə bu tərəfdə qalıb, bir böyük dəstə o tərəfdə qalıb. Kimisi yükünü o tərəfə keçirtmək istiyir, kimisi bu tərəfə keçirtmək istiyir. Çatdırdı özünü buraya. Şalvarın balağını qaldırdı yuxarı, başdadı bunun yükünü apardı o tərəfə keçirtdi, onun yükünü bu tərəfə keçirtdi. Bəzi adamları dalına aldı o tərəfə keçirtdi, bəzisini dalına aldı bu tərəfə keçirtdi. Axşam hesabladı ki, dörd günnük hesab çıxıfdı. Yaxşı bazarrığ elədi, toyun ərzağını, evin ərzağını aldı, gəldi, şırpaşırp toy başdadı çalınmağa.

Şahnan vəzir gənə gəldilər. Toy çalınır. Ev sahibinə dedilər ki, dur gedək, biz də qulağ asaq toya. Bu gün axşama kimi dərviş kimi hərrənmişik, əlimizə də bir şey keçmiyif.

Gəldilər toya. Şah genə yavaş-yavaş özünü verdi ev sahibi pinəçinin yanına ki, danış, görəy nə var, nə yox?

– Ə, – deyir, – nə olajax? Dünən demədimmi şahın başı xarav oluf. Aparıf dəlixanaya salmax lazımdı. İndi də getmişdim dəllallığ eləməyə, onu da bağlıyıf.

– Bə nağardın?

– Ə nağarajam, Allaha qurban olum. Yağış yağıb körpüyü aparıb, camaatın yarısının yükü bu tərəfdə qalıb, yarısınınkı o tərəfdə qalıb. Şalvarı çirmədim yuxarı, bu yükü oraya keçirtdim, o yükü buraya, dörd günnük hesabım var.

Şahnan vəzir gəldilər, çox oturuf fikirrəşdilər nağayrax, neyniyək? Vəzir dedi ki, şah, bunun gündəliyini kəsmək lazımdı. Bunun gündəlik əlinə qazanc gəlməsə, toyu çaldıra bilmiyəjəhdi.

– Bə nətər kəsək?

Dedi:

– Çağır burda bir iş ver, denən gündə nə qədər qazanırsan, ayı nə qədər eliyir. İkiqat onnan artıq verəjəm, amma ayın başında verəjəm. Bəlkə gündəlik qazancı kəsilər, toy kəsilər.

İki dənə yasovul göndərdi ki, gedin onu buraya çağırın. Gəldilər ki, səni şah çağırır. Bu fikirrəşdi ki, şahın mənnən nə işi, mən pinəçi, o şah. Bunu gətirdilər şahın yanına. Bu baş əydi, təzim elədi:

– Qibleyi-aləm, buyurun.

Dedi ki, sizi qoçağ adam söylüyüllər, cəsur adam söylüyüllər. İndiyənə qədər mənim bu qapımda çox xəyanətkar adamlar durufdu. Mənim yanıma naxələf adamlar buraxıfdı, amma siz çox cəsarətdi, çox qoçaxsınız. İnnən soora mənim qapımda sən qaroulçu durajaxsan.

Dedi:

– Qibleyi-aləm, onu kim deyir bilmirəm, amma məndə o qoçaxlığ, o cəsarət hardadı?

Dedi:

– Yox, helə danışıllar. Gündə nə qədər qazanırsan sən?

Dedi ki, bəs bir belə.

– Ayı nə qədər eliyir?

– Bir belə.

Dedi:

– Mən sana ikiqat artığını verəjəm, amma ayın başında verəjəm.

Pinəçi nə qədər yalvardısa ki, mən elə qoçağ adam deyiləm, elə cəsarətdi deyiləm, padşah əl çəkmədi. Əmr elədi şah, bir dəst buna yaxşı qapıçı libası gətdilər şahlığa layiq, bir də bir qızıl xənçər gətdilər, kəmərinnən asdılar. Dedilər, şahın birinci qapıçısı sən olajaxsan. Bu nə qədər elədisə, mümkün olmadı. Bunu burda qoydular. Amma şah bilirdi ki, bu qaçajax. Hər yerə gözətçi qoymuşdu ki, bunu izdiyin.

Günün bir vaxtı keçmişdi, bazarın bağlanmasına az qalırdı. Bu, toyun hak-hesabın almalıdı, evin ərzağını almalıdı, sənətkarrarın pulunu verməlidi. Bu möhkəm darıxırdı. Yanındakı o biri qapıçıya dedi ki, bir dəyqə buraya da bax, mən çölə çıxıf, gəlirəm. Bu

çölə çıxdığıynan götürüldü. Şah ayrıca buna gözətçi qoymuşdu. Bu gözətçilərdən biri bunun qabağını kəsdi.

– Ə, haraya qaçırsan?

Dedi:

– Sana nə var?

Dedi:

– Mana nə var nədi? Şahın libasını, qızıl xənçərini götürüb haraya qaçırsan sən?

Dedi:

– Ə, nə işinə qalıb? Xənçər lazımdı, verim.

Dedi:

– Şah soruşsa, nə cavab verəjən?

Dedi:

– Əşi, taxtadan qayırıf qoyajam, üstünə də qızıl suyu çəkəjəm, olajax xənçər. Şah gəlib mənim xənçərimi yoxluyur?

Gözətçi pulu verdi, şahın xənçərini aldı. Bu da fikirrəşdi ki, ayə, bir aylığ hesabım var ey, ayın başında onsuz da mayış alajam. Özünü verdi bazara, yaxşı bir bazarrığ elədi. Çatan kimi də bir ustaya bu xənçəri yaxşı düzəltdirdi, üstünə də sarı su çəkdirdi, guya qızıldı, asdı öz yerinnən. Gəldi şırpaşırp toyu çaldırdı.

Şahnan vəzir gəldi genə həmən evə, həmin evin sahibini götürüb getdilər toya. Toyda şah yavaş-yavaş genə yaxınnaşdı pinəçiyə, bir az bunun ömrünə duva oxudu:

– Camaatı sən feyziyab eliyirsən, camaatın başını qatırsan, dərdini azaldırsan. Şəhərdə nə var, nə yox?

Dedi:

– Nolajax? Dünən demirəmmi şah kopoğludu. Məni aparıb ki, sən mənim qapıçım ol. Mənnən qapıçı olar?

– Ə, bə nətər elədin?

Dedi:

– Nətər eliyəjəm? Bazar bağlanana qədər durdum orda, bazar bağlanana yaxın çıxdım qaşdım.

Dedi:

– Nətər qaşdın, bə xənçər nejoldu?

Dedi:
– Əşi, xənçəri satdım, toyun xərci var.
Dedi:
– Nətər satdın?
Dedi:
– Orda nə var, bir taxtadı, yonduruf qoymuşam oraya, üstünə də sarı su çəkdirmişəm, durur orda da.
Şah dedi, yaxşı, indi sən gününə bax.
Sabah bu gəldi həmin yerdə durdu ərkyana, daha hazır pulu var evdə. Padşahın da yanına bir nəfər gətirdilər ki, bu günahkardı, bunun boynu vurulmalıdı. Şah dedi:
– Elə yaxşı oldu, bunun başını mənim gözətçim vurajax. Elə bunun da təzə gəlişidi.
Deyəndə dedi ki, qibleyi-aləm sağ olsun, mən heç toyuğ başı da kəsməmişəm. Şah dedi:
– Toyuğ başı kəsməmisən, amma bu günahkarın başını kəsəjəhsən.
Dedi:
– Qibleyi-aləm, mən onu bajara bilmərəm.
Bir dənə ağaj kötüyü də gətdilər, günahkarın başı kötüyün üstünə qoyulmalıdı, qapıçı da kəsməlidi. Bu nə qədər yalvardısa, xeyri olmadı. Dedi:
– Qibleyi-aləm, bəlkə bu adam günahsızdı?
Şah dedi:
– Günahsızdı, günahkardı sənə nə, o əmri mən vermişəm, sən kəsməlisən.
Nə qədər elədisə, şah əl çəkmədi. Dedi:
– Qibleyi-aləm, əgər bu adam günahsızdısa, qoy mənim bu xənçərim ağaca dönsün.
Xənçəri çəkdi. Xənçəri çəkdiyinnən taxta xənçər iki yerə böləndü. Dedi:
– Qibleyi-aləm, görürsənmi, bu adam günahsızdı, xənçərim taxtaya döndü.

Şahnan vəzir güldülər, bunun xənçərini də çıxartdılar stolun üstünə qoydular, dedilər, get ey, səninkin Allah verir, get. Şah pinəçini buraxdı ki, yeri get, ruzunu verən Allahdı. Allah verirsə, onun qarşısını almağ olmaz. Pinəçi gəldi, başdadı toyunu çaldırmağa.

**203.**

Bir gün genə vəzirnən Şah Abbas gedillər. Görüllər ki, şəhərin bir kənarında, bir balaca koma var. Burda bir tar, qaval səsi var, oxumax, çalmax var ki, nətəəri. Dərviş libasında gedirdilər də. Qapını döyüllər, açıllar. Deyir ki, biz dərviş babayıx, bizi qonağ eliyərsinizmi? Deyir ki, hə. Bir dəstə sazandadı, oturub çalır, biri də oturub bardaşqurma, qavağında da yeməh, işməh, belə dolu surfa. Təhcənə yeyir-içir, bular da çalır. Nəysə, oturullar-eliyillər. Deyir:

– Bala, bu nədi belə?

Deyir ki, dərviş baba, şah oğlu Şah Abbasın başıçün, mənim adım Kefdən Qalmazdı. Mən belə kef eliyirəm özümçün.

Deyir:

– Bala, nə işnən məğul olursan?

Deyir:

– Bir şələ odun satıram bazarda. On manata satıram, bir manatını verirəm bazar pulu, dokquzunu da gətirrəm. Beşin verirəm bu aşıxlara, bular çalıllar, dördün də bax, hər axşam belə oturram, yeyiv-içirəm. Şah oğlu Şah Abbasın başıçün, mən kefimnən qalmıyajam.

Nəysə, bular yatıllar. Savax deyir ki, dərviş baba, birdən yeriniz olmaz ha! Savax da gələrsiniz. Şah tezdən duruf gedir öz taxtında oturur. Deyir ki, vəzir, bu mənim başıma dəyqə başı and işdi. Nağayrax bunu? Fərman verir ki, meşəni qırmax olmaz, heç harda odun satılmasın. Tezdənnən carçılar əmr verir ki, odun satmax qadağandı, şah fərman verib.

Bı elə bikef-bikef küçeynən gedirmiş. Görür kü, bir ustadı. Düşür yerdən palçığı, daşı qoyur bu dəzgahın üsdə, çıxır hörür, qutaranda bir də düşür palçığı özü qayırır, fəhləsi yoxdu. Deyir ki, ay usta, niyə belə eliyirsən? Deyir:

– A bala, fəhləm yoxdu, nağayrım.

Deyir ki, fəhlə mən. Nə verəjəhsən? Deyir ki, a bala, nə qazansax, yarısı sənin. Deyir:

– Yox, maa onca manat ver. On manat bəsimdi.

Deyir:

– A bala, azdı axı.

Deyir:

– Sənin nə işinə qalıb, on manat məə bəsdi.

Bu fəhləliyini eliyir. Axşamüstü on manatını alır, gedir. Deyir:

– Vəzir, dur gedək, görəy dosduun zınqı düşüfdü? Yəqin mısıv oturuv indi.

Gedillər ki, sən öl, bəyaxkınnan da bərk çalıllar. Qapını döyuf girillər içəri. Görüllər ə, bəyax surfada üş-dörd şey idi, indi lap çoxdu. Deyir:

– A bala, biz də sənin dərdini çəkirdih. Şah da fərman verif ki, odun satılmasın. Bə bunu hardan aldın, hardan qazandın?

Deyir ki, şah oğlu Şah Abbasın başıçün, mən demişəm də kefimnən qalmıyajam. Deyir:

– Bə nətər oldu?

Deyir:

– Elə küçeynən gedirdim, gördüm bir usda işdiyir, özü həm fəhləlih eliyir, həm usdalıx eliyir. Getdim kömək elədim, on manat aldım. Həmişə bir manat bazar pulu verirdim, heç onu da vermədim. Bax belə. Şah oğlu Şah Abbasın başıçün, kefimnən qalmıyajam.

Bular genə tezdən duruf gedillər. Şah Abbas adam göndərir ki, gedin onu gətirin, xəzinənin qapısında qaroulçu durajax. Deyin ki, növbeynən xəzinənin qapısında qaroulçu durullar. Bu dəfə də sənin növbəndi. Gətirillər, buna da bir qılınc verillər, qoyullar qapının ağzında. Deyir, vəzir, indi görəh dostumuz nağayrajax. Day bunu başınnan bağlamışığ.

Bu uje görür kü, gün bata-batdı, darıxır, ora-bura, yerində çavalıyır. Qonşuluxda da dəmirçi tükanı varmış. Görür ki, dəmirçi tükannan çıxır. Dedi:

– Ə dəmirçi, bura gəl. Saa polad lazımdımı?

Dedi:

– Hə.

Dedi:

– Apar bu qılıncın poladını kəs, yerinə bir ağajdan-zaddan qayır, gətir.

Deyir:

– Nə qədər verəjəm, a bala? Buna mənim güjüm çatmaz, bu çox bahalıdı.

Deyir:

– Əşi, on manat gətir.

Tez aparır kəsir, yerinə də bir ağajdan-zaddan qayırır, gətirir verir buna. Gejə Şah Abbas deyir:

– Hə, vəzir, gedəh görəy dosdun nağayrır.

Gedillər ki, gənə həmənki vəziyyət. Deyir:

– A bala, bəs nə oldu, nətər oldu? Eşitdik ki, sən şahın xəzinəsinə qaroul çəkirsən, bə hardan aldın?

Deyir:

– Şah Abbasın başıçün, mən demişəm də, kefimnən qalmıyajam. Dəmirçi gedirdi yolnan, çağırdım verdim. Apardı qılıncı kəsdi, poladın götdü, yerinə də bir ağaj qayırdı, on manatımı aldım, indi də kef eliyirəm.

Deyir ki, yaxşı, ay kopoğlu. (Özü də hər dəfə də Şah Abbasın başına and içir). Savax adam göndərir. Deyir:

– Dünən eşitdim xəzinənin qapısında yaxşı qaroul çəkifsən. Şah deyir ki, onu bura gətirin, cəllad qoyajam onu.

Bu gəlir, kötüyü-zadı da gətirillər. İçəri girən kimi baxır ki, dünən ona qonax olan dərviş Şah Abbasın özüdü, oturuf taxtında. Bööründəki vəzir də o biri dərvişdi. Uje day ilişdi də, burda qaçılası yer yoxdu. Deyir ki, ə, eşitmişəm dünən yaxşı qulluğ eləmisən. Sən yaxşı oğlansan, istiyirəm səni burda cəllad qoyam, bu kişinin boynunu vurasan. Bu fikirrəşir, görür ki, ilişifdi. Aşağı baxır, yuxarı baxır, deyir:

– Ya Allah, əgər bu adamın günahı varsa, bu qılış bunun boynunu vursun. Əgər yoxdusa, bu bir ağac olsun, bunun boynunu vurmasın.

Vuran kimi tarak qırılır, ağac düşür yerə. Şah Abbas deyir:

– Ə, qoduğ, sən mənim başıma and içirsən, indi də mənim başıma bu fırıldağı gətirirsən? Doğurdan da, sən kefdən qalmazsan. Bu işin də içinnən çıxdınsa, sənə sözüm yoxdu.

Xəzinədən buna on manat ayırır. Deyir ki, gəl xəzinədən hər gün on manatını al, get kefini çək.

## 204. ƏSLİ HU

Şah Abbas vəziriynən təğyiri-libas oluf gəzirdi. Deməli, bu yerdə bir kişi vardı, bu kişi on bir uşağın atasıdı və meşədən odun gətirir, üzdən irağ, ulağnan. Gətirir verir üç abbasıya, uşağın dolandırır. Bir gün, beş gün, on gün, bir ay, beş ay. Axırda bezir. Meşədə ağac kəsəndə buna qeybdən səs gəlir ki, bu ağacı niyə doğruyursan? Baxır ki, meşədə yaşdı ağac qalmıyıf, hamısı cavan ağajdardı. Baltanı da tulluyur, ulağın da qoyur meşədə, çıxıb gəlir evə. Deyir ki, qutardım e day. Məni Allah yaratmıyıf? Allah dolandırsın da. Qırmıyajam meşəni. Gəlir evə. Evin arvadı çıxır ki, kişiyə yükünü boşaltmağa köməy eləsin. Baxır, görür ki, yük yoxdu. Atıla-atıla gəlib. Deyir:

– A kişi, bu nə olan şeydi? Hardan gəldin, nətər oldu, hanı bəs ulax?

Deyir ki, arvad, qutardım ey day. Deyir ki, nə qutardın? Deyir ki, yox ey, day mən odun qırıf uşax saxlıyası döyüləm.

– Əşi, bəs neyliyəjəhsən?

Deyir:

– Nəysə eliyəjəm də.

Uşağın böyüyünü arvad durğuzur ki, get gör barı ulax harda qaldı, bu kişinin başı xarab olub deyəsən, heç olmasa ulağ əldən çıxmasın. Uşağ xəbər gətirir ki, ulağı da kəndin o başında canavar yeyif, heş nə yoxdu.

Nəysə, kişi səhər durur tərpənir düz şahın elçi daşının üstünə. Xəbər gəlir ki, ya şah, elçi daşının üstündə bir adam oturuf. Deyir

ki, çağırın. O vaxt heylə idi. İndiki kimi qəbulda problemləri yox idi. Nəysə, şah çağırır. Deyir:

– Nədi, ay kişi?

Kişi deyir ki, şah sağ olsun, mən bu gecə yuxuda gördüm ki, Cənab Cəbrayıl sizə qonax gələjək. Dedim ki, gəlim sənə xəbər eliyim. Şah deyir:

– Mən şah, belə şey olar?

Deyir:

– Mən ta nə bilim.

Çox qürrələnir. Şah deyir:

– Məni istiyən bu kəntçiyə pul.

Özü də çıxardıf bir kisə qızıl verir. Qapıdan çıxanda deyir ki, a kəntçi, bəs demədi havax gələjək? Dedi ki, otuz doqquz gün keçəjək, qırxıncı gün gələjək.

O qırx günə gətirdiyi qızılnan özünə yaxşı ev tikdirir. Otuz dokquzuncu gün durur uşağlarnan halallaşır, arvada da deyir ki, indi gedirəm, getməsəm də gəlib aparajaxlar. Siz də qalın, dolanın. Mənim onsuz da yaşım keçif, yaşdanmış adamam.

Durub peşman-peşman gedir şahın iqamətgahına sarı. Allaha agah idi. Allahdan nida gəlir ki, ya Cəbrayıl, belə bir kəntçi belə bir qələt elədi, amma əlacı yox idi, get onaköməy elə. Şah boynun vurdurajax onun, qoyma vurdura.

Nəysə, kişi gəlir. Birdən baxır ki, bir ağsaqqal adam da buynan yol yoldaşıdı. Həzrəti Cəbrayıl bu sifətdə gəlib. Soruşur kişidən ki, nədi, elə bil gəmin batıf dəryada. Noluf sənə, niyə belə qəmginsən. Deyir ki, a yolçu, görürəm sən də dünya görmüş adamsan, Allahdan gizdi döyül, sənnən nə gizdiyim. Bəs belə-belə eləmişəm, xeylax da ayın-oyun almışam, uşaxlarımın dolanışığına bəs eliyəjəh. Gedirəm indi ölümə. Həzrəti Cəbrayıl deyir ki, kişi, mən orda olajam, get. Qorxma, mən sənə köməy eliyəjəm, amma şah nə soruşsa dinmə. Nə soruşsa bir kəlmə, yek kəlmə ağzı açma. Deyir:

– Yaxşı.

Baxıb görür ki, yanında kişi yoxdu. Fikirrəşir ki, nəysə bu elə bil Allahın görüşüydü.

Səhər açılır, şəhər bəzənir ki, şaha qonax gəlir. Gözdüyüllər, gün əyilir. Kim gələsidi? Şah vəziyyəti başa düşür, deyir ki, görün o vələduzna hardadı? Gətirin bura. Deyillər ki, şah sağ olsun, o bayaxdan gəlif oturuf elçi daşının üstündə.

– Ə, gətirin.

Gətirillər. Şah da qəzəbinnən titriyir, vəziri, vəkili böyründə. Şah nə deyir, bu dinmir, nə deyir, bu dinmir. Axı deyiblər dinmə. Şah vəzirə deyir ki, vəzir, nə tədbir, sən şahını alladana nə cəza istiyirsən? Vəzir deyir ki, şah sağ olsun, onu tikə-tikə doğruyuf tiyanda bişirif itdərin qabağına tökməkdən başqa çarəsi yoxdu. Şahın yenə ürəyi soyumur. Qayıdır vəkilinə ki, vəkil, sən nə eliyərdin? Vəkil də deyir ki, şah sağ olsun, onun hər qolun, hər qıçın dörd xam ata bağlıyıf buraxmağ lazımdı dağlara, parça-parça eləsinnər onu. Şah bir az fikirrəşir, genə ürəyi soyumur. Qapıdan nökər keçirmiş. Çağırır ki, ay bala, bir ayağını saxla. Nökər durur:

– Nədi, ağa?

Deyir ki, sən də bir kişinin oğlusan dana. Bilirsən nədi məsələ? Deyir:

– Bilirəm, bəli.

Deyir:

– Sən nə təklif eliyərdin?

Nökər deyir ki, şah sağ olsun, əlacı yoxuydu, səni allatdı, bağışda getsin. Bunu deyəndə şah qəzəblənir, əlin xənçərinə atmaq istiyəndə görür ki, qarşısında bir nəfər duruf. Həmin ağsakqal kişi Həzrəti Cəbrayıldı da. Deyir ki, şah, bir az səbr elə. Söz var düz olar, söz var əyri olar. Şah gərəy araşdırsın, bilsin nədi. Durur deyir ki, nədi? Deyir ki, oğlan düz deyir. Şah lap qəzəblənir:

– Doğurdan?

Deyir ki, hə. İndi sən qulağ as, mən deyim. O ki deyir, tikə-tikə doğra, tök itdər yesin. O vəzirin sən bilirsən kimdi? Sənin babanın aşbazının oğludu, o helə böyüyüb, helə görüb. Doğruyuflar, töküflər, onun mayasında odu – qəssəblikdi. Deyəndə şah maraqlanır, deyir ki, bəs vəkilə nə deyirsən? Deyir ki, o da mehtərinin oğludu, onun da mayasında odu. Şah lap bir cür olur. Deyir:

– Bəs bu nökər nədi?

Deyir ki, o filan vilayətdə şahın oğludu. Atasının bir sözünnən küsüb, gəlib burda sənə nökərçiliy eliyir ki, atasının minnətin götürməsin. Şah əmr verir ki, dərhal yoxluyun.Yoxluyullar ki, hər şey düzdü. Dönür ki, kişiyə razılığın eləsin. Görür ki, kişi nə gəzir. Vəzirin, vəkilin boynun vurdurur, oğlanı çağırır ki, gəl səni burda vəzir qoyum. Oğlanı özünə vəzir götürür, atasıynan da əlaqə yaradır. Kişini də sağ-salamat öyünə buraxır.

## 205. KASIB KİŞİNİN GƏLİNİ

Bir kasıv kişi varmış, bircə dənə də oğlu varmış. Bir gün kişi deyir ki, ay arvad, ikimiz də əldən düşmüşük, oğlumuz da fərəsətsiz bir şeydi. Bunu gətir evləndirək, gənə qulax-həyan olsun, ər-arvad dolansınnar. Arvad deyir ki, nə deyirəm. Gedillər bir kişinin qapısına, bəs qızını mənim oğluma ver. Deyir ki, nolar, verərəm. Razılaşıllar, bı qızı alır gətirir. Gəlin gətirib, indi səhər tezdənnən bular surfuya oturullar yemək yeməyə. Arvad gəliv oturub, oğlan gəliv oturub.

Gəlin də təzə gəlib də. Kişi deyir ki, ağız, gəlini də gətir, gəlin niyə gəlmədi, bə hanı gəlin? Deyir ki, gəlin gəlmir. Arvada deyir, dur gəlini gətir. Deyir, olmaz. Gətirə bilmirəm. Kişi gedir özü qolunnan tutur, gəlinə deyir ki, sən bizim həmi qızımızsan, həmi gəlinimizsən. Oturginan. Oturur surfanın başında. Deyir ki, qızım, çörəyə əl uzatmamış saa bir məslahat eliyəjəm. Deyir:

– Nədi?

Deyir:

– Buyünnən soora bizim bu evin ağsakqalı sənsən.

Deyir:

– Yox, yox, evdə qaynata, qaynana ola-ola mən ağsakqallığ eliyə bilmərəm.

Deyir:

– Yox e, qaynatadan da keçif, qaynanadan da keçif, sənsən bizim ağsakqalımız. Sən nə desən ona baxajeyik.

Deyir:

– Yaxşı, onda mən də sizə bir məsləhət eliyim.

Deyir:

– Hə, deginən.

Deyir:

– Siz də darvazadan çıxanda geri qayıdanda heş biriniz əliboş qayıtmıyın. Əlinizdə bir saman qırığı olsun, taxta qırığı olsun, nə olur olsun, gətirin bı darvazanın küncünə qoyun.

Deyir:

– Yaxşı.

Bir gün belə, iki gün belə, bular bu minvalnan yaşıyıllar. Bir gün də bu qızın əri gedib sahələrini suluyub qayıdanda ora baxır, bura baxır, nəkqədər baxır görür, ayə, bir dənə çöp yoxdu ku, bı əlinə ala gətirə. A bə mən nağayrım, nətər eliyim? Birdən belə baxanda görür bir koramal ölüsü var. Bunun quyruğunnan tutur, başdıyır başının üsdündə fırrıya-fırrıya gətirir. Gəlin baxır ki, bının əlinə bir şey keçmiyib də, bı keçibdi. Deyir:

– Eybi yoxdu, gətir tulla damımızın üstünə, əl-əyağını yu, gəl otur çörəyini ye.

Gəlir oturur, çörəyin yeyir.

Bı ölkənin bir padşahı varmış, padşahın da bircə qızı varmış. Bir gün qız deyir ki, gedin atama deyin bizə icazə versin gedəy bı İnçə çayı deyilən yerdə çimək. Gəlib deyillər ki, bəs padşah sağ olsun, qızın deyir ki, bizə icazə versin, gedəh qızlarnan çayda çimək. Deyir:

– Qızıma qurban olum. Mənim gözümün ağı-qarası bircə qızım var.

Əmr verir ki, hər tərəfə elan verin ki, səhər o teretoriyaya bir insan hərrənməsin. Kim hərrənsə, boynu vurulajax. Hər tərəfə də qaroulçu qoyur ki, bir insan bırda hərrənəndə görsün.

Səhər qızdar yığışır, qırx qız padşahın qızıynan gedillər çaya. Bir dənə prastinanı belə salıllar, padşahın qızının qızılını yığıb töküllər bı prastinanın üstünə. Bular gedir çimir, qayıdıb geyinəndə baxıllar ə, qızıllar yoxdu. Ay aman, ay dad! Bıra kim gəldi, kim getdi? Padşahın qızı başdıyır ağlamağa, özünü öldürməyə: “O mənim ən yaxşı qızıllarım idi, okqədər həvəsim də gəlirdi ona”.

Axşam düşür, birtəri qızı yola gətirib gətirillər evə. Padşaha xəbər gedir ki, bəs padşah sağ olsun, qızın zinəti itib, qızın ağlıyıb özünü öldürür. Deyir:

– Ə, qızımın başına dönüm, mənim xəzinəmdə tonnan qızıl var, zinət var.

Nə qədər aparıllar, deyir, yox ey. Qız günü-günnən başdıyır ağlamağa, özün öldürür. Padşah nəkqədər gedir, nə qədər qızıl gətirillər, deyir, yox. Fikirrəşir nağayrım, neyniyim? Elan verir ki, kim mənim qızımın qızıllarını tapıb versə, xəzinənin çox yarısın ona verəjəm, bı şahlığda da yer verəjəm yaşasın.

Bir gün keçir belə, iki gün keçir belə. Hamı axtarışda, aanda, baanda. Bir gün bı gəlin – həmən kasıb kişinin gəlini damlarının üstünə çıxanda görür ə, damın üstü alışıb yanır. Qızıl qolbağ, sırqa. Ayə bı nədi? Deyir, sən öl, bı padşahın qızının ayın-oynudu. Belə baxanda görür koramal ölüsü yoxdu orda. Tez bir dəsmal gətirir, yığır bı qızılı. Ərinə deyir:

– Gedərsən padşahın qapısına, heş kimə verməzsən. Özün aparıb padşaha deyərsən ki, ala bax, bı sənin qızıllarındı, tapmışam.

Bu gedir. Deyir ki, mən padşahın yanına girməliyəm. Deyillər:

– Ə, nəyə girirsən? Ver qoltuğundakın aparağ verək.

Deyir:

– Yox.

Gedib padşaha deyillər:

– Padşah sağ olsun, bir oğlan gəlibdi, qoltuğunda da bir dəsmal var. Deyir ki, padşaha verəjəm. Deyirik ver aparax verəy, deyir ki, yox, özüm verəjəm.

Deyir:

– Ə, bıraxın gəlsin.

Gəlir, padşahın qabağında açıb belə qoyur. Deyir, bı sənin qızılın. Bunu aparıllar qıza gösdərillər ki, budumu? Qız bını görəndə hopbanır, başdıyır oynamağa, sevinməyə. Okqədər şənnənir. Padşaha xəbər gəlir ki, xəstə nədi, qız bı saat elə oynuyur ku. Deyir:

– A bala, sən mənim qızımı xəstəlihdən qutardın, sağ ol. De görüm bını hardan tapbısan?

Deyir:

– Vallah, mən tapbamışam, mənim yoldaşım damımızın üstünnən tapıb.

Deyir:

– Yoldaşını bura gətirə bilərsənmi?

Deyir ki, niyə gətimirəm? Gəlir qıza deyir ki, sənin boyun qırılmasın, bəs neynirdin qızılı tapıb. Padşah səni də çağırır. Deyir:

– Ə, başın batmasın, noolajax, bizi öldürməyəjək?

Padşah deyir:

– Qızım, bı nətəər olubdu?

Deyir ki, padşah sağ olsun, bı oğlanın atası məni gəlin gətirəndə səhərisi günü üstümü kəsdi ki, bizim ağsakqallığımızı sən elə. Mən nə qədər boynumnan atdım ki, mənnən ağsakqal olmaz, siz ağsakqalsınız, razılıx vermədi. Axırı ki məni məjbur elədi. Mən də bulara dedim ki, indi ki belədi, siz dokqazımızdan çıxanda əliboş geri qayıtmıyın. Bir gün də mənim yoldaşım gedif sahəmizi suluyuf bəri qayıdanda görüf ki, koramal ölüsünnən başqa bir şey yoxdu. Koramal ölüsün gətirif tulluyub damın üstünə. İndi mən belə fikirrəşirəm ki, qara quş göynən uşduğu yerdə görüb kü, yerdə parıltılı şey var. Elə bilib ki, yeməli şeydi. Qalxıb onu vurub caynağına. Bizim damın üstünnən keçəndə, görüb kü, koramal ölüsü var, – koramal ölüsü yeməlidi axı, – qızılları tulluyub, koramal ölüsünü götürüb gedib. Belə olub mən tapmışam. Deyir, malades sənə. Xəzinənin yarısı sənindi. Özünü də gətirib padşahlığda nə qədər kadınnar var, qızdar var, onların ağsakqalı qoyur.

## 206. NƏ HAQQ VAR, NƏ DİVAN

İki nəfər deyir, gedəh bir yerdə pul qazanax gələk. Bular gedəndə biri deyir ki, mən buyün bu qapıda işdiyəjəm, pulumu alajam, səhər gedif ayrı yerdə işdiyəjəm. O biri də deyir ki, yox, qardaş, mən elə bir yerdə gediv oturajam. Azdan az, çoxdan çox. Axıra qədər işdiyəjəm.

“Bu qapıda işdiyəjəm, o qapıda işdiyəjəm” deyən gedir buyünnəri mana işdiyir on manat alır, aparıf xaşdıyır. İş tapbır. On manatı xaşdıyannan soora sana işdiyir. Amma o biri oturur bir yerdə elə qəpihdən, quruşdan yığır. Gedəndə də vaxt veriflər ki, məsələn, filan vaxdı bir qayıdıf gələjeyih də.

Vaxt gəlir çatır, bir yerdə oturub işdiyən deyif ki, ə, daa vaxt daralır, indi getmək lazımdı. Aylə, uşağ orda bizim yolumuzu gözdüyür, gedəh da. Deyir ki, ayə, mənim heş bir şeyim yoxdu axı. Mən bu qapıda işdədim, qazandım, yedim, o qapıda işdədim, yedim. Deyir, mən nağayrım? Onda sən qal işdə, mən gedim. Deyir, yaxşı. Soora nə ağıl eliyirsə, deyir, yox e, mən də sənnən gedirəm day. Əliboş olsa da, mən də gedirəm sənnən.

İndi bılar cüt gəlillər. Gəldihləri yerdə o boş gələn fikirrəşir ki, ə, bı gedəjək, bının əlində pulu-zadı. Bının aylәsi sevinəjək, bə mən nağayrım? Fikirrəşir, deyir, yaxşısı bıdı gəl bını öldür.

Bulax varmış, bulağın başında oturuf bir az sudan-zaddan içillər. Dincələndə bıçağı götürür sancır bının böyrünə, bı yazığ ölümcül olur. Deyir ki, ə, indi ki, belə elədin məni, ta mən ölürəm. Onda gedəndə bax bı qəpih-quruşdan bir az mənim də ayləmə verginən, bilirəm bınnan ötrü sən məni öldürdün. Bir də mənim yoldaşım hamileydi. Əgər oğlum olsa adını qoysun Nə hak var, nə divan. Bı ölür, bının üstünü basırır, çıxır gəlir. Bunun aylәsi də gəlir deyir ki, a, bə cüt getmişdiniz, niyə tək gəldin? Deyir:

– Vallah, xəstələndi öldü, day mən onun meyidini hara gətirəjeydim? Basırdım orda, gəldim. Beş-on şaad da onun qazancıydı. Bunu götür.

– Bə ayrı nə dedi?

– Dedi ki, yoldaşım hamileydi, əgər uşağı olsa adını qoysun Nə hak var, nə divan.

Deyir ki, iki gündü oğlum olufdu, adın qoymamışıx. Uşağın adın qoyullar Nə hak var, nə divan.

Uşax yekələnir, on dörd, on beş yaşına çatır. Bir gün ölkənin şahı vəziri çağırır, deyir ki, gəl bir çıxağ ölkəni səyahət eliyəh, görək harda nə var? Vəzirnən ikisi də dərviş paltarı geyinif gedir. Belə

getdiyi yerdə görür kü, uşaxlar top-top oynuyur. Biri çığırır Nə hak var, nə divan. Nə hak var, nə divan, topu vur, topu vur. Padşah qayıdır uşağın yanına. Deyir:

– Nə, nə dedin?

Deyir ki, baba dərviş, o uşağın adı Nə hak var, nə divandı. Deyir ki, heylə də ad olar? Deyir ki, nə bilim, vallah, valideyinləri heylə ad qoyub da. Padşah vəzirə deyir ki, qayıtdıx, bəsdi gəzdiyimiz.

Qayıdır gəlir, şah paltarını geyinir taxtda oturur. Əmr eliyir ki, gedin o uşağı tapın gətirin, onun valideynin də gətirin. Gələndə arvada deyir ki, uşağın adın niyə helə qoymusan, Nə hak var, nə divan? Deyir ki, vallah, nə deyim. Bının atası yoldaşıynan getdi işdəməyə. Orda bının atası xəsdələnif ölür. Bu adam da gəldi maa dedi ki, o kişi vəsiyyət elədi ki, uşağın adın qoy Nə hak var, nə divan.

Deyir ki, o adamı tapın gətirin bıra. Tapıb gətirillər. Deyir:

– Ayə, nətər olubdu, bunu söylə mana. Onsuz da səni öldürəjəm, amma bəri başdan söylə.

Bı qorxusunnan açır deyir ki, vəziyyət belə oldu, öldürdüm, belə basırdım, pullarına sahib çıxdım. Deyir:

– Bını asın, boynunu vurun.

Arvada deyir ki, indi ged uşağın adın qoy Hak da var, divan da.

## 207. İNSAN NƏSLİNƏ ÇƏKƏR

Şah Abbasnan vəziri, ümümiyyətlə olar hər gejə gedillərmiş, gəzillərmiş məmləkətin müəyyən yerlərini. Bir gün də gedəndə görüllər ki, bir uşaq səsi gəlir, körpə uşax qığıltısı gəlir. Gedib yaxınnaşıllar ki, bələhdə təzə olmuş bir uşaxdı. Deyir, vəzir, bu nə işdi gorən? Deyir, vallah, nə bilim, kimsə qoyuf, çıxıf gedib. Uşağı götürüllər, gətirillər evə. Özü də deyir ki, vəzir, bu hadisəni bir sən bilirsən, bir də mən bilirəm ha... Bunu heş kimin yanında aşmırsan. Guya bunu öz uşağı kimi böyüdüllər, eliyillər. Bu on dörd, on beş yaşına çatanda, deyir ki, vəzir, indi baxax görəh bı kimdi? Bunun nəslini, kökünü örgənəhmi? Deyir kin, örgənəh. Deyir ki, onda belə elə. Bir

ov təşkil elə, özün də bunun yanınnan heç aralaşma. Bax gör bı nəynən maraxlanır, nəyə marağ gösdərir.

Gedillər bılar, bir xeylax gedillər, yorulullar. Bir yaxşı dolu su gedən arx varmış, bunun da qırağında çoxlu söyütdər əkilibbiş, söyüd ağajdarı. Kölgədə oturanda uşax belə baxır, baxır, deyir ki, vəzir, gör nə düz putaxları var ey. Bunnan yaxşı ələy, xəlvir saxnağı olar. O vaxtı da fanelka yoxudu, saxnağı qaraçılar söyüdün putağınnan düzəldirdilər. Həə... Elan eliyir ki, ov qutardı, gedirik evə. Gəlillər. Deyir ki, vəzir, nooldu? Deyir:

– Bəs bir söyütdühdə oturmuşdux, oğlunuz baxdı ki, söyüdün yaxşı düz putaxları var. Dedi ki, vəzir, gör bunnan nə ələh saxnağı, xəlvir saxnağı olar ey.

Deyir:

– Həə, deməli, qaraçı uşağıdı. Əslində olan dırnağında bildirir.

## 208. SƏN MƏN DƏRDLİSƏN, MƏN DƏ SƏN DƏRDLİ

Bir kasıb oğlan varmış, başqa kəntdən bir qız alır gətirir, ər-arvad yaşıyıllar. Bu kəndin də bircə dənə bulağı varmış. Bulax da qazının qapısındeymiş. Gəlin xeylağı gedib su gətirməlidi. Bı gedir su gətirməyə, qazı gəlir bunun boynunun dalın kəsir: "Gəl mənnən bir ol". Bı gəlin də utandığınnan ölür, yerə girir. Bir gün belə, iki gün belə, bir ay belə... Qazı bunu hələkdən salır. Gəlin fikirrəşir, mən nağayrım? Bunu yoldaşıma deyəjəm, kasıv oğlandı, gedib qazıynan dalaşajax, tutdurajaxlar, öldürəjəhlər. Neyniyim, nətər eliyim? Deyir, da əlaj yoxdu, deyəjəm. Bir gün yoldaşına deyir ki, bilirsən nə var? Bu kəndin ayrı yerdə bir su gətirməy yeri var? Deyir:

– Yox, heş yerdə su yoxdu, bircə o bulaxdı.

Deyir:

– Bəs onda nağayrım mən?

Deyir:

– Nətəri, nolub?

Deyir:

– Vallah, neçə vaxdı saa demək istəmirəm, amma indi deyəjəm.

Deyir:

– De.

Deyir:

– Bax, mən gedirəm suyun başına su gətirməyə, qazı gəlir mənim başımın üstün kəsir ki, gəl mənnən bir olax.

Deyir:

– Heylə?

Deyir:

– Hə.

– Ayə, başın batmasın, bını maa niyə qabaxcan demirsən? Tez o xurcunu gətir maa, içinə də iki dənə çörəh qoy. Mən xurcunu çiynimə salıb gedəjəm qazının yanına, deyəjəm ki, qazı, mən gedirəm uzax bir səfərə, sən allah, mənim ayləmə də bırda göz ol dana. Gedim görüm bı kasıbçılığın daşını ata bilirəmmi, bir az puldan-zaddan qazanım gətirim. Keçəjəm dağın dalına, sən gənə gedərsən bulağa. Gəlib sana söz atanda deynən ki, day bir kişiydi, o da çıxdı getdi. Da bırda bı camaatın içində maa niyə söz atırsan. Hərrən gəl evə, evdə nə sözün var məsləhətdəşəh.

Bu belə də eliyir. Gedir qazının yanına, xurcunu da çiynində. Deyir:

– Ay qazı, səən başına dönüm, mən gedirəm uzax səfərə. Gedim görüm bir az çörəh pulu qazana bilirəmmi. Sən allah, mənim bu ayləmə də bir baş çəhginən.

Deyir:

– Ə, mənim gözüm üstə, arxeyin getginan.

Bı təpənin dalına keçir, gəlin səhəngi götürür gedir bulağa. Suyu götürəndə, qazı gəlir bunun boynunun dalını kəsir. Deyir ki, day indi bı iş o işdən döyül. Burda maa söz-zad demə, camaat ayannan-bayannan baxır. Gəl evə, evdə arxeyin oturub söhbət eliyərik.

Deyir:

– Heylə?

Deyir:

– Hə.

Qazı hərrənir gəlir, oturur evdə, bu da suyu gətirir. Deyir:

– Sən arxeyin otur, mən suyumu, səhəngimi boşaldım-eliyim, rahatdaşım, onnan soora gəlim oturum, söhbətdəşək.

Deyir:

– Yaxşı.

Elə belə çevriləndə birdən gəlin deyir:

– Booy, kişi qayıdıf gəlir, görəsən nə yadınnan çıxıf, – deyəndə, bı qazı deyif:

– Ə, bə mən nağayrım, neyniyim?

Bularda da boyük bir küp varmış. Deyir:

– Gir bu küpün içinə, ağzını bağlıyım. Kişi gəlib indi nə deyəjək, nə demiyəjək, onnan soora qayıdıf gedəjək. Onnan soora açaram, çıxarsan.

Qazı girir küpün içinə, gəlin bunun ağzın bağlıyır. Kişiyə deyir:

– Ay kişi, sən allah, niyə qayıtdın gəldin, noldu, nə yadınnan çıxıb?

Deyir:

– Arvad, bilirsən nə var? Mən getdiyim ölkə var e... Deyillər ki, orda bir küp bir ton qızıldı. O küpü şəllə mənim dalıma, aparajam.

Deyir:

– A kişi, etmə, eləmə, bə deyirdin atamdan yadigardı, anamdan nə bilim nədi. Bunu hara aparırsan? Aparmaginan.

Deyir:

– Çox danışma ey, küpü gətir şəllə dalıma.

Küpü gətirir şəlliyir kişinin dalına. Kişi gedir, gedəndə bizim bu İnçə çayı kimi bir çayın döşündə yorulur, oturur küp dalında. Görür kü, bu çayın sahilinə çoxlu yun töküflər, bir qəşəh gəlin də çirmənif burda yun yuyur. Bunun da böyründə bir oğlan bunnan söhbət eliyir. Birdən bı oğlan qayıdır ki, ağız, birdən sənin ərin gələr, bə mən nağayraram? Deyif ki, başın batsın, nağayrassan ə? Görmürsən bir tonnan artıx yun var burda. Gir o yunun altına, ustünü basırım, o gəlib gedənnən soora çıxarsan yunun altdan.

Bının əri gəlir, yun yuyanın. Təzdənnən bular çaydan, çörəhdən yeyillər, ər-arvatdı da, sözdən, söhbətdən... Birdən oğlan belə

baxanda görür kü, küp dalında biri oturub bulara baxır. Qayıdır bına deyir:

– Ə, avara oğlu avara, utanmırsan ordan durub baxırsan? Görmürsən ki, gəlin xeylağı burda çirmənib yun yuyur. Ayıb döyül sənnən ötrü, baxırsan? Sarsağın biri sarsax.

Deyir:

– Ayə, mən ölüm, söyünc eləmə, sən də mən dərtdisən, mən də sən dərtdiyəm.

Deyir:

– A, sarsax-sarsax danışma. Nə sən mən dərtdi, mən də sən dərtdi?

Deyir:

– Canınçün, mən də sən dərtdiyəm, sən də mən dərtdi.

Deyir:

– Ə, çox uzun danışma. Sən öl, gəliv o küpünə bir daş vuraram, çiliy-çiliy olar.

Deyir:

– Sən öl, sən mənim küpümü qıran kimi mən də sənin yununu çaynan bir eliyəjəm.

Bı eləmir tənbəllik, gəlir bının küpünə bir daş vurur. Qazı çıxır içinnən. Bı da yüyürür yunu çevirir, altınnan oğlan çıxır. Deyir:

– Gördün, sən də mən dərtdisən, mən də sən dərtdiyəm.

## 209. OĞRU ÇOBAN

Rəhmətdik atamdan eşitmişəm. Deyirdi ki, camaat gedirmiş haca. Bir dənə də çoban varmış. Bu çoban çox oğru çobanmış. Bulara deyir, məni də aparın. Bular deyir, bunu apararıx, gedif orda oğurrux eliyər, bizi biyabır eliyər. Nə qədər eliyillər çobanı özlərinnən ayıra bilmillər. Çoban bularnan gedir. Gedillər gejəliyillər, bir yerdə yatıllar. Bular sözdəşir ki, elə durax gedək ki, çoban yatılı qalsın. Bular durullar, elə dəvərillər çoban xəbər tutmur. Bir də o vaxdı ayılır ki, heş kim yoxdu. Amma baxır görür uzaxdan bir korun-korun işıx gəlir. Durur gedir ora. Gedir görür ki, beş dənə uşaq, bir

dənə də qadın, böyük qazandı bunu qaynadır. Bu da oturur. Salamdan-kalamdan soora deyir:

– Ay bajı, bu uşaqlar səhərdən ağlaşır. Sən elə səhərdən deyirsən bişdi, bişdi. O qazanda nə var? O heç bişmədi? Uşağın ağlaşması kəsmədi.

Deyir:

– Ay qardaş, sənnən nə gizdin. Uşaqların atası dünyasın dəyişif. Mənim də heş nəyim yoxdu. O uşaqlar bir həftədi ajdı. Bax bu qazanın içində bir yekə daşdı, beş-altı vedrə sudu. Belə eliyirəm ki, səhər açılsın, görüm hardan olara bir tikə çörək taparam.

Bu çoban deyir ki, bajı, bura yaxın harda bir ferma var? Deyir:

– Qardaş, orda bir ferma var, amma onun yaman çox itdəri var. Üzdən uzaq, getsən səni parçalıyar.

Deyir:

– Sənin işin yoxdu.

Kişi gedir, beş dəyqədə bir əmlik quzu gətirir, soyur, doğruyur, daşı çıxardır tökür qazana. Bunu beş dəyqədə soyutma eliyir. Uşağı qaldırır qoyur qabağına. Yeyillər, içillər, qalanı da qalır burda. Səhər açılır. Çoban qayıdır, kor-peşman çıxır gedir.

Bu haca gedənlər gedillər. Deyilənnərə görə hacın qapısı qurbannan qurbana açılır. Bular gedillər görüllər hələ qurbana üş gün var. Bular baxa-baxa çoban çəkir qapını açır, keçir içəri, ziyarət eliyir. Bular da istiyillər ki, çobannan bir yerdə ziyarət eləsinnər. Qapı örtülür, açılmır. Bular deyir:

– Ay allah, bu nejə sirdi? Biz bu oğru çobanı orda qoydux gəldik. Bu gəldi bizdən qabax ziyarət elədi. Biz girib ziyarət eliyə bilmirik, bu ziyarət elədi çıxdı.

Nəysə, üş günnən soora açılır hacın qapısı, ziyarət eliyif gəlillər çobanın yanına. Çoban buları görəndə deyir:

– Niyə məni qoydunuz qaşdınız?

Deyillər:

– Ay çoban, bij-bij danışma, sən bizdən qabax gedif ziyarət eləmisən. Biz getdik ki, hələ üç gün var ziyarətgahın qapısın açılmağına, sən qapını aşdın, ziyarət elədin gəldin.

Bu and içir, aman eliyir, bular inanmır. Deyillər:

– Bəs sən bizdən ayrılannan soora hara getdin?

Halı danışannan soora deyillər, sən ziyarəti o əməlinnən qazanmısan.

Görürsənmi, qurban olum, səxavət burda ibadəti sürtdü. Bir adamın qəlbinnən bir şey keçirsə, məjbur da olsa, onu onun əlinə ver. İnşallah, Allah əvəzin verər. O dünyada da üzün ağ olar, bu dünyada da.

## 210. OFSANATA DÜŞƏN TİKƏ

Bir günnəri bir oğlanın atası ölür. Bunun da bir oğlu, bir gəlini varmış. Bu oğlan atasına yaxşı ehsan verir. Yeyir-içir camaat, durur gedir. Bu gəlin utanır, nə özü qabağa duruf bir tikə çörək yemir, nə də qaynənə demir, a bala, otur surfada bir tikə də sən çörək ye. Gəlinin ajınnan ürəyi gedir. Arvad bir boşqabı doldurur gəlinə verir ki, apar qonşuya ver, gəl. Gəlin qonşuya gedəndə deyir:

– Ay allah, ajınnan ürəyim gedir, mən nağarım?

Keçir mal pəyəsinə, boşqabı qoyur qabağına doyunca yeyir, boşqabı da gətirir qaynənəsinə verir. Deyir:

– Ay xala, apardım qonşuya verdim, bu da boşqab, gətirmişəm.

Oğlan gejə yatır. Yuxusunda görür ki, atası gəldi. Deyir:

– Oğul, çox sağ ol, üzün ağ olsun, mənə yaxşı ehsan verdin, amma bircə dənə o pəyədəki ofsanata düşdü.

Bu oğlan yuxudan ayılır. Deyir:

– Ay ana, belə bir yuxu görmüşəm.

Deyir:

– Ay bala, pəyədə nə var yuxuda görəsən?

Bu oğlan üş gün yatır, eyni yuxunu görür. Səhər durur anasını da gətirir bura, yoldaşın da. Deyir:

– Bax, siz məni başa salın görüm o pəyədəki nədi? Atam hər gejə bu sözü mənə deyir.

Arvad deyir:

– Ay bala, vallah mən heç zad bilmirəm.

Gəlin deyir:

– Sən allah, məni dannamıyın, mənə ajığınız tutmasın. Ölürdüm ajınnan, utandım səə deyəm. Sən də demədin çörək ye. – Qabaxkı gəlinnərdə bir ayrı həya vardı. – Bəs qonşuya verdiyin payı apardım, otdum o pəyədə, o yeməyin hamısın yedim.

Deməli, orda bəlkə üç yüz, dörd yüz adam xörək yeyib, bircə o pəyədəki bir boşqab ofsanata düşüb. Sən əlinnən beş dənə kanfet verə bilərsən, onun biri ofsanata düşər. O da havaxtsa səə çox köməklik eliyər, sənin çox günahlarını yuya bilər.

## 211. ODUNÇUNUN NAĞILI

Deyir, Musa peyğəmbər gedirmiş Tur dağına Allah-taaladan söz alıf gətirirmiş. Bir kişi də pastayannı gedif meşədə ağac kəsirmiş. Gətirirmiş bu ağacı bir çörəyə satırmış, ayləsini dolandırırmış. Bunun yoldaşı deyir:

– Ay kişi, canınnan bezdin, nə qədər meşəyə gedərsən, odun doğruyarsan? Musa peyğəmbər gedəndə sən öz halını ona de, Allahdan bizə də bir çörək istəsin.

Musa peyğəmbər gedəndə kişi gedir bu sözü ona deyir. Musa peyğəmbər də gedir Allah-taalaya deyir. Deyir:

– Get ona denən ki, Allahın çox əziz bəndəsidi. Onun çörəyin bacasınnan tökəjəm, darıxmasın.

Sabahı peyğəmbər gəlir kişiyə deyir. Kişi genə gedir meşəyə. Odunu kəsir, görür baltanı vurduxca nəsə səs eliyir. Baxır ki, bunun ortası açıxdı, koğuşu var. Bunun koğuşunda bir yekə küpə var, dörd dənə də qulpu var, ağzında da bir yekə zinciri var. Bunun ağzını açır baxır, görür içi dolu qızıldı. Durur sevinə-sevinə gedir. Deyir, arvada deyim, gün batsın, gələk aparax.

Kişi odunu da satmır. Gəlir oturur evdə. Deyir:

– Arvad, bilirsən nə var? Bəs Allah bizə belə bir çörək qismət eliyif. Gün batsın, gedək gətirək.

Bu qonşu da bulara gəzməyə gəlirmiş. Qonşu durur qapının dalında, görür bular danışır. Arvad deyir, hardadı? Kişi deyir filan ağacda, filan meşədə. Qonşu deyir: “Hazır çörəydi. Qızılı buna niyə

verim? Gedim gətirim". Qonşu bunnan qabax dəbərir gedir bu küpü şəlləyir dalına, gətirir qoyur evinə. Evində bunun ağzın açanda içinnən ilan-çiyan hamısı fısıllıyır kişinin üzünə. Tez ağzın örtür. Deyir: "Görürsən, qonşu qonşunun xayınnığın çəkər. Bu, mən getdiyimi bilif, ona görə bu sözdəri deyirmiş ki, gedif gətirim, məni ilan-çiyan yesin". Durur gətirir. Çıxır bu kişinin evinin üstünə. Qabax da evlər alçaq olarmış. Bunun bacasınnan tökür ki, arvadı, kişini öldürsün. Odunçu baxır görür ki, qızıl töküldü evin içinə. Bunu aparır satır, mal alır, qoyun alır. Bir oğlu varmış. Oğlun evləndirir.

Bir günnəri bunun gəlini deyir:

– Əmi, bu çörəyi sənə Allah verif, get indi Musa peyğəmbərdən soruş görək bu çörəyi bizə axıratan verəjək, yoxsa bizi genə meşə umuduna qoyajax? Əgər bu çörəyi bizdən alırsa, alsın. Amma axlımızı başımızdan almasın.

Gedir deyir:

– Ya peyğəmbər, get Allah-taalaya mənim sözümü de.

Peyğəmbər Allah-taalaya deyəndə deyif ki, get denən ki, rast ki ağıllı insannardı, ölənəcən o varı olara verəjəm. Amma bular nağarırmış, oğul. Gəlin hamıya döşdük tikifmiş. Oturuf surfa üstündə çörək yeyəndə bunu açıllarmış, yerə qoymullarmış bir balaca çörək düşə. Çörəyi heylə müqəddəs tutullar.

## 212. YAZIYA POZU YOXDUR

Şah Abbas öz vəziriynən çıxarmış məmləkətini gəzməyə ki, görüm mənim məmləkətimdə camaat nətər dolanır. Öz vəziriynən gələndə görür ucqar bir kənddə kasıb bir ev var. Gəlillər evə. Bular atdan düşüllər. Çal yox, çəpər yox. Düşüf atdarın bağlıyıllar, gəlillər görüllər bir qoca arvatdı, bir də hamilə gəlindi. Arvada deyillər:

– Ana, bizi qonaq saxlıyarsız?

Deyir:

– Allaha da qurban olum, qonağına da. Düşün.

Bular atları hörüklüyüllər, gəlif oturullar. Deyir, elə qapıda oturun, oğlum naxırçıdı. Maldan gələr, inşallah, siz də onnan bahəm

öyə girərsiz. Deyillər, lap yaxşı. Arvad bulara çay-zad rahlıyır, həyətdə verir. Gün batır, oğlu gəlir. Maldan gələndə görür ki, qonaqları var. Gəlir:

– Salamməlöykü.

– Əlöykümətsalam.

Buları çox gözəl qarşılıyır. Gətirir bir heyvan da kəsir, bulara yemək-içmək verir. Da bilmir ki, bu şahdı. Bular da bizim kimi adi geyimdə. Buların qarğıdan iki göz evləri oluf. Vəzir yatmıyıf, oyaxmış. Görür ağsakqal bir kişi gəldi girdi buların öyünə. Girəndə vəzir dedi ki, bu kimdi gejənin bu vaxtı gəldi girdi camaatın öyünə. Çəkir qılıncın durur qapının dalında. Çıxan kimi tutur bunu:

– Əmi, sən kimsən, nəçisən?

Deyir:

– Mən bəxt yazanam.

– Nə bəxt yazırsan?

Deyir:

– İnsannarın taleyin, bəxtin yazıram. Bu çobanın oğlu oluf, sənin şahının da qızı oluf. Buların taleyin bir-birinə yazmışam.

Vəzirə deyif, get hələ bir şahı durğuz. Vəzir guya şahı durğuzmağa gedir, baxır görür həmin şəxs yoxdu. Vəzir bunu hərriyir fikrində ki, bu nətər olan şeydi? Şahı durğuzur. Səhər çaydan-çörəkdən yeyif gedillər. Yolda şaha deyir ki, şah sağ olsun, gecə belə bir möcüzəyə rast gəlmişəm. Dedi:

– Nədi?

Dedi:

– Sənin qızın oluf.

Dedi:

– Nə bildin mənim qızım oluf?

Dedi:

– And olsun Allaha, mənə bu gecə dedilər onu. Bizim qaldığımız öydə çobanın oğlu oldu. Onun taleyin sənin qızına yazdı.

Dedi:

– Belə şey olmaz, mənim qızım çobanın oğluna gedəjək? Mən bu yazını pozaram.

Bular gedir, ilnən, aynan fırranıf gələndə yolu genə burdan düşür. Gəlillər görüllər ki, həqiqətən, çobanın ayləsinin qucağında totux-motux bir oğlan uşağı. Ana da ordadı, oğlan da naxırdadı. Gəlillər, bularnan görüşüf gedillər.

Bular burdan gedif çıxıllar öz vilayətdərinə. Sərkədəsini göndərir ki, getginən filan yerdə bir çoban var, onun oğlu oluf. Onu öldürərsən, mənə xəbər gətirərsən. Deyərsən, şah istiyir, onu mən aparmalıyam. Zornan da olsa, alarsan, xoşnan da olsa, alarsan. Deyir, yaxşı.

Sərkədə gəlir çobanın arvadına deyir ki, şahın oğlu yoxdu, bu uşağı mən aparmalıyam. Bizim dilnən desək, gopa-kələyə basır, bulara bir ovuc qızıl verir, uşağı alır aparır. Dedi, nə vaxt istəsəniz gəlif uşağa baxa bilərsiniz, filan yerdədi. Oğlan vermək istəmir. Anası deyir ki, bala, ver getsin, dolanışığımız yaxşı olar.

Gələndə vəzir bunu sıldırım dağın başınnan atır. Bir quş gəlir, düşür bu uşağın bələyinin altınnan. Aparır bu uşağı bir komaya endirir. Bir ceyran öz balasın orda saxlıyırmış. – Deyəsən bir az cəfəngiyat oldu. – Uşaq gəlif ora düşəndə uşağı yönləndirir həmən kol komasına. Allahın hökmüynən bu uşağı ceyran əmişdirir, bu uşaq böyüyür. Bir odunçu varmış. Meşədən odun qırır, aparıf satır, bu odunnan dolanarmış. Həm də yay-oxu varmış, qənşərinə hansı ov çıxsa, vurarmış, ayləsin dolandırarmış. Görür ki, bir ceyran qaçır, arxasında balası. Onnan da dalda bir uşaq qaçır. Kişi gəlif görür ki, gözəl-göyçək oğlan uşağıdı. O vaxdı vəzir baxmışdı ki, uşağın sağ tərəfdə çiyninnən boynunun arasında bir yekə qara xalı var, üstündə tək-tək tükü var.

Bu uşaq çatır on altı-on yeddi yaşına. Bular bir neçə il hərrənir. Şah bir gün deyir:

– Gedək məmləkəti gəzək.

Bular gəzillər, dolanıllar. Gəlif çıxıllar həmən kişinin evinə. Kişinin adı Əhməd olur. Uşaq gələnnən soora o qədər varranır ki, Allah-taala bu uşağa o qədər gözəl nitq verir ki, o qədər buna elm-helm verir, bu uşaq başdıyır burda camaatı düzgün yola çəkməyə. Əhməd uşağın adını qoyur Məhəmməd. Vaxt olur ki, bular gəlif

burdan keçəndə deyillər ki, burda gözəl bir çayxana var. Burda cavan oğlan var, and olsun Allaha, camaatı heyran eliyir danışığınnan. Bular dönüllər həmən çayxanaya. Baxıllar görüllər bu uşax çox qabiliyyətdi uşaxdı. Vəzir bu oğlanı o qədər süzür, süzür. Şaha bir söz demir. Məmləkəti dolanıf bir də gedillər. Vəzir deyir:

– Şah sağ olsun, o uşaqdan mənim gözüm su içmir.

Deyir:

– Niyə?

Dedi:

– Vallah, o biz görən uşaxdı, çobanın uşağıdı.

Deyir:

– Əşi, heylə şey olmaz.

Deyir:

– Deyəsən heylədi.

Nəysə, qayıdanda yollarını ordan salıllar. Vəzir bu uşağı çağırır yanına. Əlini atır boynunun dalına, çəkir paltarı, görür ki, həmənki oğlandı. Şah bir namə yazır. Uşağa deyir ki, apar bunu ver mənim vəzirimə. Şah naməni yazır, möhürrüyür, verir buna. Bu da qoyur papağının arasına, ya allah, düşür yola. Gedir çatır şahın vilayətinə. Gəlif girir, şahın bağında yatır.

Qız yuxusunda görür ki, həmin oğlan gəlif. Gəlif görür oğlan yatıf, papağının arasında kağız var. Kağızı götürür. Görür dədəsi yazıf ki, Becan, bunu çatan kimi şakqala, as darvazanın ağzınnan. Qız da naməni dəyişir ki, vəzir, bu oğlan ora çatan kimi mənim qızımla evləndirərsən.

Buların gediş-gəlişi çox çəkir. Vəzir buları evləndirir. Bular gələnə qədər iki-üç il keçir aradan, bunun bir oğlu olur. Bular eşidillər ki, şah gəlir, hamısı çıxır şahın pişvazına. Çıxanda baxıllar ki, üç nəfər gəlir: biri cavan oğlandı, biri şahın qızıdı, bir də oğlanın qucağında bir oğlan uşağıdı. Vəzir deyir:

– Şah sağ olsun, o qoşunun qabağında gələn var ha, o sənin qızındı. Onnan arxadakı həmən oğlandı, qucağındakı da sənin nəvəndi.

Deyir:

– Heylə şey olmaz.

Deyir:

– Görəjəksən.

Gəlir deyir:

– Becan, bu nə olan işdi?

Becan da kağızı saxlamışmış. Deyir:

– Şah sağ olsun, mənə göndərdiyin kağız bu döylü? Mən də sən yazana əməl eləmişəm.

Qardaş, yazıya pozu yoxdu. Şah orda oğlanı oğulluğa götürür, olara təzədən toy eliyir, orda şad-xürrəm yaşıyıllar.

*Söyləyici nağılı anasından eşidib.*

## 213. ÇÖRƏK DOSTU

Bir cavan oğlan olur. Evlənir, bunların övladı olmur. El-aləm hamısı ağzını tutur göyə dua eliyir ki, Allah bunlara bir övlad versin. Gəlir bunların bir övladı olur, bu uşax oğlan uşağı olur. Üç yaşı tamam olanda Allah-taala Cənabi Əzrayılı yolluyur. Deyir, getginən o uşağa denən ki, nəbadə-nəbadə evdə tək çörək yeyə. Qonşu uşağınnan, qaçannan, gedənnən, gələnnən çağır, çörək ye.

Bu həddi-buluğa çatınca qonşu uşağınnan, qohumnan, övlat-nan, yol ötənnən yeyir. Həddi-buluğa çatanda bu hec kimi tapmır, üç gün qalır aj. Çıxır el yoluna ki, görüm bir adam taparammı, gətirim, çörək yeyim. Çıxır, görür budurana, yolnan bir qoja dərviş axsıya-axsıya gəlir. Deyir:

– Dərviş baba, görürəm yol gəlmisən, gedax bir az çay içax, çörax yeyax. Dincəl, soora get. Uzax yol gəlirsən.

Deyir:

– Oğul, nolar, gedax.

Gəlif oturullar, çay içillər, çörək yeyillər. Deyir ki, baba, sənin oğuldan-qızdan züryətin yoxdu, sən bu sinidə düşmüsən yola? Bu sirkələnir, donnan çıxır, deyir:

– Oğul, mən Əzrayılam, insannarın canın alanam. Mən dərviş döyüləm ha.

Deyir:

– Hə baba, indi ki, Əzrayılsan, insannarın canın alansan, de görüm cənnətə kim gedəjeh, cəhənnəmə kim gedəjeh?

Deyir:

– Oğul, onu burda mən saa deyəmmiyəjəm. Qonşuzda filankəsin oğlu can verir. Üş günnən soora gələjəm onun canın alam. Gəlif durarsan qapının ağzında, sənin gözünə görükəjəm, heş kimin yox. Bir sən göressən məni, onda bilessən cəhənnəmə kim gedir, cənnətə kim gedir.

Oğlan gəlir durur qapının ağzında. Görür budurana Əzrayıl gəlir, əlində bir qara xançal, bir qırmızı alma, atıf tuta-tuta gəlir. Deyir ki, qardaş, burdasan?

Deyir:

– Hə, burdayam.

Kecir içəri, xəsdənin ayağınnan durur başa baxır, başdan durur ayağa baxır. Almanı dilimliyir, yedirdir oğlana. Deyir:

– Oğlan, bu cavandı, dünyadan heş bir tam dadmıyıf, bunu yolladım cənnətə. Filankəsin gəlini can verir, üş günnən soora gələjəm onun canın almağa. Genə sən gələrsən.

Bu görür ki, Əzrayıl qara xançalnan qara almanı əlində atıf tuta-tuta gəlir. Gəlif deyir ki, burdasan? Deyir ki, hə. Kecir, gəlinin ayaq tərəfində durur, baş tərəfə baxır. Xançalnan ayaxdan cırır, bunun canını alır. Deyir:

– Oğul, bu o qədər əməllər işdədib, bunu yolladım cəhənnəmə.

Deyir:

– Qardaş, indi de görüm, mənim canımı havaxt alassan?

Deyir:

– Oğul, sən çətin sual verdin maa, mən də çətin cavab verəjəm. Sənin talehinə yazılıf ki, sən evlənessən, gəlin gələjəh. Gəlin otağına gedəndə sənin canını alajam. Nə sən gəlinin üzünü göressən, nə də gəlin sənin üzünü görəjəh.

Deyir:

– Onda mən də heç evlənmiyəjəm.

Bu o qədər qalır, atmış yaşı tamam olur. Atası da ölür, anası da ölür. Qalır əmisi arvadının himayəsində. Əmisi deyir:

– Ay bala, atan da getdi, anan da getdi. Biz də qojalmışıx, gəl səni evləndirax da.

Öz-özünə deyir: "Altmış yaşım var, buyünnən soora ölsəm də neyniyim". Deyir:

– Nə deyirəm.

Gedillər buna öz yaşında bir qarı gətirillər. Bu gəlin otağına gedəndə görür qardaşı duruf qapının ağzında. Deyir:

– Qardaş, sözümüz sözdü ha.

Deyir:

– Qardaş, icazə ver, o mənim üzümü görsün, mən də onun üzünü görüm. Onnan soora al canımı.

Deyir:

– Yox, talehdə belə şey yoxdu. Onda çıx üzünü Allaha tut.

Çıxır, yönün tutur Allaha. Deyir:

– Ay məni yaradan Allah, məni dünyaya sən gətirmisən. İnsafdımı ki, altmış yaşında evlənəsən, qarı sənin üzünü görmüyə. sən qarının üzün görmüyəsən?

Allaha xoş gedir, deyir:

– Get onu döndər elə on beş yaşında cavan oğlan, cavan qız, qoy hər ikisi yaşasınnar.

## 214. ƏZRAYILIN DOSTLUĞU

Bir gün Azreyil yolnan gedirmiş kiminsə canın almağa. Görür ki, bir çoban qoyunu yayıfdı yaylağın döşünə, özü də süfrə açıb yemək yeyir. Çoban deyir, o kimdisə, piyada gedir. Elə mən də təkəm. Yaxşısı budu ona təklif eliyim, gəlsin, çörəyi iştahlı yeyək. Deyir:

– Yolçu qardaş, yolçu qardaş, sən allah, bəridən gəl.

Deyir:

– Ə, yol admıyam, tələsiyirəm. Nə deyirsən?

Deyir:

– Gəl bəri, çörək yeyək. Hara getsən, onsuz da çörək yeyəjəhsən. Elə mən də yeməyə adam gəzirəm. Gəlginən çörəyimizi yeyək, onnan soora sənə yaxşı yol, gedərsən.

Azreyil gəlir, xoş-beş, görüşür. Sudan verir, əlini-ayağını yuyur. Surfanı açır. Durur qoyunnan bir az süd sağır. Olanınnan-qopanınnan gətirir. İndi Azreyil hara, çoban hara. Bular indi məjbur olullar duz-çörək kəsillər. Əzrayıl deyir:

– Ay çoban qardaş, neçə ildi sən bu sürüynən yoldaşlıq eliyirsən?

Deyir:

– Vallah, elə gözümü açannan bunnan yoldaşlıq eliyirəm. Burdan belə axırını gözdüyürəm.

Deyir:

– Biz bu gün duz-çörək kəsmişik. Mənim sənə hörmətim o olar ki, bu duz-çörəyin hesabına mən sənin canını sürüdən qutarım. Ömrünün bu günnən beləsini yaşaginən.

Deyir:

– Nə deyirəm.

Deyir:

– Mən Azreyiləm. Mən yolumnan gedirdim, bir nəfərin canını almalıydım. İndi bir az ləngimişəm. Xəsdə oldu ağır, getdin gördün ki, mən onun baş tərəfindəyəm, ona yaxın getməginən. Otur ayax tərəfində, yola verginən, canın təhvil versin, çıx get. Yox, elə ki getdin gördün mən ayax tərəfdəyəm, ürəyin nə isdiyir isdəginən. Qorxmaginən, o xəsdə diriləjək.

Bir belə, beş belə eliyir. Bir gün bir ağır xəsdənin üsdünə gedir. Gedəndə görür ki, Azreyil oturuf başda. Xəsdə də varrı-hallının biridi. Deyir, mən nağarım, bu çıxacaxdı əlimnən. Buna mən nətər fırıldax gəlim? Deyir:

– Xəsdənin başın ayağa çöyürün, ayağın başa.

Azreyil görür ki, buna fırıldax gəldi. Dedi:

– Yaxşı, baxarıx.

Hesab-kitabın alıf çıxır gedir. Azreyil gəlir çobanın dalınca. Deyir:

– Çoban, şərtimiz şərt idi, şərtimizi pozan sən oldun. İndi növbə sənindi, hazırlaş, gəlmişəm canını almağa.

Deyir:

– Etmə-eləmə, mən nağarmışam?
Deyir:
– Onnan artıx maa neyləməliydin? Mana fırıldax gəldin.
Deyir:
– Onda kəsdiyimiz o çörək, icazə ver mən üç rükət namaz qılım, onnan soora mənim canımı al.
Deyir:
– Baş üsdə.
İki rükət qıldı, üçüncünü qılmadı. Dedi:
– Noldu?
Dedi:
– Ə, havax kefim gələjəh, onda qılajam.
Azreyil bunu güdürdü. Eşitdi ki, səhər İmişlidən çıxıf gələjəh Əlqullara. Azreyil bunnan qabax gəldi bura. Gördü çoban qoyun otarır. Dedi:
– Salamməlöyküm.
Dedi:
– Əlöykümətsalam.
Dedi:
– Ay çoban qardaş, sən paltarı ver mana, qoyunnan da arxayın ol. İki-üç saatdan soora gəlif təhvil götürərsən.
Razılaşdılar, çoban getdi. Azreyil çoban paltarında qoyun otarırdı. Gördü çörək dostu kefnən gəlir. Başdadı namaz qılmağa. Qibləyə durmaq əvəzinə başqa səmtə durdu, səjdəyə səhv getdi. Dostu dedi:
– A qardaş, nağarırsan?
Dedi:
– Ə, namaz qılıram.
Dedi:
– Helə namaz qılırlar?
Dedi:
– Sən bilirsən namazı?
Dedi:
– Ə, niyə bilmirəm.

Dedi:

– Bir yönü qibləyə dur.

Durdu, bir rükət qıldı, iki rükət qıldı, üç rükəti tamam eliyəndə papağı götdü dedi:

– Dost, vaxt tamamdı. Sənnən hesabımız qutardı.

## 215. ƏMANƏTƏ XƏYANƏT

Bir günnəri Hind şahzadəsi qarşısına məqsəd qoyur ki, gedəjəm İmam Əleyhsalamın qəbrinin daim xidmətçisi olajam. Bir sandıxca qızılı vurur qoltuğuna, gəlir Nəcəf şəhərinə. Nəcəf şəhərində əttar tükanı vardı. Burda ibadət eliyillər, əttar da burda namaz qılır. Dedi, mən elə əmanətimi verəjəm bu əttara, saxlasın, gəlif alaram. Bir sandıxca qızılı gətirif verir əttara. Əttar bu gedənnən soora baxır görür ki, içi dolu qızıldı. Şeytan girir qəlbinə. Deyir, ə, ömrüm boyu işdəsəm bu qədər qazana bilmiyəjəm. Verəsi deyiləm bunu.

Bir azdan soora qızılı verən qayıdır gəlir. Deyir:

– Qardaş, mənim əmanətimi qaytar.

Deyir:

– Kimsən sən? Nə əmanəti, ə?

Deyir:

– O sandıxçanı ver.

Deyir:

– Nə sandıxça, ə. Mən səni görməmişəm, sən kimsən bura gəlif çıxmısan? Hardan gəlmisən?

Nəysə, bu kor-peşman gedir İmam Əli əleyhsalamın qəbrinin yanında yatır. Deyir:

– Ya Əli, sənin qəbrinə xidmətçi olmax üçün gəlmişdim, bir sandıxça da qızıl gətirmişdim. Verdim əttara, əttar indi qaytarmır. Deyir, səni tanımıram, sən kimsən?

Deyir, səda gəldi ki, səhər sübh tezdən get şəhər darvazasının ağzında dur. Birinci kim gəlsə, sənin əmanətini o qaytarajax.

Bu durdu yüyürə-yüyürə getdi, gördü bir abid dalında tay gəlir. Əynində köhnə paltar, bir sapın çəksən qırx yamağı tökülər. Dedi:

– Mən buna nə deyim? Bu yazıq özü dalında tay aparır.

İkinci dəfə getdi genə qəbrin üstüdə yatdı. Genə səda gəldi ki, sana dedim, get şəhər darvazasının ağzında dur, birinci kim gəlsə, sənin əmanətini o qaytarajax. Genə getdi, gördü həmən abid gəlir. Gənə bir söz demədi. Üçüncüdə Əli əleyhsalam qəzəbnən dedi ki, sana dedim, get şəhər darvazasının ağzında dur, birinci kim gəlsə, sənin əmanəti o qaytarar.

Getdi şəhər darvazasının ağzında durdu. Gördü abid gəlir. Abidə salam eylədi. Dedi:

– Mən İmam Əli əleyhsalamın məzarına xidmət üçün gəlmişdim, bir sandıxça qızıl gətirmişdim. Verdim əttara, əttar qaytarıf vermir özümə. Neçə gündü İmam Əlinin qəbrinin üstündə yatıram. Əli əleyhsalam buyuyur ki, get şəhər darvazasının ağzında dur, birinci kim gəlsə, sənin əmanəti o qaytarajax.

Dedi:

– Hə, sənin əmanəti mən qaytararam. Get tükandan aralıda otur, günorta namazına gələjəm, orda mən sənin əmanəti qaytararam.

Bu getdi oturdu aralıda. Abid gəldi, günorta namazı qılınıb qutarannan soora istədi əttar xütbə oxusun. Abid dedi:

– Yox, bu dəfə mən oxuyajam.

Dedi:

– Oxu.

Dedi:

– Qardaş, Allah heş kəsi heç kəsə boşdu eləməsin. Bu boşdulux nə yaman dərtdi.

Dedi:

– Ə, nolub?

Dedi:

– Birindən on qran almışdım, onun beş qranın verdim. Soora nə qədər axtardımsa, o adamı tapmadım ki, o beş qranı da qaytaram. Qardaş, yuxuda gördüm ki, ölmüşəm. İki yol gedir: biri cənnətə, biri cəhənnəmə. Gördüm cənnətə gedən yolla mən gedirəm. Getdim, Sirata çatanda bir nəfər çıxdı məni yaxaladı. – “Əyə, mənim borcumu vermisən ki, cənnətə gedirsən? Hay getdin hay”. – “Ay qardaş, səni

tapmadım. Vallah, billah, səni tapmadım. Neyniyim mən indi?" Dedi: "Tez ol sinəni aç". Deyir, sinəmi açdım, barmağını basdı sinəmə, cızhacız yandım. Qardaş, bax, bu yaranın yerini yüz təbibə, loğmana göstərdim, hələ müalicəsi yoxdu bunun. Bu əmanətə xəyanət nə pis şeymiş.

Əttar o tərəfə baxdı, bu tərəfə baxdı. Dedi:

– Ə, gəl bura, gəl bura. Gəl, oduu mənnən apar.

Gəldi, sandıxçanı verdi qoltuğuna, dedi:

– Qardaş, götür get, odunu mənnən kənar eylə.

## 216. ƏL AMAN

Loğman xəstələnifmiş, gözü ağrıyırmış. Oğluna deyir ki, get Ərəstuna denən, atamın gözü ağrıyır, nağayrım? Özü də siftə dilindən nə çıxsa, onu yadında saxla. Gedif deyif ki, atamın gözü ağrıyır. Bu da özünnən asılı olmuyaraq deyir ki, əl aman. Əl aman dediyinə peşman olur. Həmişə də ustasının xayınnığın çəkirmiş. Soora da deyif ki, bat-bat, içinə qurum qat. Palçıx elə, yap gözünün üstünə, qoy yatsın. Bat-bat da torpaxdı, qurum da peçin qurumudu. Bunun ikisin bir-birinə qatıf gözünə çəksə, təmiz kor eliyəjək. Gəlif dədəsinin yanına. Deyif:

– Siftəki sözü nədi?

Deyir:

– Əl aman.

Deyir:

– Əllərimi sarıyın, gözümü ovxalamayım. Soora nə dedi?

Dedi:

– Bat-bat, içinə də qurum qat, palçığ elə, yap gözə.

Deyir:

– Hə bala, o kor eliyəjeydi.

## 217. ƏMMASIZ İŞ OLMUR

Bir gün Loğman oğluna çox nəsiyət verir. Deyir, ay dədə, onsuz da hərə bir söz danışır da. Deyir, ay bala, hərənin bir söz danışdığına baxma, sən yaxşı işinnən əl çəhmə. Nəysə, bını oğluna isbat eləməyçün bir gün arvadı, gədə, oğlu, bir də özü... Bir dənə də madyan atdarı varmış. Gələndə bı arvadı mindirillər madyan atın üstünə. At da olur boğaz. Kəndin başına gələndə görür bir dəstə adam yığışıb bıra. Bı dəstənin içinnən bir kişi deyir:

– Bılara bax ə. İki kişi piyada gedir, bir arvadı mindiriflər ata.

Loğman xəlvətcə oğluna deyir:

– Oğul, gördün?

Nəysə, indi özü minir ata, oğluynan arvadı piyada gəlir. Kəndin ortasına çatanda görüllər ki, bir dəstə adam deyir:

– Ayə, buna bax e, buna. Bir ağsakqal kişi miniv ata, bir uşağnan bir arvadı da piyada gəzdirir.

Tez düşür, uşağı mindirir. Xeyli gəlillər, gələnnən soora görüllər bir dəstə adam da burda durub. Deyir:

– Ayə, bıra bax ə, bir qoja yaşdı adam, yaşdı arvat piyada gəlillər, bir cavan uşağı mindiriflər ata. Bılar nətər adamdı, ə. Goruna çırax tutajax sənin?

Deyir:

– Oğul, gördün.

İndi bı dəfə bıların üçü də minillər ata. Kəndin əyağına yaxınnaşanda görür bir dəstə adam da bırda durub. Deyir kin, əyə, bir fikir ver bıların insafına, bı kişidə insaf yoxdu. Üç adam bir dənə boğaz atın belindədi.

Düşür bədbəxt oğlu başdıyır atı dalına şəlləməyə. Kəndin lap ayağına çatanda, görür bir dəstə adam da burda duruf. Deyir:

– Ə, xəsis oğlu xəsis, bir fikir ver, qıymır, atı da dalında aparır. Bu üç nəfər piyada gedir, bir atı dalına şəlliyiv aparır.

Deyir:

– Ay oğul, hər hansı bir yaxşı iş görsən, onun bir əmması olajax, ona bir əmma qoyan olajax. Sən baxma, get yaxşı işinnən məşğul olur. Nə qədər əmma qoyan olsa, sən yaxşı əməlinnən əl çəhmə.

## 218. BƏHLUL VƏ BİLİCİ

Padşah deyir, get a bala, gör bu ölkədə maraxlı adam varmı. Tap gətir mənim yanıma. Bu gedir hərrənir, fırranır. Bir kəndə düşür. Görür kü, bir kişi var, bu çox şeydən agah adama oxşuyur. Bunnan danışanda deyir, a kişi, mən hər şeyin yerin-yurdun biləm. Vəzir də sevinir. Deyir, bını aparım hökümdarın yanına, bu bizə çoxlu məsləhətdər verər. Hökümdarın da xoşu gələr, mana ənamdan-zaddan verər.

Nəysə, bunu da götürür gəlir. İçəri girəndə padşah deyir, baba, bizim bu ölkədə vəziyyət nejədi? Deyəndə, bu, əllərini qoyur yerə, əyaxlarını yuxarı qaldırıb başdıyır əllərinin üstündə yeriməyə. Padşah deyir ki, a bala, bu nə deməhdi? Bu adam qətiyyən dillənmir. Nəkqədər sual verir, buna heş bir cavab vermir. Deyillər, gedin Bəhlul Danəndəni çağırın, Bəhlul Danəndə bəlkə bunun dilini bilər. Gedillər Bəhlul Danəndəni çağırıllar. Bəhlul Danəndə gəlir. Deyillər, belə-belə. Deyir, bı deyir ki, sizin ölkədə bütün işlər baş-əyaxdı. Deyir, yox, bu Bəhlul Danəndənin özünün sözüdü. O həmişə bizə deyirdi ki, sizin bu ölkədə vəziyyət çox pisdi, işdər baş-əyax gedir.

Nəysə, olmur mümkün. Buna nə qədər sual verillər, genə heş bir cavab yoxdu. Buna da bir-iki qamçı çəkdirir, deyir, bunu hansı kəntdən gətirmisən apar ora. Gələndə bir çəhməçi tükanına girir. Çəhməçi tükanına girəndə görür kü, bir müştəri zakaz verdi ki, sən allah, sən mana elə bir çəhmə tikginən ki, heç olmasa mən onu altı-yeddi ay geyinim. Belə deyəndə bu kişi əlini əlinə vurub gülür. Vəzir də bunun yanında.

Nəysə, burdan çıxıf gedillər. Gedillər, görüllər ki, bir səhradı. Yolun ortasında bir qayadı, qayanın üstündə də bir falabaxan oturub, camaatın falına baxır. Bı bırda da əlini əlinə bərk vurur, gülür. Nəysə, aparır bunu kəndə. Kəndə gedəndə deyir kin, ə, sən allah, padşahın yanında heç bir suala cavab vermədin, amma ikicə şey soruşajam sənnən, bunu mutləq de. Biri o çəhməçinin yanında güldün e bərkdən. Niyə güldün?

Deyir:

– O zakaz verən çəhməçiyə deyir ki, sən allah, mana elə bir çəhmə tih ki, altı ay geyinim. Bədbəxt oğlu bilmir ki, savax öləjək, gedif altı ayın dərdin çəkir.

Deyir:

– Bəs o falabaxan?

Deyir:

– Fala baxan bədbəxt oğlu bədbəxt bilmir altında bir küp qızıl var, gedif onun-bunun falına baxır. Elə fala baxandısa, altındakı qızılı tapsın dana. Buna gülürəm.

Gəlir padşaha danışır. Deyir kin, ay padşah, belə-belə. Getdih çəhməçinin yanına, bu adam çəhməçinin yanında əlini əlinə vurdu, bərhdən güldü. Bir də o səhrada bir yerdə əlini əlinə vurdu güldü. Mən xəbər aldım, dedi bu vəziyyətdi də. Padşah dedi:

– Dur.

Durullar gəlillər, görüllər ki, küşdə bir çəhmə var. Deyillər:

– A bala, o çəhmə nə çəhmədi? Onu satırsanmı?

Deyir:

– Vallah, onu dünənləri bir nəfər adam zakaz verib mana, amma buyün xəbər çıxıb ki, həmən adam ölüb.

– Ayə, dur.

Durub gedillər. Gedillər falabaxana bir qamçı çəhdirir, durur qaçır. Deyir:

– Qazın buranı.

Qazıllar, görüllər burda üç küp qızıl var. Bunu çıxardıf götürüf gəlillər.

## 219. BƏHLULUN GÜLMƏSİ

Harun Rəşid padşah idi. Günnərin bir günü elan elədi ki, kim Bəhlulun güldüyünü maa gəlif xəbər versə, ona ənam verəjəm. Bəhlul da eşitmişdi ki, qardaşı Harun Rəşid başı tikələn alimlərin başını əkir. Bu fikirrəşdi ki, qardaşı olduğuna baxma, bir gün də bunun başını əkəjəh. Getdi bir qarğı at düzəltdi, başına ipdən yüyən, özünə ipdən şallax düzəltdi. Mindi, başdadı küçöynən çapmağa. O küçöynən çaper, bu küçöynən çaper, camaat baxer ki, Bəhlul dəli oluf. Onnan sonra ona Bəhlul Danəndə yox, Bəhlul Divanə dedilər.

Bəhlul Divanə at çapmaqda olsun. Harun Rəşid də elan elədi ki, kim Bəhlulun güldüyün maa xəbər versə, ona ənam verəjəm. Bəhlul atın çapmaqda olsun. Gəldi bir qəssab tükanının qarşısınnan keçəndə gördü ki, qəssab qoyun da kəsib, keçi də kəsib. İndi qırmaqdan asıllar, əvvəllər qoyunu qoyun ayağınnan asırdılar, keçini də keçi ayağınnan. Bəhlul əlini qulağına verdi, möhkəm güldü. Qəssaba da bu lazım idi. Qaçsın padşaha desin ki, padşah sağ olsun, bəs Bəhlul güldü. Qəssab tez əlin sildi, önlüyün açdı, qoydu üstünə. Getdi:

– Padşah sağ olsun, padşah sağ olsun.

Dedi:

– Eşidirəm.

Dedi:

– Bəhlul güldü.

Dedi:

– Elə şey ola bilməz.

Dedi:

– And olsun cıqqana, güldü.

Əmr elədi ki, Bəhlul hardadı tapın gətirin buraya. Bəhlulu tapdılar apardılar. Dedi:

– Qardaş, düzünü de görüm, indiyənəcən gülmüyüfsən. Buyün noluf ki, gülüfsən?

Dedi:

– Ə bədbaxt, hələ bilmirsən? Bir dənə alim qoymadın qala, hamısının başın əkdin. Sən yatan qarında mən də yatmışam. Mən

də elə bilirdim ki, o dünyada sorğu-sulada mən də günahkar olajam. Amma indi görürəm ki, qoyunu qoyun ayağınnan asıblar, keçini keçi ayağınnan. Camaata az söy, camaatı az incit.

Dedi:

– Qardaş, onda bir az otur, gör mən kimi söyürəm.

Elə bu mamentdə bir cavan oğlan qapıçıya dedi ki, məni padşahın yanına burax. Qapıçı gəlif dedi ki, padşah sağ olsun. Bir cavan oğlan gəlifdi ki, məni padşahın yanına burax. Dedi:

– Qoy gəlsin.

Gəldi. Salamdan soora qayıtdı ki, padşah sağ olsun, bir toyuğum kürt düşüfdü. Onun altına neçə yumurta qoyum? Axı bayax dedi ki, indi görəjəhsən mən kimi söyürəm, kimi inciderəm. İrağ üzünüzdən, dedi:

– Ay belə olmuşun oğlu, getginən toyuğun fərədirsə dokquz yumurta qoy, anaşdısa on yumurta qoy. A qardaş, mən belə kopoğlunu söyürəm da...

## 220. GÖYDƏ KÜÇÜK ZİNGİLDƏYİR

Bəhlul Danəndənin qardaşı padşah olur. Bu da olur zülmkar. Fikirrəşif ki, axırda qardaşımın camaata verdiyi zülmü mənnən çıxajaxlar. Özün vuruf dəliliyə. Bir qarğı atı minif çapıf ayna-bayna, guya bu dəlidi. İclas imiş, gəlif bu da ayaxdan oturuf. Padşaha bir neçə sual veriflər, padşah tapmıyıf. Deyir ki, icazə versəniz mən cavab verərəm. Deyiflər:

– Ver, nə fərqi var.

Padşaha deyiflər ki, mən gördüm göydə küçük zingilder. Hərə bir yannan deyif:

– Ə, ağlın-başın olsun, küçük göydə niyə zingildiyər? Qanadı var uça?

Buna cavab tapmıyanda Bəhlul deyir:

– Qardaşımın bu sözün niyə qəribliyə salersiz? Oba köçər, qancıx küçüklüyər. Döölət yiyəsi qancığı götürüf gedər, küçük qalar. Qara quş şığıyar küçüyü qaldırar göyə, küçük göydə zingildiyər.

Hamı deyir:

– Əhsən, bu düz cavabdı.

## 221. ONA QƏDƏR YA BORC YİYƏSİ ÖLƏR, YA MƏN

Bir gün Şah Abbas genə dərvişlibas oluf ölkəni gəzirmiş. Bir gün gedir, bazarda görür kin, hər şeyin qiyməti beş qəpihdi. Amma bir yemiş satan var, bı yemiş satan yemişi satır beş manata. Müştərilərin də hamısı gəlir bını dindirir, çıxır gedir. Şah Abbas özü də gedir:

– Ay bala, yemişi neçiyə verirsən?

Deyir:

– Beş manata.

Bı da almır. Görür bir künə[28] gədə gəldi, dedi, ay bala, yemişi neçiyə verirsən? Dedi, beş manata. Bu da çıxdı getdi, amma aradan bir xeyli keşmiş qayıtdı gəldi, beş manat verdi yemişi aldı. Yemişi aldı kəsdi, bir dilimin özü yedi, qalanın da bazardakılara payladı, çıxdı getdi. Dedi:

– Vəzir, bı əsayişi pozur. Camaatın heş biri beş manata bı yemişi almadı, amma bı aldı. Gedif oğurrux-zad eləmiş olar. Bını bir nişanala, gör bı hara gedir, hardan gəlir. Səhərə bını bir sorğu-suala tutax.

Gedir, görür bir darvazadı, qapıdan girdi içəri. Səhər deyir, ged gedəni tap gətir. Gedir gedəyə deyir:

– A bala, gəl.

Gələndə görür ki, nə? Sən öl, padşah qırmızı geyinib oturub taxtda, dar ağacı da qurulub. Deyir:

– Ay bala, sən mana denən görüm, dünənnəri o bazarda hamı gəldi o yemiş satanın yanına. Dedilər yemiş neçiyədi? Dedi, beş manata. Çıxıf getdilər. Sən hardan getdin o beş manatı aldın? Heş kəs almadı, sən aldın. Birdən oğurrux eliyərsən, xəzinə yararsan.

Dedi:

– Padşah sağ olsun, vallah, mən nə xəzinə yarmışam, nə oğurruğ eləmişəm. Yaxşı dosdarım, tanışdarım var. Elə olarnan bir yerdə dolanırıx.

Deyir:

---

[28] Künə – kasıb

– Bə hardan aldın beş manatı?
Deyir:
– Dosdumnan aldım.
Deyir:
– A bala, bə dosdun isdiyəndə beş manatı hardan alıf verəjən?
Deyir:
– Gediv o biri dosdumnan alıb ona verəjəm.
Deyir:
– A bala, bə o biri dosdun da isdiyəndə nətər?
Deyir:
– Ə rəhmətdiyin oğlu, sən hökümdarsan, onatan ya borc yiyəsi öləjəy, ya mən öləjəm.

## 222. ABDAL QASIM

Deyir, bir gün bir məclisdə Qasım məclisi şənləndirir-eliyir, bı bəyin xoşuna gəlir. Çıxardır bir kağız yazır, verir bına. Deyir ki, apar kəntxudanıza ver, saa hörmət eliyəjəy. Qışımış özü də. Qasım toydan çıxannan soora açır ki, yazıf: "Filan kəntxuda, Qasım kişiyə iki qatır yükü qar ver". Bu kağızı qatdıyır qoyur civinə. Okqədər gözdüyür kü, ta bəyin də yadınnan çıxır bı söhbət. Gözdüyür, xırman döyülən vaxdı aparır kağızı verir kəntxudaya. Deyir ki, bunu filan bəy verdi. Oxuyur, deyir ki, ə, yayın günündə, nə az, nə çox, iki qatır yükü qar ver. Deyir:
– Ə, Qasım, Allah öyünü yıxsın, mən bı yayın günündə, Qarabağın düzündə hardan alım saa iki qatır yükü qarı?
Deyir:
– Özün bil, vermirsən, vermə.
Deyir:
– Ə Qasım, gəl belə eliyəh. Neynirsən qarı. İki qatır yükü taxılını apar, töh puşqağına[29], uşağın yesin.

[29] Puşqax – evin küncü

Deyir:

– Sən bilən yaxşıdı.

İki qatır yükü buğdanı yühlüyüllər, aparıf töküllər Qasımın qapısına. Nəysə, bəy kəntxudaynan qavaxlaşanda soruşur:

– Ayə, Qasıma bir kağız vermişdim, o nətər oldu?

Deyir:

– Bəy sağ olsun, gətirdi o kağızı maa yayda verdi, mən də yayda hardan alım qar verim. Qarın əvəzinə iki qatır yükü taxıl verdim.

Bəy görür kü, doğurdan da, Qasımı sarıya bilmədi.

## 223. MƏRDİMAZAR

Biri mərdiməzarçılığ eliyəndə atam bu məsəli çəkerdi. Deyir, kəntdə bir mərdimazar var imiş. Vaxt gəler, da görör bunun ölüm vaxtıdı. Deyir ki, arvad, mənim qonşularımı çağır. Deyir:

– Əşi, nədi?

Deyir:

– Mən ölürəm.

Qonşular gəler. Deyir ki, Əhliyar, Hikmət, mən bu kəntdə çox mərdimazarçılığ eləmişəm, onun-bunun çörəyinə bais olmuşam. Sizi and verirəm Allaha, mənim bir vəsiyəm var, onu yerinə yetirin. Deyillər:

– Baş üsdə.

Deyir:

– Mən öləndə məni qapıdakı tut ağacınnan asın. Mənim hayımı eşidif buraya çatana deyin ki, kişi vəsiyyət eliyif ki, deyin mərdimzara nəhlət. Qoyun mana nəhlət oxusunnar ki, bir də bu kəntdə mərdimazar olmasın. Mənim son aqibətimi görsələr, bir də heş kim mərdimazar olmujax.

Deyillər:

– Baş üsdə.

Aradan beş-altı gün keçənnən soora arvad çığırer, başın yolor ki, bəs kişi öldü. Qonşuları çağırer ki, başına dönüm, bunun vəsiyyəti vardı. Elə-obaya, qohum-əqrabaya hay düşməmiş bunu asellar

tutdan. Camaat gələndə ki, bu nədi? Deyillər ki, vəsiyyət eliyif ki, məni asın ağaşdan, qoyun hamı nəhlət oxusun mərdimazara. Uçaskovu da gəler. Deyir:

– Bu nədi?

Deyir:

– Belə vəsiyyət eliyif.

Deyir:

– Vəsiyyət nədi? Prakror, rəis eşidər, dərinizə saman təpər. Bunu kim asıf?

Camaatı aralıyır. Deyir, dəymiyin, rəis gəler. Bunu ağaşdan düşürdüllər, üsdünü axtarellar. Cibinnən bu uzunnuxda (dirsəyə qədər qolunu göstərir – top.) kağız çıxer. Yazılıb ki, möhtərəm hakim, səni and vererəm Leninin qanına, mənim qanımı yerdə qoyma. Məni Əhliyarnan Hikmət asıf ağaşdan.

İkisin də aparıf salellar içəri. Ölən şəxsi də aparıf basdırannan soora ona deyillər mərdin məzarı.

## 224. KİM DÜŞÜRDƏCƏK?

Deyir ki, bir kənt varıymış. El iş görəndə o deyirmiş bunu belə eliyin, bu deyirmiş belə eliyin. Deyişif aralanırlarmış, iş qalarmış. Bir gün deyillər, gəlin bu Salmanı ağsakqal seçək, nə desə olsun dana. Deyillər, hə, nolar. Salmanı ağsakqal seçillər.

Dağlıx yerdi. Otu yığıflar qayanın başına. Biri qışın günü sırsırada, qarda birtəri çıxır qayanın üsdünə, mala bir az ot tökör. Əyə, baxer ki, yer görükmör, bu nətər düşəjəh? Arvad-uşaq bunu bu vəziyyətdə görüb ağlaşer. – "Əyə, nədi?" Deyir, bəs kişi tayadan düşə bilmer. O eşidir, bu eşidir. Kənd toplaşer. O deyir, ə, belə düş. Bu deyir, yabanı buraya atax. Biri deyir:

– Ə, Salmanı ağsakqal seçmişik, kişini çağırın.

Kişi gəler.

– Əyə, bu nədi?

Deyir:

– Əşi, qalıf orda.

Deyir:

– Əyə, vallah heş zad demerəm sizə. Ə, o sijimin bir-ikisin maa at görüm.

Sijimi tullor, deyir, bağla belinə. Ağsakqal dater, dik gəler. Təpəsin qaya cırıx-cırıx eleer. Molla gətirellər, bunu büköllər, aparellar basdırmağa. Ağsakqal da ağlıya-ağlıya tutor cinazadan. O deyir:

– Əşi, ağlama sən allah. Allahın işidi. Allah işi görör, bəndə bir-birinnən görör.

Bir-iki dəfə deyillər. Deyir:

– Ə, buna ağlameram ey. Mən ölüf getdim, bəlkə biri tayanın üsdə çıxdı, onu kim düşürdəjək?

## 225. TOP DƏVƏSI

Şahın bir top dəvəsi varmış. Müharibə olanda dəvəni qoşollarmış topa ki, aparsın cəbhə xəttinə. Dəvənin gözlərin meşoğnan çatellar, dəvəni yatırdellar, top da bunun dalında guppagup atellarmış. Qutarannan soora da dəvəni qaldırellarmış, topu gətirellərmiş qapıya. Şah da əmr verif ki, bu dəvəyə qoruq-qaytax yoxdu. Tutax ki, sənə bir hektar yer vermişəm. Orda buğda ək, yonca ək, xeyri yoxdu. Dəvə harda otdadı, ona icazə var.

Biri də mənim kimi bir hektar buğda əkifmiş. Buğda da qalxıf sünbüllööf. Öydən baxır ki, sən öl, dəvə bunun öyün yıxdı. Dəvəyə nə var ki. Bir dəfə ağız atanda nə qədər ot geder. Deyir, gedif bunu qaytarajam, şaha deyəjəhlər ki, dəvəni filankəs çıxartdı, şah məni cəzalandırajax. Bunu bir yönnən mən çıxartmalıyam. Qoyunda şakqıldax olor. Yazda göy yeyəndə ifrazatı yumuşağ olor, yununa yapışer şakqıldağ olor. Onu da çobannar qoyun bişməcə olmasın deyə qırxıf tököllər. Bunnan da bir az qırxıflarmış. Gün vuruf daş kimi eləmişmiş. Taxıl yiyəsi bunnan beş-altısın götürör əlinə, geder girer taxılın içinə. Əyilə-əyilə geder, geder, geder. Dəvə də hərdən ağzın endirer, şart, şart, şart, qaldırer göydə göyşör. Bir də başını aşağı eleer. Be-

lədən də görör Salman[30] gəler. Dəvənin nə vejinə. Gəler durur dəvənin çənəsinin altında. Şakqıldağı çıxarder, şak-şak eleer ki, görüm ürkərmi. Əhliyar da belədən baxermiş. Görür Salman sinə-sinə getdi, dəvənin yanında yox oldu. Bir saatdı bu yoxdu. Qohumuymuş dana. Duror dəvərer, gəler. Görör yönü ayna bu şak-şak eleer. Deyir:

– Ə, nağarersan?

Deyir:

– Ə, görüm allahsızı hürküdüf ayna eliyə bilərəm, taxıl qalmadı.

Deyir:

– Ədə, o top dəvəsidi. Onun qulağının divində gündə əlli top atıler. Sən bu şakqıldağı şakqıldatmağnan o dəvə haraya gedər?

## 226. FƏRASƏTLİ ÇOBAN

İki çoban geder, sabahacan qoyunu otarellar. Qoyun yatışanda bular deyir, bir az mürgülüyək, genə otararıx. Biri yapıncıynan qoyunun o tərəfində yater, bu biri bəri tərəfində. Bu biri bir azdan soora gözün açer, görör ki, bunun başının üstündə bir adam duruf, bir adam da qoyunu seçer. Biler ki, oğru gəlif. Belə baxer, görör kü, beşatılan dirənif bunun təpəsinə, o biri yoldaşını səsləsə, açılajax güllə. Ə, bunu nətər deyim buna, neyniyim? Özün vurur yatmışlığa. Deyir:

– Hee-hee, allahın altında ağam qızın maa vereydi. – O birisi eşider ha. – Onnan da bir oğlum oloydu, adın da qoyoydum Fərzalı. Elə qoyunnan yornuğ gələndə qoyun yellənif gedəndə çağıreydim ki, Fərzalı hey, ay Fərzalı.

O biri yoldaşı deyir:

– Hə.

Deyir:

– Ə, kopoğlu, qoyunu gözdə.

---

[30] Söyləyici personaja özünün və söhbətə qulaq asan digər şəxsin adını verir.

## 227. BURDA DURANDAN GÖRMƏMİŞƏM

Yalan danışmamağa bir misal çəkəjəm. Yalan danışan Allahın yanında günahkardı. Hansısa bir ölüm vəziyyəti olarsa, onda yalan danışa bilərsən. Deyir, bir adam durufmuş yolda. Görür ki, bir nəfər qaça-qaça gəlir. Deyir:

– Əşi, nədi, nədi?

Deyir:

– Daldan gələn məni öldürəjək, mənim yerimi demə.

Axı bu da yalan danışmamalıdı. Nətər yerini deməsin. Arxadan gələn gəlif çatır. Deyir:

– İndicə burdan bir adam keçdi, onu görmədin?

Durduğu yerdən bir metr aralanır, deyir:

– Allah haqqı, bax burda durannan görməmişəm.

Çobannarda da olur belə şeylər. Deyillər, filan qoyun pıçağa güjnən gəldi. Heyvan ölür, həmən mament onu kəsməsən, heyvan mındar olur. “Pıçağa güjnən gəldi” bu deməkdi. Yəni, elə mamentdə onu kəsib ki, bir az da gejiksəydi, heyvan mındar olajaxdı. Amma çoban neynir. Aparır bıçağı qoyur sürünün yanına, heyvanın birini sürüyə-sürüyə pıçağın yanına gətirir, onu kəsir. Soruşanda ki, filan qoyunu niyə kəsdin? And içir ki, canın üçün, pıçağa güjnən gəldi. O biri elə bilir heyvan mındar olurmuş, onu kəsif. Amma demir ki, heyvanı güjnən sürüyə-sürüyə pıçağa gətirif.

## 228. YEYƏK DÖYƏK, DÖYƏK YEYƏK?

Bir varrı adam olur, varınnan qıyıb ayləsinə xərcləmirmiş. Arvadı xəsteymiş. Elə hey deyirmiş, a kişi, mana bir az içalat al. Bir gün gedir qəssabdan soruşur ki, içalat neçəyədi. Deyir, qırx qəpiyə. O birinnən soruşur, deyir qırx qəpiyə. Deyir, yox, mən qırx qəpiyə içalat ala bilmərəm. Qəssabın biri görür bu hər gün gəlir, içalatın qiymətini soruşur, gedir. Deyir:

– A qardaş, dərdin nədi?

Deyir:

– Hal-əhvalat belə-belə.

Deyir:

– Allah sənə kömək olsun. Ağcabədidə mənim qəssab dostum var, içalatın birin on köpüyə verir. Adres verəjəm, get oraya. İçalatı verəjəh saa, yığıf gətirərsən. Həm evə ver, həm də satax qazanc eliyək.

Gəlir çatır Ağcabədiyə, gedir həmən adresə. Girir bazara, görür həmən qəssab orda. Kağızı verir. Qəssabın bir şagirdi varmış. Qəssab budun qara yerinnən kəsir verir, deyir, bunu apar bizə təhvil ver, arvad bir şey bişirsin, qonağım var, axşam da özüm gələjəm. Bu başa düşür axı dostu bunu nə üçün göndərif.

Axşam gəlir. Olanınnan süfrəyə düzür. Kişi görür ki, bunun gözəl arvadı, hər bir şəraiti, iki mərtəbə evi. Kişi əlini, üzünü yuyuf gəlir oturur, arvad da gəlif oturur. Qəssab arvada deyir ki, arvad, yeyək döyək, döyək yeyək? Arvad deyir:

– Əşi, döyüf yesək yaxşıdı. Qoy ürəyimizdən tikan çıxsın.

Pərdəni çəkillər, kişi görür bir qəbir var orda. Çubuğu yanına qoymuşdular. Arvadnan kişi çubuğu götürüllər döşəhadöşə. Çubuqları qırılınca qəbiri döşüyüllər. Pərdəni çəkillər, qəşəh əl-üzlərini yuyub oturullar. Deyillər, indi yeyəyin. Qonax məhətdəl qalır. Deyir:

– A kişi, bu nədi belə?

Deyir:

– Uzun söhbətdi, soora danışaram.

Deyir:

– Yox, tikə dadmaram deməsən.

Deyir:

– Mən yetim gədeydim, orda-burda sülənirdim. Bu imarətin sahibinin mana yazığı gəldi, məni özünə nökər götürdü. Mana bir qarın yemək verdi, əynimə də paltar. O qədər düz işlədim ki, bu kişi məni özünə mavin götürdü. Elə oldu ki, kişi öldü. Bu arvadı da aldım, bu var-dövlət də qaldı mənə. Bu onun qəbridi. Ona görə deyirəm arvad, yeyək döyək, döyək yeyək? Kefimiz olmuyanda yeyirik, soora döyürük. İndi arvadın kefi tutdu dedi, qonax da görsün, döyək, rahat oturax çörək yeyək. Bax, o, qarına çörək yemirdi. Öldü, bu

arvad da qaldı mana, var-dövlət də qaldı maa. Ay başına daş düşsün, burda içalat ordakından da bahadı. Səni bura göndərən adam səni başa sala bilmiyif. Göndərif ki, sən bu həyatı görüf başa düşəsən. Bədbaxt oğlu, get ye. Arvadın sonrakı ərinə saxlama.

Bu gəlir çatır bazara. Deyir, cəmdəyin birini çək. Nə lazımdı yüklüyür arabaya, deyir bunu aparın verin filan kənddə filan evə. Özü də gedir arvada yaxşı paltar alır. Arvad da inildiyirmiş. Deyillər:

– A bacı, qapını aç.

Deyir:

– Kimsən?

Deyir:

– Ərin ərzaq alıb, qapını aç qoyax içəri, biz nökər adamıx, çıxax gedək.

Arvad birtəri sürünüb gəlib qapını açır. Görür düz deyillər. Aldıqlarını bişirib yeyillər.

## 229. YALAN DANIŞIRAMSA, TAVA HANI?

Dustaxlıqda biri söhbət elədi ki, başıma belə bir iş gəlif. Deyir, Ağdamda oxuyordum, yanvar tətilində gəlməli oldum öyə. Getdim bazara. Oranı-buranı hərrəndim, heş maa yoldaş olan olmadı. İki gün belə hərrəndim, yoldaş tapmadım. Bir gün hərrəndim gəldim ki, bir kişinin iki öküzü var, Ağdamda bazardan bəhməz alır. Bunnan soruşdum ki, a kişi, haraya gedersən? Dedi:

– Ağcabədiyə.

Dedim:

– Mən də ağcabədiliyəm, məktəbdə oxuyuram, mən də gedirəm.

Deyir, bu alverin elədi. Kömək elədim, yüklədi öküzə. Yolda bu öküzdəri aşdı, oları suladı. Mən də otdum bunun böyründə. Surfanı aşdı, çörəyi qoydu qabağına yedi, deyir. Durdu bığın sildi, heç maa təklif eləmədi. Mən də qaldım bunun ağzına baxa-baxa. Bu, məni tayda qoydu, başdadı öküzü yükləməyə. Birin yüklədi,

deyir, ikincini də yükləyəndə gördüm ki, gözümə qarannıx çökör. Çörəh yeyəndə də görmüşdüm ki, bu, bəhməz tuluğun qulağın aşdı, bəhməz aldı, çörəyin yedi. İndi ajınnan ölürəm. Bəhməz olan tayda da durmuşam. Həmən yeri aşdım, deyir, ağzıma saldım. Hardasa on qurtum, on beş qurtum bəhməz getdi qarnıma. Bu zaman kişi o biri tayı gətirəndə gördü ki, bəhməzin qulpu ağzımda, mən əmerəm.

– A kopoğlu, nağarırsan?

Bəhməzi tulladım qaşdım. Gəldim, deyir, bir obanın qulağınnan keçəndə dedim ki, gedif mənzilə çata bilmiyəjəm, elə burda qalım. Bir qapıya hərrəndim, gördüm ki, bir arvad inək sağer. Dedim:

– Ay ana, maa beyjəlik yer ver.

Dedi:

– Keç otur, kişi gələjək bu saat.

Sən demə həmən kişi imiş. Keşdim, deyir, otdum. Bir də gördüm kişi arvada deyir, arvad, bunu tut, arvad, onu tut. Deyir, ayna baxdım, bayna baxdım, gördüm, çörək qabı yaxındadı. Bir çörək götdüm, deyir, buların yanınnan çıxdım. Kişi düşdü dalıma:

– A kopoğlu, hardan gəlif çıxmısan?

Özümü verdim, deyir, kəndin qulağına. Çörəyi də yedim, deyir. Kəndin qulağında ikimərtəbə öy vardı. Getdim çıxdım ora. Çıxdım ki, bir qadındı çölə çıxır, içəri girir. Aralıdan gördüm çıra yanır. İndi bunun əri orqan içisiymiş. Qadın bir də çölə çıxanda qalxdım üst öyə. Üst öydə boş cəvərənnər var, meyvə cəvərrənəridi. Meyvələri satıflar, boş cəvərənnəri çöyürüflər ağzı üstə. Cəvərənin birinin içinə girdim. Bu qadın məni zametka eleer ki, o cəvərəndə ola bilər. Çöldə də, deyir, bir tava qoyuf ojağın üsdə, nəsə bişirer. Qapıda nə iti, nə pişiyi, nə malı var. Təzə binəyə oxşuyur. Bu zaman əri gəldi. Ərin danladı-elədi ki, hardasan? Qorxudan ürək-göbəyimi yemişəm. Kişi başdadı özün təriflməyə:

– Belə vuraram, belə kəsərəm.

Dedi:

– İndi ki, heylədi, bax, bu cəvərənə bir gorda vur.

Gördüm ki, gordanı qaldırıf vurmaq istiyir, mən dik qalxdım. Dik qalxanda bular ikisi də ərli-arvatdı balkonnan özdərin atdılar.

Mən də evdən çıxdım, tavanı götdüm, yallah. Bir az aralandım, özümü verdim kolluğa. Böyürtkən kolunun altına girdim, tavanı qoydum qabağıma, yedim. İndi camaat tökülüf gəlif. Oranı gəzellər, buranı gəzellər. Eşidirəm buların danışığın. Camaat deyir, sizi qara basır, belə şey olmaz. Çox uzun sözdən soora ev yiyəsi dedi ki, a kişi, mən yalan danışıramsa, bəs tava hanı? O tavanı tapın verin...

## 230. ŞAH OĞLU MİSGƏRLİK ÖYRƏNİR

Şahın oğlu aqil bir insanın qızına vurulur, çox möhkəm vurulur. Çox elçilər gedir, kişi qızı vermir. Şah vəziri də götürür, özü gedir buna elçiliyə. Deyir ki, çox xoş gəlifsən, amma siz çox böyük bir əyalətin şahısınız. Sabah sən şahlıxdan düşdün, bu oğlan mənim qızımı necə saxlıyajaxdı? Heç bir sənətin sahibi deyil. Getsin bir sənət örgənsin, soora qızı verim. A kişi, etmə-eləmə, bu şah adamdı. Deyir, yox e, xəzinə xalqındı, xəzinə şahın döyül a. Axırda bunu qoşullar, bazarı gəzdirillər ki, hansı sənəti bəyənirsən, o sənətə səni qoyax. Çox hərrənif gələnnən soora gədə gəlir misgərrərin yanına ki, bu sənəti örgənəjəm. Xoşum gəlir bu sənətdən. Gəlib ustaynan danışıllar, bunu bir illiy ustaya şəyird verillər. Şah da bunun bir illiy haqqını verir. On gün gəlir, on günnən soora gedə gəlmir. Usta şaha xəbər göndərir ki, uşax gəlmir. Şah oğlunu çağırır ki, ay bala, axı apardığ səni ustanın yanına verdik, pul verdik. Belə olmaz.

– Əşi, – deyir, – o gözəl sənət idi, gözəl də örgənmişəm.

Deyir:

– Nətər örgənmisən?

Deyir:

– Əsli misdi, ojağa qoyursan olur isti, yanını əyirsən olur qavlama, altını da deşirsən olur aşsüzən.

Deyir ki, belə sənət örgənmək olar? Kişi də qızını vermir.

## 231. DƏVƏ İLƏ SƏRÇƏ

Bir nər dəveynən maya dəvə bir kölgəlikdə gəvşək gətirirmişdər. Bir ata serçeynən də bir ana serçə bunnarın gözünün qabağında

oynaşırmışdar. Ata serçə qalxır, düşür, qalxır, düşür. Axırda maya dəvə bir ah çəkəndə nər dəvə gözünü açır, deyir, noluf. Deyir:

– Onda olan hünərə bax ey.

Deyir:

– Bura gəl görüm, ə.

Ata serçə uçur buna yaxın durur. Deyir:

– Bu boyda bədənnən mən ildə bir dəfə kəhliyə gəlirəm. Bu hünər səndə hardandı?

Deyir:

– Əşi, bizə gün yox e, saniyə lazımdı, dəqiqə lazımdı.

Deyir:

– Onçun bu boyda qalmısan da.

## 232. KÖHNƏ QONAĞA OXŞAYIRAM?

Çoban təzəcə toy eliyif evlənmişdi, balaca bir alaçıxda xanımıynan yaşıyırdı. Bunun qəfil uzaxdan bir dostu gəlir. Qonağı qəbul eliyir, şərəfinə yemək-içmək hazırladır. Səhər çoban duruf qoyuna gedəndə qonaq da qoşulub buna gedir. Bir ay, iki ay, çoban yazıq ayləsinə həsrət qalır. Bir gün qonaq deyir:

– Tay siz məni bağışdıyın, gedim.

Bunun getməsi şərəfinə gəlin yaxşı bir plov hazırrıyır. Geyinir-kejinir. Kişi də geyinir-kejinir. Çoban geyimli-kejimli girir, deyir:

– Arvad, sən de görüm, mən Şah oğlu Şah Abbasa oxşuyuram?

Deyir:

– Allah haqqı, özüsən ki durmusan.

Çoban bir az qaqazdanır[31]. Arvad deyir:

– Gör mən də Şah oğlu Şah Abbasın xanımına oxşuyuram?

Kişi deyir:

– Vallah, özüsən ki durmusan.

Elə bu heyndə qapı açılır, qonaq girir içəri. Deyir ki, görün mən də köhnə qonağa oxşuyuram?

---

[31] Qaqazdanmaq – qürurlanmaq, özünü dartmaq

## 233. ATA İLƏ OĞULUN DİALOQU

Ata ağır xəstədi, oğlun da yedirtməyə heç nəyi yoxdu. Kişi də can üstədi. Oğlu deyir: "Nətər eliyim bu kişini bir ovudum". Gəlir deyir:

– Ata, yaxşı yetişmiş armud olsa, yeyərsən?

Kişi tez əlin uzadır, deyir:

– Ver görüm.

Ver görüm deyəndə, deyir:

– Ata, olsa deyirəm ey.

## 234. NƏNƏ İLƏ NƏVƏ

Bir uşaq nənəsinin o tərəf-bu tərəfinə keçirmiş ki, bunnan pul qoparsın. Deyif:

– Nənə, ay nənə. Yağ yeyərsən, yoxsa ərə gedərsən?

Deyir:

– Sarsağ-sarsağ danışma. Dur sürüş burdan. Mənim dişim var yağ yeyəm?

Yəni demək istəyir ki, ərə getmək istəyirəm. Yağ yemək üçün nə diş.

## 235. MƏNİ QAYTARIN SAMANLIĞA

Sarayında şair saxlayan padşah özü də şeir yazmaq həvəsinə düşür. Şairi çağırıb şeirlərini oxuduqdan sonra soruşur:

– Hə şair, de görüm necədir?

– Şah sağ olsun, bunlara şeir demək olmaz. Qüsuru çox, mənası yoxdur.

Şairin bu dikbaş cavabı şahı qəzəbləndirir. O, şairi sarayın cəza yeri olan samanlığa saldırır. Bir aydan sonra şairi bir də çağırtdırır. Yenə bir neçə şeir oxuyub ümidlə soruşur:

– Hə şair, de görüm indi necədir?

Şair üzünü saray qulluqçularına tutub deyir:

– Məni qaytarın samanlığa.

## 236. MOTAL MƏNİ BURAXMIR

İki nəfər çayın qırağında qoyun otarırdı. Birdən gördülər ki, çayda motala bənzər bir şey üzür. Onlardan biri: "Ay haray, motalı su apardı", – deyib özünü suya atdı. Motala oxşar şeyi qucaqlayıb kənara çıxarmaq istədi, lakin gücü çatmadı. Sudakı şey onu bərk tutub saxlayırdı. Sahildəki yoldaşı onu səsləyib dedi:

– Əyə, görürsən ki, gücün çatmır, motalı burax, çıx qıraga.

Suda "motal"la əlləşən isə güclə bunu deyə bildi:

– Vallah, mən motalı buraxmışam ey, motal məni buraxmır!

Sən demə, sudakı motal deyil, ayı imiş.

## 237. YEMƏYƏ GƏLİB

Oğlan yataq xəstəsi olan atasını sevindirmək üçün deyir:

– Ata, Allaha şükür, daha dünya düzələcək.

Atası:

– Bala, nədən bilirsən?

Oğul:

– Ata, özüm gördüm ki, təzə peyğəmbər gəlib. Deməli, dünyanı düzəldəcək.

Atası soruşdu:

– Bala, de görüm, əlı, ağzı var idi?

Oğul:

– Hə, ata, öz gözlərimlə gördüm.

Qoca ümidsiz halda dərin bir ah çəkib dedi:

– Deməli, dünya düzəlməyəcək... Bu da yeməyə gəlib.

## 238. AZ-AZ TOZ ORUCU POZMAZ

Biri mollaya deyir ki, molla, orucu nə pozar? Deyir:

– Az-az toz orucu pozmaz.

Orucluq qurtandan soora molla baxır ki, sən öl, oruc tutan adam orucluqdan saz çıxıf. Deyir:

– Maşallah, orucluqdan saz çıxıfsan ha.
Deyir:
– Allah dədənə rəhmət eləsin, dedin az-az qoz orucu pozmaz. Elə uşaqlar cibimə ləpədən-zaddan qoyurdu, mən də az-az yeyirdim.

## 239-242. KƏBİRLİ LƏTİFƏLƏRİ

Dəvə girib pambığın içinə, pambığı ayaxlıyır. Deyiflər, gedin o dəvəni çıxardın. Deyiflər, dəvəni çıxardanda pambığı ayaxlıyıf əzəjəh axı. Deyiflər, onda kimə deyək? Bir ağsakqalı çağırıblar. Ağsakqala deyiflər:
– O dəvəni nətər çıxardax ki, o pambığı ayağınnan əzməsin?
Deyib:
– Gedin onu yıxın sürüyün.
Yıxıb sürüyəndə gör nə qədər pambıx əzir.
Bizdə bir söz çəpləşəndə deyillər bu da oldu kəbirlinin ağsakqalı.

### 240.

Kəndə qalayçı gəlir mis qabların paxırın təmizdiyif ağartmaq üçün. Qalayçı paxırın təmizdiyif ağardıf qırağa qoyduxca balaca uşaq görür ki, qablar par-par parıldıyır. Qaçıb gedif evlərində bir taxta qənd çanağı var, onun gətirif verir qalayçıya ki, qalayçı, bunu da qalayla. Qalayçı deyir:
– Bala, bu taxtadı. Axı, bu qalay götürməz.
Deyir:
– Yox ey, ya qalayla, ya da özümü öldürəjəm.
Qalayçının əlajı kəsilir, deyir:
– Ə, bu kəndin başbilənin bura çağırın, bu uşağı başa salsın.
Bir ağsakqal gəlir. Deyir:
– Noluf?
Qalayçı deyir:
– Nolacaq. Taxtanı qalaylamaq olmaz, uşaq da kirimir, deyir bunu qalayla.
Deyir:
– Ə, o uşaqdı qanmır, sən də qanmırsan? Qalayla getsin.

**241.**

Ağabəydən Nikalaya şikayət yazıblar. Nikalaydan nümayəndə gəlir. Camaat axı Ağabəyə tabedir. Ağabəy deyir ki, nümayəndə gələjəh, burda iclas eliyəndə eşşək kimi anqırın. Nümayəndə bulardan xəbər alır ki, Ağabəy sizi nətər dolandırer? Başdıyıllar anqırışmağa. Nümayəndə deyif ki, bulara nə eliyirsən hak eliyirsən.

**242.**

Bir kəbirlinin eşşəyi doğufmuş. Qoduğu tutuf mayalandırmaq istiyirmiş, qodux da mayalanmır. Təpəsinə bir qapaz vurur ki, kül burana. Özü əmcəyi alır ağzına, əmir. Deyir:

– Belə əmərlər, ay başına kül.

**243. ATOM**

Siriylinin biri gedir Bakıya, hardasa əllinci ildi. Görür küçədə üç adam oturuf söhbət eliyir, atom, atom deyillər. Keçir gedir çayxanaya. Görür sən öl, genə atom, atom deyillər. Amerika atom bombasını sınaxdan keçirmişdi, səsi-küyü dünyaya yayılmışdı. Hara gedir, görür atomdan danışıllar. Atomun da nə olduğun bilmir. Qayıdır gəlir. Gələndə siriylilər toplaşır başına. Deyir:

– Qağa, şəhərdə nə gördün?

Deyir:

– Atom, atom.

Deyir:

– Nətəri atom?

Deyir:

– Atom ey, atom.

– Ə, yanı maskviçdən yaxşıdı?

Deyir:

– Ə, nə maskviç, atom ey, atom.

Deyir:

– Yanı pobedadan da yaxşıdı?

Deyir:

– Nə pobeda, atom ey, atom.

O birsi tez əlin qaldırır:

– Ya Hacı Qaraman, onnan birin bizim qapıya sal, kasıblıxdan canımızı qutarax.

## 244. ŞIĞIDIĞIN BƏSDİ, QANAD ÇAL

İki siriyli dərədə keçi otarır. Baxır görür ki, qayanın başınnan qartal qalxdı havaya. Bu, qartalın uçuşunnan fərəhlənir. O biri yoldaşına deyir:

– Ə, sən mənim keçilərimə bax, mən də gedib uçajam.

Deyir:

– Ə, gəl keçimizi otarax.

Deyir:

– Yox, canın haqqı, uçajam.

Gedir qayanın başınnan özün tulluyur. Özün tulluyanda dərədəki görür ki, qartal göyə qalxmışdı, bu təpəsi aşağı gəlir, özü də bərk gəlir. Yüyürür onun qabağına, deyir:

– Ha lələm qurban, da şığıdığın bəsdi, qanad çal.

## 245. ANAMLA GETMİRƏM, DƏDƏMLƏ GEDİRƏM

İki siriyli ağacın kölgəsində oturuf nərd oynuyurmuş. Balaca uşax da oturuf bunun birinə kömək eliyirmiş: “O daşı götü, bu daşı götü”. Bu birsi cırnıyır. Deyir:

– Kopoğlu, vallah, dursam öldürəjəm səni.

Uşaq basılmır. Bir də kömək eliyəndə bu durur:

– Eşşək oğlu eşşək, vallah səni öldürəjəm.

Uşaq qaçır, bu da dalınca. Uşaq görür bu buna çatacaxdı. Qabaxda ot yüklü eşşəynən gedən siriyli varmış. Yüyürür deyir:

– Əmi, məni gizdət, bu kişi tutsa, öldürəjəh.

Deyir:

– Gir eşşəyin qarnının altına, iməklə.

Uşaq girir eşşəyin qarnının altına, iməkliyir. Bu gəlir, deyir:

– Ə, burdan bir uşax keçdi, görmədin?
Deyir:
– Başın hakqı görmədim.
Deyir:
– Ə, nətəri, burdan keçdi?
Deyir:
– Vallah, görmədim.
Belə əyilir. Deyir:
– Ə, bəs bu eşşəyin qarnının altındakı nədi?
Deyir:
– Balasıdı.
Bu baxır görür ki, eşşək erkək cinsdəndi. Deyir:
– Ə, utanmırsan, erkək eşşəyin balası olar? – deyəndə uşaq özünü saxlıyammır. Deyir:
– Ə, sənə nə var ey. Anamnan getmirəm, dədəmnən gedirəm.

## 246. SƏN MƏNLƏ YETİM SAXLAYANSAN?

İşıqlının[32] peşəsi nədi? Uşağa bir toyuğu, qazı, ya bir eşşəyi verillər ki, qəfil maşının qabağına at, qoy qalsın altında, pulunu alax. Balalı arıq eşşəyi uşağa verillər ki, apar bunu at maşının altına. Bir zil gəlif keçəndə eşşəyi itəliyir zilin altına. Zil eşşəyin üstünnən keçir. Uşağın ağsakqalı gəlir. Şofer deyir:
– Vallah, uşaq özü itələdi.
Deyir:
– Başun, başun, sən özün korsan, uşağa niyə şər atersan, ə? Korsan, eşşəyin üstünnən keçmisən?
Deyir:
– Keçmişəm keçmişəm da. Eşşəyin biri uzaq başı əlli manatdı, ala pulu.
Deyir:
– Ə, başun, sən heç bilirsən neynəmisən?

[32] Füzuli rayonunda kənd

Deyir:

– Ala yetmiş manat, əl çək da.

Deyir:

– Başun, mən onnan iki ayləni dolandırırdım ey. Nə danışırsan sən?

O biri qardaşı gəlir. Deyir:

– Ə, noluf?

Deyir:

– Eşşəyi ayaxlıyıf.

Deyir:

– Ayaxlıyıf, ayaxlıyıf. Yüz manatını al, burax getsin, – deyəndə şofer deyir:

– Qardaş, ala yüz manatı.

İndi bu yüz manata da naz eliyəndə böyük qardaş deyir:

– Daa ağ eləmə da sən. Yekə kişisən, insafın olsun, al, burax getsin.

Qoduğu qardaşına göstərif deyir:

– Ə, başun, aldım ey o yüz manatı, sən mənnən yetim saxlıyansan. Bunun anasın ayaxlıyıf ey.

## 247. AFŞAR ŞƏRİ

Bir nəfər mal aparır bazara satmağa. Afşarların buna gözü düşür. Gəlib buna deyillər ki, bu malı filan qiymətə bizə ver. Özlərinə sərf edən qiymət deyillər, bu da vermir. Nə illah eliyillər, razı olmur. Bazarda nə qədər alver edən var bunun üstünə göndərillər, bu yenə xıxmır. Bazarda alvernən məşğul olan üç-dörd afşar topalaşır, deyillər nağarax? Deyillər, gəlin şərriyək. Bir afşar arvadını örgədillər ki, sən get o inəyin boğazınnan yapış, denən bu inək mənimdi. Dalısıynan işin yoxdu. Arvad gedir heyvanın boğazınnan yapışır ki, bu inək mənimdi. Deyir:

– Ay arvad, ay xala, bunu mən evdən gətirmişəm, öz inəyimin balasıdı.

Deyir:

– Nə danışırsan? Bu inək mənimdi. İnanmırsan soruşax.

Alverçilərdən biri gəlir:

– Ay xala, bu Sənəmin inəyi deyilmi?

O biri gəlir: “Bu Sənəmin inəyidi”. Bu biri: “Vay lələ vay, Sənəm nənə, sənin inəyindi?” Deyir:

– Hə, bala.

Yaylığın bağlıyır heyvanın boynuna, çəkib aparır.

## 248. GÖZDƏN TÜK QAPAN ŞAHSEVƏNLİ

Bir şahsevənni Şuşa yaylağına çıxır. Bunun atının nalı qopur. Gəlir nalbəndin yanına. Deyir ki, mənim atımı nalla. Nalbənd bunun atın qəşəh nallıyır. Şahsevənni çıxardıf buna bir dənə qızıl onnux verir, amma gedəndə nalbəndin gözündən oğurranıb mıxdan bir ovuc götürüb atır cibinə. Nalbənd bunu görür. Deyir:

– Qardaş, atı nallamağın qiyməti bir abbasıdır. Bir abbasılıq iş üçün çıxardıb bir onnux qızıl verməyin nədi, mıxı cibə atmağın nədi?

Deyir:

– Onnuğu sənə verdim ki, biləsən şahsevənni tox olur. Mıxı da götürdüm ki, biləsən ki, şahsevənni gözdən tük qapır.

## 249. ÖZÜ YUYUB

Biri gedir tərəkəmədən su isdiyir. Gətirir bulaşıq qabda buna su verir. Qaba baxanda bu diksinir. Suyu içmer, keçer o birsi evə. Deyir:

– Bajı, mana bir qab su ver.

Gül kimi təmiz yuyulmuş bir qabda gətirir buna su verir. Deyir:

– Get birin də gətirir.

Birin də gətirəndə birinci su verənin qabınnan o qədər diksinir ki, deyir:

– O qonşu arvada deynən qabı belə yusun.

Deyir:

– Onun fərsiz boyun yerə soxum, yaqın özü yuyuf.

Deyir:

– Bəs sən kimə yudurdorsan?

Deyir:

– Bulaşıq qabı qoyursan, üzdən iraq, itin qabağına, yalıyır edir gül kimi.

## 250. TÜLKÜNÜNKÜ ALLAHA QALIB

Bizim tərəkəmədə yalavaclılarnan[33] dost olan adam oluf. Bu, heyvan aparırmış Qaradonnu bazarına satmağa. Yolda yalavaclıy-nan rastlaşır. Görür dostu gəlir atın belində. Yanında tazı, çiynində tüfəng, belində qatarı. Qabax yeddi litirlik nöyüt qabları olurdu. Nöyüt dolu qabın biri də ata bağlı, bir şələ də saman, bir lapatka, bir yava. Deyir:

– Ay filankəs, hara gedirsən?

Deyir:

– Tülkü ovuna.

Deyir:

– Yaxşı, tülkü ovuna gedirsən, bu tüfəngin, bu tazın, bu güllən. Bəs bu yava, lapatka, nöyüt, saman nədi?

Deyir:

– Eey, sən bilmirsən. Tülkünün iki dənə dəməyi olur. Onun birinnən tüsdü qoyajam. Samanı qoyajam ora, bu nöyütdən tökəjəm üsdünə, spişkanı vurajam. Tüsdü onu boğajax, o birsinnən çıxajax. Orda gözdüyəjəm. Çıxmasa, lapatkaynan qazajam. Elə ki, çıxdı, bu yavaynan yavalıyajam. Gördüm ki, yavadan da sürüşdü qaşdı, tü-fəngnən atajam, tazı da gedif onu gətirəjəh.

Deyir:

– Da denən tülkününkü Allaha qalıf da.

---

[33] Yalavac – İmişli rayonunda kənd

## 251. TƏRƏKƏMƏNİN QALALIYA CAVABI

Qalalıynan tərəkəmənin bir söhbəti oluf. Qalalı tərəkəməyə deyir ki, ay qoyunu bir gündə yeyən kopoğlu. Bu da deyif, ay toyuğun baş-ayağıynan aylə saxlıyan kopoğlu.

## 252. TƏRƏKƏMƏNİN DANIŞIĞI

Vəzir Allahverdi xanın devrində bir nəfər deyif ki, tərəkəmə bir-biriynən danışar, sən onu anlamazsan. Deyir:

– Ə, mən kar deyiləm a, nə desə eşidəjəm.

Gedir bazardan qıllıpapağın birin tapır gətirir, oturdur Vəzir Allahverdi xanın idarəsində. Gedir birin də tapır gətirir. Bu tərəkəmələr bir-birin tanıyır da. Bu o birinə əliynən işarə eliyir ki, bura hara, sən hara? O biri də çiynin atır ki, bilmirəm. Buları gətirən adam deyir:

– Danışdılar.

Deyir:

– Ə, nə danışdılar?

Deyir:

– O dedi bura hara, sən hara. Bu da dedi hələ bilmirəm.

## 253. TƏRƏKƏMƏYNƏN TAT

Tərəkəmə camaatı qoyuncul olduğundan əkin-biçinə o qədər də fikir verməzdi. Əkməyinə əkərdilər, biçməyinə gəldikdə isə oturaq kəndlərdən, ermənilərdən biçinçi tutardılar. Günlərin bir günü zəmisi dəyib vağanıyanda[34] bir tərəkəmə çox əlləşib, axır ki, bir tatı biçinə razı salır. Evi yıxılmış tat da dedikcə hərzə adammış. Ağzının qoruq-qaytanı yoxuymuş. Ayağını tərəkəməgilə qoyandan başlayır baş aparmağa. Tərəkəmə bir dözür, sonra çomağı alır əlinə:

– Əyə, qırışmal, bura ayran içməyə gəlmisən, yoxsa ara açmağa?

Tat da hərzəliyindən qalmır:

– Nə ayranını içirəm, nə biçinini biçirəm!..

---

[34] Vağanamaq – yetişib vaxtı keçmək

## 254. UCUNDA DANA VARDI

Deyirlər ki, bir tərəkəməni tutub atırlar zindana. Dustaq yoldaşlarından biri ondan soruşur:

– Cürmün-cinayətin nədi?

– Anlamadım.

– Səni nə üstə tutublar?

– Heç nə üstə. Əlimdə bir kəndir qırığını oynada-oynada gedirdim. Məni tutub gətirdilər bura.

– Elə şey olmaz, a qardaş! Kəndir qırığı oynatmaqdan yana adam tutmazlar. Yenə nə olub, söylə.

– Əşi, nəyə deyirsən and içim ki, o kəndir qırığından ötrü məni tutublar.

– Yaxşı fikirləş, a qardaş, neyləmisən, nə etmisən?

– Əşi, deyirəm heç nə etməmişəm, siz də inanmırsız. Əlimdə kəndir qırığını oynada-oynada gedirdim. İntahası kəndirin ucunda bir dana vardı...

## 255. ÇUXANI ÇIXARMISAN DEYƏ SƏNİ TANIMAYACAĞAM?

Bir tərəkəmə yaylaqda olarkən qonşu kəndə qonaq gedir. Süfrə açılır, yemək gəlir. Yemək də ola kələm dolması. Dolmanı isti-isti yeyərkən ağzı yanıb pülüşük çıxır. Dolmanın ora-burasını qurdalayıb ev yiyəsindən soruşur:

– Qardaş, bu yeməyin adı nədi?

– Dolmadı. Nədi ki, xoşuna gəlmədi?

– Heç. A dolma, bir də səni yesəm, atama nəhlət!

Bu qonaqlıqdan bir sürə vaxt keçir. Payız olur, arana dönürlər. Aranda da bir evə qonaq gedir. Süfrə açılır, yemək gəlir. Ev yiyələri küftə bişirmişdilər. Bir boşqab da tərəkəmənin qabağına qoyurlar. Tərəkəmə üz tutur küftəyə:

– Çul-çuxanı çıxarmısan deyin, səni tanımayacağam. Sən öləsən, ta ağzımı yandıra bilməyəcəksən!..

## 256. SƏNİ GÖRDÜLƏR, ÇIX

İki tərəkəmə – Nailnən Həmdullah ikinci cahan savaşı zamanı meşədə azırlar. Bilmirlər ha tərəfə getsinlər. Elə bu zaman baxırlar ki, alman tuppalantuş onların üstünə gəlir. Tez bir qalın kolluq tapıb daldalanırlar. Almanlar onların yanına çatıb toxtayırlar. Biri qayıdır ki, nayin-nayin (yəni heç kim yoxdu).

Həmdullah deyir:

– Nail, çıx, səni gördülər.

Nail naəlac qalıb çıxır. Naili görən almanın biri qışqırır:

– Hendi hoh, hendi hoh!

Nail başını yoldaşı səmtə çevirib, deyir:

– Həmdullah, səni də gördülər, çıx!

## 257. KÜRDNƏN QARABAĞLININ DOSTLUĞU

Kürdnən qarabağlı dost olur. Qarabağlı kürdün öyünə gedir. Kürd buna yaxşı qulluq eliyir. Qarabağlı buna təklif eliyir ki, bizə gələrsən. Yay vaxdı olur. Kürd hərrənir gəlir. Eyvazallar kəndinin böyrünnən keçəndə deyir: "Səni, mənim burda bir dostum var. O vaxtdan gəlif gedirik. Gedim görüm nətərdi". Qarabağlı da çox kasıbmış. Bunun qapısında çardax olur. Kürd gələndə bunu çıxardır çardağa, deyir:

– Otur burda.

Ordan yalannan arvada deyir ki, yemək hazırra. Arvad da qazanı asır, suyu doldurur içinə, altını qalayır. Nə bişirəcək, öydə bir şey yoxdu. Qonaq da çıxıb getmək istəmir. Yavaşca çıxıb qonşuya deyir ki, hərdən-birdən bizim çardağın üstünnən bir güllə atginən. Qonşu deyir:

– Nəyə görə?

Deyir:

– Sənin işin yoxdu, sən güllə at.

Nəysə, oturullar. Bir xeylax keçənnən soora qonşu bir güllə atır. Kürd deyir:

– Ə, bu nədi?
Deyir:
– Ə, heş nə.
Ardan bir az da keçənnən soora birin də atır. Kürd deyir:
– Ə, bu nədi ey belə?
Deyir:
– Ə, heş nə ey. O bajarmaz.
Birin də atır. Kürd deyir:
– Ə, məni başa sal görüm bu nə güllə-barandı?
Deyir:
– Ə, keçən yay onun qonağı gəlmişdi. Mən bir gülləyə endirdim onu çardaxdan. İndi kopoğlu üç güllə atıf, hələ dəymir.
Deyir:
– Ə, sənin yeməyin də özə qalsın, mən getdim ey.

## 258. ÇOX QOHUMLU BƏXTƏVƏR

Biri kürddən bir eşşək alır. Qapıya kim gəlir, deyir, misalçün, İlkin müəllimin evi budu? Deyir:
– Hə.
Deyir:
– Mən eşşək satanın əmisi oğluyam.
Bir gecə burda qonaq qalır. Bu gedir, bu səfər dayısı oğlu gəlir. O gedir, yeznəsi gəlir. Axırda ev yiyəsi eşşəyi qapıdan çıxardır, deyir:
– Çox qohumlu bəxtəvər, çıx get qapıdan.

## 259. BƏRK TUTUN, ƏLİMƏ TÜPÜRƏCƏM

Dörd kürd meşəyə oduna geder. Meşədə yaddarına düşör ki, balta gətirmiyiflər. Deyillər, ə, quru palıtdı dana. Qanadınnan sallaşax, qırax aparax. Biri çıxır ağacın başına, qanadın üsdüynən geder, geder, geder. Uca çatanda tutor ordan sallaşer. O birsi də dırmaşer gəler bunun ayağınnan tutor. Üçüncü də əl atır ikincinin

ayağınnan tuta. Əlin ater çatmer, bir də əl ater, ayağınnan tutanda lap başdakı da barmaxların bir-birinə keçirib ağacdan tutuf. Palıt da hərdən cırt, cırt eleer. Bunun əli yavaş-yavaş boşaler. İkinciyə deer ki, ayağımdan bərk tut, əlimə tüpürəjəm. Altı da uçurumdu ey. Əlinə tüpürmək istəyəndə üçü də düşör uçuruma.

## 260. BAĞIŞLA, ELƏ BİLDİM YİYƏSİ YOXDUR

Bir kürd güzgü tapır. Güzgüyə baxada özün görür. Deyir:
– Bağışda, bağışda, elə bildim yiyəsi yoxdu.

## 261. KƏLBƏCƏRDƏN GƏLİB MATSON OLMUSAN?

Kürdün biri gedifmiş Maskvaya. Acmışmış. Girif bir restorana ki, yemək yeyə. Deyiflər:
– Nə yeyirsən?
Deyir ki, qatıx yeyirəm. Bular bir şey başa düşmüyüflər. Yeməkləri göstərillər ki, hansını yeyirsən. Qatığı göstərif ki, bunu yeyirəm. Deyiflər:
– Eta matsoni.
Deyir:
– Qatiiğ, Kəlbəcərdən gəlif Maskvada matson olmisən?

## 262. ADAM KİMİ DE

Kürdün biri Həkəri çayının bəri üzünnən o üzünə çağırır ki, ay filankəs hay, ay filankəs hay. Deyir:
– Hay.
Deyir:
– Ayə, filankəs nətərdi?
Deyir:
– Bafat eliyif.
Deyir:
– Ə, bafat elədiyin bilirəm ey, de görüm nə iş görür?

Bu çox deyir bafat eliyif. Axırda deyir:

– Ə, çezib ey, çezib.

Deyir:

– Ə, adam kimi de, mən də adam kimi başa düşüm də.

## 263. YEMƏYİNƏ YEYƏCƏYİK

Biri birini vurub öldürüfmüş. Ölü yiyəsi adamları yığır, qonaxlıx verir ki, siz orda olmusuz da, mənim qardaşımı kim vuruf öldürüf. Kürdün biri deyir ki, giyi qardaş, yemağına yeyəjıyıx, amma demağına demiyəjıyıx.

## 264. QIZILIN QİYMƏTİ

Çınqıldərəli[35] bir kişi atnan Ağdama bazarlığa gəlir. Şəhərə girəndə görür ki, balaca uşaq ovcunda mirvari oturuf qığ-mərə oynuyur. Fikirrəşir ki, bu uşaxdı, mirvarinin qiymətin bilmir. Nətər eliyim bunu alım bunun əlinnən. Deyir:

– Bala, nədi oynatdığın?

Deyir:

– Dəmirdi.

Deyir:

– Neynirsən onu. Ala bu pulu, onu ver mənə.

Uşaq deyir ki, pulu neynirəm. Sən bir dəfə anqır, mən buları saa pulsuz verim. Kişi ətrafa baxır, görür heç kim yoxdu, yiyəsizdikdi. Əlin qoyur qulağının dibinə bərkdən anqırır. Anqırannan soora əlin uzadır ki, ver gəlsin. Deyir:

– A kişi, get anqırmağının dalınca. Sən eşşək ola-ola bunun qiymətin bilirsən, mən adam ola-ola bilmirəm?

---

[35] Bəzi lətifələr Ağalar Hidayətin "Dünya məndən gileyli" kitabından götürülmüşdür. Toplayıcı kürd, kəbirli adını çınqıldırəli, başbilənli kimi şərti adlarla əvəzləmişdi.

## 265. NİKOLAY DÖVRÜ KİMİ

Çınqıldərəlini Sovet İttifaqı Kommunist Partiyasının sıralarına qəbul eliyillər. Partiya bürosunda buna sual verillər ki, kişi, kommunist partiyasına keçməkdə sənin məqsədin nədi? Deyir:

– Kommunizm quruculuğunda fəal iştirak eləmək.

Deyir:

– Nətər olajax kommunizm quruculuğunda vəziyyət?

Deyir:

– Nətər olajax, sağ olmuş. Yemək-içmək xirtdəkdən, qabaxkı Niqalay dövrü kimi.

## 266. ŞALVARIMIZIN YAMAĞI GÖRÜKƏR

Genə Çınqıldərəlinin birini Sovet İttifaq Kommunist Partiyasının sıralarına qəbul eliyillər. Büroda sual eliyillər ki, iyirmi ikinci qurultay sovet xalqının qarşısında hansı mühüm məsələni qoyuf? Deyir ki, Amerika Birləşmiş Ştatlarına çatmaq və onu ötüb keçmək. Deyillər:

– Sənin münasibətin nədi?

Deyir:

– Vallah, çatmağa çatağ, amma keçmiyax.

Deyir:

– Axı niyə keçmiyax?

Deyir:

– Keçsək, daldan şalvarımızın yamağı görükər.

## 267. BIĞLARI TƏRPƏŞİRDİ

Kəndə ayı dadanıf. Ayı camaatın malın-heyvanın gejə gəlif məhv eliyir. Camaat fikirrəşir ki, neyniyək? Bir cantaraq kürd olur. Deyir:

– Qorxmuyun, mən onun yuvasın tapıf həll eliyəjəm məsələni.

Gedir axtarır, ayının kahasın tapır. Gəlir camaata hay salır, camaat gəlir. Deyir:

– Siz mənim belimə kəndiri bağlıyın, məni aşağı sallıyın. Elə ki ipi tərpətdim, onda məni çəkin, bilin ki, ayını öldürmüşəm.

Kaha dərindi. Bunu kəndirnən sallıyırlar, elə bu göydə ikən ayı kişinin başın bədəninnən ayırır. Kiş başdıyır çabalamağa. Çəkif çıxardıllar ki, kişinin başı yoxdu. O deyir, ə, bu kişinin başı hanı? Bu deyir, kişinin başı hanı? Biri deyir:

– Ə, onun başı var idi?

Deyir:

– Ə, vallah, görmədim.

Çağırıllar qızını. Deyir:

– Qızım, bu kişinin başı vardı, yoxsa yox idi?

Dedi:

– Vallah, başı olduğun bilmirəm, amma axşam xəşil yeyəndə bığı tərpəşirdi.

## 268. EVİ KİM YAĞMALAYIB?

Başbilən kəndində bir evə oğru girib bütün qiymətli şeyləri aparmışdı. Camaat toplaşdı. Götür-qoy etdilər ki, evi kim yağmalamış olar? Başbiləni çağırdılar. Onun da fikrini örgənmək istədilər. O, evin hər tərəfini diqqətlə nəzərdən keçirərək dedi:

– Ə, bunu bilməyə nə var? Evi yığan apardı də! Tez dağılışıb axtarın, tapıb kim olduğunu mənə deyin.

## 269. NİYƏ QALSIN NARAZI?

Arazın cənub tərəfindən Başbilən kəndinə bir Allah qonağı gəlir. Qonaq çox dilli-dilavər bir adam imiş. O, uşaqların əyin-başına baxıb deyir:

– Qardaş, görürəm çox kasıb yaşayırsan. İnşallah, bir də gələndə bu uşaqların hamısına təzə paltar gətirəcəm. Üstəlik atına da təzə yəhər-yüyən verəcəm.

Evin qadını işarə ilə kişini çölə çağırıb deyir:

– Ay kişi, belə səxavətli qonağa yaxşı bir süfrə açsaq yerinə düşər. Gəlsənə gümanımız gələn ala qazı kəsib qonağa yedirək, o da bizdən razı qalsın.

Belə də edirlər. Qonaq axşamdan ev sahibinə bərk-bərk tapşırır ki, dan yeri sökülməmiş atla məni Arazdan keçir, şəriklərimin gətirdiyi malları götürüb gələk, alverimizə başlayaq. Kişi qonağı tərkinə alıb Arazın sahilinə gətirir. Qonaq deyir:

– Qardaş, bu atın adı nədir?

Kişi deyir:

– Ayaz.

Qonaq deyir:

– Qardaş, bu yazıq at ikimizi də çaydan keçirə bilməz. Yaxşısı budur bir-bir keçək. Qoy atın başına uzun ip bağlıyaq. İpin bir ucu səndə qalsın. Mən atı minib o taya keçim, sonra sən ipi dart, qoy at gəlsin. Sən də min, keç mənə kömək elə.

Beləliklə, qonaq atı minib o taya keçir. İpi atın başından açıb bir quru kötüyə bağlayıb qışqırır:

– Ədə, çək getsin.

Kişi çəkə-çəkə kötüyü sahilə çıxardanda aldadıldığını başa düşür və köyütü də şələyib evə gəlir. İçəri girəndə arvadı nigarançılıqla soruşur:

– Ay kişi, görəsən qonaq bizdən narazı getmədi ki?

Yazıq kişi naçar gülümsəyib deyir:

– Ay arvad, qonaq yedi qazı, mindi Ayazı, keçdi Arazı, mənə yüklədi pazı, daha niyə qalsın narazı?

## 270. BİZDƏN EŞŞƏK OLACAQ, ADAM OLMAYACAQ

Bir başbilənli axşamdan o birindən xahiş edir ki, bir günlüyə ulağını və uşaqlarından birini kövşəndən ot gətirmək üçün köməyə göndərsin. Səhər açılır, uşaqdan və ulaqdan bir xəbər çıxmır. Kişi uşağına deyir ki, çağır qonşuya denən, dədəm sənə söz demişdi, bəs nə oldu?

Uşaq çıxıb qonşunu səsləyir. Qonşunun usağı hay verir ki, bəs nə istəyirsən? Uşaq bərkdən qışqıra-qışqıra deyir:

– Ə, dədəm dədənə eşşək demişdi, nə oldu?

İkinci uşaq xəbəri atasına çatdırır və bir azdan evdən bayıra çıxıb bərkdən deyir:

– Dədənə de ki, dədəm deyir, bizdən eşşək olacaq, adam olmayacaq.

## 271. LƏZGİ ATASINA QURAN OXUDUR

Ləzgi təsadüfən bura dostugilə gəlir. Gəlir ki, hüzr düşüf. Gedir hüzür məclisinə. Bu görür ki, hərə mollaya beş manat verir, deyir molla, mənim atama Quran oxu. Molla da oxuyur. Ləzgiyə də fərz olur ki, mən də atama Quran oxudum. Çıxardıf on manat verir. Deyir:

– Mulla qardaş, al bu on manatı məni atasına bir Quran oxu.

Molla alır Quran oxuyur, axırda da deyir:

– Allah Quran oxudanın da, Quran oxuyanın da atasına rəhmət eləsin, – deyəndə ləzgi fikirrəşir ki, bu öz atasın mənim atama qatdı. Bir onnux da verir. Deyir:

– Mulla qardaş, al bu on manatı məni atasına Quran oxu.

Molla bir də oxuyur. Gəlir o yerə çatır, deyir:

– Allah Quran oxudanın da, Quran oxuyanın da atasına rəhmət eləsin.

Çıxardır bir onnux da verir. Deyir:

– Mulla qardaş, al bu on manatı məni atasına Quran oxu. Öz atasının başın məni atasının quyuğuna bağlama.

## 272. QOY DESİNLƏR SAHPƏLƏNGİN FERMASIDIR

Şahpələng adında bir kişi oluf. Dayısı Cəlil də kalxoz sədri oluf. Hamı qoyun birqədiri imiş. Bu da gəlif ki, mən də qoyun birqədiri olajam. Gedirəm dayıma deyəm, maa qoyun versin. Gəlir.

– A dayı, salamməlöyküm.

– Əlöykümətsalam.

– Mən də birqədir olmaq isdiyirəm, maa iki yüz qoyun ver.

Bu da əlləm-qəlləm, fırıldaqçı bir kişiymiş ha. Dayısı deyif:

– Çıx ayana get, bajıoğlu. Sən bajaran iş döyül. Canavara qırdırajaxsan.

Ayağın diriyif ki, yox ey, mənə qoyun ver. Sporlaşıflar. Axırı deyir:

– Belə cəhənnəm olsun ey saxlıyajam, saxlamıyajam. Qoy desinnər ki, o ferma Şahpələngin fermasıdı.

## 273. PAPAĞI YERƏ QOY, İT SƏNƏ DƏYMƏYƏCƏK

Bir dəfə bular fermada olanda gürcülər gəlir bura. Bir gürcü buların fermasının böyrünnən keçəndə itdər düşür bu gürcünü üsdünə. Görür it bunu yeyəjək da. Şahpələng də bunu görür, gürcünün də papağına gözü düşüb. Deyib:

– Ə, kopoğlu, papağını yerə qoy, it saa dəymiyəjək.

Gürcü papağı qoyur yerə, qaçır. Şahpələng də gedib papağı götürür.

## 274. DAŞI MƏNƏ HEYVAN ADIYNAN GÖSTƏRİB

Şahpələng Baxış kişiynən həmgələ, yəni birgə heyvana gedirmişdər. Baxış qoyun birqədiri imiş, Şahpələng də onun çobanıdı. Yaylağa gedəndə Şahpələng heyvanın birin birqədirdən xəbərsiz Ağdamda satır. Axı sayılanda kəm gələjək, onda da işin üsdü açılajax. Nətər eləsin, neynəsin? Bir xeylax köçdən aralanmışdı Baxış. Ayannan çağırır ki, ay Baxış, ay Baxış.

– Ayə nədi?

– Bəs heyvanın biri qaldı.

Yekə ağ daşın birin göstərir. Baxış da əlin qoyur alnına baxır, görür eeey uzaxdan nəsə ağarer. Köç də elə şeydi ki, qoyun maşın kalonu kimi gedir, da geri qayıtmaq mümkün döyül. Qaldı, qaldı da. Baxış da Şahpələngdən şübhələner, gəlir ağaran şeyin yanına.

Görür bir daşdı. Şahpələngin də anasının köçü gəlirmiş. Köç gələndə Baxış Şahpələngin anası Pərzadı çağırır. Deyir:

– Ay Pərzad, ay Pərzad, bura gəl.

Deyir:

– Nədi ədə?

Deyir:

– Bu heyvanı götür qoy qucağıma, bu yorulub, bunu aparım.

Deyir:

– Allah ayıbını örtsün, a bala, bu daşdı axı, qoyun deyil.

Deyir:

– Bunu oğlun Şahpələng maa heyvan adıynan göstərib.

## 275. UŞAĞI BELƏ SAXLAYACAQDIN?

Bir gün də, deyir, ajdıx ili oluf. Salmanın babası birqadir oluf, Şahpələng də onun çobanı oluf. Şahpələng gejə gedif qoyunu sağermiş. Kalxozdux vaxtı olur, qoymurlar qoyunu sağmağa. Sabah gəlif bunnan plan istiyillər axı. Baxış sabah durur ki, qoyunun on-on beşinin südü yoxdu. Bilir ki, bunu ancax Şahpələng eliyə bilər. Axşam qoyunu dolduror yerinə. Yorğan-döşəyi saldırer, arvada deyir, maa banka-manka. Neniyillər, bu əmələ gəlmir. Deyir:

– Şahpələngi çağırın, mən ölürəm.

Qonum-qonşu hamı topalanır başına. Özünü elə vəziyyətə qoyur ki, guya bu ölümcüldü. Deyir:

– Ay Şahpələng, mən ölürəm. Bu fermanı, arvadı, uşağı – hamısını saa tapşırıram.

Hamı ağlaşer, sıtqaşer. Şahpələng elə bilir artıq bu ölür. Vedrəni götürür cumur qoyunu sağmağa. Südü sağanda səs çıxmasın deyə vedrənin də ağzına cuna bağlıyır. Elə bir qoyun, iki qoyun sağanda Baxış boynunun dalınnan yapışır bunun. Deyir:

– Şahpələng, uşağı belə saxlıyajaxdın? Saa mən uşax tapşırmışam axı.

## 276. ÖZÜNƏ ÇOBAN TAP

Xanalı qoyun birqədiridi, Şahpələng də onun çobanıdı. Ağdərədən yuxarıda Vəngin dərəsi var, ordan keçif gedirik yaylağa. Ora da meşədi, yol dardı. Dağda Şahpələng Xanalı kişiyə deyir ki, Xanalı kişi, soora deməynən ki, Şahpələng məni yolda qoydu. Da mən qoyuna getmirəm, özünə çoban tap.

Yolun ortasıdı, orda çoban var, özünə çoban tapa? Deyir:

– Ay Şahpələng, neçə kilosan?

Deyir:

– Yetmiş kilo varam.

Deyir:

– Mənim başıma səni çoban gətdiyim yerdə yetmiş kilo daş düşəydi. Daa burdan da dar yer var. Hər tərəf meşə, dar yol. Qoyunun qırağınnan çəkilsən qoyun dağılajax meşəyə.

## 277. ŞAHPƏLƏNG – QOYUNUN BİRİ BİR ÇÖRƏK

Ağdamın yanınnan köş gedəndə Şahpələng görür çörək bişirellər. Birqadirdən xəlvət kalxozun qoyunun birini tutuf verif, çörək alıf. Onnan adın qoyuflar ki, Şahpələng – qoyunun biri bir çörək.

## 278. ALLAH VERDİYİ CANI ALA BİLMİR, SƏN PULU NƏTƏR ALACAQSAN?

İman Nəsibə borc pul verifmiş, üstünnən nə qədər keçir Nəsib pulu qaytarmır. Bir gün İman qoyun otarırmış, Nəsib də atnan yoldan keçermiş. İman da qojalıf, gözü yaxşı görmör. Aralıdan çağırer:

– Ay adam, kimsən?

Nəsib deyir:

– Adamam dana, yolnan gederəm.

Deyir:

– Ə, Nəsibi tanımersan?

Deyir:

– Niyə tanımeram.

Dedi:

– Ə, ona denən ki, ona verdiyim amanatdarı göndərsin.

Deyir:

– Ə, rəhmətdiyin oğlu, Allah verdiyi canı Nəsibdən ala bilmir. Sən onnan o pulu nətər ala bilərsən?

## 279. SƏNİ YERDƏN GÖTÜRMÜŞƏM

Nəsib kişini yemçilik birqadiri təyin eliyirlər. İsgəndər Quliyev də onda raykommuş. Rayona Bakraboçi qəzetinnən müxbir gəlir. Deyillər ki, nəyi yoxluyajaxsan? Müxbir deyir ki, heyvandarlığın vəziyyətini, silosun basdırılmasını, pambığın vəziyyətini. Deyillər, neyniyək, nətər eliyək? Deyillər, ə, bunu aparın Aşıxlıya, Nəsib kişinin yanına. Bəlkə Nəsib bizi vəziyyətdən çıxarda. Hələ silos basdırılmıyıf. Nəsib kişi bu rusu alıf yanına, aparır pıtraxlığa. Pıtrax bitkisi də pambığın qənimidi da. Müxbir deyir:

– Bura nədi?

Deyir:

– Bura pambıxdı.

Deyir:

– Axı başqa sahələrdə pambıx hələ balacadı?

Deyir:

– Orda yaxşı qulluq eləmiyiflər, ona görə balacadı.

Pambığı belə yola verir. Müxbir deyir:

– Bəs silos quyuları?

Deyir:

– Gəl bəri gedək.

Aparır qəbirstannığa. Təzə qəbrləri göstərir deyir ki, bax burda beş ton basdırılıf, orda on ton basdırılıf.

Bakraboçidə böyük məqalə çıxır. Gətirillər katibə ki, əşi, müxbir yaman razı gedif. Çağırıf Nəsib kişini.

– Ə, öyün yıxılsın, neynəmisən?

Deyir:

– Gördüm sən də ölmüsən, ölülər də ölüf. Ölüynən səni mən götürməyə borcluydum. Səni yerdən götürmüşəm.

## 280. BƏLKƏ RAYONDAN SÖNÜB

Tatallarda Zili kişi var, ferma müdiri işdiyirdi. Nivaların təzə çıxan vaxtıdı. Bu da bir yaxşı Niva alıf, amma texnikadan o qədər də başı çıxmırdı. Bir gün rayondan gələndə Eyvazalların köprüsünnən keçif aşağı enəndə şər vaxdı olur, maşının işıxları sönür. Kəntdən gələnnər buna yaxınnaşıllar.

– Əşi, noluf?

Deyir:

– Belə-belə, birdən-birə işığı söndü.

Kapotu qaldırıllar, orasın-burasın qurcalıyıllar ki, düzəldələr. Bunun da başı çıxan döyül. Kənarda duruf baxır ki, kimsə düzəldəjək. Axırda səbri çatmır, deyir:

– Ə, qıblasız, bir baxın görün bəlkə rayonnan keçib.

## 281. UMUD OLDUM KEÇİYƏ

İmişlidə Zülfüqar adlı buxaltır vardı. Evinə gedəndə atama deyif ki, evə gedirəm, uşaqların yanına. Əliboş gedə bilmirəm. Zibi kişi Alı oğlu Musaya tapşırıf ki, buna bir qoyun ver, aparıf satsın. Bu kişi də bir az "insaflı" adammış. Buna elə "çəlimli" qoyun verir ki... Bu yazıx qoyunu aparır, görür vallah, bunun üzünə baxan yoxdu. Ha fikirrəşir, fikirrəşir, neyniyim? Görür bir keçi var, elə qaçır o yana, bu yana, yiyəsi yoxdu. Keçini buynuzduyur tutur. Satır, elə qiymətdəşif pulunu alanda keçinin yiyəsi çıxır ki, ə, qardaş. Sən axı niyə mənim keçimi satırsan? Keçinin pulun alır, çıxır gedir. İndi bu qayıdır ki, qoyunun tapa, görür qoyun da yoxdu. Kor-peşman Zibi kişinin yanına gəlir. Qoyunu oğurladıf axı. Kişi deyir:

– Nətər oldu, qoyunu sata bildin?

Deyir:

– Zibi əmi,

Umud oldum keçiyə,  
Qoyunu verdim heş neçəyə.  
Gedin deyin Türfəyə,  
Çörəyi tez büksün sürfəyə.

Çörəyi nejə yeyim mən,
Dərdimi kimə deyim mən.

Rəhmətdik Musa kişini çağırır ki, get evində nə qədər pulun var, gətir bu kişini yola sal.

## 282. MÜƏLLİM HƏSƏN, BAYBAY HƏSƏN, DÜMBÜL HƏSƏN...

Bizdə Rüstəm Səfərəliyev oluf, 60-cı illərdə Tərtərdə katib işdiyirmiş. Bir gün Qaynağa təsərrüfata baxmağa gəlifmiş. O vaxdı da camaat boş duranda danışığ olurmuş. Beş nəfər kişi də yolun qırağında duruf söhbət eliyirmiş. Səfərəliyev maşını saxlıyıb bulardan soruşur ki, burda niyə durmusuz? Biri deyif ki, yoldaş Səfərəliyev, işimiz vardı. Deyir ki, adın nədi? Deyif:

– Həsən?

O birisinnən soruşuf ki, a kişi, sənin adı nədi? Deyif:

– Mənim də adım Həsəndi.

Beş nəfər oluflar, təsadüfən beşinin də adı Həsən oluf. Deyif:

– Adam balasısınız, məni ələ salmısınız?

Müəllim Həsən vardı, o ayağa durur. Deyif ki, yoldaş Səfərəliyev, bircə dəyqə dayan, mən bir söz deyim. Deyif ki, buyur, eşidirəm. Deyif ki, mən müəllim Həsən, bu baybay Həsən, bu dümbül Həsən, bu dokquz-dokquz Həsən, bu da qancıq Həsən.

## 283. TÜLKÜ BƏY

Babamın bir dostu vardı, tez-tez bunlara qonaq gəlib gedərmiş. Bir günnəri babam Gəncədən gələndə atın arpasının vaxdı çatmış olur. Keçmiş kişilər də atın arpasının vaxdı keçəndə narahat olurmuşdar. Deyir, atın arpa vaxdıdı, gedim dostumgildə ata arpa verim, soora gedim. Atın üsdə gələndə görüf ki, dostu qapıda fırranır. Ev yiyəsi də hiss eliyif ki, bunlara gələn var, qaçıf girif oxura. Atam gəlif dostunu soruşuf. Deyiflər:

– Yoxdu evdə.

Deyif ki, a bajı, bəs atın arpa vaxdıdı. Atı çəkim tövləyə, orda arpa verim.

Arvad deyif:

– Yaxşı.

Girif tövləyə, atı oxurun yanına çəkəndə baxıf ki, dostu burdadı. Deyif:

A Mülkü bəy, Mülkü bəy
Bürünmüsən kürkü bəy
Bizə gələndə olurdun aslan,
İndi olmusan tülkü bəy.

## 284. DUA

Bir gün Allahqulu kişinin arvadı bərk xəstələnir. Allahqulu kişi arvadın çörəyini özü hazırlayır, onun qayğısına qalır, sonra əllərini göyə qaldırıb Allaha dua edir:

– Ya rəbbim, görürsən ki, kişisiz arvad üçün hər şey çətindir. Səni and verirəm öz allahlığına, mənim bu arvadımı heş vaxt dul qoyma. Dul qoyursansa, məni dul qoy, canım birdəfəlik qurtarsın.

Arvad duanın fərqinə varmadan başını yorğandan çıxardıb deyir:

– Bax, mənim qədrimi belə bilərsən ha.

## 285. ALLAHQULUNUN SEYİDLİYİ

Allahqulu kişi bəzən başına əmmamə qoyub, əlinə əsa, təsbeh götürüb yad obalarda özünü gah seyid, gah molla, gah da baxıcı kimi qələmə verərmiş. Çox vaxt da təsadüf nəticəsində dedikləri düz çıxar, özünün də başa düşmədiyi cızma-qaralardan ibarət duaları çin olarmış.

Uzun müddət övladı olmayan bir qadın bir gün Allahqulu ağaya öz dərdini danışır. Allahqulu kişi əlindəki uzun təsbehi çevirə-çevirə bu dərdin əlacını göstərir.

– Get qapınızdakı hinduşkalardan birini kəs, təmizləyib salafan torbaya bük, mənim getdiyim yolun kənarındakı yulğun ağacının dibində basdır. Mənim mübarək qədəmlərim o yulğun ağacının yanınnan keçəndən sonra, bir il keçməz ki, Allah sənə övlad verər.

Sözsüz ki, qadın ağanın dediklərinin hamısına əməl edir. Allahqulu isə obasına dönəndə hələ də istiliyi bədənində olan hinduşkanın cəmdəyini öz dədəsinin malı kimi qoltuğuna vurub evinə gedir.

Deyilənə görə, təsadüfən həmən qadın hamilə olur, övladı dünyaya gəlir. Beləliklə, Allahqulu kişi yad obada sınanmış, ağır nəfəsli bir seyid kimi tanınır.

## 286. QORXU

Allahqulu kişi seyidlik, mollalıq elədiyi vaxt böyük bir obaya düşür. Orada beş-altı baş çamışa rast gələn Allahqulu, camışı birinci dəfə görürmüş kimi:

– Əstafurullah, bunlar nə əcayib heyvanlardı, mən onlardan qorxuram, – deyir.

Avam arvadlar seyidin əl-ayağına döşənib deyirlər:

– Cəddinə qurban olaq ağa, qorxma, bunlar camışdır. Biz indi onları bağlayarıq.

Allahqulu kişi əl altdan camışların hara bağlandığını, oba itlərinin gecələr bağlı olduğunu öyrənir. Elə həmin gecə camışları oğurlayıb aparır. Heç kimin ağlına gəlmir ki, bu, camışdan qorxan seyidin işidir.

## 287. BEL ƏHAVALATI

Allahqulu kişinin suçu işlədiyi vaxtlardı. Bir gün bibisi qızı Səkinəgilə gəlir. Səkinə dayısı oğlunun qəfil gəlişinə sevinərək:

– Səndən çıxmayan iş, ay Allahqulu, nə yaxşı bizi yada salmısan? – deyir.

Allahqulu kişi qanıqara halda:

– Eh, ay bibi qızı, belim qırılıb! – deyə, dərindən köks ötürür.

Səkinə arvad tez əl-ayağa düşür. İsti su qoyub Allahqulu kişinin əl-üzünü, ayağını yuyur. Süfrə açıb olan-olmazından onun qabağına qoyur.

Allahqulu kişi doyunca yeyib-içir. Səkinə arvad bir də nigarançılıqla soruşur:

– Sən allah, ürəyimi üzmə, de görək nolub?

Allahqulu kişi köks ötürür, başını yırğalayıb deyir:

– Belim qırılıb ey, belim!

Səkinə arvad tez yorğan-döşək açıb Allahqulu kişi üçün yer salır. Allahqulu kişi iki saat xorxa-xorla yatır, xeyli istirahət edir. Durduqdan sonra pürrəngi çay içib işinə qayıdarkən Səkinə arvad bir də soruşur:

– Ay dayı oğlu, dərdini demədin axı, mən də yaman nigaran qadım.

Allahqulu kişi bu dəfə olduqca laqeyidcə:

– A rəhmətliyin qızı, su suvardığım yerdə belin tiyəsi qırıldı, onu deyirəm dayna, – deyir.

## 288. KİRVƏLİK

Allahqulu kişinin 90 yaşı tamam olanda 80 yaşlı qarısı Zibəndə dünyasını dəyişir. Özünün razılığı və oğlanlarının təkidi ilə cənub rayonlarının birindən qoca bir arvad alır. Kənd cavanları Allahqulu kişini ələ salmaq məqsədi ilə tez-tez ondan soruşurlar:

– Əşi, de görək oğlunun kirvəsi kim olacaq?

Allahqulu kişi halını pozmadan:

– Qabaqkı uşaqlara kirvə tutanda bir az naşı olmuşam. Gərək bu dəfə yüz ölçəm, bir biçəm.

Heş kəs bilməzdi ki, Allahqulu kişi zarafat edir, yoxsa bu sözləri ciddi deyir.

## 289. ƏRİM YADIMA DÜŞÜB

Allahqulu kişinin uzaq rayonda yaşayan oğulluğu bir gün anasına baş çəkməyə gəlir. Süfrə başında Allahqulu kişinin birinci arvadı yadına düşür, ağlamağa başlayır. Arvad da ona qoşulur. Dilxor olan oğlu deyir:

– Ay ana, sən niyə ağlıyırsan?

Arvad kələğayının ucu ilə gözlərinin yaşını silib deyir:

– Mənim də birinci ərim yadıma düşüb.

# İNAMLAR, TÜRKƏÇARƏLƏR

1. Marta "rəncbər arvadın boşuyan ay" deyillər. Rəncbər gedif birinə əkinçilik eliyir. O da deyir ki, ək bejər, iki mənim, bir sənin. Vaxt gəlir, oktyabr çıxır, noyabr çıxır, dekabr çıxır, yanvar, fevral çıxır, mart gəlir, taxıl qalxmıyıf. Rəncbər gedif arvad-uşağı boşuyur ki, mən sizi nəynən saxlıyajam. Novruz bayramınnan soora bir gejənin içində taxıl qalxır. Ona görə bu aya "rəncbər arvadını boşuyan ay" deyillər. Onnan soora taxıl hər gejə bir buğda boyu qalxır. Dekabra "çömçə qurutmaz" deyiflər. Gün o qədər gödək olur ki, qabaxlar ağac çömçələr olurdu, onu yuyuf asırdılar, gün onu axşamatan qurutmurdu. Avqust "qora bişirən" aydı, oktyabr "ceyran kölgəyə gələn" aydı. May "leysan" ayıdı. Qabax may ayında toy olmazdı. Deyərdilər köç ayıdı, düşər-düşməzi olar.

2. Böyük çilənin soyuğu sərt olmur, amma kiçik çilənin ömrü az olsa da, soyuğu sərt olur. Boz ayda isə günortayatan soyuq olur, günortadan soora isti olur. Kiçik çilə böyük çiləyə deyir ki, sən gələn vaxdı mən gəlsəm, hamilə arvaddara uşaq saldıraram, arvaddarın əlin un təknəsində donduraram. Boz ay da deyir ki, mən gələndə günortaya qədər at qulun salar, günortadan soora it ləhliyər.

3. Novruz bayramınnan soora axı soyuğ olur. Ona görə qırx kötük ehtiyat görərdilər ki, Novruzdan soora hər gün bir kötük yanmalıdı. Qırx günnən soora qanuni yaz girir.

4. Bizim kəndin (Eyvazalılar kəndinin – top.) əsas günü tək günüdü – ikinci gün. Elçiliyə də tək günü gedəllər, toyunu eliyən də tək günü eliyər. Birinci gün nəs gündü. Tutax ki, Bakıda bir işim var. Birinci gün getmərəm. Həmən gün qapıda-bacada öz işimnən məşğul olaram. Getmərəm ki, yolda bir qəza olar, səni tapmaram. Üçüncü gün duz günüdü. Çərşənbədə deyəllər tərpənmə. Dördüncü gün adna günüdü. Həmin gün ölülərin günüdü, müqəddəs gündü. Cuma boş gündü. Olar da, olmaz da. Amma ən yaxşı gün tək günüdü.

5. Yeddi il quzuya gedənə o dünyada inkir-minkir yoxdu, pramoy cənnətdikdi. Çünki zulumu bu dünyada çəker. Quzu nadinc olor, axşamatan yüyürör, bu da onun dalınca.

6. Səhər-səhər gün çıxanda dan yeri qıpqırmızıdısa, həmin gün hava küləkli olajax. Gejə ulduzdar hədinnən artıx böyük və parlaqdısa, həmən gejə möhkəm şaxtadır. Payızdan duman gəlirsə, deyirlər bu qış qarlı geçəjəh. Yaz dumanı bar gətirər, payız dumanı, qış dumanı qar gətirər.

7. Bizim heyvanın birinə dedilər ki, bu heyvan dil mundarıdı. Onun ətini mən yemədim. Ölüm ayağında olan heyvanı kəsellər, qan çıxır çıxmağına, amma tam çıxmır. Biri böyürdən deyir ki, sən öl, bu mındar oldu. Əslində qan çıxıf, o halaldı. Amma bunu diliynən mundarradı. Ona bizdə dil mundarı deyillər.

8. Adna axşamı evi boş qoymaq olmaz, onda insanın ruhu qarğıyar.

9. Çiləli uşaq yerimer. Onda onu ana bətnində olanda dədəsi ölən uşağın ayağının arasınnan keçirellər. Üş dəfə onun ayağının arasınnan keçirellər, onnan soora uşağın çiləsi kəsiler.

10. Biri deyir ki, filankəsin uşağı oluf, qarnım götürmör, onu öldürəjəm. Bir şey gətirer. Deyir, ağaz, bunu sana gətirmişəm, bunu ye. Yeyəndə o da olor həmzat. Allahın adicə bir yeməyin götürə, apara, deyə, a bala, bunu bişirmişəm, sən yeginən. Onda həmzatını ona verir.

11. Nəzər dəyən uşağın kiprikləri qoş-qoş olor, gözünün içi qızarer, uşaq durmadan qışqırer. Onda bilirsən, bu uşaq nəzərrənib. Uşağın nəzər damarrarı hər iki çiyninin ardında olor. Həmin nəzər damarrarın oxaladın, onda o uşax ayılır. Yox, qulaq asmadın, keçib gedər dedinsə, uşaq ölməsə də, şikkatdı olor.

12. Ruf tutan adamın boynunun dalında ağrı olor, başı ağrer. Rufu qaytarmaq belədi. Biri gətirer çöyəri buraya qoyor, qısmatın birin buraya, bir qara kömürü bu tərəfə, birin də o tərəfə qoyor. Qaşığın sapınnan tutuf deyir, Şirinbəyimi ruf tutufsa, bu qaşıq qarannığa getsin. Tutmoyufsa, qısmata getsin. Sən də ölən atanın, ananın, qohum-əqrabanın adını çəkersən. Hansının adı çəkiləndə qaşıq kömürə gedərsə, onda bilersən ki, səni filankəsin rufu tutuf. Bu səfər də soruşor ki, de görüm nə istəmisən? Gənə sadalayır. Bir toyuq ətinnən başqa bütün bimişlərin adını çəkersən, Quranın adını çəkersən. Toyux qatıf-qarışdırer, ona görə toyuğu deməzdər. O da müəyyən edir ki, bunu filankəsin rufu tutuf, özü də Quran ister. Mən də o axşam beş-on manat yolloram Quran oxuyannara, atama bir sura Quran oxudoram, onnan da çıxıf geder. Qaşığı sap eliyəndə kömürə deyil, qısmata gedersə, onda səni ruf tutmoyuf, soyuqdəymədən-zaddan sənin başın ağrer.

13. Rəhmətlik dədəm deyirdi ki, bir erməni gedif ova, donuf qalıf. Haxçığ ağlıyıf. Yaşdı kişilər deyif ki, gejə yarısınatan donufsa, ölüf, donmuyufsa, ölmüyüf. Deyir, nədən bilirsən? Deyir, bu gejə yerin altına buğ yenif, qış yarı oluf. Soyuğ güjdən düşüf.

14. Atamın əmisi qızının uşağı qalmırdı. Gedif bibimin üstünə, deyif mən həmzatımı sənə verdim, sən sağ canını mənə ver. Bibim verifdi. Atamın əmisi qızının daldan üç oğlu oldu, üçü də qaldı, amma bibimin neçə uşağı oldusa, hamısı öldü. Bibim deyir, İrana gedəndə ərim getdi axundun yanına, həmzat duası yazdırdı, onnan soora olan uşaqlar qaldı.

Bizim bir adətimiz var, qırxlı uşağın üstünə qoymurux adam gələ. Ayağı ağır adam gələndə də uşaq ağlıyır, xəstələnir, təbdən təbə düşür. Həmzat elə şeydi ki, ağac meyvə gətirən vaxdı xain ürəknən gedəndə o ağac da quruyur.

15. Bir qırxlı qadın digər qırxlı qadının üstünə gedəndə deyillər ki, onun çiləsi bunu basır. Onda uşaq yerimir. Sən də mənim

balam, məni bağışla, mənim böyük qızımın uşağı yerimədi. Onda dedilər ki, hansı ananın ekiz uşağı olursa, onun qıçının arasınnan üç adna günü üç dəfə keçirillər, onun çiləsini kəsir. Bir də iki çiləli qadın birləşəndə bu sancağını ona verir, o sancağını buna verir. Onda basmır çilələri. Deyillər, çilə bəzisinin ayağına düşür, bəzisinin dilinə. Ayağına düşəndə uşaq yerimir, dilinə düşəndə gej danışır. Mənim nəvəm danışmırdı. Onun dilinə düşmüşdü. Çiləsini kəsənnən soora danışdı.

16. Uşaq olan vaxdı arvadı qan aparer. Burnu, qulağı təmiz batıf geder. Qapıda qoyunu kəsillər, tez ürəyin gətirif o xəsdəyə sordorollar, o yaxşı olor. Bir də pendirnən, dəvənin yunuynan onun qabağın alırlar. Pendiri basıllar qan gələr yerə, dəvənin yunun da yandırıb basellar qan gələn yerə, onun qabağın alıllar.

17. Vəkil anadan olanda uşax ayağınnan gəlmişdi. Üş də hadıxçı vardı. Ana öldü. Dedik, heç olmasa, uşaq ölməsin. Qarnının üsdən basıb uşağı çıxartdıx. Anam getdi, bir toyux gətdi. Toyuğun başını soxdu uşağın ağzına. Onda toyuğ öldü, uşaq dirildi.

18. Uşaq azarreerdi, anam ona bir küpə salerdi. Bir toyuğun başın kəserdi. Onun qanıynan uşağın bədənin qannıyırdı, pərpülerdi. Qayıderdi o toyuğu bükördü bir ağa, öyün üsdünnən aterdi dala. Hara düşürdüsə, orda yeri qazıf basdırerdi. Toyuğu orda basdırerdi, uşax dirilerdi. Leşin atmasan da, başınnan əl-ayağın gərək atasan.

19. Şər vaxdı surfa salmazdar. Onda ruza paylanır. Görəndə ki, sən surfa açmısan, deyir bunun onsuz da varıdı, aparım o birisinə verim.

20. Surfanı çox saxlamaq olmaz. Yedinsə, onu gərək yığışdırasan. Mələykələr, deyir, onu qolları üsdə tutur. Deyillər tez yesinnər qolum qırıldı, tez götürüm.

21. İlk dəfə yatdığın evdə gördüyün yuxu yaxşı yuxu olur.

22. İlan ki qurbağanı tutur ey. Qurbağanı ilanın ağzınnan alasan, qurudasan, uşağı olmuyan qadının üstünə taxasan. Bir ilə qədər həmin qadın uşağa qalmalıdı.

23. Qara qoçun dərisinə dua yazıb evə qoysan, o evdən cin-şeytan qaçar.

24. Yemək yeyəndə "pismillah" deyəsən. Bir nəfər "pismillah" deməmiş yemək yeyirdi, cin də onnan barabar yeyirdi. Yeməyin ortasında yadına düşdü ki, mən "pismillah" deməmişəm. "Pismillah" deyəndə cin yediyini qaba qusdu getdi.

25. Qız uşağı qonşuya çörəyə getsə, onu əliboş qaytarmaq olmaz. Günah sayılır.

26. Bir dəfə Ağcabədidə möhkəm quraxlıx oldu. Quraxlıxdan yer çatdamışdı, qoyunun dal qılçası çatdaxlara düşüb sınırdı. Qoyun ajınnan qırılırdı. Kəndimizdə bir molla vardı. Gəldilər buna dedilər ki, bir dua elə yağış yağsın. Dedi, gedin mana köhnə at kəlləsi tapın gətirin, bir də qıl sijim. Sijimi xalta kimi kəlləyə bağladı, bir dua yazdı. Dedi, aparın bunu Kürə salın, elə bir mıx çalın ki, su bunu aparmasın. Deyir, canınçün, bir saat çəkmədi yer-göy qopdu. Kişi çığırdı ki, gedin kəlləni çıxardın. Onu sudan çıxartdılar, gətirif yerə qoyannan soora yağış kəsdi.

# ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

1.– A kələ, hara gedirsən?
Bərkdən deyir:
– Duza.
Qayıdanda soruşular?
– A kələ, hardan gəlirsən?
Ölə-ölə deyir:
– Duzdan, duzdan.

2. Ağlın hallac bazarı vurur.

3. Ağzın aşa çatmamış, başın daşa çatdı.

4. Axsağ atın kor nalbəndi olar (Nalbənd mıxı atın dırnağına vurmalıdı, sonra da ujun əyməlidi. Nalbənd naşı olanda mıxı mayaya vurur, at ayağın yerə basanda ayağı axser. Nalbənd kordu ki, at axsıyır. Onçun deyillər ki, axsağ atın kor nalbəndi olar).

5. Ajdan ləlöyün[36] törüyər.

6. Analı qız ərə gedər, anasız qızın sözü gedər.

7. Arpanı ötür, buğdanı götür (Arpa nə qədər çox yetişsə də dən buraxmır, amma buğdanı gej biçsən sünbülü dən buraxır).

8. Atı cinsi yorar. = Atın bağrını cinsi yarar.

9. Bacılarım ərdədi, amma anam bu gün də hər bazarrıx eliyəndə onnar üçün nəsə aler. Dedim, ay ana, işin-peşən yoxdu? Dedi, yox ey, ay bala. Qızın gözü dədəsi öyündədi.

---

[36] Heç nəyi olmuyana ləlöyün deyirlər.

10. Bir gün atam dedi, oğul, biz beş qardaş idik. Heç hansımızın yurdunda uşaq qalmadı, bircə sən qaldın. Sənə bir-iki söz deyim. Dedi ki, insanın yazığınnan, malın arığınnan özünü gözlə. İnsanın yazığına kömək eliyəjəhsən, dirçələndə sənə buynuz göstərəjək. Malın arığını kökəldəjəhsən, səni təpiknən vurajax. Dedi, oğul, sonradan kişi olan adamdan özünü gözlə. Elə bil mənim heş nəyim yoxdu, sonradan qəfil varranmışam. Sonradan kişi olan bax odu. Ondan özünüzü gözlüyün. Dedi, bala, sənə yüz adam yüz söz deyər. Fikirrəş, sözü deyən adam sənnən ağıllıdısa, o yüz sözün içinnən ikisin-üçün götür, qalanın tulla.

Onun dediyinin hamısına əməl elədim, amma insanın yazığı, malın arığına onun dediyi kimi ola bilmədim. Kökəltdim, məni vurdu, kömək elədim, axırda salam da vermədi.

11. Bir nəfər çox danışanda deyirdilər ki, noluf, Bərxun dəyirmanısan? Bərxun dəyirmanı da Tərtər rayonunun mərkəzində idi. O qədər böyük idi ki, pər bir dəfə fırranıb başa çatana qədər dəyirman daşı qırx dəfə fırranırdı.

12. Biri çətinniyə düşəndə deyillər, görürsən dözmədi. Qaraçuxaynan ağçuxa indi məlum oldu.

13. Bizim kənddən biri Xalacdan bir qız götürüf qaçmışdı. Qızın valideynləri tökülüf gəliflər bizim kəndə. Qızın anası da ötkəm qadındı. Düşüf qabağa deyir, hanı o tülkü. Atam deyif, dayan. Toyuq qığıldamasa, tülkü onun yerini nə bilirdi. Toyux səs çıxardıf, tülkü də gedif tapıf da.

14. Dam tikmə, dağlar səni[37],
Bağ salma, bağlar səni.
Saxla dörd ayaxlı,
O da saxlar səni.

[37] Söyləyicinin dediyinə görə bu məsəli Hacı Qasım Çələbi çəkərdi.

15. Dayıynan get dağda dolan,
Əmiynən bağda dolanma.

16. Deyir bir kürd gedirmiş. Bir daşın divinnən bir keçi balası tapır. Keçi doğuf, balasını qoyuf getmişimiş. Götürüf gəlir. Hər o daşın divinən keçəndə deyir ki, burda oxlax var, gedim götürüm. Bu da elə bir məsəldi ki, deyir bir oxlax tapanda, həməşə gözün daşın divində qalmasın.

17. Deyir, qaçağın evi olmaz, oğrunun çörəyi olmaz, qumarbazın da pulu.

18. Dədəm əkir tənbəkini,
Mən bilirəm ondakını.

19. El arasında deyillər, qaraləçəhlinin ahı yerdə qalmır. Yəni aylәsini itirən adamın ahı yerdə qalmır.

20. Elə yalan danışırsan ki, it yesə gözü ağarar (İtin mədəsi o qədə möhkəmdir ki, daşı da əridir. Gör bunun yalanı nə qədər güclüdür ki, itin mədəsi onu əridə bilmir).

21. Elin o başı, bu başı olmaz.

22. Erməninin qojalanı donuza gedər (Donuz qaşmır-eləmir, yığ bir bataqlığa, qoy orda yatışsınnar).

23. Elə bilirdi ər bəhməz, bına dəyməz.

24. Eşitdiyim nisyədi, gördüyüm nağdıdı.

25. Əliylə xəmir ovan, gözü ilə dana qovan kimdi? Kim olacaq, tərəkəmə arvadı.

26. Ərə gedən qızların dilinin altında qənd gərək,
Qaynanalı gəlinin dilinin altında fənd gərək.

27. Ət yeyən quş dimdiyinnən məhlimdi.

28. Gedən gejədən gedər.

29. Gədə oğlunnan gəlladar olmaz, toğlu balasınnan qoç olmaz.

30. Gəlini gərdəkdə, quçüyü dəməkdə, quzunu dəlmədə, qoyunu gərmədə.

31. Gözəl özünnən, çirkin ərinnən yeyər.

32. Gün qızdı, çin[38] qızdı.

33. Xasiyyətin bilmədiyin atın arxasına keşmə.

34. Xəsdə çox şey isdiyir, amma meyvə vaxtında dəyir.

35. Xoruz kimi nə başını kola soxuf quyruğunu qoymusan çöldə?

36. İşsiz qonaq adamı işdən qoyar.

37. İtimizə öyüt verdim, iki çibin tutdu.

38. İtin yiyəsi itindən yüyrəh olmalıdı (Sənin itin başqasına ziyannıh verməsin deyə deyillər ki, itin açılsa, sən gərək onnan qabax yüyürəsən, qoymuyasan yoldan keçəni tuta).

39. İyidin ömrün nə pis eylər? Bir axsağ at, bir də keçəl arvad.

[38] çin – oraq

40. Kəmsikdə gedənnən çobana it olmaz (Yəni çobanın iti ipdə getməməlidir. Çobanın iti sürünün böyründə, onnan qabaxda getməlidir ki, sürünü qorusun).

41. Kor atı minif köndələn çapır.

42. Kor kora deyir ki, cırt bərki göza.

43. Kül başına, ay Araz, üstünnən təzəy axır.

44. Kürd qoyunlarının yunu seyrək olor, onu qırxmaq asan olor. Kimsə özünü irəli verer, amma əlinnən də bir iş gəlmer. Onda deyillər ki, kürd qoyununun üstə qırxınçılıq örgənersən?

45. Kürd tanıdı, bit tanıdı (yəni biri gəldisə, o biriləri də onun dalınca gəlir).

46. Kürdü qapında gör (yəni kürd sənin öyünə gələndə, sənin qonağın olanda, sənnən münasibəti yaxşı olajax, amma sənnən ki aralandı, sənin ona işin düşsə, deyər səni tanımıram).

47. Qəribin nalası dağı yandırır,
Qurudur bostanı, tağı yandırır.

48. Qızın dəlidisə, yada vermə, ayıfdı.
Axıllıdısa, yada vermə, hayıfdı.
(Yəni dəli qızı yada versən, gedif səni biyabır eliyəjək, ayıfdı. Axıllıdı, deyif gənə yada vermə, hayıfdı).

49. Qonağa baxıb atına arpa verəllər.

50. Quş adama sığınar.

51. Müsurman çatı boyuna getmir, sijim boyuna gedir (yəni yaxına getmir, amma uzağa yüyürə-yüyürə gedir).

52. Nə yırtığa yamaxdı,
Nə coraba yumaxdı.

53. Nə vardı ki? Dörd başıdı, dörd ayax, gəlin aşırdı bəyax.

54. Nənəm nehrə, bajım Zöhrə (kök qadın mənasında işlədilir).

55. Ocaq kasıblığı xoşlamaz.

56. Öyünün nökəri, çölünün bəyi (Öyümdə odun da yara bilərəm, peç də qalıya bilərəm, yer də qaza bilərəm, yəni öyümün nökəriyəm. Amma çölə çıxdım, oluram çölün bəyi).

57. Özgə buzoyunu bağlıyanın çatısı əlində qalar (Çatı mənimdi, buzoy özgənindi. İrilənənnən soora yiyəsi gəlif aparer, maa çatı qaler).

58. Özünə qıymadığını özgəyə yedirdər, o kimdi? Tərəkəmə arvadı. Ən ləziz tikəsini qonağına yedirdər.

59. Pis iş pisdən çıxar.

60. Rus erməniyə dövlət umud oluf onnan çoban tutmuyuf, müsurmannan da əsgər aparmıyıf.

61. Səxavətdə Murtulu, ibadətdə Aşıxlı.

62. Sərxanlının köçü düşəndə çox səs-küy salardılar. Ona görə indi biri çox səs-küy salanda deyillər, Sərxanlı köçü kimi nə səs-küy salırsan.

63. Səryandar qonaq ev yiyəsin də səryandar eliyər.

64. Sözün yalanı olmaz, yalnışı olar.

65. Sözün yeyən özün yeyər.

66. Sürfə aşmıyan qapını Allah da aça bilməz.

67. Taxıla öküz əməyi deyillər. Çörək öküz əməyidi (Köhnə kişilər bir-birinə deyirdilər ki, səni, səhər ağzıma öküz əməyi dəy-miyif. Kotana iki boyun öküz qoşullar, taxılı səpillər. Birinci öküzə dəyif yerə düşən taxılnan axırıncı öküzə dəyif yerə düşən toxumda fərq var. Yerə tez düşən o birinnən tez bitir).

68. Tapan tapanın olsaydı, çöldə çoban da bəy olardı.

69. Tat içinə tərəkəmə gəlib? = Tat içinə kürd gəlib?

(Gələn adama xor baxılanda deyillər, nəyə baxırsız, tat içinə kürd gəlib?)

70. Təhnədə çörəy qurtaranda vay qaranın gününə, göyə bulud gələndə vay sarının gününə.

71. Tərəkəmə çomağı başa bərk vurar, daşa yavaş.

72. Tərəkəmə deyir, bir verdim yüz aldım, genə məni allatdılar.

73. Tərəkəmə qazanar, tat yeyər.

74. Tərəkəmə motalında qurd görməz.

75. Tərəkəmə nökərə bir verər, itə iki.

76. Tərəkəmə obasını Bağdaddan böyük bilər.

77. Tərəkəmə yeddi oğula dedi: “Yoxdu”. Bir qıza dedi: “Çoxdu”.

78. Tərəkəmədən arı alırsanmı? – deyə soruşmuşlar. “Pul verib vızıltısını neynirəm?” demiş.

79. Tərəkəmənin atası öldü, dedi: “Vaxtı çatıbdı”. Atı öldü, dedi: “Belim sındı”.

80. Tərəkəmənin atasını söy, itinə dəymə.

81. Tərəkəmənin dostu it, düşməni qurddu.

82. Tərəkəmənin qızını almaq asan, quzusunu almaq çətindi.

83. Tərəkəmənin pişiyi də gərək doğar ola.

84. Utan utanmazdan, qorx qorxmazdan.

85. Yatma tülkü kölgəsinə,
Qoy yesin aslan səni.
Keçmə namərd körpüsünnən,
Qoy aparsın sel səni.

86. Yerində var quşotu,
Qış evini tik, otu.
Yerində var qarağan,
Evində var ağaran.
Yerində var yovşan,
Qoyunun olar dovşan.
= Yerində bitif yağtikan
Qaç qutar vaxtikən.
Yerində bitif quşotu,
Öy tik, yerində otu.

87. Yerdən verirəm, üstdən yeyə bilmirsən.

88. Yeyib-içmiş qonağın getməyi məsləhətdi.

89. Yola çıxan yorulmaz!

90. Maşat Rustam rəhmətə gedirmiş. Onun övladı ağlıyırmış. Oğluna deyif ki, niyə ağlıyırsan? Mən səni nə papravəntdiynən kirvə eləməmişəm, nə də Əskiparalıdan qız almamışam.

## BAYATILAR

1.Mən bu yola bələdəm,
Getməmişəm, bələdəm.
Şaddığnan işim yoxdu, ay bala,
Mənim dünyam, qoşunum qırılıf
 gedənnən qəm yoluna bələdəm.

2. Mən aşıx, haraya gedim?
Hardan haraya gedim?
Sən məni oda saldın,
Təzədən haraya gedim?

3. Dağlar, qoşa dağlar,
Verif baş-başa dağlar.
Mənim saldat balam səndədi,
Səni min yaşa, dağlar.
Qarğameram, mənim nəvəm
orda qalıf[39].

4. Aşığam, ələmim var,
Qızıldan qələmim var.
Yaxın gələ bilmərəm,
Uzaqdan salamım var.

5. Bostanda var göy xiyar,
Boyun boyuma uyar.
İkimiz bir cüt sona
Ayırmağa kim qıyar?

6. Qapımızda qələmə,
Quzu kimi mələmə.
Məni sənə verməzdər,
Özün həlak eləmə.

7. Qızıl iynənin sapı,
Görünür bizim qapı.
Yarı yardan eyləyən
Dolansın qapı-qapı.

8. Evləri Qazaxdadı,
Qazax nə uzaxdadı.
Mənə yersiz deməyin,
Yarım var, uzaxdadı.

9. Xavışdanı əkəllər,
İçinə gülab səpəllər.
Yaxşı qızın kəbinini
Pis oğlana kəsəllər.

10. Əzizim, quş olaydım,
Yuvama tuş olaydım.
Dağlara köç gedəndə
Evlərə qoşulaydım.

11. Əzizim, gəlif gedər,
Günnərim gəlif gedər.
Bircə səni görərdim,
Deyərdim, gəlif gedər.

[39] Söyləyicinin nəvəsi Qarabağ döyüşlərində həlak olub, onu nəzərdə tutur.

12.Ana, məni az ağla,
Payız ağla, yaz ağla.
Çıxginən qəlbi dağlar başına,
mən dedikcən sən də
Bir kağıza  yaz ağla.

13. Maralın dizi qannı,
Getdikcə dizi qannı.
Bu işi Allah işdiyif,
Tutma bizi qannı.

14. Peyğəmbərin bağı var,
Bağının yarpağı var.
Oraya gedən qayıtmaz,
Orda yaman yağı var.

*15. Birinin çobanı deyif ki, məni öyləndirin. Ona hay vermillər. Deyir:*
Çobanam qoyunuza,
Düşmüşəm qoyunuza.
Ya məni öyləndirin,
Ya özünüz gedin qoyunuza.

16. Mən aşıx, yaza baxdım,
Qələm al, yaz a baxdım.
Gedif qara zülmətdən
İndi çıxdı yaza baxdım.

17. Çıxaram yala mən də,
Baxaram yola mən də.
Baxıf görəm istədiyim gəlmədi,
Çəkərəm naala mən də.

18. Əzizinəm, o taya,
O xırmandı, o taya.
Saçın dola boynuma,
Məni çəkginən o taya.

19. Əzizinəm, Qarabağ.
Qarabağda qara bax.
Cavannar şəhid oldu,
Qana döndü Qarabağ.

20. Əzizim, Biləqandı,
Xan arxı Biləqandı.
Özüm Arasbar tərlanı,
Oylağım Biləqandı.

21. Mən aşığam gözə də,
Qoyun otdar gözədə.
Sənə də qurban olum,
Şapuru görən gözə də.

22. Əlində maşası var,
Tutufdu, maşası var.
Qalmışam yol ağzında,
Əcəb tamaşası var.

23. Ay qardaş, sarı qardaş,
Dəvəm ol, sarı qardaş.
Cinazam əyri gedir,
Gəl cinazamı sarı, qardaş.

24. Aşıx qara qat oldu,
Xalın qara qat oldu.
Öldürdü kürddər Şəmili
Dünya farağat oldu.

= Əzizim, qarağat oldu
Yaran qara qat oldu.
Öldürdülər Kürd Şəmili
Dünya farağat oldu.

25. Əziziyəm, kim sayə,
Kim seyiddi, kim sayə.
Ye malı, sür dövranı,
Dünya qalmaz kimsayə.

26. Əziziyəm, misqalını,
Gey sallan misqalını.
Desəm dəryalar tutmaz
Dərdimin misqalını.

27. Bu dənizin daşı mənəm,
Daşının qaşı mənəm.
İki könül ayrılarsa,
Gözlərinin yaşı mənəm.

28. Əziziyəm, ləhdə var,
Sarı yemiş ləhdə var.
A cüt gedən bəxtəvər,
Dön geri bax, tək də var.

29. Əziziyəm, gülürsən,
Süsənbərsən, güllüsən.
Səninçün ağlıyıram,
Sənsə baxıf gülürsən.

30. Mən aşıx, gədə dərdi,
Gül əkdim gədə dərdi.
Mən çəkirəm xalx dərdi,
Adam var gədə dərdi.

31. Amana bax, amana,
Kor qal səni zamana.
Eşşəklər kişmiş yeyir,
Atlar həsrətdi samana.

32. Ləleyəm, öyənim yox,
Zər-ziba geyənim yox.
Yüz il qürbətdə qalsam,
“Gəlmə” deyənim yox.

33. Eləmi, dərdin alım,
Dərdi sat, dərdin alım.
İstərəm dərd çəkməzin
Əlinnən dərdin alım.

34. Əzizim, nə ağlarsan?
Gözə çeşmə bağlarsan.
Sinəmdə yer qalmıyıb,
Sən haramı dağlarsan?

35. Xənçəri işlə, yolla,
Sapını gümüşlə, yolla.
Mənə üç alma yolla,
Birini dişlə yolla.

36. Əzizim, toxlar məni,
Unutmaz toxlar məni.
Bir kasıba dost oldum,
Hər səhər yoxlar məni.

37. Dağların gəmisinə,
Su verməram zəmisinə.
Heç kafirin balası,
Qalmasın əmisinə.

38. Oğlan, oğlan, naz oğlan,
Ay dəli-qanmaz oğlan,
Sən fəhləsən, mən qalxoz,
Heç biri tutmaz, oğlan.

39. Böyün-səhər köçəllər,
Köçü köşdən seçəllər.
Balaların göz yaşınnan,
Körpü salıf keçəllər.

40. İki qaradan hin törər,
İki sarıdan cin törər.
Bir sarı, bir qaradan
İman törər, din törər.

41. Su gəldi, lilləndirir,
Baxçanı güllləndirir.
Dərd yəəsi kiriyir,
Dərd özü dilləndirir.

42. Dərd məni aş eyliyif,
Yoruf, yavaş eyliyif.
Yüküm qurğuşun yükü,
Səlvəri daş eyliyif.

43. Dur, gəlin,
Olum saa qul, gəlin,
Yarın səfərə gedif,
Gözdə yolun dur, gəlin.

44. Əlində cam yumuş,
Cam götümüş, cam yumuş.
Heş gör mənim kimi var,
Düşmanı kam götümüş.

45. Sən gözümün birisən,
Arazısan, Kürüsən.
Ta oxuya bilmirsən,
Yorulmusan, kiri sən.

46. Araz daşdı deyillər,
Həddin aşdı deyilər.
Fələh bir iş işdədi,
Dərdim aşdı deyillər.

47. Əzizim, ayaz aldı,
Gün keşdi, ayaz aldı.
Qojaldım günüm keşdi,
Günümü ayaz aldı.

48. Əzizim, dolu düşər,
Qar yağar, dolu düşər.
Qəbrimi uja qoyun,
El gələr, yolu düşər.

49. Yedi bu milçək məni,
Qanadı göyçək məni.
Bala, qorxmaginən gavurdan, alim əmilərin, iyid dayıların var, çağırginən köməyə. Qoyma məni aranda,
Göy yaylağa çək məni.

50. Dağlara binə gəlləm,
Gedif genə gəlləm.
Gedif o çiçəkli yurdları, şehli-çəmənli, baldırqanlı çayları, qırqovullu, kəklikli, əlikli meşələri at belində gəzsəm,
İmana, dinə gəlləm.

51. Ördək göl olan yerdə,
Ceyran çöl olan yerdə.
Mübariz, enni kürəkli, yonma biləkli, aslan ürəkli, pələng pəncəli oğlansan, anan özünü öldürsün,
Qanın göl olan yerdə.

52. Aşıx görən oldumu?
Zülfün hörən oldumu?
Şahlar şahı Sultan bəyin alınmaz qalası Laçının yaylaqların
Gedib görən oldumu?

53. Yapıncı bürünəsən,
Çəkərək bürünəsən.
Şahlar şahı Sultan bəy, sən Zabuğun körpüsündə ermənininin qanını sel kimi axıtmısan, indi oluf erməni tapdağı
Bir gözə görükəsən.

54. Bu gejə gəyandımı?
Bulud yox, gəyandımı?
Şahlar şahı Sultan bəy,
Laçın əldən gedibdi,
Gör sənə əyandımı?

55. Arazın üsdüynən gəl,
Altı lil, üsdüynən gəl.
Şahlar şahı Sultan bəy, Laçın əldən gedibdi, yığginən qoşununu
Özün də üsdüynən gəl.

56. Yaylığının gülü yansın,
Od düşsün, gülü yansın.
Namərtdik eliyif vətəni satannarın
Ağzında dili yansın.

57. Aşıx, vətənə məni,
Köynəyi kətana məni.
Bala, namərd olma, qoyma aran yerdə,
Apar vətənə məni.

58. Köynəyin abu deyil,
Geymisən, abu deyil.
Ala yaylaxlarda, soyux bulaxlarda, çiçəkli çəmənlərdə, sarı güneylərdə at belində gəzənnər,
Bu torpax sənin bağın deyil.

59. Bu yol heşana gedər,
Aşar heşana gedər.
Ermənilərin Xocalıya vurduğu dərin yaranın ağrısı ataların, anaların ürəyində
Gora nişana gedər.
= Arılar şan eylədi,
Gül çəkdi, şan eylədi.
Ermənilərin Xojalıya vurduğu yaranın ağrısı ataların, anaların ürəyində
Gora nişana gedər.

60. Bağları xəzəl aldı,
Ovçular məjal aldı.
Heydər baba düşmənə torpaq verməzdi,
Üsdünü əjəl aldı.

61. Qardaşın kürən atı,
Meydana girən atı.
Heç bəndələr minməsin,
Qardaşım minən atı.

62. Qardaşa deyin, gəlsin,
At minib yeyin gəlsin.
Qeyri vəxti demirəm,
Gəlirsə, buyün gəlsin.

63. Dağların qarzu başı,
Göyərər bulaq başı.
Vətən yadıma düşür,
Yanır ürəyimin başı.

64. Ay doğdu, paralandı,
Gün çıxdı, aralandı.
Qəlbi binam, səhra məhləm,
çiçəkli baxçam, güllü bostanım
keçdi gavur əlinə, vətəndən azğın
düşdüm. Bir şor kanalın belində
su çəkdirib bostan əkdim.
Mənə qaşqın dedilər
Ürəyim paralandı.

65. Fələyi dindireydim,
Dindirif güldüreydim.
Qəlbi binamı, səhra məhləmi ermәni əlinə verəndə
Qələmin sındıreydim.

66. Ovçu ov eyliyifdi,
Çaxmax qov eyliyifdi.
Qəlbi dağlarda, soyux bulaxlarda, çiçəkli çəmənlərdə at belində gəzənləri şoran torpaxlara, ilan mələməz yerlərə salıbdı,
Nahaq qan eyliyifdi.

67. Yaylığın gülü yansın,
Od düşsün, gülü yansın.
Namərtdıx eliyif vəxtsiz onu öldürdün?
Ağzında dilin yansın.

68. Mən aşığ, öz günümə,
Kababam köz günümə.
Namərd fələk düşə əlimə
Salaram öz günümə.

69. Dağların lalası var,
Gülü var, lalası var.
Lala kimi gül olmaz,
Bağrında qarası var.

70. Bu dağlar, daşdı dağlar,
Didəm qan-yaşdı, dağlar.
Boynu gümüş həkəllim,
Maralım qaşdı, dağlar.

71. Buxarı qurum oldu,
Od düşdü, qurum oldu.
Vətənnən azğın düşdük,
Bizə nə zülüm oldu.

72. Ay başına döndüyüm,
Gün başına döndüyüm.
Çox da qəm eləmə, sənin kimi
vətənnən azğın düşənnər
Var, başına döndüyüm.

73. Boz atım boza-boza,
Boynunda qızıl qoza.
İtirmişəm ala yaylaxlarımı,
soyux bulaxlarımı,
Qalmışam gəzə-gəzə.

74. Ağ alnım, ağ biləhlim,
Yanı tərlan kürəklim.
Sərt qayadan yol eylər,
Gələr aslan ürəklim.

75. Arı nə yaxşı olar,
Balı nə yaxşı olar.
Mənim böyünkü günümdə
Koroğlu nərəli, İsgəndər sədalı,
oynağan kürəkli, toylar şahı, Araz-
Kürqovuşan arası iyitdər iyidi
Əmim gəlsə nə yaxşı olar.
= Karrı qardaş yerinə
Bajı ölsə, yaxşı olar.

76. Gəl burdan al eyləmə,
Az dərdim bol eyləmə.
Basma bağın çəpərin,
Düşmənə yol eyləmə.

77. Gəldi burda daş kəsən,
Qannı-qannı baş kəsən.
Gəldin dərdim artırdın,
Gəlmiyeydin keşgə sən.

78. Qarşımızda ax, ey vay,
Dərdə dərman yox, ey vay.
Ürəyimin başına
Çaxılıfdı ox, ey vay.

79. Mən aşıq nə yamandı,
Dərd canda nə yamandı?
Ölüm Allah əmridi,
Qəriblik nə yamandı.

80. Mən aşıx bir-bir düşər,
Ox yaydan bir-bir düşər.
O ala yaylaxlarda, soyux
bulaxlarda, sarı güneylərdə
at belində gəzdiyim günlər
Yadıma bir-bir düşər.

81. Gejələr keşdi mənnən,
Eylanmaz[40], keşdi mənnən.
Hicrana körpü oldum,
Namərtdər keşdi mənnən.

82. Boz at bozara məni,
Saldın azara məni.
Aç belindən şalını
Salla məzara məni.

83. Gəncənin bağ alması,
Yeməyə var alması.
Bir Allaha qalıfdı
Yaramın sağalması.

84. Yaram, sən nə yarasan,
Doğra bağrım, yar a sən.
Nə sağalan dərd oldun,
Nə sağalan yarasan.

85. Yaram var ürəyimdə,

[40] Eylanmaz – əylənməz

Ağrıyır kürəyimdə.
Namərd fələk, yol ver
vətənə gedim,
Arzum var ürəyimdə.

86. Yaralərim oyildi,
Qabıx verdi soyildi.
Dedim dərdim azələ,
Dərd üsdə dərd qoyildi.

87. Şalım qara boyandı,
Üjü yerə dayandı.
Vətənnən azğın düşdüm, mənim
ahu-naləmdən
Göydə mələk oyandı.

88. Kəkilə bax kəkilə,
Kəkil bir də tökülə.
Gözüm o gündən qorxur
Evdə fərməc çəkilə[41].

89. Qarşımızdan demə, gəl
Söhbətə gəl, dəmə gəl.
Dərd bilən özü gəlir,
Dərdbilməzə demə gəl.

90. Dağların dalında mən,
Qərq oldum qarında mən.
Cəfa çəkdim, bağ saldım,
Yemədim barın da mən.

[41] Söyləyicinin dediyinə görə, bu bayatını oğlu olmayana deyirlər. Öləndən sonra onun yurduna sahib çıxan olmadığından hərə bir əşyasını götürüb aparır.

91. Burdan bir paşa getdi,
Sallandı paşa getdi.
Çəkdiyim əzab-əziyyətin
bəhrəsin görmədim,
Vurdum bir daşa, getdi.

92. Ovçular ova gedər,
Dolanıb yola gedər.
Səni Allah saxlasın,
Qalanı yola gedər.

93. Dumannı dağ deyiləm,
Bülbüllü bağ deyiləm.
Gedin deyin anama,
Ölmüşəm, sağ deyiləm.

94. Duman dağ arasında,
Piltə yağ arasında.
Şöləsiz çırax kimi
Yandım yağ arasında.

95. Araz elə göy çalar,
Ləpə vurub göy çalar.
Vətənnən azğın düşəni
Qara geyib, göy çalar.

96. Qəribə kim ağladı?
Kim yudu, kim ağladı?
Qərib yerdə ölənin
Ağzını kim bağladı?

97. Gejə uzun, ay batmaz,
Dərtdilər gejə yatmaz.
Oğlu ölən analar
Dincəlib gejə yatmaz.

98. Bostanda torpağım ağlar
Dəymə, yarpağım ağlar.
Laçını unutmaram,
Ölsəm, torpağım ağlar.

99. Mən aşıq el gələnə,
El gəlib kölgələnə.
Yalvarıram Allaha, balama ömür ver,
Gözdərəm Laçını görənə.

100. O tayda ağlaşallar,
Saç saça bağlaşallar.
Nə anam var, nə bacım
Könülsüz ağlaşallar.

101. Anam, anam, can anam,
Sultan anam, can anam.
Sən denən ürəyim ağrıyır,
Biz də deyək can, anam.

102. Atın daydı, dalaşmaz.
Çulu bozdu, yaraşmaz.
Ağlaşma gedir sanki,
Mənə belə yaraşmaz.

103. Göydə ulduz əllidi,
Əllidi, yüz əllidi.
Ölən Məmməd bacısı
Aləmə də bəllidi.

104. Mən aşıqam əzəldən,
Dəstə tutdum xəzəldən.
Qara gündə yarandım,
Kür talehəm əzəldən.

105. Qazan qaynar, kəfin al,
Qaynadıqcan kəfin al.
Dərdin məni öldürür,
İndi özün kəfin al.

106. Xoruzun ban səsinə,
Ban verər ban səsinə.
Ana məni qəlbidən çağır,
Mən deyim can səsinə.

107. Kərbəlada daş ağlar,
Daş ağlar, yavaş ağlar.
Qardaşı ölən bacılar
Alçaxdan yavaş ağlar.

108. Ay başıma düşübdü,
Gün başıma düşübdü.
Ölüb mənim Heydar qardaşım,
Daş başıma düşübdü.

109. Axşamlar, hay axşamlar.
Şamlar yanar axşamlar.
Hər kəs ana qoynunda,
Yetim harda axşamlar?

110. Açıx qoy pəncərəni,
Gözüm görsün gələni.
Görüm urvatı varmı
Belə qardaşsız öləni.

111. Əzizim, nərdivana,
Ayax qoy nərdivana.
Yar qədrini yar bilər,
Nə bilər hər divana?

112. Araz, Araz, xan Araz,
Göllərdən qalxan Araz.
Sevgilim gəmidədi,
Gəl eləmə qan, Araz.

113. Əziziyəm, sabahı,
Bülbül oxur sabahı.
Bu dərt məni öldürər,
Ya indi, ya sabahı.

114. Əziziyəm, dağ üsdə,
Lala bitər dağ üsdə.
Fələyin qaydasıdı,
Dağı çəkər dağ üsdə.

115. Əziziyəm, üsdə sal,
Qoy qəbrimin üsdə sal.
Aç başının şalını,
Canazamın üsdə sal.

116. Əzizinəm, bəsdiyəm,
Əlimdə gül dəsdiyəm.
Xəbər alsan halımı,
Sən gedəli xəsdiyəm.

117. Gedəni gördünmü?
Gələni gördünmü?
Bircə dəyqənin içində
Öləni gördünmü?

118. Aşıq illər ayrısı,
İllər güllər ayrısı.
Ay Qarabağ, əlim yetmir,
ünüm çatmır,
Olduq illər ayrısı.

119. Bu dağlar ulu dağlar,
Torpağı sulu dağlar.
Dibinnən elim köçüb,
Başında bulud ağlar.

120. Dəyirmanın ha daşı[42],
Çaxçax vurar ha daşı.
Bağmannan yoldaş oldun,
ay canım
Gülü bağdan ha daşı.

121. Savalannan Qarsalan
Yandı bağrım, qarsalan.
Yüz gün özünə gəlməz
Bir gün yar gözdən salan.

122. Mən aşıx, gahı-gahı,
Bülbül oxur gahı-gahı.
Unutma, saa heyran olum,
Sal yadına gahı-gahı[43].

123. Keşdim Xudapirimi,
Yaram eylədi irini.
Dərd nə birdi, nə iki,
Deyim hangi birini.

124. Apardın bazara məni,
Saldın azara məni.
Çək qurşağı belinnən
Salla mazara məni.

---

[42] Söyləyicinin dediyinə görə, qaçqınlıqdan sonra babası özüylə gətirdiyi qoyunları Saatlıda qırır. Onda ağacı sinəsinə basıb bu bayatını deyir.

[43] Gahı-gahı – hərdənbir

125. Dağları aşa gəl,
Qanı çoşa-çoşa gəl.
Götür bir bölük qırılmışımı,
Özün də üsdüncə gəl.

126. Bostan əkili qaldı,
Alaq çəkili qaldı.
Hara belə gedirsən,
Yetim tökülü qaldı.

127. Mən aşıq aşıqlara,
Dərdi dolaşıqlara.
Fələk əlimə bir saz verdi,
Qoşdu aşıqlara.

128. Yeri dumanım, yeri,
Çiskinim, dumanım, yeri
Yaxşı günnəri yola saldım,
Bu da pis günüm, yeri.

129. Gözlərin yedi məni,
Qurd oldu, yedi məni.
Bir nadana sirr verdim,
Aləmə dedi məni.

130. Arpa bişdim dərz oldu,
Sözüm xana dərc oldu.
Yardan bir xəbər gəldi,
Ölüm mana fərz oldu.

131. Gün yayıldı dağlara,
Şeh düşdü budaxlara.
Hayıf mənim bu canım
Qarışsın torpaxlara.

132. Mən aşıx, nələr kecər,
Ahular mələr kecər.
Əzreyil sinəm üsdə
Qəlbimnən nələr kecər.

133. Qəribəm, atam yoxdu,
Yetiməm, butam yoxdu.
Düşmüşəm qəm dəryasına,
Qolumnan tutan yoxdu.

134. Gəncədən gəl, Gəncədən
Atın yesin yoncadan.
Yarı yardan eliyənin
Görüm beli sınsın incədən.

# OYUNLAR

## 1. YOLDAŞ, SƏNİ KİM APARDI?

"Yoldaş, səni kim apardı?" oyunu bizim kənddə qədimdən oynanılan oyunnardan biridir. Əsasən də Novruz bayramı ərəfəsində oynanılırdı. Oyunu əsasən oğlanlar oynuyardı. İyirmi birə qədər sayardılar, axırıncı rəqəm kimə düşsə, o, qabağa çıxardı. O biri uşaqlar isə onun arxasında topa durardılar. Onların içərisinnən biri barmağını önə çıxmış şəxsin kürəyinə qoyardı və bir ağızdan deyərdilər "Yoldaş, səni kim apardı?" On metr, on beş metr məsafə təyin edirdilər. Önə çıxmış şəxs həmin məsafəyə doğru irəliləyir. Həmin məsafəyə çatana qədər arxaya baxmadan barmağını onu kürəyinə qoymuş şəxsin kim olduğunu tapmalıydı. Əgər arxaya baxardısa, oyun ko hesab olunmur. Məsafəni başa çıxana qədər həmin adamın adın çəkə bilsə, o, qalib hesab olunurdu. Yox, həmin adamın adını tapa bilmirdisə, uduzmuş hesab olunur və həmin məsafədən də barmağını onun kürəyinə qoymuş şəxsi arxasına götürüf gətirməliydi o biri uşaqların içinə. Uduzan şəxs yenidən qabaxda durur, bu dəfə başqası barmağını onun kürəyinə tutur. Oyun barmağını onun kürəyinə tutmuş şəxsin adını tapana qədər davam eliyir. Həmin şəxsin adını tapdıqda, bu dəfə o, onun belinə minib uşaqların yanına gəlirdi. Həmin şəxsin adını tapdıqdan sonra bu dəfə öndə durmaq növbəsi uduzan şəxsə keçirdi. Oyun bu şəkildə davam eliyirdi.

## 2. DIZ-DIZ OYUNU

Bir nəfər öndə durur. Sağ əlini qulağına qoyur, sol əlini qoltuğunun arxasından içərisi çölə doğru tutur. Arxadakı uşaqlar topa dururdu. Onların içindən biri irəli gəlib onun əlinin içinə şilləynən vurur, yenidən yoldaşlarının yanına çəkilirdi. Uşaxlar baş barmaqlarını irəli uzadıb "dızzzz" eliyərdilər. Qabaxda duran şəxs də arxaya çöyrülüb onu vuran şəxsin kim olduğunu tapmalı idi. Tapana qədər

onun əlinin içinə vurulmalıydı. Vuranda da o qədər bərk vururdular ki, həmin şəxs bəzən o zərbəyə dözmüyüb yıxılırdı. Zərbədən həmin şəxsin əlinin içi qıpqırmızı olurdu, qoltuğunun altı isə ağrıyırdı. Ona görə o çalışırdı ki, onu vuran şəxsi tapsın. Tapandan sonra bu səfər onu vuran şəxs onun yerində dururdu.

## 3. NƏKGƏLƏ

Fındığı və ya qozu əlində tutursan, deyirsən "nəkgələ". O deyir, cüt gələ, ya tək gələ. Əlindəkin düz desə, sən ona verəcəksən. Səhv desə, əlindəki qədər fındığı o sənə verəcək.

On-on beş uşax şərtləşərdik ki, beyjə Əhmədxanın öyünə yığışajeyih. Axşam hamı yığışardı ora. Dəyirmi oturardıx, hər kəs papağın qoyardı qabağa, altına da fındıqdan və ya qozdan qoyardıx. Eləsi vardı, tək qoyardı, eləsi vardı, cüt qoyardı. Hamı qoyannan soora mən ortaya cüt, ya da tək sayda fındıq qoyardım. Hamı papağın qaldırardı. Kim cüt qoyubsa, cütdər mənə çatırdı. Kim tək qoyubsa, qoyduqları qədər də olara fındıq verərdim. Növbəynən o biri yoldaşdara keçirdi.

## 4. QIĞ-MƏRƏ[44]

Qığ mərə oyunu, əsasən, çobanlar arasında boş vaxtlarını səmərəli keçirmək üçün oynanılan bir oyundur. Riyazi hesablama tələb edən bir oyundur və kimin hesablama qabiliyyəti yaxşıdırsa, onun qalib gəlmək şansı daha çox olur. Oyun iki çoban arasında oynanılır. Oyunun qaydası belədir. Çobanlar üz-üzə otururlar. Hər çoban qarşısında yan-yana üç mətə (balaça çala) qazır. Ortada isə udulan qığları yığmaq üçün əlavə bir mətə də qazılır ki, ona "anbar" deyilir. Oyun quru qoyun qığı ilə oynanılır. Hər oyunçunun 21 qığı olur və hər mətədə yeddi qığ olmaqla onları mətələr arasında bölür.

---

[44] Bu təsvir Beyləqan rayonunun Eyvazalılar kəndində oynanılan oyunun əsasında verilib.

Qığlar mətəyə cüt-cüt qoyulur. Birinci cütə mətək, ikinci cütə ətək, üçüncü cütə kötək, tək qalan qığa isə bir tək deyilir. Mətək, ətək, kötək, bir tək – bu şəkildə saya-saya qığları mətələr arasında bölürlər. Daha sonra oyuna kimin başlayacağını müəyyən etmək üçün püşk atılır. A oyunçusu xırda daşı və ya çöpü əlində gizlədir, B oyunçusu həmin əşyanı tapmalıdır. Tapan tərəf oyuna birinci başlayır. A oyunçusu ona məxsus mətələrin birindən qığları götürüb bir-bir saat əqrəbi istiqamətində mətələrə paylayır. Oyunçu mətədəki bütün qığları götürə bilməz, mütləq biri mətədə qalmalıdır. Mətədə qalan qığa "mətə dibi" deyilir. Uduşlar cüt ədədlərdir. Birinci uduş ikidən başlayır, növbəti uduş dörd, altı, səkkiz və sairədir. İkiləməni götürməyən oyunçu dördləməni götürə bilməz, həmçinin dörtləməni götürməyən oyunçunun altılamanı götürməyə ixtiyarı yoxdur. A oyunçusu qığı paylayıb qurtardıqdan sonra axırıncı mətədə ikiləmə olduğu üçün həmin qığları götürüb anbara qoyur. Bu dəfə oynamaq növbəsi B oyunçusuna keçir. O öz tərəfindəki istənilən mətədən qığları götürüb saat əqrəbi istiqamətində bir-bir mətələrə paylayır. Axırıncı mətədə cütləmə olsa da, qığların sayı ikidən çox olduğu üçün onları götürə bilmir. Növbəti gedişi A oyunçusu edir. Mətələrdən birinə çox qığ yığıldığı üçün A oyunçusu həmin qığlara toxunmur, çünki onları paylayası olsa, həmin qığlar rəqib oyunçuya çatacaqdır. Ona görə də hansı mətədə az qığ varsa, həmin mətədən gediş edir. Axırıncı qığı qoyduğu mətədə ikiləmə yarandığından onu götürür, ondan arxadakı mətədə dördləmə, o birində altılama olur, həmin qığları da udur. Sonra B oyunçusu gediş edir və bir ikiləmə, bir də dördləmə udur. Oyun mətələrdəki qığlar qurtarana qədər davam edir. Birinci mərhələdə udan olmur. Oyunçular hər mətəyə yeddi qığ qoymaqla təkrar mətələri doldurmağa başlayırlar. B oyunçusunun az qığı olduğu üçün mətələrin hamısını doldura bilmir. Bu halda A oyunçusu hörmət əlaməti olaraq udduğu qığlardan rəqib oyunçuya pay verir. İkinci dəfə belə bir vəziyyət yaranarsa, güzəşt etmir və o zaman rəqib oyunçunun bir və ya iki mətəsi boş qalır. Həmin mətələr puf sayılır və yeddi qığ düzəlməyənə qədər A oyunçusu ora qığ atmamalıdır. Əgər yan-

lışlıqla həmin xanaya qığ atarsa, o zaman puf sayılır, əlindəki qığları da həmin mətəyə ataraq oynamaq növbəsini rəqibə verir. B oyunçusu isə həmin xanaya qığ ata bilər, amma mətədəki qığların sayı yeddiyə çatmayınca onun uduş etməyə ixtiyarı yoxdur. Oyun rəqib oyunçunun bütün qığları udulana qədər davam edir. Qabaqcadan kəsilən şərtə görə, uduzan tərəf o biri tərəfə quzu və yaxud qonaqlıq verir.

## 5. ƏNZƏLİXAN

Bu oyun Beyləqan rayonunun Günəşli kəndində qeydə alınıb. Oyun yeddi nəfər arasında oynanılır. Oyunçulardan biri ortada yatır və əlini dizinə qoyaraq beli əyilmiş şəkildə durur. Digər oyunçular isə sıraynan bir tərəfdə düzülür, həmin dəstənin başında duran şəxsə "molla" deyilir. Molla "Ənzəli xan, ənzəli" deyib əliylə təkan verərək yatan şəxsin belindən tullanır. Dəstənin digər üzvləri də növbəynən onun dediyi sözləri deyib yatan şəxsin üstündən tullanırlar. Bəzi oyunçular həmin sözləri təkrarlamır, sadəcə "mollam deyəndir" deyərək tullanır. Tullanan oyunçular artıq əvvəlki yerlərinə qayıtmır, bu dəfə əks istiqamətdən tullanırlar. İkinci gedişdə oyunçular "ikidə xan rəhbəri" deyərək tullanırlar. Bu mərhələdə yatan şəxs rəqib oyunçunu yıxmaq üçün hiylə işlədir: onun tullanmaq istədiyi məqamda özünü yerə yıxır, tullanan şəxs də müvazinətini saxlaya bilməyib yıxılır. Daha sonra yatan şəxs ayağa durur, tullanan şəxs yenidən öz hərəkətini uğurla yerinə yetirdikdən sonra növbəti mərhələyə keçirlər. Molla "üçdə bir yan vurarlar" deyib tullanır. Bu dəfə oyunçular elə tullanırlar ki, onların arxası yatan oyunçunun kürəyinə dəyir. Dördüncü gedişdə oyunçular "dörddə yanbız əzərlər" deyib yatan şəxsin arxasına təpik vuraraq tullanırlar. Beşinci gedişdə "beşdə quluc qırarlar" deyib tullanırlar. Bu mərhələdə oyunçular yumruqları sıxılı vəziyyətdə təkan verərək yatan şəxsin kürəyindən tullanırlar. Altıncı gediş "əl dəyər, ətək dəyməz"dir. Bu mərhələdə oyunçular elə tullanmalıdır ki, heç birinin paltarı yatan şəxsə sürtünməsin. Yatan şəxs də belini bir qədər dik tutur ki, tulla-

nan şəxs üçün daha çətin olsun. Oyunçulardan birinin paltarı yatan şəxsə sürtündüyü üçün bu səfər o yatmalı olur. Oyun yenidən başdan başlayır. Yeddidə oyunçular “keçi girdi bostana”, səkkizdə “vurdum qılçın sındırdım” deyərək tullanırlar. Səkkizinci gedişdə oyunçular bir-bir yatan şəxsin qılçına təpik vuraraq tullanırlar. Doqquzuncu gedişdə “apardılar həkimə”, onda “həkim dedi, yox, bala”, on birdə “aparın basdırın torpağa”, on ikidə “a hırnızı, hırnızı”, on üçdə “üç dəfə hərlən, vur məni” deyərək tullanırlar. Sonuncu gedişdən sonra yatan şəxs üç dəfə fırlanaraq yerdən götürdüyü ayaqqabı ilə qaçan oyunçulardan birini vurmağa çalışır. Kimi vursa, bu dəfə həmin şəxs ortada yatır.

## 6. SÜDLÜ SÜLÜK

Süddü sülüyü gecələr aydınlıq havada oynuyardıq. İki qrup olardıx. Hər qrupda da bərabər sayda adam olardı. Əşyanı da hamı görüb tanıyardı. Şüşə qırığı, boşqab qırığı, əsasən də sümük atardıx. Bir mətə təyin eliyirdik. Mətənin tanınması üçün biri pencəyini soyunub ora qoyardı, ya bir daş qoyardılar. Bir nəfər həmin mətədə duruf sümüyü tulluyurdu. Onnan soora hamı gedərdi onu axtarmağa. Kim tapsa, xəbərdar eliyirdi ki, tapdım. Məsələn, mən tapmışamsa, mənim yanımda olan yoldaşdarım məni müdafiə eliyir. O biri dəstə də isteer ki, onu mənim əlimdən ala, özü apara mətəyə çatdıra. Məni tutsalar, mən sümüyü öz yoldaşıma verəjəm ki, o aparsın. Bir-birinə ötürə-ötürə aparıf mətəyə çatdırmalıydı. Kim həmin əşyanı mətəyə vurdusa, o qrup qalib gəlirdi.

## 7. PAPAQALDI QAÇ

Hərrəmə çız çəkirdik. Gənə iki dəstə olur. Hər dəstədə üç nəfər, dörd nəfər adam olurdu. Dəstənin biri çevrənin içində olur, bir dəstə də çöldə. Kimin içəridə, kimin çöldə qaldığını mərcnən təyin eliyirdik. Bir nəfər üzü o tərəfə duror. Bir əlini şillə, digər əlini yumruğ havada tutur. Hər dəstədən bir nəfər barmağını onun kürəyinə

qoyur. Onnan soruşollar ki, şillə, yumrux? Hansı barmağını salajaxsa, həmin dəstə içəridə olardı, o biri dəstə çöldə durardı. Çöldəkilər çalışır içəridəkinin papağını götürə, içəridəki də çalışır ki, papağı vermiyə. Ayağının biriynən onu vurmalıydı. Əgər ayağıynan onu vurdusa, o dəstə gələjək içəri, bular çıxajax çölə. Ayağı xətdən çölə çıxmalı döyül. Çıxdısa, o kodan döyül. Əlli metr kənarda bir nişana qoyardılar. Papağı götürən qaçardı ki, papağı aparsın oraya vursun. Papağı götürülən dəstə də çalışırdı ki, onu tuta, qoymuya vura. Bu da görür onu haxlıyıflar, papağı əlinnən alajaxlar, papağı yoldaşına atırdı. Heylə papağı bir-birinə ötürə-ötürə nişana qoyulan yerə çatdırmalıydılar. Kim bajarıxlı oldu, apardı ora çatdırdı, o da qalib gəlerdi. Qalib gələn dəstə bu səfər çöldə qalırdı, o biri dəstə isə içəri keçirdi.

## 8. XORUZ BABA, CÜY VER

İki dəstə olur. Hər dəstədə beş adam olur. Püşk atılır, püşk hansı dəstəyə düşsə, həmin dəstədən birin başın basdırırdılar. Elə bil mənim çuxamnan birinin üstün örtürsən, heç bir yeri görsənmir. O biri dəstənin üzvləri çuxanın altında kimin gizlədildiyini görmürdülər. Gizlədib qutarannan soora o biri dəstədən bir nəfər gəlir əlini çuxanın altınnan salıb deyir:

– Xoruz baba, cüy ver.

O da fit çalırdı. Onun çıxardığı səsə görə çöldəki dəstə çuxanın altındakının kim olduğunu tapmalı idi. Əvvəlcədən də məsafə təyin eliyirdilər. Uduzan dəstə udanları belinə alıf həmin məsafəyə qədər aparmalıyıdı. Yox, tapsalar, onda həmin dəstənin üzvləri o biri dəstənin belinə minib mətəyə qədər gedirdi.

## 9. ÇİLLƏR-BİLLƏR OYUNU

İki dəstə olur. Bir dəstə deyir: “Ay çillər”. O biri dəstə cavab verir: “Ay billər”. “Ay billər” deyən suala cavab verməlidi, “ay çillər” deyən sual verməlidi. Sual verən dəstənin üzvləri qabaqcadan məsləhət eliyirdi ki, hansı sualı qoyaq. Məsələn, mən deyirəm

ki, gəlin ev məsələsini qoyaq. İsa kişi deyir ki, filankəsin yaxşı atı var, gəlin onu soruşaq. Deyir: “Ay çillər”. Deyir: “Ay billər”. Deyir: “Yaxşı-yaxşı atdardan”. Cavab verən tərəf də deyir ki, Söydümalı kişinin qonur atı. Səhvdirsə, sual verən tərəf deyir: “Sabın çeynə”. “Sabın çeynə” o deməkdi ki, tapmamısan. Tapmayan tərəf o biri dəstəni belinə alıb aparmalıdı. Yox, tapdısa, o saat sual verən tərəf deyir ki, min gəl. Onda da tapan tərəf sual verən tərəfi minib gəlirdi bu başa. Cavab verən tərəfin ancaq bir dəfə ad demək haqqı var idi. Ona görə də adı deməmişdən qabaq götür-qoy edirdilər, soora deyirdilər. Soora udan dəstə bir sual qoyurdu ortalığa. Oyun bu şəkildə davam eliyirdi. Quş adı olanda quşun əlamətlərin sayardılar ki, dimdiyi var bir belə, çil-çil olar və s.

## 10. MOLLA, ÖLDÜN

Bu oyunu yazda, xüsusilə Noruz bayramı ərəfəsində axşam qaranlıx düşəndə oynuyurdular. Oyunun adı “Molla, öldün” idi. Şirvannıda (Bərdənin kəndidir – top.) bir karvansara var. Uşağlar yığışardı karvansaraya, iki komandaya bölünərdik. Komandalar gizdənərdi. Biri axtaran olurdu, biri tapan. Məsələn, sizin komandadan bir nəfər, bizdən də bir nəfər tapbalıydı. İndi siz hara gedirsinizsə, mənim komandamın duyux düşməsi üçün mən deyirdim ki, karvansarada, körpüdə, körpünün üstündə. Bərkdən deyirdim ki, komanda eşitsin. Onlar yerrərin dəyişirdilər. Bax, belə bir oyun olurdu. Yekunda da kim tapdısa, qalib o olurdu. Axtaran şəxsə “molla” deyirdilər.

## ŞEİR PARÇALARI

1. İki bacı yan-yana,
Gedirdilər Salyana.
Salyan suyu sərindi,
Bacının biri gəlindi.
Gəlinə bax, gəlinə,
Əlin vırıb belinə.
Gəlinə bir söz deməyin e,
Gedif deyər ərinə.
Əri minər maşına,
Sürər dağın başına.
Dağın yolu min bazar,
İçində meymun gəzər.
Meymunu o alladar,
Həsən bəyə salladar.
Həsən bəyin nəyi var?
Şakkur-şukkur çayı var.
Çayın biri qaydadı,
İkisi cana faydadı.
Üçü nəsdi,
Dördü bəsdi.
Keşdi beşə,
Vur on beşə.
Çay nədi,
Say nədi?

2. Müsurman ermənini döyüf, məjbur eliyif ki, xaça söysün. Bu da xaça söyür. Müsurman gedənnən soora erməni deyir:

Xaç, başına dönüm,
Gözüm nuru.
Başın qaldır,
Gözünü aç.
Çoban idi,

Zalım idi.
Çomağ idi,
Dalım idi.
Vurdu bana,
Neylədim sana.

3. Yeddi loxma üç tikə,
Oldu küpədə piti.
Ağzınadək suynan
Doldu küpədə piti.

Nə ədvası, nə əti,
Tamı yoxdu heş qəti.
İki qatdı qiyməti,
Boldu küpədə piti.

Uyma onun dəminə,
Nəzər yetir dibinə,
Müştərinin cibinə
Qoldu küpədə piti.

Adı gözəl yaz kimi,
Dəb olubdu caz kimi,
Biz yazığı qaz kimi
Yoldu küpədə piti.

4. *Qalxoz qurulanda qadınnar belə mahnılar oxuyurdu:*
Mən bu dərədən ötmərəm,
Tumanımı yellətmərəm.
Ağsaqqala getmərəm,
Hoqqabaz oğlan gərək,
Kəkilli saz oğlan gərək.

* * *

Pəri, pəri, pərvərdigar,
Pərvaz olmuşam.
Əlini ver əlimə
Qalxoz olmuşam.

5. Tərəkəmələr arasında heç nədən dava salmaq oyununa “İt öldü” deyirlər. İt tərəkəmələrdə qədirli, qiymətli heyvan olduğundan, həmişə xətri əziz tutulub. Tərəkəmlər “Köpək oğlu” söyüşündən o qədər də incimirlər. Özəlliklə, yaxın adam söyləyəndə. Özgə adam deyəndə isə o dəqiqə bir düzgü gülləyirlər:

Köpək oğluyam, köpmüşəm,
Ayran içib köpmüşəm.
Bacın suya gedəndə
Tutub üzündən öpmüşəm.

6. Şıx Əfəndini milçək incidir. Deyir:

Hərdən-hərdən oxlar məni,
Dimdiyiynən yoxlar məni.
Günün olsun qarə, milçək,
Məni gətdin zarə, milçək.
Sənin kimi çoxları məni
Salıbdı şikarə, milçək.

7. Getdim gördüm Ceyran xanım yatıbdı,
Ağ birçəyin kol başına atıbdı.
Dindirməyin, vallah, qızdırması tutubdu,
Yeri-yeri, ay Ceyran xanım, yeri.







**Beyləqan rayonunun Günəşli kəndində keçirilən**
**“Padşah oyunu”ndan çəkilən şəkillər.**





**“Padşah oyunu”, Beyləqan rayonu Günəşli kəndi.**





**“Padşah oyunu”, Beyləqan rayonu Günəşli kəndi.**





**“Padşah oyunu”, Beyləqan rayonu Günəşli kəndi.**





**"Padşah oyunu", Beyləqan rayonu Günəşli kəndi.**







**"Padşah oyunu", Beyləqan rayonu Günəşli kəndi.**



**Cərciz peyğəmbərin kümbəzi (Beyləqan rayonu)**



**Əlvəndova Şüşə Cəmil qızı, Laçın rayonu Qarakeşdi kəndi, ağıçı**



**Abbasov Abbas Mahmud oğlu, Cəbrayıl, Soltanlı kəndi, molla.**



**Xəlilov Murtuz Xəlil oğlu (ortada), onun solunda Əliyev Əyyub Məhəmmədəli oğlu, sağında Hüseynov Qədir Məhəmməd oğlu. Tərtər, Borsunlu kəndi.**

## MƏTNLƏRİN SÖYLƏYİCİLƏRİ

### Mifoloji mətnlər, əfsanələr, rəvayətlər

1. *Qızıl öküz.* Məmmədova Elmira, Beyləqan rayonu Xalac kəndi
2. *Allahın ad paylaması.* Cahangirov Bilal, Beyləqan rayonu Dünyamalılar kəndi
3. *Quleybanı.* Məmmədov Barat, Beyləqan rayonu I Aşıqlı kəndi
4. Məmmədov Barat, Beyləqan rayonu I Aşıqlı kəndi
5. Məmmədov Barat, Beyləqan rayonu I Aşıqlı kəndi
6. Məmmədov Baratın oğlundan yazıya alınıb.
7. *Yer qulacı.* Salmanov Mahmud, Beyləqan rayonu Eyvazalılar kəndi
8. Məmmədov Barat, Beyləqan rayonu I Aşıqlı kəndi
9. *Qaraçuxa.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
10. Rüstəmov Rüstəm, Beyləqan rayonu Tatalılar kəndi
11. Məmmədov Barat, Beyləqan rayonu I Aşıqlı kəndi
12. Quliyev Mehdiqulu, Beyləqan rayonu Əlnəzərli kəndi
13. *Cin.* Salmanov Mahmud, Beyləqan rayonu Eyvazalılar kəndi
14. Çıraqova Qənirə, Beyləqan rayonu II Aşıqlı kəndi
15. *Hal anası.* Salmanov Mahmud, Beyləqan rayonu Eyvazalılar kəndi
16. Salmanov Mahmud, Beyləqan rayonu Eyvazalılar kəndi
17. Məmmədova Elmira, Beyləqan rayonu Xalac kəndi
18. Məmmədov Maarif, Bərdə rayonu
19. Sərraf Şuriyə, Bərdə rayonu Yeni Daşkənd kəndi
20. *Cin dəyişəyi.* Məmmədova Elmira, Beyləqan rayonu Xalac kəndi
21. *Qızıl tapan.* Məmmədov Barat, Beyləqan, I Aşıqlı kəndi
22. *Canavarın gücü.* Qorçuyev Xanı, Laçın rayonu Səfiyan kəndi
23. *Buynuzlu ilan.* Sərraf Şuriyə, Bərdə rayonu Yeni Daşkənd kəndi
24. *İlanın baş ağrısı.* Teymurova Nənəxanım, İmişli rayonu Əliqulular kəndi
25. *İlan balığı.* Teymurova Nənəxanım, İmişli rayonu Əliqulular kəndi
26. *Peyğəmbər və toyuq.* Teymurova Nənəxanım, İmişli rayonu Əliqulular kəndi
27. *İncil ağacı.*Teymurova Nənəxanım, İmişli rayonu Əliqulular kəndi

28. *Həzrət Əli və günü.* Teymurova Nənəxanım, İmişli rayonu Əliqulular kəndi
29. *Dovşanın yaranması.* Qorçuyev Xanı, Laçın rayonu Səfiyan kəndi
30. *Cərciz peyğəmbər.* Cəfərov Mirəhməd, Beyləqan rayonu
31. Məmmədov Barat, Beyləqan rayonu I Aşıqlı kəndi
32. Salaxov Fazil, Beyləqan rayonu I Aşıqlı kəndi
33. *Peyğəmbər və çoban.* Xəlilov Murtuz, Tərtər rayonu Borsunlu kəndi
34. *Peyğəmbərin yalanı.* Xəlilov Murtuz, Tərtər rayonu Borsunlu kəndi
35. *Peyğəmbərin qoyuna qağışı.* Cahangirov Bilal, Beyləqan rayonu Dünyamalılar kəndi
36. Salmanov Mahmud, Beyləqan rayonu Eyvazalılar kəndi
37. *Səxavətli Hatəm.* Cəfərov Mirəhməd, Beyləqan rayonu
38. *Loğman.* Söyləyicisi məlum deyil.
39. Süleymanov Allahverdi Kərim oğlu
40. Ağayev Yusif, Tərtər rayonu Hüsənli kəndi
41. Həsənov Xəlil, İmişli rayonu Axıcanlı kəndi
42. Həsənov Xəlil, İmişli rayonu Axıcanlı kəndi
43. *Hacı Qaraman.* Həsənov Baqi, Beyləqan rayonu Günəşli kəndi
44. İbayev İdris, Beyləqan rayonu Günəşli kəndi
45. Həsənov Baqi, Beyləqan rayonu Günəşli kəndi
46. Həsənov Baqi, Beyləqan rayonu Günəşli kəndi
47. *Seyid İsmayıl.* Sərraf Şuriyə, Bərdə rayonu Yeni Daşkənd kəndi
48. Sərraf Şuriyə, Bərdə rayonu Yeni Daşkənd kəndi
49. *İsgəndərin ölümü.* Cahangirov Bilal, Beyləqan rayonu Dünyamalılar kəndi
50. Məmmədova Şəfiqə, Zəngilan rayonu Ağbənd kəndi
51. *İsgəndər və dilənçi.* Alyarov Məhərrəm, Tərtər rayonu Qaradağlı kəndi
52. *Şah Abbasnan Nadir şah.* Rüstəmov Məmmədşah, Beyləqan rayonu Tatalılar kənri
53. *Kərbəlayi Kazım.* Çıraqova Qənirə, Beyləqan rayonu II Aşıqlı kəndi
54. Cabbarov Səmədxan, Beyləqan rayonu I Aşıqlı kəndi
55-58. *Qaçaq Məhəmməd.* Xəlilov Murtuz, Tərtər rayonu Borsunlu kəndi
59. *Qaçaq Şaxmalı.* Kərimov Məhiyəddin, Tərtər şəhəri
60. *Qazanpapaq oğlu.* Şərifov Cavad, Bərdə rayonu
61. *Cəbrayıl qaçaqları.* İbayev İdris, Beyləqan rayonu Günəşli kəndi

62. İbayev İdris, Beyləqan rayonu Günəşli kəndi
63. Həsənov Baqi, Beyləqan rayonu Günəşli kəndi
64. Möhbalıyev Nizaməddin, Cəbrayıl rayonu Böyük Mərcanlı kəndi
65. *Ətcə qaçaqlar.* Pənahov Lazım, İmişli rayonu Oruclu kəndi
66. *Sarı xan.* Babayev Mehdixan, Beyləqan rayonu İmamverdilər kəndi
67. Pənahov Lazım, İmişli rayonu Oruclu kəndi
68. *Saday bəy.* Xankişiyev Qalamirzə, İmişli rayonu Ağammədli kəndi
69. Pənahov Lazım, İmişli rayonu Oruclu kəndi
70. Pənahov Lazım, İmişli rayonu Oruclu kəndi
71. Pənahov Lazım, İmişli rayonu Oruclu kəndi
72. Pənahov Lazım, İmişli rayonu Oruclu kəndi
73. *Hacı Qulu.* Məmmədov Barat, Beyləqan, I Aşıqlı kəndi
74. Məmmədov Barat, Beyləqan rayonu I Aşıqlı kəndi
75. Salaxov Fazil, Beyləqan rayonu I Aşıqlı kəndi
76. Salaxov Fazil, Beyləqan rayonu I Aşıqlı kəndi
77. Salaxov Fazil, Beyləqan rayonu I Aşıqlı kəndi
78. *Azad ağa.* Mədətli Nübar, Tərtər rayonu Qaraqoyunlu kəndi
79. *Gövhər ağa.* Mehdiyev Saday, Tərtər rayonu Qafanlı kəndi
80. *Səfqulu.* Tərtər rayonu Hüsənli kəndi
81. *Bic Mirzalı.* "Soy" elmi-kütləvi dərgi. Xüsusi buraxılış: Muğanlılar, Bakı, 2008
82-83. *Sarı Aşıq.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
84. *Aşıq Ələsgərin ermənilərə xitabı.* Sərraf Şuriyə, Bərdə rayonu Yeni Daşkənd kəndi
85. *Vergili insanlar.* Qurbanova Şirinbəyim, Beyləqan rayonu II Aşıqlı kəndi
86. *Xan qızı arxı.* Cahangirov Bilal, Beyləqan rayonu Dünyamalılar kəndi
87. Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
88. *Tərtər.* Quliyeva Suqra, Tərtər rayonu İsmayılbəyli kəndi
89. *Məmməd ölən yaylaq.* «Qızıl Bayraq» qəzeti, 1982, 10 iyul sayı.
90. *Buruc kəndi.* Tərtər rayonu
91. *Soltanbud təpəsi.* «Yeni Tərtər» qəzeti, 2009-cu il, 20 avqust sayı.
92. *Topatılan.* Xəlilov Murtuz, Tərtər rayonu Borsunlu kəndi
93. *Cəhənnəm Qaradağlısı.* Alyarov Məhərrəm, Tərtər rayonu

94. *İmişli.* Pənahov Lazım, İmişli rayonu Oruclu kəndi
95. *Kor canavarın qisməti.* Salmanov Mahmud, Beyləqan rayonu Eyvazalılar kəndi
96. *Çobanın çomağı.* Salmanov Mahmud, Beyləqan rayonu Eyvazalılar kəndi
97. *Varlının oğluna vəsiyyəti.* Cahangirov Bilal, Beyləqan rayonu Dünyamalılar kəndi
98. *Kəfənsoyan.* Məmmədov İsa, Beyləqan, Əlnəzərli kəndi
99. *Mən sənə düyə bağışladım, bu dağları bağışlamadım ki?* Mehdizadə Xasay, Bərdə rayonu
100. *Bu xına o xınadan deyil.* Xəlilov Murtuz, Tərtər rayonu Borsunlu kəndi
101-102. *Savab əməl.* Qorçuyev Xanı, Laçın rayonu Səfiyan kəndi

## Xatirələr

103. *Eyvazalılar.* Aslanov Faiq, Beyləqan rayonu Eyvazalılar kəndi
104. Tapdıqov Qasım, Beyləqan rayonu Eyvazalılar kəndi
105. Beyləqan rayonu Eyvazalılar kəndi
106. Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
107. Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
108. *Tatalılar.* Şiraslan, Beyləqan rayonu Tatalılar kəndi
109. *Aşıqlı.* Məmmədov Barat, Beyləqan rayonu I Aşıqlı kəndi
110. Məmmədov Barat, Beyləqan rayonu I Aşıqlı kəndi
111. *Əlnəzərli.* Ağalar Hidayət, Beyləqan rayonu Əlnəzərli kəndi
112. *Sərxanlı.* İmanov Aslan, İmişli rayonu Sərxanlı kəndi
113. *Əlpənahlı.* Məmmədov Xanalı, İmişli rayonu Muradxanlı kəndi
114. Fərmanov Novruz, İmişli rayonu Muradxanlı kəndi
115. *Boşçallar.* Əhmədov Pəsərək, İmişli rayonu Boşçallar kəndi
116. *Qaralılar.* Əhmədov Fazil, Beyləqan rayonu Qaralılar kəndi
117. *Qurbanlı buludlusu.* Abbasov Əlqan, İmişli rayonu Muradxanlı kəndi
118. *Oruclu.* Pənahov Lazım, İmişli rayonu Oruclu kəndi
119. *Axıcanlı.* Həsənov Xəlil, İmişli rayonu Axıcanlı kəndi
120. *İmamverdilər.* Babayev Mehdixan, Beyləqan rayonu İmamverdilər kəndi
121. *Binnətli.* Əsgərov Şaxmar, Beyləqan rayonu Binnətli kəndi

122. *Xalac.* Cahangirov Bilal, Beyləqan rayonu Dünyamalılar kəndi
123. *Sirik.* İbayev İdris, Beyləqan rayonu Günəşli kəndi
124. Həsənov Baqi, Beyləqan rayonu Günəşli kəndi
125. Həsənov Baqi, Beyləqan rayonu Günəşli kəndi
126. *Kolanı.* Tərtər rayonu Hacı Qərvənd kəndi
127. *Qaynaq*. Əliyev Balayar, Tərtər rayonu Qaynaq kəndi
128. *İsmayılbəyli.* Quliyeva Suqra, Tərtər rayonu İsmayılbəyli kəndi
129. *Borsunlu.* Əliyev Əyyub, Tərtər rayonu Borsunlu kəndi
130. *Xələfli.* Ağayev Cəfər, Cəbrayıl rayonu Xələfli kəndi
131. *Ağac davaları.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
132. Ağalar Hidayət, Beyləqan rayonu Əlnəzərli kəndi
133. Cəfərov Müzəffər, İmişli rayonu Əliqulular kəndi
134. *Gülləcil adamlar.* Babayev Mehdixan, Beyləqan rayonu İmamverdilər kəndi
135. Cəfərov Müzəffər, İmişli rayonu Əliqulular kəndi
136. Pənahov Lazım, İmişli rayonu Oruclu kəndi
137. Əhmədov Pəsərək, İmişli rayonu Boşçallar kəndi

## Etnoqrafik mətnlər

138. *Novruz adətləri.* Aslanov Ramiz, Beyləqan rayonu Eyvazalılar kəndi
139. Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
140. Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
141. Məmmədova Elmira, Beyləqan rayonu Xalac kəndi
142. Məmmədova Elmira, Beyləqan rayonu Xalac kəndi
143. Məmmədova Elmira, Beyləqan rayonu Xalac kəndi
144. *Üzük sallama.* Çıraqova Qənirə, Beyləqan rayonu I Aşıqlı kəndi
145. Məmmədova Elmira, Beyləqan rayonu Xalac kəndi
146. *Padşah oyunu.* İbayev İdris, Beyləqan rayonu Günəşli kəndi
147. Beyləqan rayonu Günəşli kəndi
148. *Kirvəlik haqqı.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
149. Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
150. Aslanov Ramiz, Beyləqan rayonu Eyvazalılar kəndi
151. Məmmədova Elmira, Beyləqan rayonu Xalac kəndi

152. *Toy adətləri.* Aslanov Ramiz, Beyləqan rayonu Eyvazalılar kəndi
153. Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
154. Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
155. Məmmədov Barat, Beyləqan rayonu I Aşıqlı kəndi
156. Ağalar Hidayət, Beyləqan rayonu Əlnəzərli kəndi
157. Sərraf Şuriyə, Bərdə rayonu Yeni Daşkənd kəndi
158. *Dəfn adəti.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
159. Abbasov Abbas, Cəbrayıl rayonu Soltanlı kəndi
160. *Qoyunçuluq haqqında.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
161. Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
162. Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
163. Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
164. Salmanov Mahmud, Beyləqan rayonu Eyvazalılar kəndi
165. Məhəmməd, Beyləqan rayonu Xalac kəndi
166. Məhəmməd, Beyləqan rayonu Xalac kəndi
167. Çıraqova Qənirə, Beyləqan rayonu II Aşıqlı kəndi
168. Cahangirov Bilal, Beyləqan rayonu Dünyamalılar kəndi
169. *Tərəkəmə ac qalar, iti ac qoymaz.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
170. *Atın yalmurazı haqqı.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
171. *Dəvə haqqında.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
172. Salmanov Mahmud, Beyləqan rayonu Eyvazalılar kəndi
173. *Sicimin hazırlanması.* Tapdıqov Qasım, Beyləqan rayonu Eyvazalılar kəndi
174. *Alaçığın hazırlanması.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
175. Tapdıqov Qasım, Beyləqan rayonu Eyvazalılar kəndi
176. Şiraslan, Tatalılar kəndi
177. *Qonaq evi.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
178. *Çarıq.* Tapdıqov Qasım, Beyləqan rayonu Eyvazalılar kəndi
179. *Çatma.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi

## Tərəkəmə yeməkləri

180. *Xıdır Nəbi xaşılı.* Şiraslan, Beyləqan rayonu Tatalılar kəndi
181. *Bağır-beyin.* Şiraslan, Beyləqan rayonu Tatalılar kəndi
182. *Köpməcə.* Şiraslan, Beyləqan rayonu Tatalılar kəndi
183. *Əyirdək.* Şiraslan, Beyləqan rayonu Tatalılar kəndi
184. *Bişi.* Şiraslan, Beyləqan rayonu Tatalılar kəndi
185. *Sulux.* Şiraslan, Beyləqan rayonu Tatalılar kəndi
186. *Sıpa sidiyi.* Şiraslan, Beyləqan rayonu Tatalılar kəndi
187. *Motal pendir.* Şiraslan, Beyləqan rayonu Tatalılar kəndi
188. Tapdıqov Qasım, Beyləqan rayonu Eyvazalılar kəndi
189. *Mayanın hazırlanması.* Tapdıqov Qasım, Beyləqan rayonu Eyvazalılar kəndi
190. *Axtarma pendir.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
191. *Eşşək pendiri.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi

## Nağıllar

192. *İsgəndər Zülqərnə.* Abbasov Abbas, Cəbrayıl rayonu Soltanlı kəndi
193. *Üç vəsiyyət.* Abbasov Abbas, Cəbrayıl rayonu Soltanlı kəndi
194. *Molla və çoban.* Abbasov Abbas, Cəbrayıl rayonu Soltanlı kəndi
195. *Üç məsləhət.* Abbasov Abbas, Cəbrayıl rayonu Soltanlı kəndi
196. *Yetim oğlan.* Abbasov Abbas, Cəbrayıl rayonu Soltanlı kəndi
197. *Üç ölüm.* Abbasov Abbas, Cəbrayıl, Soltanlı kəndi
198. *Qarakişinin nağılı.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
199. Sərraf Şuriyə, Bərdə rayonu Yeni Daşkənd kəndi
200. *Qaraçuxasını axtaran çoban.* Salmanov Mahmud, Beyləqan rayonu Eyvazalılar kəndi
201. *Söz satan Bəhlul.* Rüstəmov Rüstəm, Beyləqan rayonu Tatalılar kəndi
202. *Kefdən qalmaz.* Sərraf Şuriyə, Bərdə rayonu Yeni Daşkənd kəndi
203. Əliyev Əyyub, Tərtər rayonu Borsunlu kəndi
204. *Əsli hu.* Mehdizadə Xasay, Bərdə rayonu
205. *Kasıb kişinin gəlini.* Xəlilov Murtuz, Tərtər rayonu Borsunlu kəndi
206. *Nə haqq var, nə divan.* Xəlilov Murtuz, Tərtər rayonu Borsunlu kəndi

207. *İnsan nəslinə çəkər.* Əliyev Əyyub, Tərtər rayonu Borsunlu kəndi
208. *Sən mən dərdlisən, mən də sən dərdli.* Xəlilov Murtuz, Tərtər rayonu Borsunlu kəndi
209. *Oğru çoban.* Məmmədova Elmira, Beyləqan rayonu Xalac kəndi
210. *Ofsanata düşən tikə.* Məmmədova Elmira, Beyləqan rayonu Xalac kəndi
211. *Odunçunun nağılı.* Məmmədova Elmira, Beyləqan rayonu Xalac kəndi
212. *Yazıya pozu yoxdur.* Abbasov Aydınəli, Beyləqan rayonu Xalac kəndi
213. *Çörək dostu.* Qorçuyev Xanı, Laçın rayonu Səfiyan kəndi
214. *Əzrayılın dostluğu.* Teymurova Nənəxanım, İmişli rayonu Əliqulular kəndi
215. *Əmanətə xəyanət.* Ağayev Yusif, Tərtər, Hüsənli kəndi
216. *Əl aman.* Cahangirov Bilal, Beyləqan rayonu Dünyamalılar kəndi

## Lətifələr

217. *Əmmasız iş olmur.* Hüseynov Qədir, Tərtər rayonu Borsunlu kəndi
218. *Bəhlul və bilici.* Hüseynov Qədir, Tərtər rayonu Borsunlu kəndi
219. *Bəhlulun gülməsi.* Əhmədov Pəsərək, İmişli rayonu Boşçallar kəndi
220. *Göydə küçük zingildəyir.* Çıraqov Bəhlul, Beyləqan rayonu II Aşıqlı kəndi
221. *Ona qədər ya borc yiyəsi ölər, ya mən.* Hüseynov Qədir, Tərtər rayonu Borsunlu kəndi
222. *Abdal Qasım.* Əliyev Əyyub, Tərtər rayonu Borsunlu kəndi
223. *Mərdimazar.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
224. *Kim düşürdəcək?* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
225. *Top dəvəsi.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
226. *Fərasətli çoban.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
227. *Burda durandan görməmişəm.* Aslanov Faiq, Beyləqan rayonu Eyvazalılar kəndi
228. *Yeyək döyək, döyək yeyək?* Həsənov Xəlil, İmişli rayonu Axıcanlı kəndi

229. *Yalan danışıramsa, tava hanı?* Məmmədov Barat, Beyləqan rayonu I Aşıqlı kəndi
230. *Şah oğlu misgərlik öyrənir.* Sərraf Şuriyə, Bərdə rayonu Yeni Daşkənd kəndi
231. *Dəvə ilə sərçə.* Sərraf Şuriyə, Bərdə rayonu Yeni Daşkənd kəndi
232. *Köhnə qonağa oxşayıram?* Ağalar Hidayət. Dünya məndən gileyli. Bakı, 2010
233. *Ata ilə oğulun dialoqu.* Ağalar Hidayət. Dünya məndəngileyli. Bakı, 2010
234. *Nənə ilə nəvə.* Məmmədov Barat, Beyləqan rayonu I Aşıqlı kəndi
235. *Məni qaytarın samanlığa.* Ağalar Hidayət. Dünya məndən gileyli. Bakı, 2010
236. *Motal məni buraxmır.* Ağalar Hidayət. Dünya məndən gileyli. Bakı, 2010
237. *Yeməyə gəlib.* Ağalar Hidayət. Dünya məndən gileyli. Bakı, 2010
238. *Az-az toz orucu pozmaz.* İmanov Aslan, İmişli rayonu Sərxanlı kəndi
239. *Kəbirli lətifələri.* Tapdıqov Qasım, Beyləqan rayonu Eyvazalılar kəndi
240. Ağalar Hidayət, Beyləqan rayonu Əlnəzərli kəndi
241. Əhmədov Pəsərək, İmişli rayonu Boşçallar kəndi
242. İmanov A.M., İmişli rayonu Sərxanlı kəndi
243. *Atom.* Ağalar Hidayət, Beyləqan rayonu Əlnəzərli kəndi
244. *Şığıdığın bəsdi, qanad çal.* Ağalar Hidayət, Beyləqan rayonu Əlnəzərli kəndi
245. *Anamla getmirəm, dədəmlə gedirəm.* Ağalar Hidayət, Beyləqan rayonu Əlnəzərli kəndi
246. *Sən mənlə yetim saxlayansan?* Ağalar Hidayət, Beyləqan rayonu Əlnəzərli kəndi
247. *Afşar şəri.* Tapdıqov Qasım, Beyləqan rayonu Eyvazalılar kəndi
248. *Gözdən tük qapan Şahsevənli.* Nəsirova Xanım, Beyləqan rayonu Şahsevən kəndi
249. *Özü yuyub.* Məmmədov Xanalı, İmişli rayonu Muradxanlı kəndi
250. *Tülkününkü Allaha qalıb.* Həsənov Xəlil, İmişli rayonu Axıcanlı kəndi

251. *Tərəkəmənin qalalıya cavabı.* Pənahov Lazım, İmişli rayonu Oruclu kəndi
252. *Tərəkəmənin danışığı.* Pənahov Lazım, İmişli rayonu Oruclu kəndi
253. *Tərəkəməynən tat.* "Soy" elmi-kütləvi dərgi. Xüsusi buraxılış: Muğanlılar, Bakı, 2008
254. *Ucunda dana vardı.* "Soy" elmi-kütləvi dərgi. Xüsusi buraxılış: Muğanlılar, Bakı, 2008
255. *Çuxanı çıxarmısan deyə səni tanımayacağam?* "Soy" elmi-kütləvi dərgi. Xüsusi buraxılış: Muğanlılar, Bakı, 2008
256. *Səni gördülər, çıx.* "Soy" elmi-kütləvi dərgi. Xüsusi buraxılış: Muğanlılar, Bakı, 2008
257. *Kürdnən qarabağlının dostluğu.* Aslanov Ramiz, Beyləqan rayonu Eyvazalılar kəndi
258. *Çox qohumlu bəxtəvər.* Əliyev Balayar, Tərtər rayonu Qaynaq kəndi
259. *Bərk tutun, əlimə tüpürəcəm.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
260. *Bağışla, elə bildim yiyəsi yoxdur.* Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
261. *Kəlbəcərdən gəlib matson olmusan?* Məmmədov Barat, Beyləqan rayonu I Aşıqlı kəndi
262. *Adam kimi de də.* Həsənov Xəlil, İmişli rayonu Axıcanlı kəndi
263. *Yeməyinə yeyəcəyik.* Həsənov Xəlil, İmişli rayonu Axıcanlı kəndi
264. *Qızılın qiyməti.* Ağalar Hidayət. Dünya məndən gileyli. Bakı: Araz, 2010, 210 s
265. *Nikolay dövrü kimi.* Ağalar Hidayət. Dünya məndən gileyli. B., 2010
266. *Şalvarmızın yamağı görükər.* Ağalar Hidayət. Dünya məndən gileyli. Bakı, 2010
267. *Bığları tərpəşirdi.* Ağalar Hidayət. Dünya məndən gileyli. B., 2010
268. *Evi kim yağmalayıb?* Ağalar Hidayət. Dünya məndən gileyli. Bakı, 2010
269. *Niyə qalsın narazı?* Ağalar Hidayət. Dünya məndən gileyli. Bakı, 2010

270. *Bizdən eşşək olacaq, adam olmayacaq.* Ağalar Hidayət. Dünya məndən gileyli. Bakı, 2010
271. *Ləzgi atasına Quran oxudur.* Ağalar Hidayət, Beyləqan rayonu Əlnəzərli kəndi
272. *Qoy desinlər Şahpələngin fermasıdır.* Tapdıqov Qasım, Beyləqan rayonu Eyvazalılar kəndi
273. *Papağı yerə qoy, it sənən dəyməyəcək.* Tapdıqov Qasım, Beyləqan rayonu Eyvazalılar kəndi
274. *Daşı mənə heyvan adıynan göstərib.* Tapdıqov Qasım, Beyləqan rayonu Eyvazalılar kəndi
275. *Uşağı belə saxlayacaqdın?* Aslanov Faiq, Beyləqan rayonu Eyvazalılar kəndi
276. *Özünə çoban tap.* Rüstəmov Rüstəm, Beyləqan rayonu Tatalılar kəndi
277. *Şahpələng – qoyunun biri bir çörək.* Rüstəmov Rüstəm, Beyləqan rayonu Tatalılar kəndi
278. *Allah verdiyi canı ala bilmir, sən pulu nətər alacaqsan?* Salaxov Fazil, Beyləqan, I Aşıqlı kəndi
279. *Səni yerdən götürmüşəm.* Ağalar Hidayət, Beyləqan rayonu Əlnəzərli kəndi
280. *Bəlkə rayondan sönüb?* Aslanov Ramiz, Beyləqan rayonu Eyvazalılar kəndi
281. *Umud oldum keçiyə.* Ağalar Hidayət, Beyləqan rayonu Əlnəzərli kəndi
282. *Müəllim Həsən, Baybay Həsən, Dümbül Həsən...* Əliyev Balayar, Tərtər rayonu Qaynaq kəndi
283. *Tülkü bəy.* Tərtər rayonu Hüsənli kəndi
284. *Dua.*Ağamirzə Kərimov. Binnətli və ona yaxın şəcərələr. Bakı: Apostroff, 2014, 24 s.
285. *Allahqulunun seyidliyi.* Ağamirzə Kərimov. Binnətli və ona yaxın şəcərələr. Bakı, 2014
286. *Qorxu.* Ağamirzə Kərimov. Binnətli və ona yaxın şəcərələr. Bakı, 2014
287. *Bel əhvalatı.* Ağamirzə Kərimov. Binnətli və ona yaxın şəcərələr. Bakı, 2014

288. *Kirvəlik.* Ağamirzə Kərimov. Binnətli və ona yaxın şəcərələr. Bakı, 2014
289. *Ərim yadıma düşüb.*Ağamirzə Kərimov. Binnətli və ona yaxın şəcərələr. Bakı, 2014

**İnamlar və türkəçarələr**

1-3. Cahangirov Bilal, Beyləqan rayonu Dünyamalılar kəndi
4-6. Salmanov Salman, Beyləqan rayonu Eyvazalılar kəndi
7. Aslanov Faiq, Beyləqan rayonu Eyvazalılar kəndi
8-12. Qurbanova Şirinbəyim, Beyləqan rayonu II Aşıqlı kəndi
13-15. Məmmədova Elmira, Beyləqan rayonu Xalac kəndi
16-20. Aslanova Rəmzi, Beyləqan rayonu Eyvazalılar kəndi
22-25. Sərraf Şuriyə, Bərdə rayonu Yeni Daşkənd kəndi
26. Əsgərov Şaxmar, Beyləqan rayonu Binnətli kəndi

**Bayatılar**

1-3. Aslanova Rəmzi, Beyləqan rayonu Eyvazalılar kədi
4-16. Çıraqova Qənirə, Beyləqan rayonu II Aşıqlı kəndi
20-25. Nəsirova Xanım, Beyləqan rayonu I Şahsevən kəndi
26-35. Mehdizadə Xasay, Bərdə şəhəri
36-48. Həsənova Sətin, Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi
49-99. Əlvəndova Şüşə, Laçın rayonu, Qarakeşdi kəndi
100-110. Teymurova Nənəxanım, İmişli rayonu, Əlqulular kəndi
117-122. Məmmədxanov Əsədulla, Cəbrayıl, Yarəhmədli kəndi
123-134. Cəfərova Urayə, Zəngilan, Üzümçülər qəsəbəsi

**Oyunlar**

1-4. Aslanov Ramiz, Beyləqan, Eyvazalılar kəndi
6-7. Rüstəmov Rüstəm, Beyləqan, Tatalılar kəndi
8-9. Ağalar Hidayət, Beyləqan, Əlnəzərli kəndi
10. Əliyev Talış, Bərdə rayonu

## SÖYLƏYİCİLƏR HAQQINDA ÜMUMİ MƏLUMAT

1. Abbasov Abbas Mahmud oğlu, Cəbrayıl rayonu Soltanlı kəndi, 1938-ci il, ali təhsilli, ibtidai sinif müəllimi, molla. Söylədiyi mətnlər: 159, 192, 193, 194, 195, 196, 197

2. Abbasov Aydınəli Qaraş oğlu, Beyləqan rayonu Xalac kəndi, 1940-cı il, orta təhsilli. Söylədiyi mətn: 212

3. Abbasov Əlqan Kamran oğlu, İmişli rayonu Muradxanlı kəndi, 1930-cu il, təhsilsiz. Söylədiyi mətn: 117

4. Ağalar Hidayət Zibi oğlu, Beyləqan rayonu Əlnəzərli kəndi, 1940-cı il, ali təhsilli müəllim. Söylədiyi mətnlər: 111, 132, 156, 232, 233, 235, 236, 237, 240, 243, 244, 245, 246, 264, 265, 266, 267, 268, 269, 270, 271, 279, 281. Oyunlar: 7, 8.

5. Ağayev Cəfər Şəkərəlı oğlu, Cəbrayıl rayonu Xələfli kəndi, 1941-ci il, yeddi illik təhsil, usta. Söylədiyi mətn: 130

6. Ağayev Yusif Hacı oğlu, Tərtər rayonu Hüsənli kəndi, 1939-cu il, ali təhsilli, molla. Söylədiyi mətnlər: 40, 215

7. Alyarov Məhərrəm Şükür oğlu, Tərtər rayonu Qaradağlı kəndi, 1943-cü il, orta ixtisas təhsilli, molla. Söylədiyi mətnlər: 51, 93

8. Aslanov Ramiz Şirin oğlu, Beyləqan rayonu Eyvazalılar kəndi, ali təhsilli müəllim. Söylədiyi mətnlər: 138, 150, 152, 257, 280. Oyunlar: 1, 2, 3, 4.

9. Aslanov Faiq Şirin oğlu, Beyləqan rayonu Eyvazalılar kəndi, 1961-ci il, orta-ixtisas təhsilli aqranom. Söylədiyi mətnlər: 103, 227, 275. İnamlar və türkəçarələr: 7

10. Aslanova Rəmzi Mehralı qızı, Beyləqan rayonu Eyvazalılar kəndi, 1914-cü il, təhsilsiz. İnamlar və türkəçarələr: 16-20. Bayatılar: 1, 2, 3.

11. Babayev Mehdixan Alı oğlu, Beyləqan rayonu İmamverdilər kəndi, 1940-cı il, ali təhsilli. Söylədiyi mətnlər: 66, 120, 134. *Toplayan: İlkin Rüstəmzadə, Zəfər Fərhadov*

12. Cabbarov Səmədxan Fətiş oğlu, Beyləqan rayonu I Aşıqlı kəndi, 1937-ci il, ali təhsilli müəllim. Söylədiyi mətn: 54

13. Cahangirov Bilal Müstəcəb oğlu, Beyləqan rayonu Dünyamalılar kəndi, 1936-cı il, orta təhsilli. Söylədiyi mətnlər: 2, 35, 49, 86, 97, 122, 168, 216. İnamlar və türkəçarələr: 1-3.

14. Cəfərov Müzəffər Səfər oğlu, İmişli rayonu Əliqulular kəndi, 1926-cı il, təhsilsiz, çoban. Söylədiyi mətnlər: 133, 135. *Toplayan: İlkin Rüstəmzadə, Zəfər Fərhadov*

15. Cəfərov Mirəhməd Mirsəttar oğlu, Beyləqan rayonu, 1951-ci il, texnikom təhsilli, molla. Söylədiyi mətnlər: 30, 37.

16. Cəfərova Urayə, Zəngilan rayonu Üzümçülər qəsəbəsi, 1938-ci il, ibtidai sinif müəllimi. Bayatılar: 123-134. *Toplayan: Güllər Əlirzayeva*

17. Çıraqov Bəhlul Abduləli oğlu, Beyləqan rayonu II Aşıqlı kəndi, 1936-cı il, təhsilsiz. Söylədiyi mətn: 220

18. Çıraqova Qənirə Həzrətqulu qızı, Beyləqan rayonu II Aşıqlı kəndi, 1936-cı il, təhsilsiz. Söylədiyi mətnlər: 14, 53, 144, 167. Bayatılar: 4-16.

19. Əhmədov Fazil Qubad oğlu, Beyləqan rayonu Qaralılar kəndi. Söylədiyi mətn: 116. *Toplayan: İlkin Rüstəmzadə, Zəfər Fərhadov*

20. Əhmədov Pəsərək Kərim oğlu, İmişli rayonu Boşçallar kəndi, 1933, orta-ixtisas təhsilli, aqranom. Söylədiyi mətnlər: 115, 137, 219, 241. *Toplayan: İlkin Rüstəmzadə, Zəfər Fərhadov*

21. Əliyev Balayar Surxay oğlu, Tərtər rayonu Qaynaq kəndi, 1958-ci il, orta təhsilli. Söylədiyi mətnlər: 127, 258, 282.

22. Əliyev Əyyub Məhəmmədəli oğlu, Tərtər rayonu Borsunlu kəndi, 1937-ci il, ali təhsilli müəllim. Söylədiyi mətnlər: 129, 203, 207, 222.

23. Əlvəndova Şüşə Cəmil qızı, Laçın rayonu Qarakeşdi kəndi, 1928-ci il, təhsilsiz, ağıçı. Bayatılar: 49-99. *Toplayan: İlkin Rüstəmzadə, Zəfər Fərhadov*

24. Əsgərov Şaxmar Bəndalı oğlu, Beyləqan rayonu Binnətli kəndi, 1940-cı il, ali təhsilli aqranom. Söylədiyi mətn: 121. İnamlar və türkəçarələr: 26. *Toplayan: İlkin Rüstəmzadə, Zəfər Fərhadov*

25. Fərmanov Novruz Əzim oğlu, İmişli rayonu Muradxanlı kəndi, 1933-cü il, orta təhsili şofer. Söylədiyi mətn: 114. *Toplayan: İlkin Rüstəmzadə, Zəfər Fərhadov*

26. Həsənov Baqi Məhəmməd oğlu, Beyləqan rayonu Günəşli kəndi,1956-cı il, təhsilsiz. Söylədiyi mətnlər: 43, 45, 46, 63, 124, 125.

27. Həsənov Xəlil Əlnağı oğlu, İmişli rayonu Axıcanlı kəndi, 1942-ci il, orta təhsilli, traktorçu. Söylədiyi mətnlər: 41, 42, 119, 228, 250, 262, 263. *Toplayan: İlkin Rüstəmzadə, Zəfər Fərhadov*

28. Həsənova Sətin Gəray qızı, Cəbrayıl rayonu Böyük Mərcanlı kəndi, 1934-cü il, təhsilsiz. Bayatılar: 36-48. *Toplayan: Zəfər Fərhadov*

29. Hüseynov Qədir Məhəmməd oğlu, Tərtər rayonu Borsunlu kəndi, 1938-ci il, ali təhsilli müəllim. Söylədiyi mətnlər: 217, 218, 221.

30. Xankişiyev Qalamirzə Həşim oğlu, İmişli rayonu Ağammədli kəndi, 1940-cı il, orta-ixtisas təhsilli müəllim. Söylədiyi mətn: 68. *Toplayan: İlkin Rüstəmzadə, Zəfər Fərhadov*

31. Xəlilov Murtuz Xəlil oğlu, Tərtər rayonu Borsunlu kəndi, 1930-cu il, yeddi illik təhsil. Söylədiyi mətnlər: 33, 34, 55, 56, 57, 58, 92, 100, 205, 206, 208.

32. İbayev İdris Məhəmməd oğlu, Beyləqan rayonu Günəşli kəndi, 1935-ci il, təhsilsiz. Söylədiyi mətnlər: 44, 61, 62, 123, 146.

33. İmanov Aslan Məhəmməd oğlu, İmişli rayonu Sərxanlı kəndi, 1936-cı il, orta təhsilli. Söylədiyi mətnlər: 112, 238, 242. *Toplayan: İlkin Rüstəmzadə, Zəfər Fərhadov*

34. Kərimov Məhiyəddin Səlim oğlu, Tərtər rayonu, 1926-cı il, yeddi illik təhsil. Söylədiyi mətn: 59.

35. Qorçuyev Xanı Seyfalı oğlu, Laçın rayonu Səfyan kəndi, 1930-cu il. Söylədiyi mətnlər: 22, 29, 101, 102, 213. *Toplayan: Güllər Əlirzayeva*

36. Quliyev Mehdiqulu Allahyar oğlu, Beyləqan rayonu Əlnəzərli kəndi, 1930-cu il, təhsilsiz. Söylədiyi mətn: 12.

37. Quliyeva Suqra Qasım qızı, Tərtər rayonu İsmayılbəyli kəndi, 1923-cü il, orta ixtisas təhsilli. Söylədiyi mətnlər: 88, 128.

38. Qurbanova Şirinbəyim Eyti qızı, Beyləqan rayonu II Aşıqlı kəndi, 1939-cu il, yeddi illik təhsil, sınıqçı. Söylədiyi mətnlər: 85. İnamlar və türkəçarələr: 8-12.

39. Mehdiyev Saday Azay oğlu, Tərtər rayonu Qaradağlı kəndi, 1960-cı il, orta-ixtisas təhsilli. Söylədiyi mətn: 79.

40. Mehdizadə Xasay, Bərdə rayonu, 67 yaş. Söylədiyi mətnlər: 99, 204. Bayatılar: 26-35. *Toplayan: Atif İslamzadə.*

41. Mədətli Nübar, Tərtər rayonu Azadqaraqoyunlu kəndi, 1933-cü il, ali təhsilli. Söylədiyi mətn: 78

42. Məmmədxanov Əsədulla Əmənulla oğlu, Cəbrayıl rayonu Yarəhmədli kəndi, 1943-cü il. Bayatılar: 117-122. *Toplayan: Şakir Albalıyev*

43. Məmmədov Barat Ağa oğlu, Beyləqan rayonu I Aşıqlı kəndi, 1930-cu il, orta təhsilli. Söylədiyi mətnlər: 3, 4, 5, 8, 11, 21, 31, 73, 74, 109, 110, 155, 229, 234, 261.

44. Məmmədov Xanalı Nemət oğlu, İmişli rayonu Sərxanlı kəndi, 1933-cü il, təhsilsiz, bənna. Söylədiyi mətnlər: 113, 249. *Toplayan: İlkin Rüstəmzadə, Zəfər Fərhadov*

45. Məmmədov İsa Zeynal oğlu, Beyləqan rayonu Əlnəzərli kəndi, 1935-ci il, ali təhsilli. Söylədiyi mətn: 98.

46. Məmmədov Maarif Həsən oğlu, Bərdə rayonu, 75 yaşında. Söylədiyi mətn: 18. *Toplayan: Atif İslamzadə*

47. Məmmədova Elmira Əliş qızı, Beyləqan rayonu Xalac kəndi, 1948-ci il, təhsilsiz. Söylədiyi mətnlər: 1, 17, 20, 141, 142, 143, 145, 151, 209, 210, 211. İnamlar və türkəçarələr: 13-15.

48. Məmmədova Şəfiqə Hüseyn qızı, Zəngilan rayonu Ağbənd kəndi, 66 yaş. Söylədiyi mətn: 50. *Toplayan: Mətanət Abbasova*

49. Möhbalıyev Nizaməddin Dəsgiralı oğlu, Cəbrayıl rayonu Böyük Mərcanlı kəndi, 1952-ci il, orta təhsilli. Söylədiyi mətn: 64.

50. Nəsirova Xanım Cabbar qızı, Beyləqan rayonu I Şahsevən kəndi, 1934-cü il, təhsilsiz. Söylədiyi mətn: 248. Bayatılar: 20-25.

51. Pənahov Lazım Mayıl oğlu, İmişli rayonu Oruclu kəndi, 1952-ci il, orta təhsilli. Söylədiyi mətnlər: 65, 67, 69, 70, 71, 72, 94, 118, 136, 251, 252. *Toplayan: İlkin Rüstəmzadə, Zəfər Fərhadov*

52. Rüstəmov Məmmədşah Bərşat oğlu, Beyləqan rayonu Tatalılar kəndi, 1941-ci il, tenikom təhsilli. Söylədiyi mətn: 52.

53. Rüstəmov Rüstəm Abbas oğlu, Beyləqan rayonu Tatalılar kəndi, 1939-cu il, orta-ixtisas təhsilli, feldşer. Söylədiyi mətnlər: 10, 201, 276, 277. Oyunlar: 6, 7.

54. Salaxov Fazil Əsgərxan oğlu, Beyləqan rayonu I Aşıqlı kəndi, 1945-ci il, ali təhsilli. Söylədiyi mətnlər: 32, 75, 76, 77, 278.

55. Salmanov Mahmud Baxış oğlu, Beyləqan rayonu Eyvazalılar kəndi, 1940-cı il, təhsilsiz, çoban. Söylədiyi mətnlər: 7, 13, 15, 16, 36, 95, 96, 164, 172, 200.

56. Salmanov Salman Bayram oğlu, Beyləqan rayonu Eyvazalılar kəndi, 1958-ci il, orta təhsilli, çoban. Söylədiyi mətnlər: 9, 82, 83, 87, 106, 107, 131, 139, 140, 148, 149, 153, 154, 158, 160, 161, 162, 163, 169, 170, 171, 174, 177, 179, 190, 191, 198, 223, 224, 225, 226, 259, 260. İnamlar və türkəçarələr: 4-6.

57. Süleymanov Allahverdi Kərim oğlu, Beyləqan rayonu Əlnəzərli kəndi, 1942-ci il, orta-ixtisas təhsilli. Söylədiyi mətn: 39.

58. Şərifov Cavad Azad oğlu, Bərdə rayonu, 1925-ci il. Söylədiyi mətnlər: 60. *Toplayan: Atif İslamzadə*

59. Şuriyə Sərraf, Bərdə rayonu Yeni Daşkənd kəndi, 1942-ci il, ali təhsilli. Söylədiyi mətnlər: 19, 23, 47, 48, 84, 157, 199, 202, 230, 231. İnamlar və türkəçarələr: 22-25. *Toplayan: Atif İslamzadə*

60. Tapdıqov Qasım Kamal oğlu, Beyləqan rayonu Eyvazalılar kəndi, 1949-cu il, ali təhsilli müəllim. Söylədiyi mətnlər: 104, 173, 175, 178, 188, 189, 239, 247, 272, 273, 274.

61. Teymurova Nənəxanım Hüseyn qızı, İmişli rayonu Əliqulular kəndi, 1947-ci il, təhsilsiz. Söylədiyi mətnlər: 24, 25, 26, 27, 28, 214. Bayatılar: 100-110. *Toplayan: İlkin Rüstəmzadə, Zəfər Fərhadov*

# KİTABA DAXİL EDİLMİŞ NAĞILLARIN SÜJET GÖSTƏRİCİSİ[45]

**332 Əzrayılın kirvəliyi – № 214**
**460A Bəxtin axtarılması – № 200**
**558* Göydən qılınc yağır – № 198, 199**
**750* İynənin ulduzundan dəvə keçər? – № 194**
**760**A Ofsanata düşən tikə – № 210**
**782** İsgəndər özünü yer üzünün yeganə hökmdarı sayır – №192**
**783* Əsli hu – № 204**
**798* Dünya qarısı – № 192**
**806* İsgəndər o dünyada – № 192**
**811* Əzrayıl hərənin canını bir üsulla alır – № 213**
**827* Çobanın həcc ziyarəti – № 209**
**831C Torpaq hərisi – № 192**
**834** Altı şahılıq ruzu – № 196**
**834A Kor canavarın qisməti – № 211**
**875D Yola nərdivan salaq – № 192**
**888A Baftaçı Şah Abbas – №192**
**910A* İçki məclisinə dostlarından sonra get – № 193.** Az toplanmış nağıl süjetlərindən biridir, indiyə qədər ancaq bir variantı məlum idi.
**910B Üç ağıllı məsləhət – № 195**
**911 Arvada sirr vermə – № 201**
**929*** Evə əliboş gəlmək olmaz – № 205**
**930 Yazıya pozu yoxdur – № 212.** Olduqca geniş yayılmış süjetdir. Demək olar ki, Qarabağın əksər rayonlarından bu süjetin variantı qeydə alınmışdır.

---

[45] Süjetlərin adları və nömrələri "Azərbaycan nağıllarının süjet göstəricisi" (qısa adı TR) (Bakı: Elm və təhsil, 2013) əsasında verilmişdir. Süjet adlarından sonra nağılın topludakı nömrəsi göstərilmişdir. Topludakı nağılların əksəriyyətinin həmin kitabda qarşılığına rast gəlinir. Yalnız bir süjetin qarşılığı yoxdur ki, həmin süjet haqqında da göstəricinin sonunda əlavə məlumat verilmişdir.

**934A Üç ölüm – № 197.** Bu süjetin indiyə qədər Ağdaş rayonundan qeydə alınmış bir variantı məlum idi.
**934G** Əzrayıl ilan cildində – № 213**
**960A* Haqq var, divan yox – № 206**
**997* İnsan nəslinə çəkər – № 207**
**1358B Arvad aşnasını küpün içində gizlədir – № 208.** Ən az toplanan süjetlərdən biridir, indiyə qədər yalnız bir variantı məlum idi.
**1736 Taxtaya dönən qılınc – № 202, 203**
**1863*D Əl aman – № 216**
"Əmanətə xəyanət" nağılının TR kataloqunda qarşılığı yoxdur. Bu nağılın digər bir variantı Saatlı rayonundan toplanıb. Az yayılması, bir-iki söyləyicinin repertuarı üçün xarakterik olması onun dini ədəbiyyatın təsiri ilə şifahi ənənəyə daxil olduğunu deməyə əsas verir.

## QARABAĞ LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ ÇAP OLUNMUŞ NAĞILLARIN SÜJET GÖSTƏRİCİSİ[46]

**1B* Tülkü gəlinin zinət əşyalarını oğurlayır.** Tülkü gəlin gəcavəsinin keçdiyi yolda özünü ölülüyə vurur. Onu atın tərkinə alırlar. Yolda gəlini biabır edəcəyi ilə qorxudub onun zinət əşyalarını alır.

Qarabağ, III kitab, s.322-326, kont.2+38A*+38B*+15

**2 Qurd balıq tutur.** Tülkünün məsləhəti ilə quyruğunu suya qoyur, quyruğu buz bağlayır.

Qarabağ, III kitab, s.322-326, kont.1B*+38A*+38B*+15

**15 Tülkünün mamaçalığı.** Tülkü ilə qurd qış üçün yağ ehtiyatı görürlər. Tülkü mamaçalığa getmək adı ilə evi tərk edib gizlətdikləri yağı yeyir. Oğrunu tapmaq üçün yanlarını istiyə verirlər. Tülkü qurdun böyrünə yağ sürtüb onu günahlandırır.

Qarabağ, III kitab, s.322-326, kont.1B*+2+38A*+38B*

**[16* Bizim nəsildə day basan olmayıb].** Tülkünün balaları day basdıqlarını iddia edirlər. Məlum olur ki, dayı canavar basıb, onlar da onun ətindən götürüblər.

Qarabağ, V kitab, s.249-250

**38A* Tülkü qurda pinəçilik öyrədir.** Bizi qurdun dilinə batırıb aradan çıxır.

Qarabağ, III kitab, s.322-326, kont.1B*+2+38B*+15

**38B* Tülkü qurda səbət toxumağı öyrədir.** Qurdu səbətə salıb ağzını hörür.

Qarabağ, III kitab, s.322-326, kont.1B*+2+38A*+15; V kitab, s.250-251

**46* Tülkünün nəziri.** Tülkü quyudan xilas olmaq üçün Allaha qoç qurban deyir. Xilas olduqdan sonra sözünün üstündə durmur.

Qarabağ, V kitab, s.252-253

**75 Şir zəifin ona kömək etməsini özünə sıxışdırmır.** Tülkü şiri aldadıb ayaqlarını bağlayır, canavar isə onu xilas edir. Şir həmin yeri tərk edir.

---

[46] Göstərici Aarne-Tompson sistemi əsasında hazırlanıb. Beynəlxalq kataloqda qarşılığı olmayan süjet və variantlar kataloqda * (ulduz) işarəsi ilə göstərilib. İlk dəfə toplanmış nağıl süjetləri göstəricidə çarpaz mötərizə içərisində verilib.

Qarabağ, VI kitab, s.257

**80A = AT 80A* Kimin yaşı böyükdür.** Dəvə, canavar və tülkü kökə tapırlar. Razılaşırlar ki, hərə öz yaşını desin, kimin yaşı böyük olsa, kökəni o yesin. Canavar Nuhun gəmisinə ilk minənlərdən biri olduğunu, tülkü gəminin qayrılmasında iştirak etdiyini deyir. Dəvə: «Sizin sözünüzdən belə çıxır ki, dəvə uşaqdır» – deyib kökəni yeyir.

Qarabağ, III kitab, s.321-322

**122A Axmaq canavar.** Ac canavar növbə ilə müxtəlif heyvanlarla qarşılaşır. Onları yemək istəyir. Gözləyir ki, camış palçığını yusun, quzu duz gətirsin və s. Heyvanlar onu aldadıb qaçır, canavar ac qalır.

Qarabağ, I kitab, s.323-324, kont.122J; III kitab, s.326, kont.122J

**122J Ayı və at.** At ölməzdən qabaq yaşını bilmək istədiyini deyir. Canavar ayağının altındakı yazını oxumaq istəyəndə təpiyi ilə onu vurur.

Qarabağ, I kitab, s.323-324, kont.122A; III kitab, s.326

**123 Şəngülüm, Şüngülüm, Məngülüm.** Qurd ana keçinin səsini yamsılayır. Onu anaları zənn edən keçinin balaları qapını açır, qurd onları yeyir. Keçi qurdun qarnını yırtıb balalarını xilas edir.

Qarabağ, VI kitab, s.270

**126 Vəhşi dərisinə bürünmə.** Köçdən ayrı düşən keçi, dana və qoyun hərəsi bir yırtıcı heyvan dərisinə bürünür. Keçi yeddi canavar dərisindən kürk tikdirmək istədiyini deyir, canavarlar qorxub qaçır.

Qarabağ, III kitab, s.317-320, kont.126A

**126A = AT 126A* Hürküdülmüş heyvanlar.** Canavarların təqibindən qaçan qoyun, keçi və dana ağacda gizlənirlər. Ayağı sürüşüb ağacdan yıxılan dana canavarları yeyəcəyi ilə hədələyir, canavarlar qorxub qaçır.

Qarabağ, III kitab, s.317-320, kont.126

**155 Yaxşılığa yamanlıq.** İlan onu alovun içindən xilas edən kişinin boynuna sarılıb onu sancmaq istəyir. Razılaşırlar ki, üç nəfərə məsləhət etsinlər, onlar ilanı haqlı sayarlarsa, o zaman onu sancsın. Kişi tülkünün köməyi ilə ilandan xilas olur, amma sonradan ona yaxşılıq etmiş tülkünün yerini ovçulara nişan verir.

Qarabağ, II kitab, s.395-397, kont.161

**[161 Ovçulardan qaçan tülkü].** Kişi tülkünü torbanın içində gizlənməyə razı salır və onun yerini heç kimə deməyəcəyinə söz verir. Ovçular xəbər alanda tülkünün yerini onlara nişan verir.

Qarabağ, II kitab, s.395-397, kont.155

**[203 Kim daha çox ot yeyər?]** Qoyun yedikcə xəlvəti quyruğunun altından qığlayır, at isə fasiləsiz yeyir; at partlayıb ölür.

Qarabağ, III kitab, s.327

**[207A Eşşək və öküz].** Eşşək işləməkdən yorulmuş öküzə məsləhət görür ki, özünü xəstəliyə vursun. Sahibi öküzün yerinə onu cütə qoşur. Bu səfər öküzü inandırır ki, əgər sağalmasa, sahibi onu kəsəcək.

Qarabağ, I kitab, s.181-183, kont.670

**210 Tülkü qoz oğurlamağa gedir.** Yolda ona xoruz, ilan və toxmaq qoşulur. Xoruz ocağın içində gizlənir, toxmaq qapının başından asılır, ilan isə çəkmənin içinə girir. Xoruz ev yiyəsinin gözünü tökür, ilan ayağını sancır, ev yiyəsi qapını açıb çölə çıxmaq istəyəndə toxmaq başına düşür. Heyvanlar qozu aralarında bölüb yeyirlər.

Qarabağ, III kitab, s.328-329

**214A Dəvə və eşşək.** Ağır işdən təngə gəlmiş dəvə ilə eşşək evdən qaçır. Yeyib kökəlmiş eşşək anqırır. Yaxınlıqdan keçən karvan sahibi səsi eşidir, onları tutub yükə qoşur. Yolda karvan sahibi eşşəyin taqətdən düşdüyünü görüb onu dəvənün üstünə yükləyir. Çaydan keçəndə dəvə oynayır, eşşək onun üstündən çaya düşüb boğulur.

Qarabağ, III kitab, s.320-321

**285D Quyruq yarası, oğul dağı.** İlanın qışın soyuğunda zülümlə odun yığan odunçuya ilanın rəhmi gəlir və ona bir palan yükü qızıl hədiyyə edir. Odunçunun oğlu daha çox qızıl əldə etmək üçün ilanı öldürmək istəyir, ilan onu çalır. Odunçu ilə ilanın dostluğu pozulur.

Qarabağ, V kitab, s.217-218

**[294* = AT 335 Qışın xəbərdarlığı].** Bu süjet bölgədən iki variantı yazıya alınıb. Ağdam variantında qış öz gəlişini dostuna xəbər verəcəyinə söz verir. Əvvəl sağ tərəfdəki, sonra sol tərəfdəki dağın başına qarlayır, amma dostu bundan bir şey anlamır və qışa hazırlıqsız yaxalanır. Zəngilan rayonundan qeydə alınmış variantda isə Əzrayıl kirvəsi olduğu şəxsi əcəli çatanda xəbərdar etməlidir. Əzrayıl əvvəlcə sağdakı, sonra soldakı qonşuların canını alır. O biri variantda olduğu

kimi kirvə bundan bir şey anlamır və Əzrayıl gələndə hazırlıqsız yaxlanır.

Qarabağ, I kitab, s.151-152; V kitab, s.185-186

**[298 Günəş, şahta və külək tülkünün salamı kimə verməsi üstündə mübahisə edirlər].**

Qaraba, V kitab, s.252

## SEHRLİ NAĞILLAR

**300 Suyun qabağını kəsmiş əjdaha.** Qəhrəman suyun qabağını kəsmiş əjdahanı öldürüb ona qurban verilən qızı xilas edir.

Qarabağ, II kitab, s.206-217, kont.301B

**301B Güclü adam və onun yoldaşları:** Qəhrəman divin canını əldə edərək onu öldürür və əsir alınmış qızı xilas edir.

Qarabağ, II kitab, s.206-217, kont.300

**302 Divin canı göyərçindədir.** Qəhrəman oğurlanmış arvadının köməyi ilə divin canının yerini öyrənir, onu əldə edib divi öldürür.

Qarabağ, III kitab, s.163-182, kont.316*+554

**315A Adamyeyən qız:** Qəhrəman aslanın ayağına batmış ağacı çıxardır, əvəzində aslan bir cüt balasını ona hədiyyə edir. Həmin heyvanların köməyi ilə onu yemək istəyən bacısından xilas olur: aslan balaları qızı parçalayıb öldürürlər. Qızın qanından bir damla yarpağın üstünə düşür. Qəhrəman onun köməyi ilə dəvənin yükünün ləl-cəvahirat olduğunu tapır və dəvəçi yükü ona bağışlayır.

Qarabağ, II c., s.187-195

**316* = AT 303A On bir qardaş üçün on bir bacı.** On bir qardaş evlənmək üçün on bir bacı axtarır. Yolda qadağan olunmuş evdə gecələyirlər. Div kiçik qardaşı oğurlayır və onu Mədinələr mədinəsinin qızını gətirməyə göndərir. Qəhrəman heyvanların köməyi ilə nikah tapşırıqlarını yerinə yetirir və qızı əldə edib geri qayıdır (Bax: 554).

Qarabağ, III kitab, s.163-182, kont.554+302

**332 Əzrayılın kirvəliyi.** Bu süjetin Qarabağdan yazıya alınmış variantlarında Əzrayılın kasıba kirvə olması motivi iştirak etmir, əvəzində süjet Əzrayılın kasıbla duz-çörək kəsməsi və onunla qardaş olması ilə başlayır. Daha sonra kasıb Əzrayılın məsləhəti ilə həkimlik

edir: Əzrayıl hansı xəstənin ayaq tərəfində durursa, onu sağaldıb haqqını alır. Əzrayılla kasıbın dostluğunun pozulma səbəbi də variantlara görə fərqlənir. Bir variantda Əzrayıl kasıba qapısına bir şey istəməyə gələn olsa, onun dalınca deyinməməyi tapşırır. Qəhrəman şərti pozduğu üçün var-dövləti əlindən çıxır. O biri variantda isə qəhrəman Əzrayılı aldatmağa çalışır; Əzrayılın baş tərəfində durduğu xəstənin qıravatını tərsinə çevirtdirir, nəticədə onların dostluğu pozulur. Əcəli çatmış kasıb son dəfə namaz qılması üçün möhlət alır. Namazın iki rükətini qılıb üçüncü rükətini saxlayır. Əzrayıl çoban cildində kasıbın qarşısına çıxır, namazı tam qıldırıb onun canını alır.

Qarabağ, I kitab, s.225-226, kont.670****+751C; s.228; IX kitab, s.238-240.

**400*A Pəri qız qayınanasının yasında qəribə hərəkətlər edir.** Qayınanası öləndə atılıb yükün üstündə oturur, cənazə aparılanda əlini əlinə vurub gülür. Etdiyi hərəkətlərin səbəbini izah edib qeybə çəkilir.

Qarabağ, I kitab, s.187-188; III kitab, s.203-206; s.206-208

**408 Əməmxiyar qızı.** Ögey ananın istəyi ilə meşədə azdırılan qız padşahın oğlu ilə əhd-peyman bağlayır. Qaraçı qızı əsl gəlini suya itələyib özü onun yerində oturur. Əsl gəlin ağaca, tilişkəyə çevrilir. Axırda həqiqət üzə çıxır, şahzadə əsl gəlinlə evlənir.

Qarabağ, VI kitab, s.229-233

**413 Qəhrəman göyərçin cildinə girmiş pəri qızla evlənir.** Qəhrəman çayda çimən pəri qızın donunu oğurlayıb onunla evlənir. Qızın donunu hörgünün içində gizləyir. Pəri qız donunun yerini öyrənir, onu ələ keçirib öz ölkəsinə qayıdır.

Qarabağ, III kitab, s.191-196

**432 Oğlan ilan cildində.** Kiçik bacı ilan cildinə girmiş oğlanla evlənir, amma onunla evli olduğunu heç kimə deməməlidir. Qadağa pozulur, oğlanın gəldiyi yeri öyrənən böyük bacılar deşiyin ağzına saxsı qırıqları tökür. Oğlan deşikdən çıxmaq istəyəndə saxsı qırıqları onu kəsir və qeybə çəkilir. Kəlbəcər rayonundan qeydə alınmış mətn isə ənənəvi variantdan fərqlənir. İlan qızın ona olan sevgisini yoxlayır, qızın həqiqətən onu sevdiyinə əmin olandan sonra cildini çıxarıb oğlana çevrilir.

Qarabağ, II kitab, s.275-281, kont.878*B; VI kitab, s.212-213

**437 Ölüyə qismət olan qız.** Qız qırx gün-qırx gecə ölünün milçəyini qovur. Sonuncu gün keçəl qız onu əvəz edir və görülən işləri öz adına çıxıb oğlanla evlənir. Əsl gəlin başına gələn əhvalatı səbr daşı və qın bıçağına danışır. Onun sayəsində həqiqət üzə çıxır və yalançı gəlin cəzalandırılır: onu qatıra bağlayıb qaratikanlığa buraxırlar.

Qarabağ, VI kitab, s.228-229

**449 Gül və Sənavər.** Padşah arvadının ona xəyanət etdiyini öyrənib onu qatıra döndərir.

Qarabağ, II kitab, s.202-206, kont.514*+449+976*B

**451B* Yeddi qardaş bir bacı.** Qardaşların hər dəfə yeməkdən əvvəl almanı iyləyərək ondan bacılarının iyini alması motivinə ilk dəfə bu variantda rast gəlinir.

Qarabağ, II kitab, s.217-226

**460A Bəxtin axtarılması.** Kasıb bəxtini axtarmağa gedir. Yolda müxtəlif dərdə düçar olmuş şəxslərlə qarşılaşır: canavar bədənində tükün olmamasından əziyyət çəkir, cütcü əkdiyi sahədən məhsul götürə bilmir, padşah bütün döyüşlərdə meydanı məğlub tərk edir. Kasıb onların da şikayətini çatdırır. Ona edilən təkliflərdən imtina etdiyinə görə canavar onu parçalayır. Laçın rayonundan qeydə alınmış nağıl isə digər variantlardan fərqlənir. Həmin variantda kasıb dibindən su axdığı halda qupquru quruyan palıd ağacının, başının ağrısı kəsməyən balığın şikayətini Allaha çatdırır. Axırda kasıb balığın başağrısına səbəb olan lələ, palıdın qurumasına səbəb olan ləl-cəvahirata sahib çıxır və onun hesabına varlanır.

Qarabağ, I kitab, s.188-192; III kitab, s.201-203; IV kitab, s.252-254; IX kitab, s.200-202.

**460B Günəşdən xəbər gətirmək.** Bu süjetin bölgədən üç variantı qeydə alınıb. Süjet tale yazan mələyin Süleyman peyğəmbərin qızı Duxu xanımı Qara qula yazması, peyğəmbərin yazını pozmaq istəməsindən bəhs olunur. Füzuli variantında peyğəmbər qulu günçıxanla günbatanın arasını öyrənməyə, Kəlbəcər variantda isə Gündən xəbər gətirməyə göndərir. Hər iki variantda Qara qul mələyin nişan verdiyi bulaqda çimib gözəlləşir və Süleyman peyğəmbərin qızı ilə evlənir.

Qarabağ, V kitab, s.191-193; VI kitab, s.239-241; VIII kitab, s.139-148

**[460C* Bəxtini oyatdıqdan sonra kasıbın şansı gətirir]:** Quru ağacın dibindən tapdığı qızıl küpü hesabına varlanır.

Qarabağ, II kitab, s.281-282

**[460* Qaraçuxası yatmış şəxs].** Bu süjetin indiyə qədər Bərdə rayonundan qeydə alınmış iki variantı məlumdur. Seyid Yusifli kəndindən yazıya alınmış variantda deyilir ki, varlı qaraçuxasını qumun üstündə təpik döyənlərin arasından çıxardıb kölgədə yatanların arasına qoşur. Onu padşahın yaxın adamını öldürməkdə günahlandırıb dara çəkmək istəyirlər. Padşahdan möhlət alan varlı qaraçuxasını oyadıb yenidən təpik döyənlərin arasına qoşur. Onun günahsız olduğu üzə çıxır və azad edilir. Yeni Əyricə kəndindən qeydə alınmış variantda Qaraçuxası yatan şəxs odunçudur. Onun bazardan aldığı keçi başı insan başına dönür və onu padşahın qızını öldürməkdə günahlandırıb həbsə atırlar. Qaraçuxası durandan sonra odunçunun bəxti üzünə gülür. Onun günahsız olduğu üzə çıxır və həbsdən azad edilir.

Qarabağ, II kitab, s.269-275; V kitab, s.222

**460** Dəyirmanın sirri**. Bu süjetin indiyə qədər yalnız bir variantı məlum idi. Kəlbəcərin Zivel kəndindən qeydə alınmış bu variant həm süjetin yayılma arealının müəyyənləşdirilməsində, həm də onun başa düşülməsində böyük əhəmiyyət kəsb edir.

Qarabağ, VIII kitab, s.180-182, kont.875H*

**465C O dünyadan xəbər gətirmək.**

Qarabağ, II kitab, s.226-237, kont.807*B

**509* = TR 285B** İnsanın mədəsində gizlənmiş ilan.** Kişi təqibdən qaçan ilanı mədəsində gizləyir, təhlükə keçəndən sonra ilan onun qarnından çıxmaq istəmir. Kişi qocanın verdiyi suyu içdikdən sonra ilan onun bədənindən çıxır.

Qarabağ, IV kitab, s.286-287

**[514* Tilsimə düşmüş padşahın oğlu qıza çevrilir].** Tilsimli quyudan su götürmək istəyəndə qıza çevrilir. Evlənir, bir oğlu olur. Axırda tilsimdən çıxaraq yenidən əvvəlki şəklinə qayıdır.

Qarabağ, II kitab, s.202-206, kont.1406A*+449+976*B

**517 Quş dili bilən İsgəndər:** Quşlar İsgəndərin padşah olacağını, analığının onun əlinə su tökəcəyini xəbər verir. Analığı bundan xəbər tutub onu evdən qovur. Vəzirin oğlu ilə siğə qardaşı olur. Arvadı

onu ayı şəklinə salır, özünə də güclü aclıq verir. İsgəndər siğə qardaşının köməyi ilə əvvəlki şəklinə qayıdır, arvadını öldürüb onun yerinə taxta çıxır. Nağıl quşların verdiyi proqnozun gerçəkləşməsi ilə tamamlanır

Qarabağ, II c., s.173-182

**545B Tülküynən Tozdu bəyin nağılı.** Tülkü dəyirmançını varlı adam kimi qələmə verib padşahın qızını ona alır.

Qarabağ, I kitab, s.184-187

**550 Mürği-xəndan quşu.** Gedər-gəlməz qaladakı quş padşahın başı üstündə oxuyarsa, onun gözünün açılacağını söyləyirlər. Qardaşlar quşu gətirməyə gedirlər. Kiçik qardaş qarı, əjdaha cildinə girmiş pəri qızlarla güləşib onların əşyalarını ələ keçirir. Onların köməyi ilə gedər-gəlməz qaladakı quşu əldə edib atasının gözlərini sağaldır.

Qarabağ, V kitab, s.161-168

**[552C* Kürəkən şir].** Kasıb peyğəmbərin xahişi ilə öz qızını şirə ərə verir. Daha sonra qızına baş çəkməyə gedir və kürəkəninin şir donuna girmiş bir mələk olduğunu öyrənir.

Qarabağ, I kitab, s.217-218, kont.807**

**554 Xeyirxah heyvanlar.** Qəhrəman ayının qarnını doyuzdurur, qarışqalara arxı keçməyə kömək edir, susuzluqdan əziyyət çəkən divə su verir. Onların köməyi ilə padşahın nikah tapşırıqlarını yerinə yetirir: dörd qazan aşı bir oturuma yeyir, arpanı buğdadan ayırır, suyu stəkandan tökmədən ağaca çıxıb düşür və padşahın qızı ilə evlənir.

Qarabağ, III kitab, s.163-182, kont.316*+302

**[557* Cavanlıq alması].** Qəhrəman öküzün belindəki cavanlıq almasını gətirmək üçün o dünyaya gedir. Yolda dilindən asılmış quşa, quyruğundan asılmış ata rast gəlir və onları xilas edir. Cavanlıq almasını əldə edib həmin heyvanların köməyi ilə yenidən işıqlı dünyaya qayıdır.

Qarabağ, III kitab, s.196-198

**558* Göydən canavar yağır.** Padşah yuxu görür: göydən a) canavar yağır, b) qılınc yağır, c) qoyun yağır. Füzuli rayonundan qeydə alınmış variantda isə, padşah yuxuda sarayın dördbir tərəfinin canavar, b) tülkü və c) gül-çiçək olduğunu görür. Kasıb ilanın köməyi ilə padşahın yuxusunu yozur, əvəzində aldığı qızılları onunla yarı

bölməlidir. Kasıb qızılları bölmək istəmir, birinci dəfə daş atıb ilanın quyruğunu zədələyir, ikinci dəfə yolunu dəyişib başqa istiqamətdən gedir. Axırda tutduğu işə peşman olur.

Qarabağ, II kitab, s.378-381; V kitab, s.205-206; VI kitab, s.255-256; IX kitab, s.193-196; s.196-200

**559 Danışmayan qız.** Qəhrəman xəstə atası üçün tutulmuş balığı dəryaya buraxır. Onun köməyi ilə padşahın qızını danışdırır və onunla evlənir.

Qarabağ, II c., s.196-202, kont.653A+976*A+661*; III kitab, s.182-191, kont.661*+653A+976*A; VI kitab, s.224-228, kont.661*+ 653A

**590 Ana divlə əlbir olub oğlunu öldürmək istəyir.** Özünü xəstəliyə vurub oğlunu Ağ divin bağında bitən dirilik almasını gətirməyə göndərir. Oğlunun bu səfərdən sağ qayıtdığını görən ana onun qolunu yayın kirişi ilə bağlayıb gözlərini çıxarır, özünü isə quyuya atır. Tula gözləri dilinin altında saxlayır. Qəhrəman göyərçinlərin verdiyi lələklə gözlərini sağaldır. Divi və anasını öldürüb onlardan qisas alır.

Qarabağ, III kitab, s.199-201

**[650** Zal və Rüstəm].** Zal getdiyi şəhərdə bir qadınla siğə elətdirir və ondan bir oğlu olur. Uşaq atasının kim olduğunu öyrənib onu axtarmağa gedir və başqa bir padşahın pəhləvanı kimi onun qarşısına çıxır. Zal uşaqdakı fəndləri görüb gələcəkdə onu üstələyəcəyindən ehtiyat edir və onu öldürür. Qolundakı bilərzikdən oğlu olduğunu tanıyır. Bir ağsaqqaldan uşağı qırx gün qucağında gəzdirərsə, onun diriləcəyini öyrənir. Otuz doqquz gün onu qucağında gəzdirir, sonuncu gün əlindən yerə qoyur, uşaq çırpınıb keçinir.

Qarabağ, II kitab, s.267-269

**653A Ən qiymətli hədiyyə.** Qardaşlar atalarının verdiyi pula üç əşya alır: böyük qardaş uçan xalça, ortancıl qardaş güzgü, kiçik qardaş isə dirilik suyu alır. Həmin əşyaların köməyi ilə dünyasını dəyişmiş əmisi qızlarını dirildirlər. Kəlbəcər rayonundan qeyd alınmış variantda isə, qardaşlardan biri uzaq vilayətdə yaşayan bacılarının can üstə olduğunu xəbər verir, o biri cənnətdən meyvə gətirir, üçüncü isə onları qızın yanına çatdırır və meyvəni verib bacılarını sağaldırlar.

Qarabağ, II c., s.196-202; VI kitab, s.224-228, kont.559+661*

**661* Xarrat, dərzi və kimyagər.** Dülgər taxtadan qadın heykəli düzəldir, dərzi ona paltar tikir, molla isə can verir. Daha sonra qadın üstündə mübahisə edirlər.

Qarabağ, II c., s.196-202; VI kitab, s.224-228, kont.559+653A

**670 Ovçu Pirim.** Ağdam variantında Musa peyğəmbər eşşəklə öküzün danışığını eşidib gülür, Cəbrayıl variantında isə Süleyman peyğəmbər maydanla dayçanın danışığını eşidib gülür. Hər iki variantda arvad ərindən gülməyinin səbəbini öyrənmək istəyir. Peyğəmbər əvvəl sirri açmaq istəyir, amma qoçun qoyuna verdiyi cavabı və ya itlə xoruzun söhbətini eşidib bu fikirdən daşınır.

Qarabağ, I kitab, s.181-183, kont.207A; s.184

**670**** Göydən gələn bəla.** Heyvanların dilini bilən bir kişi atının, camışının öləcəyini bilib onları ucuz qiymətə satır, axırda bəla onun özünə gəlir.

Qarabağ, I kitab, s.225-226, kont.751C+332; V kitab, s.180-181,

**671C** Dağyunusun xəzinəsi.** Cəbrayıl variantında ata körpə uşağını quşlarla bir yerdə böyüdür və bu yolla onun quş dili öyrənməsinə nail olur. Daha sonra çoxlu heyvan kəsdirib ətini quzğunlara yedirtməklə onlardan Dağ Yunusun çovğuna düşmüş karvanının yerini öyrənir. Kəlbəcər variantında isə quş dili bilən Bəhlul Danəndə qəcirlərin söhbətinə qulaq asmaqla Harın Qarının xəzinəsinin yerini öyrənir.

Qarabağ, I kitab, s.270-271; VI kitab, s.253; s.254

**679* = AT 875D Balıqların gülməsi:** Qız atasının çaydan tutduğu quru kəllənin tozundan uşağa qalır. Dünyaya gələn uşaq balıqların gülməyinin səbəbini izah edir.

Qarabağ, II c., s.182-187

**707A = AT 707 Uşağın dəyişdirilməsi.** Böyük bacı bir yumurta ilə qırx qonağı yola sala bilir, ortancıl elə bir xalça toxuya bilir ki, onun üstündə yüz adam oturur, kiçik bacı isə bir teli qızıl, bir teli gümüş övlad dünyaya gətirəcəyini deyir. Padşah kiçik bacı ilə evlənir. Vəzir kiçik bacının doğduğu qeyri-adi uşaqları oğurlatdırıb yerinə it küçüyü qoyur. Arvadının onu aldatdığını zənn edən padşah onu saraydan qovur. Nağıl kiçik bacının günahsız olduğunun üzə çıxması və padşah yenidən ailəsinə qovuşması ilə tamamlanır.

Qarabağ, III kitab, s.289-294; s.294-296; IV kitab, s.262-265

**[740 = AT 740* Evdən qovulmuş qardaş].** Böyük qardaş arvadının sözü ilə kiçik qardaşı və atasını evdən qovur. Allah qocanın quşları qovmaq üçün əlinə götürdüyü daşı qızıla döndərir. Kiçik qardaş həmin daşı qırx dəvə yükü qızıla padşaha satır və onun hesabına varlanır. Böyük qardaşın isə bütün var-dövləti əlindən çıxır və dilənmək məcburiyyətində qalır.

Qarabağ, III kitab, s.300-305

## DİNİ NAĞILLAR

**750B* İbadət yaxşıdı, yoxşa səxavət.** İmam Həsənlə İmam Hüseyn Əli Əleyhsalamın məsləhəti ilə əvvəl abidə, sonra naxırçıya qonaq olurlar. Abid onlara evində yer vermir, amma naxırçı onları mehriban qarşılayır, qoyunlarını kəsib onların böyrəyindən qonaqlara yemək hazırlatdırır. Bu hadisənin şahidi olan İmam Həsənlə İmam Hüseyn səxavətin ibadəti üstələdiyinə əmin olurlar.

Qarabağ, I kitab, s.197-199; II kitab, s.287-293, kont.934G*; V kitab, s.170-173; s.176-177, kont.750**

**750D Peyğəmbərlə üç yolçu.** Peyğəmbər yolçuların arzusunu yerinə yetirir: onlardan birinə bağ, birinə qoyun sürüsü, birinə də halal südəmmiş qız qismət edir. Daha sonra yolçuları sınamaq üçün növbə ilə onlara baş çəkir.

Qarabağ, VI kitab, s.233-234

**750D* Dərviş və iki yolçu.** Yolçulardan biri qurud əzir, digəri təzək yığır. Dərviş onların arzusunu yerinə yetirir, birinə padşahlıq, digərinə vəzirlik verir, amma uşaqlarının birini ona verməlidirlər. Şərti pozduqları üçün var-dövlətləri əllərindən çıxır.

Qarabağ, III kitab, s.241-243

**[750İ* Kürək kürəyə yapışmış qardaşlar].** Bu süjetin bölgədən iki variantı qeydə alınmışdır. Ağcabədi variantında Musa peyğəmbər qızınmaq üçün kürəyini abidin kürəyinə sürtür, Tərtər variantında isə iki qardaş o qədər kürək kürəyə verib otururlar ki, kürəkləri bitişir. Naxırçı və yaxud haramıbaşı öz oğlunun başını kəsib qanını qardaşların (Musayla abidin) kürəyinə tökməklə onları bir-birindən ayırır. Xeyirxahlığına görə Allah onu cənnətlə mükafatlandırır.

Qarabağ, II kitab, s.303-304, kont.751; III kitab, s.239-240

**[750J* Allahın hörmətli bəndəsi].** Musa peyğəmbər Allahın ən hörmətli bəndəsinin kim olduğunu öyrənmək istəyir və onun məsləhəti ilə çobana qonaq olur. Çobana gündə üç öynə qızıl boşqabda yemək gəlir. Çoban yeməkləri yedikdən sona boşqabları qayadan atır. Allah həmin çobanı cənnətlə mükafatlandırır.

Qarabağ, I kitab, s.213-214; s.214-215, kont.751

**750K* Comərd qəssab**. Yəhudi hansı oğlunun qəlbində allah xofu varsa, yaraq-yasağının ona qismət olmasını vəsiyyət eləyir. Oğlanların üçü də qəlblərində allah xofu olduğunu söyləyib yaraq-yasağa sahib olmaq istəyir. Mübahisələrini həll etmək üçün Həzrət Əliyə müraciət edirlər. Həzrət Əli qəssabın timsalında qəlbində allah xofu olan insanın necə olduğunu onlara göstərir. Ondan sonra yəhudinin oğlanları kəlmeyi-şəhadət gətirib müsəlman olurlar.

Qarabağ, II kitab, s.284-287; V kitab, s.170-173; VIII kitab, s.148-151

**[750* İynənin ulduzundan dəvə keçər?]** Qırx il ibadət edən abid buna şübhəylə yanaşır, amma çoban (qaval çalan şəxs) deyir: "Allah razı olandan sonra fil karvanı da keçər". Allaha inamına görə çobanı (qaval çalanı) cənnətlə mükafatlandırılır.

Qarabağ, II kitab, s.304-305; V kitab, s.214-216, kont.827*; IX kitab, s.172-175

**[750** Peyğəmbərin alqışı və qarğışı]:** Peyğəmbər onları evinə qonaq etməyən abidə yeddi oğul, onları mehriban qarşılayan gənc ailəyə isə yeddi qız arzulayır. Daha sonra bunun səbəbini izah edir. Abidə elə oğul istəyib ki, onlar abidi küçəyə salacaq, gənc ailəyə isə elə qız arzulayıb onları şah kimi saxlasınlar.

Qarabağ, V kitab, s.176-177, kont.750B*

**751 Xəsis abid.** Qonağı olduğu üçün Allah abidə iki qab yemək, yaxud iki dəst yorğan-döşək göndərir. Abid qabın birini gizləyir, yorğan-döşəyin ikisini də öz üstünə örtür. Allah onun ruzusunu kəsir.

Qarabağ, I kitab, s.214-215, kont.750J*; s.216-217; II kitab, s.303-304, kont.750İ*; s.305-306

**751A = AT 751A* Musa peyğəmbər Allahı qonaq çağırır.** Sail sifətində gələn Allahı qapısından qovur, aşbaz isə öz aş payını ona verir. Allah aşbazı cənnətlə mükafatlandırır.

Qarabağ, I kitab, s.212-213; VIII kitab, s.157-161

**751C = AT 751C* Pul insanı dəyişdirir.** Allah kasıba var-dövlət verir, amma qapısına gələnləri əliboş geri qaytarmamağı tapşırır. Süd üçün qapısına gələn şəxsin dalınca danışdığı üçün var-dövləti əlindən çıxır.

Qarabağ, I kitab, s.225-226, kont.670****+332

**[753*B Dəyirmançı çırağa nöyüt əvəzinə su töküb yandırır]**. Allahın işinə qarışdığı üçün həmin bacarığını itirir.

Qarabağ, VIII kitab, s.172-174

**756C Ən böyük günahkar.** Tutduğu əməllərdən peşman olan kişi günahlarının bağışlanması üçün Allaha yalvarır. Onun məsləhəti ilə dağın ətəyinə yanmış kösöv basdırır: kösöv nə vaxt göyərsə, onun günahları bağışlanmış olacaq. Yüz nəfərin ölümü haqqında fərmanı aparan atlını öldürdüyü üçün Allah onun günahlarını bağışlayır.

Qarabağ, III kitab, s.234-236

**[757 Peyğəmbərin qürrələnməsi].** Allah Məkkəni tikdirdiyinə görə qürrələnən İbrahimxəlil peyğəmbəri səhraya atdırır. Aclıq və susuzluqdan əziyyət çəkən peyğəmbər Məkkənin savabını bir bardaq su ilə bir parça çörəyə satmalı olur.

Qarabağ, I kitab, s.203-204

**760B* Gənc böhtan atdığı üçün qəbrdə əzab çəkir.** Gənc sağlığında bir qıza böhtan atdığı üçün o dünyada əcir çəkir: nə yeyirsə, qaytarır. Peyğəmbər qızı cavanlaşdırır, bu yolla gəncin günahlarının bağışlanmasına nail olur.

Qarabağ, III kitab, s.208-212, kont.807*A

**[760** Ofsanata düşən tikə].** Qəhrəman yeddi gün ölən atası üçün ehsan verir. İmkanlı adamları çağırdığı üçün yeyilən ehsanın onun atasına heç bir xeyri olmur, ancaq sailin (gəlinin və ya erməninin) yediyi ehsan ofsanata keçir.

Qarabağ, II kitab, s.297-298; s.299; s.300; III kitab, s.236-239; IX kitab, s.229-230

**[763 Qızıl üstündə bir-birini öldürürlər].** Üç yoldaş xəzinə yarır. Qızıllara sahib olmaq üçün ikisi əlbir olub üçüncünü öldürür, sonradan özləri də onun gətirdiyi aşdan yeyib zəhərlənirlər.

Qarabağ, I kitab, s.206-208, kont.798*; VI kitab, s.256

**769* Kimə niyyət, kimə qismət.** Padşah dəmirçiyə bir gecədə qırx atın nalını və mıxını hazırlamağı tapşırır. Səhər padşahın ölüm xəbəri çıxır və dəmirçinin hazırladığı mıxlar onun tabutunda istifadə olunur.

Qarabağ, V kitab, s.220-221

**770** Qeyri-adi sünbül.** Kişi satın aldığı torpaqdan yeddi küp qızıl tapır. Qızılları torpağın əvvəlki sahibinə qaytarmaq istəyir, amma o, qəbul etmir. Övladlarını evləndirib qohum olurlar. Həmin il o sahədə bitən taxılın buğdası yumurta və ya noxud boyda olur.

Qarabağ, II kitab, s.328-330, kont.828*; V kitab, s.229-230

**771** Çörəyə ehtiram.** Allah var-dövlətinin azalmasını istəyən varlıya məsləhət görür ki, uşaqlarının əlinə yuxa versin. Yaxud, padşah təndirdə çörək bişirməyi qadağan etdiyindən qadın uşaqlarına yuxa verməli olur. Varlı və yaxud qadın yuxanın qırıntılarının yerə tökülməməsi üçün uşaqlarının boynuna önlük tikir. Çörəyə qiymət verdiyi üçün Allah onun var-dövlətini daha da artırır.

Qarabağ, III kitab, s.308-309; IV kitab, s.291-292; s.292-293; V kitab, s.221-222

**771*** Üç manatın misalı.** Həzrət Əli olan-qalan pulunu verib borclunun borcunu qaytarır. Bu yaxşılığının Allah ikiqat əvəzini verir. Yolda rastlaşdığı qocanın dəvəsini onun dediyindən də baha qiymətə satır, ona çatan pulla evə ərzaq alır.

Qarabağ, II kitab, s.311-314

**776* Ahuların şikayəti.** Peyğəmbər susuzluqdan əziyyət çəkən ahuların şikayətini Allaha çatdırır, amma ondan müsbət cavab ala bilmir. Bu xəbəri yoldaşlarına çatdırmalı olan ahular dağın başında oynayırlar ki, digər heyvanlar onların pis xəbərlə qayıtdıqlarını görüb məyus olmasınlar. Ahuların bu hərəkətinə görə Allah yağış yağdırır.

Qarabağ, I kitab, s.205; s.206

**776**A Allaha pənah.** Darğanın ölümünü arzulayan qadın onun ömrünə hələ qırx il qaldığını öyrənib "Allaha pənah" deyir. Bu

xəbəri eşidən hər ailə üzvü “Allaha pənah” deyir. Hər Allaha pənah kəlməsinə görə Allah darğanın ömründən on il kəsir, o, dünyasını dəyişir.

Qarabağ, II kitab, s.307-308; VI kitab, s.238-239; VIII kitab, s.171-172

**776**B Gündə üç dəfə çubuqlanan şəxslər.** Bu zülümdən nə vaxt qurtaracaqlarını bilmək istəyirlər. Musa peyğəmbər onların xahişini Allaha çatdırır, amma müsbət cavab ala bilmir. Bu xəbəri eşidən həmin şəxslərin hər biri “Allaha pənah” deyir. Həmin kəlməyə görə Allah onları çubuqlayan şəxsin ömrünü tamamlayır.

Qarabağ, III kitab, s.233-234

**776**C** Allah sürüsünün sayının artmasını istəyən kasıbın arzusunu yerinə yetirir, amma ona üç gün ömür verir. Bunu eşidən kasıb Allaha pənah deyir. Həmin sözə görə Allah onun ömrünü uzadır.

Qarabağ, V kitab, s.178-179

**777** Bacı həsrəti.** Əcəli tamam olmuş şəxs bacısına baş çəkmək üçün Əzrayıldan üç gün möhlət alır. Bacısına baş çəkməyə gedəndə ölən şəxsin namazına durur, Qurana qulaq asır. Tutduğu hər savab işə görə Allah onun ömrünə on il də əlavə edir.

Qarabağ, II kitab, s.295-297

**780D* Xənçərin şahidliyi.** Əmioğlu əmioğlunu qız üstündə öldürür. Ölən şəxsin atası Həzrət Əlidən oğlunun qatilini tapmasını xahiş edir. Həzrət Əlinin icazəsi ilə xəncər şahidlik edir və cinayəti törədənin kim olduğunu deyir.

Qarabağ, I kitab, s.200-201; III kitab, s.221-223; s.223-224

**782 İsgəndərin buynuzu.** İsgəndər sirrinin yayılmaması üçün başını qırxan dəlləkləri öldürtdürür. Axırıncı dəllək İsgəndərin başını qırxanda tükü yerə düşməyə qoymur, hamısını yeyir. İsgəndər fikirləşir ki, onun tükünü yeyən sirrini də batırar, ona görə də onu öldürmür. Dəllək sirri saxlaya bilmir və quyuya danışır, oradan çıxan qamış onu yayır.

Qarabağ, V kitab, s.194

**782**** İsgəndər dilini bilmədiyi adamı evləndirir, ondan olan uşağın köməyi ilə onu danışdırır. Həmin adamdan yer üzündə ondan da böyük hökmdarların olduğunu öyrənir.

Qarabağ, IX kitab, s.150-165, kont.875D+888A+798*+806* +831C

**783* Əsli hu.** Kasıb cənab Cəbrayılın padşaha qonaq olacağını deyib ondan ənam alır. Onu aldatdığı üçün padşah kasıbı öldürmək istəyir. Vəzir kasıbı şaqqalamağı, vəkil dərisinə saman təpməyi, nökər isə bağışlamağı məsləhət görür. Məlum olur ki, vəzirin atası qəssab, vəkilin atası aşbaz, nökər isə əsilzadə nəslindəndir. Onların verdiyi məsləhət də öz peşələrinə uyğundur.

Qarabağ, IX kitab, s.215-218

**798* Dünya qarısı.** Gah cavanlaşır, gah da qarıya çevrilir. Süleyman peyğəmbər onunla əhd-peyman bağlayır, həqiqəti biləndən sonra üzüyünü geri istəyir. Mücrüdəki bütün üzüklərin üstünə Süleyman yazılmış olur. Üzüklərin içərisində biri atılıb düşür, həmin əlamətə görə Süleyman peyğəmbər onun öz üzüyü olduğunu müəyyən edir. Füzlu rayonundan qeydə alınmış variantda isə, qeyd olunur ki, nə qədər ki üzük Süleyman peyğəmbərin barmağındadı, allah onun canını almayacaq. Süleyman peyğəmbər üzüyü aşiq olduğu qıza verdikdən sonra Allah onun canını alır.

Qarabağ, I kitab, s.206-208, kont.763; s.208-209; III kitab, s.243-244; V kitab, s.193-194; VIII kitab, s.161-162; IX kitab, s.150-165, kont.782**+875D+888A+806*+831C

**[798**A Bayquşun şahidi olduğu möcüzə]:** Yayın istisində gecə elə bir qar yağır ki, onun hündürlüyü çinar ağacının başına çatır, ardınca yağış yağıb qarı əridir. Bayquşdan başqa kimsə bu möcüzənin şahidi olmur.

Qarabağ, I kitab, s.209-210, kont.983*

**798**B** Bayquş elə bir şəhərə gəlir ki, orda bütün tikililər qızıldan olur, ona böyük hörmət göstərirlər. Bir müddətdən sonra yenidən həmin şəhərə baş çəkdikdə həmin tikililərdən əsər-əlamət qalmır, insanlar azğınlaşmış olur, torpaq daxmalarda yaşayırlar.

Qarabağ, VI kitab, s.254-255,

**800*A Padşah cənnətdə.** Padşah Bəhlulla qardaş olmaq istəyir. Onun istəyi ilə arvadını boşayır, xəzinəni camaata paylayıb Bəhlulla yola çıxır. Cənnətə gəlir, pəri qızla evlənir. Allahın işinə qarışdığına görə oradan qovulur.

Qarabağ, III kitab, s.259-265, kont.922F*

**806* İsgəndər o dünyada.** İskəndər dirilik suyu əldə etmək üçün zülmət dünyasına gedir, amma sudan içmək ona qismət olmur.

Qarabağ, I kitab, s.192-194, kont.981+831C; IX kitab, s.150-165, kont.782**+875D+888A+798*+831C

**807*A = AT 461A Qəhrəman atasının gizlətdiyi qızılları axtarır.** Qəhrəman atasının gizlətdiyi qızılların yerini öyrənmək üçün o dünyaya gedir və yolda əməllərinə görə əzab çəkən insanlarla qarşılaşır. Atası onun qarşısına yarı insan, yarı heyvan şəklində çıxır. Ondan qalan sərvətin bir hissəsini kasıblara paylayıb onu əzabdan qurtarır.

Qarabağ, III kitab, s.208-212, kont.760B*; V kitab, s.186-187

**807*B Qəhrəman o dünyada.** Oğlan onu ələ salmış qocanın aqibətini görmək üçün o dünyaya gedir, və yaxud kişi insanların bu dünyada tutduqları əməlin cəzasını o dünyada necə çəkdiklərini öyrənmək üçün o dünyaya gedir. Ağcabədi variantda isə kiçik qardaş hakimiyyət rəmzi olan üzüyü anasından almaq üçün o dünyaya gedir. Yolda törətdiyi əməllərə görə əcir əkən insanlarla qarşılaşır. Onların çəkdiyi əcirin səbəbini öyrənib geri qayıdır.

Qarabağ, II kitab, s.226-237, kont.465C; s.330-332; IV kitab, s.284-285

**807** Gələcək nəsil.** Kişi gəlin köçürdüyü qızına baş çəkməyə gedir. Yolda qeyri-adi hadisələrlə qarşılaşır: a) itin qarnındakı küçüklər zingildəyir, b) qarğa leşdən yeyib Yasin surəsini oxuyur, c) bostandakı yemişin iyi ətrafı bürüyüb, amma hamısının içi çürükdür və s. Peyğəmbər yolda gördüyü şeylərin mənasını ona izah edir. Məlum olur ki, bunlar hamısı gələcək zamanın əlamətləridir. Elə bir zaman gələcək ki, böyük duran yerdə kiçiklər danışacaq, pis yola düşən, qumarbazlıq edən gəlib mollalıq edəcək. Bostandakı yemişlər isə paxıllığın əlamətidir: insanlar üzdə bir-birinə xoş davranıb arxada bir-birinin ayağını çəkəcəklər.

Qarabağ, I kitab, s.217-218, kont.552C*

**810* = Bax: AT 332A* Ana övladını Əzrayıldan qaçırır.** Övladını Əzrayıldan qaçıran ana təsadüfən ona qonaq olur. Yuxa yayır, yuxanı zay etdiyi üçün oğlunu oxlovla vurur, uşaq dünyasını dəyişir. Ana oğlunun ölümündə özünü günahkar sayır.

Qarabağ, II kitab, s.318-320; V kitab, s.184-185

**811* Əzrayıl hərənin canını bir üsulla alır.** Daha sonra bunun səbəbini izah edir.

Qarabağ, IX kitab, s.235-237, kont.934G**

**821** = AT 1353** İnsanla şeytan gücünü yoxlayır.

Qarabağ, VIII kitab, s136-139

**[821*** Özgəsinə quyu qazan özü düşər].** Şeytan arvadını öldürmüş kişiyə məsləhət görür ki, başqa birini də öldürüb günahı onun üstünə atsın. Kişinin öldürdüyü şəxs şeytanın öz oğlu olur.

Qarabağ, I kitab, s.321-322

**827* Çobanın həcc ziyarəti.** Uşaqlara verməyə yeməyi olmayan ana a) onların başını aldatmaq üçün boş qazana su atıb qaynadır; yaxud b) zibillikdən tapdığı ölü toyuğu bişirib onlara vermək istəyir. Bu hadisənin şahidi olan çoban a) fermadan qoyun oğurlayıb uşaqların qarnını doydurur, yaxud b) həcc ziyarəti üçün yığdığı pulları qadına verir. Allah onu mükafatlandırır: a) Həcc ziyarəti zamanı bulud onun başı üstündə kölgə salır; yaxud b) özü həcc ziyarətinə gedə bilməsə də, ziyarətə gedənlər onun əlinin Məkkənin qapısında olduğunu görürlər.

Qarabağ, I kitab, s.201-202; II kitab, s.308-310; s.310-311; V kitab, s.214-216, kont.750*; VI kitab, s.256; IX kitab, s.228-229.

**828* Cavan qalmağın sirri.** Böyük qardaş kiçiklərə nisbətən daha cavan görünür. Bərdə variantında bunun səbəbini evdə də, çöldə də işlərinin düz getməsi ilə, Zəngilan variantda isə arvadının xoşxasiyyətli olması ilə izah edir.

Qarabağ, II kitab, s.328-330, kont.770**; V kitab, s.232

**830* Qismətdən qaçmaq olmaz.** Musa peyğəmbər qismətdən qaçmağın mümkün olduğunu iddia edir. Günorta yayma yeyəcəyini öyrənən peyğəmbər kimsəsiz bir yerə çəkilir, amma qismətdən qaça bilmir.

Qarabağ, III kitab, s.265-266

**831C = SUS 831C* Torpaq hərisi.** İsgəndər dünyasını dəyişəndə gözləri və ya əlləri yumulmur. Abidin məsləhəti ilə onun gözlərinə (ovcuna) torpaq tökürlər, ondan sonra yumulur.

Qarabağ, I kitab, s.192-194, kont. 981+806*; IX kitab, s.150-165, kont.782**+875D+888A+798*+806*

**834A Kor canavarın qisməti.** Çoban qoyunun necə kor canavarın ayağına gəldiyini görür və o gündən çobanlıq etməyi tərgidib öz qismətinin ayağına gəlməsini istəyir. Çobanın arvadı meşədən bir küp qızıl tapır, amma nə qədər israr edirsə, əri onu evə gətirmək istəmir. Paxıl qonşu qızılları oğurlayır, küpün ağzını açanda içindəkinin arı olduğunu görür. Küpü qonşunun həyətinə atır, onun içindən qızıl tökülür. Şuşa variantında qoyunun kor canavarın ayağına gəlməsi motivi iştirak etmir. Qızılların yerini kasıba padşah nişan verir, amma kasıb öz qismətinin ayağına gəlməsini istədiyindən onları götürmür. Qonşu qızıllara yiyə durur, amma küpün içindəkinin ilan olduğunu görüb onları bacadan kasıbın evinə tökür. İlanlar qızıla dönür.

Qarabağ, I kitab, s.271-274; V kitab, s.218-220; IX kitab, s.230-231

**834B* = AT 745A Ağacın içində gizlədilmiş pul.** Bərdə rayonundan qeydə alınmış variantda qazandığı pulların dülgərə qismət olacağını öyrənən oğlan onları qapısında bitən tut ağacının içində, Laçın variantında isə evin ortasındakı dirəyin içidə gizlədir. Həcc ziyarətində olanda sel onun evini-eşiyini, o cümlədən tut ağacını yuyub aparır. Ağacın içindəki pullar dülgərə qismət olur. Dülgər qızılın bir qismini çörəyin arasında sahibinə qaytarır, həmin qızıllar yenidən onun özünə qismət olur.

Qarabağ, II kitab, s.320-322; IV kitab, s.283-284; VIII kitab, s.190-192

**834C** Əli aşiqi qəssab.** Süleyman peyğəmbər qəssabın Əliyə olan sevgisini görüb onu cəzalandırmaq qərarına gəlir. Aldığı ətin pulunu gətirənə qədər üzüyünü girov qoyur. Qəssabın başı qarışanda üzüyü daxıldan oğurlayıb çaya atır. Füzuli rayonundan qeydə alınmış variantda isə, baş rolun ifaçısı dəmirçidir. Kim nə qədər zəhməthaqq verirsə, "sən haknan ol, hak sənlə olsun" deyir. Şah düzəltmək bəhanəsi ilə dəmirçiyə verdiyi üzüyü mücrüdən oğurlayıb çaya atır. Üzük qəssabın (dəmirçinin) satın aldığı balığın qarnından çıxır.

Qarabağ, II kitab, s.293-295; V kitab, s.206-208

**834* İki şahılıq ləl.** Kasıb qaraçuxasının ona hədiyyə etdiyi qozu beşdaş oynayan uşaqlara verib onlardan iki daş alır və həmin daşları baha qiymətə tacirə satır. Kasıb həmin daşları padşaha hədiyyə

edir, əvəzində padşah onu saraya qapıçı götürür, onu ev-eşiklə təmin edir.

Qarabağ, II kitab, s.283-284

**834** = AT 737B* Altı şahılıq ruzu.** Kasıb oğlan gündəlik qazancının altı şahıdan və ya bir quruşdan artıq olmayacağını öyrənir. Tacirin qızı ilə evləndikdən sonra tale onun üzünə gülür. Sövdəgərlərə qoşulub ticarətə gedir, səfərdən böyük sərvətlə qayıdır. Cəbrayıl variantında isə övladı dünyaya gəldikdən sonra qəhrəmanın taleyi dəyişir, ağac dibi belləyərkən qızıl dolu küp tapır. Allahı yalan danışmaqda günahlandırır, amma məlum olur, həmin sərvət onun deyil, yeni doğulan uşağın qismətidir.

Qarabağ, I kitab, s.194-197; II kitab, s.370-372; III kitab, s.225-231, kont.1535*; s.231-233; IX kitab, s.183-190

**836F = 836F* Tamahkarın aqibəti.** Tacir malını quldurlardan xilas edəcəyi təqdirdə yarısını nökərə verəcəyinə söz verir, amma sözünün üstündə durmur. Nökəri öldürür, nəticədə gözləri tutulur.

Qarabağ, I kitab, s.269-270

**839*A Allah görür.** Dəmirçi ondan buğda istəyən gəlinə başbir olmağı təklif edir. Gəlin əvvəl buna razılıq vermir, uşaqları acından öləndən sonra razı olur, amma bir şərtlə: onu elə yerə aparsın ki, orada onları görən olmasın. Dəmirçi onu kimsəsiz bir evə gətirir. Gəlin Allahın onları gördüyünü deyir. Qadının Allahı unutmadığını görən dəmirçi tutduğu işə peşman olur.

Qarabağ, III kitab, s.213-216

**839*B Allah görür.** a) Kərbəla sahibi ziyarətə gələn üç gənci sınayır; yaxud b) molla şəyirdləri sınayır: onların hərəsinə bir toyuq verib tapşırır ki, elə yerdə kəssinlər onları görən olmasın. Gənclərdən ikisi toyuğu kəsib gətirir, amma üçüncü gənc belə bir yer tapa bilmir, çünki hara gedirsə Allah onu görür.

Qarabağ, I kitab, s.202-203; III kitab, s.240-241

**840*A İnsanların taleyi.** Kasıb öz təknəsinin gözünü genəldir ki, buğdalar sürətnən tökülsün. Böyük bir vələmir təknənin gözünü tutur, əvvəl buğda bir-bir tökülürdüsə, indi heç gəlmir.

Qarabağ, V kitab, s.223

**840*B Üç quyu.** Böyük qardaşların quyusu duru su ilə doludur, kiçik qardaşın quyusunu isə kol-kos basıb. Ona görə böyük qardaşlar çalışır, evə qazanc gətirir, amma kiçik qardaş bütün günü yatır.

Qarabağ, II kitab, s.282-283

**[841* Çörək verən Allahdır].** Şah Abbas pinəçinin bu sözünə acığı tutub onu zindana atdırır və ona yemək verməmələrini tapşırır. Zindanban yanlışlıqla başqasına verməli olduğu yeməyi pinəçiyə verir, nəticədə pinəçi sağ qalır, o biri şəxs ölür.

Qarabağ, I kitab, s.235-236

**841A* Allah verməyəni bəndə verə bilməz.** Şah ondan istəyən dilənçiyə öz qızını verir. Dilənçi yolda dünyasını dəyişir, qız Allahdan istəyən dilənçiyə qismət olur.

Qarabağ, III kitab, s.309-311; VI kitab, s.236-237

**842 Padşah kasıbı varlandırmaq istəyir.** Varlı qardaş körpünün üstünə pul qoyur ki, kasıb qardaş oradan keçəndə pulu götürsün; kasıb körpüdən göyə baxa-baxa keçir.

Qarabağ, V kitab, s.216-217; VI kitab, s.266

**[845A* Gənc özünə ölüm arzulayır].** Kasıbçılıqdan bezən gənc Əzrayılı çağırır ki, onun canını alsın. Əzrayıl gəldikdə qaçıb xilas olmağa çalışır: əvvəl bəhməz küpündə, sonra yastığın içində, buxarıda gizlənir. Gənc buxarıdan çıxanda içəri girən Əzrayılla qarşılaşır, Əzrayıl ondan qorxub qaçır.

Qarabağ, II kitab, s.316-317

**846* = AT 650A[1] Bərəkət surfası.** Həzrət Əli xaçpərəstə borcu olan kişiyə kömək etmək üçün özünün qul adıyla bazarda satılmasına razı olur. Padşahın çətin tapşırıqlarını yerinə yetirir: a) çayın qabağını kəsmiş əjdahanı öldürür (300), b) vəhşi heyvanların yaşadığı meşədən odun gətirir, c) dağı yarıb çayın qabağını açır. Padşahı öldürüb şəhər əhlini islam dininə dəvət edir.

Qarabağ, I kitab, s.219-222; III kitab, s.218-221; VIII kitab, s.151-154

**847* Kəsik baş.** Məhəmməd peyğəmbər, Salmani-Farsi və Həzrət Əli su çıxartmaq üçün növbə ilə quyuya düşürlər. Peyğəmbərlə, Salmani Farsi "yandım" deyə qışqırır, onları çəkib çıxarırlar. Həzrət Əli isə quyunun dibinə enib qırx gün-qırx gecə Cinni Cəfərin qoşunu

ilə vuruşur. a) Cinni Cəfərin arzusunu yerinə yetirir və övladı olması üçün ona alma verir; yaxud b) onun suallarına cavab verir: Dünyanın ortası haradır? Dünyada arvad çoxdur, yoxsa kişi? Bir variantda divlər Həzrət Əlinin möcüzəsini görüb islam dinini qəbul edirlər, digər variantda isə Əli divləri qırır, o vaxtdan da yer üzündən onların kökü kəsilir. Müqayisə et: 301

Qarabağ, I kitab, s.223-225; III kitab, s.216-218

**849* = TR 2505*B Musa və Firon.** Falçılar Nuşirəvan şaha yeni doğulacaq oğlan uşağının onu öldürəcəyini xəbər verirlər. Ana oğlunu Nuşirəvan şahın əlinə keçməməsi üçün kahaya atır. Uşağın baş barmağından iki göz açılır, birindən su, o birindən süd gəlir. Uşaq onunla qidalanır. Qəhrəman məbədə qarovulçu düzəlir. Gecə taxtadan düzəldilmiş allahları qırır, baltanı da baş allahın çiyninə qoyur ki, elə təsəvvür eləsinlər allahları o qırıb. Daha sonra Fironu öldürüb onun yerinə taxta çıxır.

Qarabağ, I kitab, s.245-247; VI kitab, s.234-236

## NOVELLİSTİK NAĞILLAR

**868* «Dünya kor bir eşşəkdir, quyruğundan necə tutsan, elə də gedər».** Şah Abbas qarpıza iki manat verməyə qıymır, amma cavan bir oğlan həmin qiymətə qarpızı alıb yeyir. Bu hadisənin şahidi olan Şah Abbas bir kağıza "dünyanı nətər tutsan, elə də gedər" yazıb oğlana verir. Oğlan özünü Şah Abbasın oğlu kimi qələmə verir və şəhər böyüyünün qızı ilə evlənir. Axırda yazdığı kağızı Şah Abbasa göstərib öz əməlinə haqq qazandırır.

Qarabağ, II kitab, s.366-370; IV kitab, s.287-288; V kitab, s.202-203

**875D Yola nərdivan salaq.** Peyğəmbər onunla yol yoldaşı olan qocaya suallar verir: yola nərdivan salaq, çaya körpü ataq, bu zəminin sahibi görəsən yeyibdi, ya yeyəcəkdi? Qoca qızının köməyi ilə onların mənasını öyrənir. Şah Abbas onun qızı ilə evlənir.

Qarabağ, V kitab, s.223-224; VI kitab, s.259-261; IX kitab, s.150-165, kont.782**+888A+798*+806*+831C

**875* Dünyada ən yüyrək şey nədir? Canlılar arasında ən qüvvəlisi hansıdır? Həyatda ən şirin şey nədir?** Padşah vəzirdən dünyada ən iyli, ən güclü və şirin şeyin nə olduğunu tapmasını tələb edir. Çobanın qızı suallara düzgün cavab verir: ən yüyrək şey fikirdir, ən qüvvəli canlı atdır, ən şirin şey ağır zəhmətdən sonra gələn yuxudur. Padşah onunla evlənir.

AT kataloqunda 875 nömrəli süjetin tərkibində verilib.

Qarabağ, II kitab, s.377-378, kont.921

**875H* Padşah çəpgöz qıza aşiq olur**.

Qarabağ, VIII kitab, s.180-182, kont.460**

**[875İ* Tərli bədən və soyuq su].** Tacir tərli olduğundan qız onun üçün gətirdiyi suyu yerə tökür. Bununla vaxt qazanmağa çalışır ki, tacirin təri soyusun. Qızın zəkasına heyran qalan tacir onu öz oğluna alır.

Qarabağ, II kitab, s.237-246, kont.882

**878*B Kiçik qız Şah Abbasın onun hamam boxçasını götürməsini arzu edir.** Nağıl kiçik bacının arzusunun gerçəkləşməsi ilə tamamlanır.

Qarabağ, I kitab, s.233-235; II kitab, s.275-281, kont.432

**878** Mum adam.** Oğlan kiminlə evlənirsə, səfərdə olanda arvadı yalnızlığa dözməyib atası evinə qayıdır. Axırıncı qadın xəmirdən adam fiquru düzəldib onunla dərdləşir və bu yolla yalnızlığını unudur.

Qarabağ, V kitab, s.228-229

**880 Arvad ərini xilas edir.** Padşah tacirlə mərc gəlir: əgər pişik səhərə kimi quyruğu üstündə yeddi çırağı saxlasa, tacirin var-dövləti ona çatır. Mərci udan padşah tacirin var-dövlətini əlindən alır, özünü isə zindana atdırır. Arvad kişi paltarında ərinin olduğu şəhərə gəlir. Otağa siçan buraxmaqla padşahı udur və ərini xilas edir.

Qarabağ, V kitab, s.188-191, kont.983*+895

**882 Qadının sədaqətliliyi üstündə mərc.** Qəhrəman arvadının ona sədaqətli olmasına dair qırxlotu başı ilə iddiaya girir. Lotu başçısı sandıqda arvadın yataq otağına daxil olub onun alt paltarını ələ keçirir. Arvad kişi geyimində onu təqib edib özünün günahsız olduğunu sübut edir.

Qarabağ, II kitab, s.237-246, kont.875İ*; VIII kitab. s.182-190

**883A* = SUS 883A*** Böhtanlanmış baldız.** Gəlin uşağı öldürüb günahı baldızının üstünə yıxır. Qardaşı qızın qollarını kəsib evdən qovur. Axırda qız özünün günahsız olduğunu sübut edir və gəlin cəzalandırılır.

Qarabağ, IV kitab, s. 265-267

**888A = AT 888A* Baftaçı Şah Abbas.** Evlənmək istədiyi qızın arzusu ilə Şah Abbas həllaclıq, yaxud xalçaçılıq sənətini öyrənir. Dara düşür, saldığı keçənin, yaxud xalçanın üstünə öz yerini və qırx quldurun əsirliyində olduğunu yazır. Arvadı onu xilas edir.

Qarabağ, V kitab, s.198-201; IX kitab, s.150-165, kont.782** +875D+ 798*+806*+831C

**893*A Əsl dost.** Qəhrəman öz dostunun nişanlısı ilə evlənir. Müflisləşmiş dostu kömək üçün qapısına gəldikdə onu qapıdan qovur, amma sonradan atası vasitəsilə ona pul göndərir, öz bacısı ilə onu evləndirir. Axırda həqiqət üzə çıxır, hər iki dost barışır. Bölgədən yazıya alınmış bu variant ənənəvi variantlardan kifayət qədər fərqlənir və sosial-iqtisadi dəyişikliklərlə əlaqədar nağıllardakı təkamülü izləmək baxımından əhəmiyyət kəsb edir.

Qarabağ, VIII kitab, s.129-133

**895* Şah Abbasın arvadları qırdırmaq istəməsi.** Vəzir Allahverdi xanın atasının qadının sədaqəti haqqında danışdığı hekayədən sonra fikrindən daşınır. Füzuli rayonundan qeydə alınmış variantda Vəzir Allahverdi xan və onun atası əvəzinə İbrahim Əjdər və oğlu Malik Əjdər iştirak edir.

Qarabağ, II kitab, s.353-359; V kitab, s.197-198

**895** Əhmədi Biqəm**. Əmioğlu əmiqızı bir-birilərinə sadiq qalacaqlarına dair əhd-peyman bağlayırlar. Qız əhdinin üstündə durmur, cüzam xəstəliyinə tutulmuş ərini yandırıb padşahın divanından qaçmış qulla evlənir.

Qarabağ, V kitab, s.188-191, kont.893*+880

**899 Qadın ərinin yerinə öz canının alınmasına razı olur:** Nigah gecəsi oğlanın əcəli tamam olur, amma sağ qalması üçün kimsə onun yerinə öz canını verməlidir. Oğlan atasına, anasına ağız açır, amma onlardan müsbət cavab ala bilmir. Gəlin ərinin yerinə öz canının alınmasına razı olur.

Qarabağ, II kitab, s.314-316

**910A* İçki məclisinə dostlarından sonra get, qumar oynamaq istəsən qumarbazların böyüyü ilə oyna.** Qəhrəman atasının vəsiyyətini sınayır, içki içənlərin, qumar oynayanların aqibətini görüb həmin əməllərini tərgidir.

Qarabağ, IX kitab, s.165-171

**910B Üç ağıllı məsləhət:** Kasıb oğlan qocadan aldığı ağıllı məsləhətlər sayəsində öz arzusuna çatır və varlanır.

Qarabağ, II kitab, s.332-338, kont.986; IX kitab, s.175-183

**910B* Elmin başı da səbrdir.** Oğlan Tehranda təhsil alıb vətəninə qayıdır, yolda qarşılaşdığı çobanın "elmin başı nədir?" sualına cavab verə bilmir. Üç ay çobanın qoyununu otarır və həmin sualın cavabını ondan öyrənir. Arvadının yanında yatan gənci öldürmək istəyir, çobanın məsləhətini yadına salıb əl saxlayır. Onun öz oğlu olduğu məlum olur.

Qarabağ, III kitab, s.298-300; V kitab, s.204-205

**910K Yaxşılara yaxşılıq elə, pislərə öz pisliyi kifayətdir.** Padşah uşağın səsinə vurulub onu özüylə saraya gətirir və hər oxuyanda onun dilinin altına bir dənə ləl qoyur. Vəzir uşağa çoxlu sarımsaq yedizdirir, padşahla danışanda o, əlini ağzına tutur. Uşağın ondan iyrəndiyini güman edən padşah onun boynunun vurulması haqqında fərman verir və fərmanı uşaq ilə hakimə göndərir. Vəzir uşağın əlində kağızı görüb padşahın yenə onu bəxşiş almağa göndərdiyini zənn edir. Kağızı özü aparıb hakimə təqdim edir, uşağın yerinə onun boynu vurulur.

Qarabağ, I kitab, s.282-285, kont.929*; VI kitab, s.265

**911 Arvada sirr vermə, şaha etibar etmə, yaddan dost tutma.** Qəhrəman Bəhluldan satın aldığı bu sözləri yoxlayır, onların həqiqət olduğunu görür.

Qarabağ, II kitab, s.338-344, kont.922**; IX kitab, s.202-204

**911A* Gədədən pul istəmə, atını başqasına vermə, arvadı atası evinə getməyə qoyma.** Qəhrəman atasının bu sözlərini sınayır: birinə borc verir, verdiyi borcu geri ala bilmir; atını qonşusuna verir, qonşu atı elə çapır ki, heyvan bala salır; arvadını atası evinə tək buraxır, arvad ona xəyanət edir; ondan sonra oğlan atasının verdiyi məsləhətin həqiqiliyinə inanır.

Qarabağ, V kitab, s.233-234

**912*A İnsafı əldən qoyma, namazı vaxtında qıl və yalan danışma.** Ənənəvi variant üçün xaraterik olan insafı əldən qoyma, namazı vaxtında qıl və yalan danışma kimi məsləhətlər bu variantda iştirak etmir. Molla məhşər əzabından qorxan oğruya məsləhət görür ki, həm ibadətlə məşğul olsun, həm də oğurluğa davam etsin. Gənc oğurluqdan qayıdanda yolda namaz qılmaq üçün ləngidikdə ev yiyəsinə yaxalanır. Ondan sonra başa düşür ki, oğurluqla namaz bir yerdə ola bilməz və oğurluğu tərgidir.

Qarabağ, V kitab, s.227-228

**915B* Yanlış anlaşılan məsləhət.** Ata oğlanlarına hər vilayətdə bir ev tikməyi tapşırır. Böyük oğlanları onun sözünə hərfi mənada əməl edirlər, kiçik oğlu isə hər vilayətdə özünə dost qazanmaqla atasının tapşırığını yerinə yetirir.

Qarabağ, I kitab, s.258

**[918* Sıldırım qaya].** Yaralı əliyin dalınca gedən ovçu qayıdanda sıldırım qayadan keçməyə qorxur. Bir ağsaqqalın məsləhəti ilə qayanın o biri tərəfində bir dəstə qız çalıb oynayır, onların həvəsinə ovçu qayadan keçir.

Qarabağ, II kitab, s.386-387

**920** Yalançı şahid.** Başqa şəhərdə çalışan kiçik qardaş böyük qardaşı ilə ailəsinə pul göndərir. Qardaşı pulu mənimsəyir, onları ünvanına çatdırdığını sübut etmək üçün kəndxudanı, yüzbaşını və mollanı özünə yalançı şahid tutur. Peyğəmbər onların hər birini ayrı-ayrılıqda dindirib böyük qardaşın qızılı nədə verdiyini soruşur. Hərəsi fərqli əşyanın adını çəkir, onun sayəsində böyük qardaşın yalanı üzə çıxır.

Qarabağ, V kitab, s.208-211, kont.926+926B*

**[920*** Padşah vəzirin, vəkilin və keçəlin ona olan sevgisini sınayır].** Dərvişlibas olub onlara qonaq olur. Vəzir, vəkil onu qapıdan qovur, keçəl isə onu evində qonaq edir. Keçəl qonağı Şah Abbasın atını oğurlamaqda günahlandırıb çırpır. Şah Abbas keçəli vəzirin qızı ilə evləndirir.

Qarabağ, IV c., s.267-270

**921 Padşah və kəndli qız.** Qız (yaxud oğlan) padşahın suallarına ağıllı cavab verir. a) – “Atan hara gedib?” – “Dostu düşmən etməyə”. b)

– “Anan hara gedib?” – “Biri iki etməyə”. c) – “Sən nə edirsən?” – “İkini bir edirəm”. Daha sonra verdiyi cavabların mənasını izah edir. Qeydə alınmış varantda qız atasının qamaqal kəsməyə, anasının isə borcunu qaytarmağa getdiyini deyir. Məlum olur ki, atası söz-söhbət olmasın deyə qonşu ilə öz həyəti arasında çəpər çəkir, anası isə qonşuda rəhmətə gedən olur, onun yasında iştirak edir.

Qarabağ, II kitab, s.377-378, kont.875*; V kitab, s.231-232

**921C** Köpəyin münəccimliyi**.

Qarabağ, VIII kitab, s.169-171

**921F = AT 921F* Qaz göndərsəm yola bilərsənmi?** Qoca Şah Abbasın suallarına cavab verir: – “Vaxtında niyə əkib-biçmədin?” – “Əkdim-biçdim, yellər apardı”. – “Üçü doqquza niyə vurmadın?” – “Üçü doqquza vurdum, otuz ikidən artıra bilmədim”. – “İkidəsən, üçdə?” – “Üçdə”. – “Qaz göndərsəm yollarsanmı?” – “Tükünü də tozlaram”. Şah Abbas qoca ilə danışığının mənasını öyrənmək üçün vəziri onun yanına göndərir. Qoca vəzirin pulunu alıb verdiyi cavabın mənasını ona izah edir.

Qarabağ, I kitab, s.248-251

**[922 Çoban vəzirin yerinə padşahın suallarına cavab verir].** Padşah verdiyi sualların cavabını tapmaq üçün mollaya 40 gün möhlət verir; çoban mollanın qiyafəsində padşahın suallarına cavab verir. a) Padşahın bədənində nə qədər qan var? Qəhrəman şahın bir dolça qədər qanı olduğunu deyir. Əgər şah şübhə edirsə, onun qanını bir dolçaya yığıb yoxlamalarını təklif edir. b) Padşahın dərisi neçəyə gedər? Qəhrəman padşahın dərisinə bir abbası qiymət qoyur. Əgər inanmırlarsa, onu bazara çıxarıb satmalarını təklif edir. c) Padşahın ağlı nə qədərdir? Qəhrəman padşahın ağlının kol bitdiyanı qədər olduğunu deyir, çünkü qarşısındakının molla və ya çoban olduğunu bilmir. Padşah onun sözünü təsdiqləyir.

Qarabağ, II kitab, s.359-362; V kitab, 231-232, kont.921

**922A* Allah haradadır?** Kasıb bostanının məhsulundan padşaha nübar aparır, əvəzində padşah onu qızılla mükafatlandırır və bir kəndin kəndxudalığını ona tapşırır. Kasıb qızılları ondan almaq istəyən vəzirin suallarına cavab verir: a) – “Allah haradadır?” – “Allah hər kəsin qəlbindədir”; b) – Allah nə yeyir? – “Allah səbr yeyir”; c) –

“Allah nə iş görür?” Kasıb vəziri yerlərini dəyişməyə razı salır. Vəzirin atına minəndən sonra deyir: – “Birini ata mindirir, birini atdan endirir”.

Qarabağ, I kitab, s.236-242, kont.1667*; II kitab, s.322-327; IV kitab, s.270-274, kont.1667*

**922E* Çobanın mənasız sözü.** Çoban elə söz deməlidir ki, o söz padşah üçün mənasız olsun. Çoban deyir: “De görüm sən dütdək çala bilirsən?” Padşah bu sözün onun üçün mənasız olduğunu etiraf edir.

Qarabağ, II kitab, s.382-383

**922F* Çoban özünü Şah Abbasdan zəngin sayır:** Çünki onun bu dünyadan aparacağı bez padşahın aparacağı bezdən daha çox olacaq.

Qarabağ, III kitab, s.259-265, kont.800*A; IV kitab, s.255-259, kont. 996****

**922G* Düynada ən murdar şey.** Padşah vəzirdən onun üçün murdarın murdarını tapmasını tələb edir. Vəzir çobanın işıq saçan daşını əldə etmək üçün itlərlə eyni qabdan yal yeməyə razı olur. Ondan sonra başa düşür ki, dünyada ən murdar şey nəfsdir.

Qarabağ, III kitab, s.273-276

**922** Toğlunu qurda göstərmək.** Vəzir toğlunu elə bəsləməlidir ki, onun çəkisi nə artmalı, nə də azalmalıdır. Vəzir toğlunu yedizdirdikdən sonra onu qurda göstərir, heyvan aldığı əti tökür.

Qarabağ, II kitab, s.338-344, kont.911; VIII kitab, s.109-122; s.122-129

**[924* İşarələrlə danışmaq]:** Bir padşah başqa bir padşahı müharibə ilə hədələyir. Onun göndərdiyi elçi yerə dairə çəkir, Bəhlul dairəni ortadan yarı bölür. Elçi yerə darı tökür, Bəhlul darını toyuğa dənlədir. Elçi cibindən çıxartdığı soğanı ortalığa qoyur, Bəhlul soğanın yanına qoz qoyur. Daha sonra elçi ilə danışıqlarının mənasını izah edir. Bərdə rayonundan qeydə alınmış variantda isə padşahın ağıllı vəziri elçinin suallarını cavablandırır.

Qarabağ, II kitab, s.338-344, kont.922**+911; VI kitab, s.250-252,

**925*B İnsan sərrafı.** Hər il imamların təziyəsini saxlayan kişi növbəti dəfə təziyə saxlamağa imkanı olmadığından oğlunu satır. Oğlan padşaha hədiyyə edilən atın suya girəndə yatdığını, ləlin saxta,

padşahın isə aşbaz oğlu olduğunu söyləyir. Padşah yoxlatdırır, deyilənlərin həqiqət olduğu üzə çıxır.

Qarabağ, IV kitab, s.259-262

**926 Uşağın əsl valideyinin müəyyənləşdirilməsi.** İki qadın eyni uşağa iddia edir. Süleyman peyğəmbər (qazı) onun yarı bölünməsini təklif edir, uşağın əsl anası buna razı olmur.

Qarabağ, I kitab, s.222-223; II kitab, s.372-377, kont.930

**[926A* Müəllimlə çoban qız üstündə mübahisə edir].** Qazı qıza yun əyirməyi, kitabları rəfə düzməyi tapşırır. Qız birinci işi bacarmır, amma hər müəllifin kitabını sırası ilə rəfə düzür. Bunun sayəsində qazı onun müəllimin qızı olduğunu müəyyən edir.

Qarabağ, II kitab, s.383-385, kont.926*B+926*A; V kitab, s.208-211, kont.920**+926B*

**[926B* Uşağın əsl valideyinin müəyyənləşdirilməsi].** Qadın yeni doğulmuş oğlunun qonşunun qızı ilə dəyişdirildiyini iddia edir. Peyğəmbər qadının və onun qonşusunun südünü üsküyə sağdırıb çəkir, oğlu dəyişdirilən qadının südü o birindən daha ağır gəlir. Südün çəkisinə görə qadının haqlı olduğunu müəyyən edir.

Qarabağ, V kitab, s.208-211, kont.920**+926A*

**926C*** Kar, kor, şil qız**.

Qarabağ, VIII kitab, s.166-169, knt.934G*

**926*B Korun şəri.** Atın tərkinə alınmış kor atın və arvadın ona məxsus olduğunu iddia edir. At sahibi qazıya şikayət edir. Qazı a) onların hər ikisini ata göstərir, at qocanı görəndə fınxırıb geri çəkilir; yaxud b) onları ayrı-ayrı otağa salıb danışıqlarına qulaq asır. Bunun sayəsində atın əsl sahibinin kim olduğunu müəyyən edir.

Qarabağ, II kitab, s.383-385, kont.926*A+926A*; VI kitab, s.267-268

**927** Xan nökər olmaq istəyən şəxsləri sınayır.** Şah iki nökərin ayağına daş bağlayıb uzaq səfərə göndərir. Nökərlərdən biri daşı yolda açıb atır, o biri ayağında daş səfəri başa vurub qayıdır. Şah birincini özünə nökər götürür, çünki canının qədrini bilməyən onun malının da qədrini bilməz.

Qarabağ, V kitab, s.243-244

**928* İnəyin qarnındakı buzov.** Padşah inəyin qarnındakı buzovun dişi və alnı təpəl olduğunu söyləyir. Keçəl onun səhvini düzəldir: buzovun quyruğunun ucu qatlanıb alnında durduğu üçün təpəl göründüyünü deyir. Heyvanı kəsirlər, keçəlin dediyi düz çıxır.

Qarabağ, I kitab, s.259-260

**929* Dilimi mehribançılığa öyrədirəm.** Uşaq yıxılan eşşəyin başını dizi üstünə alıb onu əzizləyir. Padşah ondan bu hərəkətinin səbəbini soruşduqda dilini mehribançılığa və ya yaxşı danışmağa öyrətdiyini deyir. Padşah onu mükafatlandırır. Qoca da uşağı yamsılayır, padşah ona yüz çubuq vurdurur.

Qarabağ, I kitab, s.282-285, kont.910K; IV kitab, s.296-297

**929*** Evə əliboş gəlmək olmaz.** Gəlinin tapşırığı ilə hər kəsə evə gələndə özü ilə bir şey gətirməlidir. Böyük qayın gətirdiyi ölmüş ilanı dama atır. Quş çaynağında apardığı şah qızının zinət əşyalarını yerə atıb ilanı çaynağına alır. Gəlinin ailəsi tapdıqları zinət əşyalarının hesabına varlanır.

Qarabağ, III kitab, s.296-298; IX kitab, s.218-221

**930 Yazıya pozu yoxdur.** Olduqca geniş yayılmış süjetdir, demək olar ki, bölgəyə daxil olan əksər rayonlardan onun variantı qeydə alınıb. Süjetin qısa məzmunu belədir: Qızının kasıb bir ailənin oğluna yazıldığını öyrənən padşah uşağı özü ağırlığında qızıla valideynlərindən satın alıb dağdan atır. Allah Cəbrayıla əmr eləyir, Cəbrayıl uşağı qanadları arasına alır və onun yerə düşməsinə qoymur. Uşaq maralın və ya keçinin himayəsində böyüyür, yaxud ziyarətdən gələn şəxs qarağan kolunun dibindən uşağı tapıb onu böyüdür. Həmin oğlan axırda padşahın qızı ilə evlənir.

Qarabağ, II kitab, s.372-377, kont.926; III kitab, s.244-249; s.249-254; s.254-259; V kitab, s.181-183; VI kitab, s.242-248; VIII kitab, s.176-180; IX kitab, s.232-235

**930A Təyin olunmuş arvad.** Naxırçının qızının ona yazıldığını öyrənən gənc qızı xəncərlə vurur, özü ilə götürdüyü qızılları onun döşəyinin altına qoyub evi tərk edir. Qız həmin yaradan şəfa tapır. Yastığının altına qoyulan qızılların hesabına şəhərdən həyət evi alır. Şahzadə eyvanda gəzən qızı görüb ona aşiq olur, onunla evlənir. Sinəsindəki yaradan onun naxırçının qızı olduğu məlum olur.

Qarabağ, III kitab, s.266-269, kont.934B

**930K* Süleyman və Zümrüd quşu.** Gündoğanda doğulan oğlanla günbatanda doğulan qız bir-birinə yazılmış olur. Allahın qədərinə inanmayan Zümrüd quşu yazını pozmağın mümkün olduğunu iddia edir və qızı caynağına alıb kimsəsiz bir adaya aparır. Amma yazını poza bilmir.

Qarabağ, VI kitab, s.241-242

**930L* İki sünbülün söhbəti.** Sünbüllərdən biri onu məğrub padşahının oğlu, o biri isə məşruq padşahının oğlu yeyəcəyini deyir. Yazını pozmağa çalışan zəmiçi həmin sünbülləri qırıb aşa qatır. Həmin aşdan axşam ona qonaq olan iki şəxsə də verir. Məlum olur ki, həmin şəxslərin biri məşruq padşahının, o biri isə məğrub padşahının oğludur.

Qarabağ, II kitab, s.327-328

**934 Bıçaqla gələn ölüm.** Yuxuda oğlunun öləcəyini görən ana onu bir otağa salıb çölə çıxmağa qoymur. Rəfdəki ütü oğlanın başına düşür, orada da canını tapşırır.

Qarabağ, V kitab, s.184

**934A Üç ölüm.** Münəccimlər padşahın oğlu olacağını xəbər verir. Biri onu ilan çalacağını, o biri ağacdan yıxılacağını, üçüncü isə suda boğulacağını deyir. Hər üç münəccimin dediyi doğru çıxır.

Qarabağ, IX kitab, s.190-193

**934E = AT 931E* Rüsvay olmuş qız.** Mələk padşahın yeni doğulmuş qızının küçələrə düşüb rüsvay olacağını xəbər verir. Qız yazını pozmaq üçün özünü öldürür, torpaq onu qəbul etmir.

Qarabağ, VI kitab, s.248-249

**934H* = AT 934A* Əcəli suda tamam olan şəxs.** Peyğəmbər bir evə qonaq olur və ev sahibinin yeni doğulan uşağını toy günü sel aparacağını öyrənir. Yazını pozmağa çalışır, amma mümkün olmur. Füzuli rayonundan qeydə alınmış variantda isə, oğlan suya düşəndə Həzrət Əlini köməyə çağırır. Həzrət Əli onu sudan çıxardır, amma hər dəfə də qucağındakının balıq olduğunu görüb onu suya buraxır. Ondan sonra başa düşür ki, Allahın yazdığını poza bilməz.

Qarabağ, III kitab, s.270-271; s.271-272; IV kitab, s.282-283; V kitab, s.183-184

**934G* İlanla gələn əcəl.** Oğlan onunla yol yoldaşı olan Əzrayıldan nikah gecəsi əcəli tamam olacağını öyrənir. Nikah gecəsi Əzrayıl ilana çevrilib balıncın altında gizlənir və oğlanı sancmaq üçün fürsət gözləyir. a) Gəlin özüylə gətirdiyi xonçanı sailə verir, bu yaxşılığın qarşılığında Allah oğlanın ömrünü uzadır; yaxud b) oğlan kəsdikləri duz-çörəyə and verir, Əzrayıl duz-çörəkdən keçə bilmir.

Qarabağ, I kitab, s.227; s.228-229; II kitab, s.287-293, kont. 750K*; VI kitab, s.239; VIII kitab, s.166-169, kont.926C***; IX kitab, s.235-237, kont.811*

**934G*** Yuxuya qalmış ilan.** İlan sevgilisini öldürdüyünə və ya quyruğunu qopartdığına görə nikah gecəsi oğlanı çalmalıdır, amma yatıb yuxuya qalır. Həqiqəti öyrənən peyğəmbər ilanı sevgilisinə qovuşdurur.

Qarabağ, I kitab, s.229-230; s.231-232

**936 = AT 936* Qızıl dağ.** Tacir tutduğu nökəri otuz doqquz gün yeydirib-içirdir, qırxıncı gün onu özü ilə dağa aparır. Qəhrəman heyvan cəmdəyinin içində gizlənir, quş onu caynağına alıb dağa qaldırır. Oradakı qiymətli daşları tacirə atır. Tacir onu dağın başında qoyub gedir. Qəhrəman tülkünün köməyi ilə dağdan enir və tacirdən qisas alır.

Qarabağ, III kitab, s.281-289, kont.986

**938 Ailə üzvlərinin itirilməsi.** Taxt-tacı itirən padşah şəhəri tərk etməli olur. Yolda arvadı qaçırdılır, bir oğlu çaya düşür, o bir oğlunu canavar aparır. Başqa bir şəhərdə yenidən padşah seçilir. Təsadüf nəticəsində oğurlanmış arvadını və övladlarını tapır.

Qarabağ, I kitab, s.254-257

**938D* Hatəm cənnəti qazanır.** Bu süjetin bölgədən iki variantı qeydə alınıb. Bərdədən toplanmış variantda qeyd olunur ki, Allahdan bu dünyasını istəyən Hatəm şumdan tapdığı qızıl hesabına varlanır. Yeddi yolayrıcında imarət tikdirib gəlib-gedəni yeməyə qonaq edir və səxavəti sayəsində o dünyasını da qazanır. Füzuli rayonundan qeydə alınmış variantda isə, Allah kasıba cənnəti təklif edir, amma kasıb arvadının tələbi ilə bu dünyasını istəyir. Özgəsinin qapısını belləyəndə yerdən tapdığı qızıl küpü hesabına varlanır. Çayın üzərindən körpü salıb savab iş tutduğu üçün Allah onun o dünyasını da verir.

Qarabağ, II kitab, s.300-302; V kitab, s.179-180

**945* Ağıl vardan üstündür.** Kəlbəcər variantında ana oğlunu evləndirmək üçün Allahdan borc pul alır, amma aldığı pulu geri qaytara bilmir. Borcun əvəzində Allah onun ya ağlını, ya da var-dövlətini əlindən almalıdır. Ağlı var-dövlətdən üstün tutduğu üçün Allah verdiyi borcu ona halal edir. Qubadlı variantında isə, Allah ondan var-dövlət istəyən kasıbın arzusunu yerinə yetirir, amma otuz ildən sonra onu geri alacağını deyir. Kasıb gəlinin məsləhəti ilə var-dövlətinin əlindən alınmasına razı olur, amma aralarındakı mehribançılığa dəyməməsini xahiş edir. Mehribançılığı var-dövlətdən üstün tutduğu üçün Allah onun var-dövlətinə dəymir.

Qarabağ, I kitab, s.260-261; IV kitab, s.293-295; V kitab, s.195-196; VI kitab, s.252-253

**946* Haqq tərəzisi.** Bu süjetin bizə məlum variantında kasıb qızla evlənən varlı gənc nikah gecəsi evi tərk edir. Yuxuda görür ki, mələklər onu tərəzinin bir gözünə, evləndiyi qızı isə o biri gözünə qoyur və tərəzinin hər iki gözü bərabər gəlir. Ondan sonra geri qayıdır. Zəngilandan qeydə alınmış variantda isə gözəl oğlanla evlənən çirkin qız evi tərk edir. Öz baxtı ilə qarşılaşan qız ərinin gözündə özünün hamıdan gözəl olduğunu öyrənir.

Qarabağ, IV c., s.275-276; V kitab, s.224

**950 Usta və şəyirdi.** Padşahın xəzinəsinə oğurluğa gedən böyük qardaş bal doldurulmuş çəlləyə düşür. Kiçik qardaş izi itirmək üçün onun başını kəsir. Padşah nə qədər fəndə əl atırsa, oğrunu tapa bilmir.

Qarabağ, I kitab, s.274-281, kont.1525G; II kitab, s.344-353, kont.1525G

**951A = AT 951A* Şah Abbas və üç oğru.** Oğrulardan biri itin dilini bilir, o biri bağlı qıfılı açır, üçüncü isə gündüz gördüyü adamı qaranlıqda da tanıyır. Şah Abbasın xəzinəsini yarırlar. Ələ keçirlər, Şah Abbas onları azad edir.

Qarabağ, I kitab, s.232-233; III kitab, s.311-313; IV kitab, s.295-296

**[956*C Şah Abbas taxtı pinəçiyə təhvil verir].** Hər gecə şəhər talanır, amma oğruları tutan olmur. Şah Abbas sifətdən ona oxşayan pinəçini öz yerinə qoyub oğruları tutmaq üçün şəhərə çıxır. Dərvişlə bir mağazanın yanında gecələyir. Mağazanı yarmağa gələn oğrular –

milis işçiləri Şah Abbasla dərvişi tutub zindana atırlar ki, səhər onları şəhəri talayan şəxslər kimi padşaha təqdim etsinlər. Dərvişin köməyi ilə Şah Abbas zindandan xilas olur və taxta çıxıb oğruları asdırır.

Qarabağ, I kitab, s.243-245

**960A* Haqq var, divan yox.** İki qonşu qazanc dalınca qürbətə üz tutur. Geri qayıdanda qonşulardan biri digərini öldürüb onun puluna sahib çıxır. Ölən şəxsin vəsiyyətinə uyğun olaraq onun yeni doğulan oğlunun adını Haqq var, divan yox qoyurlar. Həmin adın sayəsində cinayət üzə çıxır, qatil cəzalandırılır.

Qarabağ, IX kitab, s.222-223

**970 Eyni qəbrdə dəfn olunmuş gənclər.** Allah qəhrəmanın istəyi ilə onun qolundakı gücü alır. Səfərə çıxan qəhrəman dağın döşündə çadırda yaşayan qıza rast gəlir. Qızın qardaşının başqa bir padşahla müharibə etdiyini öyrənib ona kömək edir: özünü qoca görkəminə salır, nəzarətçilərə bihuşdarı qatılmış halva verib oğlanın sevdiyi qızı qaçırdır. Qızın atası onları təqib edir, qızını və onu istəyən oğlanın başını kəsib onları bir qəbirdə dəfn edir. Sonradan bu hadisəni peyğəmbərə danışır və həmin gənclərin yenidən dirilməsinə nail olur: Peyğəmbər ağzının tüpürcəyindən gənclərin boynuna çəkməklə onları dirildir.

Qarabağ, I kitab, s.179-181

**976*A = AT 1169 Dəyişik düşmüş baş.** Gəlin sehrli otun köməyi ilə qardaşları dirildir, amma tələsdiyindən ərinin başını qaynının bədəninə qoyur. Əri ilə qaynı onun üstündə mübahisə edirlər.

Qarabağ, II c., s.196-202

**[976*B Tərs düşmüş sünnət]:** Sünnəti qopmuş dəllək aftafadakı su ilə özünü carlayır. Sünnəti bitişir, amma tələsdiyindən onu tərsinə qoymuş olur.

Qarabağ, II kitab, s.202-206, kont.1406A*+514*+449

**981 Qocaların öldürülməsi.** Köhnə adətə görə insanlar qocalmış valideynlərini bir səbətə qoyub dağın başında qurd-quşa yem edirlər. Atasına düşkün bir gənc bu adətə xilaf çıxır və atasını bir mağaranın içində gizləyir. Qoca ölkəni müharibə ilə hədələyən qonşu padşahın suallarına cavab verir. Bu hadisədən sonra padşah qocaların öldürülməsini ləğv edir.

Qarabağ, I kitab, s.192-194, kont.806*+831C; s.252-253

**982*** Səndən adam olmaz.**

Qarabağ, V kitab, s.242-243

**983 Bütün qadınlar eynidir.** Yolçulardan biri Şah Abbasın ona xəzinəyə girməyə icazə verməsini, o biri yolçu Şah Abbasın arvadını bir gecəliyə ona verməsini, üçüncü yolçu isə taxt-tacı bir saatlığa ona verməsini arzu edir. Şah Abbas birinici yolçunu soyundurub xəzinəyə salır. Yolçu bədənini bəhməzlə suvayıb qızılın içində ağnayır, bütün qızıllar bədəninə yapışır. Şah Abbasın arvadı onu arzulayan yoxsuldan on müxtəlif rəngə boyanmış yumurtanı yeməsini tələb edir, daha sonra onların nə cür daddığını soruşur. Yolçu yumurtaların eyni cür daddığını deyir. Dəmirçinin arvadı bununla ona demək istəyir ki, bütün qadınlar da eynidir, onlar ancaq görünüşlərinə görə bir-birindən fərqlənirlər.

Qarabağ, V kitab, s.203-204

**983* Quş sümüyündən ev.** Süleyman peyğəmbər istədiyi qızın arzusu ilə quş sümüyündən ev tikdirmək istəyir. Bütün quşları yığır, yalnız bayquş onun çağrışına gəlmir. Bayquşun dalınca atı, vəziri və iti göndərir, bayquş itlə gəlir. Bayquş Süleyman peyğəmbərin suallarına cavab verir: a) dünyanın keçmişi çoxdu, yoxsa gələcəyi?; b) dünyada arvad çoxdu, yoxsa kişi?; c) abadlıq çoxdu, yoxsa xarabalıq? Süleyman peyğəmbər bayquşun məsləhəti ilə quşları qırmaq fikrindən daşınır; bu yaxşılığın qarşılığında bayquşa gündəlik üç sərçə ruzu təyin edir.

Qarabağ, I kitab, s.209-210, kont.798**A; s.210-212; V kitab, s.188-191, kont.895+880

**986 Tənbəl ər.** Padşah kiçik qızının "evi arvad tikər" sözünə qəzəblənib onu kasıba (tənbələ) ərə verir. Qızın əri karvana bələdçilik edir. a) Su quyusunda yaşayan divin sualına cavab verir: dünyada ən gözəl şey nədir? Div ona qeyri-adi nar bağışlayır; yaxud b) meşədən tapdığı qızıl hesabına varlanır. Özünə atasının imarətinə oxşar bir imarət tikdirir. Qızının bu cah-cəlalını görən padşah onun haqlı olduğunu etiraf edir.

Qarabağ, II kitab, s.332-338, kont.910; III kitab, s.281-289, kont.936; VIII kitab, s.192-195

**990 Sətəlcəm olmuş qız.** Padşahın qızı sətəlcəm olur, onu ölmüş bilib dəfn edirlər. Qıza aşiq olmuş oğlan onu sağaldır və qızla evlənir.

Qarabağ, III kitab, s.276-281, kont.1651

**991* Tacir xəsisliyi tərgidir.** Xəsis kişi cinlər padşahının oğlunu çaqqalın ağzından xilas edir, əvəzində cinlər padşahından malının ixtiyarının özünə qaytarılmasını istəyir. Cinlər padşahı onun istəyini yerinə yetirir, ondan sonra kişi xəsisliyini tərgidir.

Qarabağ, VI kitab, s.258-259; VIII kitab, s.174-176

**995* Ölünün qulağına söz demək.** Məzuniyyətə çıxan padşah öz yerinə başqasını qoyur. Zəngilan variantında isə səyahətə çıxan şah yerinə Bəhlul Danəndəni qoyur. Bəhlul Danəndə hakimiyyətdə olduğu müddətdə bir qadına bir kisə qızıl verir, qəssabın boynunu vurdurur, ölünün qulağına nəsə pıçıldayır. Daha sonra etdiyi hərəkətin səbəbini padşaha izah edir.

Qarabağ, IV kitab, s.274-275; s.288-289; V kitab, s.236-237

**996* Hər keçən gün ömürdən gedir.** Ona görə də tacir nə qədər qazanc əldə edirsə, yenə də özünü ziyanda sayır.

Qarabağ, I kitab, s.258-259

**996*** Belə də qalmaz.** Müflisləşmiş tacir əlinə maya salmaq üçün qulu satmaq məcburiyyətində qalır. Nökər əvvəl öküz yerinə cütə qoşulur, sonra dəyirman daşını fırladır, ölən padşahın yerinə seçilir, axırda dünyasını dəyşir. Vəsiyyətinə uyğun olaraq baş daşının üstünə "belə də qalmaz" yazırlar. Sel qəbirstanlığı yuyub aparır, qulun qəbrindən əsər-əlamət qalmır.

Qarabağ, V kitab, s.212-214

**[996**** Belə də qalmaz]:** Padşah üzüyün üstünə elə söz yazdırmaq istəyir ki, onu yasda oxuyanda təskinlik tapsın, xeyirdə oxuyanda kədərlənsin. Vəzir çobanın köməyi ilə padşahın tapşırığını yerinə yetirir və üzüyün üstünə "belə də qalmaz" yazmağı məsləhət görür.

Qarabağ, IV kitab, s.255-259, kont.922F*

**997* İnsan nəslinə çəkər.** Padşah evləndiyi qızın, yaxud oğluna aldığı gəlinin hərəkətlərini izləyir. Gəlin a) çörəyi tikələrə bölüb qablara qoyur, daha sonra bir-bir qablara vurub pul tələb edir; b) söyüd

çubuğunu görəndə ondan yaxşı sağanaq çıxacağını deyir; c) əlinə qaşıq alıb "hay it, hay it" deyə-deyə süfrənin başına dolanır. Həmin hərəkətlərinə görə onun qaraçı qızı olduğu məlum olur.

Qarabağ, I kitab, s.285-287; s.288; IX kitab, s.223-224

**[997*** Özünü lallığa vurmuş oğlan].** Padşah oğlunun nə iş tutduğunu öyrənmək üçün üstünə nəzarətçi qoyur. Nəzarətçi oğlanın ovçunun vurduğu quşa dediyi sözləri eşidir. Məlum olur ki, oğlan danışa bilirmiş, sadəcə dünyaya küskün olduğundan özünü lallığa vurub.

Qarabağ, I kitab, s.268-269

## AXMAQ ŞEYTAN HAQQINDA

**1000 Hirslənməmək sazişi.**

Qarabağ, II kitab, s.259-267, kont.1132 +1120+1537

**1060 Qorxaq Əhməd.** Divlə gücünü yoxlayır: a) Kimin qoltuğunun tükü uzun olar? Qəhrəman sicimi qoltuğunun tükü kimi qələmə verir. d) Kimin bədəninin biti böyük olar? Qəhrəman cibində gizlətdiyi qurbağanı bit kimi qələmə verir. Div ondan qorxur.

Qarabağ, III kitab, s.305-308, kont.1149A*

**1120 Ağa arvadı ilə əlbir olub keçəli çaya atmaq istəyir.** Bundan xəbər tutan keçəl ağanın arvadı ilə öz yerini dəyişir. Ağa onun yerinə arvadını çaya atır.

Qarabağ, II kitab, s.259-267, kont.1000+1132+1537

**1132 Nökərdən qaçma.** Ağa nökərdən qaçıb canını qurtarmaq istəyir. Farmaşın arasında gizlənən nökəri də özləri ilə götürürlər.

Qarabağ, II kitab, s.259-267, kont.1000+1120+1537

**1149A* Tülkünün borcu.** İnsan divləri onun üstünə gətirən tülküdən xilas olmağı bacarır. Yontaladığı çubuqla divlərin gözünü çıxardacağını deyir. Divlər ondan qorxub qaçırlar.

Qarabağ, III kitab, s.305-309, kont.1060

## LƏTİFƏVARİ NAĞILLAR

**[1202 Naşı biçinçi].** Taxılı kəməndlə boğazından tutub baltayla dibindən vurur.

Qarabağ, I kitab, s.289-293, kont.1618*

**[1341A = AT 1341A* Tövlədən qaçış].** İki nəfər qoyun oğurluğuna gedir. Oğrulardan biri ev yiyəsinin gəldiyini görüb aradan çıxır, o biri tövlədə qalır. Ev yiyəsi tövlənin qapısını açanda oğru onu içəri salıb özü aradan çıxır.

Qarabağ, I kitab, s.316-319

**1358B Arvad aşnasını küpün içində gizlədir.** Küpü satmaq üçün bazara aparan ər başqa bir gəlinin öz aşnasını yunun altında gizlətdiyini görür. Gəlinin əri onun küpünü sındırır, o da yükü dağıdır. Hər iki aşna qaçıb xilas olur.

Qarabağ, IX kitab, s.224-227

**1381 Qarının toyu.** Qardaşlar oğurluq dəvəni kəsib anaları üçün toy edirlər. Arvaddan dəvəni xəbər alanda onu toyunda kəsdiklərini deyir. Dəvə sahibi bunun çoxdan baş verdiyini zənn edir.

Qarabağ, V kitab, s.248-249, kont.1398+1381*

**1381A Arvad şəri.** Arvad ərinin şumdan tapdığı balıqları gizlədir və camaatı inandırır ki, əri dəli olub.

Qarabağ, IV kitab, s.276-279, kont.1531B

**1381* Arvadın şahidliyi.** Ərinin padşahın dəvəsini oğurladığını yasavullara xəbər verir. Kişini tutub saraya aparırlar, gedərkən arvada qapı-bacadan muğayat olmağı tapşırır. Arvad qapını çiyninə alıb saraya gəlir. Padşah arvadın dəli olduğuna əmin olub onun ərini azad edir.

Qarabağ, IV kitab, s.299; V kitab, s.248-249, kont.1381+1381*

**1398* Arvad ərindən küsür.** Əri onu evdən qovur. Qarşısına çıxan heyvanları ərinin göndərdiyini zənn edir və dəvə ilə geri qayıdır.

Qarabağ, V kitab, s.248-249, kont.1381+1381*

**1406A* Təsbeh kimə çatmalıdır.** Padşah, vəzir və dəllək yoldan tapdıqları təsbeh üstündə mübahisə edirlər. Razılaşırlar ki, hərə bir əhvalat söyləsin, kimin əhvalatı daha inandırıcı olsa, təsbeh ona çatsın.

Qarabağ, II kitab, s.202-206, kont.514*+449+976*B

**1426 Sandıqda saxlanılan arvad.** Bu süjetin indiyə qədər ayrı-ayrı bölgələrdən qeydə alınmış 4 variantı məlumdur. Kəlbəcərdən isə belə bir süjet ilk dəfə yazıya alınır. Ənənəvi variantlardan fərqli olaraq, həmin süjet burada “Şıx Səyadın qadınların əməlindən kitab yazması” adlı məşhur lətifə süjeti ilə kontaminasiya olunmuşdur.

Qarabağ, VIII kitab, s.133-136

**[1441B = AT 1441B* Mollanın arvadına aşiq olmuş keçəl].** Mollanın arvadı ona öpüş verməsə, naxıra getməyəcəyini deyir. a) Mollanın arvadı keçələ toyuq hinində görüş təyin edir. Mollaya yaxalanan keçəl itmiş xoruzunun dalınca gəldiyini bəhanə etməklə ondan xilas olur. b) Mollanın arvadı keçələ təzə tikilmiş evlərində görüş təyin edir. Keçəl evin ölçüsünü götürməyə gəldiyini bəhanə etməklə molladan xilas olur. c) Növbəti dəfə mollanın arvadı ilə görüşə gedir və yükün arxasında gizlənir. Mollanın arvadını vurmaq üçün atdığı odun parçası buzova dəyir, heyvan murdar olmamış molla onun başını kəsir. İşin böyüdüyünü görən keçəl əlində bir tiyan un yükün arxasından çıxır, guya mollanın heyvan kəsdiyini bilib ət almağa gəlib. Mollanın arvadı fürsət tapıb keçələ öpüş verir, keçəl ondan sonra naxıra gedir.

Qarabağ, I kitab, s.293-296

**1525G Oğru Əzrayıl qılığında.** Qəhrəman özünü Əzrayıl kimi qələmə verib padşahı oğurlayır.

Qarabağ, I kitab, s.274-281, kont.950; II kitab, s.344-353, kont.950

**1525N Keçəllə kosa bir-birinə hiylə gəlirlər.** Keçəllə kosa sarayda işə düzəlirlər: biri padşahın inəyini otarır, o biri isə çay paylayan işləyir. Kosa gələn qonağa çay vermək üçün hər dəfə qırx pilləkəni çıxıb-düşür, keçəl isə inəyin dalınca bütün günü gəzir. Günün sonunda bir-birinə öz işlərinin necə rahat olduğunu deyirlər və razılaşırlar ki, növbəti gün işlərini dəyişsinlər. Keçəl kosaya özü ilə stol götürməyi məsləhət görür. Kosa bütün günü stol belində inəyin dalınca yüyürməli olur.

Qarabağ, I kitab, s.296-303, kont.1525V*+1525S*

**[1525S* Keçəllə kosa padşahın inəyini oğurlayırlar].** Kosa heyvanı çəkdikdən sonra ipi kəsib keçəli tövlənin içində qoymaq istəyir. Keçəl səbətin içinə girib üstdən əti qoyur. Kosa səbətlə birlikdə onu da çəkib tövlədən çıxarır.

AT kataloqunda 1525N nömrəli süjetin tərkibində verilib.

Qarabağ, I kitab, s.296-303, kont.1525V*+1525N

**1525V* Fətir oğrusu.** Kosayla keçəl dalaşır, ev sahibinin başı onları ayırmağa qarışanda keçəl fətiri oğurlayır, amma fətir iri olduğundan onu gizlədə bilmir. Kosaya üstüörtülü vəziyyəti anladır, kosa deyir: “Qara-pırtıx, qarnı yırtıx kopoğlu”, yəni çörəyi qırıqlayıb gizlət. Keçəl

kosanın məsləhətinə əməl edir, fətiri köynəyinin altında gizlədib aradan çıxırlar.

Qarabağ, I kitab, s.296-303, kont.1525N+1525S*

**1530 Uçan qaya**. Keçəl çiynini qayanın altına verir və özünü elə göstərir ki, guya uçan qayanı saxlayıb. Başqa birini onu əvəz etməyə razı salır və özü onun atını minib aradan çıxır.

Qarabağ, V kitab, s.239-240, kont.1540+1541

**1531B Arvad ərinin dəyişik düşməməsi üçün şalvarının arxasına parça tikir.** Kişi paltarını başqasının əynində görüb özünün dəyişik düşdüyünü zənn edir.

Qarabağ, IV kitab, s.276-279, kont.1381A

**1533 Qazın bölünməsi.** Kasıb padşaha hədiyyə apardığı qazı onun ailə üzvləri arasında bölür: qazın başını padşaha, qanadlarını qızlara, ayaqlarını oğlanlara, dümbəyini arvada verir, bədənini isə özünə götürür. Bölgüdən razı qalan padşah onu mükafatlandırır. Varlı qonşu padşaha beş qaz aparır, amma onu padşahın ailə üzvləri arasında bölə bilmir.

Qarabağ, V kitab, s.240-242

**1534 Bəxtsiz adam.** Verdiyi borcu geri ala bilmədiyi üçün tacir onu məhkəməyə aparır. Yolda eşşəyin quyruğunu qoparır, atın gözünü çıxardır, hasardan atılıb qaçmaq istəyir, hamilə qadının üstünə düşür, qadın uşaq salır. Məhkəmədə həmin əməllərinə görə də cavab verməlidir. a) Qazı onun əlindəki bağlamanı rüşvət bilib işi onun xeyrinə həll edir, yaxud b) qəhrəman qazını qadınla bir yerdə tutur. Qazı sirrini açmaması üçün işi onun xeyrinə həll edir.

Qarabağ, II kitab, s.389-392; V kitab, s.244-245; VI kitab, s.266-267

**1535* Ləl qiymətinə təzək.** a) Gənc satmaq üçün apardığı çörəyi (unu) dəryaya atır. Onları yemlədiyi üçün balıqlar ona qiymətli daş hədiyyə edir (Bax. 672E*). Qəhrəman həmin daşları təzəyin (kötüyün) içində gizləyir, bir neçə təzəyi isə boş saxlayır. Yaxud b) qəhrəman züryətsiz bir kişinin öz sərvətini kötüklərin içində gizlətdiyini bilir və dünyasını dəyişdikdən sonra həmin kötükləri satın alır. Alverdən qayıdanda yolda boş təzəkləri (kötükləri) yandırmaq üçün tacir yoldaşlarına satır və pulunu ödəyəcəklərinə dair onların dilindən

kağız alır. Daha sonra ləl gizlətdiyi təzəkləri tacirlərə göstərib onlardan həmin ləlin qiymətini tələb edir.

Qarabağ, II kitab, s.363-366; III kitab, s.225-231, kont.834**;

**1537 Cansız bədən.** Nökər öldürdüyü ağanı eşşəyə mindirib özgənin bostanına buraxır. Bostan sahibini atasını öldürməkdə günahlandırıb ondan qan pulu tələb edir.

Qarabağ, II kitab, s.259-267, kont.1000+1120+1132

**1540 O dünyadan gələn.** Qəhrəman özünün o dünyadan gəldiyini deyir. Arvad onunla ölmüş ata-anasına pul göndərir. Arvadın əri qonşunun atını alıb onu təqib edir. Qəhrəman onu da aldadıb atını əlindən alır.

Qarabağ, V kitab, s.239-240, kont.1541+1530

**1541 Ramazan.** Arvad ərinin bayram üçün saxladığı pul ehtiyatını Bayram adlı adama verir.

Qarabağ, V kitab, s.239-240, kont.1540+1530

**1542A*= AT 1535 Təqibdən qaçan keçəl**. Çobanı aldadır, guya həkimlər xəstə padşaha çoban beyni məsləhət görüblər və onu paltarlarını dəyişməyə razı salır.

Qarabağ, I kitab, s.319-320

**[1544* Xəsis kürəkən].** Qardaşlar növbəylə təzə ərə verdikləri bacılarına baş çəkirlər. Kürəkən böyük qardaşları ac yola salır, kiçik qardaş isə evdəki hazır yeməkləri yeyib kürəkənin özünü ac qoyur.

Qarabağ, VIII kitab, s.162-166

**[1577 Yeddi kor].** Qəhrəman korun sırığının içinə yığdığı pulları ələ keçirmək istəyir. İçində arı olan küpü saxlamaq üçün ona verir. Kor küpü açanda arılar onun üstünə daraşır. Sırığı çıxarıb qaçdıqda qəhrəman onu ələ keçirir. Daha sonra koru təqib edir və yeddi korun yaşadığı mağaraya gəlir. Pullarını harada gizlədiklərini öyrənib onların da pulunu oğurlayır.

Qarabağ, I kitab, s.308-312

**[1618* Kim uzağa tullanar].** Ev sahibi üzlü qonaqdan xilas olmaq üçün ölçü təyin edir. Evin ortasından xətt çəkir ki, qonaq qapıya tərəf tullananda onu itələyib qapıdan çıxartsın. Qonaq əks tərəfə tullanır.

Qarabağ, I kitab, s.289-293, kont.1202

**1625* Vəzir zurna çalmağı öyrənir.** Kasıb vəziri inandırır ki, padşaha zurna çalmağı öyrədir. Vəzir də həmin sənəti öyrənmək istəyir. Padşah həqiqəti biləndən sonra vəziri saraydan qovur, onun yerinə kasıbı təyin edir.

Qarabağ, VI kitab, s.261-265

**1645B = AT 1645B* Allah, sən mənə yetir.** Qoca Şah Abbasdan dilək diləmək üçün saraya gedir. Görür ki, Şah Abbas səhər namazından sonra üzünü Allaha tutub deyir: «Ay Allah, sən mənə yetir, mən də millətimə verim». Geri qayıdıb o da Allaha yalvarır, tapdığı qızıl küpü hesabına varlanır.

Qarabağ, I kitab, s.251-252

**1651 Bahalı pişik.** Qəhrəman siçanların çox olduğu ölkədə pişiyi baha qiymətə satır.

Qarabağ, III kitab, s.276-281, kont.990

**1654 Keçəllə kosa qəbirstanlıqda.** Özlərini ölülüyə vururlar, quldurları qorxudub onların qənimətlərinə sahib olurlar.

Qarabağ, I kitab, s.303-308, kont.1920+1892+1960D; III kitab, s.314-317, kont.1920+1960D+1892

**1667* Cəsarətli bostançı.** Bostanın məhsulundan Şah Abbasa nübar aparan bostançı yolda onun özü ilə qarşılaşır, amma onu tanımır. Şah qarpızı götürməsə, eşşəyi yük qarışıq onun gözünə soxacağını deyir. Həmin sözləri şahın hüzurunda da təkrarlayır, cəsarətinə görə şah onu mükafatlandırır. (Müqayisə et: AT 1689).

Qarabağ, I kitab, s.236-242, kont.922A*; IV kitab, s.270-274, kont.922A*; VI kitab, s.249-250

**1681A Hillilim və Güllülüm.** Ər-arvad qızı evinə qonaq gedir. Qazları qaynar suda çimizdirib öldürürlər. Qızı onlara şal, yağ, ayaqqabı pay qoyub evə yola salır. Şalı üşüməsin deyə sünbüllərə bağlayırlar, qarğanın ayağı üşüməsin deyə ayaqqabını ona verirlər, yağı torpağın çatına tökürlər.

Qarabağ, V kitab, s.238-239

**1696 Döyülən axmaq.** Düzgün ifadələr işlətmir. Yasda deyir: «Biri min olsun», toyda: «ölən bu olsun» və s. Hər dəfə də onu döyürlər.

Qarabağ, I kitab, s.312-314; II kitab, s.387-389; V kitab, s.246-248, kont.1713

**1713* Az tökərsən bir ovuc, çox tökərsən iki ovuc.** Qəhrəman misgərdən təzə qazan alır. Qazana az bişirəndə bir ovuc, çox bişirəndə iki ovuc duz tökdüklərini öyrənir. Hər ikisini sınaqdan keçirir, yemək duzlu alınır.

Qarabağ, V kitab, s.246-248, kont.1713

**1716 = AT 1716* Uç qardaşın ov macərası.** Hədi-hüdü, Koroğlu və Əbülqasım zurnaçı ova çıxır. Lüləsiz tüfəylə dovşan vurmaları, ağzıyox bıçaqla onu kəsmələri kimi motivlər iştirak etmir. Altı deşik qazanda bişirirlər. Palanın içindən Quran çıxır. Oxuyurlar ki, hamısı yalandı.

Qarabağ, VI kitab, s.269

**1736A Taxtaya dönmüş xəncər.** Padşah hər gün kef məclisi düzəldən pinəçini saraya cəllad təyin edir. Pinəçi xəncərin tiyəsini satıb onun puluna kef məclisi düzəldir. Padşah ona oğrunun boynunu vurmağı tapşırdıqda öz ağlı sayəsində vəziyyətdən çıxmağı bacarır.

Qarabağ, IX kitab, s.204-212; s.212-215

**1739 Qazının uşaq doğması**. Molla yuxuda ikən arvad yeni doğulmuş uşağı onun yatağına qoyur və ərini uşaq doğduğuna inandırır. Molla biabır olacağını görüb kəndi tərk edir. Bir müddətdən sonra yenidən geri qayıtmaq istəyir, amma həmin hadisənin unudulmadığını görüb həmişəlik oranı tərk edir.

Qarabağ, V kitab, s.234-236

**1862E* Ürəyə sarınmış tük.** Loğman tükü çıxartmaq üçün xəstəyə südlü aş yedizdirir və onu şortağ ata mindirir. Xəstə yediyini sifraq edir, ürəyinə sarınmış tük çıxır.

Qarabağ, I kitab, s.268

**1862G* Yeddi il su içməmiş ilanın zəhəri, qısır buludun yağışı və beş il qısır qalmış keçinin südü.** Bu üç şey xəstəyə dərman deyilir. Xəstə təsadüfən bu şeylərin üçünü də bir arada tapır və onu içib sağalır.

Qarabağ, I kitab, s.265-266; II kitab, s.392-394; VI kitab, s.268-269

**1862*H Hər insana dərman onun qidasıdır.** Loğman nə qədər dəva-dərman edirsə, oğlunu sağalda bilmir və biabır olacağını görüb evi tərk edir. Şəyird uşağın çobandan olduğunu öyrənib onu süd-qatıqla müalicə edir.

Qarabağ, I kitab, s.266-268

**1863*A Kim daha güclü zəhər hazırlayar?** Şəyird loğmanın verdiyi zəhəri içdikdən sonra süddə çimir, zəhər ona təsir etmir. Bu dəfə şəyird zəhər hazırlayır: həvəngdəstənin içinə keçə qırığı atıb səhərə qədər döyür. Şəyirdin daha güclü zəhər hazırladığını zənn edən Loğmanın qorxudan ürəyi partlayır.

Qarabağ, I kitab, s.261-263; s.264-265, kont.1863**

**1863*D Əl aman.** Xəstə Loğmanın ağzından çıxan ilk sözə əməl edib şəfa tapır.

Qarabağ, II kitab, s.394; IX kitab, s.242-243

**1892 Xoruzun belində qoz ağacı bitir.**

Qarabağ, III kitab, s.314-317, kont.1920+1960D+1654

**1920 Yalan yarışı.** Kosa ilə keçəl şərikli kökə bişirirlər. Şərt kəsirlər ki, hərə bir yalan desin, kimin yalanı böyük olsa, kökəni o yesin. Keçəl mərci udur.

Qarabağ, I kitab, s.303-308, kont.1654+1892+1960D; III kitab, s.314-317, kont.1960D+1892+1654

**1960D Nəhəng meyvə (kələm, qarpız).** a) Kələm o qədər iri olur ki, adamlar yağışdan qorunmaq üçün onun yarpağının altında gizlənirlər; b) qarpız o qədər böyük olur ki, içində yeddi qatar dəvə itir; c) nəhəng göbələk: yağışdan qorunmaq üçün onun altına sığınırlar

Qarabağ, I kitab, s.303-308, kont.1920+1892+1654; III kitab, s.314-317, kont.1920+1892+1654

## KUMİLYATİV NAĞILLAR

**2022* Qız doğulmamış uşağının taleyi üçün ağlayır.** Guya ərə gedəcək, qızı olacaq, qızı ağacdan tut yeyəndə yıxılıb öləcək. Bacı da, ana da ona qoşulub ağlayır, ata dananı kəsib doğulmamış nəvəsi üçün ehsan verir.

Qarabağ, III kitab, s.327-328

## COĞRAFİ GÖSTƏRİCİ

**Ağcabədi:** 451B*, 460A, 460C*, 465C, 750B*, 750K*, 751, 760**, 776**A, 777**, 807*B, 821***, 845A*, 875İ*, 875*, 878*A, 881, 882, 899, 921, 934G*, 1000, 1120, 1132, 1537, 1645B, 2505*B

**Ağdam:** 38B*, 207A, 294*, 400*A, 413, 460A, 552C*, 670, 750B*, 750J*, 750**, 751, 757, 763, 771**, 776*, 798*, 798**A, 807**, 810*, 827*, 834A, 834**, 839*A, 841A*, 847*, 921F, 929*, 929***, 930, 934G***, 950, 983*, 997*, 1202, 1341A, 1441B, 1525G, 1525N, 1525S*, 1525V*, 1535*, 1542A*, 1577, 1618*, 1654, 1696, 1713, 1892, 1920, 1960D

**Ağdərə:** 910K, 926*B, 1534

**Beyləqan:** 460A, 558*, 841*, 911, 930, 956*C, 997*, 1862G*, 1863*D

**Bərdə:** 155, 161, 300, 301B, 315A, 432, 449, 460*, 514*, 558*, 559, 571, 650**, 653A, 661*, 679*, 750*, 751, 770**, 771**, 771***, 807*B, 810*, 827*, 828*, 831, 834B*, 834C**, 834*, 834**, 840*A, 840*B, 868*, 875D, 878*B, 895*, 910B, 911, 918*, 922, 922A*, 922E*, 922**, 924*, 926, 926A*, 926*A, 926*B, 930, 930L*, 938D*, 950, 976*A, 976*B, 982***, 986, 1381, 1381*, 1398*, 1406A*, 1525G, 1530, 1533, 1534, 1535*, 1540, 1541, 1696, 1736A, 1862G*, 1863*D

**Cəbrayıl:** 122A, 122J, 437, 559, 653A, 661*, 670, 671C**, 740, 750B*, 760B*, 763, 776*, 776**A, 780D*, 782**, 798*, 800*A, 806*, 807*A, 810**, 831C, 834**, 836F, 842, 847*, 875D, 888A, 910A*, 910B, 910B*, 915B*, 922A*, 922F*, 926, 930, 930A, 934A, 934E, 934G*, 934G***, 936, 938, 951A, 970, 981, 983, 986, 996*, 1625*, 1654, 1667, 1716, 1862E*, 1862*H, 1892, 1920, 1960D

**Füzuli:** 1B*, 2, 15, 38A*, 38B*, 80A, 122A, 122J, 126, 126A, 210, 214A, 400*A, 460B, 545B, 550, 557*, 558*, 590, 670****, 707A, 750B*, 750K*, 776**B, 776**C, 782, 798*, 807*A, 834C**, 846*, 868*, 878*B, 880, 888A, 895*, 895**, 910B*, 912*A, 920**,

926A*, 926B*, 927**, 930, 934H*, 938D*, 945*, 946*, 983, 983*, 997***, 1060, 1149A*

**Kəlbəcər:** 75, 123, 432, 460B , 460**, 558*, 559, 653A, 661*, 671C**,750K*, 750D, 750J*, 750K*, 751A, 753*B, 776**A, 780D*, 798*, 821**, 827*, 834B*, 841A*, 846*, 875H*, 882, 893*A, 921C**, 922**, 926C***, 930, 930K*, 934G*, 945*, 986, 991*, 1426, 1667*, 1863*A

**Qubadlı:** 285B**, 509*, 707A, 771**, 807*B, 883A*, 945*

**Laçın:** 460A, 751A, 834B*, 849*, 868*, 922F*, 922G*, 925*B, 928*, 929*, 934H*, 934G*, 951A, 995*, 996****, 1381*

**Şuşa:** 285D, 750*, 769*, 827*, 834A, 842, 996***

**Tərtər:** 408, 750D*, 750İ*, 756C, 760**A, 839*B, 929***, 934H*, 960A*, 997*, 1358B, 1736A, 1862G*

**Zəngilan:** 46*, 122A, 122G, 122J, 294*, 298, 302, 316*, 400*A, 554, 707A, 770**, 828*, 846*, 878**, 911A*, 920B***, 921, 922, 922A*, 930, 934, 934H*, 946*, 990, 995*, 1381A, 1531B, 1651, 1667*, 1681A, 1739, 2022*

## BAŞLIQLAR

### MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏLƏR, RƏVAYƏTLƏR

Qızıl öküz ... 7
Allahın ad paylaması ... 7
Quleybanı ... 8
Yer qulacı ... 9
Qaraçuxa ... 11
Cin ... 13
Hal anası ... 14
Cin dəyişəyi ... 17
Qızıl tapan ... 17
Canavarın gücü ... 18
Buynuzlu ilan ... 18
İlanın baş ağrısı ... 18
İlan balığı ... 19
Peyğəmbər və toyuq ... 19
İncil ağacı ... 19
Həzrət Əli və günü ... 20
Dovşanın yaranması ... 20
Cərciz peyğəmbər ... 21
Peyğəmbər və çoban ... 24
Peyğəmbərin yalanı ... 25
Peyğəmbərin qoyuna qarğışı ... 26
Səxavətli Hatəm ... 28
Loğman ... 30
Hacı Qaraman ... 32
Seyid İsmayıl ... 37
İsgəndərin ölümü ... 37
İsgəndər və dilənçi ... 39
Şah Abbasnan Nadir şah ... 40
Kərbəlayi Kazım ... 41
Qaçaq Məhəmməd ... 44
Qaçaq Şaxmalı ... 47
Qazanpapaq oğlu ... 47

Cəbrayıl qaçaqları........................................................... 48
Ətcə qaçaqlar.................................................................. 51
Sarı xan .......................................................................... 52
Saday bəy ....................................................................... 52
Hacı Qulu..... ................................................................... 57
Azad ağa.......................................................................... 60
Gövhər ağa ...................................................................... 61
Səfqulu ............................................................................ 61
Bic Mirzalı ...................................................................... 62
Sarı Aşıq.......................................................................... 63
Aşıq Ələsgərin ermənilərə xitabı.................................... 64
Vergili insanlar ............................................................... 65
Xan qızı arxı ................................................................... 67
Tərtər............................................................................... 67
Məmməd ölən yaylaq ..................................................... 68
Buruc kəndi... .................................................................. 69
Soltanbud təpəsi ............................................................. 69
Topatılan....... .................................................................. 70
Cəhənnəm Qaradağlısı.................................................... 70
İmişli................................................................................ 71
Kor canavarın qisməti..................................................... 71
Çobanın çomağı.............................................................. 72
Varlının oğluna vəsiyyəti................................................ 73
Kəfənsoyan...................................................................... 73
Mən sənə düyə bağışladım, bu dağları bağışlamadım ki? ..... 74
Bu xına o xınadan deyil .................................................. 74
Savab əməl ...................................................................... 75
**XATİRƏLƏR**
Eyvazalılar ...................................................................... 77
Tatalılar ........................................................................... 81
Aşıqlı............................................................................... 82
Əlnəzərli.......................................................................... 84
Sərxanlı........................................................................... 86
Əlpənahlı.......................................................................... 87
Boşçallar.......................................................................... 88

Qaralılar ........ 88
Qurbanlı bulutdusu ........ 89
Oruclu ........ 89
Axıcanlı ........ 91
İmamverdilər ........ 92
Binnətli ........ 92
Xalac ........ 93
Sirik ........ 94
Kolanı ........ 97
Qaynaq ........ 97
İsmayılbəyli ........ 98
Borsunlu ........ 100
Xələfli ........ 101
Ağac davaları ........ 102
Gülləcil adamlar ........ 104
**ETNOQRAFİK MƏTNLƏR**
Novruz adətləri ........ 107
Üzük sallama ........ 111
Padşah oyunu ........ 114
Kirvəlik haqqı ........ 119
Toy adətləri ........ 122
Dəfn adəti ........ 129
Qoyunçuluq haqqında ........ 131
Tərəkəmə ac qalar, iti ac qoymaz ........ 136
Atın yalmurazı haqqı ........ 138
Dəvə haqqında ........ 138
Sicimin hazırlanması ........ 140
Alaçığın hazırlanması ........ 140
Qonaq evi ........ 142
Çarıq ........ 142
Çatma ........ 143
**TƏRƏKƏMƏ YEMƏKLƏRİ**
Xıdır Nəbi xaşılı ........ 144
Bağır-beyin ........ 144
Köpməcə ........ 145

Əyirdək ... 145
Bişi ... 145
Sulux ... 146
Sıpa sidiyi ... 146
Motal pendir ... 147
Mayanın hazırlanması ... 148
Axtarma pendir ... 148
Eşşək pendiri ... 148
**NAĞILLAR**
İsgəndər Zülqərnə ... 149
Üç vəsiyyət ... 164
Molla və çoban ... 171
Üç məsləhət ... 174
Yetim oğlan ... 182
Üç ölüm ... 189
Qarakişinin nağılı ... 192
Qaraçuxasını axtaran çoban ... 199
Söz satan Bəhlul ... 201
Kefdən qalmaz ... 203
Əsli hu ... 214
Kasıb kişinin gəlini ... 217
Nə haqq var, nə divan ... 220
İnsan nəslinə çəkər ... 222
Sən mən dərdlisən, mən də sən dərdli ... 223
Oğru çoban ... 226
Ofsanata düşən tikə ... 228
Odunçunun nağılı ... 229
Yazıya pozu yoxdur ... 230
Çörək dostu ... 234
Əzrayılın dostluğu ... 236
Əmanətə xəyanət ... 239
Əl aman ... 241
**LƏTİFƏLƏR**
Əmmasız iş olmur ... 242
Bəhlul və bilici ... 243

Bəhlulun gülməsi ........ 245
Göydə küçük zingildəyir ........ 246
Ona qədər ya borc yiyəsi ölər, ya mən ........ 247
Abdal Qasım ........ 248
Mərdimazar ........ 249
Kim düşürdəcək? ........ 250
Top dəvəsi ........ 251
Fərasətli çoban ........ 252
Burda durandan görməmişəm ........ 253
Yeyək döyək, döyək yeyək? ........ 253
Yalan danışıramsa, tava hanı? ........ 255
Şah oğlu misgərlik öyrənir ........ 257
Dəvə ilə sərçə ........ 257
Köhnə qonağa oxşayıram? ........ 258
Ata ilə oğulun dialoqu ........ 259
Nənə ilə nəvə ........ 259
Məni qaytarın samanlığa ........ 259
Motal məni buraxmır ........ 260
Yeməyə gəlib ........ 260
Az-az toz orucu pozmaz ........ 260
Kəbirli lətifələri ........ 261
Atom ........ 262
Şığıdığın bəsdi, qanad çal ........ 263
Anamla getmirəm, dədəmlə gedirəm ........ 263
Sən mənlə yetim saxlayansan? ........ 264
Afşar şəri ........ 265
Gözdən tük qapan Şahsevənli ........ 266
Özü yuyub ........ 266
Tülkününkü Allaha qalıb ........ 267
Tərəkəmənin qalalıya cavabı ........ 268
Tərəkəmənin danışığı ........ 268
Tərəkəməynən tat ........ 268
Ucunda dana vardı ........ 269
Çuxanı çıxarmısan deyə səni tanımayacağam? ........ 269
Səni gördülər, çıx ........ 270

Kürdnən qarabağlının dostluğu ............................................... 270
Çox qohumlu bəxtəvər......................................................... 271
Bərk tutun, əlimə tüpürəcəm................................................ 271
Bağışla, elə bildim yiyəsi yoxdur......................................... 272
Kəlbəcərdən gəlib matson olmusan? ................................. 272
Adam kimi de ...................................................................... 272
Yeməyinə yeyəcəyik............................................................ 273
Qızılın qiyməti...................................................................... 273
Nikolay dövrü kimi.............................................................. 274
Şalvarmızın yamağı görükər .............................................. 274
Bığları tərpəşirdi ................................................................. 274
Evi kim yağmalayıb?........................................................... 275
Niyə qalsın narazı?.............................................................. 275
Bizdən eşşək olacaq, adam olmayacaq................................ 276
Ləzgi atasına Quran oxudur................................................. 277
Qoy desinlər Şahpələngin fermasıdır .................................. 277
Papağı yerə qoy, it sənən dəyməyəcək ................................ 278
Daşı mənə heyvan adıynan göstərib.................................... 278
Uşağı belə saxlayacaqdın?................................................... 279
Özünə çoban tap ................................................................. 280
Şahpələng – qoyunun biri bir çörək..................................... 280
Allah verdiyi canı ala bilmir, sən pulu nətər alacaqsan? ...... 280
Səni yerdən götürmüşəm ..................................................... 281
Bəlkə rayondan sönüb?........................................................ 282
Umud oldum keçiyə............................................................. 282
Müəllim Həsən, Baybay Həsən, Dümbül Həsən... ............... 283
Tülkü bəy ............................................................................ 283
Dua ...................................................................................... 284
Allahqulunun seyidliyi......................................................... 284
Qorxu .................................................................................. 285
Bel əhvalatı ......................................................................... 285
Kirvəlik ................................................................................ 286
Ərim yadıma düşüb ............................................................. 286
**İNAMLAR, TÜRKƏÇARƏLƏR............................................. 287**
**ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR ......................................... 292**

**BAYATILAR.................................................................... 300**
**OYUNLAR**
Yoldaş, səni kim apardı?.................................................. 311
Dız-dız oyunu.................................................................... 311
Nəkgələ.............................................................................. 312
Qığ-mərə............................................................................ 312
Ənzəlixan .......................................................................... 314
Südlü sülük ...................................................................... 315
Papaqaldı qaç.................................................................... 315
Xoruz baba, cüy ver .......................................................... 316
Çillər-billər oyunu ............................................................ 316
Molla, öldün ...................................................................... 317
**ŞEİR PARÇALARI.......................................................... 318**
**MƏTNLƏRİN SÖYLƏYİCİLƏRİ............................................ 329**
**SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT .......................... 341**
**KİTABA DAXIL EDİLMİŞ NAĞILLARIN SÜJET GÖSTƏRİCİSİ ................................................................ 347**
**QARABAĞ LAYİHƏSI ÇƏRÇİVƏSİNDƏ ÇAP OLUNMUŞ NAĞILLARIN SÜJET GÖSTƏRİCİSİ ............... 349**
**COĞRAFİ GÖSTƏRİCİ .......................................................... 393**

**Qarabağ: folklor da bir tarixdir IX kitab**
**(Beyləqan, İmişli, Tərtər, Bərdə və Cəbrayıl rayonlarından**
**toplanmış folklor örnəkləri)**.
Bakı, "Elm və təhsil", 2014.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**fil.ü.f.d. Qədim Qubadov**

Kompyuterdə yığan:
**Səfa Əliyeva**

Korrektor:
**Elnarə Əmirli**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Ruhəngiz Əlihüseynova**

Kağız formatı: 70/100 1/16
Mətbəə kağızı: №1
Həcmi: 34 ç/v
Tirajı: 400

Kitab AMEA Folklor İnstitutunun Redaksiya-nəşr
bölməsinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş,
«Elm və təhsil» NPM-də hazır deopozitivlərdən
ofset üsulu ilə çar olunmuşdur.